**TƏRANƏ MƏHƏMMƏDQIZI**

# GÖYÇAYIN QARABAĞ SEVDALILARI

**(Birinci və İkinci Qarabağ müharibəsinin
şəhid və qaziləri haqqında)**

**"Avropa" nəşriyyatı**

**Bakı - 2021**

Məsləhətçi: **Sabir Məhəmməd oğlu İbrahimov**

Redaktoru və
ön sözün müəllifi: **İslam Qəribli**
filologiya elmləri doktoru, professor

**Təranə Məhəmmədqızı ( Abdullayeva). Göyçayın Qarabağ sevdalıları. Bakı, "Avropa" nəşriyyatı , 2021, 420 səh.**

*Filologiya üzrə fəlsəfə döktoru, dosent, Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Qızıl qələm" və "Vətənpərvər yazar" mükafatları laureatı Təranə Məhəmmədqızının (Abdullayeva) "Göyçayın Qarabağ sevdalıları..." kitabına Birinci və İkinci Qarabağ müharibəsində qəhrəmancasına şəhid olan igidlər, bu müharibələrin iştirakçısı olmuş qazilər və 2-ci Qarabağ müharibəsi zamanı və ondan sonrakı aylarda müharibə ilə bağlı minnətsiz yardımları olan bəzi Göyçaylılar barədə qısa məlumatlar verilmişdir.*

*ISBN-978-9952-454-17-8*

**"Avropa" nəşriyyatı -2021**



**TƏRANƏ MƏHƏMMƏDQIZI**
**filologiya üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Qızıl Qələm" və "Vətənpərvər yazar" mükafatları laureatı**

Təranə Məhəmməd qızı Abdullayeva Göyçay şəhərində ziyalı ailəsində anadan olmuşdur. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsini bitirmişdir.Ədəbi yaradıcılığa orta məktəbdə oxuduğu illərdə başlamışdır. "XX əsrin əvvəllərində Azərbaycan ədəbi-bədii fikrində qərbçilik meyilləri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (2007). "Azərbaycan ədəbi fikrində Qərbçilik meyilləri –XX əsrin əvvəlləri" (2014), "Məhəmmədağa Şahtaxtlı və Şərq" (2016), "M.Ə.Rəsulzadənin bədii yaradıcılığı" (2017), "Azərbaycan yazıçıları və Şərq" (2018), "Ədəbi düşüncələr" (2021) monoqrafiyalarının, "Sənsiz səninlə" (2007), "Ləmanlı günlərim" (2010), "Baharda düşən yarpaq" (2016), "Bir cüt göyərçin" (2017), "Qırılıb tale güzgüsü.." (2021), "Göyçayın Qarabağ sevdalıları.."(2021) adlı kitabların müəllifidir. Azərbaycanda və ölkə hüdudlarından kənarda Azərbaycan, türk, rus və fars dillərində əllidən artıq elmi məqaləsi çap olunmuş, dəfələrlə Respublika və Beynəlxalq Elmi Konfranslarda məruzə ilə çıxış etmişdir. Uzun illər pedaqoji fəaliyyətlə məşğul olmuş, "Futuroloq" Fasiləsiz Təhsil Kompleksi, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Qızlar Universiteti, Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutlarında dərs demişdir. Hazırda

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Yeni dövr Azərbaycan ədəbiyytı şöbəsində aparıcı elmi işçi vəzifəsində çalışır.

## "GÖYÇAYIN QARABAĞ SEVDALILARI" KİTABINA MÜQƏDDİMƏ ƏVƏZİ BİR NEÇƏ SÖZ

Ədəbiyyatşünas və yazıçı Təranə Məhəmmədqızının (Abdullayeva) imzası Respublikanın elmi və ədəbi ictimaiyyətinə yaxşı tanışdır. Ədəbiyyat və sənət aləminə orta məktəb illərində yazdığı lirik şeirlərlə gələn Təranə xanım ali filoloji təhsil alıb uzun illər pedaqoji fəaliyyətlə məşğul olsa da, fitrətən ona verilmiş yazıçılıq və araşdırıcılıq istedadına xəyanət etməmiş, altı bədii-publisitik, beş elmi kitab çap etdirərək imzasını imzalar içində yetərincə tanıtdıra bilmişdir.

Könül, neçə vaxtdı ayrı düşmüsən,
Allah dərgahına yaxın dağlara.
Bu çəni-çisəyi gözümdən axan,
Dumanı başımdan çıxan dağlara.

Baxdıqca gözlərə gözəllik gəlir,
Ötən aya, ilə təzəlik gəlir,
Hər şeydən bir saflıq süzülüb gəlir,
Başlayır bir dəli axın dağlara.

Hanı Murov, Qoşqar, hanı Dəlidağ,
Getdi Qarabağla, getdi tale, baxt,
Ay ellər, yağıya qalan elə bax –
Sinəmin dağından baxın dağlara.

Qəlbimin atəşi, odu tükənməz,
Eşqimin qolunu yağı bükəmməz,

Sənin qəm yükünü heç kim çəkəmməz,
Vətənim, ahınla sığın dağlara! –

kimi onlarala dərinmənalı, ürəyəyatımlı, vətənpərvərlik ruhu ilə süslənmiş şeirilərin müəllifi olan T.Məhəmmədqızının Göyçay rayonunun Birinci və İkinci Qarabağ müharibələrində qəhrəmanlıq nümunəsi göstərərək şəhid olmuş igid öğulları, qaziləri və Azərbaycan Silahlı Qüvvələrinə yardımını əsirgəməyən bir qrup vətənpərvər, millətsevər insanları haqqında yazdığı kitabı ziyalı bir xanımın Vətən və millət qarşısında minnətsiz xidməti, qəhrəmanlar diyarı olan Göyçayın kiçik ensiklopediyası da adlandırmaq olar.

Kitabına "Göyçayın Qarabağ sevdalıları" adını seçən Təranə xanım, əslində özü də Qarabağ sevdalısı olan şair, publisistdir və Qarabağ mövzusu onun yaradıcılığnda xüsusi bir çəkiyə malikdir. Nümunə üçün onun gözəl Qarabağımızın və Şuşamızın işğal altında olduğu illərdə yazdığı "Şuşam" və "Mənim dərdim Qarabağdı.." şeirlərini verməklə kifayətlənirik:

## Şuşam

Bu acı həsrətə necə dözürsən,
Ay qəlbi yaralı, ay əsir Şuşam!
Nədən müşkülünə çarə tapılmır,
Nədən dərdin-sərin əksilmir, Şuşam?!

Nədən dan yerindən şəfəq sökülmür,
Yaran çox, yarana dərman səpilmir,
Nədən başın üstən duman çəkilmir,
Bu nə dərd, nə ələm, bu nə sirr, Şuşam?!

Sənsiz sinəm dağlı, bağlanıb yolum,
Şuşa deyə-deyə alışır dilim,
Bu nalan, bu kövrək natəvan könlüm,

Səni  görmək üçün tələsir, Şuşam!

***

# Mənim dərdim Qarabağdı, Qarabağ

## MƏNİM DƏRDİM QARABAĞDIR...

Qadir Allah bizi çəkib sınağa,

Qadir Allah bizi çəkib sınağa,
Gözümüzü həsrət qoyub çırağa,
Anam, bacım, qalxmayaqmı ayağa?
Sinəmizdə qövr eləyən yara, bax,
Mənim dərdim Qarabağdı, Qarabağ!

Taladılar torpağımı, daşımı,
Yandırdılar quru üstə yaşımı,
Qanatdılar ürəyimin başını,
Cıdır düzü... Gül üstündə xara bax,
Mənim dərdim Qarabağdı, Qarabağ!

Qarşıdakı şeytandımı, haydımı?
Bir əsilsiz, bir nəsilsiz soydumu?
Savaşdımı, vaya dönən toydumu?
Qolubağlı əsir gedən yara bax...
Mənim dərdim Qarabağdı, Qarabağ!

Biz bilirik başımızı qatan kim,
Bu ocağı altdan-altdan çatan kim...
Bu bazarda alan kimidi, satan kim?
Qan üstündə dövlətə bax, vara bax,
Mənim dərdim Qarabağdı, Qarabağ!

Tale bizdən, biz taledən küsmüşük,
Ermənininin hiyləsinə düşmüşük,
Bir gör kimin tələsinə düşmüşük?
Açara bax, kilidə bax, tora bax,
Mənim dərdim Qarabağdı, Qarabağ!

Bir də deyim, talan oldu ellərim,
Kimə qaldı gen düzlərim, çöllərim,
Soldu getdi, həşəm oldu güllərim,
Bağ-bağçadan tərlan uçub, sara bax,
Mənim dərdim Qarabağdı, Qarabağ!

T.Məhəmmədqızının ürək yanğısı və vətənpərvər ziyalı qeyrəti ilə yazdığı, gərgin və ağır zəhmət sayəsində ərsəyə gətirdiyi üç hissəlik kitab maraqlı və orijinal bir quruluşa malikdir. Kitabın ilk bölməsində Şirvan bölgəsinin qədim tarixə, zəngin maddi və mənəvi mədəniyyətə malik olan Göyçay rayonu, onun tarixi, etnoqrafiyası, coğrafiyası, flora və faunası, təsərrüfat həyatı və iqtisadiyyatı, bu torpaqda yetişən görkəmli elm, sənət və dövlət adamları haqqında qısa məlumat verən müəllif Qarabağ məsələsi, Birinci Qarabağ müharibəsinin törənmə səbəbləri və nəticələri barədə də müfəssəl bilgilər verir, Göyçayın Birinci Qarabağ savaşındakı yerini göstərmək üçün haqlı olaraq 1-ci Qarabağ savaşında şəhid olmuş göyçaylıların siyahısını təqdim edir. Siyahıdan bəlli olur ki, Birinci Qarabağ müharibəsi zamanı və atəşkəs dövründə Göyçayın hərbi vəzifəsini yerinə yetirən 191 igidi şəhid olmuş, 6 nəfəri əsir düşmüşdür ki, bunların böyük əksəriyyətinin yaşı 19-21 arasındadır. Bunlardan əlavə, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən Birinci Qarabağ müharibəsindəki döyüşlərində göyçaylılardan 44 nəfər itkin düşmüş, 106 nəfər isə əlil olmuşdur.

Kitabın bu bölməsində Birinci Qarabağ müharibəsinin bütün şəhid və qaziləri haqqında məlumat vermək, onların hər biri haqqında ayrıca oçerklər yazmaq, müəllifin özünün etirafına görə, imkanları xaricində olduğundan, o, haqqında məlumat əldə edə bildiyi 8 şəhid, 32 qazi haqqında müfəssəl məlumat verməklə kifayətlənməli olmuşdur.

Kitabın ikinci bölməsi İkinci Qarabağ müharibəsi və göyçaylıların 44 günlük Zəfər savaşındakı iştirakı məsələlərinə həsr olunmuşdur.

Verilən məlumatlardan aydın olur ki, İkinci Qarabağ müharibəsində 1500-dən artıq göyçaylı iştirak etmiş, onlardan 46 nəfər şəhidlik zirvəsinə ucalmışdır.

İkinci Qarabağ müharibəsi zamanı şəhid olmuş 46 igidin ümumi siyahısını əlifba sırası ilə verən müəllif, onların hər biri haqqında toplaya bildiyi məlumatlara əsasən oçerklər yazmış, həmin oçerkləri təvəllüd tarixlərinə görə xronoloji ardıcıllıqla kitaba daxil etmişdir. Bu oçerklərin heç birini həyəcansız oxumaq mümkün deyil. Hər birindən insan taleləri boylanan bu oçerklərin qəhrəmanlarının ən yaşlısı 46, ən cavanı isə cəmi-cümlətanı 18 yaşındadır. Müəllifin bu yazılarının əksəriyyətini sənədli hekayə, bədii-fəlsəfi esse də adlandırmaq olar. Vətən, yurd, millət sevgisi və yanğısı, müharibələrə nifrət duyğusu ilə qələmə alınmış bu hekayə-esselərin yazılması müəllifə nəyin hesabına başa gəlib, bunları sözlə ifadə etmək çox çətindir. İş yerimiz və oturduğumuz otaq eyni olduğundan əksəriyyəti səs yazısı ilə Təranə xanıma göndərilən bu mətnlərin onun yazıya köçürüb kompyuterçi qıza diqtə edən zaman nələr çəkdiyini hiss etmiş, bəzən özünü saxlaya bilməyib hönkür-hönkür ağladığının şahidi olmuşam.

Bu yazıların bir çoxunu qeydsiz-şərtsiz olaraq Təranə xanımın insan və zaman haqqında düşüncələri də adlandırmaq mümkündür. Düzdür, bu yazıların hər biri konkret fakta əsaslanır və janrın tələbi yazıçının təxəyyülə əsaslanmasına imkan vermir. Lakin müəllif bir çox hallarda mövzudan kənara çıxmadan çox təmkin və

ustaqlıqla duyğularını bədii üslubda, poetik şəkildə elə təqdim edir ki, bunlar həm obrazların portretinin tamamlanmasına, həm də müəllifin məslək və dünyaya baxışının aşkarlanmasına xidmət edir və oxucuda qubtə hissi oyadır.

Kitabın bu bölməsində müəllif 46 şəhidlə yanaşı, 44 günlük Vətən müharibəsində can qoymuş, odun-alovun içərisindən keçərək vətəndaşlıq və oğulluq borcunu şərəf və ləyaqətlə yerinə yetirən qazi-döyüşçülərdən 24-ü barədə də məlumat vermiş, onların hər birinə ayrıca yazılar həsr etməklə qazilərimizə hörmət və məhəbbətini ifadə etmişdir.

T.Məhəmmədqızı kitabının üçüncü bölməsini "Xalqla ordunun vəhdəti: Xeyriyyəçilər" adlandırmışdır. Burada söhbət xeyriyyəçi və xeyriyyəçilikdən yox, 2-ci Qarabağ müharibəsi zamanı malı və canı ilə Azərbaycan əsgərinin yanında olan bir qrup göyçaylıdan gedir. Müəllifin "Xeyriyyəçilər" kimi təqdim etdiyi və haqqında müfəssəl məlumat verdiyi 34 göyçaylının hər biri imkanları müqabilində ümümxalq işinə yardım etmiş, əməlləri ilə Vətənin dar günündə onunla bir yerdə olduğunu nümayiş etdirmişlər.

Düşünürük ki, kitabda verilmiş oçerklərin həcmi barədə bir readktor kimi bir neçə söz söyləməyim xeyirsiz olmaz. Kitabın yazılması prosesi ilə yaxından tanış olduğumdan, bir yazını bəzən bir neçə əlavə və düzəlişlərlə oxuyub redaktə etdiyimdən yazıların həcminin nədən bu şəklidə olması mənə çox yaxşı məlumdur. Bəzən kiçik bir informasiyanı almaq və ya dəqiqləşdirmək üçün Təranə xanımın hansı əziyyətlərlə qarşılaşdığını, verilən məlumatların əksəriyyətinin səs yazısı olduğunu, bəzi şəhid ailələri, qazi və xeyriyyəçilərlə heç cür əlaqə yaratmaq mümkün olmadıqda internet resurslarından istifadə etməsini, hesab edirəm ki, oxucuda oçerklərin həcmi barədə fikir formalaşdıracaqdır.

Bu böyük həcmli (kitaba 3 icmal və 145 oçerk daxil edilmişdir) kitab, heç şübhəsiz ki, Azərbaycan Yazıçılar Birliyinin üzvü, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsinin aparıcı elmi işçisi, dosent,

filoligiya üzrə fəlsəfə doktoru Təranə Abdullayevanın (Məhəmməd-qızı) yaradıcılıq uğuru, doğulduğu Göyçay rayonu, rayonun 1-ci və 2-ci Qarabağ müharibəsi şəhidləri, iştirakçıları, 44 günlük Vətən müharibəsi günlərində və sonrakı aylarda Azərbaycan ordusunun, əsgərinin yanında olan göyçaylı ziyalı-xeyriyyəçilər qarşısında yazıçı-alim hesabatıdir. Düşünürük ki, bu ensiklopedik təmayüllü kitabı ilə Təranə xanım yeni bir yaradıcılıq uğuruna imza atmış, Azərbaycan əsgərinə layiq bir kitabla təkcə həmyerlilərinə deyil, həm də Azərbaycan xalıqına mənəvi borcunu ödəyə bilmişdir.

**İslam Qəribli**
*filologiya elmləri döktoru, professor, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Yeni dövr Azərbaycan ədəbiyyat şöbəsinin müdiri*

# MÜƏLLİFDƏN

Əziz oxucular, övlad acısı görən, odsuz-ocaqsız yanan şəhid valideynləri! Qiyamət gününə kimi diri qalıb Vətən göylərində dolaşacaq Şəhid ruhları, odun- alovun içərisindən çıxan Qarabağ sevdalı qazilər, igidlər, ərənlər! Birinci və İkinci Qarabağ savaşında, xüsusilə 44 günlük Zəfər müharibəsində ürəyi ordusu, əsəgəri ilə birgə çırpınan Azərbaycanın qeyrətli oğulları, arxa cəbhənin qəhrəmanları, maddi və mənəvi yardımını millətindən əsirgəməyən xeyirxah əməl sahibi olan qardaşlarım!

Ruhunuza təsəlli vermək, qəm dustağı olan yaralı, təşnə ürəyinizə azacıq da olsa sərin su çiləmək, kədərinizə şərik olmaq, sizin və qürur yerimiz olan Şəhidlərimizin ruhu qarşısında baş əymək üçün görüşünüzə gəlmişəm. Aylardır ki, şəhid balalarımızın ruhları ilə üzbəsurət oturaraq, onların valideynləri və əzizləri ilə dərdləşib fikirlərimizi bölüşərək, qazilərimiz, igid döyüşçülərimizin bir neçəsi ilə görüşüb yazışaraq, xalqına, millətinə, dövlətinə minnətsiz xidmət etməyi amalına çevirən qeyrətli vətəndaşlarımızın bəzisi haqqında məlumatlar toplayaraq Sizə təqdim olunan bu kitabı ərsəyə gətirə bildim.

Meydana gələn bu kitabı "ürəyimin qanı ilə yazdım" desəm, qətiyyən şübhəniz olmasın. Bu aylar, həftələr içərisində nələr yaşadığımı bir Allah bilir.

Bala dərdi, övlad itkisi ağır dərd, dözülməz və məşəqqətli müsibətdir. Amma hər birimizin bir təsəllimiz var: "Övladlarımız Vətən uğrunda canlarından keçərək dövlətimizin müstəqilliyini qorudu, otuz ilə yaxın düşmən tapdağı olan əzəli, əbədi yurdumuzu – Qarabağımızı və itirilmiş digər toppaqlarımızı yağılardan təmizlədi, həm Azərbaycan məmləkətinə, həm də Azərbaycan xalqına yeni nəfəs verdi".

Necə də gözəl deyilib: "Şəhidlər ölməz, Vətən bölünməz".

Məşhur bir deyim var: "Torpaq üstündə ölən varsa Vətəndir". Torpaqlarımız şəhidlərimizin qanı ilə suvarıldı ki, bu torpağın hər qarışında yeni-yeni qəhrəmanlar cücərsin, boy atıb böyüsün və murdar düşmənin xəyalından belə bir daha Azərbaycana təcavüz hissi keşməsin.

Böyük millət fədaisi, "Ən yaxşı birlik milli dirilikdir"- fikrini həyatının amalına çevrmiş M.Ə.Rəsulzadənin əqidəsinə görə, sosial mövqeyindən asılı olmayaraq özünü vətəninin, millətinin övladı bilən hər bir şüurlu insan onun yolunda qurban getməyi də özünə şərəf bilməlidir.

Bu mənada Azərbaycan əsgəri də, onu boya-başa çatdıran valideynləri də böyük şərəf sahibi və hər cürə alqışa layiqdirlər.

***

Əziz valideynlər, dəyərli həmvətənlər! Bu kitabı yazmağa başlayarkən əlimdə olan şəhid valideynlərinin telefonlarına dəfələrlə zəng etdim, bəziləri ilə görüşdüm və əldə edə bildiyim materialları sistemləşdirərək, dəqiqləşdirmələr apararaq, nəhayət ki, kitabı tamamlaya bildim. Təbii ki, xeyli çətinliklərə üzləşdim, bəzən bir faktın, materialın döğruluğunu dəqiqləşdirmək, şəkillərin kimliyini müəyyənləşdirmək üçün günlərlə, aylarla vaxt sərf etməli oldum. Göndərilən məlumatların əksəriyyəti əlyazma halında yox, sistemsiz səs yazısı şəklində gəldiyindın onların üzərində təkrar-təkrar işləməli oldum.

Etiraf edim ki, bir çox ailələrlə əlaqə qurmaq mümkün olmadıqda məlumatları həmin ailələri tanıyan şəxslərdən almağa məcbur oldum. Üç ay bundan əvvəl hazırlayıb çapa təqdim etdiyim və çap prosesində olan kitabı yeni gələn məlumatlara görə mətbədən götürüb yenidən işləmək və strukturunda dəyişiklik etmək məcburiyyətində qaldım.

İstədim ki, mənə göndərilən heç bir material unudulmasın, kənarda qalmasın. Göndərilən məlumatlar içərisində bəzən mövzu

ilə əlaqəsi olmayan materialların olması işimizi çətinləşdirsə də, onları da kənara atmağa əlimiz gəlmədi, onları da mövzuya uyğunlaşdırıb mətnlərə əlavə etdik.

Təbii ki, məlumatların pərakəndəliyi mətnlərin ölçüsünə, məzmun və mahiyyətinə təsirsiz olmadı. Amma tam səmimiyyətlə deyirəm ki, qətiyyən ögey-doğmalıq etmədim, əlimdən gələni etdim ki, şəhidlərimizin ruhu və qazilərimiz qarşısında mənəvi borcumu verə bilim.

Məqsədimizə çatdıqmı, çatmadıqmı onu, möhtərəm oxucular, sizlər deyə bilərsiniz. Qüsurlarımız oldusa, bəri başdan Sizdən üzr istəyir, bağışlanmağımızı rica edirik.

***

Əldə edə bildiyimiz faktik materiallar, internet resursları və bizə göndərilən məlumatlar əsasında yazdığımız oçerkləri xronoloji ardıcıllıqla verməyi münasib hesab etdik.

**Qeyd:** Kitabın radaktoru, professor İslam Qəribliyə, mənəvi və maddi dəstəyinə görə həyat yoldaşım Şirzad Abdullayevə, məlumatların bizə çatdırılmasında və dədiqləşdirilməsində xüsusi əməyi olan Göyçay Rayon Hərbi Komissarlığının əməkdaşı Arzu xanım Məmmədovaya, Qaraxıdır kəndinin sakinləri Şahin Yaqubova, Sədiyar Abdullayevə, Seyran Beydullayevə, Ləkçıplaq kəndinin sakinləri Süleyman Əhmədova, Azər Abdullayevə, ilk şəhidlərimizdən olan Zamiq Çingiz oğlu Əhmədovun həyat yoldaşı Çinarə xanıma, yazıları kompyuterdə yazan Ayşən Vaqif qızı Rəşidovaya dərin təşəkkürümü bildirirəm. Allah hər birinizdən razı olsun!




## GÖYÇAY RAYONU
## (qısa məlumat)

Azərbaycan Respublikasının Aran iqtisadi rayonunda yerləşən Göyçay Şirvan bölgəsinin ən iri rayonlarından biridir. Sahəsi 739 kv/km, əhalisi 120600 nəfər olan rayon 1930-cu ildə yaradılmış, inzibati mərkəzi Göyçay şəhəridir.

Göyçay coğrafi ad kimi sahilində yerləşdiyi Göyçay çayının adından götürülmüşdür. Çayın suyu həddindən artıq şəffaf olduğuna və göy (mavi) rənginə çaldığından ərazi belə adlandırılmışdır. Antik dövr müəllifləri Strabon, Ptolomey, Plini və başqaları bu bölgənin təsərrüfat həyatından bəhs edərkən torpaqlarının məhsuldarlığı ilə bərabər burada yaşayan əhalinin taxıl yetişdirdiyini, üzümçülüklə məşğul olduğunu, İberiya ilə Xəzər sahilini birləşdirən Transqafqaz ticarət yolunun bu bölgədən keçdiyini qeyd etmişlər.

Hazırkı Göyçay rayonuna məxsus kəndlər qədim və orta əsrlərdən başlayaraq müxtəlif yerli feodal dövlətlərinin tərkib hissəsi olmuşdur. Mənbələrdən belə məlum olur ki, Göyçay çayının sağ və sol sahilləri 1025-ci ildən XIV əsrədək Qəbələ mahalına tabe olmuş, sonrakı əsrlərdə Göyçay Şirvanşahların inzibati ərazisinə çevrilmiş-

dir. Bəzi tarixi mənbələrə görə, Göyçay əhalisi, əsasən, XV əsrdə Türkiyədən, Qaraman bəylərbəyliyindən bu yerlərə köçmüş ailələrin hesabına formalaşmışdır.

Xanlıqlar dövründə (XVIII əsrin ortalarınadan XIX əsrin ilk onilliklərinə qədər) Şirvan xanlığına daxil olan Göyçay inzibati ərazi vahidi olaraq Şimali Azərbaycanın "Gülüstan" müqaviləsi ilə (1813) Rusiya ilhaq edilməsindən sonra Bakı quberniyasının qərbində yerləşən qəzaya çevrildi. Qəzaya iki məntəqə, 62 kənd icması daxil idi.

1858-ci ildə Şamaxıda baş verən zəlzələdən zərər çəkən əhalinin bir hissəsi Göyçayın ərazisinə köçmüş və bununla da yaşayış məntəqəsi genişlənməyə başlanmışdır.

Çar hökumətinin Qafqazda apardığı inzibati islahatlar çərçivəsində 1867-ci ilin dekabr ayında Bakı quberniyasının tərkibində müstəqil Göyçay qəzası yaradıldı. Qəza mərkəzi olan Göyçay yaşayış məntəqəsi isə 1916-cı ildən şəhər statusu aldı.

1918-ci ildə burada türk və erməni qoşunları arasında Göyçay döyüşü baş vermişdir.

Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından 9 il sonra, yəni 1929-cu ildə Göyçay qəzası ləğv edilmiş, Azərbaycanın rayonlaşdırılması ilə əlaqədar olaraq 1930-cu il 8 avqustda Göyçay inzibati rayonu yaradılmışdır. Göyçay şəhərinin inkişafı da təxminən XX əsrin 30-cu illərindən başlamışdır.

Baxdıqca gözlərim güc alır səndən,
Könül ilham alır, ucalır Göyçay.
Qoşa dağlar kimi verib baş-başa,
Ömr edir cavanlı, qocalı Göyçay.

Burada igidlər laçın xəyallı,
Nənələr, babalar loğman xəyallı,
Hər qızı, gəlini min bir amallı,
Ay kimi gözəlli, göyçəkli Göyçay.

Həmişə, hər zaman bildim yerini,
Duydum həsrətini, çəkdim qəhrini,
Tanıtdın dünyada Şirvan elini,
Alim, üləmalı, xocalı Göyçay.

Otun, gül-çiçəyin şəfa verimli,
Şeirin, muğamatın dərdi-sərimli,
Nigarlı, Rəsullu, Əli Kərimli,
Anarlı, İbrahim Göyçaylı Göyçay.

Ürəyim boylanıb gül yarpağından,
Sözlərim su içmiş gur bulağından,
Gözlərim nur almış od-ocağından,
Könlümdə minbərtək ucalı Göyçay!

Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə göyçaylılar yaxından iştirak etmişlər. Birinci Qarabağ müharibəsindəki döyüşlərdə göyçaylılar 191 şəhid vermiş, 44 nəfər itkin düşmüş, 106 nəfər əlil olmuşdur.

İkinci Qarabağ müharibəsində 1500-dən artıq göyçaylı iştirak etmiş, onlardan 46 nəfər şəhidlik zirvəsinə ucalmışdır.

Göyçay rayonu Azərbaycan Respublikasının mərkəzində, Şirvan düzünün şimal hissəsində, Böyük Qafqaz dağlarının cənub ətəklərində, 40°20' ilə 40°50' şimal enlikəri və 47°40' ilə 48°10' şərq uzunluqları arasında yerləşir.

Göyçay rayonunun inzibati mərkəzi Göycay şəhəridir (əhalisi təxminən 40 min nəfər). Göycay şəhəri Bakı-Qazax magistral yolunun 215 kilometirliyində, Ucar dəmir yol stansiyasının 17,5 km məsafəsindədir. Əhalisinin 32% şəhərdə, 68% isə kəndlərdə yaşayır. Rayon ərazisi şimaldan cənuba təxminən 25 km, şərqdən qərbə isə 42 km məsafədə uzanır.

Göyçay rayonu Kür — Araz ovalığında, Aran iqtisadi rayonu tərkibində olmaqla, şimal-qərbdən İsmayıllı, cənub-şərqdən Kürdəmir, cənubdan Ucar və qərbdən Ağdaş inzibati rayonları ilə həmsərhəddir. Rayonda 1 şəhər, 25 kənd ərazi dairəsi, 55 kənd yaşayış məntəqələri vardır. Əhalinin orta sıxlığı hər $km^2$-ə 157 nəfərdir. Rayonun ən iri yaşayış məntəqələri Göycay şəhəri, Bığır, Ləkçılpaq, Qaraməryəm, Çərəkə, Çaxırlı, İncə və Qarabaqqal kəndləridir.

Rayon iki geoloji rayona — dağlıq və düzənliyə ayrılır. Dağlıq zonaya Bozdağ Qaraməryəm tirəsi, düzənliklərə isə rayonun qalan ərazisi aiddir. Dağlıq ərazi geoloji quruluşuna görə Kaynazoy erasının üçüncü dövrünə, düzənlik sahəsi isə həmin eranın IV dövrünə aiddir. Ərazisinin bəzi sahələri isə müasir çöküntülərlə örtülmüşdür. Ümumiyyətlə, rayon ərazisinin bütün səthini gil, gilliçəli torpaqlar, bəzən qum kimi çöküntülər 10–15 santimetr qalınlığında qat kimi örtür.

Rayon ərazisindən Göyçay çayı və Yuxarı Şirvan kanalı keçir. Rayonun ərazisi tikinti sənayesində istifadə olunan təbii ehtiyatlarla zəngindir. Göyçay çayı dərəsinin və Cəyirli kəndinin yaxınlığında çay daşı, çınqıl, qum çıxarılır. Rayonun Qarabaqqal kəndinin ərazisində zəngin gil yataqları vardır ki, bundan da yüksək keyfiyyətli kərpic istehsal olunur.

Göyçay rayonunun səthi əsasən düzənlikdir və Şirvan düzünün şimal kənarındadır. Şimal sahələr alçaq dağlıq relyefə malikdir. Acınohur alçaq dağlığına aid Xocaşen silsiləsinin cənub kənarı və Qaraməryəm tirəsi (Qaraquş d.,437m) Göyçayın şimalını tutur. Neogen və əsasən Antropogen yaşlı çöküntülər yayılmışdır.

Göyçay rayonunun iqlimi yayı quru keçən mülayim-isti yarımsəhra və quru subtropik iqlim tipinə aiddir. Bu iqlim tipi zəif nəmliyi, mülayim qışı və isti-quru yayı ilə səciyyələnir. Rayon ərazisində illik yağıntının miqdarı 400–600 mm-dir.

Yayı quraq keçən yarımsəhra və quru çöl iqlimi hakimdir, qışı mülayim keçir. Yanvarın orta temperaturu 1,9 °C, iyul 26,4 °C-

dir. Yağıntılar, əsasən, yazda və payızda düşür. Belə iqlimə quru subtropik iqlim də deyilir.

Yarımsəhra və quru çöl iqlimi şəraitində boz-çəmən, dağ boz-qəhvəyi, şabalıdı, açıq-şabalıdı v s. torpaqlar yayılmışdır. Bitki örtüyü, əsasən, efemerli-yovşanlı və yovşan-şoranotlu yarımsəhra, dağlıq-kserofit bitki qruplarından ibarətdir. Seyrək saqqızağac, ardıc meşələri, arid kolluqlar: nar, qaratikan, murdarça, yulğun vardır. Dağlıq və dağ ətəyi ərazilərdə təbii yolla bitən yemişan, əzgil, sumaq, cır nar, zoğal, kəklikotu üstündür. Rayonda vaxtilə təbii meşələr olmuşdur. Hazırda xeyli azalıb.

Göyçayda bir çox subtropik və texniki bitkilər əkilir. Rayonun cənubunda pambıq, çəltik, üzüm bağları üstünlük təşkil edir, yeni meyvə bağları salınır. Göyçay rayonu özünün narı, heyvası, xurması, alçası, gilası, innabı ilə fərqlənir. Göyçayı təbii gözəlliyi ilə tanıdan onun xan çinarlarıdır.

Heyvanlar aləmi bir o qədər də zəngin deyildir. Dağətəyi sahələrdə meşə dələsi, qaban, yenot, çaqqal, qırqovul, canavar, tülkü, dovşan, sərçə, qarğa, sağsağan, dağ göyərçini yayılmışdır. Dağ ətəyi yarımsəhralarda və düzənliklərdə qumsiçanı, kaftar, kəklik, bəzgəq, qaz, qamış pişiyi, qırqovul, turac, dovdağ, ördək, leylək, vağ, gürzə, koramal, suilanı, kərtənkələ və tısbağa yaşayır. Türyançay qoruğunun bir hissəsi Göyçay rayonunun ərazisində yerləşir.

Rayonun əsas çayı Göyçaydır (Kürün sol qolu). Qəbələ, İsmayıllı, Göyçay və Ucar rayonları ərazisindən axır. Uzunluğu 113 km, hövzəsinin sahəsi 1770 $km^2$-dir. Başlanğıcını Böyük Qafqazın cənub yamacından (2980 m) alaraq Kürə tökülür. Axımı qar (12%), yağış (28%) və yeraltı (60%) sulardan əmələ gəlir. Çayın su sərfi 12,0 $m^3$/san-dir. Çay Şirvan düzünə çıxdıqdan sonra bir sıra qollara ayrılır, gətirmə konusu yaradır və suvarma işlərinə sərf olunur. Göyçay şəhəri çayın suyu ilə təchiz olunur. Şilyan çayı rayondan keçərək Ucar rayonuna daxil olur. Arvan çayı yazda tez-tez daşqınlar yaradır. Çöyçay çayına bir sıra çaylar tökülür —

Buqur, Keyniyaçay, Peşnaçay, Zaratçay, Qalacıqçay, Əyriçay, Vəndamçay, Qaraçay, Buynuzçay və s.

Göyçay rayonunun ərazisində xalqımızın tarixi keçmişini əks etdirən bir sıra abidələr vardır. Rayonun Ərəbcəbirli kəndi ərazisində XII–XIV əsrdə inşa edilmiş və Ərəb xilafəti dövrünə aid Surxay qalası, İnçə və Ərəbcəbirli kəndləri ərazisində tapılmış və bizim eradan əvvəl II əsrə aid küp qəbirlərinin qalıqları bu ərazidə qədim dövrlərdə insan məskənlərinin mövcud olduğunu sübut edir. XIX əsrin axırlarında inşa edilmiş yel hamamı və 4 məscid də rayonun tarixi abidələri sırasına daxildir.



***Göyçay şəhərində Əbülfəzl Abbas məscidi. 1903-cü ildə tikilmişdir.***

***

Göyçay torpağı Azərbaycan tarixinə, mədəniyyətinə, elminə və hərb sənətinə xeyli sayda görkəmli şəxsiyyətlər bəxş etmişdir ki, bunlardan bəzisinin adını burada qeyd edirik.

Rəsul Rza (1910–1981) - Azərbaycanın xalq şairi; Ənvər Məmmədxanlı (1913–1991) - Azərbaycanın xalq yazıçısı; Anar (1938)- Azərbaycanın xalq yazıçısı, Azərbaycan Yazıçılar Birliyinin sədri; İsmayıl Əfəndiyev (1910–1967) - görkəmli Azərbaycan kino-aktyoru, Əməkdar incəsənət xadimi; Məmməd Quliyev (1936–2001) - görkəmli bəstəkar, Azərbaycan Respublikasının xalq artisti, əməkdar incəsənət xadimi; Ağaqurban Əliyev (1911-1997) - görkəmli neftçi-geoloq, Respublikanın Əməkdar mühəndisi, SSRİ-nin Fəxri neftçisi, geologiya-mineralogiya elmləri doktoru, professor; Şövqi Göyçaylı- Əməkdar elm xadimi və əməkdar müəllim, Beynəlxalq Elmi inkişaf və Beynəlxalq Ekologiya Akademiyalarının üzvü, ABŞ Elm və texnika assosiasiyasının üzvü, coğrafiya elmləri doktoru, professor; Rauf Hüseynov (1940–2019) - Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor; İnqilab Kərimov (1931–2011) - AMEA-nın müxbir üzvü, sənətşünaslıq doktoru, professor; Oqtay Əfəndiyev (1926–2011) - tarix elmləri doktoru, professor; Arif Məmmədov (1927–1985) - filologiya elmləri doktoru, professor; Əbdürrəhman Cavadov (1927–1997) - filologiya elmləri doktoru, professor; Nadir Abdullayev- filologiya elmləri doktoru, professor; Zemfira Şahbazova - filologiya elmləri doktoru, professor; Məmməd Sadıq bəy Ağabəyzadə (1865–1944) - Azərbaycan Demokratik Cümhuriyyəti Daxili işlər nazirinin müavini, general-mayor, görkəmli şərqşünas alim; Əjdər Xaspoladov (1901–1986) - SSRİ-nin ilk ədliyyə generallarından biri; Seyfulla Əkbərov (? - 1995) - Azərbaycan SSRİ-nin sabiq Baş prokuroru, II dərəcəli dövlət ədliyyə müşaviri; Şahin Sultanov- Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələrinin sabiq baş komandanı, vitse-admiral; Oqtay Maqsudov (1937–2018) - ədliyyə general-mayoru; Əlisahib Orucov - Azərbaycan Respublikasının sabiq Ədliyyə naziri, baş ədliyyə müşaviri; Fərhad Əhmədov - Rusiyanın Federasiya Şurasının sabiq üzvü, Dünya Azərbaycanlıları Konqressinin vitse-prezidenti, Avropa İqtisadi Ticarət, Kommersiya və Sənaye Palatasının sabiq

senatoru, RF Federasiya Şurasının hüquq və məhkəmə işləri üzrə Komitəsinin və AŞPA-dakı nümayəndə heyətinin üzvü, tanınmış iş adamı, xeyriyyəçi; Əli Səmədli (1930–2006) - görkəmli şair-dramaturq; Əli Kərim (1931–1969) - şair; Paşa Əli oğlu Kərimov (1959) – filologiya elmləri doktoru, professor; Azər Əli oğlu Kərimov (1961) – fizika-riyaziyyat elmləri doktoru, professor; İsgəndər Coşqun (1931–1996) - əməkdar incəsənət xadimi, şair-dramaturq; İbrahim Göyçaylı (1936–2007)- SSRİ Jurnalistlər İttifaqının və Azərbaycan Yazıçılar Birliyinin üzvü, əməkdar incəsənət xadimi, şair; Yuri Kovalyov (1965–1991) - Azərbaycanın Milli Qəhrəmanı və s.

Dahilər yetirən ulu torpağım,
Fəxr edir səninlə hər bir övladın.
Böyük Həbibinin qəzəlindəsən,
Rəsulun, Nigarın nəğməsindəsən.
İsti qucağında yatırlar qoşa,
İsgəndər Cöşqunum, Əli Kərimim.
Adından güc alıb yazıb, yaradan,
Axı Göyçaylıtək oğlun var sənin.
Qəhrəman oğullar yetirdin, Vətən,
20 Yanvarda canından keçən
Torpağı qoruyub qanını tökən,
İlqarın, Mehmanın, Şahsuvarın var.
Düşmənin üstünə getdi Zülfüqar,
Öyünüb, başını uca tut, Vətən.
Dünyanın ən gözəl güşəsisən sən.

***

## BIRINCI QARABAĞ MÜHARİBƏSİ
(20 fevral 1988-ci il – 12 may 1994-cü il)

**Birinci Qarabağ müharibəsi** — 1980-ci illərin sonlarından 1994-cü ilin mayına kimi cənub-qərbi Azərbaycanda yerləşən Qarabağ bölgəsində Ermənistan Respublikası tərəfindən dəstəklənən Qarabağın etnik ermənilərinin əksəriyyəti ilə Azərbaycan Respublikası arasında baş vermiş etnik və ərazi münaqişəsidir.

Müharibə əslində Ermənistanla birləşmək istəyən separatçı hərəkatın tələbi ilə 1988-ci ildə yenidən, amma nisbətən dinc şəkildə başlasa da, növbəti aylarda SSRİ dövlətinin dağılmasının yaxınlaşması səbəbindən, fikir ayrılığı etnik azərbaycanlılar ilə ermənilər arasında getdikcə böyüyən şiddətli münaqişəyə çevrilmiş və nəticədə tərəflərin etnik təmizləmə iddialarına səbəb olmuşdur.

Tərəflər arasında etnik qruplararası qarşıdurmalar Dağlıq Qarabağ Muxtar Vilayətinin parlamentinin 20 fevral 1988-ci ildə Ermənistan ilə birləşmək qərarı verdikdən sonra başlamışdır. Azərbaycandan ayrılmaq haqqında bəyənnamə bu torpaq münaqişəsinin son nəticəsi olmuşdur. Azərbaycan SSR müstəqilliyini elan etdikdən sonra Qarabağ ermənilərinin əksəriyyəti Azərbaycandan çəkilmək

qərarına gəlmiş və qondarma Dağlıq Qarabağ Respublikasının müstəqilliyini elan etmişdirlər.

1988-ci il martın 23-də Sovet İttifaqının Ali Soveti ermənilərin Ermənistanın  Dağlıq Qarabağla birləşmə tələblərini rədd etdi. İrəvana qərara olan etirazın qarşısını almaq üçün qoşunlar göndərildi. 1989-cu il dekabrın 1-də Ermənistanın Ali Soveti Moskvanın kursuna zidd olaraq dağlıq Qarabağın Ermənistanın tərkibinə daxil edilməsini rəsmən dəstəklədi.

Rəsmi statistikaya görə, ermənilər tərəfindən 1987-1989-ci illərdə  216 nəfər azərbaycanlı öldürülmüşdür.

Tərəflər arasında genişmiqyaslı döyüşlər 1992-ci ilin qışında başlamışdır. Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) kimi bir neçə təşkilat tərəflər arasındakı münaqişənin həllinin sonunu gətirmək istəsə də, cəhdlər uğursuz olmuşdur. 1993-cü ilin yazında Ermənistan qüvvələrinin anklavın tərkibində olmayan torpaqları işğal etməsi, regiondakı digər ölkələrin müharibəyə qatılması üçün təhdid yaratmışdır. 1994-cü ildə müharibə başa çatana qədər ermənilər Qarabağın əksər hissəsini, demək olar ki, tam nəzarətlərinə keçirib, əlavə olaraq anklavın tərkibində olmayan Azərbaycan torpaqlarının 9%-nə nəzarət edirlər. Münaqişə nəticəsində Azərbaycandan 230.000 erməni, Ermənistan və Qarabağdan isə 800.000 azərbaycanlı məcburi köçkün olmuşdur. 1991-1994-cü illərdə Qarabağda və dövlət sərhədində baş vermiş döyüş əməliyyatlarında 11.557 Azərbaycan hərbçisi şəhid olmuşdur. Ən çoxsaylı itkilər 1992-1994-cü illərdə davam edən hərbi əməliyyatlar zamanı baş vermişdir. Erməni qüvvələrinin əsas itkiləri Azərbaycan ordusunun 1992-ci ilin yayında həyata keçirdiyi uğurlu hücum əməliyyatları zamanı qeydə alınımışdır. Azərbaycan ordusunun itkiləri isə, əsasən Ağdam döyüşlərində, habelə 1994-cü ilin qış-yaz aylarında Kəlbəcəri geri almaq üçün təşkil edilmiş hücum əməliyyatlarında baş vermişdir. 1994-cü ilin mayında Rusiyanın dəstəyi ilə atəşkəs- əldə olunmuşdur.

***

Birinci Qarabağ müharibəsi zamanı – 1988-1993-cü illərdə Dağlıq Qarabağın ərazisi: 4400 km2-dən artıq olan Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut kimi rayon və şəhərləri erməni hərbi birləşmələri tərəfindən işğal olnumuş, yüz mindən artıq azərbaycanlı ata-baba yurdlarından didərgin salınmışdır.

Azərbaycanın Dağlıq Qarabağa daxil olmayan rayonlarının işğalı 1992-ci ilin may ayından başlanmışdır. Rayonların işğal tarixi və əraziləri aşağıdakı kimidir:

1. Laçın rayonu: işğal tarixi - 18 may 1992-ci il, ərazisi – 1875 km2; əhalisi 74 100 nəfər;

2. Kəlbəcər rayonu: işğal tarixi - 2 aprel 1993-cü il, ərazisi - 1936 km2; əhalisi 88 300 nəfər;

3. Ağdam rayonu: işğal tarixi - 23 iyul 1993-cü il, ərazisi - 1154 km2; əhalisi 191 700 nəfər;

4. Cəbrayıl rayonu: işğal tarixi - 23 avqust 1993-cü il, ərazisi - 1050 km2; əhaıisi 76 600 nəfər;

5.Füzuli rayonu: işğal tarixi - 23 avqust 1993-cü il, ərazisi - 1112 km2; əhalisi 125 400 nəfər;

6.Qubadlı rayonu: işğal tarixi - 31 avqust 1993-cü il, ərazisi - 826 km2; əhalisi 38 900 nəfər;

7.Zəngilan rayonu: işğal tarixi - 29 oktyabr 1993-cü il, ərazisi - 707 km2; əhalisi 42 700 nəfər

***

Birinci Qarabağ müharibəsi zamanı Azərbaycana dəyən maddi ziyan təxminən aşağıdakı kimidir:

İşğal nəticəsində Azərbaycana aid uzunluğu 25 min km olan avtomobil yolu, uzunluğu 3984 m olan 160 körpü, 14,5 min km uzunluğunda elektrik xətti, 2500 elektrik transformatoru, 2 min km qaz boru xətti, 160 su anbarı, 34-dən çox qaz dağıtım stansiyası erməni işğalçıları tərəfindən dağıdılmışdır. İşğal edilmiş bölgələrdə 140 min şagirdin oxuduğu 600 məktəb, 53 min şagirdin təhsil adlığı 65 peşə məktəbi, 2 yüksək öyrətim qurumu – ali məktəb məhv edilmiş, 700 səhiyyə ocağı, 800 nəfərlik xəstəxana, poliklinikalar,

doğum evləri, aptek binaları, təcili yardım xəstəxanaları dağıdılmıştır. Səhiyyə xidmətinə dəyən ümumi iqtisadi ziyan 1,2 milyard dollara yaxındır.

Azərbaycana aid 903 dövlət qeydiyyatında olan, 1500 Dövlət qeydiyyatında olmayan tarix və mədəniyyət abidələri, minlərcə əsərin qorunduğu 26 müzey, 8 rəsm sərgisi, 4,6 milyon kitab və əlyazma saxlanan 927 kitabxana, 85 incəsənət məktəbi, 20 mədəniyyət sarayı, 4 dövlət teatrı ermənilər tərəfindən məhv edilmişdir. Müharibə nəticəsində Azərbaycan Respublikası milyardlarla dollar məbləğində ziyana məruz qalmışdır. Ziyanın məbləği müxtəlif mənbələrdə fərqli göstərilir. BMT-nin 1994-cü ildəki hesabatında işğal nəticəsində Azərbaycana dəyən ziyan 53.5 milyard ABŞ dolları səviyyəsində təsbit olunmuşdur.

## BİRİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏ ŞƏHİD OLMUŞ GÖYÇAY İGİDLƏRİNİN SİYAHISI

Birinci Qarabağ müharibəsi zamanı minlərlə Göyçaylı Vətənin müdafiəsinə qatılmış, qanı, canı ilə torpaqlarımızı qoruyaraq adlarını Azərbaycan xalqının qəhrəmanlıq salnamələrinə yazmışlar. Şəhid olmuşların hər birisinin ruhu qarşısında baş əyir, qazilərə sonsuz hörmətimizi bildirməklə yanaşı, ulu Tanrıdan onlara salamatlıq diləyirik. Bu şəxslərin hər biri haqqında yazılmağa layiq qəhrəmanlar olsa da, belə bir çətin və məsuliyyətli işin öhdəsindən gəlmək bizim imkanımız xaricində oldu.

Biz qədirbilən, vətənsevər ziyalılarımızın yardımı ilə əldə etdiyimiz Göyçayın şəhid olmuş, hərbi əməliyyatlara görə itkin düşərək ölmüş elan olunan qulluqçularının siyahısını, bir neçə şəhid və qazi haqqında məlumat verməklə kifayətlənməli olduq.

Şəhidlərin ümumi siyahısını əlifba sırası ilə kəndlər üzrə, şəhidlər və qazilər haqqında oçerkləri icə təvəllüd tarixinə görə xronoloji ardıcıllıqla verdik.

**Şəhidlər:**

**Alpoud kəndi:**

1. Abbasov Babək Xeyrəddin oğlu (24.01.1970 – 05.03.1994)
2. Cəfərov Xosrov Mirzə oğlu ( 1973 – 19. 07.1992)
3 İsmayılov Müştəba Ağabala oğlu (22.02.1972 – 23.02.1993)
4. Kərimov Qabil Qulu oğlu (03.04.1967 – 26.01.1994)
5. Məmmədov Cavanşir Heydər oğlu (06.12.1969 – 31.08.1992)
6. Süleymanov Sədi Heydər oğlu (15.08.1973 – 03.06.1993)

**Bəydövül kəndi:**

7. Əsgərəv Əlvan Nurəddin oğlu (02.03.1974 – 03.03.1993)
8. Nuriyev Sahil Sahib oğlu (27.09.1972 – 21.10.1992)

**Bığır kəndi:**

9. Eyvazov Məsud Eynulla oğlu (18.12.1972 – 19.09.1992)
10 İsmayılov Zabit Maqsud oğlu (24.05.1965 – 14.01.1994)
11.Şirəliyev Mehman Qaçay oğlu (17.02.1971 – 19.11.1992)
12. Şirinov Ehtiram Kamal oğlu (1971 – 05.02.1993)
13. Şirinov Elbrus Əlisaab oğlu (22.01.1974 – 16.06.1993)

**Birinci Ərəb kəndi:**

14. Nəcəfov Zakir Tahir oğlu (1973 – 02.07.1992)

**Cəyirli kəndi:**

15.Bəbişov Seymur Zinhar oğlu (07.08.1974 – 06.03.1994)
16. Beydullayev Dəyanət Qiyas oğlu (1974 – 07.09.1992)
17. Maqsudov İxtiyar Nəcməddin oğlu (21.01.1970 – 08.10.1992)

**Çaxırlı kəndi:**

18. İbrahimov İsmayıl Nurəddin oğlu (23.12.1974 – 24.12.1993)
19. Məmmədov Daşqın Baloğlan oğlu (1973 – 23.10.1992)
20. Xalidov Fuad Faiq oğlu (01.09.1973 – 17.07.1992)

21. Vahidov Vüqar Bahadır oğlu (22.12.1973 – 31.08. 1993)

**Çayarxı kəndi:**
22. Abdullayev Nahid Abdulla oğlu (1973 – 19.07.1992)
23. Bəkirov Elşən Zakir oğlu (18.02.1974 – 08.12.1993)
24. Məmmədov Şaiq Əjdər oğlu (1973 – 09.02.1994)
25. Rəsulov Zaur Qismət oğlu (1975 – 01.05.1994)
26. Xəlilov Fuad Faiq oğlu (01.09.1973 – 17.07.1992)
27. Quliyev Tofiq Bahadır oğlu (1950- 13.02.1994)

**Çərəkə kəndi:**
28. Abdullayev Elşən Nadir oğlu (01.11.1973 – 08.03.1996)
29. Baxışov Qeys Dövlətxan oğlu (04.04.1973 – 27.1992)
30. Cavadov Eldəniz İsrafil oğlu (28.01.1971 – 16.02.1994)
31. Əzizov Elman İmran oğlu (12.01.1970 – 05.07.1992)
32. Həkimov Lətif Rafiq oğlu (1974 – 21.03.1993)
33. İbrahimov Xəlil Bahadır oğlu (20.04.1972 – 10.02.1993)
34. İsmayılov Zaur Alxan oğlu (07.02.1974 – 17.03.1993)
35. İsrafilov Ceyhun Məlik oğlu (17.01.1972 – 16.01.1993)
36. Məmmədov Ceyhun Ənvər oğlu (03.08.1973 – 16.07.1993)
37. Məmmədov Habil Firuddin oğlu (01.05.1975 – 09.02.1994)
38. Məmmədov Sahib Əlibala oğlu (26.03.1973 – 07.03.1993)
39. Mirzəyev Siyavuş Sabir oğlu (25.03.1973 – 10.02.1993)
40. Nəbiyev İlqar Rəhim oğlu (22.09.1975 – 11.01.1994)
41. Piriyev İsmət Medal oğlu (08.01.1975 – 01.01.1994)
42. Xəlilov Mübariz Yaqub oğlu (10.10.1974 – 19.01.1994)

**Dövranlı kəndi:**
43. Hüseynov Elşən Əbil oğlu (27.07.1972 – 29.07.1996)

**Ərəb kəndi:**
44. Abdullayev Teyyub Abdulla oğlu (1970 – 19.08.1994)
45. İbrahimov Ceyhun Rəşid oğlu (10.10.1975 – 19.01.1994)

46. İsmayılov Mənsur Yaşar oğlu (1964 – 29.01.1994)
47. Muradov Mütalib İnqilab oğlu (03.11.1974 – 17.03.1994)

**Ərəbşahverdi kəndi:**
48. Əhmədov Sərdar Aslan oğlu (10.02.1974 – 12.05.1994)

**Göyçay şəhəri:**
49. Adıgözəlov Feyruz Firuddin oğlu (17.04.1974 – 18.10.1992)
50. Ağamalıyev Qüdrət Məlik oğlu (1967 – 16.06.1992)
51. Ağamalıyev Samir Yusif oğlu (12.11.1974 – 18.06.1996)
52. Bağırov Namiq Əlisaab oğlu (04.09.1973 – 10.01.1994)
53. Cəbrayılov Nadir Adil oğlu (04.09.1971 – 12.02.1994)
54. Cəfərov İsmayıl Aydın oğlu (1975 – 22.02.1994)
55. Çəndirli Elşad Məhəmməd oğlu (07.03.1958 – 15.06.1992)
56. Əkbərov Elton Əsgər oğlu (08.01.1954 – 29.04.1992)
57. Əliyev Vüqar Hacağa oğlu ( 29.05.1968 – 01.10.1992)
58. Eminov Mübariz Şiralı oğlu (09.07.1973 – 10.11.1992)
59. Əzizov Aqil Ağabala oğlu (21.12.1974 – 28.01.1994)
60. Hüseynov Mirzağa Mirhüseyn oğlu (27.01.1963 – 22.07.1992)
61. İbrahimov Zaur Xəlil oğlu (18.03.1975 – 31.01.1994)
62. İmaməliyev Fariz Fəxrəddin oğlu (01.07.1970 – 22.03.1994)
63. İsmayılov Qafqaz Mikayıl oğlu (1973 – 23.02.1993)
64. İsmayılov Tərlan Hacıkişi oğlu (09.12.1966 – 26.01.1994)
65. Kərimov Seymur Məhəmməd oğlu (13.10.1971 – 17.04.1994)
66. Kujeyev Oleq Nikolayeviç (10.10.1972 – 18.01.1993)
67. Mehdiyev Kamran Mehdi oğlu (1974 – 23.02.1994)
68. Mehdiyev Zaur Azad oğlu ( 05.04.2074 – 18.04.1994)
69. Məhərrəmov Eldar Aydın oğlu (15.05.1973 – 03.08.1993)
70. Məmmədov Coşqun Ərzuman oğlu (01.05.1974 – 07.05.1994)
71. Məmmədov Elton Söhrab oğlu (01.09.1973 – fevrl 1994)
72. Mikayılov Vüqar İbrahim oğlu (04.01.1974 – 28.01.1993)
73. Möhsümov Ceyhun Ədalət oğlu (10.04.1975 – 26.04.1994)
74. Nemətov Anar Nemət oğlu (10.04.1975 – 10.02.1994)

75. Nəsirov Fuad Məhərrəm oğlu (1971 – 21.04.1994)
76. Nəsirov Fuad Elbrus oğlu (09.08.1974 – 24.01.1994)
77. Qarayev Rahib Sədiyar oğlu (1973 – 01.01.1994)
78. Qədirov Ceyhun Səlim oğlu (15.07.1970 – 25.12.1994)
79. Qəhrəmanov Anar Vaqif oğlu (1976 – 03.12.1995)
80. Quliyev Azər İsbəndiyar oğlu (1968 – 06.04.1993)
81. Qurbanov Elson Ağasəf oğlu (1974 – 04.05.1994)
82. Qurbanov Rasim Fikrət oğlu (19.02.1972 – 28.10.1992)
83. Qurbanov Rövşən İntiqam oğlu (01.05.1971 – 14.02.1994)
84. Qurbanov Şahkərəm Böyükağa oğlu (1972 – 10.02.1993)
85. Rəhimov Ələsgər Ələkbər oğlu (1952 – 15.08.1992)
86. Rüstəmov Elçin Vaqif oğlu (08.06.1971 – 27.03.1993)
87. Şirinov Tofiq Rəfail oğlu (02.11.1966 – 10.01.1994)
88. Şıxəliyev Ramiz Məhəmməd oğlu (24.09.1952 – 29.09.1992)
89. Soltanov Səbuhi Sabir oğlu (21.05.1967 – yanvar 1994)
90. Süleymanov Famil Şakir oğlu (10.02.1969 – 31.06.1992)
91. Tağıyev Sahib Zabit oğlu (04.04.1975 – 26.08.1993)
92. Tarverdipur Elşad Hüseyn oğlu (18.03.1971 – 27.10.1992)
93. Xəlilov Ceyhun Əhməd oğlu (1972 – 07.02.1994)
94. Zeynalov Anar Niyaz oğlu (15.07.1972 – 24.08.1992)
95. Zeynalov Eldar Əlisahib oğlu (08.10.1969 – 06.08.1994)
96. Zeynalov Elnur Tahir oğlu (1975 – 22.03.1994)

**Hacalıkənd kəndi:**
97. Əsədov Vahid Nəriman oğlu (25.03.1958 – 15.08.1992)

**Hüngütlü kəndi:**
98. Həsənov Niyaz Əlisa oğlu (12.04.1973 – 26.04.1994)

**Xəlitli kəndi:**
99. Abdullayev Salman Süleyman oğlu (25.08.1974 – 24.05.1994)
100. Məmmədov Fuad Məmməd oğlu (16.06.1974 – 15.11.1992)

**İnçə kəndi:**
101. Abdulxalıqov Teymur Sayəddin oğlu (1974 – 22.12.1993)
102. Babayev Rəhman Əlibala oğlu ( 24.01.1971 – 03.07.1992)
103. Əhmədov Əhməd İqnat oğlu (02.01.1973 – 19.11.1992)
104. Əsədov Bəxtiyar Salam oğlu (1973 – 07.09.1972)
105. Hacıyev Faiq Qədir oğlu (15.03.1973 – 08.09.1993)
106. Hacıyev Firuddin Nadir oğlu (18.06.1972 – 14.04.1994)
107. İsmayılov Qadir Emin oğlu (28.06.1969 – 12.02.1994)
108. Mehdiyev Cəlal Hətəm oğlu (06.08.1972 – 08.01.1994)
109. Məmmədov Səid Qoca oğlu (1975 – 22.07.1993)
110. Mustafayev Fariz Kamal oğlu (04.05.1975 – 13.01.1994)
111. Tahirov Nadir Məhəmmədhəsən oğlu (06.01.1961 – 22.02.1993)

**Kürdəmiş kəndi**
112. İsayev Rasim Sədi oğlu (07.07-1974 -31.08.1993)
113. Kərimov Elşən Kərim oğlu (1974 – 22.01.1994)

**Kürdşaban kəndi:**
114. Bəkirov Yusif Sədi oğlu (03.12.1968 – 09.02.1994)
115. Məmmədov Təbriz Fikrət oğlu (03.03.1975 – 23.05.1994)
116. Rəhimov Şəfaət Sabit oğlu (1974 – 16.01.1994)

**Qarabağlar kəndi:**
117. Əliyev Əli Feyzi oğlu (1970 – 31.10.1994)

**Qarabaqqal kəndi:**
118. Babayev Vüqar Səlim oğlu (16.04.1972 – 12.02.1994)
119. Həmidov Habil Abdul oğlu (21.10.1973 – 07.10.1973)
120. İsgəndərov Sarvan Nurəddin oğlu (11.03.1973 – 04.03.1994)
121. İsmayılov Hümbət Məhəmməd oğlu (26.04.1974 – 05.01.1993)
122. Kərimov Mais Vaqif oğlu (1973 – 08.02.1993)

123. Nəsirov Eldəniz Əhməd oğlu (1975 – 22.01.1996)
124. Sadıqov Ceyhun Surxay oğlu (08.09.1971 – 23.03.1993)
125. Şıxəliyev Vüqar Faiq oğlu (1974 – 23.01.1994)

**Qaraxıdır kəndi:**
126. Abdullayev Səbuhi Bayram oğlu (1972 – 07.01.1994)
127. Hacıyev Araz Mahir oğlu (15.05.1973 – 13.04.1993)
128. İsgəndərov Raqub Fərhad oğlu (22.02.1973 – 10.12.1992)
129. Zülfüqarov Zülfüqar Emin oğlu (04.02.1958 – 17.08.1992)
130.Məmmədov Elnur Həmid oğlu (1975 – 15.06.1994)

**Qaraməryəm kəndi:**
131. Qəribov Gündüz Ramiz oğlu (1977 -18.08.1996)
132. Saabov Şirbala Mirzə oğlu (14.01.1966 – 27.03.1993)

**Qarayazı kəndi:**
133. Ağayev Ağaəli Biləndər oğlu (1973 – 10.01.1994)
134. Əmirov Ənvər Həsənağa oğlu (23.08.1976 – 15.08.1996)
135. Əmirov Teymur Yelmar oğlu (1973 – 04.01.1994)
**Qızılağac kəndi:**
136. Həmidov Zaur Fəxrəddin oğlu (28.04.1972 – 26.02.1994)
137. İsmayılov Ayaz Feyruz oğlu (23.06.1975 – 30.01.1994)
138. Mahmudov Anar Ağabəy oğlu (09.07.1973 – 26.02.1994)

**Ləkiçıplaq kəndi:**
139. Abdullayev Elşən Miri oğlu (03.03.1975 – 10.02.1994)
140. Beydullayev Nazim Yunus oğlu (29.12.1973 – dekabr 1992)
141. Dadaşov Səxavət İnqilab oğlu (23.01.1973 – 26.o1.1994)
142. Daşdəmirov Elşad Şaban oğlu (03.02.1967 – 25.04.1994)
143. Əzizov Əziz Lətif oğlu (20.10.1975 – 12.02.1994)
144. İsmayılov İsmayıl Arif oğlu (16.01.1969 – 24.01.1994)
145. Ömərov Kamil Paşa oğlu ( 1975 – 12.04.1994)
146. Osmanov Rəsul Zahir oğlu (22.03.1969 – 05.07.1992)

147. Qədirov Mais Firuddin oğlu (1972 – 24.01.1994)
148. Rəsulov Seymur Xasay oğlu (01.04.1974 – 25.07.1993)
149. Salehov Siracəddin Firuddin oğlu (1972 – 24.01.1994)
150. Şıxəliyev Altay Rafiq oğlu (10.02.1972 – 15.02.1994)
151. Süleymanov Süleyman Abdulla oğlu (02.12.1972 – 22.02.1993)

**Mallı-Şıxlı kəndi:**
152. Abışov Hüsnü Ağanur oğlu (03.09.1969 – 12.12.1993)
153. Bəkirov Hasil Cəlil oğlu (26.08.1969 – 15.01.1994)
154. Niftaliyev Habil Əlövsət oğlu (1974 – 12.10.1992)

**Mırtı kəndi:**
155. Abseyidov Vahid Seyid oğlu (26.06.1974 – 08.02.1993)
156. Behbudov Daşqın Nəsrəddin oğlu (27.02.1970 – 09.01.1994)
157. Hacıyev Mais Qərib oğlu (10.03.1974 – 31.08.1992)
158. İsayev Zaur Qurban oğlu (01.02.1975 – 29.01.1994)
159. Kərimov Nəsimi Əliyoldaş oğlu (10.06.1973 – 07.01.1994)
160. Muradov Varis Arif oğlu (1975 – 11.02.1994)
161. Nuriyev Aydın Nəriman oğlu (05.11.1966 – 26.02.1992)
162. Rəsulov Pənah Qulu oğlu (15.01.1994 – 27.07.1992)
163. Tarverdiyev Müşviq Feyzulla oğlu (20.03.1969 – 06.09.1992)
164. Zahidov Anar Ənvər oğlu (1974 – 24.01.1994)

**Mirzəhüseynli kəndi:**
165.İsmayılov Nəsimi Əlyar oğlu (1974 – 22.01.1994)

**Müşkürlü kəndi:**
166. Hüseynov Həsrət Hüseyn oğlu (05.08.1974 – 19.01.1997)
167. Rəhimov İlqar Şaiq oğlu (13.05.1973 – 14.02.1994)

**Potu kəndi**
168. Baxışov Nemət Şərif oğlu (15.08.1967 – 25.04.1994)

169. Əzizov Davud Əhməd oğlu (22.02.1959 – 08.10.1992)
170. Hacıyev Zəfər Qüdrət oğlu (23.09.1972 – 24.12.1993)
171. Həmidov Şəmsi Şakir oğlu (01.11.1969 – 15.08.1992)
172. Həsənov Nizami Sayad oğlu (22.11.1972 – 15.02.1994)
173. Hüseynov Əvəz Nəsib oğlu (1975 – 12.02.1994)
174. Məmmədov Aydın Nüsrət oğlu (03.09.1973 – 23.07.1993)
175. Məmmədov Eyvaz Şamil oğlu (28.05.1973 – 15.06.1993)
176. Məmmədov Niyaz Məhəmməd oğlu (1973 – 14.02.1994)
177. Ovçuyev Qalib Vələd oğlu (1975 – 07.03.1994)
178. Zərbəliyev Ayaz Əsgər oğlu (09.01.1969 – 30.03.1993)

**Şəhadət kəndi:**
179. Əliyev Laçın Hacalı oğlu (12.03.1963 – 31.08.1992)
180. Feyziyev Məzahir Məmmədkərim oğlu (08.02.1970 – 31.08.1992)
181. Rəhimov Oktay Abdulhəmid oğlu (08.10.1970 – 31.08.1992)

**Şahsoltanlı kəndi:**
182. Məhiyev Əliağa Nadir oğlu (18.09.1973 – 22.07.1993)

**Şəkər kəndi:**
183. Musayev Sahil Yunus oğlu (14.08.1968 – 17.05.1992)
184. Nəbiyev Coşqun Bəxtiyar oğlu (28.09.1973 – 23.01.1994

**Şıxbəy kəndi:**
185. Cəfərov Aydın Yasin oğlu (1973 – 02.02.1994)

**Ulaşlı-Şıxlı kəndi:**
186. Seyidov Elnur Museyib oğlu (11.05.1975 – 24.04.1994)

**Veysəlli kəndi:**
187.Abdullayev Elman Tapdıq oğlu (1975 – 14.12.1994)

188. Quliyev Xeybər Mehdiqulu oğlu (01.04.1974 – 14.12.1994)

**Yalman kəndi:**

189. Abdullayev Teymur Ağarəhim oğlu (1972 – 25.01.1993)
190. İslamov İslam Aslan oğlu (1971 – 25.01.1993)
191. İslamov Sarvan Sədulla oğlu (1975 – 30.04.1994)

# ŞƏHİDLƏR

Qatil gülləsinə qurban gedirkən,
Gözünü sabaha dikdi Şəhidlər.
Üçrəngli bayrağı öz qanlarıyla,
Vətən torpağına çəkdi Şəhidlər…

Zalım öyünməsin zülümləriylə,
Min bir böhtanıyla, min bir şəriylə.
Həqiqət uğrunda ölümləriylə,
Ölümü kamına çəkdi Şəhidlər…

O şənbə gecəsi, o qətl günü,-
Mümkünə döndərdik çox namümkünü,
Xalqın qəlbindəki qorxu mülkünü,
O gecə dağıdıb sökdü Şəhidlər…

Tarixi yaşadıb diləyimizdə,
Bir yumruğa döndük o gecə biz də.
Yıxıb köləliyi ürəyimizdə
Cəsarət mülkünü tikdi Şəhidlər…

Onlar susdurulan haqqı dindirər,
Qaraca torpağı qiymətləndirər.
Donan vicdanları qeyrətləndirər,
Axı, el qeyrəti çəkdi Şəhidlər…

Bilirik, bu bəla nə ilkdi, nə son,
Ölürkən uğrunda bu Ana yurdun.
Quzu cildindəki o qoca qurdun,
Doğru, düz cildini çəkdi Şəhidlər…

Dözdü hər zillətə, dözdü hər şeyə,
“Dünyada mənimdə haqqım var ”, - deyə
Kütləni xalq edən müqaviləyə,
Qanıyla qolunu çəkdi Şəhidlər…

İnsan insan olur öz hünəriylə,
Millət, millət olur xeyri, şəriylə,
Torpağın bağrına cəsədləriylə,
Azadlıq tumunu əkdi Şəhidlər.

***Bəxtiyar Vahabzadə***

***

## BİRİNCİ QARABAĞ MÜHARİBƏSİNİN ŞƏHİDLƏRİ



### 1.ZÜLFÜQAR ZÜLFÜQAROV (04.12.1958 -17.08.1992)

Birinci Qarabağ müharibəsinin şəhidi Zülfüqar Emin oğlu Zülfüqarov 1958-ci ildə dekabr ayının 4-də Göyçay rayonunun Qaraxıdır kəndində ziyalı ailəsində anadan olmuşdur. 1965-1975-ci illərdə Qaraxıdır kənd orta məktəbində oxumuşdur. Məktəbi bitirdikdən sonra sovet ordusu sıralarında hərbi xidmətdə olmuşdur. Xidmətdən gəldikdən sonra M.Ə.Sabir adına Şamaxı Pedaqoji Texnikumunun Rəssamlıq fakultəsində daxil olmuş, oranı bitirdikdən sonra Göyçay rayonunun Şəkər kənd tam orta məktəbində rəsm-xət dərsi demişdir.1990-cı illərdə 1-ci Qarabağ müharibəsi başlayarkən könüllü olaraq ordu sıralarına yazılmışdır. 1992-ci il avqust ayının 17-də gedən döyüşlərdə şəhid olmuşdur. Göyçay rayon Qaraxıdır kənd qəbiristanlığında dəfn olunmuşdur. Qaraxıdır kənd orta məktəbi məzunu olmuş şəhidin adını daşıyır. Üç övladı var: bir qız və iki oğlu yadigar qalmışdır. Allah bütün şəhidlərimizə rəhmət etsin.

## ŞƏHİD QANI

Məyus olma amandır,
Məyus olmaq yamandır.
Qorxaq diləksiz yaşar,
Millətim qəhrəmandır!

***Məhəmməd Hadi***

Həyatımda ilk dəfə bu qədər qan görürdüm,
Qızıl qana bələnmiş sökülən dan görürdüm,
Qan içində çalxalanan Azərbaycan görürüdüm
Yerdən, göydən, dənizdən axırdı şəhid qanı!

Həyatımda ilk dəfə bu qədər gül görürdüm,
Hər gülün arxasında sınan könül görürdüm,
Bütün Azərbaycanı məlul-müşkül görürdüm,
Dünyanı yandırırdı, yaxırdı şəhid qanı!

Həyatımda heç zaman belə dərd görməmişdim,
Dərdi belə amansız, belə sərt görməmişdim,
Mənim düşmənim qədər mən namərd görməmişdim,
Namərdlərin başında çaxırdı şəhid qanı!

Bu yükü götürməyə hər çiyində tab olmaz,
Hər sözü, cümləsi qan, heç belə kitab olmaz,
Bir xalqın ürəyində bu qədər əzab olmaz,
Bu milləti yay kimi sıxırdı şəhid qanı!

Yağış olub yağırdı, qar olub əriyirdi,
Dağ olub tərpənirdi, daş olub yeriyirdi,
Bizimlə ağlayırdı, bizimlə kiriyirdi,

Hamının gözlərindən baxırdı şəhid qanı!

Dost-düşməni seçirdi ayran ilə yağ kimi,
Tanıdırdı dünyaya şəhidləri sağ kimi.
Bir inamı yerindən qaldırırdı dağ kimi,
Bir inamı kökündən yıxırdı şəhid qanı!

Xalqıma yamaq olan maymaqların, kütlərin,
Yalan üstə əyləşən allahların, bütlərin,
Peysəri yoğunların, qəlbi, beyni lütlərin,
Axır ki, axırına çıxırdı şəhid qanı!

Heç vaxt şərin atını uzağa sürmək olmaz,
Belə ağır günahın altına girmək olmaz.
Onu torpaqdan silib, yerdən götürmək olmaz
Düşmən qoy yaxşı bilsin, ağırdı şəhid qanı!

Alçaqların başında qiyamətlər qoparan,
Vətənin dar günündə dəniz kimi qabaran,
Zaman-zaman bu xalqı haqqa doğru aparan
Yoldu, izdi, naxışdı, cığırdı şəhid qanı!

***Zəlimxan Yaqub***



## 2. İSMAYIL İSMAYILOV (16.01.1969-29.01.1994)

Birinci Qarabağ müharibəsinin şəhidi İsmayıl Arif oğlu İsmayılov bir soyuq qış gecəsində, 16 yanvar 1969-cu ildə Göyçay rayonunun Ləkçıplaq kəndində dünyaya göz acmışdı. Orta məktəbi doğulduğu kənddə bitirdikdən sonra 106 nömrəli Göyçay Texniki Peşə məktəbində sürüçülük peşəsinə yiyələnmişdi. İsmayıl 1987-ci ildə Gürcüstanın Duşeti şəhərinə əsgəri xidmətə yollanmış, əsgərlikdən qayıtdıqdan sonra kolxozda işləmişdi. Gözəl əl qabiliyyətinə malik usta idi.

Ailənin ikinci övladı olan İsmayılı kənd camaatı cox sevirdi, çünki o, hamının xeyirinə, şərinə yarayan oğlan idi.

1993-cü il fevralın 1-də İsmayıl Milli Orduya çağrılır. O zaman o, nişanlı idi. Ağdərə ətrafındakı Sərsəng su anbarı və Mehmanədə gedən ağır döyüşlərdə İsmayılın əl-ayağı donur. Elə buna görə də onu evə buraxırlar. Bir müddət kənd xəstəxanasında müalicə olunan İsmayıl 1994-cü il yanvarın 8-də yenidən cəbhəyə yola düşür. Kəlbəcər ətrafında gedən döyüşlərdə nümunəvi döyüşçü kimi ad çıxarır. Döyüşlərdə təqribən 60-dan çox ermənini məhv edən İsmayıl Qanlıkənd uğrundakı döyüşdə həlak olur. Güllə onun ürəyindən dəyir. Cəsur döyüşçü 1994-cü ilin yanvar ayının 29-da doğulduğu kənddə torpağa tapşırılaraq son mənzilə yola salınır.

Hansı atadan, anadan övladı haqda xatirələrini soruşsanız, onun məsum gülüşündən, xoş davranışından doya-doya danışar.

**Şəhidimizin bacısı Kəmalə xanım deyir:** Atam övladının çənazə namazını qılıb torpağa tapşırandan sonra “AĞLAYAN

GÖZDƏ İNTİQAM OLMAZ" devizini əlində bayraq etdi. Həmin gündən atam Arif və anam Qəribə cəbhədə olan əsgərlərə ilin dörd



fəslinə uyğun nemətlərdən yardım göndərməyə başladılar. Bu təşəbbüsə kənd camaatı da qoşuldu. Bu bayram payları 27 ildir ki, davam edir. Onların ən böyük arzusu idi ki, torpaqlarımız alınsın, İsmayılın uğrunda qanı tökülmüş Kəlbəcərin Qanlıkənd kəndini ziyarət edə bilsinlər. Amma qələbəmizi anam Qəribəyə görmək nəsib olmadı. İsmayıl həyatda 25 il 13 gün yaşadı. Anam da oğulsuz günlərin ağrısını ürəyində daşıya-daşıya 25 il 13 gün yaşadı. Son vaxtlarını ancaq İsmayıl haqda danışırdı. Çünki o, nişanlı idi. Nişan çamadanını göz qabağında saxlayırdı kı, bəlkə, gəldi, yarımçıq qalmış toyun etdim. Ana İsmayılın yolunu çox gözlədi. Balası gəlmədi.

Şəhidimizə və anası Qəribə xanıma Allah qəni-qəni rəhmət eləsin.

Ata isə bu gün bu arzuyla yaşayır ki, Kəlbəcərə gedə, ordan bir ovuç torpaq gətirə, 1994-cü il şəhidlərinin və ömür-gün yoldaşının qəbrinin üstünə səpə və "gözünüz aydın, qanınız yerdə qalmadı",- deyə.

Arif baba, Allah sizi arzunuza çatdırsın. Amin!

***Şəkildə Arif baba və xanımı Qəribə xanım***

## SALAM, ŞƏHİD ANASI!

Salam, şəhid anası!
Mən də sənin bir balan.
Olmasam da qəhrəman
Şuşa, Kəlbəcər alan.

Sənin oğlun tapşırıb,
Səni mənə yol aldı.
Məhz onun sayəsində
Ordumuz zəfər çaldı.

Salam, şəhid atası,
Sən necə qürurlusan.
Dağ boyda oğlun gedib,
Yenə də dik durmusan.

Ağappaq saçlarından,
Nur saçılır, nur, ata.
Hər zaman qürurlu ol,
Həmişə dik dur, Ata!

Salam, şəhid bacısı,
Dağ gördün, dağ itirdin.
Üzü nurlu bir igid,
Arxa, dayaq itirdin.

İndi bütün igidlər,
Qardaşındir, ay bacı,
Sən şəhid bacısısan,
Sənə yoxdur tay, bacı.

***Amir Mustafa***

***



## 3. SƏBUHİ ABDULLAYEV (02.03.1971 – 05.01.1994)

Birinci Qarabağ müharibəsinin şəhidlərindən olan Səbuhi Bayram oğlu Abdullayev 2 mart 1971-ci ildə Göyçay rayonunun Qaraxıdır kəndində anadan olmuşdur. 1978-1988-ci illərdə Qaraxıdır kənd orta məktəbində təhsil almış, orta məktəbi bitirəndən sonra Göyçaydakı 58 saylı texniki peşə məktəbində oxumuşdur. 1989-cu ildə həqiqi hərbi xidmətə çağrılan Səbuhi Rusiyanın Murmansk şəhərində iki il əsgərlik həyatı keçirmiş, hərbi xidmətini başa vurub rayona qayıdandan sonra kənddəki sovxozda əmək fəaliyyətinə başlamışdır.
Səbuhi 1993-cü ilin avqustunda Azərbaycan Milli ordusuna xidmətə başlamış, bir döyüşçü olaraq erməni işğalçılarına qarşı vuruşlarda iştirak etmişdir. O, Füzuli rayonunun Aşağı Veysəlli kəndinin düşməndən azad edilməsində xüsusi igidlik göstərmiş, mühasirəyə düşən əsgər yoldaşlarını xilas edərkən ağır yaralanmışdır. Hospitala çatdırılsa da, çox qan itirdiyindən onun həyatını qorumaq mümkün olmamışdır. Elimizin bu qorxmaz, igid oğlu 23 yaşında, 1994-cü il yanvar ayının 5-də şəhidlik şərbətini içərək əbədiyyətə qovuşmuş, iki gün sonra doğma Qaraxıdır kəndində, ulu əcdadlarının yanında dəfn edilmişdir.

***

Birinci Qarabağ müharibəsində Qaraxıdırdan Səbuhi ilə yanaşı, Namiq Əzizov, İnqilab Həbullahov, Ətraf Həbullahov, Şirvan İbrahimov, Novruz, Hacıyev, Vidadi Hüseynov, şəhidin qardaşı Əfqan Abdullayev və s. onlarla adamlar iştirak etmişlər. Bu müharibədə qaraxıdırlılardan 4 nəfər şəhid olmuş, biri, yəni Mansur əsir

düşmüş, çox işgəncələr görüb əziyyətlər çəkəndən sonra dağların arasıyla qaçaraq Gürcüstana keşmiş, oradan da min bir əziyyətlə doğma kəndinə qayıda bilmiş, qalanlarına isə yaralansalar da geriyə, sağ-salamat ailələrinin yanına qayıtmaq nəsib olmuşdur. Vidadi Hüseynov həm də Sovet Ordusunun zabiti kimi Əfqanıstan müharibısinin də iştirakçısı olmuş, 1997-ci ildə kapitan rütbsi ilə Azərbaycan Milli ordusundan tərxis olunmuşdur.

1941-1945-ci illər Böyük Vətən müharibəsinin iştiarkçıları və qəhrəmanları olmuş əmilərinin şərəfli yolunun davamçısı olan Səbuhi onu tanıyanların söylədiklərinə görə, çox mərd, cəsur, sağlam düşüncəli vətənpərvər, boylu-buxunlu, sevib-sevilməyə layiq bir gənc imiş.

**Səbuhi ilə uşaqlıqdan bir məhəllədə böyüyən, onunla dostluq edən Ədalət Yaqubov deyir:** "Bizim uşaqlığımız Səbuhi ilə bir məhəllədə keçib. Özümüz də əmi uşağı olmuşuq. O çox qorxmaz və iradəli adam idi. Kiçik yaşlarımızda ənzəli, futbol, çilingağac oynamağımız indi də şirin bir xatirətək yaddaşımda yaşayır. O, qardaşım Elmanla bir sinifdə oxuyurdu. Məndən iki yaş böyük olsa da, yoldaşlığımız tuturdu. Bəzən elə olurdu ki, qonşu məhəllənin, yaxud qonşu kəndlərin uşaqları ilə sözümüz çəp gəilir, hətta dalaşırdıq da. Səbuhinin bizimlə bir yerdə olması işimizi asanlaşdırırdı. Çox güclü, qorxmaz və sülhpərvər olduğundan belə savaşlar adətən onun səyi nəticəsində barışla nəticələnərdi.

Bir yerdə qonşuların bağlarına alma, üzüm oğurluğuna getməyimiz bir aləm idi. Baxmayaraq ki, hamımızın həyətində bu meyvələrdən qədərincə var idi, amma qonşulardan çırpışdıqlarımız bizə şirin gəlirdi. Bir yerdə pambıq yığımına getməyimiz də yadıma gəlir. Əlimizdə nə olursa, yarı bölüb yeyərdik. Bu, böyüklərimizdən gələn bir adət idi. Ya hamı aç olmalıydı, ya da hamı tox. Biri tox, biri ac ola bilməzdi. Bəlkə də bu, məhəllədəkilərin hamısının eyni nəsildən olması, qohumluğundan irəli gəlirdi. Bu ənənə İbrıxlı məhəlləsində indi də davam edir....

Səbuhi qonum-qonşu arasında, böyük-kiçik yanında böyük hörmət sahibi idi. Özündən böyüklərlə də, kiçiklərlə də münasibət qurmağı bacarırdı. İbrıxlı məhəlləsinin təsibini çəkər, adını ucaldardı. Çox qohumcanlı idi. İtirdiyim doğmalarımın, əzizlərimin arasında Səbuhinin ayrılığı ən ağırlarından biridir. Mən bu gün də o məhəlləyə gedəndə elə bilirəm mütləq Səbuhi qarşıma çıxacaq, gülə-gülə görüşüb hal-əhval tutacağıq.

Hər zaman xatirəmdə gözəl insan kimi qalan, dost, qohum, qonşu və ali insan olan cəsur şəhidim, Səbuhi! Biz siz şəhidləri heç vaxt unutmayacağıq. Məkanın cənnət olsun".

**Səbuhinin dilindən:**

## OYAN, MİLLƏT!

Yağı düşmən yürüş etdi üstümə,
Oyan, millət, oyanmağın vaxtıdır!
Çalıb-çapdı gəlib durdu qəsdimə,
Oyan, millət, oyanmağın vaxtıdır!

Ərşə çıxdı anaların naləsi,
Gəlinlərin ağısı, şikəstəsi...
Gözlər tökdu Qarabağın tüstüsü,
Oyan, millət, oyanmağın vaxtıdır!

Əsirlikdə qalanların fəryadı,
Ərşə bülənd oldu, göylər qanadı,
Daha durma, gəl burax bu inadı,
Oyan, millət, oyanmağın vaxtıdır!

Gəl dinləyək bağrıyanıq bülbülü,
Yada salaq solub-saralan gülü,
Başımıza tökülməmiş yurd külü,
Oyan, millət, oyanmağın vaxtıdı!

Düşmənlərdən öc almağın vaxtıdır!

***

Təxminən 40 il bundan əvvəl atam, anam və mən yaşadığımız Göyçay şəhərindən Qaraxıdır kəndinə, nənə-babalarımızın dəfn olunduğu qəbiristanlığa ziyarətə gedirdik. Qəbristanlığa gedən yola dönəndə Ədalətin anası rəhmətlik Surə xalayla rastlaşdıq. Kənddə yas yerinə gedən Surə xala bildi ki, biz ziyarətə gəlmişik. O, yolundan qalıb bizi, dəfələrlə inad göstərib təkid etməyimizə baxmayaraq, demək olar ki, zorla evlərinə apardı. Dedi ki, bizdə nahar edin, sonra bir yerdə ziyarətə gedərik. Onlardan çıxanda Səbuhinin anası bizi evlərinə çaya dəvət etdi.

Həyətdə bir neçə uşaq oynayırdı. Onlardan biri gülə-gülə bizə yaxınlaşdı. Çox şirin, 7-8 yaşlarında yaraşıqlı uşaq idi. Atam əyilib uşağın üzündən öpdü və soruşdu: "Kişi, sənin adın nədir?". Uşaq gülə-gülə cavab verdi: "Səbuhidir, əmi". Onun iri qara gözləri və odlu baxışları var idi. Mən o baxışları heç vaxt unutmayacağam. Hətta o anasına samovarı qaynatmaq üçün odun da gətirdi. Səbuhinin şəhid olduğunu eşidəndə çox sarsıldım. Bu gün də onun rəhmətlik valideynlərinin: Bayram əminin, Zərifə xalanın, gözəl bacısının, yaraşıqlı qardaşlarının surəti gözümün önündədir. Səbuhinin bir qardaşı, 1-ci Qarabağ müharibəsi qazisi Əfqan da bir neçə il bundan qabaq 40 yaşında olarkən urək tutmasından qəfil rəhmətə getdi. Bu sakit, zəhmətkeş, mehriban bir ailəyə məhəllədə hər kəsin böyük hörməti var.

Səbuhi Abdullayev bizimlə əmiuşağıdır. Onun da ata-baba, kök soyadları İbrahimov olub. Sonradan baba adını özlərinə soyad götürüblər.

Zərifə xanımın çayını içəndən sonra sağollaşıb durduq. Onlar bizi qəbir üstünə tək getməyə qoymadılar. Bizə qoşulub ziyarətə getdilər.

***



## 4. RAQUB İSGƏNDƏROV (1973 – 09.10.1992)

Canını Vətən yolunda fəda edən Qaraxıdır cavanlarından biri də Raqub Fərhad oğlu İsgəndərovdur. O, 1973-cü il Göyçay rayonunun Qaraxıdır kəndində anadan olmuş, 1980-1990-cı illərdə Qaraxıdır kənd tam orta məktəbində təhsil almışdır.

Orta məktəbi bitirdikdən sonra bir müddət Həzi Aslanov adına kolxozda çalışmış, 1990-cı ildə hərbi xidmətə çağrılmışdır. Hərbi xidmətə Qazağıstan Respublikasında başlayan Raqub orda rabitəçi olmuş, Azərbaycanın müstəqilliyini elan etməsindən sonra Vətənə qayıtmış, 1992-ci ilin iyun ayından Azərbaycan Milli ordusunda xidmətini davam etdirmiş, Vətənin müdafiəsi uğrunda döyüşlərə qatılmışdır. O, 1992-ci il oktyabrın 9-da qəhrəmancasına şəhid olmuş, 1992-ci il 12 oktyabrda doğulduğu Qaraxıdır kəndində dəfn olunmuşdur.

***

**Qardaşı, Birinci Qarabağ müharibəsinin iştirakçısı Əli deyir:** Qardaşım Raqub və mən Birinci Qarabağ müharibəsinin döyüşçüləri olmuşuq. Qardaşım Laçın dəhlizində, mən isə Ağdam ətrafında gedən döyüşlərində iştirak edirdik. Qardaşımın əsgər yoldaşları onun haqqında hörmət və ehtiramla danışır, deyirdilər ki, o, hərəkət və sözləri ilə bizi qələbəyə ruhlandırırdı. Əsgər yoldaşları onun mərd, igid, qorxmaz olduğunu və şəhid olarkən neçə-neçə düşmən əsgərlni məhv etdiyini dönə-dönə qeyd edirdilər.

Şiddətli döyüşlərdə olduğumdan qardaşımın dəfnində iştirak edə bilməmişdim. Bu, indi də qəlbimdə sağalmaz bir yara olaraq qalır. Belə bir mahnı var: “Tabutun önündə gedəndir qardaş”. Qardaşımı nə son mənzilə çiynimdə apara bildim, nə də tabutunun önündə gedə bildim.

Bütün müharibələr ölüm-itim, fəlakət deməkdir. İstər 1941-45-ci il Böyük vətən müharibəsi, istər 1-ci Qarabağ savaşı, istər 2-ci Qarabağ savaşı kəndimizdə çox işıqları söndürdü, çox gəlinləri ərsiz, uşaqları atasız, anaları oğulsuz qoydu... Bir təsəllimiz var. Bu vaxtsız ölümlər, ayrılıqlar Vətən üçün, torpaq üçün oldu. Şəhidlər ölməz, vətən bölünməzdir.

Həyatda insana vacib olan iki şey var. Biri insanın sağlamlığı, biri də vicdanın rahatlığı. Heç olmasa, vicdanımız rahatdır ki, İsgəndərov qardaşlarının da vətən yolunda az da olsa əməyi, xidməti oldu.

**Raqub haqqında yaxın dostu Ədalət Yaqubovun dilindən:** Raqubla bir sinifdə oxumuşuq. 10 illik məktəb həyatının 8 ilini bir partada oturmuşuq. Hər ikimizin boyu kiçik olduğundan bizi orta cərgədə, 1-ci partada oturdurdular ki, lövhəni görə bilək. Uşaqlıq xatirəsi kimi, o mənim yaddaşımda sakit, mehriban bir yoldaş kimi qalıb. Qonşu məhəllədə, bibimgillə yanaşı evləri vardı. Demək olar ki, hər gün, ya da günaşırı görüşürdük. Dərsdən sonra çox vaxt ya o bizim məhəlləyə gələr, ya da mən onların məhəlləsinə gedərdim. Yoldaşlığımız səmimi dostluğa çevrilmişdi. Təəssüf ki, tale, ömür vəfa etmədi ki, uşaqlıqdan başlanan dostluğumuzu davam etdirək. Biz onunla bir yerdə çöl-bayır həyatı yaşaya bilmədik. Hər şey yarıda qırıldı. Onunla bu günə kimi yaxın dost, sirdaş olaraq davam edə bilərdik. O, buna layiq oğul idi. Bu gün Raqub üçün əlimdən gələn hər kəndə gedəndə onun qəbrini ziyarət etməkdir.

Mənimçün nəinki Raqub, torpağımız, vətənimiz uğrunda canından keçən şəhidlərimizin hamısı müqəddəs və unudulmazdır. Onlarla qurur duyur və ruhları qarşısında baş əyirəm. Haqqlarını bizə halal etsinlər.

***



**5. ARAZ HACIYEV**
**(05.03.1973 – 13.03.1993)**

Birinci Qarabağ müharibəsinin şəhidi Araz Mahir oğlu Hacıyev 1973-cü il aprelin 5-də Göyçay rayonunun Qaraxıdır kəndində dünyaya göz açmışdır. 1980-1990-cı illərdə Qaraxıdır kənd orta məktəbində orta təhsil almış, bir il sonra Göyçay şəhərindəki 106 №-li texniki peşə məktəbi bitirmişdir. Araz həqiqi hərbi xidmətini çəkmək üçün 1991-ci ildə Belarusiyanın Minisk şəhərinə göndərilmiş, çox keçməmiş öz istəyilə Bakıya qaytarılmışdır.

**Qardaşı Feyzullanın Araz haqqında sorğumuza cavabından:** "Qardaşım gülər üz, mehriban insan idi. Dostları arasında hörmət sahibi idi. Minskdən qayıtdıqdan sonra hərbi xidmətini Bakıda davam etdirməyə başladı. 1992-ci ilin iyun ayında onu Qazağa göndərdilər. Hərbi hissə rayon mərkəzində yerləşirdi. Onları sərhəd kəndi olan Bala Cəfərliyə, döyüş mövqeynə yolladılar. Araz öz dəmir atı ilə düşmənin başına od ələyirdi. Arada evə gəlmişdi, tez də qayıtdı. Qorxurdu ki, əsgərlər onsuz tankını sürüb xarab edərlər. Cəbhəyə döndükdən üç gün sonra şəhid oldu. 13 aprel 1993-cü ildə doğulduğu Qaraxıdır kəndində dəfn olundu.

Mən həmişə qardaşımla qurur duymuşam. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Biz ailədə 5 qardaş olmuşuq. Üçüncü qardaşım 6 aylıq olanda rəhmətə gedib. Onun adı Zaur idi. Onun adını balaca qardaşıma qoydular. Qardaşım Hacıyev Zaur Mahir oğlu 14 oktyabr 1975-ci ildə anadan olub. 1982-ci ildə orta məktəbə gedib. 1992-ci ildə orta məktəbi bitirib. Çox keçmədi ki, amansız xərçəng xəstəliyi onu yaxaladı. Bir il xəstə yatdıqdan sonra 1993-cü il fevral ayının 27-də Bakıda xəstəxanada vəfat etdi. Qardaşım Zaurun vəfatının 52-ci günü qardaşım Arazın ölüm xəbəri gəldi.

***

Bu ailə 52 gündə iki oğul övladını itirib. Biri çarəsiz dərdin qurbanı olub. Araz isə vətən uğrunda gedən savaşda şəhid olub. İki oğulun dünyasını dəyişməyi ailə üçün, xüsusilə ana üçün dözülməz olub. Ana bu itkilərdən uzun illər toparlana bilməyib, yatağa düşüb, sağlamlığını itirib. Bu gün də onun içərisində böyük bir təlaş, qorxu var. Oğlanlarının biri harasa gedəndə ana 100 dəfə qapıya çıxır, var-gəl edir, pəncərədən boylanır. Ananın qəlbində, beynində bir tramva qalıb. Dünyada hər dərdin çarəsi var, tək övlad itkisindən başqa. Övlad yarası ana üçün, valideynlər üçün qaysaqlanmayan yaradı. Uzun illər keçməsinə baxmayaraq, ana hələ də bu tale ilə, bu itkiylə barişmır, övladlarının yolunu gözləyir. Hər bir valideyinə aydındır ki, ailədə hər övladın öz yeri, öz nəfəsi var. Heç bir övlad bir-birini əvəz etmir, edə bilməz. İstər bir, istər on övlad olsun. Hansının taleyi dolaşıq oldu, başına bir iş gəldisə, ananın canı onun yanında olur. Düşünürəm ki, analar ana olduqdan sonra artıq öz taleyini yaşamır. Onlar hər gün, hər an "balam belə istəyir, oğlumçün belə daha xoşdur" deyərək övlad yolunda şam olaraq əriyir. Əriyir ki, övlad onun istisinə qızınsın, onun işığında yol getsin. Arazın anası Səmayə xanım da məhz elə analardandır. Övladın varılığı ilə, yoxluqu ilə yanan və yaşayan ana!

Ah. bu bala ağrısı,
Oxşaması, ağısı...
Heç zaman sönən deyil,

Ana- bala yanğısı...

**Qeyd:** Kitab çapa hazırlanarkən Səmayə xanım da dünyasını dəyişdi və şəhid övladına qovuşdu. Allah rəhmət eləsin.

***



## 6. MAİS QƏDİROV (29.12.1973 – 29.01.1994)

Birinci Qarabağ müharibəsi şəhidi Mais Firudin oğlu Qədirov 1973-cü ildə dekabr ayının 29-da Ləkçıplaq kəndində anadan olmuşdur. Erkən yaşlarından zəhmətə alışan, böyük-kiçik yeri bilən Mais hamıya əlindən gələn hörməti edən, qürurlu, mərd, anacanlı, mehriban bir oğul, bir qardaş, bir insan idi. Heç bir çətinlikdən qorxmaz, ən mürəkkəb işləri özü yoluna qoyar, həll edərdi. Maisgil ailədə 3 bacı, iki qardaş olublar. Ailənin sonbeşik övladı Mais idi. Sonbeşik olmağına baxmayaraq, onda zərrə qədər də olsun ərköyünlük olmayıb. Evin kiçik övladı olsa da, ailənin yükünü, əziyyətini çiyinlərində daşımağı bacarırdı.

Şəhidimiz Mais haqqında məlumatı bacısı Zülfiyyə xanımdan aldıq. **Sorğumuza cavab olaraq Zülfiyyə xanım qeyd edir:** “Qardaşım haqqında mənə danışmaq həm çətin, həm də qürurvericidir. Çətindir ona görə ki, qardaşım bu dünyadan nakam getdi. Anamızın sinəsinə oğul dağı çəkdi, onu ağlar qoydu. Qürurvericidi ona görə ki, mənə: “bu xanım qəhrəman Maisin bacısıdır” deyirlər. Qardaşım haqqında verəcəyim məlumat

təsadüfən anamın 40 mərasiminə düşdü. Ona görə daha çox acı yaşayıram. Anam bu dünyadan "bala" deyə-deyə getdi.

Övlad istər müharibədə şəhid olsun, istər maşın qəzasında, istərsə də yatıb oyanmasın. Ana üçün fərq etməz. Bala itkisi əvəz olunmaz və qəbul olunmazdır. Bu ağrnı ancaq bala itkisi yaşayanlar bilir.

Həyatda hər dərdin çəkisi var, tək bala dərdinin nə çəkisi var, nə də dərmanı. Anamın sinəsinə iki oğul dağı çəkildi. Maisin dərdini çəkə bilmirdi. O biri qardaşımız da dünyasını dəyişdi. Anam tək bir dəfə getdi şəhid oğlunun ziyarətinə. Elə orda da insult oldu. Düz 27 il anam bala dərdini yataqda yarımcan çəkdi. 27 ildir ki, 3 bacı bir qardaş Maisə ağlayırıq. Qardaşım vətənini, torpağını anasından çox istədi. Vətən sevgisi onu bu yola apardı. 1-ci Qarabağ müharibəsi başlayan zaman Mais könüllü olaraq bu savaşa qoşuldu. Anam da, atam da dedi ki, bala, hələ səni çağırmayıblar. Nə vaxt çağırarlar o zaman gedərsən. Dedi, nə danışırsız, bəlkə, heç çağırmayacaqlar. Mən müharibənin gedişini evdən oturub izləməliyəm ki, görək necə olacaq? Mən də ön cəbhədə olmalıyam. Hamının anası anadı, balası bala. Biz gedib torpaqlarımızı o dığalardan almalı, vətənimizə sahib çıxmalıyıq. Onlar çox quduzlaşıb. Heç vaxt heç nəyi olmayan gədələr gəlib bizim torpaqlarımıza yiyələnmək istəyir. Bu mümkün olan bir şey deyil. Son nəfəsimizədək vuruşub torpaqları geri qaytaracayıq. Torpaq bizim namusumuzdur. Anama deyirdi ki, ana, vətənə sevgi anaya olan sevgidən qaynaqlanır. Vətənini qoruyan anasını, bacısını qoruyur. Bu, 18-19 yaşlı bir gəncin ana haqqında, vətən haqqında bir çox yaşıdlarından fərqli olan düşüncələri idi.

Bu cür sağlam düşüncəli oğullara vətənin oğlu deyirlər. Mais Kəlbəcər rayonunun Murov dağında vuruşmuş, çox fəal döyüşçü olmuşdur. Cəbhə dostları və şəhidlər haqqında kitab yazan Əkbər Ağayev "Ruhların səsi" kitabında Maisin əsgər yoldaşlarının onun haqqında söylədiklərini də qeyd edib. Qeydlərdən məlum olur ki, Maıs ölümündən qabaq 19 erməni əsgərini məhv etmişdir. Yoldaşlarının dediyinə görə, o çox qorxmaz, cəsur, sərrast

qrantamyot atan olub. Maislə eyni gündə, eyni saatda iki əsgər yoldaşı – İsmayıl və Siracəddinin də şəhid olama xəbəri gəldi. Onlar öz igidlikləriIə sonrakı nəsillərə örnək oldular. Mais 1994-cü il yanvar ayının 29-da doğulduğu Ləkçıplaq kəndində torpağa tapşırıldı".

***

Ləkiçplaq kəndinin igidləri 44 günlük Vətən müharibəsində də hünər göstərdilər. Allah bütün şəhid ana və bacılarına, ailə üzvülərinə, həyat yoldaşlarına övladlarına səbir versin. Ən böyük zirvəyə ucalan şəhidlik şəhadətləri mübarək olsun. Allah hamısına rəhmət eləsin.



## 7. SƏXAVƏT DADAŞOV (20.01.1974 – 23.01.1994)

1-ci Qarabağ müharibəsi şəhidi Səxavət İnqilab oğlu Dadaşov 1974-cü il yanvar ayının 23-də Ləkçıplaq kəndində anadan olmuşdur. Orta məktəbi doğma kəndlərində bitirdikdən sonra Bakı şəhərindəki 14 №-li texniki-peşə məktəbində qaynaqçı peşəsinə yiyələnmişdir.

O, 1992-ci ilin may ayının 15-də əsgəri xidmətə yollanıb. Çox keçmədən silaha sarılaraq cəbhə bölgələrinə gedib. Qubadlı və Laçın bölgələri uğrunda döyüşlərdə yaxından iştirak edib. Qubadlının işğalından sonra batalyon dağılmış, Səxavət evlərinə gəlmişdir.

1993-cü ilin oktyabrında Səxavət Göyçay könüllülər batalyanona qoşuldu. Şükürbəyli, Aşağı Əbdürrəhmanlı, Yuxarı Əbdürrəhmanlı, Kərimbəyli və digər kəndlər uğrunda aparılan döyüşlərdə iştirak etdi. 1994-cü il yanvarın 23-də Yuxarı Əbdürrəhmanlı kəndini almaq məqsədilə 6 nəfər döyüşçü ilə birgə hücuma keçdilər. Sonra isə 48 nəfər əlavə qüvvə gətirildi. Döyüş şiddətləndi. Düşmənin döyüşən qüvvələri daha çox idi. Buna görə bizimkilər təlafatla hücumu dayandırdılar. Səxavət bu döyüşdə qarın nahiyəsindən aldığı yaradan qəhrəmanlıqla şəhid oldu.

Füzulidə şəhadətə qovuşan Səxavətin nəşi neytral zonada olduğuna görə, oradan götürmək mümkün olmayıb. Onu naməlum əsgər kimi yol qırağındakı üzüm tənəklərinin altında dəfn ediblər. Şəxavət şəhid olamazdan əvvəl telefon nömrəsini və ev ünvanını döyüş yoldaşlarının birinə veribmış. Dörd ay sonra, 1994-cü il may ayının 7-də həmin döyüşçünün yardımı ilə Səxavətin nəşi tapılaraq gətirilmiş, şəhid əsgərimiz doğma kəndlərindəki qəbristanlıqda dəfn olunmuşdur.

***

Əzizinəm qan ağlar,
Könül ağlar, can ağlar.
Bu gün yaman günümdür,
Mərd yanar, meydan ağlar.

Əzizim nələr gördüm,
Dərd dağı dələr gördüm.
Min şəhidin yasında,
Bir xalqı mələr gördüm.

Əziziyəm yas günü,
Yas-qara libas günü.
Qoymaram qiyamətə,
Qala bu qisas günü.

Əzizim sıxar məni,
Bir yana çıxar məni.
Bu qədər göz yaşları
Dağ olsam, yıxar məni.

Əzizim qara qanlı,
Çək zülfün dara qanlı.
Cəllad, əlin qurusun,
Güllə sərt, yara qanlı.

Əzizim başa çıxdı,
Yol gəldi daşa çıxdı,
Bir inama güvəndim,
Əllərim boşa çıxdı.

Əzizim yalan olmaz,
Yad dərdə qalan olmaz.
Kişi satqın çıxmasa,
Torpağı talan olmaz.

Əzizim keçər gedər,
Gələnlər köçər gedər,
Hər kəs öz əkdiyini,
Axırda biçər gedər.

Əzizim ordu məni,
Qan tökdü yordu məni.
Qoy bu dünya tanısın
Şəhidlər yurdu məni!!!

***Zəlimxan Yaqub***

***



**8.ELNUR MƏMMƏDOV (30.09.1975 – 28.03.1994)**

Birinci Qarabağ müharibəsinin iştirakçısı, itkin Elnur Həmid oğlu Məmmədov 1975-ci il sentyabrın 30-da Göyçay rayonunda anadan olmuşdur. 1993-cü il oktyabrın 13-də hərbi xidmətə çağrılmış, 5 ay Qusar rayonunda xidmət etdikdən sonra aprelin 20-də Tərtər rayonunun Qırmızıkənd bölgəsinə göndərilmişdir. Aldığımız məlumata görə, 1994-cü il aprelin 28-də döyüşdə olub, itkin düşüb və indiyə kimi tapılmayıb. Sonuncu ünvanı belə olub: Tərtər rayonu, Qırmızıkənd, 703-cü polk. Məmmədov Elnur Həmid oğlu.

Bir neçə ildən sonra ona şəhidlik statusu verilməsinə baxmayaraq, 91 yaşlı atası Həmid dayı bu gün də oğul həsrətiylə sızıldayır, göynəyir və bir gün mütləq oğlunun gələcəyinə inanır. Gecə-gündüz gözləri qapıda, qulağı səsdə qalıb. Acizanə şəkildə ümid etdiyi şəxslrə titrək səslə yalvararaq: "Nə olar, körpə Elnurumdan mənə bir xəbər verin. Balam haçan gələcək? Mən onun çiyinlərində haqq dünyasına getmək istəyirəm. Mənimki yaşamaq deyil. Ölmək istəyirəm, amma ölə bilmirəm. Balamın yolunu gözləyirəm. O, gələcək, mütləq gələcək", - deyir.

Əzizim gözlərəm mən,
Ağlaram, gözlərəm mən.
Sən gəlincə ölmərəm,
Can verib gözlərəm mən.

## ŞƏHİDLƏR

Şəhidlər günəş kimi nur çiləyir hər zaman,
Şəhidlər gedən yolu bağlaya bilməz tufan,
Şəhidlər el yolunda canını verib qurban.
Şəhidlər qanlarıyla boyayıblar torpağı,
Şəhidlər zirvələrə qaldırıblar bayrağı.

Şəhidlər yatan torpaq ocağa, pirə dönər,
"Şəhidlər xiyabanı " uzaqlardan görünər,
Şəhidlər anılan yer qərənfilə bürünər,
Şəhidlər bu dünyada dönərlər bir günəşə,
Şəhidlər ölməz olur, yaşayırlar həmişə.

Şəhidlər qeyrət tacı, ucalıq zirvəsidir,
Şəhidlər haqqın səsi, azadlıq nəğməsidir,
Şəhidlər yatan qəbir istiqlal türbəsidir,
Şəhidlər Tanrımızın sevdiyi bəndələrdir,
Şəhidlər ölmür heç vaxt, ömrü dünya qədərdir.

Şəhidlər candan artıq sevdilər ana yurdu,
Şəhidlər qoymadılar sönə ocağı, odu,
Şəhidlər qazandılar müqəddəs şəhid adı,
Şəhidlər bu torpağın, bu xalqın qan yaddaşı,
Şəhidlər igidliyin, hünərin yol yoldaşı.

Şəhidlər verən Vətən başını uca tutar,
Şəhidlər verən millət hər arzusuna çatar,
Şəhidlər gözəl yerdə- cənnətdə rahat yatar,
Şəhidlər el-obaya yol göstərən mayaqdır,
Şəhidlər zülmətlərə nur çiləyən çıraqdır.

Şəhidlər, siz ölümdən, siz qandan qorxmadınıız,
Şəhidlər, çətin anda siz candan qorxmadınız,

Şəhidlər, qəlbimizdə qərar tutub adınız,

Şəhidlər deyiləndə dağ da, daş da ağlayır,
Şəhidlər deyiləndə sellər, sular çağlayır.

Şəhidlər ana yurdun qüruru, iftixarı,
Şəhidlər, qorudunuz, hər an namusu, arı,
Şəhidlər insanların ucası, bəxtiyarı,
Şəhidlər qalxan yerə qalxa bilməz hər yetən,
Şəhidlər doğuldu ki, yaşasın ana Vətən.

Şəhidlər, siz qıydınız, kim qıyardı canına,
Şəhidlər, siz döndünüz xalqın qəhrəmanına,
Şəhidlər, çevrildiniz bir hünər dastanına,
Şəhidlər, Vətən sizə hər gün alqış söyləyir,
Şəhidlər, Əziz Musa qarşınızda baş əyir.

***Əziz Musa***

***

# BİRİNCİ QARABAĞ MÜHARİBƏSİNİN QAZİLƏRİ



## 1.ELDƏNİZ KƏRİMOV (1952 - 4.06.2009)

Birinci Qarabağ müharibəsi döyüşçüsü Eldəniz Həmid oğlu Kərimov 1952-ci ildə Göyçay şəhərində anadan olmuşdur. 1968-ci ildə Göyçaydakı 1 N-li orta məktəbi bitirmiş, hərbi xidmətdə olmuş, əsgərlikdə "NNO" medalı ilə təltif olunaraq "idmançı əsgər" adını qazanmışdır.

Eldəniz Kərimov 1978-ci ildə Bakı Kondisioner zavaodunda işə düzəlmiş, 1-ci Qarabağ müharibəsi başlananda könüllü olaraq cəbhəyə yollanmış, 16 mart 1992-ci ildən 702 (723) N-li hərbi hissənin tərkibində Füzuli rayonunda döyüşlərdə iştirak edtmişdir.

**Eldənizin cəbhə xatirələrindən:** Yay ayları olduğundan hava çox isti keçirdi. Xəbər gəldi ki, postda keşik çəkən əsəgərlərimiz neçə gündür susuz qalıblar. Eşidən kimi su dolu konistri götürüb əsgərlərimizin keşik çəkdiyi mövqeyə tərəf yollandım. Yoldaşlarım çox qorxdular, çünkü oraya gedən yol minalanmışdı. Ancaq çox şükür ki, məqsədimə nail oldum. Minalanmış təhlükəli sahəni keçərək suyu yoldaşlarıma çatdrdım.

**Əsgər yoldaşı Bəhərçinin Eldənizlə bağlı xatirələrindən:** Bizim uşaqlar meşə yolunda minaya düşmüşdülər. Eldəniz məsələ-

dən xəbər tutan kimi heç kəsə demədən gedib ermənilərlə haqq-hesab çəkmək qərarına gəlir. Bir də eşitdik ki, atışma səsi gəlir. Baxdıq ki, Eldəniz yoladşlarımızın içərisində yoxdur. Uşaqlardan biri dedi ki, Eldəniz meşəyə ermənilərlə döyüşməyə getdi. Yəqin onlarla atışır. Biz bir neçə yoldaş: ağdamlı Mürvət, zəngilanlı Rafiq minalanmış sahədən atışma səsi gələn yerə tərəf qaçdıq. Ayağımızın altında bir çöp qalanda elə bilirdik ki, minadır. Rafiq tank təmiri ustasıydı. O da döyüşlərə könüllü qoşulmuşdu. Əfsus ki, döyüşlərin birində yanında partlayan mərmi qəlpələrinə tuş gələrək şəhid oldu.

Biz bir-birimizə güvənir, bir-birimizi darda qoyan deyildik. Nəhayət, Eldənizin olduğu yerə çatıb onunla birlikdə ermənilərlə döyüşməyə başladıq. Onların bir neçəsini cəhənnəmə vasil eləyib heç bir itki vermədən sağ-salamat geri, yoldaşlarımızın yanına döndük.

**Eldəniz müəllimlə bağlı mənim də heç vaxt unuda bilməyəcəyim bir xatirəm var:** Eldəniz böyük qardaşım Sabirlə dost idi, ailəvi gediş-gəlişləri vardı. Qardaşıma görə Eldəniz müəllimlə aramızda qardaşlıq münasibəti yaranmış, ailəvi yaxınlığımız var idi. Bir-birimizin xeyir-şərində iştirak edir, məclislərimiz onlarsız keçmirdi.

Qızım Ləman xəstəxanada yatırdı. Eldəniz müəllim xanımı Töhfə müəllimə ilə ona dəyməyə gəlmişdi. Ləmanla görüşüb bir qədər oturandan sonra palatadan çıxdılar. Palatanın çıxışında Eldəniz müəllim başını qapıya söykəyərək üzümə baxdı və hüznlü bir səslə dedi: “Bacı, Allah mənim ömrümdən kəsib bu balanın ömrünə calasın”. Sonra da əlini üzünə tutub hönkürə-hönkürə uzaqlaşdı.

Eldəniz müəllim alicənab insan, sədaqətli dost, qayğıkeş ata, vəfalı həyat yoldaşı idi. O, Göyçayda, Qafqaz dağlarının ətəyində torpağa tapşırılıb. Bir gün yoldaşımla onun ziyarətinə getmişdik. Ayrılarkən dedim: “Qardaş, Ləmanımın ömrü kimi heç sənin də ömrün uzun olmadı”.

**Həyat yoldaşı Töhfə xanımın dediklərindən:** 1883-cü ildə ailə qurduq. Mənzər və Lalə adlı iki qızımız dünyaya gəldi. O, çox

gözəl həyat yoldaşı, qayğıkeş ata idi. Övladlarından birinin toyunu görmək ona qismət oldu. 2007-ci ildə qızımızın oğlu Murad dünyaya gəldi. Bir baba kimi Allaha şükür edərək uşağı sevir, əzizləyir, ona qədərincə vaxt ayırırdı. Əfsus ki, Əzizə nəvəsini görmək ona qismət olmadı.

O, çox pozitiv, mərd və mübariz, çətinliklərə sinə gərməyi bacaran bir insan idi. Ailləsinə qarşı çox diqqətli idi. İstəklərimizi yerinə yetirməkdən xüsusi zövq alardı. İnsanların qəlbinə toxunmaqdan ehtiyat edər, hər hərəkətini, sözünü yüz ölçüb bir biçərdi. Vətən yolunda, dost yolunda "uf" demədən canından keçərdi. O mənə tək həyat yoldaşı yox, həm də dost və sirdaş idi. Qızları ataları ilə, nəvələri babaları ilə fəxr edib ona layiq olmağa çalışırlar.

Tez getdi, çox tez...

Allah ona qəni-qəni rəhmət eləsin.

***

## 2.MƏHƏBBƏT RÜSTƏMOV (1957)



1-ci Qarabağ müharibəsi döyüşçüsü Məhəbbət Əlsaab oğlu Rüstəmov 1957-ci ildə Göyçay rayonunun Ləkçıplaq kəndində anadan olmuşdur. 1977-ci ildə əsgəri xidmətdən sonra Rusiyanın Ryazan şəhərində milisə işə düzəlmiş, işləyə- işləyə Moskva Milis Məktəbini və Moskva Milis Akademiyasını bitirmişdir. Növbətçi, sahə müvəkkili, müstəntiq vəzifələrində işləmişdir.

1988-1990-cı illər Qarabağda müharibə başlayarkən yazılı surətdə Azərbaycan Ali sovetinə, Daxili işlər Nazirliyinə Qarabağa getmək, öz vətəndaşlıq borcunu vermək istəməsi barədə müraciətlər etdiynə baxmayaraq heç bir cavab ala bilmir. Nəhayət, axırıncı dəfə Daxili İşlər Naziri mərhum Məhəmməd Əsədova müraciət edəndən sonra müsbət cavab alır, Rasıyadakı evini Gəncə şəhərinə dəyişib 1990-cı ilin avqust ayında ailəsilə birlikdə Azərbaycana gəlir. M.Əsədov şəxsən onu və çoxlu sayda Rasiyadan gələn könüllüləri qəbul edib onlara xeyir-dua verir. Məhəbbət Rüstəmovu Zəngilan rayonundakı Xüsusi Təyinatlı dəstəyə (OMOH) göndərir və o, ailəsi ilə birlikdə Zəngilanın Malakeşin kəndində məskunlaşır.

Məhəbbət Rüstəmov deyir ki, ermənilər Mehri və Qafan rayonu istiqamətlərindən kəndlərimizə tez-tez hücum edirdilər. Zəngilan rayonunun əhalisi çox kasıb, amma , təmiz insanlar idi. Biz tez-tez döyüşlərdə iştirak edərdik. Mən döyüşlərdə olarkən qonşularımız Rəşid və Cavad kişinin həyat yoldaşları mənim ailəmin

yanında olurdular, onları tək qoymurdular. Bu günə kimi biz o dar gündə tanıdığımız qonşularla münasibəti, dostluğu davam etdiririk.

Bir çox döyüşlərin iştirakçısı olmuşam. Zəngilanın Qazançı kəndində olan gecə döyüşünü isə heç vaxt yaddan çıxara bilmirəm. Ermənilər kəndə hücum etmiş, əhali dağa-dərəyə, meşəyə səpələnmişdi. Biz polis şöbəsilə birlikdə həyəcan siqnalı ilə hücum edərək itki vermədən onları geri çəkilməyə məcbur etdik. Döyüşdə onların bir neçə milis işçisi öldürüldü. Ermənilərin milis kapitanı əlində əl bombasını sıxaraq ölmüşdü. Meyitləri yığıb təhvil verərkən yaxşı ki, bunu gördük, bombanı zərərsizləşdirdik, yoxsa çox böyük itkimiz ola bilərdi.

Hər iki-üç gündən bir ermənilər kəndlərimizə hücum edirdilər. 1990-1991-ci illər biz bir döyüşçü də olsun itirməmişdik. Ermənilər: "OMON gəlir" eşidəndə postları, kəndləri, evlərini atıb qaçırdılar. Ən ağır döyüşlərimiz Vejnəli qızıl mədənlərində, Nüvədi kəndi istiqamətində qış fəslində olub. Seyidlər kəndi uğrunda döyüşlərimiz uğurlu döyüş kimi yadımda qalıb.

1992-ci il hərc-mərclik, hakimiyyətsizlik, baxımsızlıq, laqeydlik dövrü idi. İcra hakimiyyəti, məmurlar əsgərlərlə, orduyla qətiyyən maraqlanmırdılar. OMON-çulara gələn ərzağı bizə çatdırmır, yeyib-dağıdırdılar. Bizim xəbərimiz olmayıb ki, həmin vaxt Lənkəran rayonu bizi, OMON-çuları ərzaqla təmin edirmiş. Satqınlıq, xəyanət, baş alıb gedirdi. Bir dəfə ərzaq bölgüsündə İcra Hakimiyyətinin həyətində dava-dalaş düşdü. Biz döyüşə gedərkən özümüz ərzaqı evdən götürüb aparırdıq. Çörəyi öz pulumuzla alırdıq. Orduya heç bir kömək, yardım olmurdu. Silahımız da yox idi. 2-3 nəfərə bir avtomat düşürdü. Patronu da sayıb verirdilər. Rus zabitlərindən öz pulumla 200 patron, 4 əl bombası almışdım.

1992-ci ildə silah-sursat işi qaydasına düşdü. 1992-ci ilin sentyabr ayında Seyidlər kəndində 3 gün idi döyüşürdük. İtkimiz yox idi, amma yaralananlar var idi. 2 gün idi ki, kömək gözləyirdik. Mənim rütbəm kapitan idi. Dəstənin komandiri mən idim. Yaralılarımızı gecə ikən yola salırdıq, çünki gündüz çox təhlükəli idi. Sağ

tərəfdən çox yüksək qayalardan, dağlardan snayperlər gözümüzü açmağa imkan vermirdilər. Qarşı tərəfdə Qafan rayonu idi. Bizim 2 uzaqvuran topumuz vardı. Onlarla Qafan rayonunu dağıdıb-tökürdük. Bir dənə də əldə düzəldilmiş 2 mərmi atan "Qrad"ımız var idi. Onu da dəqiq atmaq mümkün deyildi, hara gəldi atırdıq. Bir dəfə 15-20 döyüşçü düşdük mühasirəyə, hamımız bir-birimizi qoruyurduq. Təxminən gecə saat 02:00 radələrində çox güclü leysan yağış yağdı. 3 tərəfdən mühasirədə idik. İki dərənin arasından gələn yağışın, selin suyuna özümüzü atıb saat 7 radələrində Oxçu çayına çatdıq. 8-10 km yol qət edərək gəlib rayon mərkəzinə çıxdıq. İcra başçısı Telman Kazımovla, komandir mayor Məmmədovla dalaşdıq, söyüşdük. Acsusuz, tozun, palçığın içində özümüzü çatdırdıq hovuzun yanına. Silahlarımızı, paltarlarımızı yuyub təmizlədik. Soyuqdəymədən xəstələndim və 25-30 günə qədər müalicə aldım. 1993-cü ilin yanvarın 1-dən 30-a dək Ağdam rayonunun Ergu güzü, Haramı düzü istiqamətlərində döyüşlərdə oldum. Döyüşdən sonra Daxili İşlər naziri İsgəndər Həmidovun əmri ilə Yevlax rayon polisinə kadrlar şöbəsinin rəisi vəzifəsinə göndərildim. 1994-2010-cu illər İsmayıllı Rayon Polis Şöbəsində növbətçi, sahə müvəkkili vəzifələrində işləmişəm. 2010-cu ildən Polis mayoru rütbəsində istefaya çıxmışam. 2-ci Qarabağ müharibəsində könüllü müharibəyə getmək istədim, yaşım çox olduğuna görə məni aparmadılar. Amma bu günə qədər özümə bağışlaya bilmirəm ki, vətən müharibəsində iştirak edə bilmədim. Sonra biləndə ki, Müdafiə Nazirliyinə müraciət etmək lazim idi, çox gec oldu. Artıq, qələbə qazanmışdıq.

Məhəbbət Rüstəmov ailəlidir. 3 övladı var.

Həyat yoldaşı Vüsalə Həmdulla qızı evdar qadındır.

Böyük qızı Rüstəmova Mirvari Məhəbbət qızı APU-nun həm bakalavr, həm də magistratura pillələrinin bitirmişdir. Ortancıl qızı Rüstəmova Könül Məhəbbət qızı Şuşa Musiqi Texnikumunun məzunudur. Kiçik qızı Rüstəmova Arzu Məhəbbət qızı Bakı Dövlət Universitetinin 4-cü kurs tələbəsidir.

***



## 3.AYDIN YAQUBOV (1959 – 25.03.2011)

1-ci Qarabağ müharibəsi qazisi Aydın Yaqub oğlu Yaqubov 1959-cu ildə Göyçay şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1966-1976-cı illərdə Göyçay şəhərindəki 7 N-li məktəbdə orta təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Rusiyanın Murmansk şəhərində hərbi xidmətdə olmuş, hərbi xidməti başa vurub Azərbaycana qayıdandan sonra 1978-ci ildə Bakı Maliyyə Kredit Texnikumuna daxil olmuş, 1980-ci ildə mühasibat uçotu ixtisası üzrə tam kursu birtirmişdir. 1980-ci ildən Göyçay şəhər internat məktəbində mühasib vəzifəsində çalışmış, 1987-ci ildən isə rayondakı Çaytikanı kooperativinin rəhbəri olmuşdur. Uzun müddət Göyçay Rayon Əlillər Cəmiyyətinin sədri olan Aydın əlillər üçün torpaq sahələri alaraq əkin əkdirmiş, şəhid və qazi ailələrinə, onların övladlarına həmişə diqqət və qayğı göstərmişdir.

Aydın Yaqubov II qrup əlil idi. O, Şuşanın müdafiəsində əli silahsız əlbəyaxa döyüşənlərdən biri olub. Döyüşlərdə bir neçə dəfə yaralanmasına baxmayaraq, müalicə olunduqdan sonra yenidən döyüş meydanlarına qayıtmış, Şuşa mühasirəyə alınarkən orada axıra qalan üç döyüşçüdən biri olmuşdur.

Aydın Yaqubov dünyasını dəyişdiyi üçün biz onunla bağlı məlumarları həyat yoldaşı Böyükxanım müəllimədən və kiçik bacısı Dilbər müəllimədən aldıq.

**Böyükxanım müəllimə həyat yoldaşının cəbhədə başına gəlmiş bir hadisəni bizə aşağıdakı kimi nağıl elədi:** Daşaltı əməliyyatında çox sayda əsgərlərimizin şəhid olması Aydının gözləri qabağında baş verib. Aydın danışırdı ki, sağ qalanlar şəhid yoldaşlarının birinin qolunu, o birinin ayağını tapıb gətirir, əzalarını bir yerə toplayırdılar. Aydıngil 10 nəfər yoldaş olub mart-aprel aylarında Şuşaya giriblər. Vəziyyətin çətinliyini görən komandirləri onları Şuşada qoyaraq Bakıya qaçıb. Aydıngil Şuşaya girən kimi türmənin qapılarını açaraq oradakı dustaqları azad edib, özləri də bir binaya sığınıblar. Azərbaycanlı əsgərlərin binada gizləndiyini duyan ermənilər həmin binanı partlatmış, sonra da uçqunun altından sağ çıxan əsəgərlərimizi bir-bir güllələyiblər. Aydın özünü ölülüyə qoyaraq yaralı, taqətsiz halda bir sutkaya qədər üzü üstə qalıb.

Aydın danışırdı ki, ermənilər öz dillərində danışa-gülə meyitləri tapdalaya-tapdalaya gəzirdilər. Bərk ağrımağma baxmayaraq nəfəsimi içimə çəkib dözürdüm. Ermənilər gedəndən sonra başqa bir dəstə gəldi. Elə zənn etdim ki, onlar da ermənilərdir. Gələnlərdən biri Azərbaycan dilində dedi: "Gəlin bir-bir axtaraq, bəlkə, sağ qalanımız var". Bu sözləri eşidən kimi, güc-bəla ilə səsimi çıxararaq: "Mən buradayam", - deyə bildim. Əsgərlər dərhal yardım edib məni oradan götürüb xəstəxanaya çatdırdılar.

Aydın müəllim ensiklopedik biliyə malik zəkalı və istedadlı bir insan idi. Onunla hər mövzuda çox rahat söhbət etmək olurdu. Hərdən mənə elə gəlirdi ki, o, iqtisadçı yox, hüquqşünas, diplomatdır. Nədən sual versəydin, çox təmkinlə, asta-asta danışar, sualları cavablandırardı. O həm də ilahiyyatı dərindən bilən adam idi. Hər sözü, kəlməsi Allahın adı ilə bağlı olan Aydında adamı diqqətlə dinləmək mədəniyyəti var idi.

Hərdən mənə elə gəlirdi ki, yəqin mən də nəsə bilirəm. O danışıb açıqlama verəndən sonra başa düşürdüm ki, əslində bildiklərim şox səthidir. Aydın mənəviyyat adamı idi. O, qətiyyən maddiyyatı düşünməz, ürək sevindirmək, ehtiyacı olanlara yardım etmək, imkansızlara baş çəkmək onun ən ali fəzilətlərindən idi. O,

tez-tez xəstələrə baş çəkər, onları Quran ayələrindən və hədislərdən gətirdiyi misallarla ovundurmağı bacarırdı.

**Haşiyə:** Qızım Ləman xəstə idi. Gətirib dərman verdim. Dərmanı qəbul etməkdən imtina etdi. Dedi ki, mənim dərmana yox, ilahi söhbətlərə ehtiyacın var. Elə bil Allah onu o dəqiqə eşitdi. Heç beş dəqiqə keçməmiş əmim oğlu Aydın bizə gəldi. Ləmanla düz dörd saat Allahın möcüzələrindən, insanların yaxşı-pis əməllərindən, axirətdən danışdı. O danışdıqca Ləman maraqla qulaq asır, qeydlər edirdi. Beləliklə, dərman atmaq yaddan çıxdı və o gecəni Ləman çox rahat yatdı. Əmim oğlu gedəndə Ləman dedi k, Aydın əmi, bizə tez-tez gəl. O da: "Baş üstə, Ləman. Mən hər gün sizə gələrəm. Təki sən sağalıb şirin-şirin yata biləsən", - dedi.

Təəssüf ki, o görüşdən sonra Aydın bizə təsəlli verməyə gəldi.

Aydın xəstə yatırdı. Bir gün ona dəyməyə getdik. Palataya girərkən onun rənginin solduğunu, bir qədər də çətin nəfəs aldığını gördüm. Kövrəldim, qəhər məni boğdu. O, çarəsiz dərdlə üz-üzə qalmışdı. "Necəsən?", - dedim. Aydın gülümsəyərək: "Şükür Allaha, yaxşıyam. Ağlama, niyə ağlayırsan? Mən dünyasını dəyişən əzizlərimizdən, valideynlərimizdən, nakam Ləmanımızdan artıq deyiləm. Bir gün doğulan, bir gün də getməlidir. Bu dünyadan apara biləcəyimizsə, bircə rəhmətdir. Onu apara bilməyi Allah bizə nəsib eləsin. Bu düyada ikən o dünya, axirət üçün yaşamaq gərək. Allah günahlarımızı bağışlasın",- dedi.

Aydın müəllim çox keçmədən, 2011-ci il aprel ayının 25-də dünyasını dəyişərək əbədiyyətə qovuşdu.

Allah qəni-qəni rəhmət eləsin, məzarı nurla dolsun.

***

Yoldaşı Böyükxanım Tağı qızı Hüseynova 1962-ci ildə Göyçay şəhərində anadan olub, müəllimədir.

Oğlu Emil Yaqubov Göyçayda anadan olmuş, İqtisadiyyat Universitetini bitirmişdir.

Qızı Mehri Yaqubova ailəlidir, iki övlad anasıdır.

**Qeyd:** Dünyasını dəyişəndən sonra Aydın Yaqubova dövlət tərəfindən müharibə əlili kimi 3 otaqlı mənzil verilmişdir.

***



**4.MƏHARƏT İSMAYILOV (20.08.1959)**

Birinci Qarabağ müharibəsi qazisi Məharət Əhməd oğlu İsmayılov 20 avqust 1959-cu ildə Göyçay şəhərində ziyalı ailəsində anadan olmuşdur.

1966-cı ildə Göyçay şəhər 6 saylı məktəbin birinci sinfinə qəbul edilmiş, 1974-cü ildə 8-ci sinfi bitirdikdən sonra Bakı şəhərinə getmiş, Sabunçudakı 158 saylı fəhlə-gənclər orta məktəbində orta təhsilini (gecə məktəbi) davam etdirmiş, eyni za manda 6 saylı texniki peşə məktəbində də peşə təhsili almışdır. 1975-ci ildə gecə məktəbində təhsilimi davam etdirməklə yanaşı, Bakı Baş Tikinti İdarəsi 11 saylı “ Yüksək mərtəbəli yaşayış evləri tikinti” trestinin 24 saylı Tikinti İdarəsində təyinatı üzrə suvaqçı işləmiş, 1976-cı ildə Bakı Sənaye Pedaqoji Texnikumunun “Mülki və Sənaye tikintisi” fakültəsinə daxil olmuşdur. 1979-81-ci illərdə SSRİ qoşunları tərkibində Odessa şəhərində Daxili Qoşunların hərbi hissələrinin “N” saylı hərbi hissəsinin xüsusi təyinatlı taqımında hərbi xidmətdə olmuş, hərbi xidmətini başa vurduqdan sonra yarımçıq qalmış təhsilini davam etdirmiş və 1982-ci ildə Bakı Sənaye Pedaqoji Texnikumunu müəffəqiyyətlə bitirmişdir. Ailə vəziyyəti ilə əlaqədar təyinatdan imtina edərək Bakıda qalmamış, Göyçaya qayıdaraq 18 saylı Mexanikləşdirmə sahəsində suvaqçı kimi işə başlamış, 1984-cü ilin fevral ayından həmin idarədə irəli çəkilərək iş icrası vəzifəsinə təyin olunmuş, daha sonra iş yerini dəyişərək

1991-ci ilə qədər 67 saylı Səyyar Mexanikləşdirmə Dəstəsində texniki istehsalat şöbəsinin rəisi vəzifəsində çalışmışdır.

Məharət İsmayılov 12 yanvar 1990-cı ildən 1993-cü ilin oktyabrına qədər Qarabağda erməni-rus işğalçılarına qarşı gedən döyüşlərdə könüllü kimi iştirak etmiş, 1993-cu ilin oktyabrından 1996-cı ilin yanvar ayına qədər isə Milli Ordunun tərkibində zabit kimi orduda xidmət etmişdir. Müxtəlif döyüşlərdə, müxtəlif vaxtlarda dəfələrlə yaralanmış, hazırda 1-ci dərəcəli Qarabağ müharibəsi əlili kimi dövlətdən təqaüd alır.

***

## CƏBHƏ XATİRƏLƏRİMDƏN BİR YARPAQ...

1994-cü ilin fevral ayının əvvəli. Ermənilərdən azad etdiyimiz Haoradiz qəsəbəsi yaxınlığında yerləşən Arayatlı kəndinə məxsus fermalardan bir qədər aralı, irəlidə cəbhə xətti keçir. Erməni mövqelərinə bir neçə dəfə həmlə etsək də, yenidən mövqelərimizə çəkildik. Gözlənilməz an və məqamlarda peyda olan erməni tankları və PDM–2-ləri işimizi pozur. İki gün əvvəl qəhrəman tankçılarımız T-55-lərə ermənilərin daha müasir iki T-72 tankını vurub. Amma ermənilər tərəfdən bu boşluq dərhal doldurulur. Bu gün iki tankımız düşmən səngərini yarıb irəli keçdi və əlverişsiz mövqedən erməni T-72-ləri ilə tank döyüşünə girdi. Üstünlük bizim tərəfdə olsa da, cinahda gizlədilmiş erməni PDM-2 döyüş maşını gözlənilməz mövqedən tankımızın birinin qülləsini sıradan çıxartdı. Qülləsi heç yana dönə bilməyən T-55 tankımız döyüş qabliyyətini itirdi və sürətlə geri çəkildi. İkinci tankımız təkləndi. Onu da vurdular və tank alışıb yanmağa başladı.

Artıq qaş qaralırdı. Təcili kəşfiyyat məlumatları əldə etmək üçün kəşfiyyat taqımımız düşmən arxasına göndərildi. Kəşfiyyatçı olmasam da, könüllü onlara qoşulmaq istədiyimi komandanlıqdan

xahiş etdim. Tabeliyimdə olan hərbiçilər ön mövqedən bu gün arxaya aparıldığından (qrafikə əsasən əvəzləndiyindən) icazə ala bildim. Təmas xəttində lazımı anlarda bizi qoruya biləcək (düşmən kəşfiyyatçılarımızı aşkar edəcəyi təqdirdə döyüşə girib bizi atəşlə qoruyacaq) atəş nöqtələri qoyub təmas xəttini keçə bildik.

Dostum olan kəşfiyyat taqımının komandiri ilə razılaşıb daha sürətlə tək irəli gedib təqribən 300 metrlik məsafə onlardan aralandım. Çevik və sürətli hərəkət edə bilim deyə, qış ayları üçün verilən iki qat alt paltarını və toxunma siviteri əynimə geyinməmişdim. Yalnız yalın bədənə əsgər formasını və buşlat (onun da isti işliyini çıxartmışdım) geyinmişdim ki, daha sürətli hərəkət edə bilim. Bilirdim ki, təmas xəttindən düşmən müdafiəsinin içərisinə doğru nə qədər çox irəliləsəm, təhlükə də bir o qədər azalır. İşimizi ən çox çətinə salan səmanın buludsuz olması və ayın bütövləşmiş halda yeri işıqlandırması idi. Bu, bizim düşmən tərəfdən aşkar edilməyimzə səbəb ola bilərdi.

Düşmənin vurduğu yanan tankımızın təqribən 100-120 metrliyində öldürülmüş tankçımızın nəşini gördüm. Ətrafı xeyli müşahidə edib yaxınlaşdım. Görünür, yanan tankdan çıxıb uzaqlaşan tankçımızı bura çatanda ermənilər güllə ilə vurmuşdular. Buşlatının yaxasını açıb, qoltuq cibinin üstündəki xlorla yazılmış yazıya baxdım. Soyadı və Yexlax RHK (Yevlax Rayon Hərbi Komissarlığı) yazılmışdı. Onun cəsədinin altında halqası çəkilmiş qumbaranı da aşkar edə bildim. İşıqlı gecə burada məni ölümdən qutardı. Cəld oradan uzaqlaşıb irəliyə doğru əvvəl sürünə-sürünə, sonra yeyin addımlarla irəlilədim. Bu zaman xeyli arxada, təmas xəttində atışma başladı və tezliklə sürətli xarakter aldı. Ermənilər kəşfiyyat taqımını aşkar edə bilmişdi. Döyüşə ön mövqedəki hərbiçilərimiz də qoşuldu. Atışma səsindən hiss etdim ki, kəşfiyyatçılarımız döyüşə-döyüşə öz mövqelərimizə doğru çəkilirlər. Geri qayıtmağım artıq mümkün deyildi. Düşündüm ki, geri qayıtsam, məni aşkar edib vuracaqlar. Daldalanmaq üçün münasib yer də yox idi. Erməni mövqelərinin arxasına doğru daha uzaqlara getməkdən başqa çarəm qalmadı. Təqribən 1-

1,5 km məsafədə düşmən arxasına gedib təmas xəttindən xeyli uzaqlaşdım.

Gecə saat 3 radələri olardı ki, külək başladı. Ayazlı, şaxtalı hava küləyin təsirindən daha çox təsir edir, şaxta qılınc kimi kəsirdi. Bir müddət hərəkətsiz qaldığımdan əzalarım donurdu. Ərazini tanımadığımdan və ermənilərin haralarda yerləşdiklərini bilmədiyimdən xeyli müşahidə aparıb sonra hərəkət etmək məcburiyyətində idim. Müəyyən yerlərdə açıq havada qaladıqları tonqallardan yerlərini bilmək olsa da, blindaj tipli yerlərdə qalanları aşkar etmək çətin idi. Ehtiyatla hərəkət edirdim. Kiçik bir səhv məni labüd ölümlə üzüzə qoya bilərdi.

Soyuq iliyimə işləyirdi. Sürürə-sürünə xırda boz təpəlik və dikdirlərə qalxıb yenə müşahidə apardım. Qarşıma su çuxurları çıxdı. Təpə aşağı uzanan çuxur boyu xeyli süründüm. Lazım gələndə gizlənməyə və şaxtalı küləkdən qorunmağa münasib yer axtarırdım və çuxurun nisbətən dərin yerinə çatdım. Bir qədər orda daldalandım. Saxta yenidən təsir etməyə başladı. Hərəkət etmək lazım idi. Çuxurdan çıxıb irəli süründüm. Ayın işığında xeyli irəlidə torpaq yol görünürdü. Ayın gur işığında yola yaxınlaşmaq təhlükəli idi. Ətraf, çılpaq təpəliklər az qala gündüz görünən kimi görünürdü. Üzü üstə uzanıb yolu müşahidə etməyə başladım. Maşın səsi gəlməyə başladı. Çox keçmədi ki, yolda əvvəl maşınların işığı, sonra isə qabaqda təcili yardım tipli UAZ avtomobili və üstü tentli 3 "Ural" maşını göründü. "Ural"lardan birinin arxasına təkərli səhra mətbəx qazanı (kotyol) yedeklənmişdi. Ön mövqelərinə tərəf irəliləyirdilər. Yəqin ön mövqelərindəkiləri əvəzləyəcəkdilər.

Sağa, şərqə tərəf burulub yenidən sürünməyə başladım. Qış olsa da, yer palçıq deyildi. Yorulmuşdum, amma mövqeyimi dəyişədəyişə müşahidə aparmalıydım. Həm düşdüyüm ərazini tanımalı, həm mümkün məlumat toplamalı, həm də donmaqdan qorunmalı idim. Başqa çarəm yox idi.

Artıq səhərin açılmasına az qalırdı. Geriyə sürünüb çuxurda daldalandığım yeri çətinliklə tapa bildim. Çox yorulmuş, həm də susamışdım. Qumqumadan bir neçə qurtum su içib dayandım, suyu israf etmək olmazdı. Arxa çantamda bir çörək, bir tuşonka, yeməkdən savayı bir də əl-üz dəsmalım var idi. Çuxurda yerləşib buşlatın yaxasından nəfəsimlə bədənimi isitməyə çalışdım. Ən soyuq və küləkli hava dan söküləndə oldu. Yuxum gəlirdi, amma şaxtanın təsirindən yatmaq mümkün deyildi. Topuqdan qurşağa qədər ayaqlarım donmuşdu. Gün qalxana qədər bir təhər dözdüm. Sonra ətrafa boylanıb çuxurdan çıxıb çətinliklə də olsa, ayağa qalxdım. Ayaqlarım sözümə baxmaq istəmirdi. Bir neçə yüz metr təmas xəttinə doğru irəlilədim. Növbəti təpədən baxanda dərə boyu uzanan torpaq yolu gördüm. Bir qədər də irəli gedəndə qarşımdakı dərədə iki təpənin arasında çadırları, axşam gördüyüm 3 tentli "Ural" maşınını, təqribən bir bölük şinelli erməni əsgərlərini və borusundan tüstü çıxan yemək mətbəxini - kotyolunu gördüm. Çox güman ki, səhər yeməyi bişirirdilər. Torpaq yolun əks tərəfində iki T-72 erməni tankı dayanmışdı. Bunlar çox güman ki, dünən bizim T-55-lərlə döyüşən tanklar idi.

150-200 metr irəlidəki təpəciyin arxasında isə bir PDM-2 dayanmışdı. Yanında 2 qaraltı sezilirdi. Günəş qarşı tərəfdə olduğundan onları yaxşı seçmək olmurdu. Bu ərazilər günortadan sonra üzü axşama daha aydın görünə bilər. O vaxta qədər "görək başıma nə gəlir",- deyə fikrimdən keçirtdim.

Buralarda daldalanmaq, demək olar ki, qeyri-mümkündür. Hara getsəm çalışıram ki, bizim mövqelərin yanında olan iki təpəni gözdən qaçırmayım. Yoxsa, aza bilərəm. Bir qədər də təmas xəttinə doğru irəli getdim. Budur, qarşıda ermənilərin ikinci xətt müdafiə mövqeləri görünür. Arada ermənilərin ikinci müdafiə xəttinin qorumadığı boş ərazi var. Ondan irəlidə də birinci müdafiə xətlərinin səngərləri var ki, oranı yaxşı tanıyıram. Bir yerdə çox dayanmaq olmaz. Geriyə qayıtdım. Təmas xəttindən uzaqlara doğru günortadan üzü axşama qədər yenidən səhərki müşahidələrimi bir də etmək

üçün bəlli yerə yola düşdüm. Özümü tam sərbəst aparmağa, hər hansı bir ehtiyatsızlıq, şübhə doğuran hərəkət etməməyə çalışıram.

Günorta günəş erməni mövqelərinə yan tərəfdən düşdüyündən hər şeyi təmiz və aydın görmək olurdu. Tanklar və PDM səhərki yerlərində idi. Bu bizim iki tankın "qatili" olan PDM-2 idi. Bizim mövqelərə tərəf soldakı dağın kölgəsi düşdüyü yerdə daha bir erməni PDM-2 döyüş maşını gözə dəyirdi. Dağın kölgəsində maskirovka olunduğundan onu bizim mövqelərdən görmək mümkün deyildi. Ondan bir qədər arxada təpəciyin dalında ermənilərin iki minamyotı vardı. Yanındakı ermənilər uzanıb özlərini günortanın gününə verirdilər.

Bir qədər geri qayıtdım. Dərədəki üç erməni "Uralı"ı və əsgərləri olan istiqamətdən ötəndə qarşıdan xeyli erməni əsgərinin gəldiyini gördüm. Onların məni görməməsi mümkün deyildi. Çox ehtimal ki, görmüşdülər. Amma çox guman ki, öz zabitlərindən seçə bilməmişdilər. Məsafə 200 metrdən az olardı. Etinasızcasına yerə oturub üzü dərəyə doğru dirsəkləndim. Çantadan çörəyi və tuşonkanı çıxardım və hələ də donu açılmamış tuşonkanı yeməyə başladım. Avtomatımı ayaqda hazır qoymuşdum. Hər hansı bir vəziyyətdə döyüşə girsəydim sağ qalmaq ehtimalı yox idi. Gələnlər 30 nəfərdən çox olardı. Dərədəkilər də bir bölük. İstiqamətlərindən anladım ki, məndən 30-40 metr aralıdan keçəcəklər. Üzüm dərəyə, arxam onlara olmaqla əlimdəki çörəyi yeyirdim. Deyesən, məni dərədə yerləşən hissənin erməni zabitlərindən hesab etmişdilər. Hər ehtimala qarşı avtomatın ehtiyat xəzinələri olan ciftçiyinin ürəyimin bərabərində tikdirdiyim cibinə qoyduğum qumbaranın halqasının məftili düzəltdim ki, bəd ayaqda əsir düşməməkçün onu dişimlə də olsa çəkib partlada bilim. Bir güman da var idi ki, 30-40 metrlik məsafədə məni öz zabitləri bilib nəsə soruşa bilərdilər. Mən isə erməni dilində bir kəlmə də bilmirdim. Bir qədər keçdi, gördüm ki, ötüb keçdilər. Sakitləşdim. "Şükür Allaha",- dedim və 1-2 qurtum su içdim. Məndən şübhələnməyən dərədəki ermənilərin gözü qarşısında oradan uzaqlaşdım. Artıq cəbhə xəttini haradan keçəcəyini təxmin etmişdim. Bu

çıxılmaz vəziyyətdən məni çıxardan Allahıma 1000 dəfə şükür etdim.

Qarşıdan ayazlı, şaxtalı gecə gəlirdi. Bir qədər saralmış ot yığıb çuxura döşədim. Çuxurda günəşin zəif istisi altında bir az mürgülədim. Çox ağrıyırdım. Bir saata yaxın dincələndən sonra cəbhə xəttini keçmək üçün təmas xəttinə doğru irəlilədim. Sürünə-sürünə gedir, arada dayanıb müşahidə edirdim. Səhərə yaxın, saat 4-5 radələrində tam donmuş vəziyyətdə olsam da, ermeniləri müşahidə edirdim. Oyaq idilər. Onların duyuq düşmələrindən ehtiyat edərək geri qayıdası oldum. Səhərə yaxın daldalandığım çuxuruma çatıb ölü kimi düşdüm. Soyuqdan qorunmaq üçün bədənimin və ayaqlarımın üstünə də quru ot yığdım, amma təsiri olmadı. Dayanmadan nəfəsimlə əllərimi, yaxamı isitməyə çalışırdım. Az da olsa kömək edirdi. Gecənin qalan hissəsini günəş qalxana qədər çuxurda donmamaqçun əllərimlə ayaqlarımı sürtüb, ovurdum. Hiss edirdim ki, qüvvəm tükənir. Başımda və bədənimin digər əzalarında güclü ağrılar var idi. Günəşin xoş istisini hiss edəndə ətrafı gözdən keçirib çuxurdan çıxdım. Ayaqlarım sözümə baxmırdı. Güclə yeriyirdim.

Dünən müşahidə etdiyim yerləri bir daha müşahidə edib dəyişikliyin olmadığına əmin oldum. Sağda, üzü qərb istiqamətində xeyli aralıda bir-birinə yaxın qaratikan kolları bitmişdi. Qərara aldım ki, o əraziləri bir də gözdən keçirim. O tərəfə istiqamət aldım. Diqqətim dörd tərəfdə olsa da, özümü soyuqqanlı aparmağa məcbur idim. Nəhayət, qaratikan kollarına çatdım. Burda da daldalanmaq mümkün deyildi. Kollar bir-birindən aralı, həm də çılpaq idi. Orda heç dovşan da gizlənə bilməzdi. Susuzluqdan yanırdım. Bir qurtum su içdim ki, yoluma davam edəm. Qəfil üç erməni əsgəri göründü. Məndən 120-130 metr məsafədə nisbətən aşağıda dağ cığırı ilə başqa səmtə irəliləyirdilər. Qarşılarındakı təpəyə qalxb ətrafı seyr etməyə başladılar. Deyəsən, məni gördülər. Tez aşağı oturdum. Onlar etinasız halda yollarına davam etdilər. Hər üçünün şineldə olmağından əsgər və ya serjant olduqlarını anladım. İkisinin əlində yemək termosu var idi. Deməli, o təpənin arxasında postları var. Ora

yemək aparırlar.Yəqin ki, yeməyi verib gəldikləri yolla mənim dayandığım yerdən görünməyən düşərgə yerlərinə qayıdacaqlar. Cəld uzaqlaşmaq lazım idi. Gəldiyim yolla geri qayıtdım. Yenə çuxuruma girib nisbətən gün düşən yerə uzandım. Yorğunluqdan yuxuya getdim. Bir az yatmışdım ki, üşüyüb ayıldım.

Axşam düşdü. Bu gecə də təmas xəttini keçməyə cəhd etməliydim. Amma əvvəlki günlərlə müqayisədə çox üzgün idim. İki gündə iki dilim çörək yemişdim.

Aclıq və susuzluğum çox idi. Bir qədər iri dilim çörək kəsərək üstünə tuşonka qoyub yedim. Bir az da su içdim. Gecə düşdü, ayın tam parlaqlığı ilə işıqlandırdığı buludsuz gecə. Belə gecələr kəşfiyatçıya ölüm vəd edən gecələridir. Daldalandığım çuxurdan çıxdım. Təmas xəttində nişangah etdiyim iki hündür təpəni istiqamət götürüb Allahı çağıraraq irəliyə doğru sürünürdüm. Ermənilərin birinci müdafiə xəttinə xeyli qalmış dayandım. Onların yatmağını gözləyirdim. Yenə donmağa başladım. Yalnız bədənimə isti nəfəsimi verməklə bir az qızınırdım. Gecə yarıdan çoxdan keçmişdi. Qarovul postlarından başqa digər yerlərdə və səngərlərdə olan ermənilər blindajlarına (qazarmalarına) çəkilib yatıb. İrəliyə doğru süründüm. Gecə saat üç idi. Bu gecə təmas xəttini keçə bilməsəm, sabah üçün ümid etməyə dəyməz. Sürətlə zəifləyirdim.

Artıq iki erməni postunun arasındayam. Buradan o yana bir qədər eniş olsa da, sonra bizim səngərlərə doğru dağ yuxarı qalxmalı olacağam. Postlardan heç bir hənirti duyulmur. İrəli, enişə doğru süründüm. Artıq erməni postları arxada qalmışdı. Qarşıda, xeyli irəlidə bizim mövqelərdir. Allaha yalvarırdım ki, ora qədər sürünməyə qüvvəm yetsin.

Axır ki, eniş bitdi. Yoxuşa doğru sürünürəm. Ayaqlarım donmuşdur. Yalnız qollarımın gücünə sürünə bilirəm. Erməni postları arxada qalmışdı. Amma məni bu aydın gecədə görəsələr vura bilərlər.

Səngərimizə 70-80 metr qalardı, birdən gecənin səssizliyini keşikçinin səsi yardı:- Dayan! Kimdir gələn?

Mənsə gəlmirdim, zülmlə sürünürdüm. Səs çıxarsaydım erməni gədələri eşidə bilərdi. İki əlimi ağzımın kənarına tutub postakı əsgərlərimizin eşidə biləcəyi səslə dedim:

-Mənəm, baş leytenat İsmayılov.

Postakı əsgər:

-Porol!

Hər gecənin öz parolu var idi, mənsə üçüncü gecədir mühasirə vəziyyətindəyəm, ona görə də yeni parolu bilmirdim. Yenə ağzımın kənarını əllərimlə tutub əvvəlki səslə:

-Bu günün parolunu bilmirəm. Təkəm, mühasirədən çıxıram, qorxma. Məni tanımadınmı?

Yenə keşişçi əsgərin səsi gəlir:

-Kimsən? Dayan, parolu de.

Mən onsuz da dayanmadan irəli sürünürdüm. Yenə əvvəlki qaydada səsləndim.

-Atma, sizdənəm, baş leytnat İsmayılov.

Yenə var qüvvəmlə irəli sürünürəm.

-Dayan! Atəş açacam. Parol!

Səngərimizdən qarışıq səslər gəldi. Mənə tanış olan hansısa səs soruşdu.

-Kimsən orda?

Təkrar etdim. Məhrəm bir səs gəldi:

-İsmayılov, sənə qurban, sənsən? Sağsan?

-Hə, sağam.

Bir təhər səngərə qədər süründüm. Son iki, üç metri qüvvəm tükəndi. İki nəfər səngərdən çıxaraq qoluma girib mənə kömək etdilər. Səsin yiyəsini tanıdım. Dostum baş leytenant Məmmədov idi. Səngərin başında ikən artıq erməni postunun birindən bizə sürəkli atəş açıldı. Yan-yörəmizə sancılan güllələr xoşbəxtlikdən bizi tutmadı. Səngərə girdik. Postumuzdan cavab atəşi açdılar. Sonra sakitlik oldu. Zabit dostumla tanımadığım bir əsgər qolumdan tutmuşdular. Ayaqlarımın yerə dəyməyini hiss etmirdim. Blindaja girdik.

Yataq meşoklarının üstünə uzandım. Qumqumadakı suyun hamısını içmək istədim, daha su qorxusu yox idi.

-Dayan qardaş, içmə, isti çayımız var,- deyə Məmmədov dilləndi. Acgözlüklə xeyli çay içdim. Çantamdan çörəyi və tuşonkanı çıxartdım. Məmmədov hələ yarısı yeyilməmiş tuşonkanı və çörəyi görəndə gözləri doldu. Soruşdu:

-Üç gündə yediyin elə budur?

Başımla "bəli" işarəsi verdim, başqa çarəm yox idi,- dedim.

Məlum oldu ki, bu əsgərlər tabora iki gün əvvəl gətirilmiş minamyot batareyasının əsgərləridir. Minamyotla təmin olunmadıqlarından səngərlərə göndəriblər. Postakı əsgər məni buna görə tanımayıb

"İsmayılov, səni hamı ölmüş bilirdi. Hamı bilirdi ki, sən sağ təslim olmazsan. Şükür Allaha ki, sağsan",- Məmmədov dedi.

Cavab verib dedim ki, mən kəşfiyatçılardan 300 metr irəlidə idim. Ona görə məni aşkar edə bilməyiblər. Amma bu üç gecə, iki gündə labüd ölümlərdən qurtardım. Komandanlığa xəbər ver ki, kəşfiyyat məlumatlarım var. Onları komandanlığa bildirməliyəm.

Məmmədov bildirdi ki, xəbər vermişəm, arxanca maşın göndəriblər, indilərdə gələr. Bir qədər isti şorba gətirdilər. Yedim, amma aclıq hiss etmirdim. Dayanmadan çay içirdim. Taborun UAZ-ı gəldi. Səngər dostlarımala vidalaşdım. Məni qaldırıb maşına otuzdurdular. Ayaqlarım kötük kimi idi. Taborun qərargahına gəldik. Məni necə sevinclə qarşıladılarsa, özüm də heyrət etdim. Stolun üstünə isti yeməklər qoyulmuşdu. Tabor komandiri rəhmətlik Qafarov, Qərargah rəisi və ən yaşlımız və təcrübəlimiz bölük komandiri rəhmətlik Xəlilovla birlikdə xəritəni açdıq. Gördüklərimi öz xəritəmdən ora köçürdük. Briqada qərargahının rəisi, operativ xidmət rəisi ilə gəldi. Məlumatlarla tanış oldular. Hər ikisi məni bağrına basdı.

Şəxsi həyətlərdəki hamamlardan birini qalayıb qızdırmış, hətta hamam vannasını da isti suyla doldurmuşdular. Vannaya girdim, bir qədər sonra ayaqlarımda və əllərimdə dəhşətli giziltilər başladı. Arada isti suyu açıb vannadakı suyu soyumağa qoymadım.

Təqribən yarım saatdan sonra mənə tər gəldi və bu tər mənim məlhəmim, nicatım oldu. Hamamdan çıxanda saat 7-i idi. Çöldə məni gözləyən əsgərlərimin və digər zabit dostlarımın sevinci nəyə desən dəyərdi. Bu bir ömür boyu unudulmayacaq sevinc idi. Bütün günün çox hissəsini yatıb dincəldim. Axşama yaxın bizim hissələr erməni mövqelərinə hücuma keçdi. Bunu artilleriya və digər silahlardan açılan sürəkli atəşlərdən bildim.

Gecə xəbər gəldi ki, əsgərlərimiz erməniləri mövqelərindən geri otuzdurub, iki PDM və bir tanklarını da vurublar. Sevincimizin həddi-hüdudu yox idi. Səhər saat 9-10 radələrində hərbi hissənin ön mövqelərində olan hissələrindən başqa qalan hissəsi Horadizə gedən asfalt yolda düzüldü. Müdafiə Nazirliyindən yüksək rütbəli general-lar, başda Baş Qərargah rəisi olmaqla gəlmişdilər. Qonşu tabordan bir əsgəri sıradan çıxarıb göstərdiyi igidliyə görə Bir milyon (o vaxtı pulla 100 şirvan) manat və 10 gün məzuniyyətlə mükafatlandırdılar.

18-19 yaşlı qəhrəman əsgərimiz ilk döyüşünə pulemyotçu kimi qatılır. Hücum vaxtı ayağı minaya düşür, ayağını minanın üstündən götürmür. Təcrübəli bölük komandiri minanı zərərsizləşdirib əsgərin həyatını xilas edir. Bir qədər gedib düşmənin ikinci müdafiə xəttinin xəritədə qeyd etdiyim qorunmayan hissəsindən irəliləyirlər. Ermənilər mühasirəyə düşməsinlər deyə, tez geri çəkilirlər. Bir qədər də irəli gedən əsgərlərimiz növbəti təpəciyin arxasından qəfil onları atəşlə qarşılayan PDM-lə üz-üzə gəlir (bu birinci aşkar etdiyim PDM idi. Dağın kölgəsində maskirovka olunmuş PDM-i isə mənim kəşfiyyat məlumatıma əsasən döyüşün ilk anında tankçılarımız vurub sıradan çıxarmışdı.) Piyada əsgərlər özlərini itirir və bu zaman pulemyotçu əsgərimiz əlindəki pulemyotu özünü itirmiş qumbaraatan əsgərə verib onun qumbaraatanı ilə erməni PDM-ini vurub dostlarını ölümdən xilas edir. Təəssüf ki, o əsgərin ad, soyadını unutmuşam. Bu əsl qəhrəmanlıq idi. Onun mükafatını bütün hərbi hissənin qarşısında verdilər. Bu zaman bölük komandiri Xəlilov üzünü tabor komandiri Qafarova tutub: -Bəs İsmayılovu niyə mükafatlandırmadılar?- deyə soruşdu.

-Komandiri məlumatlandırmışdım, qərargah rəisi də bilirdi. Özü dünən gecə şəxsən gəlməmişdimi tabora? Hələ sevindiyindən İsmayılovu da qucaqladı.

- Avqustda 3 metrdən vurduğun erməni tankına görə sənə heç sağ ol dedilərmi, Xəlilov?- deyə Qafarov cavabını sualla bitirdi.

Tabor komandiri günorta məni çağırdı. Dedi:

-İsmayılov, Gözləyirdim ki, səni də mükafatlandıracaqlar.

Dedim:

-Mənim mükafatım əməliyyatın uğurlu keçməsi və dünən məni görən dostların sevinci idi. Bundan böyük hansı mükafat ola bilər?

Qucaqlaşıb ayrıldıq və mən tabeliyimdə olan əsgərlərin yanına döndüm.

***



Qəhrəmanımız Məharət İsmayılovu haqqı nahaqqa verməyən, mərdi namərdə möhtac etməyn uca Tanrı mükafatlandırıb. O, sağlam ailə başçısı, iki oğul atası, dörd nəvə babasıdır. Ömür-gün yoldaşı Südabə xanım Allah-taala tərəfinən ona göndərilən mükafatdır.

Böyük oğlu Rəşad İsmayılov 13 avqust 1983-cü ildə anadan olmuş, Sumqayıt Dövlət Universitetinin tarix fakültəsini bitirmiş, hazırda səfərbərlik xidmətinin əməkdaşıdır. Ailəlidir, Şəfa adlı qızı, Aqşin adlı oğlu var.

Kiçik oğlu Polad İsmayılov 1987-ci ildə anadan olmuş, avtomobil təmiri ustasıdır. Məhəmməd və Əli adlı iki oğul atasıdır.

Fəxrimiz Məharət müəllim, ocağınız hər zaman isti, işığnız yanar olsun!

**Qeyd:** Şəkildə Məharət İsmayılov nəvələri ilə

***



## 5. LƏTİF HACIYEV (03.02.1961)

Birinci Qarabağ müharibəsi qazisi Lətif İsmayıl oğlu Hacıyev 3 fevral 1961-ci ildə Göyçay rayonunun Qaraxıdır kəndində anadan olmuşdur. 1968-ci ildə Qaraxıdır kənd orta məktəbinin birinci sinfinə qəbul edilmiş, 1976-cı ildən 16 № texniki peşə məktəbində təhsilinə davam etmiş, 1978-ci ildə həmin peşə məktəbini bitirmişdir. 1979-1981-ci illərdə Ukrayna və Gürcüstan Respublikalarında həqiqi hərbi xidmətdə olmuşdur. 1993-1996-cı illərdə könüllü kimi cəbhəyə yollanmış, 1-ci Qarabağ müharibəsi zamanı Ağdam – Tərtər istiqamətində gedən döyüşlərin fəal iştirakçısı olmuşdur. II qrup müharibə əlilidir.

1984-cü ildə ailə qurmuş, iki övladı, üç nəvəsi var. Yoldaşı Hacıyeva Gülafət Xanlar qızı 1963-cü ildə Göyçay rayonunun Qaraxıdır kəndində anadan olmuş, evdar qadındır.

Oğlu 1988-ci il təvəllüdlü Hacıyev Zamin Bakı Dövlət Universitetinin ekoloji kimya fakultəsini bitirmiş. Hazırda “ SAİPEM” özəl şirkətində işləyir.

Oğlu, 1990-cı il təvəllüdlü Hacıyev Elvin Bakı Dövlət Universitetinin jurnasistka fakultəsini bitirmiş, hazırda Səhiyyə Nazirliyinin mətbuat xidmətində baş mütəxəssis vəzifəsində çalışır.

***



## 6.MAHİR MƏMMƏDOV (02.01.1963)

Birinci Qarabağ müharibəsi döyüşçüsü Mahir Murad oğlu Məmmədov 2 yanvar 1963-cü ildə Göyçay rayonunun Ləkçıplaq kəndində anadan olmuşdur. 1971-ci ildə həmin kəndin tam orta məktəbin birinci sinfinə qəbul olunmuş, 1981-ci ildə həmin məktəbi bitirmişdir. 1981-ci ilin oktyabr ayında Sovet ordusu sıralarına həqiqi xidmətə çağrılmış, 1983-cü ildə həqiqi xidməti başa vurduqdan sonra Tümen vilayətinin Surqut şəhərindəki Neft-Kimya Texnikumuna daxil olmuş, orta ixtisas təhsili qazanmışdır. Texnikumu bitirdikdən sonra Azərbaycana qayıtmış, Neftayırma zavodunda operator vəzivəsində işləmişdir. 1992-ci ildə erməni quldurlarını torpaqlarımızdan təmizləmək məqsədi ilə genişlənən hərbi əməliyyatlarda iştirak etmək üçün könüllü olaraq Milli Ordu sıralarına yazılmış, Ağstafa rayonunun Köhnə Qışlaq, Qazax

rayonunun Bağanıs Ayrım, Tovuz rayonunun Ağdam kəndləri uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 1992-ci ildə Mahirin xidmət etdiyi alay Gədəbəy rayonuna köçürülmüş, Mahir həmin rayonun Başkənd qəsəbəsinin alınmasında və Şınıx bölgəsinin Mutudərə, Mormor, Hörgü dağı uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdir. Ordudan təxris olunduqdan sonra rayona qayıtmış, 1996-cı ildən Göyçayda Azərbaycan Vətən müharibəsi vetiranlar birliyinin sədri vəzifəsində çalışır. 2018-ci ildə müharibə veteranı, döyüşdə fərqlənmə və AVMVB-nın yaranmasının 25 illiyi medalları ilə təltif olunmuşdur.

Ailəlidir. İki övlad atasıdır. Böyük qızı Arzu Məmmədova Bakı Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinin tələbəsi, kiçik qəzı Xumar Məmmədova məktəblidir.



## 7.VİDADİ HÜSEYNOV
## (13.08.1963)

1-ci Qarabağ müharibəsinin qazisi Vidadi Hüseynov bizə göndərdyi cavab məktubunda özü və döyüş yolu haqqında aşağıdakları yazır: "Mən Hüseynov Vidadi Saday oğlu 1963-cü il avqust ayının 13-də Göyçay rayonunun Qaraxıdır kəndində anadan olmuşam. 1970-ci ildə Qaraxıdır kənd orta məktəbin 1-ci sinfinə getmiş, 1980-ci ildə həmən məktəbin 10-cu sinfini bitirmişəm. 1980-ci ildə o vaxtki Leytenant Şimit adına Maşın və Neft avadanlıqları zavodunda mənim üçün müqəddəs insan sayılan Sabir əmi adlı qohumumun köməkliyi ilə işə düzəlmiş, 1981-ci ilin noyabr ayında Sovet ordusu sıralarına xidmətə getmişəm. 1982-ci ildə hərbi xidmətdə ikən Sovet İttifaqı Kommunist Partiyası sıralarına qəbul olunmuşam. 1990-cı il Qanlı yanvar hadisələri baş

verən zaman etiraz əlaməti olaraq partiya biletimi meydan hərəkatında tonqalda yandırmışam.

1983-cü ildə xidmətimi başa vurduqdan sonra vətənə qayıtmış, Maliyyə Kredit Texnikoumuna daxil olmuş və 1985-ci ildə texnikumu fəqlənmə diplomu ilə bitirmişəm. Təhsilimi davam etdirmək üçün Xalq Təsərrüfatı İnistitunun mühasibat uçotu fakültəsinin qiyabi şöbəsinə daxil olmuşam.

Məlum Qarabağ savaşı başlayanda mən o vaxtkı Xanlar, indiki Göygöl rayonuna getmişdim.Todan adlı kənddə qonşu Goranboy rayonunun Mənəşim, Erkəc, Bozqanlı kəndlərində dinc əhaliyə iri çaplı silahlardan atəş acıldığını, qoca və qadınların, körpə uşaqların necə vahimə ilə ağladıqlarını, qaçdıqlarını görüb səhəri gün ailəmə xəbərdarlıq etmədən könüllü olaraq həmin rayonun özünümüdafiə batalyonuna yazıldım. Sovet ordusu sıralarında Əfqanıstanın Xarabalı bölgəsində müəyyən qədər döyüş təcrübəm olduğundan mənimçün döyüş elə də qorxulu deyildi və üstəlik düşmənə hədsiz nifrət edirdim. Salehin özünümüdafiə batalyonunda 4 aydan artıq bir neçə dəfə hücum və müdafiə döyüşlərində iştirak etdim, sonradan bu batalyon dağıldı. 1993-cü ildə Göyçay rayonunda Kamal Zülfüqarovun səyi və zəhməti ilə özünümüdafiə batalyonu yaradıldı. Rayonumuzun, o cümlədən kəndimizin igid, cəsur, qeyrətli 100-dən artıq oğulları könüllü olaraq silaha sarıldılar. Biz 1993-cü ilin 18 oktyabrında Şəmkir rayonunun Seyfəlli kəndindəki paliqona gəldik. Orada 1 aydan bir az artıq təlim keçdikdən sonra Füzuli rayonunda yerləşən N saylı hərbi hissədə döyüşlərə qatıldıq. Mən zabit kimi qumbaraatan və tank əleyhinə birləşmiş taqımların komandiri təyin olundum.

1993-cü ilin dekabr ayında güclü hücum əməliyyatları başladı. Qısa zaman ərzində Füzulinin Şükürbəyli, Aşağı Əbdürrəhmanlı, Alxanlı, Kürdmahmudlu, Aşağı Seyidəhmədli, Qopqan, Mollaməhərrəmli, Əhmədalılar, Qazaxlar kəndləri, Horadiz qısəbəsi işğaldan azad olundu.

1-ci Qarabağ savaşında 20-dən çox hücum, bir o qədər müdafiə əməliyyatlarında iştirak etmiş, 2 dəfə yaralanmışam. Qarabağ savaşında rayonumuzun və kəndimizin neçə igid və cəsur oğlanları şəhid və qazi oldular. Kəndimizin ilk şəhidi Zülfüqarov Zülfüqar Emin oğlu Xocavənd rayonunun Gülmətənə yüksəkliyi uğrunda gedən döyüşlərdə 17 avqust 1992-ci ildə şəhidlik zirvəsinə ucaldı. Hazırda Qaraxıdır kənd orta məktəbi onun adını daşıyır. Birinci Qarabağ müharibəsində ondan başqa daha dörd igidimiz: Raqub Fərhad oğlu İsgəndərov, Səbuhi Bayram oğlu Abdullayev, Araz Mahir oğlu Hacıyev, Elnur Həmid oğlu Məmmədov da şəhadətə qovuşdular.

**1-ci Qarabağ savaşında kəndimizdən aşağıdakllar iştirak etmişlər:**

1.Hacıyev Novruz İsmayıl oğlu
2.Hacıyev Lətif İsmayıl oğlu
3.Hacıyev Qurban İsmayıl oğlu
4.Həmidov Teymur Paşa oğlu
5.Məmmədov Abdulla Məlik oğlu
6. Abdullayev İbrahim Abdulla oğlu
7. Abdullayev Əfqan Bayram oğlu
8.Əzizov Namiq Xəlil oğlu
9.Həbullahov İnqilab Paşa oğlu
10.Həbullahov Ətraf Paşa oğlu
11.İbrahimov Şirvan Xələf oğlu
12.Zülfüqarov Mübariz Məhəmməd oğlu
13. Haciyev Nicat Qədir oğlu
14. Hacıyev Asif Qədir oğlu
15.İskəndərov Əli Fərhad oğlu
16.Hacıyev İldırım Rəsul oğlu
17.Səlimov Mətləb Emin oğlu

18.Güliyev Cümşüd Mahmud oğlu

Ümumiyyətlə, kəndimizdən 62-nəfər ərazi bütövlüyümüz uğrunda erməni mənfurlarına qarşı ölüm-dirim savaşında silaha sarılmışlar. 1-ci Qarabağ savaşında kəndimizdən 5, 2-ci Qarabağ müharibəsində isə ( 27 sentyabr-9 noyabr) 3 nəfər şəhid olub. Bunlar aşağıdakılardır:

1.Əzizov Şəmistan İlyas oğlu

2.Abdullayev Səməd Sədiyar oğlu

3.Həmidov Rəhim Ehtiram oğlu

Erməni quldurlarına qarşı rayonumuz 1-ci Qarabağ savaşında 191 şəhid, 6 itkin, 2-ci Qarbağ müharibəsində isə 46 şəhid verib. Hər birisinin ruhu qarşısında baş əyirəm.

Kəndimizin sakinləri təkcə igid əsgərləri cəbhəyə yola salmaqla vəzifə borcların bitmiş hesab etməyiblər. 44 gün ərzində hər 3 gündən bir cəbhədə döyüşən əsgərlərimizə yardımlar göndəriblər. Yardımların toplanıb yola salınmasında Yaqubov Şahin, Əhmədov Nofəl, Abdullayev Sədiyar, Məmmədov Arif və adların çəkə bilmədiyim digər sakinlərin böyük əməyi olmuşdur.

Cəbhədə olan igid əsgərlərimiz daima onların yanında olduğumuzu hiss edirdilər. Bütün yardımlar Ballıqayada, Tərtərdə, Füzulidə ön cəbhə əsgərlərinə paylanırdı. Vətən müharibəsi başlayan ilk gündən hər gün rayon hərbi komissarlığı qarşısında 100-lərlə gənclərimiz könüllü yazılaraq, qeydiyyata düşüb orduya can atırdılar. Hacıyev Novruzla mən könüllü olaraq əvvəllər qulluq etdiyimiz Füzuli rayonunda yerləşən N saylı hissəyə getdik. Keçmiş zabit yoldaşlarımla görüşdüm.

Çox təssüflər olsun ki, yaşımızın çox olduğunu söyləyərək bizi bu müqəddəs savaşdan məhrum edib geri qayıtmağımızı xahiş etdilər.

Bir vaxtlar Qarabağa "Xəyalnamə" kimi baxan gənc əsgərlərimiz 44-gün ərzində şanlı tarix yazdılar. Cəbhəyə könüllü yola düşən əsgərlərimizin vətənpərvər ruhda yetişməyində valideynlərimizlə yanaşı, orta məktəbdə bizə dərs deyən fədakar müəllimlərimiz

Məcid, Mürsəl, Bəhram  kimi ziyalıların əməyinin canlı məhsulları idik və heç vaxt bu savaşdan kənarda qala bilməzdik. Bizi bu ruhda tərbiyə etdikləri üçün onların da ruhu qarşısında baş əyirəm.

***



**8.BƏHƏRÇİN MUSTAFAYEV (17.02.1965)**

1-ci Qarabağ müharibəsi döyüşçüsü Bəhərçin Bulud oğlu Mustafayev sorğumuza cavab olaraq yazır: “17 fevral 1965-ci ildə Göyçay rayonunda anadan olmuşam. Orta məktəbi Qaraman kəndində bitirmişəm. 1983-cü ildə Sovet ordusuna çağrılmışam. Əksər azərbaycanlılar kimi inşaat batalyonunda xidmət etmişəm. Ordudan təxris olunduqdan sonra Bakıya gəlmişəm. Çinar İstehsalat Birliyində fəhlə qismində işə düzəlmişəm. 1988-ci ildə Xalq hərəkatının fəal üzvülərindən biri, Xalq cəbhəsinin zavod idarə heyətinin üzvü olmuşam. 1-ci Qarabağ müharibəsi zamanı ilk könüllülərdən biri kimi 723 saylı hərbi hissə tərkibində Füzuli uğrunda döyüşlərdə iştirak etmişəm. Qırmızıbazar, Xocavənd, Maşatkənd, Çartaz, Yuxarı Veysəlli, Dördlər, Qacar və sair məntəqələrin müdafiəsində iştirak etmişəm. Bir çox döyüşçü yoldaşlarımız xəyanətin qurbanı oldular. 1992-ci ilin sentyabrında könüllü batalyonların ləğv edilməsiylə bağlı yenidən doğma zavoda qayıtdım. Lakin vətən eşqi və qisas hissi məni rahat buraxmırdı. Dəfələrlə zavod rəhbərliyinin köməkliyi ilə cəbhə bölgələrinə yardımlar aparmışam. 2-ci Qarabağ müharibəsində də əlimdən gələni etmişəm. Qardaşlarım Elçin, Dəyanət və əslən Gürcüstan Respublikasının Dmanisi rayonunun Hamamlı kənd sakini, mənimlə 24 il şərik işləyən Məmmədov Ədalət də bu işdə böyük fəallıq göstərdilər. Allahımıza sonsuz şükürlər olsun ki, dövlətimizin, ordumuzun və xalqımızın birliyi ilə bu qara lə-

kəni alnımızdan silə bildik. Mənim cəbhəyə bağlı xatirələrimin, demək olar ki, hər biri qəlb yarasıdı. Döyüşdə yaralanmaq, qazi olmaq, şəhid olmaq bizimçün şərəf idi. Amma əzab-əziyyətlə və eyni zamanda çox böyük sevinclə aldığımız yerlərin geri qaytarılması müsibət idi. Məsələn Qırmızıbazarı almışdıq, əmr etdilər ki, geri çəkilin. Damarında müsəlman qanı axan döyüşçülərçün o əmri eşitmək ölümdən beşbetər idi. Aldığımız yerlərin sevincini yaşamağa imkan verməyən satqınlarımız var idi. 2-ci Qarabağ döyüşçülərinə, qazilərimizə, şəhidlərimizə çox-çox təşəkkürümü bildirirəm ki, içimizdə olan o boşluğu doldurdular, göynəyən qəlb yaramıza məlhəm oldular.

Ailə vəziyyətim:Yoldaşım Cəbrayılova Sevil Ağasəf qızı. Ali təhsilli müəllimədir.

Oğlum Mustafayev Şakir 1988-ci ildə anadan olub. İqtisad Universitetini və magistraturanı bitirib. Hal-hazırda şirkətlərin birində çalışır. İki övladı var.

Qızım Abdulova Fəzilə 1989-cu ildə anadan olub. Mədəniyyət və İncəsənət Universitetini qırmızı diplomla bitirib. Daha sonra Tusi adına APU-nə qəbul olur. 2-ci ali təhsil alır. Hazırda 246 saylı məktəb litseyində ibtidai sinif müəllimi işləyir. Ailəlidir. İki övladı var.”

***



**9.İLDIRIM HACIYEV (15. 11.1965)**

1-ci Qarabağ savaşının iştirakçılarından olan İldırım Hacıyev özünün həyat və döyüş yolu haqqında bizə göndərdiyi məlumatlarda yazır: “Mən Hacıyev İldırım Rəsul oğlu 1965-ci il noyabr ayının 15-də Göyçay rayonunun Qaraxıdır kəndində anadan olmuşam.

1973-cü ildə Qaraxıdır kənd tam orta məktəbinin 1-ci sinfinə qəbul olunmuşam. 1983-cü ildə o məktəbin məzunu olmuşam. 1984-cü ilin aprel ayında həqiqi hərbi xidmətə Monqolustana göndərilmişəm. Hərbi xidmətimi 1986- ci ildə başa vurub qayıtdıqdan sonra Mingəçevir şəhərində zavodda çalışmışam. 1992-ci ildə erməni daşnakları tərəfindən edilmiş Xocalı soyqırımından sonra könüllü olaraq Qarabağın müdafiəsi üçün müharibəyə getmişəm. İlk döyüş yolum Ağdamın Naxçıvanik kəndindən başlayıb. Sonra isə Ağdərə uğrunda gedən döyüşlərdə iştirak etmişəm. Son döyüşüm Çaldıran kəndində olub. 1993-cü ilin fevral ayında evə buraxılmışam. Müharibə xatirələrini danışmaq mənimçün hər zaman çətin olub. Mən o müharibədə dostlarımı, cəbhə yoldaşlarımı itirmişəm. Bu gün də düşünəndə, xatırlayanda əzab çəkirəm, sarsılıram. Kaş ki, onları qorumaq mümkün olaydı. Kaş ki, onlarla bu gün o ağır günlərimizi birgə yada salaydıq, dərdləşəydik,

fikirlərimizi bölüşəydik. Qalan, şəhid olmayan hər birimiz isə təsadüf nəticəsində sağ qalmışıq. Yəni, alnımıza şəhidlik yazılmadığı üçün.

Ağdərənin Mehmanlı kəndi uğrunda gedən döyüşlərdə ermәniləri geri çəkilməyə məcbur etdik və sonra özümüzə səngər düzəltdik. 4 nəfər yoldaş götür-qoy etdik ki, kəndin içinə qayıdaq, görək özümüzə yeməyə bir şey taparıqmı?.

Vəhşi ermənilər də bizi izləyirmiş. Biz kəndin tam mərkəzinə çatdıqdan sonra onlar bizi minamyot atəşinə tutdular. Elə bil göydən dolu yağırdı. Yoldaşlarımızın ikisini itirdik. Onlar minamyot atəşi nəticəsində şəhid oldular. O səhnə gözlərim önünə gələndə, qələm əlimdə əsir, çətinlik çəkirəm, yaza bilmirəm. Qəhərdən boğuluram. Biz özümüzü itirdik. Minamyot yağışı artıq bizə çatmırdı.Uşaqları ordan çıxarmalıydıq. Yoldaşım mənə dedi ki, gəl gizlənək, onlar elə bilsin daha heç kim yoxdur. Sonra uşaqları götürüb gedərik. Gizlənmək mümkün olmadı. Onlar dayanmadan atırdılar. Hava artıq qaralmışdı. Biz 2 nəfər meşədə azdıq. Bir xeyli getdikdən sonra gördük ki, ermənilər tərəfə keçmişik. Onlar öz dillərində danışa-danışa var-gəl edirdilər. Əlimizdəki avtomatı çəkib oradan bir az geri çəkildik. Yol tapıb çıxa da bilmirdik. Gördük bir neçə adam üzü yuxarı gedir. Yoldaşıma dedim ki, gəl avtomatı hazır saxlayıb onların arxasınca gedək. Ermənilər olsa, tez özümüzü vurarıq. Onların arxasınca yavaş-yavaş getməyə başladıq. Xeyli getmiş eşitdik ki, onlar öz dilimizdə danışır. "Şükür Allaha" deyib onların yanına getdik. Gördük ki, onlar Gəncə batalyonunun uşaqları imiş. Ən yaxın dostlarımı Çaldıran kəndi uğrunda gedən döyüşlərdə itirdim.

Ailəliyəm. Oğlum mən müharibədə olarkən dünyaya gəlib. O zaman cəbhə xəbərlərini jurnalist Şəmistan aparırdı. Anam Şəmistanın adını oğluma qoyub. Hal-hazırda oğlum da, qızım da ailəlidir. Oğlumun 1 qızı var, qızımın 2 oğlu, 1 qızı var. Yaşadığım kənddə 1 çay evim var. Yoldaşım Şəlalə Hacıyeva ilə bir yerdə orada çalışırıq.

Oğlum Hacızadə Şəmistan 1992-ci ildə anadan olub. Çay evində işləyir.

Qızım Hacızadə Zərqələm 1990-cı ildə anadan olub, evdar qadındır.

***



**10. SÜLEYMAN ƏHMƏDOV (10.03.1966)**

Birinci Qarabağ müharibəsinin qazisi Süleyman Mirsaab oğlu Əhmədov 1966-cı il martın 10-da Göyçay rayonunun Ləkıçıplaq kəndində anadan olmuşdur. 1973-cü ildə həmin kəndin 1 №-li məktəbinə getmiş və 1983-cü ildə tam orta məktəbi bitirmişdir. 1984-1986-cı illərdə hərbi xidmətə çağırılmış, xidmətini Molqolustanın Ulan Bator şəhərində başa vurmuşdur. Hərbi xidmətini başa vurub doğma vətənə qayıdan Süleyman Əhmədov 1990-cı ilə kimi kənd təsərrüfatı ilə məşğul olmuşdur.

Süleyman Əhmədov 26-iyul 1991-ci ildən 14 yanvar 1996-cı ilədək Göyçay Rayon Polis şöbəsində polis nəfəri vəzifəsində xidmət etmişdir. Xidmət etdiyi müddətdə dövlətimizə qarşı ermənilər tərəfindən elan olunmamış müharibədə Göyçay Rayon Polis Şöbəsinin 09.03.1992-ci il 29 saylı əmri ilə 10 gün, 15.06.1992-ci il 63 saylı əmri ilə 10 gün, 13.07.1992-ci il 66 saylı əmri ilə 10 gün, 18.08.1992-ci il 79 saylı əmri ilə 10 gün müddətində Ağdam rayo-

nuna ezam olunmuş, orda erməni hərbi birləşmələrinə qarşı döyüşlərdə iştirak etmişdir. O, 19.01.1993-cü ildən 29.01.1993-cü ilə və 28.02.1993-cü ildən 15.03.1993-cü ilə qədər Ağdam rayonunda döyüş bölgəsində olmuş, 17.03.1993-cü ildə rayon polis şöbəsinin 29 nömrəli və 08.09.1993-cü il tarixli 69 nömrəli əmrləri ilə Beyləqan rayonuna ezam edilərək torpaqlarımızın suverenliyi uğrunda döyüşlərdə iştirak etmişdir.

***

**Süleyman Əhmədovun cəbhə xatirəsi:** Ağdamın Abdal-Gülablı kəndində Qızılqaya adlanan yerdə yoldaşlarım posta olarkən ermənilər onları atəşə tutdular. Mən və digər yoldaşlarım dərhal onları başqa mövqedən susdurduq. 1992-ci ilin əvvəllərində Şuşa şəhərində döyüşdə olarkən biz var gücümüzlə şəhəri qorumağa çalışırdıq. O müddətdə su yox idi. Su kəmərləri partladılmışdı. Ancaq bir hündürlükdən su kəməri keçirdi. Hava çox soyuq idi. Günlərlə yağan qar artıq buza çevrilmişdi. Addım atmaq, sərbəst yerimək mümkün olmurdu. Əsgərlər postda ac-susuz qalmışdılar. Necə olur olsun su gətirməliydik. Mən və bir yoldaş birlikdə su gətirməyə getdik. Yol buz bağlamışdı. Ona görə də yoldaşımın ayağı sürüşdü. Sıldırım qayanın üstündəydik. Mən cəld onun qolundan tutaraq özümə tərəf çəkməyə çalışdım. Hansı ki, hündürlüyün o tərəfində ermənilərin postu var idi. Yoldaşım yıxılsaydı, sağ qalmasaydı belə, yumbalanaraq düz onların postunun yanına düşəcəkdi. Biz də çalışırdıq ki, meyidimiz də ermənilərin əlinə düşməsin.

Canlı əsgərdən, ordudan məhv edə bilməyəndə şəhid olanları təpikləyir, qulağını, əl-qollarını kəsirdilər. Mən var-gücümlə onun qolundan yapışaraq özümə tərəf çəkdim. Burda artıq an məsələsi var idi. Allah kömək oldu və biz ikimiz də uçuruma yıxılmaqdan qurtulduq. Ya mən onu xilas etməliydim, ya da o məni özüylə aşağı çəkməliydi. Qurtulandan sonra hər ikimiz səssiz-səmirsiz qarın üstündə oturduq. Şoka düşmüşdük. Təxminən 15-20 dəqiqə oturandan sonra hiss etdik ki, ayaqlarımız donur. Bir-birimizə kömək edərək ayağa durub yolumuza davam etdik. Xatirələr çoxdur, hər biri bir

həyat hekayəsi, ağır və əzablı yaşantdır. Bir qabda çörək yediyin yoldaşlarının gözünün qarşısında şəhid olması... Doğulacaq övlad yolu gözləyən atanın şəhid olması.... Ciblərində övladlarının şəklini gəzdirən, imkan düşən kimi şəkilləri bağrına basıb 100 dəfə öpən ataların şəhid olması....

Bu gün də o anları xatırlayanda adamın ürəyi param-parça olur. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

***

Qrabağ qazisi Süleyman Əhmədov 3 övlad atası, 1 nəvə babasıdır. Həyat yoldaşı Vəliyeva Aynurə Qara qızı ali təhsilli psixoloqdur.

Qızı Leyla Abdullayeva Gəncə Dövlət Universitetinin riyaziyyat fakultəsini, böyük oğlu Fəqan Əhmədov Bakı Avrasiya Universitetinin tərcümə (İngilis dili) fakültəsini bitirmişdir. Kiçik oğlu Rəvan Əhmədov məktəblidir. Ləkçıplaq kənd 1 №-li orta məktəbinin 11-ci sinfində oxuyur.

***



## 11.İNQİLAB HƏBULLAHOV (1966)

Birinci Qarabağ müharibəsi iştirakçısı İnqilab Paşa oğlu Həbullahov 1966-cı ildə Göyçay rayonunun Qaraxıdır kəndində anadan olmuşdur. 1973-1981-ci illərdə Qaraxıdır kənd orta məktəbində, 1981-1984-cü illərdə Göyçay Rayon Peşə məktəbində oxumuş, təhsilini həmin məktəbdə tamamlamışdır. 1984-cü ildə həqiqi hərbi xidmətə yola salınmış, 1986-cı ildə hərbi xidməti başa vuraraq doğma kəndinə qayıtmışdır. 1992-ci ildə könüllü olaraq Vətənimizdə gedən 1-ci Qarabağ döyüşlərinə qatılmışdır. Murov dağı ətrafında gedən döyüşlərdə fəal iştirak etmiş, 1996-cı ildə ordudan təxris olaraq Qaraxıdıra qayıtmışdır. Hal-hazırda kənd təsərrüfatı ilə məşğuldur.

Ailəlidir. İki övladı var.

Həyat yoldaşı Zərinə Abdulla qızı İslamova 1968-ci ildə Göyçay rayonunun Molla-Şıxlı kəndində anadan olmuşdur. 1989-cu ildə Gəncə Texnologiya Kollecinə daxil olmuş, 1993-cü ildə oranı bitirmişdir. Bir neçə il, yəni Qaraxıdır kəndinə gəlin köçənə qədər Molla-Şıxlı kəndində müəllimə işləmişdir.

Oğlu, 2000-cı il təvəllüdlü Elmədin Həbullahov Qaraxıdırda yaşayır, təsərrüfat işləri ilə məşğuldur.

Qızı, 2003-cü il təvəllüdlü Ayşən Həbullahova Sumqayıt Dövlət Universitetinin filologiya şöbəsinin Sosial-Psixoloji xidmət fakültəsinin I kurs tələbəsidir.

***



## 12. İBRAHİM ABDULLAYEV (07.02.1968)

Birinci Qarabağ müharibəi qazisi İbrahim Abdulla oğlu Abdullayev 1968-ci il fevralın 7-də Göyçay rayonunun Qaraxıdır kəndində anadan olmuşdur. 1975-ci il Qaraxıdır kənd orta məktəbinin 1-ci sinfinə qəbul edilmiş, 1985-ci ildə həmin məktəbi bitirmişdir. 1986-cı ildə həqiqi hərbi xidmətə göndərilmiş, 1988-ci ildə hərbi xidməti başa vuraraq döğma kəndinə qayıtmışdir.

1993-cü il iyulun 8-dən 1-ci Qarabağ müharibəsinə qoşulmuş, Murovdağ silsiləsi və Kəlbəcər rayonunun bir neçə yüksəkliyinin və digər ərazilərin alınmasında iştirak etmişdir.

Ailəlidir. 4 övladı var.

Həyat yoldaşı Könül Abdullayeva evdar qadındır.

Qızı, 1997-ci il təvəllüdlü Şəhla Müseyibova Xarici Dillər Universiteti bitirmiş, ailəlidir, 1 oğlu var.

Oğlu, 1999-cu il təvəllüdlü Abdulla Abdullayev Bakı Mühəndislik Universitetinin 4-cü kurs tələbəsidir.

Qızı, 2001-ci il təvəllüdlü Şəfəq Abdullayeva Bakı Dövlət Universitetinin 3-cü kurs tələbəsidr.

Kiçik oğlu, 2004-cü il təvəllüdlü Rüfət Abdullayev məktəblidir.

**İbrahim Abdullayevin cəbhə xatirəsi:** Bir gün Kəlbəcərin Yanşaq kəndinin yaxınlığındakı Keşiş qayadan Toğanaya qalxıb ordan Sarıqayaya hücuma keçmişdik. Orda hər tərəf çox yüksək dağlardı. Bizi mayor müşayət eliəyərək döyüşə aparırdı. Ermənilərin

postuna çatanda gördük ki, bizdən əvvəlki rota artıq ora çatıb. Qəfildən ermənilər tərəfindən atəşə tutulduq. Əsgərlərin çoxu yerində şəhid oldu, cəmi 12 nəfər qaldı. Cəld özümüzü müdafiə üçün yerlər seçdik. Ermənilər dağın başında 7-8 yerdə snayperlər yerləşdirmişdilər. Onlar yerlərini möhkəmləndirib bizi yenidən güclü atəşə tutdular. Mən 2 saat qarın içində qaldım və hər an gözlədim ki, atılan güllə mənə dəyəcək. Tərpənmədən, səssiz-səmirsiz qaldım ki, ermənilər elə bilsinlər ki, mən də ölmüşəm, əl çəksinlər. Sonra cəld dağın başından özümü yuvarlatdım dərənin dibinə və snayper gülləsindən qaçdım. Bir az keçmiş tanklar gəldi və atəş açmağa başladılar. Bizə xəbər gəldi ki, 200 nəfər erməni arxamızdan gəlir, bizi əsir götürmək istəyirlər. İri daşlar tapıb, onların arxasında gizləndik və Allahın köməkliyi ilə qoruna bildik.

Bizdən 50-60 metr aralıda əsli Bakıdan olan Elman adında yoldaşımız, dostumuz gözümün qabağında şəhid oldu. Mən çox sarsıldım. Çox çalışdım ki, onu götürüm özümlə aparım. Heç cür mümkün olmadı. Bu gün də o dəhşətli yaşantıları, dostların gözümüzün qarşısında bir göz qırpımında şəhid olduqlarını unutmaq olmur. Çox çıxılmaz bir duruma düşmüşdük. Sözü bir yerə qoymuşduq ki, görsək əsir düşürük bir-birimizi vuraq, şəhid olaq. Müharibə ilə bağlı acı yaşantılar, xatirələr çoxdur. Elə yaşantımız var ki, onu dil ilə deyib izah etmək mümkün deyil. Döyüşlərdən sağ çıxmaq bir möcüzədir. Allah şəhid yoldaşlarımıza rəhmət eləsin. Onlar həmişə bizim qəlbimizdə yaşayacaq.

***



## 13.ETİBAR ABDULLAYEV (02.07.1968)

Birinci Qarabağ müharibəsi iştirakçısı Ehtibar Sayad oğlu Abdullayev 1968-ci il iyul ayının 2-də Göyçay rayonunun Qaraxıdır kəndində anadan olub. 1993-cü ildə könüllü olaraq I-ci Qarabağ müharibəsinə qatılıb. Qızğın döyüşlərdə iştirak edib. Murov döyüşlərin birində, Kəlbəcərdəki Çiçəkli dağda ayağından ağır yaralanıb. Döyüş yoldaşları onu 17 saat xərəkdə gətirib, hospitala çatdırıblar. Yaralı ayağını həm də don vurub .

İkinci qrup müharibə əlilidir.

Ailəlidir. 1 qızı, 2 oğlu, 2 qız nəvəsi, bir oğul nəvəsi var.

***



## 14. ƏFQAN ABDULLAYEV (03.09.1968)

1-ci Qarabağ müharibəsi qazisi Əfqan Bayram oğlu Abdullayev 1968-ci il sentyabrın 3-də Göyçay rayonunun Qaraxıdır kəndində anadan olmuşdur. 1975-ci ildə Qaraxıdır kənd orta məktəbinin 1-ci sinfinə qəbul edilmiş, 1985-ci ildə həmin məktəbin 10-cu sinfini bitirərək attestat almışdır. 30 noyabr 1986-cı ildə hərbi xidmətə çağrılmış, iki illik xidmət müddəti bitdikdən sonra 1988-ci il dekabr ayının 26-da ehtiyata buraxılmışdır.

1989-cu il fevralın 29-da həmin kəndin sakini Yaqut İbrahimova ilə ailə həyatı qurmuş, bir övladı dünyaya gələndən sonra, 1993-cü il iyulun 8-də 1-ci Qarabağ müharibəsinə cəlb olunmuşdur. Murovdağ silsiliəsi və Kəlbəcər rayonundakı bir neçə yüksəkliyin azad edilməsində yaxından iştirak etmişdir. 1994-cü il yanvar ayının 7-də qardaşı Səbuhi Abdullayev şəhid olduğu üçün Əfqan ordudan təxris edilmişdir.

Əfqan Abdullayev 2009-cu il yanvar ayının 18-də rəhmətə getmiş, Qaraxıdır kənd qəbiristanlığında torpağa tapşırılmışdır.

3 övladı, 4 nəvəsi var.

Həyat yoldaşı Yaqut Sahib qızı İbrahimova evdar qadındır.

Qızları ailəlidir. Böyük qızı Zümrüd Abdullayevanın 2, kiçik qızı Təranə Abdullayevanın da 2 övladı var.

Oğlu, 2002-ci il təvəllüdlü Murad Abdullayev Göyçay Dövlət İdarəetmə və Texnologiya kollecində təhsil alır. Bizimlə əmiuşağı olan Əfqan yoldaş kimi də, ata kimi də, oğul kimi də, qohum kimi

də dəyərli insan idi. Bir gün Bakıya, bizə qonaq gəlmişdi. Yoldaşımla çox yaxın, isti, doğma münasibətləri var idi. Elə bil mənim yox, onun əmisi oğluydu. Danışıb gülürdülər. Birdən üzünü mənə tutaraq: "Əmiqızı, gəl gedək kəndə. Kəndin gözəl vaxtıdır, sən də şair adam. Bir az həyət-bacada gəzər, təbiətdən zövq alıb ilhama gələrsən".

Əfqan təzə ev tikdirirdi. Dedim: "Qardaş, inşallah evini tik qutar, təbrikə gələrik. İndi sizdə bir az darısqallıqdır".

Gülümsədi. Dedi: "Əmiqızı, əvvəla adamın ürəyi geniş olsun, evin kiçik olmağının əhəmiyyəti yoxdu. Sonra da ki, əlamətdar gündə yadlar da gəlir. Doğmalıq isə elə bir hissdir ki, o heç nəyə baxmır. Vallah, doğmalarımı axtarıram, istiəyirəm. Bakıda bir az işim var. Onu yekunlaşdırım. Bir gün Sabir əmigilə də dəyəcəyəm, hamınızı yığacağam başıma".

Əfqanın həyat yoldaşı Yaqut da bizimlə əmiuşağıdır. Əfqanın evi, sözsüz ki, hər birimizçün çox doğma bir ocaq idi. Heç aradan 2-3 ay keçməmiş kənddən acı bir xəbər gəldi ki, Əfqan rəhmətə gedib. Əfqan səhər çağı otağından çıxıb pilləkənləri düşmək istərkən ürəyində ağrı hiss edib. Əyləşib pilləkəndə, əlini qoyub ürəyinin üstünə. Elə ordaca, bir göz qırpımında, 40 yaşında səssiz-səmirsiz dünyasını dəyişib.

O gündən etibarən həyat yoldaşı Yaqut xanım 3 övladına həm ata, həm ana oldu. Taleyin ona vurduğu qəlb yarasına təslim olmayıb ayaq üstə durmağı bacardı. Əfqanın yadigarlarını saxlamaq üçün hər cür əzab-əziyyətə qatlaşaraq onları böyüdüb boya-başa çatdırdı. Yaqut xanım səbr edib, hər gününə şükür etdi. İnandı ki, bir gün bu çətin günlər keçəcək, uşaqlar böyüyəcək və o da həyat yoldaşını ziyarət edərək qürurla bu sözləri deyəcək: "Rahat yat, əzizim. Artıq qızların ailə həyatı qurub. Hərəsinin iki övladı var. Oğlun isə təhsil alır. Elə özün kimi igid bir cəngavərdir. Deməli, həyatda heç bir çətinlik əbədi deyilmiş. Hər qaranlıq gecənin bir işıqlı səhəri varmış. Hər şey yoluna düşüb. Bir sən yoxsan. Səni isə qaytarmağa gücümüz çatmır!".

***



## 15. ŞAHİN ABBASOV (15.07.1969)

Şahin Ədalət oğlu Abbasov 15 iyul 1969-cu ildə Göyçayda anadan olmuşdur. 1976-cı ildə keşmiş V.İ.Lenin Lenin adına 6 №-li orta məktəbin 1-ci sinfinə qəbul edilmiş, məktəbin 8-ci sinfini bitidikdən sonra 58 №-li texniki peşə məktəbində dülgər-xarrat peşəsinə yiyələnmişdir. 1987-ci ildə həqiqi hərbi xidmətə çağırılmış, Rusiyanın Ulan-Ude, Buryatiya, Sverdlovsk şəhərlərində əsgər həyatı keçirmişdir. 1989-cu ildə hərbi xidməti başa vuraraq Azərbaycana qayıtmış, 1990-cı ildə ailə həyatı qurmuş, 2-si qız, 1-i oğlan olmaqla üç övladı vardır.

Şahin Abbasov ordudan tərxis edildikdən sonra ədliiyə polisində çalışmış, Birinci Qarabağ müharibəsinin qızğın çağlarında, 1993-cü ilin fevral ayının 23-də, yeni dünyaya gəlmiş oğlu Turalın 40-nın təzəcə çıxdığı günlərdə Azərbaycanın suverenliyi, ərazi bütövlüyü, azadlığı uğrunda gedən döyüşlərə qatılmışdır.

Döyüş yolu haqqında sorğumuza cavabında yazır: “Tərtər, Marquşavan, Çardaxlı, Vaqauş, Akonkamari, Qlobuş, Myuntaraxdan üzü Ağdərə istiqamətində gedən döyüşlərdə fəal iştirak etmişəm. Qranatamyot silahı işlətmişəm. Alın nahiyəsindən və qulaq pərdəsinin deşilməsi yarası almışam. Yaralandığıma baxmayaraq döyüş bölgəsini tərk etməmişəm.

Bəzi yönsüz siyasi xadimlərin, hakimiyyət davası edənlərin özbaşınalığı bizi aldığımız torpaqları geri qaytarmağa məcbur etdi.

Bir neçə aydan sonra bizi 773 №-li hərbi hissədən 701 №-li hərbi hissəyə 3-cü batalyonun tərkibinə verdilər. Murov dağı istiqamətindən üzü Kəlbəcərə Yanşaq, Qamışlı, Susuzluq, Tunel və Qanlı dağ deyilən istiqamətlərdə çox ağır döyüşlər gedirdi. Yanşaq kəndini alandan sonra gecəni meşədə keçirərək səhər üzü 6-7 arası hücuma keçməliydik. 35 nəfər Göyçaylı döyüş yoldaşlarım var idi. 1-ci Şəhidimiz Elşən Kərimov oldu. Kəlbəcərli bir döyüşçü yaxşı muğam oxuyurdu, səsi yaxşı olsa da Elşən tərəfə bir az yaxşı çatmırdı.

Elşən kəlbəcəlidən xahiş elədi ki, gəl yerimizi dəyişək, sən meşənin aşağı hissəsində dayan oxu, mən isə qayanın üstündə oturum. Elşəni qayanın üstündə oturub qulaq asdığı yerdə snayperlə ürəyindən vurdular. Mən və digər yoldaşalrım bizdə olan 4 pulemyotu işə saldıq. Şəhidimiz Elşənin qanını, qisasını onlardan aldıq. Düşmən xeyli itki verərək geri çəkilməli oldu.

1994-cü il yanvarın 24-də Qanlı dağ uğrunda gedən döyüşlərin birində qarın nahiyəsindən müharibədə istifadə olunmayan silahdan ( yəni 5*45 deyilən güllə) yarası aldım və ağır yaralandım. Yaralanarkən anamın və qızım Qərənfilin adını çəkmişəm. Bir il döyüşlərdə olmuşsm. Eh, nə qədər xatirələrim var, yazmaqla bitən deyil.

13 dəfə əməliyyat keçirmişəm. Məni döyüş bölgəsindən sağ-salamat çıxaran Kamran, İkram, Hikmət, Şirin və adını unutduğum digər döyüş yoldaşlarıma minnətdaram.

Oğlum Tural Abbasov da könüllü olaraq müddətdən artıq 2014-cü ildən bu günə qədər orduda xidmət edir və 44 günlük vətən müharibəsinin fəal iştirakçılarındandır. Füzuli, Suqovuşan, Şuşanın azad edilməsi medalları ilə təltif olunub.

Hər iki müharibədə əbədiyyətə qovuşmuş şəhidlərimizə Allahdan rəhmət, yaralılarımıza şəfa diləyirəm. Sizə də ailəm adından minnətdaram ki, bizim kimi qəhrəmanları unutmursunuz.

1-ci Qarabağ döyüşçüsü Şahin Abbasovun övladları:

1.Qızı Qərənfil 1991-ci ildə Göyçay şəhərində anadan olub. Tibb bacısı kursunu bitirib. İşləmir. Ailəlidir. 2 övladı var.

2.Oğlu Tural 1993-cü ildə Göyçay şəhərində anadan olub. 1999-cu ildə Göyçay şəhər 4 saylı orta məktəbin 1-ci sinfinə daxil olub. 2010-cu ildə həmin məktəbin 10-cu sinfini bitirib. 06.01.2011-ci ildə SHXÇOX-nın Göyçay rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə göndərilib. 04.07.2012-ci ildə hərbi xidmətdən tərxis olunub. 2014-cü ildən Mingəçevir şəhərində yerləşən N saylı hərbi hissədə avtomobil manqa komandiri vəzifəsində müddətdən artıq hərbi xidmətdədir. Vətən müharibəsi günlərində Madagiz, Füzuli, Suqovuşan, Xocavənd, Şuşa və Laçın rayonlarında gedən döyüşlərdə iştirak edib. Ali baş komandan Prezident İlham Əliyev tərəfindən Füzuli, Şuşa, Suqovuşanın azad edilməsində fəal iştirakına görə medalarla təltif olunub. Ailəlidir. 2 övladı var.

Qızı Əfsanə1995-ci ildə Göyçay şəhərində anadan olub. Ağdaş Humanitar Kollecinin ibtidai sinif müəllimi ixtisasını bitirib. İşləmir. Ailəlidir. 3 övladı var.

***



## 16.ZİYAFƏDDİN MEHDİYEV (28.07.1969)

Birinci Qarabağ müharibəsi işrirakçısı Ziyafəddin Mehdiyevin bizə yazdıqılarından: “Mən Mehdiyev Ziyafəddin Valeh oğlu 28 iyun 1969-cu ildə Göyçay rayonunun Qaraxıdır kəndində anadan olmuşam. 1976-cı ildə Qaraxıdır kənd tam orta məktəbində ibtidai təhsilə başlamışam. 1984-cü ildə orta məktəbi bitirib Göyçay 106 N-li orta texniki peşə məktəbinə daxil olmuşam. 22 iyul 1987-ci ildə oranı 3-cü dərəcəli maşinist, 2 dərəcəli çilingər ixtisası üzrə bitirmişəm. 10 noyabr 1987-ci ildə hərbi xidmətə çağrılmışam. Hərbi xidməti Almaniya Demokratik Respublikasında keçirmişəm. Hərbi xidmətimi başa vurduqdan sonra 1989-cu il 6 dekabr tarixində Azərbaycan Respublikasına qayıtmışam. 1992-ci ildə könüllü olaraq cəbhə bölgəsinə yollanmışam. Laçında gedən qızğın döyüşlərdə iştirak etmişəm. Ağdam rayonundakı döyüşlərdə yaralanmışam. Çiynimdən aldığım yara səbəbindən Ağcabədi rayon 2 N hərbi səhra hospitalında müalicə almışam.

1994-cü ildə ailə həyatı qurmuşam. 3 övladım var. Hazırda Göyçay rayonunun Qaraxıdır kəndində yaşayıram. Kənd təsərrüfatıyla məşğulam”.

***



**17. ZAMAN MEHDİYEV
(1970-2020)**

1-ci Qarabağ müharibəsi döyüşçüsü Zaman Valeh oğlu Mehdiyev 1970-ci ildə Göyçay rayonunun Qaraxıdır kəndində anadan olub. 1977-ci ildə 1-ci sinfə getmiş, 1985-ci ildə həmin məktəbin 9-cu sinfini bitirmiş, Göyçay rayon peşə məktəbinə daxil olaraq peşə təhsili almışdır.. Peşə məktəbini bitirib həqiqi xidmətə yollanan Zaman 1988-1992-ci illərdə orduda xidmət etmiş, Qubadlı, Ağdam istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Səhəti ilə bağlı olaraq 1992-ci ildə tərxis olunan Zaman doğulduğu kəndə qayıtmışdır.

Ailəli idi. Iki övladı var.

Zaman uzun sürən xəstəlikdən sonra 2020-ci ildə vəfat etmiş, Haqqın dərgahına qovuşmuşdur.

***



## 18.NAMİQ ƏZİZOV (26.02.1970)

Sorğumuza cavab olaraq 1-ci Qarabağ müharibəsi qazisi Namiq Əsizov yazır: "Mən Əzizov Namiq Xəlil oğlu 26 fevral 1970-ci ildə Göyçay rayonunun Qaraxıdır kəndində anadan olmuşam. 1978-ci ildə Qaraxıdır kənd orta məktəbinin 1-ci sinfinə qəbul olunmuşam. 1986-ci ildə Göyçay rayonunun 58 № -li Peşə məktəbunə daxil olmuş, dülgər-xarrat ixtisası ilə 1989-cü ildə həmin məktəbi bitirmişəm. 1989-cu ilin noyabr ayının 20-də hərbi xidmətə çağrılmışam. 2 il Qazaxstanda xidmət etmişəm. 1991-ci ilin noyabr ayının 25-də hərbi xidmətdən qayıtmışam. Hərbi xidmətdən qayıtdıqdan sonra inşaat birqadasında işləmişəm. 1-ci Qarabağ müharibəsi dönəmində mən də bir azərbaycanlı oğlu kimi çox narahat idim. Azğın erməni faşistlərinin işqalçı müharibəsi məni də könüllü orduya yazılmağa vadar etdi.

1992-ci il dekabrın 19-da Şəmkirdəki N saylı hərbi hissədə təlimdə olmuşam. 1993-cü il yanvarın 10-da Ağdərə rayonunun Çaldıran kəndindən sonrakı kənd olan Dovşanlı kəndindən hücuma keçdik. Kəndin yarısını almışdıq. Birdən güclü hücum nəticəsində biz geri çəkilməyə məcbur olduq. Sonra öz mövqeyimizə qayıtdıq. Səhərisi ermənilərin Ağdərənin Sırxəvənd kəndinə olan mövqeyinə hücuma keçdik. Erməni mövqeyləri güclü idi. 5 saat döyüş əməliyyatı keçirdik. Yenə biz geri çəkilməyə məcbur olduq. Yanvar ayının 25-də Ağdərənin Vəng kəndinə hücum etdik. Kəndi aldıq. Ancaq, hiyləgər düşmənin tələsinə düşdük.

5 gün mühasirədə qaldıq. Yanvarın 30-da mühasirəni yardıq və öz mövqeyimizə qayıtdıq. Fevralın 1-də Gəncədəki N saylı hərbi hissəyə qayıtdıq. Ayaq barmaqlarımı don vurmuşdu. Məni həmin hərbi hissədən Göyçay xəstəxanasına göndərdilər. Fevralın 2-dən martın 20-nə qədər xəstəxanada müalicə olundum. 1993-cü ilin noyabrın 26-da Pirküşkuldəki N saylı hərbi hissəyə gəldim. Sonra bizi Murova gətirdilər. 1994-cü ilin yanvarın 5-ə dək həmin hərbi hissədə qalmışam. Yanvar ayının 10-da Murovun Yanşax kəndinə qalxdıq. Həmin kənd Kəlbəcər rayonuna aiddir. Yanvarın 12-də səhər saat 10-da düşmən tərəfindən bizim mövqeyimiz minamyot atəşinə məruz qaldı. Həmin döyüşdə ağır yaralandım. Kürək nahiyəsindən iki qəlpə yarası aldım. Məni Gəncə şəhərindəki hərbi hospitala gətirdilər. 2 ay hospitalda müalicə almışam. Mart ayının 10-da evə qayıtmışam.

Cəbhə xatirələri çoxdur. Yadımda qalanlardan biri ağır döyüşlərdə yaralanmış döyüş yoldaşımı çiyinlərimdə 1 km döyüş meydanından geriyə gətirməyim idi. 1-ci Qarabağ müharibəsində şəhidlərimiz çox oldu. Azərbaycan yeni müstəqil dövlət olmuşdu. Savadsız, səriştəsiz rəhbərlərin əməlləri nəticəsində biz məğlub olduq. 12 rayonumuz, Azərbaycanın 20% torpaqları düşmən tərəfindən işğal olundu.

Xocalı soyqırımı kimi vəhşiliklər heç zaman yaddaşımızdan silinməyəcək. Biz 1-ci Qarabağ savaşını uduzsaq da, dövrün gəncləri olaraq son damla qanımızadək mübarizə apardıq.

28 ildən sonra bizim balalarımız bu mübarizəni davam etdirdilər. Onlar ermənilərə azərbaycanlıların necə orduya malik olduğunu göstərdilər. İndi Azərbaycanın elə müzəffər ordusu var ki, bütün dünya bu ordudan dərs almaq istəyir. Sevinirəm ki, 1-ci Qarabağ müharibəsindəki və 2-ci Qarabağ müharibəsindəki şəhidlərin qanı yerdə qalmadı. Biz qalib gəldik! Yaşasın Azərbaycan ordusu!”

***



## 19.NOVRUZ HACIYEV (20.03.1970)

Birinci Qarabağ müharibəsi qazisi Novruz İsmayıl oğlu Hacıyev 1970-ci il mart ayının 20-də Göyçay rayonunun Qaraxıdır kəndində anadan olub. 1978-ci ildə Qaraxıdır kənd orta məktəbinin 1-ci sinfinə qəbul olunub. 1985-ci il ildə həmin məktəbin 8-ci sinifini bitirdikdən sonra təhsilini Göyçay rayon 106 nömrəli Texniki Peşə məktəbində davam etdirib, sürücülük peşəsinə yiyələnib. 1988-90-cı illərdə Uzaq Şərqdə Primorsk vilayətində hərbi xidmətdə olub. 1992-ci il mart ayının 21-könüllü şəkildə I-ci Qarabağ müharibəsinə yollanıb. Laçın, Ağdam, Ağdərə, Murov istiqamətində döyüşlərdə iştirak edib.

1997-ci ildə ailə həyatı qurub. Ailəlidir. 3 övladı, 1 nəvəsi var.

***



## 20. ŞİRVAN İBRAHİMOV (07.09.1970)

Birinci Qarabağ müharibəsi savaşçısı Şirvan Xələf oğlu İbrahimov 1970-ci il sentyabr ayının 7-də Göyçay rayonunun Qaraxıdır kəndində anadan olmuşdur. O, 1976-cı ildə Qaraxıdır kənd tam orta məktəbinə qəbul edilmiş və 1986-cı ildə 10-cu sinfi bitirmişdir. 1988-ci ilin əvvəlində Rusiyanın Yakutiya vilayətində hərbi xidmətə başlamış, 1990-cı ildə 1-ci Qarabağ müharibəsinə könüllü olaraq qoşulmuşdur. Haramı düzü və s. ərazilərdə vətənimizin bütövlüyü uğrunda gedən qızğın döyüşlərdə fəal iştirak etmişdir. 1994-cü ilin fevral ayınında ağır yaralanaraq ordudan tərxis olunmuş, müalicəsini Sabirabad Rayon xəstəxanasında davam etdirmişdir.

**Şirvan İbrahimovun döyüş yaşantılarından bir xatirə:** "Səhər saat 06:00 –da hücuma keçdik və ermənilərin səngərini ələ keçirdik. Səhəri gün ermənilər yenidən bizi artilleriya atəşinə tutdular. Atışma iki saat davam etdi. Birdən komandir xəbər verdi ki, ehtiyatlı olun, tanklar gəlir. Düşmən tanklrından biri səngərin içinə girdi. Mən isə heç nəyi eşidib görmürmüş kimi irəliləyirdim. Komandir əmr verdi ki, ermənilər tam yaxınlaşana kimi atəş açılmayacaq. Bu minvalla biz onlara yaxınlaşdıq və 20 metr qalmış onları atəşə tutduq. Bir dənə də erməni əsgəri sağ qalmadı. Birdən gördük ki, üstümüzə daha 4 tank gəlir. Artıq bizim o tankları vurmaq üçün silahsursatımız qalmamışdı. Komandir bizə geri çəkilməyi əmr etdi. O aramsız olaraq: "Qaçın, qaçın!"- deyə qışqırırdı. Birdən ayıldım ki,

qaçmalıyam, ancaq ayaqlarım tutulmuşdu. Mənə nə olduğunu anlamadım: "Allah, özün mənə kömək ol!"-dedim. Elə bil o dəqiqə Allah məni eşitdi. Ayağa durub qaçmağa başlayanda gördüm ki, yerdə bir zabit çabalayır. Ona kömək edərək adım-adım irəliləməyə başladıq.

Getdiyimiz zaman tankdan bizə tərəf atəş açıldı. Top mərmisi dağa dəyib partladı. "Atılan güllə indicə mənə dəyəcək",- deyə fikirləşdiyim an güllə çiynimdə apardığım zabitə dəydi. Yaralansaq da, xoşbəxtlikdən hər ikimiz sağ qaldıq. Bu bir möcüzə idi".

Şirvan deyir ki, yaşanmış çox, lap çox acı xatirələr var. Bunu bir səhifəyə yox, hətta bir kitaba sığdırmaq olmaz. Ən acı yaşantılarımdan biri budur ki, hər gün üz-üzə gəlib bir yerdə çörək yediyimiz 80-nəfərlik bölüklə ermənilərə qarşı ağır döyüşlərin birinə girdik. Geri dönəndə o yoldaşlardan cəmi 6 nəfər sağ qalmışdıq. Bu hadisəni bu gün də düşünəndə damarımda qanım donur. Bu da mənim 1-ci Qarabağ döyüşlərindəki yaşantılarımın, acılarımın bir günü , bir anı...

Ailədir. Həyat yoldaşı Samirə xanım evdar qadın, oğlu Xələf İbrahimov isə məktəblidir.

***



## 21. XALİD HƏSƏNOV (06.02.1971)

Birinci Qarabağ müharibəsi qazisi Xalid Xanlar oğlu Həsənov 6 fevral 1971-ci ildə Göyçay rayonunun Qaraxıdır kəndində anadan olmuşdur. 1978-ci ildə Qaraxıdır kənd orta məktəbinin 1-ci sinfinə qəbul edilmiş, 1988-ci ildə həmin məktəbin məzunu olmuşdur. 1988-89-cu illərdə Göyçay şəhərindəki 58 nömrəli texniki peşə məktəbində peşə təhsili almışdır.

Peşə məktəbini bitirən 18 yaşlı gənc 1989-cü ildə həqiqi hərbi xidmətə çağırılmış, 1989-91-ci illərdə Sovet ordusnun əsgəri kimi Sverdlovsk vilayətinin Nijniy Taqıl şəhərində həqiqi hərbi xidmətdə olmuşdur.

Hərbi xidməti başa vuran Xalid Vətənə dönəndə Birinci Qarabağ müharibəsi artıq alovlanmış, xain və məkrli qonşularımız torpaq iddiası ilə meydan sulayırdılar. Vətənpərvər və qeyrətli gənc olan Xalid Həsənov, təbii ki, bu olaylarla barışa bilmir, darda olan Vətəninin dərdlərinə dərman olmaq üçün 1992-ci ildə Göyçay Rayon Hərbi Komissarlığına müraciət edərək cəbhəyə, döyüşən ordu sıralarına getmək istədiyini bildirir. İstəyinə müsbət cavab verilən Xalid Həsənov könüllü əsgər olaraq cəbhəyə göndərilir. O, 1992-1996-cı illərdə orduda olur, Ağdam, Ağdərə, Füzuli və Cəbrayıl istiqamətində gedən döyüşlərdə fəal iştiark edir.

1996-cı ildə ordudan tərxis olunan Xalid Həsənov 2001-ci ildə ailə həyatı qurur.

Xanımı Həsənova Mədinə Bəxtiyar qızı evdar qadın, böyük oğlu, 2003-cü il təvəllüdlü Xanlar Həsənov Azərbaycan Dövlət İqtisad Universititenin mühasibat uçotu və audit fakultəsinin 1-ci kurs tələbəsi, kiçik oğlu, 2005-ci il təvəllüdlü Həsən Həsənov isə Zülfüqar Zülfüqarov adına Qaraxıdır kənd orta məktəbinin şagirdidir.

***



## 22.VAQİF MƏMMƏDOV (07.01.1971)

1-ci Qarabağ müharibəsi döyüşçüsü Vaqif Məmmədov bizə göndərdiyi tərcümüyi-halında yazır: “Mən Məmmədov Vaqif Bilal oğlu 7 yanvar 1971-ci ildə Göyçay rayonunda anadan olmuşam. 1978-ci ildə Göyçay rayonun 8 N-li orta məktəbin 1-ci sinfinə daxil olmuşam. 1987-ci ildə həmin məktəbin 9-cu sinfini bitirmiş, təhsilimi Göyçay Peşə Liseyində davam etdirmişəm. 1989-cu ilin dekabr ayında Göyçay rayon Hərbi Komissarlığı tərəfindən SSRİ silahlı qüvvələrinə həqiqi hərbi xidmətə göndərilmişəm. 1991-ci dekabr ayında ordudan tərxis olunmuş, 1992-ci ildə könüllü olaraq AR SQ-də xidmətə başlamışam. 723 saylı hərbi hissənin tərkibində Füzuli, Ağdərə, Martunidə gedən döyüşlərdə fəal iştirak etmişəm. Döyüş yoldaşlarımdan dostum İxtiyar Füzuli rayonunda gedən döyüşlərdə şəhid oldu. 1993-cü ildə Füzuli rayonunda gedən döyüşlərdə ağır yaralanmışam. 2-ci qrup Qarabağ müharibəsi əliliyəm.

**Vaqif Məmmədovun cəbhə xatirəsi:** “1-ci Qarabağ müharibəsindən ən çox yadımda qalan hadisələrdən biri güllə yarası alanda anamı fikrləşməyim olub (Güllə Vaqifin sağ böyrəyini dəlib keç-

miş və əməliyyat olunandan sonra o, tək böyrəyi və bədənindəki qəlpə yaraları ilə yaşayır). Anam bizi min bir zəhmətlə, yetimçiliklə böyüdüb. Düşünürdüm ki, İlahi, mənə bir şey olsa, anam nə edəcək? Onu heç kimin ümidinə buraxmaq istəmirdim. Elə bilirdim ki, heç kim onun qayğısına mənim kimi qala bilməz. Qorxurdum və içimdə böyük təlaş var idi. Mənə elə gəlirdi ki, mənim qədər qoca anamın nazını çəkən, dilini bilən olmayacaq. Bir də bu günə kimi mənimlə çiyin-çiyinə vuruşan, şəhid olan yoldaşlarımı unuda bilmirəm.

Birinci Qarabağ müharibəsində mənimlə döyüşmüş İxtiyar Nəcməddin oğlu Maqsudovla peşə məktəbində bir yerdə oxumuşuq. O mənim gözümün qabağında şəhid oldu. Onun ölümünə çox sızladım və bu sızıltı bu gün də ürəyimi ağrıdır.

Hər dəfə döyüş yoldaşlarım haqqında düşünəndə ürəyim göynəyir. Kaş ki, bu gün o əziz silahdaşlarım, məsləkdaşlarım sağ olub qələbə gününü görəydilər. Şəhidlərimiz qan yaddaşımda yaşayır və yaşayacaqlar. Allah onlara qəni-qəni rəhmət eləsin".

Birinci Qarabağ müharibəsində bir böyrəyini itirən və indiyə kimi bədənində qəlpə gəzdirən Vaqif Məmmədov nümunəvi ailə başçısı, iki oğul atasıdır. Böyük oğlu Vüsal Məmmədov 1998-ci ildə Göyçay şəhərində anadan olmuş, 2020-ci ildə Gəncə Dövlət Universitetini bitirmiş, hazırda Azərbaycan Texniki Unuversitetinin magistraturasında təhsil alır.

Kiçik oğlu Xəyal Məmmədov 2002-ci ildə Göyçay şəhərində anadan olmuş, Avrasiya Universitetinin 2-ci kurs tələbəsidir.

***



## 23.MƏTLƏB SƏLİMOV
## (13.01.1972 )

1-ci Qarabağ müharibəsi döyüşçüsü Səlimov Mətləb Emin oğlu sorğumuza cavabında yazlr: "1972-ci il yanvar ayının 13-də Göyçay rayonunun Qaraxıdır kəndində anadan olmuşam. 1979-cu ildə 1-ci sinfə getmişəm. 1990-cı ildə hərbi çağırışa çağrılmışam. Hərbi xidmətimi 1992-ci ilin iyun ayında Ukraynada serjant rütbəsi ilə bitirdikdən sonra, yenidən həmin ilin 17 sentyabrında Daxili qoşunların tərkibində Qarabağda gedən döyüşlərə ezam edilmişəm.

Ağdərənin Çaldıran və Dövşanlı kəndlərinin müdafiəsi uğrunda gedən döyüşlərdə iştirak etmişəm. Bu çətin ağrılı günlərdə gecə-gündüz demədən döyüş yoldaşlarımızla birlikdə düşmənə qarşı vuruşmuşuq".

Mətləb Səlimov cəbhə xatirələrini ürək ağrısı ilə dilə gətirir: "Təbii ki, müharibə ilə bağlı hər xatirə bir acı yaşantı, ürək ağrsıdır. Heç zaman yadımdan çıxmaz. Şiddətli döyüşlərin birində dostarımdan biri şəhid oldu. Onun cəsədini düşmən tapdağı altında qoyub uzaqlaşa bilməzdim. Başımıza yağış kimi güllələr yağırdı. Həmin an mənim də həyatım təhlükədə idi. Buna baxmayaraq, yodaşımı orda qoyb getməyi qeyrətim qəbul eləmədi. Yaxınlaşıb onun cansız cəsədin qollarımın arasına alaraq göz yaşlarmda boğula-boğula çətinliklə də olsa mövqelərimizə gətirib çıxara bildim. Onun nəşini yerə qoyanda üzündə bir təbəssüm gördüm. Sanki torpaq uğrunda şəhadətə

çatdığı üçün sevinirdi. Bizim nəsil, gənc döyüşçülərimiz bax belə cəsur, mərd və ürəkli idilər.

Bir gün şiddətli döyüşlərin birində dizimdən ağır zədə aldım. Zədlənmiş dizim bu gün də ağrıyır. Dizim ağrıdıqca həm də ürəyim ağrıyir, o günlər anbaan yadıma düşür".

Ailəlidir. Həyat yoldaşı müəllimədir. Üç övladı var. Böyük qızı Nailə Səlimova 2020-ci Gəncə Dövlət Universitetinin fizika və texniki fənlər fakültəsini bitirmişdir. İkinci qızı Gülnar Səlimova Gəncə Dövlət Universitetinin kimya-biologiya fakültəsinin tələbəsi, oğlu Pərvaz isə məktəblidir.

***



## 24.SƏDİYAR XUDAVERDİYEV (1972)

1-ci Qarabağ müharibəsi döyüşçüsü Sədiyar Zülfü oğlu Xudaverdiyev 1972-ci ildə Göyçay rayonunun Qaraxıdır kəndində anadan olmuşdur. Hərbi xidməti ilə bağlı sorğumuza cavab olaraq yazır: “1990-cı ilin may ayında sovet ordusu sıralarına getmişəm. Moskva ətrafında 2 il xidmət edib vətənə geri dönmüşəm. 1993-cü ilin iyun ayında Azərbaycan Silahlı Qüvvələrində xidmətə başlamışam. Murov dağdan Kəlbəcər rayonu istiqamətində gedən döyüş əməliyyatlarında iştirak etmişəm. Ən yadda qalan hadisələrdən biri odur ki, 1994-cü ilin yanvar, fevral aylarında Kəlbəcər rayonu istiqamətində Kəlbəcər tunelinin üstündəki strateji yüksəklikdə, Çiçəkli dağda qurşaqdan yuxarı qarın içərisində 20-25 gün heç bir təminat olmadan, qeyri-bərabər şəraitdə düşmənlə üzbəüz olmuşuq. Şaxtanın təsirindən 10 dəqiqə hərəkətsiz qaldıqda yoldaşlarımın neçəsinin don vurmadan şəhid olduğunun şahidi olurdum. Çox ağır günlər idi. Səninlə çiyin-çiyinə döyüşən, 5-10 dəqidə əvvəl çörək yediyin, söhbət etdiyin yoldaşların gözünün qabağında şəhid olurdu. Bu yaşantıları, bu gerçəkləri hər dəfə xatırlayanda Çiçəkli dağda baş verən o acı anları yenidən yaşayıram.

Ailəlidir. İki oğul atasıdır.

Mehdi Xudaverdiyev ali təhsillidir. Göyçay şəhər 1 N-li orta məktəbdə idman müəllimi işləyir.

Qadir Xudaverdiyev ali təhsilidir. Kənd Təsərrüfatı Akademiyasının məzunudur.

***



## 25. SƏDİYAR ABDULLAYEV (08.01.1973)

Birinci Qarabağ müharibəsi döyüşçüsü Sədiyar Ağalar oğlu Abdullayev 1973-cü il yanvarın 8-də Göyçay rayonunun Qaraxıdır kəndində anadan olmuşdur. 1979-cu ildə Qaraxıdır kənd orta məktəbinin 1-ci sinfinə getmış, 1990-cı ildə həmin məktəbin məzunu olmuşdur. 1991-ci ildə Sovet ordusu sıralarına xidmətə çağırılmış, 7 aydan sonra Vətənə qayıtmışdır.

**Sədiyar Abdullayevin dediklərindən:** “Sovet ordusunda xidmət zamanı eşitdik ki, ölkəmizdə Milli ordu yaranır. Milli orduda xidmət etmək üçün Vətənə gəlmək istəyimizi onlara bildirdik. Bizə etiraz etdilər. Biz orada aclıq aksiyasına başladıq. Heç bir əmrə tabe olmadıq. Ancaq bunlar heç bir nəticə vermədi və biz hərbi hissəni özbaşına tərk etdik, yəni qaçdıq. Gəlib Azərbaycanda öz rayonumuzda, Göyçayda hərbi komissarlıqda qeydiyyatdan keçdim və Milli ordu sıralarına yazıldım. Milli ordunun ilk əsgərlərindən oldum. Gəncə şəhərindəki 709 №-li hərbi hissənin mühafizə bölməsində xidmətə başladım. 1993-cü ildə ordu sıralarından tərxis olunana qədər ərazi bütövlüyümüzün qorunması üçün Ağdam, Füzuli istiamətlərində gedən döyüşlərdə iştirak etdim. Tale mənə qalib əsgər olmağı qismət etməsə də, 18 yaşlı oğlum Səməd Abdullayev İkinci Qarabağ savaşında Vətən uğrunda şəhid olaraq ölümündən sonra ən ali mükafatlardan biri olan “Vətən uğrunda” medalı ilə təltif olundu və Birinci Qarabağ müharibəsinin xəcalətindən milləti qurtarmaq üçün canı və qanı ilə doğma Vətənimizə xidmət etdi...”.

Ailəlidir. Dörd övlad atasıdır.

***



**26.QURBAN HACIYEV**
**(1973)**

1-ci Qarabağ müharibəsi döyüşçüsü Qurban İsmayıl oğlu Hacıyev 1973-cü ildə Göyçay rayonunun Qaraxıdır kəndində anadan olmuşdur. 1980-ci ildə Qaraxıdır kənd orta məktəbinin 1-ci sinfinə qəbul olunmuş 1988-ci ildə 8-ci sinfi bitirmiş, 1988-91-ci illərdə Gəncə şəhərindəki 27 nömrəli Texniki Peşə Məktəbdə qaynaqçı peşəsinə yiyələnmişdir.

1992-ci ildə hərbi xidmətə yollanan, Azərbaycan Milli ordusunun ilk əsgərlərindən olan Qurban Hacıyev Füzuli – Ağdərə istiqamətlərində gedən döyüşlərdə iştirak etmiş, döyüşlərin birində qəlpə yarası alsa da, müalicə olunduqdan sonra xidmətini davam etdirmişdir.

1993-cü ildə ordudan tərxis olunaraq doğma kəndinə qayıtmış, elə həmin ildə ailə həyatı qurmuşdur. 3 övladı və 3 nəvəsi var.

Böyük oğlu, 1994-cü il təvəllüdlü Rahim Qurban oğlu Hacıyev İkinci Qarabağ müharibəsi qazisidir.

***



## 27. PƏNAH MEHDİYEV (02.12.1973)

1-ci Qarabağ müharibəsi döyüşçüsü Pənah Valeh oğlu Mehdiyev 1973-cü il dekabrın 2-də Göyçay rayon Qaraxıdır kəndində anadan olmuşdur. 1980-ci ildə Qaraxıdır kənd orta məktəbinin 1-ci sinfinə qəbul edilmiş, 1990-cı ildə məktəbi bitirmişdir. İxtisas təhsili almaq üçün Bakıya yollanan Rənah Bakı Plan İqtisad Texnikumuna daxil olmuş, şagirdlik həyatı tələbə dünyası ilə əvəz olunmuşdur.

Vətənimizin göylərini qara buludlar alanda minlərlə vətənpərvər gənc kimi Pənah da Vətənin çağırışına səs verərək təhsilini yarımçıq qoymuş, vətənin ən ağır günlərində onun yaralarına məlhəm olmaq üçün 1992-ci ilin sentyabrda hərbi xidmətə yollanmışdır. 19 yaşı təzəcə tamam olmuş Pənah Azərbaycan Silahlı Qüvvələrinin 1-ci briqadasının tərkibində olan 701 N-li hərbi hissənin əsgəri kimi Kəlbəcər, Laçın, Füzuli, Ağdam bölgələrində mənfur düşmənə qarşı döyüşmüş, rəşadət göstərmişdir.

1996-cı ildə ordudan təxris olnan Pənah Mehdiyev yarımçıq qalan təhsilini davam etdirərək texnikumu bitirmiş, iqtisadçı ixtisası qazanmışdır.

Hazırda Bakıda yaşayır, ailəlidir. 3 övlad atasıdır.

***



## 28.ZAUR ABDULLAYEV (05.05.1974)

Xaricdəki havadarlarının dəstəyi ilə Azərbaycan xalqına qarşı törədilən qanlı Birinci Qarabağ döyüşlərinin iştirakçılarından biri də Zaur Abdullayevdir.

Zaur Ağalar oğlu Abdullayev 5 may 1974-cü ildə Göyçay rayonunun Qaraxıdır kəndində anadan olmuşdur. 1980-1990-cu illərdə Qaraxıdır kənd orta məktəbində orta təhsil almışdır.

**Zaur Abdullayevin sorğumuza cavab olaraq göndərdiyi məktubdan sətirlər:** Məktəbdə nümunəvi şagird olmaqla yanaşı, həm də dərslərimi yaxşı oxumuşam. 1-ci sinifdən 9 –cu sinifə kimi sinif nümayəndəsi olmuş, məktəbdə keçirilən bütün tədbirlərdə fəal iştirak edərdim.

Orta məktəbi bitirəndən sonra sənədlərimi peşə məktəbinə verdim. Peşə təhsilimi başa vurub 1992-ci ilin yazında həqiqi hərbi xidmətə çağrıldım. 1992-ci il iyun ayının 27-də bizi Göyçay Rayon Hərbi Komissarığından hərbi xidmətə yola saldılar. Taleyimə Azərbaycan Milli Ordusunun ilk əsəgərlərindən biri olmaq yazılıbmış. Bir neçə aylıq təlimlərdən sonra xidmət etdiyim hərbi hissəni döyüş bölgəsinə göndərdilər. Müharibənin nə olduğunu ilk dəfə orada, Ağdərə istiqamətində gedən döyüşlərdə görüb hiss etdim. Allah adamı qoruyanda qoruyur. Bir neçə dəfə ölümlə üz-üzə gəlsəm də, salamat qaldım.

1993-cü ilin yanvar-fevral aylarında Ağdam rayonunun bir çox kəndlərinin müdafiəsində iştirak etdim. Axırıncı döyüşlərim Ağdamın Şıxbabalı və Tapqaraqoyunlu istiqamətində olub. Ağdam

rayonu işğal olunandan sonra bizim hərbi hissəni Ağcabədiyə yerləşdirdilər.

Xarici ölkələrdən, xüsusilə Rusiyadan dəstək alıb torpaqlarımızı işğal edən erməni hərbi birləşmələrinin hücumlarının qarşısını almaqda çətinlik çəkirdik. Hərbi sursat və texnika cəhətdən bizdən üstün olan düşmənə qarşı son nəfəsimizə qarşı vuruşsaq da, zaman və hadisələr ermənilərin xeyirinə işləyirdi.

Atəşkəs elan olunana qədər hərbi xidmətdə oldum. Atəşkəsdən sonra tərxis olunub kəndə, ailəmin yanına qayıtdım. İnanın, adamların üzünə baxa bilmirdim. "Axı niyə niyə belə oldu, torpaqlarımız nədən işğal altına düşdü? sualına illər boyu cavab tapmaqda çətinlik çəkdim.

İndi isə rahat nəfəs alıram. Axır ki, Azərbaycan xalqı özündə güc tapıb Ali Baş Komandanın rəhbərliyi və Azərbaycan əsgərinin rəşadəti sayəsində torpaqlarımızı murdar düşmənlərdən azad elədi.

Yaşasın Azərbaycan xalqının birliyi, Ali Baş Komandanımız və müzəffər, qalib ordumuz!

***



## 29. ƏTRAF HƏBULLAHOV (1974)

Birinci Qarabağ müharibəsinin qazisi Ətraf Paşa oğlu Həbullahov 1974-cü ildə Göyçay rayonunun Qaraxıdır kəndində anadan olmuşdur. 1981-ci ildə kənddəki orta məktəbin 1-ci sinifə qəbul edilmiş, 1991-ci ildə orta məktəbi bitirmişdir. Həmin il qəbul imtahanlarında iştirak edərək Göyçay Kənd Təsərrüfatı Texnikumunun yol tikintisi mühəndisliyi fakultəsinin tələbəsi adını qazanmışdır. 1992-ci ildə, tələbə ikən Göyçay Rayon Hərbi Komissarlığından həqiqi hərbi xidmətə göndərilmişdir. Bir ay Bakıda təlim keçdikdən sonra Zəngilan rayonundakı N saylı hərbi hissədə xidmət edərək Cəbrayıl və Zəngilan rayonlarında gedən döyüşlərdə erməni qəsbkarlarına qarşı vuruşmuşdur.

**Həmin dövrün hadisələri barədə özü belə yazır:** "Zəngilanda ordumuz mühasirə vəziyyətinə düşəndən sonra yerli əhali ilə birgə İrana keçdik. Ordan Xudafərin körpüsünə gəldik. Ay yarım orada qaldıqdan sonra yenə də mühasirə təhlükəsi ilə üzləşərək yenidən İrana keçdik. İrandan da Göytəpə qəsəbəsinə gəldik. Oradan bizi Füzuli zonasına apardılar. 3 il də Füzuli zonasında döyüşlərdə iştirak etdim. Füzuli rayonunda çox əziyyətlər, məşəqqətlər yaşadıq. Günlərlə ac-susuz qaldıq. Orada yaralandım, qəlpə yarası aldım. Müharibə veteranıyam. Hal-hazırda mühafizəçi işləyirəm".

Bakı şəhərində yaşayır. Ailəlidir. Bir oğlu, bir qızı var. Yoldaşı Həbullahova Mərziyyə Əbil qızı evdar qadındır.

Qızı Lamiyyə Həbullahova 1997-ci ildə anadan olmuş, kompyuter mühəndisidir.

Oğlu Oruc Həbullahov şirkətlərin birində çalışır.

***



**30.ELDƏNİZ CAVADOV (07.04.1975)**

1-ci Qarabağ müharibəsi döyüşçüsü Eldəniz İsfəndiyar oğlu Cavadov 8 aprel 1975-ci ildə Göyçay rayonunun Ləkçıplaq kəndində anadan olmuşdur. 1981-ci ildə Ləkçıplaq kəndində 1 saylı tam orta məktəbinə qəbul olunmuş, orta məktəbi qutardıqdan sonra Göyçay Rayon Hərbi komisarlıqdan hərbi xidmətə yollanmışdır. Cəbrayıl, Füzuli, Ağdam bölgələrində döyüşdə olmuş, 1993-cü ildə Ağdamda yaralanmışdır. Yaraları sağalandan sonra yenidən döyüş bölgəsinə göndərilmiş, 1994-cü ildə təkrarən Füzuli bölgəsində ağır yaralanandan sonra ordudan tərxis olunmuşdur.

Ailəlidir, 3 oğlu, 1 qızı var.

***



## 31.CÜMŞÜD GÜLİYEV (17.02.1975)

1-ci Qarabağ müharibəsi qazisi Güliyev Cümşüd Soltanmahmud oğlu 1975-ci il fevralın 17-də Qaraxıdır kəndində anadan olmuşdur. 1981-ci ildə doğulduğu kəndin orta məktəbində təhsilə başlamış, 1992-ci ildə orta məktəbi bitirmişdir.
Orta ixtisas təhsilli iqtisadçıdır. 1993-cü ildə 18 yaşı tamam olan kimi hərbi xidmətə çağırılmış, Füzuli və Ağdam rayonlarında yerləşən hərbi hissələrdə xidmət etmişdir. 1993-cü ildə Füzuli rayonunun Seyidəhmədli kəndində gedən döyüşlərdə qəlpə yarası alaraq ağır yaralanmış, sağaldıqdan sonra yenidən hərbi hissəyə qayıdaraq xidmətini davam etdirmişdir.

Cümşüd qeyd edir ki, 1994-cü ildə, Novruz bayramı günü – mart ayının 21-də əsgər yoldaşım gözümün önündə şəhid oldu. Həmin gün mənimçün ömrüm boyu yaddan çıxmayacaq acı, dəhşətli bir gün idi.

Cümşüd 1997-ci ildə ordudan tərxis olunaraq Qaraxıdır kəndinə qayıtmış, Bakıda orta ixtisas təhsil almış, təsərrüfatın müxtəlif sahələrində çalışmışdır.

Ailəlidir və 4 övlad atasıdır.

Böyük oğlu Mirsoltan Güliyev Azərbaycan Texniki Universitetinin Nəqliyyat və loqistika fakultəsinin tələbəsidir.

Ortancıl oğlu Dilqəm Güiyev hərbi xidmətdədir. Kiçik oğlu Elgün Güliyev və sonbeşiyi olan qızı Aygün Güliyeva məktəblidirlər.

***



**32.QALİB MEHDİYEV (23.01.1975)**

1-ci Qarabağ müharibəsi qazisi Qalib Mehdiyev sorğumuza cavab olaraq yazır: "Mən Mehdiyev Qalib Valeh oğlu 1975-ci il yanvar ayının 23-də Göyçay rayonunun Qaraxıdır kəndində anadan olmuşam. 1981-ci ildə Qaraxıdır kənd tam orta məktəbində ibtidai təhsilə başlamış, 1992-ci ildə orta təhsilimi başa vurmuşam. 1994-cü ildə hərbi xidmətə çağrılmışam. İlk 3 ayı 888 nömrəli hissədə Türkiyədən gələn zabitlərin komandanlığı altında hərbi təlimlər almışam. Daha sonra cəbhə bölgəsinə ezam olmuşam və 1997-ci ilə qədər Tərtər, Ağdam, Bərdə, Gəncə bölgələrində hərbi xidmətdə olmuşam. Beləliklə, 3 il 6 ay hərbi xidmətdə olmuşam.

2004-cü ildə ailə həyatı qurmuşam. 2 övladım var. Hazırda Göyçay rayonundakı Qaraxıdır kəndində yaşayıram və kənd təssərüfatı ilə məşğul oluram".

***

# İKİNCİ QARABAĞ MÜHARİBƏSİ
(27 sentyabr 2020-ci il – 10 noyavr 2020-ci il)

İkinci Qarabağ müharibəsi 27 sentyabr 2020-ci il səhər saatlarında Ermənistan Silahlı Qüvvələrinin genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutmasından sonra başlanmışdır. Ermənistan ordusunun döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan ordusunun komandanlığı tərəfindən qoşunların bütün cəbhə boyu sürətli əks-hücum əməliyyatına başlaması barədə qərar verilmişdir. Qarşıdurmalar nəticəsində Ermənistanda hərbi vəziyyət və ümumi səfərbərlik, Azərbaycanda isə hərbi vəziyyət və komendant saatı, 28 sentyabrda qismən səfərbərlik elan edilmişdir. Qarşıdurmalar qısa müddətdə sürətlə alovlanmış və İkinci Qarabağ müharibəsinə çevrilmişdir. Çoxsaylı ölkələr və Birləşmiş Millətlər Təşkilatı münaqişəni kəskin şəkildə qınamış və hər iki tərəfi gərginliyi azaltmağa və mənalı danışıqları təxirə salmadan davam etdirməyə çağırmışdır. Əfqanıstan, Ukrayna, Pakistan, Türkiyə və Şimali Kipr Türk Respublikası isə Azərbaycana dəstək olduqlarını bildirmişdir. 29 sentyabr tarixində BMT Təhlükəsizlik Şurası Dağlıq Qarabağdakı vəziyyətlə əlaqədar təcili iclas keçirmişdir. Rusiyanın vasitəçiliyi ilə Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən dəstəklənən və həm Ermənistan, həm də Azərbaycan tərəfindən qəbul edilən humanitar atəşkəs rəsmi olaraq 10 oktyabr tarixində

qüvvəyə minsə də, Ermənistan Silahlı Qüvvələrinin mülki vətəndaşları hədəfə alan terror aktları nəticəsində atəşkəs yenidən pozulmuş, yaralıların və məhbusların mübadiləsi dayandırılmışdır. Davam edən müharibə ərzində 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı və 8 noyabrda Şuşa şəhəri işğaldan azad edilmişdir. Moskvada imzalanan müqaviləyə əsasən, noyabrın 10-u Bakı vaxtı ilə saat 01:00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və hərbi əməliyyatların tam dayandırılması, 1 dekabradək Ermənistan qüvvələrinin Dağlıq Qarabağın ətrafında Ermənistan nəzarətindəki Azərbaycan ərazilərindən çıxarılması və Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının təmin edilməsi elan edilmişdir.

***

## İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏ ŞƏHİD OLMUŞ GÖYÇAY İGİDLƏRİNİN SİYAHISI

44 günlük Vətən müharibəsində qismən hərbi səfərbərlik elan olunandan Göyçay gəncləri böyük həvəslə, coşqu və vətənpərvərliklə cəbhəyə getmiş, düşmənlə üz-üzə qəhrəmanlıq görsətərək, qanlı döyüşlərdə iştirak etmişlər. Rayonumuzdan İkinci Qarabağ müharibəsində 1500-ə yaxın könüllü döyüşmüşdür. İkinci Qarabağ müharibəsində 46 həmyerlimiz şəhidlik zirvəsinə yüksəlmişdir. Biz şəhidlərimizlə fəxr edirik. Şəhidlər bizim qürur mənbəyimizdir.

8 noyabr 2020 ci il Şuşanın işğaldan azad olunması, tarixi zəfərin qanımızla, canımızla yazılması Ali Baş komandanın rəhbərliyi ilə Azərbaycan ordusunun qalibiyyəti oldu. Bu gün 30 illik düşmən tapdağında olan əbədi, əzəli topraqlarımızda üç rəngli bayrağımız dalğalanır. Zəbt olunmuş ərazilərimiz 44 gün ərzində birliyimizin sayəsində azad oldu. Dəmir yumruq əməliyyatının nəticəsində şəhidlərimizin qanı yağı düşməndən alındı. Azərbaycan ordusunun

qüdrəti, əsgərlərimizin igidliyi, xalqla iqtidar arasında olan vədhət qazanılan qələbənin əyani sübutudur. Şəhidlərimizə Allahdan rəhmət diləyir, qazilərimizə şəfa arzulayırıq.

***

İkinci Qarabağ müharibəsində 1500-dən artıq göyçaylı iştirak etmiş, onlardan 46 nəfər şəhidlik zirvəsinə ucalmışdır.




***Göyçayın Çərəkə kəndində şəhid atası Bağır Şirinovun təşəbbüsü ilə şəhidlərimizə qoyulan xatirə abidəsi***

İkinci Qarabağ müharibəsi zamanı şəhid olmuş 46 igidin ümumi siyahısını əlifba sırası ilə kəndlər üzrə verdik və onların hər biri haqqında toplaya bildiyimiz məlumatlara əsasən oçerklər yazdıq. Həm şəhidlər, həm də qazilər haqqında olan oşerkləri təvəllüd tarixlərinə görə xronoloji ardıcıllıqla verməyı məqsədə uyğun hesab etdik.

## ŞƏHİDLƏR

**Alpout kəndi:**

1. Mikayılov Elvin Nizami oğlu (01.08.1986 – 26.10.2020)

2. Orucov Bayram Çərkəz oğlu (17.02.2001 – 24.10.2020)

**Aşağı Qaraməryəm kəndi:**
3. Dəmirov Ədalət Nüsrət oğlu (09.11.2002 – 02.11.2020)

**Bəydövül kəndi:**
4. Xudiyev Mütalib Ələsgər oğlu (03.03.1993 – 07.11.2020)
**Bığır kəndi:**
5. Əzizov Qüdrət Bəhruz oğlu (19.06.1997 – 09.11.2020)

**Birinci Ərəbcəbirli kəndi:**
6. Məmmədov Xəyal Arif oğlu (13.02.1989 – 3.10.2020)
7. Həsənov Maarif Rahib oğlu (19.11.1999 – 12.10.2020)

**Çayarxı kəndi:**
8. Hacıyev Toğrul Siyavşah oğlu (04.11.1991 – 25.10.2020)

**Cəyirli kəndi:**
9. Ömərli Kənan Elxan oğlu (08.03.1999 – 06.10.2020)

**Çərəkə kəndi:**
10. Salmanov Paşa Həkim oğlu (13.08.1995 – 14.10.2020)
11. Şirinov Eldar Bağır oğlu (12.07.2001 – 06.10.2020)

**Çaxırlı kəndi:**
12. Məmmədov Sənan Tehran oğlu (27.07.2002 – 21.10.2020)

**Ərəbcəbirli kəndi:**
13. Qaçayev İntizam Əkbər oğlu (14.12.2001 – 22.10.2020
14.Bayramov Həsən Ağaisa oğlu (2001 – 13.10.2020)

**Göyçay şəhəri:**
15.Səmidli Babək Mətləb oğlu (07.01.1974 – 23.11.2020)

16.Məmmədov Vasif Əlbala oğlu (12.11.1994 – 14.11.2020)
17. Mövsümov Fərid Zakir oğlu (19.09.1987 – 16.10.2020)
18. Nuruzadə Elşən Əlisa oğlu (13.03.1996 – 04.10.2020)
19. Əliyev İmran Əli oğlu (07.04.1993 – 27.09.2020)
20. Xəlilov Vidadi Vaqif oğlu (16.07.1982 – 13.10.2020)
21. Kərimov Əhməd Vaqif oğlu (04.08.1989 – 07.11.2020)
22.Kərimli Orxan Akif oğlu (06.10.2001 – 09.10.2020)

**Hacalıkənd kəndi:**
23. Əliyev Aslan Elman oğlu (23.09.2001 – 07.11.2020)

**İkinci Ərəbcəbirli kəndi:**
24. Əhmədov Ayaz Elson oğlu (04.03.2002 – 07.10.2020)

**Kürdəmiş kəndi:**
25. Mayılov Rüfət Bəhram oğlu (31.01.2001 – 29.09.2020)

**Kürdşaban kəndi:**
26. Əliyev Azər Elnur oğlu (21.03.2002 -30.10.2020)

**Qaraman kəndi:**
27. Həsənov Xəyal Zeynəddin oğlu (16.01.2001 – 13.10.2020)

**Qaraxıdır kəndi:**
**28**. Abdullayev Səməd Sədiyar oğlu (17.VI.2002 – 2.X.2020)
29. Əzizov Şəmistan İlyas oğlu (06.12.1993 – 13.10.2020)
30. Həmidov Rəhim Ehtiram oğlu (09.02.1997 – 29.09.2020)

**Qarayazı kəndi:**
31. Hüseynov İlham Umud oğlu (08.09.2000 – 19.10.2020)

**Qəbələ Müşgürlü kəndi:**
32. Xancanov Təbriz Məhəmmədəli oğlu (09.07.1996 -19.10.2020)

**Ləkiçıplaq kəndi:**
33. Məmmədov Elvin Mübariz oğlu (26.02.1996 – 31.09.2020)
34.Bilalov Abdulcəmil Xəqani oğlu (19.01.1997 -01.11.2020)
35. Əhmədov Zamiq Çingiz oğlu (16.10.1987 – 27.09.2020)

**Məlikkənd kəndi:**
36. Hüseynov Xəyyam Hüseyn oğlu (11.07.1996 – 28.09.2020)
37. Qasımov Qismət Yolçu oğlu (05.03.1993 -25.10.2020)
**Potu kəndi:**
38. Əliyev Elnur Ərəstun oğlu (10.02.2000 -06.10.2020)
39. Şirəliyev İntiqam Bəxtiyar oğlu (03.11.1997 – 29.09.2020)

**Şahsoltan kəndi:**
40. Ağayev Ülvü Valeh oğlu (3.III.2000- 2020)

**Şəkər kəndi:**
41. Eyvazov Əli Sehran oğlu (30.07.2001 – 14.10.2020)

**Üngütlü kəndi:**
42. Nadirov Fərid İlyas oğlu (21.IX.2000 – 9.X.2020)

**Yalman kəndi:**
43. Qafarov Kənan Siyaqif oğlu (08.08.1996 – 7.10.2020)

**Yeniarx kəndi:**
44. Məmmədov Pərvin Rza oğlu (30.03.1994 – 02.10.2020)

**Yengicə kəndi:**
45. Məmmədov Rüstəm İbrahim oğlu (1998 – 29.09.2020)

**Yenikənd** kəndi:

46. Kərimli Azad Elşad oğlu (06.02.1997 – 06.02.1997 – 14.10.2020)

***

# İKİNCİ QARABAĞ MÜHARİBƏSİ ŞƏHİDLƏRİ




## 1.BABƏK SƏMİDLİ (07.01.1974- 23.11.2020)

Babək Mətləb oğlu Səmidli 1974-cü il yanvarın 7-də Göyçay şəhərində ziyalı ailəsində anadan olmuşdur. Babək 1981-ci ildə Göyçay çəhərindəki 6 N-li orta məktəbin 1-ci sinfinə qəbul olunmuş, sinfin ən sevimili və bacarıqlı şagirdərindən biri olmuşdur. Sinifdən sinifə keşdikcə arzuları da böyümüş, sinif yoldaşlarının və müəllimlərinin dediyinə görə, bütün fənnləri eyni həvəslə oxuyarmış. Atası deyir ki, mənim arzum o idi ki, Babək ya jurnalist, ya da hüquqşünas olsun. Yuxarı sinifl ədə oxuyanda yolunu özü müəyyənləşdirdi. Hərbçi olmağa qərar verdi. Biz də onun arzusuna müxalif olmayıb istəyini dəstəklədik.

Babək Səmidlinin gələcək həyat yolunun müəyyənləşməsində qardaşı Müşfiq Səmidlinin də müəyyən rolu olmuşdur. Keçmiş milis, indiki polis orqanlarında çalışan Müşfiq Səmidli 1991-1992-ci illərdə Ağdam və Şuşa döyüşlərində iştirak etmiş, Birinci Qarabağ müharibəsi veteranıdır.

1991-ci ildə nümunəvi davranış və yüksək qiymətlərlə orta məktəbi bitirən Babək 1992-ci ildə həqiqi hərbi xidmətə çağırılir, 1 il xidmət etdikdən sonra – 1993-cü ildə zəmanətlə oxumaq üçün Türkiyəyə - Türkiyə Quru Qoşunları məktəbinə göndərilir. Imtahan-

ları uğurla verən Babək Səmidli iyul ayında Türkiyə Quru Qoşunlarının tabeliyidə olan Quru Qoşunları Ali Məktəbinə daxil olur. Dörd illik tələbəlik həyatında hərb sənətinin sirlərinə dərindən bələd olmaq üçün gecəsini gündüzünə qatan, həm tələbə yoldaşları, həm də müəllimlərin dərin hörmətini qazanan Babək təcrübi məşqələlələ yanaşı, nəzəri biliklərini də daima artırmağa səy göstərir.

Ankara. 1997-ci ilin yayı. Ali Hərbi Məktəbi uğurla bitirən gənclər arasında Babək Səmidli də var. O, ali məktəbi biririb bir müddət Türkiyə Silahlı Qüvvələrində təcrübə keçəndən sonra Azərbaycana – doğma vətənə qayıdır. Müdafiə Nazirliyində onu səmimiyyətlə qarşılayıb leytenant rütbəsi ilə Azərbaycan Quru Qoşunlarına xidmətə göndərirlər.

Azərbaycana qayıdan, Quru Qoşunların tərkibində xidmət edən Babək Səmidli bir qayda olaraq hərbi nizam-intizamın yerinə yetirilməsinə xüsusi fikir verir, əsgərlərin qayğısına qalmaqla yanaşı, onlardan nizamnaməyə ciddi şəkildə əməl etmələrini qətiyyətlə tələb edir. Müxtəlif hərbi hissələrə ezam olunan gənc zabit əsgərlərə hərb sənətinin sirlərini öyrətməklə yanaşı, onlarda vətənpərvərlik və milli kimlik kimi ali hisslərin formalaşdırılmasına xüsusi diqqət yetirir. Əsgər və zabitləri daha çox oxumağa, öyrənməyə və nəzəri bilikləri təcrübədə sınamağa sövq edən B.Səmidli özü də hər zaman öyrənir, peşəkarlığını daima yüksəldir. 1997-2000-ci illərdə Quru Qoşunların müxtəlif korpuslarında xidmət edən Babək Səmidli 2000-ci ildə Bakı Ali Hərbi Məktəbinə dəvət olunur. Orada əvvəl taqım, sonra bölük komandiri vəzifələrində çalışmaqla kursantlara dərs deyir, nəzəri biliklərini və təcrübələrini onlara öyrədir.

Babək Səmidli 2003-cü ildən hərbi fəaliyyətini yenidən ordu hissələrində davam etdirir və 2016-cı ilə qədər artıq polkovnik-leytenat rütbəsinə qədər yüksəlir. Babək Səmidlinin bacarıqlı komandir və döyüşçü kimi yüksək keyfiyyətləri 1916-cı ildə baş vermiş Aprel döyüşlərində üzə çıxır. Məlum olduğu kimi, 2016-cı il aprelin 1-dən 2-nə ötən gecədən başlayaraq Azərbaycan və

Ermənistan Silahlı Qüvvələrinin bölmələri arasında cəbhənin Tərtər və Cəbrayıl-Füzuli istiqamətlərində şiddətli döyüşlər başladı. Tarixə Aprel döyüşləri olaraq yazılan hərbi əməliyyatlar zamanı Babək Səmidli 1-ci Ordu Korpusunun Əməliyyat bölməsinin rəisi idi. Cəbhənin Tərtər rayonu istiqamətində gedən döyüşlərin idarə edilməsi məhz ona həvalə olunmuşdu. Ağdam istiqamətində və Talış kəndi uğrunda gedən şiddətli döyüşlərdə əsl qəhrəmanlıq nümunəsi göstərən, dizindən yara alan Babək Səmidli rəhbərlik tərəfindən nə qədər təkid edilsə də döyüşü axıra qədər davam etdirmiş, yalnız döyüşlər bitəndən sonra hospitalda yatmağa razı olmuş, əməliyyat olunub sağalandan sonra yenidən xidmət etdiyi korpusa qayıtmışdı.

Xatırladaq ki, gecə döyüşləri zamanı Tərtər rayonunun Talış istiqamətində olan əlverişli mövqelər, strateji nöqtələr, o cümlədən Talış zirvəsi Azərbaycan Ordusu tərəfindən işğaldan azad olundu.

Aprel döyüşləri haqqında danışarkən Babək Səmidlinin bir fikrini burada mütləq xatırlatmaq lazımdır. Televiziyaların birinə verdiyi və ölümündən sonra, 26 noyabr 2020-ci il tarixdə "Açıq Azərbaycan" kanalında efirə gedən bir verilişdə həmin fikri canlı olaraq Babək Səmidli aşağıdakı kimi ifadə edir. B.Səmidlinn dediklərini olduğu kimi veririk: "Hər bir müharibənin bir sınma nöqtəsi var. Birinci Qarabağ müharibəsindəki atəşkəsdən bəri bu keçən zaman ərzində, belə deyək, Azərbaycan – Ermənistan Dağlıq Qarabağ münaqişəsinin ümumi hərbi cəhətdən tarixinə baxsaq, Aprel döyüşləri Qarabağ münaqişəsində sınma nöqtəsi idi".

Azərbaycan Ordusunun yaranmasının 100 illiyi münasibətilə və Azərbaycan ərazilərinin qorunub saxlanılmasında xüsusi xidmətlərinə, qarşılarında qoyulmuş tapşırıqları yerinə yetirən zaman fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25 iyun 2018-ci il tarixli Sərəncamına əsasən Babək Səmidli "Hərbi xidmətlərə görə" medalı ilə təltif edildi.

Azərbaycan Ordusunun polkovniki və 1-ci Ordu Korpusunun Komandiri müavini olan Babək Səmidli 2020-ci il sentyabrın

27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərə komandirlik etmişdir. Onun rəhbərliyi altında Madagiz (Suqovuşan) qısa müddət ərzində işğaldan azad edilmiş, Talış kəndinə Azərbaycan bayrağını sancmaq şərəfi ona nəsib olmuşdu.

Polkovnik Babək Səmidli Beynəlxalq Qızıl Xaç Komitəsi, Rusiya tərəfinin sülhməramlıları və Ermənistan tərəfinin rəsmilərindən ibarət qrupun üzvü idi. Qrupun məqsədi döyüş meydanında qalan meyidlərin çıxarılması idi. O, 2020-ci il noyabrın 23-də Suqovuşan ərazisində minaya düşərək şəhid olmuşdur. Mina partlaması nəticəsində həmçinin 4 erməni rəsmisi və 1 rus sülhməramlısı da yaralanmışdı.




Babək Səmidli noyabrın 24-də Göyçay şəhərinin Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 09.12.2020-ci il tarixli Sərəncamına əsasən Babək Səmidli ölümündən sonra "Zəfər" ordeni ilə təltif edildi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Babək Səmidli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Babək Səmidli ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Babək Səmidlinin yaşadığı Göyçay şəhərində onun adına küçə verilmişdir.

Babək Səmidlinin həyatının hərb tarixi bütünlüklə Azərbaycan Silahlı Qüvvələri Quru Qoşunları ilə bağlı olmuş, o, burada leytenant rütbəsindən polkovnikəcən şərəfli bir yol keşmişdir. Azərbaycan ordusunda zabit kimi fəaliyyətə başlayan Babək Səmidli korpus komandirinin müavini vəzifəsinə qədər yüksəlmişdir.

Babək Səmidlinin Mətləb və Səmid adında 2 oğlu yadigar qaldı. Allah həyatlarını firavan, canlarını sağ eləsin.

**Qeyd:** Şəkildə Babək Səmidlinin övladları Mətləb və Səmid.

**Babək Səmidlinin təltifləri:**

"Azərbaycan Silahlı Qüvvələrinin 10 illiyi" yubiley medalı-26.06.2001

"Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı - 26.06.2002

"Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalı - 26.06.2007

"Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı - 26.06.2008

"Qüsursuz xidmətə görə" 1-ci dərəcəli medalı - 26.06.2012

"Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı - 26.06.2013

"Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı - 20.04.2016

"Azərbaycan Silahlı Qüvvələri Veteranı" medalı - 26.06.2017

"Hərbi xidmətlərə görə" medalı - 25.06.2018

"Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı - 26.06.2018)

"Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi" yubiley medalı - 28.05.2019

"Zəfər" ordeni (ölümündən sonra) - 09.12.2020)

"Vətən uğrunda" medalı (ölümündən sonra) - 15.12.2020

"Suqovuşanın azad olunmasına görə" medalı (ölümündən sonra) - 29.12.2020

***



## 2. VİDADİ XƏLİLOV (16.07.1982 – 31.10.2020)

Azərbaycan Milli 0rdusunun polkovnik-leytenantı, Vətən müharibəsinin şəhidi Vidadi Vaqif oğlu Xəlilov 1982-ci il iyulun 16-da Göyçay şəhərində anadan olmuşdur. Vidadi Xəlilov 1989-cu ildə Göyçay şəhər Akademik Ziya Bünyadov adina 3 N-li tam orta məktəbinə daxil olmuş, 1999-cu ildə həmin məktəbi bitirmişdir.

V.Xəlilov 1999-cu ildə Heydər Əliyev adina Azərbaycan Ali Hərbi Məktəbinə yüksək nəticələrlə qəbul olunmuş, 2003-cü ildə məktəbi “motoatıcı” ixtisası üzrə bitirmiş və ona “leytenant” rütbəsi verilmişdir. O, 2003-cü ildən 2004-cü ilədək Müdafiə Nazirliyinin Təlim-Tədris mərkəzində ixtisas kursu keçmişdir. 2004-cü ildə Müdafiə Nazirliyinin əmrinə əsasən xidməti davam etdirmək üçün Azərbaycan Respublikası Silahli Qüvvələrinin “N” sayli hərbi hissəsinə göndərilmişdir.

V.Xəlilov 24.04.2004-cü il tarixdən 11.03.2005-ci il tarixədək “N” sayli hərbi hissənin motoatıcı tağım komandiri, 11.03.2005-ci il tarixdən 03.07.2005-ci il tarixədək “N” sayli hərbi hissədə motoatıcı tağım komandiri, 03.07.2005-ci il tarixdən 21.02.2006-ci il tarixədək “N” sayili hərbi hissənin motoatici tağim komandiri, 09.02.2007-ci il tarixindən 26.11.2009-cu il tarixədək “N”sayli hərbi hissədə motoatıcı bölük komandir, 26.11.2009-cu il tarixdən 29.06.2011-ci il tarixədək “N” sayli hərbi hissənin motoatıcı taborun qərargah rəisinin maddi texniki təminat üzrə köməkçisi vəzifəsində xidmət etmişdir. 29.06.2011-ci il tarixində Müdafiə Nazirliyinin əmrinə əsasən xidmətini davam etdirmək üçün“N”sayli

hərbi hissənin motoatıcı taborun qərargah rəisinin maddi texniki təminat üzrə köməkçisi vəzifəsinə təyin olunmuşdur. 14.11.2014-cü il tarixində Müdafiə Nazirliyinin əmrinə əsasən “N” sayli hərbi hissədə motoatıcı taborun qərargah rəisi vəzifəsinə təyin olunmuşdur.

Azərbaycan Ordusu Quru Qoşunlarının polkovnik-leytenantı olan Vidadi Xəlilov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində fəal iştirak etmişdir. Cəbrayılın, Qubadlının mənfur düşməndən azad edilməsində müstəsna komandirlik bacarığı nümayiş etdirən Vidadi Xəlilov müharibənin birməsinə 10 gün qalmış, oktyabrın 31-də Laçın rayonu ərazisində gedən ağır döyüşlərdə şəhid olmuşdur. O, döğulduğu Göyçay şəhərinin Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Vidadi Xəlilov ölümündən sonra Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikası Prezidentinin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən “Vətən uğrunda”, Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə “Cəbrayılın azad olunmasına görə” (24.12.2020), Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə "Qubadlının azad olunmasına görə" (29.12.2020) və Laçın rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə “Laçının azad olunmasına görə” (29.12.2020) medalları ilə təltif edilmişdir.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını və xidməti vəzifələrini yerinə yetirən zaman fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 30.12. 2020-ci il tarixli Sərəncamına əsasən Vidadi Xəlilov ölümündən son ra "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişdir.

Ailəli idi. Zəhra Xəlilzadə və Əli Xəlilzadə adlı 2 övladı yadigar qaldı.

Vidadi Xəlilovun adına Göyçay şəhərində küçə verilib.

**Anası Əminə xanımın dediklərindən:** Vidadi haqqında çox danışa bilərəm. Anası üçün hər övlad əzizdir. Vidadi əziz olmağla bərabər, həm də ideal övlad, çox anacanlı, ailəcanlı, bacı və qardaş istəyən, hər kəsi yerində dəyərləndirməyi bacaran insan, vətənpərvər, dövlətini, miilətini, peşəsini sevən bir zabit idi. Nümunəvi həyat yoldaşı, yaxşı ata olan Vidadi işinin çətin olmasına baxmayaraq ailəsinə vaxt ayırmağı da bacarır, övladlarının təhsilinə, gəzintisinə, sağlam ruhda böyüməsinə xüsusi diqqət və qayğı göstərirdi.

Müharibə başlayandan evə gəlmək haqqında düşünmək belə istəməmişdi. Zəng edib hal-əhval tutmaqla kifayətlənirdi. Bir dəfə dedim ki, "ana qurban, vaxt elə bir günlük də olsa, evə gəl, darıxırıq". Dedi ki, "ana, mümkün deyil, vətən dardadır. Mən evdə yox, orduda olmalıyam. İnşallah görüşərik. Hələ səni də bura gətirmək istəyirəm.Tibb bacısı kimi, aşpaz kimi əsgərlərimizə xidmət göstərərsən". Dedim: "Oğul, sən harda, mən də orda, elə bu gün gələrəm".

Mənim Vidadimin sözü ilə əməli hər zaman üst-üstə düşərdi. Dilində nə idisə, əməlində də o idi. O, vətən oğlu idi. Vətən yolunda da şəhid oldu. Mən nəinki bu gün, elə hər zaman oğlumla fəxr etmişəm. O uşaqlıqdan yaşıdlarından fərqlənirdi. 10 yaşında olarkən onun həyata baxışı, fikirləri o qədər mükəmməl idi ki, sanki 10 yox, 20 yaşı var idi.

Vidadi özünü həyatda oğul, yoldaş, ata, qardaş, ən başlıcası vətənin layiqli övladı kimi təsdiq etdi, canıyla, qanıyla tarix yazdı, əbədiləşdi. Bir ana olaraq mənə üzağlığı, balalarına, qohum-əqrəbalıarına başucalığı gətirdi".

**Həyat yoldaşı Nərmin Xəlilovanın dediklərindən:** Vidadi Gəncədə işləyir, mən qızımız Zəhra və oğlumuz Əli ilə rayonda idik. Bir gün səhər açılar-açılmaz telfonuma zəng gəldi. Ürəyim əsə-əsə telefonu götürdüm. Zəng Vidadidən gəlmişdi. Bildirdi ki, əsgərlərimizə “Azərbaycan” şerini öyrədirəm, amma bir bəndini unutmuşam. Həmin bəndi yadıma sala bilərsənmi? Dedim ki, əlbəttə. Tez-tələsik şeri tam şəkildə ona söylədim. Şeir bitəndən sonra gülə-gülə dedi: “Zarafat edirdim, sadəcə, səsini dinləyib işimə başlamaq istəyirəm”.




Onda güclü yumor hissi var idi. Onunla ömür sürdüyüm hər gün bu gün mənimçün bir ömrün həzin xatirələrinə çevrilib. O, çox diqqətli və ailəsinə bağlı olan bir insan idi. Ürəyimdən keçənləri dinməz-söyləməz gözlərimdən oxuyardı,. Mehribanlıq şüarı olan Vidadi anasına, bacı və qardaşına da çox bağlı idi. Deyirdi ki, ailə mehriban olmasa, bir-birinə dəyər verməsə orda xoşbəxtlikdən söhbət gedə bilməz.

Vidadi işini çox sevirdi. O, anadangəlmə hərbiçi idi. Amma heç vaxt işi barədə evdə danışmazdı. Ancaq bir söz deyərdi: “İnşallah hər şey yaxşı olacaq”. Hər vaxt onun haqqında xoş sözlər, müsbət fikirlər eşitmişik. Çox arzu edərəm ki, oğlu da atasının yolunu davam etdirsin. Biz qəhrəman şəhidimiz polkovnik Vidadi Xəlilovla fəxr edirik. Məkanı cənnət olsun!”.

**Qeyd:** Şəkildə Vidadi Xəliovun həyat yoldaşı Nərmin xanım, qızı Zəhra və oğlu Əli şəhidin məzarı yanıda.

**Vidadi Xəlilovun təltifləri:**

26.06.2008) — "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı

(26.06.2013) — "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı

(26.06.2015) — "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı

(26.06.2018) — "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı

(26.06.2020) — "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalı

 (15.12.2020) — "Vətən uğrunda" medalı (ölümündən sonra)

 (24.12.2020) — "Cəbrayılın azad olunmasına görə" medalı (ölümündən sonra)

 (29.12.2020) — "Qubadlının azad olunmasına görə" medalı (ölümündən sonra)

 (29.12.2020) — "Laçının azad olunmasına görə" medalı (ölümündən sonra)

 (30.12.2020) — "Hərbi xidmətlərə görə" medalı (ölümündən sonra)

## ŞƏHİDLƏR ÖLMƏZDİR...

Şəhidlər şərəf-qeyrət, ucalıq zirvəsidir,
Şəhidlər azadlığın od-şimşək zərrəsidir,
Şəhidlər tarixləşən istiqlal türbəsidir,
Şəhidlər şimşək kimi, buludlar saxlamazlar,
Şəhidlər ölməzlərdir, ölməzi ağlamazlar!

Şəhidlər Vətən daşı, yurdun vətəndaşıdır,
Şəhidlər azadlığın uca heykəl daşıdır,
Şəhidlər məmləkətin, xalqın qan yaddaşıdır,
Şəhidlər unudulmaz, ölməz, can dağlamazlar,
Şəhidlər ölməzlərdir, ölməzi ağlamazlar!

Şəhidlər doğulan gün əbədiyyət başlayır,
Şəhidlər imamlartək ürəklərdə yaşayır,
Şəhidlər karvanını əbədiyyət daşıyır,
Şəhidlər cənnət əhli, matəm, yas saxlamazlar,
Şəhidlər ölməzlərdir, ölməzi ağlamazlar!

Şəhidlər Xiyabanı müqəddəs pirimizdir,
Şəhidlər xiyabanı ziyarət yerimizdir,
Şəhidlər qürür rəmzi, özünü dərkimizdir,
Şəhidlər qeyrət qanı, axmasa çağlamazlar,
Şəhidlər ölməzlərdir, ölməzi ağlamazlar!

Şəhidlər Ana yurdu tutdular candan baha,
Şəhidlər yollar açdı qaranlıqdan sabaha,
Şəhidlər ölməz ruhla gedir uzü Allaha,
Şəhidlər gedən yolu tufanlar bağlamazlar,
Şəhidlər ölməzlərdir, ölməzi ağlamazlar!

***Oqtay Zəngilanlı***

***



## 3.ELVIN MİKAYILOV (01.08.1986 – 26.10.2020)

Azərbaycan Silahlı Qüvvələri Quru Qoşunlarının əsgəri, Vətən müharibəsinin şəhidi Mikayılov Elvin Nizami oğlu 1 avqust 1986-cı ildə Göyçay şəhərin də anadan olmuşdur. Ailənin ortancıl övladı olan Elvin 1993-cu ildə Göyçay şəhərindəki 7 saylı orta məktəbin 1-ci sinfinə qəbul olunmuş, 2004-cu ildə həmin məktəbi bitirmişdir. Məktəb illərində idmanın güləş növü ilə məşğul olmuş, bu sahədə mühüm nailiyyətlər əldə etmişdir. 2004-cü ildə hərbi xidmətə yola salınmış və 2006 -cı ildə ordudan təxris olunmuş, istehsalatda çalışmağa başlamışdır. 2009-cu ildə Universitetin riyaziyyat və informatika fakultəsinə daxil olmuş, 2013-cü ildə Universiteti bitirmiş, bir il bəzi peşələrdə çalışdıqdan sonra 2014-cü ildə Azərsu ASC-nin Göyçay Su Kanal İdarəsində işə qəbul edilmişdir.

İşinə can yandıran, yenilikçi kimi tanınan Elvin ailəsində, qohum-əqrəba arasında sevildiyi qədər də kollektivi arasında sevilib-seçilən, hörmət və nüfuz sahibi olan bir şəxs olmuşdur.

Elvin 2017-ci ildə ailə həyatı qurmuş və bu izdivacdan 2018-ci ildə həddindən artıq sevdiyi bir ciyərparası – İnci adlı qızı dünyaya gəlmişdir.

Bizə verilən məlumatlardan belə görünür ki, Elvin deyib-gülən, şən, şux zarafatları ilə dostları arasında çox sevilən bir insan, valideynləri üçün çox gözəl bir övlad, ailədə nüfuz sahibi olan həyat yoldaşı və mehriban, qayğıkeş ata olmuşdur.

İkinci Qarabağ müharibəsi başlanan ərəfədə, 2020-ci il sentyabr ayının 21-də Elvin səfərbərliyə cəlb edilərək hərbi təlimlərdə iştirak etməyə başlamışdır. Qismət elə gətirmişdir ki, o, müharibə başladığı gündən – 27 sentyabrdan döyüşlərdə iştirak edərək adını qorxmaz, igid döyüşçülər sırasına yazdıra bilmişdir. 3 oktyabr 2020-ci ildə Suqovuşanın alınması uğrunda gedən döyüşlərdə qəhrəmancasına iştirak edən Elvin oktyabrın 10-da Ağdərə-Murov istiqamətindəki döyüş zamanı sinəsindən güllə yarası alsa da, döyüş meydanını və dostlarını tərk etməmiş, son damla qanınacan döyüşmüş, sonra da başından aldığı qəlpə yarasından şəhid olmuşdur.



Elvin Mikayılov 26 oktyabr 2020-ci ildə ata-baba yurdu olan Alpoud kəndindəki şəhidlər qəbirsanlığında torpağa tapşırılmışdır.

Şəhid Elvinin valideynləri bü gün də onun yoxluğu ilə barışmır, bala itkisindən nə yerə, nə də göyə sığırlar. Deyirlər, taleyə, qismətə bax ki, nə biz balamızdan doyduq, nə də balamız körpə ciyərparasından.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Elvin Mikayılov ölümündən sonra “Vətən uğrunda” medalı və 29.12.2020-ci il tarixli Sərəncamına əsasən “Laçının azad olunmasına görə” medalı ilə təltif edilmişdir.

**Qeyd:** Şəkildə Elvin Mikayılov qızı İnci ilə

## ELVİN

Lal etdiz danışan bu dil, dodağı,
Acizdir sizlərə sözümüz, Elvin.
Bayrama göz yaşı axıtdıq dünən,
Qoymadın qurusun gözümüz, Elvin.

Bizimçün çəkmisiz əzab-əziyyət,
Demisiz düzəlsin çətin vəziyyət,
Ruhunuz önündə bütün bu millət,
Baş əyib deyirik özümüz, Elvin.

Çox qısa yaşadız həyat dadıyla,
Köç etdiz dünyadan şəhid adıyla
Əbəlfəz(ə) gözləyir öz ustadıyla,
Siz  olduz yaşayan ölümsüz, Elvin!

***Rəvan Göyçaylı***

***



**4. FƏRİD MÖVSÜMOV**
**(19.09.1987 – 16.10.2020)**

Azərbaycan Ordusu Quru Qoşunlarının əsgəri, Vətən müharibəsi şəhidi Fərid Zakir oğlu Mövsümov 1987-ci il sentyabr 19-da Göyçay şəhərində ziyalı ailəsində anadan olmuşdur. Atası, 2008-cü ildə dünyasını dəyişən Zakir Mövsümov polis işçisi, anası, 2010-cü ildə vəfat edən Rəfiqə Süleymanova isə orta məktəb müəllimi vəzifələrində çalışmışlar.

Fərid orta təhsilin vaxtilə anasının dərs dediyi Göyçay şəhər 3 N-li məktəbində almışdır.Yaxın qohumu, orta məktəbdə onun müəllimi olmuş Qənirə Qasımzadənin söylədiyinə görə, Fərid ictimai işlərdə fəal iştirak edən, istiqanlı, gülərüz, ünsiyyətçil, məğrur gənc imiş.

Orta məktəbi bitirən Fərid 2005-2007-ci illərdə Tərtər istiqamətində həqiqi hərbi xidmətdə olmuş, xidmətini başa vurduqdan sonra bir müddət Bakıda, sonra Rusiyada, daha sonra Göyçayın özündə müxtəlif işlərdə çalışmışdır. Özündən böyük bir bacısı və bir qardaşı olan Fərid orta məktəbi bitirdikdən sonra ali məktəbə qəbul olunsa da, valideynlərini vaxtsız itirməsindən dolayı əmələ gələn maddi imkansızlıq ucbatından təhsilini yarımçıq saxlamağa məcbur olmuşdur. Fərid Rusiyada yaşadığı illərdə Moskva Humanitar Universitetinin Mahaçqala filialının Hüquq fakultəsinə qəbul olunsa da, orada da təhsil haqqını ödəyə bilmədiyi üçün arzusunda olduğu ali təhsil diplomunu almaq ona müyəssər olmamışdır.

Fəridi tanıyanlar deyirlər ki, o, 2020-ci ilin iyul hadisələrindən-Tovuz döyüşlərindən sonra arzulayırdı ki, kaş müharibə olsun, gedib generalımızın, şəhidlərimizin qisasını mənfur ermənilərdən alsın. Hər gün bu arzu ilə yatıb qalxırdı. Özü də orduya qatılmaq üçün könüllü müraciət etmişdi. Qarabağlı olmasa da, Qarabağı ümumiyyətlə heç vaxt görməsə də, Qarabağa getməyi çox arzu edirdi

Qohumu Qənirə xanım sorğumuzda cavabında yazır: "Sentyabr ayının 27-si müharibə başlayanda Fəridin arzusu həyata keçdi və o oktyabr ayının 5-i xidmətə yollandı. Apardıq Göyçay vağzalından hamımız uğur arzulayaraq xidmətə yola saldıq. Hərbi xidmətdə olduğu müddətdə də bir dəfə əmisi oğlu Toğrul yanına gedib lazımi əşyalarını aparmışdı. Ondan sonra görüşmək, yanına getmək imkanımız olmadı. Oktyabr ayının 16-da Füzuli istiqamətində könüllü, öz istəyilə Xüsusi Təyinatlılara qoşularaq birbaşa döyüş gedən əraziyə yollanıblar. Həmin gün də yanlarına düşən qrad mərmisinin qəlpələri nəticəsində o şəhid olub. Şəhid olandan iki həftəyə qədər onun nəşi neytral ərazidə qalıb. İki həftə ərzində cənazələri götürmək mümkün olmayıb. Oktyabrın 29-da isə bizə xəbər gəldi ki, Fərid şəhid olub. Artıq ayın 30-u onu Göyçayda şəhidlər xiyabanında dəfn etdik".

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Fərid Mövsümov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

**Qeyd:** Fərid Mövsümovun adına Göyçayda küçə verilib.

***



**5.ZAMİQ ƏHMƏDOV**
**(16.11.1987 – 27.09.2020)**

Azərbaycan Silahlı Qüvvələri Quru Qoşunlarının əsgəri, Vətən müharibəsinin ilk şəhidlərindən biri Zamiq Çingiz oğlu Əhmədov 1987-ci il noyabr ayının 16-da Göyçay rayonunun Ləkiçıplaq kəndində anadan olmuşdur. 1994-cü ildə Ləkiçıplaq kəndindəki 1 N-li orta məktəbinin 1-ci sinfinə qəbul olunmuş, 2005-ci ildə orta məktəbi bitirmişdir. Ədəb-ərkanı, davranışı ilə müəllimləri və sinif yoldaşlarının rəğbətini qazanan Zamiq həm də dərs əlaçısı olmuş, nümunəvi şagird kimi tanınmışdır. Ali məktəbə qəbul imtahanları zamanı kifayət qədər bal toplasa da, balı seçdiyi ixtisasa uyğun gəlmədiyidən tələbə adını qazana bilməmiş, payızda həqiqi hərbi xidmətə çağırılmışdır. İl yarım Goranboy rayonunun Tapqaraqoyunlu kəndində, 157 N-li hərbi hissədə xidmət edən Zamiq xidmətini başa vurduqdan sonra yenidən ali məktəbə qəbul olunmağa cəhd etsə də, istəyini reallaşdıra bilməmişdir. Bu dəfə bəxtini biznes sahəsində sınamaq qərarına gəlmiş, kiçik bir ticarət obyekti açaraq dolanışığını təmin etməyə çalışmışdır. Çox keçmədən fəaliyyətini bir qədər də genişləndirmiş, qarşısına məqsəd qoymuşdur ki, gələcəyini bütünlüklə ticarətə bağlayıb bu sahədə ad-san, hörmət və etibar sahibi olsun. Bu minvalla Zamiq zaman keçdikcə təkcə yaşadığı rayonda deyil, ətraf rayonlarda, Bakıda, hətta Rusiyada da etibarlı tərəfdaş, sözünə sadiq, bacarıqlı, doğru-dürüst və həm də xeyirxah, əliaçıq bir ticarətçi kimi tanınmışdır.

Zamiq Əhmədov Vətən müharibəsinin başlanmasına bir neçə gün qalmış (21 sentyabr 2020-ci il) səfərbərliyə cəlb olnaraq Ağcabədidə yerləşən 903 saylı hərbi hissəyə göndərilmişdir. Gizir kimi hərbi təlimlərdə iştirak etmiş, müharibənin ilk günündə, sentyabrın 27-də Ağdamın İmamqulu meşəsinin ətrafında gedən döyüşlədə şəhid olmuş, Göyçay rayonununun Ləkiçıplaq kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən o, ölümündən sonra "Vətən uğrunda" medalı və 29.12.2020-ci il tarixli Sərəncamına əsasən "Ağdamın azad olunmasına görə" medalı ilə də təltif edilmişdir.

***



## SƏNSİZLİYİN QƏM YÜKÜ

Zamiqin həyat yoldaşı Çinarə xanımın qeydlərini nəzərdən keçirəndən sonra belə bir qərara gəldik ki, şəhidin xarakterini, yaşam tərzini özündə ehtiva edən qeydlərə "Sənizliyin qəm yükü" adını verib ümumiləşdirərək oxuculara təqdim edək.

Ömür-gün yoldaşı, orta məhtəbdə informatika müəllimi vəzifəsində çalışan Çinarə xanım deyir ki, mən Zamiqlə eyni ildə orta məktəbi bitirmişəm. O, 1 N-li, mən isə 2 N-li orta məktəbdə oxumuşuq. Yuxarı siniflərdə oxuyanda bir yerdə müəllim yanına hazırlığa getmişik. Tanışlığımız da ordan başlanıb. İş elə gətirdi ki, orta məktəbi bitirdikdən sonra mən ali məktəbə daxil oldum, onun isə bəxti gətirmədi. Aradan bir neçə il keçdi. Ali məktəbi bitirib kəndə qayıtdım və qonşu kənddə məktəbdə ixtisasım üzrə müəllim kimi əmək fəaliyyətinə başladım. Bir gün Zamiq ardımca iş yerimə gəldi. Əvvəl tanımadım. Özünü təqdim etdikdən sonra mənimlə eyni müəllim yanına hazırlğa gedən oğlan olduğu yadıma düşdü. Bir neçə görüşdən sonra utana-utana ürəyini mənə açdı və hələ hazırlıq zamanı gözünün tutduğunu, ürəyinin məndə olduğunu sıxıla-sıxıla dilə gətirdi. Onu da bildirdi ki, sənin və ailəniz haqqında kifayət qədər məlumatlıyam və kimsədən ünvanınıza mənfi fikir söyləyən olmayıb. Mən də öz növbəmdə : -Sizi və ailənizi dərindən tanımadan ümidverici bir söz deyə bil-

mərəm. Fikirləşərəm, valideyinimlə götür-qoy edib sizə xəbər göndərəcəyəm, - dedim. Zamiq: - Çox yaxşı, cavab verməyə tələsməyin. Maraqlandığınız məsələləri öyrənin ki, sonra arada peşmançılıq olmasın, - dedi və ayrıldıq. Məsəlini olduğu kimi evdə anama danışdım. Anam bildirdi ki, ailələrini tanıyırıq. Yaxşı adamlardır. Oğlan haqqında da qulağıma pis bir söz dəyməyib. Deyirlər ki, iş bacaran, əli çörəkli, qanacaqlı oğlandır. Amma yenə də öyrənib, götür-qoy edib cavab verməliyik. Tələsmək lazım deyil.

Kənd yeridir. Bir adamı, yaxud ailəni öyrənməyə nə qədər vaxt lazımdır ki? Müxtəlif yollarla ailələri, nəsilləri, ən əsası oğlanın özü barədə məlumat əldə etdik. Tanıdığım, etibar etdiyim qonşu arvadlardan birinin anama söylədiyi: - Ailənin nə keşmişində, nə də indisində qüsur tapa bilməzsiniz. Namuslu, qohumcanlı, ailəcanlı, el içində kifayət qədər nüfuzu olan nəsildirlər. Oğlan isə tamam başqa aləmdir. Boy-buxun onda, qanacaq, səxavət, mərdlik və insanlıq onda. Yubatmayın, Allah xeyir versin.

Beləliklə, ailələrimizin razılığı və ürəklərimizin hökmü ilə 2011-ci ildə ailə qurduq. Onların evinə gəlin köçəndən sonra Allahıma şükür etdim ki, nə yaxşı qismətimə belə ailə, belə ər çıxıb. Olduqca səmimi, artıq söz-söbətdən uzaq olan bu ailədə əmin-amanlıq hökm sürür, etibar, sədaqət, xeyirxahlıq onların həyat amalı idi. Zamiq isə hərəkətləri, davranışı ilə hər gün gözümdə böyüyür, onunla bir yerdə olmağımı Allahın mənə lütfü hesab edirdim. Dünya malında gözü olmayan çox tox adam idi. Həyat, dolanışıq barədə dilimdən giley-güzarlı söz eşidəndə deyərdi: - Naşükür olmaq lazım deyil. Ətrafımızda dolanışığı dolanışığımızdan qat-qat aşağı olan nə qədər insan var. Bu günümüzə şükür. Evimiz-eşiyimiz, bir tikə halal çörəyimiz. Bizə bundan artıq nə lazımdır ki?

2012-ci ilin iyun ayının 21-də ilk övladımız dünyaya gəldi. Qayınatam adını Sərkar qoydu. 2016-çı ilin iyun ayının 11-də ikinci övladımız dünyaya gəldi. Adını Turqut qoyduq. Ailə əl-ələ verib bizə ayrıca ev tikdilər. Mal-mülk sahibi, ən başlıcası nümunəvi ailə sahibi olduq.

Zamiq fitrətən utancaq və azdanışan adam idi. Bu xüsusiyyət atası ilə münasibətdə özünü daha çox biruzə verirdi. İki oğul atası olan Zamiq övladlarını atasının yanında qucağna almaz, onun yanında az qala çörək yeməyə utanardı. Atasının sözünün qabağına söz çxarmaz, bir sözünü iki etməz, sözünü kəsmək, bəlkə, heç ağlına da gəlməzdi. Bu yaşında da atasının yanında danışarkən dərsini bilməyən uşaq kimi qızarar, atasının tapşırıqlarını can-başla yerinə yetirərdi. Onun razılığı, xeyir-duası olmadan bir işə başlamazdı.

Zamiq anasına həddən ziyadə bağlı bir övlad idi. Deyərdi ki, anam mənim dünyam, başımın tacı, döyünən ürəyimdir. Evlərimiz ayrı olsa da, hər gün anasını görmək onda adət halını almışdı. İşdən qayıdarkən atası evinə dönüb bir stəkan çaylarını içər, anası ilə dərdsərini böləndən sonra evə gələrdi.

Dəfələrlə məhz bu xüsusiyyətlərinə, ata-anası ilə münasibətinə, onlara göstərdiyi qayğısına görə qonum-qonşunun onu övladlarına nümunə göstərdiyinin şahidi olmuş, açıq şəkildə büruzə verməsəm də, fəxarət hissi keçirmişəm.

İş yerində, çöldə-bayırda ağır, az danışan, bəlkə də tündxasiyyətli görünsə də, evdə yumuşaq, mehriban, deyib-gülən, balaları ilə vaxtını şən keçirən ata idi. Uşaqların gələcək taleyi onu düşündürüb məşğul edən ən vacib məsələ idi. Sərkarı rus bölməsinə qoymuşdu. Deyirdi ki, ana dilini onsuz da bilməyə məcburdur, qoy rus dilini öyrənsin. İnsan nə qədər dil bilsə, o qədər də adamdır. Özü ali təhsil ala biməsə də, övladlarına sistemli ali təhsil verməyi arzulayır, deyirdi ki, Allah qismət eləsə, onları dünyanın ən adlı-sanlı ali məktəblərində oxudacağam. Son zamanlar işini bir qədər də genişləndirmişdi. Deyirdi ki, nə qədər çalışıb-əlləşsən də, kənd mühiti adamı hardasa inkişafdan saxlayır, ona bacarıq və istedadını reallaşdırmağa o qədər də imkan vermir. Ona görə də Bakıda oğlumuz Sərkarın adına ev almağı planlaşdırır, deyirdi ki, biz çəkdiyimiz zəhmət və əziyyəti uşaqlarımızın çəkməməsi üçün onları şəhərə yeləşdirəcəyəm. Özüm arzusunda olduqlarıma çatmasam da, onların

gələcəkdə sayılıb-seçilən ziyalılar olması üçün əlimdən nə gəlirsə edəcəyəm.

Zamiqdən ata-anaya, ailəyə, qohum-əqrabaya, ümumiyyətlə cəmiyyətə, insanlara bu cür qayğıkeşliyi, insansevərliyi görüb onunla qürur duyur, bəxtimə şükür edirdim ki, nə yaxşı onunla ailə qurmuş, belə bir evin gəlini olmuşam. Zamiq etiraf edirdi ki, ata-anası ona çox namizədlər tapıb təklif etsələr də o: "İstədiyim, ürək verdiyim var",- deyə boyun qaçırmış, müxtəlif bəhanələrlə onları fikirlərindən daşındıra bilmişdi. Bir də deyirdi ki, sonralar səni istədəyimi və ürəyimi sənə açdığımı, cavab gözlədiyimi dilə gətirəndə onlar təəccübünü gizlətməmiş və demişdilər: "Yəni, bu utancağlığınla sən doğurdanmı kiməsə söz deyə, ürək aça bilərsən?". Amma, atalar demişkən: "Sevgi nə hədd, nə sədd bilir, nə də xahiş və zor".

Ailəmizdə, demək olar ki, "mən, sən" sözləri işlənməzdi. Çox müdrik və uzaqgörən insanlar olan qayınatam və qayınanam nəyi məsləhət bilirdilərsə, onunla razılaşıardırq. Bilirdik ki, zəngin həyat təcrübəsi olan bu xeyirxah insanlar ancaq və ancaq bizim xeyirimizə çalışırlar. Məsləhətlərinə qulaq asır və heç vaxt da ziyanını görmürdük.

Mən atasız böyümüşəm. Anam mənə ana, həm ata əvəzi olub. Atanın nə olduğunu Zamiqgilin ailəsinə düşəndən sonra gördüm. Anamın bir öyüdünü sırğa edib qulağımdan asdım: "Səni o evə gəlin kimi yox, düşdüyün ocağın qızı olmaq arzusu ilə yola salıram. Bu gündən sonra sənin üçün mən yox, onlar var. Zamiqin atasını atan, anasını anan bil. Sənin xoş sədanı, sorağını eşitməsəm, ürəyimə daş bağlayıb evinə ayaq basmayacağam". Tövsiyəsinə sözün tam mənasında əməl etdim. Anamın sevincinə sevinc qata bildim....

Amma, deyəsən, gözə gəldik, bədnəzər bizi kəsdi. Başa düşürəm, torpağı işğal altında olan millət onu murdar, bədxah, xəyanət kabusu olan düşməndən təmizləməli, bu yolda şəhidlər verməlidir. Torpaq şəhid qanı ilə suvarılmayınca, onun laləzarə, gülüstana çevrilməsi çətin məsələdir. 30 ildən artıq düşmən tapdağı olan Dağlıq Qarabağ və ona bitişik olan rayonların azad olunması Azərbaycan

xalqının şəksiz qələbəsidir və bu qələbədə Zamiqin də müəyyən payının olması bizim başımızı ərşi-əlaya çatdırır. Lakin məsələnin psixoloji tərəfləri də var. Niyə belə olmalı idi? sualı məni rahat buraxmır.

Zamiq haqq dünyasındadır. Şəhadət şərbətini içərək cənnət mələklərinə qovuşmuşdur. Bəs mən, mən kiməm? Bir vaxtlar hər şeyi olan, indi gen dünya başına dar olan dərdli, iki körpə anası olan bir gəlin, ərinin qəhrəmanlığı ilə fəxarət duyan bir Azərbaycan müəllimi, bütün ağrılara sinə gərmək məcburiyyətində qalan bir Allah bəndəsi!

***

21 sentyabr 2020-ci il. Səfərbərlik üzrə çağırış məntəqəsindən Zamiqə bildiriş gəldi və "keçiriləcək təlimlərdə iştirak etməlidir" adı ilə cəbhə bölgəsinə yola salındı. Zamiq gedəndən sonra elə bil qara buludlar başımın üstündə sıxlaşmağa başladı. İçimdə bir sızıltı, göynərti əmələ gəldi. Elə bil havam çatışmır, nəfəsim kəsilirdi. Yerə, göyə sığışa bilmir, əlim heç nəyə yatmırdı. Ruh kimi gəzib-dolanır, qara-qorxunc fikirlər məndən əl çəkmirdi. Qorxulu fikirləri özümdən uzaqlaşdırmağa çalışır, lakin heç vəchlə özümü sakitləşdirə bilmir, halımı uşaqlarımdan, qaynata və qayınanamdan gizli saxlmağa cəhd edirdim. Ürəyimə dammışdı ki, nəsə gözləmədiyim bir hadisə baş verəcək. İki gün sonra Zamiq zəng vurub bildirdi ki, Goranboydayıq. Səhərisi isə bildirdi ki, Ağcabədi rayonunda təlim keçirik. Son danışığımız sentyabrın 26-da oldu. Mənə: "Sən mənim Həcərimsən, Nigarımsan", - deyə ürək-dirək verdi. "Məndən nigaran qalma, özündən, uşaqlardan muğayat ol. Sərkarı, Turqutu Allaha, valideynlərimə və sənə əmanət edirəm. Sizi xoşbəxt və firavan yaşatmaq üçün əlimdən gələni etmişəm və edəcəyəm", - dedi. Sonra nəsə fikirləşib sanki vidalaşırmış, halallaşırmış kimi bunları dedi: "Taleyin işini bilmək olmaz. Müharibənin başlanma təhlükəsi var. İşdir, şayət başıma bir iş gəlsə, uşqaları sağlam, tərbiyəli və savadlı böyütmək üçün əlindən gələni əsirgəmə. Bəxtimə sənin kimi bir in-

san, bir ömür-gün yoldaşı qismət olduğu üçün Allahımdan çox razıyam. Bizi bir-iki günə Ağdam istiqamətinə təlimlərə aparacaqlar. İmkan olan kimi danışarıq. Söz var ki, bizi iki-üç günə evə buraxacaqlar. Əvəzimdə körpələri öp, anana və mənim valideynlərimə salam söylə. Qismət olasa, tezliklə görüşəcəyik”...

Namərd qonşuların fitnələrinə cavab olaraq ayın 27-də II Qarabağ savaşı – Vətən müharibəsi başlandı. Dərk etdim ki, Zamiqin bir-iki günə evə qayıtmağı artıq sual altındadır. Əsgər yoldaşları və komandirlərindən eşitdiyimə görə, düşmənlə ilk döyüşə girən hissələrdən biri Zamiqin xidmət etdiyi batalyon olub. Bir neçə saatlıq ağır döyüşdən sonra düşmən itki verərək geri çəkilb. Qismətə, qəzavü qədərə bax ki, uzaqdan atılan top mərmisi açıq döyüş mövqeyindən qayıdıb səngərə girməkdə olan Zamiqin yanında partlayb və bu partlayış ona bugünkü qələbə sevincini yaşamağa imkan vermədiyi kimi, arzularla dolu ürəyinin də biryolluq susmasına səbəb olub.

Müharibənin başlandığını və Zamiqin də döyüşən orduda olduğunu bilsəm də, gözüm yollarda qalmış, Zamiqin “bir-iki günə qayıdacağam” sözlərinə əsasən böyük intizar və səbirsizliklə yolunu gözləyirdm. Zamiq şəhid olan gün gecəni çox pis yatmış, qara-qura yuxular görmüşdüm. “Allaha təvəkkül, Allah kərimdir”, - deyə səhər erkən durub fikrim-zikrim Zamiqin yanıda ola-ola ev işələri ilə məşul olmağa başlamış, Sərkara tapşırmışdım ki, dərslərini oxusun, bir azdan internetlə dərsi başlanacaq. Saat 10-da internet kəsildi. Düşündüm ki, nəsə rabitədə problem var, bir-iki saata internet bərpa olunacaq. Üstündən 1 saata yaxın vaxt keçdi. Telefonuma zəng gəldi. Elə bildim Zamiqdir. Ürəyim əsə-əsə telefonu açdım. Qayınatamgildən danışırdılar. Dedilər ki, dur, təcili bizə gəl. Dedim ki, nə işdir, nə baş verib. Cavab verdilər ki, elə bir ciddi şey yoxdur. Amma çalış tez gəl. Ürəyim qırıldı. Hiss etdim ki, Zamiqlə bağlı nəsə xoşagəlməz xəbər var. Küçəyə çıxdım. Küçə maşınlar, adamlar və bayraqlarla dolu. Dəhşət içində soruşdum: - Nə olub, nə baş verib? Dedilər ki, özünüzü toxtaq tutun. Zamiq yaralanıb, onu gətirirlər. Amma sövq-təbii anladım ki, məni aldadırlar. Qara örpəkli qadınların

ağlaması, sızlayaraq mənə baxmaları başqa şeydən xəbər verirdi. Çox keçmədən aydın oldu ki, Zamiqin yaralanması xəbərini verməklə bizi müvəqqəti də olsa sakitləşdirmək istəyirlər. Əslində Zamiq həyata əlvida edib və gətirilən də onun nəşidir. Dünya, aləm başıma daraldı. Ürəyim partlamaq dərəcəsinə gəldi. Özümdən ixtiyarsız səsim gəldikcə: -Zamiq, niyə belə etdin? Mənə söz vermişdin ki, heç vaxt səni tək qoymayacaq, peşman etməyəcəyəm. Niyə mənə, körpələrinə, valideynlərinə qıydın? İndi sənsiz neyləyəcəyəm?..

Gözüm, könlüm dardadır,
Deyin, yarım hardadır?
Ömür həsrət içində,
Gözlərim yollardadır.

Qaralıb bəxtim neynim,
Yıxılıb taxtım neynim?
Səni aparan yolun,
Ardınca baxdım, neynim?

Zamiqsiz yaşamaq mənə çox çətindir. Səsi qulaqlarıma gəlir, hər yana baxıram onun mehriban simasını görürüəm. Uşaqların əlində aciz qalmışam. Sərkar ağlı kəsəndir və deyəsən, vəziyyəti anlayır. Dord yaşlı Turqutun suallarına cavab verməkdə çətinlik çəkirəm. Hər gün atasını soruşur. Deyirəm ki, cəbhədədir. Müharibə qurtarsın, tezliklə qayıdacaq. Onda təskinlik  tapıram ki, onlar atalarını görmüş, nəvazişini hiss etmişlər. Mən isə nə atamın üzünü görmüş, nə də ata dadının nə  olduğunu billməmişəm. Uşaqlar küçədə oyanadığımız zaman "atam gəldi, atam gəldi" deyib atalarının üstünə qaçanda kənara çəkilib kövrəlməyim qətiyyən yadımdan çıxmır. Deyərdim ki, kaş mənim də atam olaydı, mən də yoldaşlarım kimi "atam gəldi" deyib sevinə biləydim. Görünür, taleyimə yazılan yazı imiş ki, özüm atasız böyüdüyüm üçün, oğlanlarım da atasız böyüyə-

cəklər. Amma zaman-zaman atalarının siması onların nəzərində canlanacaq və biləcəklər ki, ataları vətən uğrunda canından keçib və bu onlar üçün bir qürur mənbəyi olacaq.

Qismət belə imiş... Müharibə çox ocaqları söndürdüyü, valideynləri övladsız, övladları valideynsiz qoyduğu kimi, mənim də balalarımı başsız qoydu. Allah məni, övladalarımı, Zamiqin ata-anasını, qardaşını imtahana çəkdi. Şükür Allahın kəráminə. Nə etmək olar? Bu da mənim qismətimə yazılan yazı imiş.

Möhtacam bir şirin sözə-söhbətə,
Ağrılar güc gəlir sinəmə, neynim?
Daha dözümüm yox dərdə, möhnətə,
Qəlbimi yandıran sitəmə neynim?

Ömür ötüşərmi dumansız, çənsiz,
Sevgi yaşayarmı kədərsiz, qəmsiz,
Məni sənsiz qoydun, səni də mənsiz,
Zamiqim, mən sənə, mən sənə neynim?

Bu elə ağrı ki, elə acı, elə yaşantı ki, nə açıq-aşkar dilə gətirə bilrəm, nə də hər şeyin yaxşı olacağını düşünüb təsəlli tapa bilirəm.Xoşbəxt olmaq üçün birgə addımladıımız həyat yolunda Zamiq məni tək qoyub getdi. Kaş ötən günlər bir göz qlrpımında geriyə dönə idi. Kaş ötən günlər ömrümün bu çağında dadıma çataydı... Beləcə: "Kaman ayrılıq nəğəmsini çaldı, gecələrin pıçıltısında. Qəlbim od tutub yanır yer ilə göy arasında".

## ATA, ANA VƏ QARDAŞ AĞRISI

**Atası Çingiz İsmayıl oğlu Əhmədovun söylədikləri:** Zamiq kimi tərbiyəli, böyük-kiçik yerini bilən, valideynlərinə hörmət qoyub onları uca tutan, canını "uf" demədən anamız Azərbaycana

qurban verən bir oğulun atası olmağım ilə fəxr edir, qürur duyuram. Çox zaman fikirləşirdim ki, Uca Tanrı bu övladıma heç bir eyib verməyib, onu qüsursuz yaradıb. Yaxşı oğula xas olan hansı cəhətlər var idisə, hamısı onda cəmlənməşdi.

Xoşbəxtlik geniş və nisbi məvhumdur, hərə onu bir cürə başa düşür, bir şeydə görür. Mən isə xoşbəxtliyi ailəmin əmin-amanlığında, cəmiyyətdə tutduğu mövqeyində, övladlarımın tərbiyəsində və ədəb-ərkanında görürdüm. Mən nəinki övladlarımla, həm də nəslimlə, kökümlə fəxr etmişəm. Bizim Əhmədovlar el-oba işərisində hörmət qazanmış, dost qazanmağı bacaran, çörək verən, şərəf və ləyaqətini qorumağı bacaran bir nəsildir. Bacarmışıqsa yaxşılıq etmişik, bacarmamışıqsa, əlimizdən gəlməyibsə, kimsəyə pislik etməmişik. Namərdlik, ev yıxmaqlıq bizə yad olub.

Hərə ruzisini bir yolla qazanır. Biz də çörəyimizi halal zəhmətimizlə torpaqdan və ticarətdən çıxarmışıq. Kənddə dükan açmış, ticarətimizi genişləndirmiş, bacardığımız qədər xeyriyyəçilk də etmişik. İki oğlum - Zamiq və Namiq əl-ələ verərək ailəninin maddi-rifahını təmin etmiş, mən də onlara yol göstərmiş, böyüklük etmişəm.

Zamiq ailənin ilk övladı idi. Deyirlər övladın yaxşısı, pisi olmaz. Amma mən Zamiqdən çox razı idim. Ondan narazı qaldığım yadıma gəlmir. Onun varlığı mənim üçün xoşbəxtlik, səadət idi. Siz deyin, o cür övladı itirən ata hansı vəziyyətdə olar? Bir vaxtlar mən ona, son vaxtlar isə o mənə arxa, dayaq idi. Mən arxamı, dirəyimi itirdim. Lakin ona şükür edirəm ki, o, Vətən yolunda, millətin namusu yolunda canını fəda elədi. Bu, mənim üçün həm qürur, həm də bir təsəllidir. Ən böyük təsəllini oğlumun bir cüt tərlan kimi balalarından – Sərkar və Turqurdan alıram.

Allah bütün şəhidlərimizə rəhmət eləin. Vətən sağ olsun!

**Anası Dərya Məhyəddin qızı:**

Fələk gülümü dərdi,
Dərib də yerə sərdi.

Çəkdi qanlı yayını,
Sinəmi oxnan dəldi.

Gedibdi balam mənim,
O arxam, qalam mənim.
Balım zəhərə döndü,
Ağıdı laylam mənim.

Qardaşı Namiq Əhmədov deyir ki, qardaşıma arxayın olub çox ərköyünlük etmişəm. Bəzən var-yoxla razılaşmamış, aza qane olmamışam. Qardaşım məni başa düşüb və ürəyimi qırmadan, ustalıqla yola verib. O, əslində mənə böyük qardaş yox, boyük dost, böyük yol göstərən idi. Həyatda onsuz olmaq mənim üçün çox çətindir. İlahi, qardaş itkisi necə də çətin və ağır imiş? Dəli oluram, az qalır ki, ağlım başımdan çıxsın, Allaha asi olum. Düşünürəm ki, bir də səni görmək mənə nəsib olmayacaq, əziz qardaşım və sirdaşım. Yeganə təsəllim onun balalarıdır. Xüsusilə həm təbiəti etibarı, həm də zahiri görünüşü ilə onun oxşarı olan Sərkarla ovunuram.

**Haşiyə**: Çinarə müəllimə deyir ki, Zamiqi torpağa tapşırandan sonra Namiqin əhvalı çox dəyişdi. Havalanmaq dərəcəsinə gəldi. Hər gün qəbiristanlığa gedib yağışa, soyuğa baxmayaraq saatlarla orda oturar, zorla evə gətirərdik. Deyirdi ki, necə olur ki, mən isti otaqda orurub çay içim, qardaşım isə soyuqda qalsın. Əsəbləri pozulmuşdu. Müalicə və dava dərmandan sonra indi-indi özünə gəlir. Namiq özü də ailəlidir. İki övladı var. İndi düşünür ki, iki yox, artıq dörd övladı var. Deyir ki, nə qədər canımda can var, onların xidmətində duracaq, atasız olduqlarını onlara hiss etdirməməyə çalışacaqıam.

***

Sevinc var ki, kədərlərə bürünmüş,
Kədər var ki, işıqlara yol açır?

Məqamın uca olsun, şəhidim! Ölümünlə ölümsüzlüyə qovuşdun. Məzarın başında göz yaşları axıdan əzizlərinə təsəlli verir, ruhun qarşısında baş əyirik!

**Qeyd:** Şəkildə Zamiq həyat yoldaşı Çinarə xanım, oğlanları Sərkar və Turqutla.

***



**6.ƏHMƏD KƏRİMOV**
**(04.08.1989 – 07.11.2020)**

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi Əhməd Vaqif oğlu Kərimov 4 avqust 1989-cu ildə Göyçay şəhərində anadan olmuşdur. Ailədə 5 nəfərdən ibarət idilər: Atası Vaqif, anası Həsrət, qardaşı Araz, bacısı Fatimə və Əhməd.

Əhməd ilk təhsilinə 1995-ci ildə Göyçay şəhərindəki 6 nömrəli məktəbdə başlamış, 5-9 sinifləri Bakı şəhərində oxumasına baxmayaraq, 11-ci sinifi Göyçay şəhərindəki 5 nömrəli orta məktəbdə bitirmişdir. Dəqiq elmlərlə – riyaziyyat və fizika ilə yanaşı tarixi də çox sevərdi. Yaddaşı çox güclü imiş. Rayon üzrə riyaziyyat olimpiadasının qalibi olan Əməd mütaliəni çox xoşlayar, orta həcmdə olan bir kitabı 3-4 saata oxumaq bacarığına malik imiş.

Deyirlər ki, Əhməd zahirən çox ciddi, simasında sərt ifadə olan gənc kimi görünsə də, uşaqla uşaq, böyüklə böyük idi. Hər zaman dostlarına, bacı-qardaşına qayğı göstərər, fədakarlıq edərdi. Ailədə özündən kiçik iki uşaq olduğu üçün onları qoruyur, əzizləyirdi.

2006-cı ildə Kooperasiya Universitetinə qəbul olunan Əhməd ailəyə maddi cəhətdən yardımçı olsun deyə, həm oxuyub, həm işləyib. İş ilə gündüz, əyani təhsilin və ciddi maddi problemlərin ucbatından təhsilini yarımçıq saxlamağa məcbur olan Əhməd 23 aprel 2010-cu ildə hərbi xidmətə çağırılaraq bir il yarım Naxçıvandakı N saylı hərbi hissədə snayper kimi xidmət edir. 2011-ci ilin oktyabr ayının 10-da ordudan tərxis olunan Əhməd bir müddət Göyçayda

yaşadıqdan sonra Bakıya köçür, müxtəlif sahələrdə çalışmaqla dolanışığını və ailəsinin problemlərini həll edir.

İkinci Qarabağ müharibəsi başlananda səfərbərliyə alınaraq cəbhəyə yola salınan Əhməd 5 oktyabr 2020-ci ildən etibarən bir çox qanlı döyüşlərdə iştirak edərək qəhrəmanlıq nümunəsi göstərir.

Əhmədin son döyüşü qələbəyə cəmi üç gün qalmış olur. O, 7 noyabr 2020-ci il Şuşa döyüşündə Daşaltında yaralı döyüş yoldaşına dəstək üçün gedərkən minamyotla vurularaq şəhidlik zirvəsinə ucalır. Əsgər yoldaşlarının, komandirinin məzarı başında çıxışlarında bildirdiklərinə görə o, bütün döyüşlərdə öndə, 1-ci olmağa cəhd edirdi və olurdu.

Bizim sorğumuza cavab olaraq göndərdiyi məlumatda bacısı belə deyir: "Kaş ki, siz mənim qardaşımı sağlığında tanıyardınız. Onun necə mədəni, savadlı, humanist, vətənpərvər olduğunun özünüz şahidi olardınız. Mən onun xarakterizə etməkdə çətinlik çəkirəm. Fikrimi ifadə etməyə söz tapmıram. Onun haqqında Az.tv-də komandirinin söylədiklərini dinləyə bilsəydiniz, haqqında nəinki oçerk, bəlkə də  kitab yazardınız. Biz bir ailə olaraq həmişə onun ağlıyla, savadıyla, insanlığıyla fəxr etmişik. Onun haqqında hər zaman hamıdan müsbət fikirlər eşitmişik. O, həmişə öz varlığıyla valideynlərimizin başını uca edib. Qardaşım hər birimizin and yerimiz olub. O, xarakteriylə, böyük ürəyiylə, dərin fikirləriylə, məntiqli danışığıyla fərqlənirdi. Elə bil,  bu zəmanənin adamı deyildi. Bəlkə də ona görə Tanrı onu layiq olduğu yerə, cənnətə apardı. Allah onu bizdən çox istəyirmiş. Doğrudur, bu gün bizə onun ayrılığı çox çətindir, dözülməzdir. Amma düşünəndə ki, o ən ali zirvədədir, təsəlli tapırıq. Qardaşım hər zaman qəlbimizdə, əməlimizdə yaşayacaq".

Əhməd Kərimov 12 noyabr 2020-ci il tarixdə Bakı şəhəri, Suraxanı qəsəbəsindəki Dədə Qorqud qəbiristanlığında dəfn olunmuşdur. Allah rəhmət eləsin! Məkanın cənnət, ruhun şad olsun, nur üzlü şəhidim. Amin!

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş

tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Əhməd Kərimov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

***



**7.XƏYAL MƏMMƏDOV
(13.02.1989 – 03.10.2020)**

Torpaqlarımızın işğaldan azad olunması uğrunda canından keçərək tarix yazan qəhrəmanlarımızdan biri də Azərbaycan Silahlı Qüvvələrinin kiçik çavuşu (müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu), Vətən müharibəsinin şəhidi Xəyal Arif oğlu Məmmədovdur. Xəyal Məmmədov 1989-cu il fevralın 13-də Göyçay rayonunun Birinci Ərəbcəbirli kəndində anadan olmuşdur. İlk orta məktəb təhsilini Göyçay şəhərindəki Səməd Vurğun adına internat məktəbində almışdır. Deyilənlərə görə Xəyal məktəb vaxtlarında da vətənpərvərliyi ilə digər şagirdlərdən fərqlənirdi. O, təhsilini başa vurduqdan sonra həqiqi hərbi xidmətə yola düşüb. Ümumilikdə 11 il müddətində hərbi xidmətdə olan Xəyal ömrünün son illərinin hərbi işə həsr edib. İkinci Qarabağ müharibəsindən 4 il əvvəl 2016-cı ildə 4 günlük davam edən Aprel döyüşlərində də iştirak edib. Nəhayət, 27 sentyabr 2020-ci il tarixindən başlayaraq Ali Baş Komandan İlham Əliyevin əks hücum göstərişinə tabe olaraq Xəyal Məmmədov Vətən müharibəsi zamanı gedən şiddətli döyüşlərdə də müharibəyə qatılmış, döyüş yoldaşları ilə birlikdə qəhrəmanlıqlar göstərmişdir.

Xəyal müharibənin 6-cı günü - oktyabr ayının 2-də Suqovuşan uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucalmış, oktyabrın 3-də doğulub boya-başa çatdığı Birinci Ərəbcəbirli kənd qəbiristanlığında torpağa tapşırılmışdır.

Xəyal şəhid olduğu gün onun qardaşının övladı dünyaya gəlib. Qardaşı Xəyalın adının ailədə yaşaması məqsədilə yeni doğulan övladına Xəyal adını qoyub. Şəhidiin valideynləri deyir ki, həmin gün onlar həm sevinc, həm də böyük kədər hissini bir arada yaşayıblar.

**Xəyalın atasının dedikləri:** Oğlum Xəyalla fəxr edirəm. O mənim başımı uca etdi. Oktyabrın 2-də telefonda onunla xeyli danışdım, ona əmi olacağı xəbərini verdim. Çox sevindi. Allah şəhidlərimizin yerini cənnət eləsin. Onların hər birinin qarşısında baş əyirəm.

Xəyalın anası Yeganə xanım hicablı, mömin, Allahın yazısına, qismətinə baş əyən bir xanımdır. Deyir ki, Xəyal çox tərbiyəli, valideyn istəyən övlad olub. Müharibə başlayan zaman 1 saatlıq evə gəlib bizimlə görüşdü, xeyir-dua aldı. Dedi ki, ana, müharibə başlayır və mən getməliyəm. Məndən ötrü narahat olmayın. Sənin oğlun Aprel döyşlərini görüb. Heç vaxt düşmənə arxa çevirmərəm.

Oğlum güləşçi idi. İdman sahəsində uğurlar qazanmışdı. Özünə, fiziki gücünə arxayın olsa da, hərbi işi sevirdi və hərb sənətini seçmişdi.

Ayrılıq məqamında Xəyala dua etdim və dedim ki, inşallah sağ-salamat qalib əsgər kimi evə qayıdacaqsan. Onu Allaha əmanət etdim. Nə etmək olar, Allah belə məsləhət gördü, oğlumu ən uca məqama, şəhidlik zirvəsinə layiq gördü.

Şəhidin anası Məmmədova Yeganə bidirir ki, Xəyalın şəhidlik xəbərini alan gün mən nəvə yolu gözləyirdim. Axşam saat 7-8 radələrində nəvəm dünyaya gəldi və həmin gün oğlum Xəyalın şəhid olma xəbəri də mənə çatdı.

**Bacısı Sehranə xanım:** Xəyalın bacısı Sehranə xanım da hicablı, mömin xanımdır. O, yana-yana, göz yaşları içərisində söyləyir ki, onun ölümü ilə qətiyyən barışa bimirəm. O mənim qardaşım olmaqla bərabər, dostum, sirdaşım idi. Elə bil mən onun balası idim. Mənə elə baxır, məni elə əzizlərirdi ki, sözlə təsvir etməyə çətinlik çəkirəm.

Xəyaldan başqa 2 qardaşım da var. Allah onların canını sağ eləsin. Amma Xəyal başqa aləm idi. O, həyatın özü, bir dünya idi. Onsuz yaşamaq mənə çox çətindir. Şəhidlər ölmür. Mənim qardaşım əbədiyaşardır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Xəyal Məmmədov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

**Qeyd:** Göyçayda şəhid Xəyal Məmmədovun adını daşıyan körpü istifadəyə verilib. Bu, şəhidin validdeynləri üçün böyük təsəllidir.

***



**8.TOĞRUL HACIYEV**
**(04.02.1991 -25.10.2020)**

Azərbaycan Silahlı Qüvvələri Quru Qoşunlarının əsgəri, Vətən müharibəsinin şəhidi Toğrul Siyavşah oğlu Hacıyev 1991-ci il fevralın 4-də Göyçay rayonunun Çayarxı kəndində dünyaya gəlmişdir. İlk təhsilə 1997-ci ildə Çayarxı kənd ümumi orta məktəbində başlamış, 2006-cı ildə həmin məktəbin 9-cu sinifini bitirmişdir. Elə həmin il Göyçay rayon 106 nömrəli peşə məktəbinə daxil olmuşdur. 2009-cu ildə peşə məktəbini bitirmiş, aprel ayında həqiqi hərbi xidmətə yollanmışdır. 2010-cu ilin oktyabr ayında hərbi xidməti başa vuraraq evinə qayıtmış, özəl sektorda əmək fəaliyyətinə başlamışdır.

2015-ci ildə ailə həyatı qurmuş, 2017-ci ildə qızı Ləman, 2019-cu ildə isə oğlu Tunar dünyaya gəlmişdir. Onu tanıyanların söylədiklərinə görə, Toğrul zarafatçıl, deyib-gülən və gəzməyi sevən adam imiş.

Toğrul 2020-ci il sentyabr ayının 29 səfərbərliyə alınaraq cəbhəhə göndərilmiş, kəşfiyyat-həmlə qrupunun tərkibində döyüşlərə qatılmışdır. Cəbrayıl, Zəngilan, Füzuli, Qubadlı uğrunda gedən döyüşlərdə igidliklə vuruşmuş, bu bölgələrdəki bir neçə kənd və qəsəbənin alınmasında fəal iştirak etmişdir. Toğrul Hacıyev oktyabrın 25-də Xocavənd döyüşləri zamanı şəhid olmuş, Göyçay Şəhidlər Xiyabanında dəfn edilmişdir. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə

qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Toğrul Hacıyev ölümündən sonra "Vətən uğrunda" medalı, Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Prezidentin 24.12.2020-ci il tarixli Sərəncamına əsasən "Cəbrayılın azad olunmasına görə" və Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə 25.12.2020-ci il tarixli Sərəncamına əsasən "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilmişdir.




**Qardaşı Şakirin Toğrul haqqında dediklərindən:** Toğrul güclü iradəyə, saf, sağlam əqidəyə malik gənc, gözəl ailə başçısı, nümunəvi övlad, böyük-kiçik yerini bilən səmimi bir insan idi. Hər kəsin hörmətini saxlayar, kiminləsə küsülü qalmağı qətiyyən sevməz, ürəyində kin-kudurət olmadığından, bir qayda olaraq, küsülü insanları barışdırmağa can atardı. Bu xüsusiyyətlərinə görə kəndimizdə böyük hörmət və nüfuz sahibi olmuşdu.

Biz ailədə üç övlad olmuşuq. Toğrul həm ata-anya layiq övlad, həm də qardaş kimi borcunu çox ləyaqətlə yerinə yetirərdi. Gözəl insan olmaqla yanaşı, həm də çox millətçi və vətənpərvər idi. Ona görə də çağırış gələn kimi düşünmədən müharibəyə yollandı. Biz onun üçün nigaran olub getməyinə narazılığımızı ifadə etsək də, o bizə Vətəni sevdiyini və Vətənin belə vaxtında ona xidmət etməyi

özünə borc və şərəf bilərək cəbhədə olmağı üstün tutdu.

Döyüş yoldaşları onun necə böyük ürəyə, əsl qəhrəmanlara malik ruha sahib olduğunu və daima irəliyə can atdığını xüsusi hörmət və məhəbbətlə xatırlayırlar. Deyirlər ki, ondakı əzmkarlığa, dönməz iradə və çevikliyinə görə biz ona "Canavar" ləqəbi vermiş, özümüzə böyük seçmişdik.

Qardaşım savaşa yollandığı gündən şəhidlik zirvəsinə ucalana qədər şərəfli bir döyüş yolu keçmiş, yoldaşlarının dediyinə görə, özündən çox onları düşünən birisi olmuşdur. Bizimlə telefonla danışarkən deyərdi ki, narahat olmağa dəyməz. Hər şey yaxşı olacaq, zəfər qazanmağımıza, mənfur düşmənləri məhv etməyimizə sanılı günlər qalıb.

Qardaşım Toğrulla həmişə fəxr etmişəm və bundan sonra da onun işıqlı ruhu qarçısında baş əyərək fəxr edəscəyəm".

**Qeyd:** Şəkildə Toğrul Hacıyev qızı Ləman və oğlu Tunarla.

### HAQQINIZI HALAL EDİN ŞƏHİDLƏR

Şəhidlər qoymadı ensin bu bayraq,
Hər dalğası bir şəhidin ruhudu.
Vətən iman yerim, Vətən inancım,
Bu Vətən savaşı - xalqın ruhudu.

Şuşa baş tacımız, sizsə Şuşanın
Tacını bəzəyən qızıl, zərsiniz.
İki min yeddi yüz səksən üç şəhid,
Bu xalqın dilində ta əzbərsiniz.

İki min yeddi yüz səksən üç şəhid,
Aydın səmalardı, açıq alındı.
Sizin sayənizdə Ağdam azaddır,
Kəlbəcər alındı, Laçın alındı.

İki min yeddi yüz səksən üç şəhid,
Xudayar səsində Vətən sözüsüz.
Qarabağ uğrunda təkcə şəhid yox,
Həm də Qarabağın artıq özüsüz.

Bayraq kölgəsində şəhid məzarı,
Bundan müqəddəs yer tanımıram mən.
Vurulsam, yıxılsam, yaram qan versə,
Durub savaşaram - tanı, buyam mən.

Qan sızan yarandan öpürəm, şəhid,
Öpürəm boş qalan çəkmələrindən.
Öpürəm savaşda tabloya dönən,
O məğrur duruşlu əsərlərindən.

Önündə diz çöküb baş əyirik biz,
Can verib can verdin daşa, torpağa.
İndi ürəklərdir sənin Vətənin,
Döndün könüllərdə enməz bayrağa.

Bizə haqqınızı halal eyləyin,
Sizlərin hər addım izi Vətəndi.
İki min yeddi yüz səksən üç şəhid,
Min iki yüz qırx beş yaralı igid,
Yüzlərlə qəhrəman qazi Vətəndi.

***Elxan Yurdoğlu***

***



## 9.QİSMƏT QASIMOV
## (05.03.1993 – 25.10.2020)

Azərbaycan Silahlı Qüvvələri Quru Qoşunlarının əsgəri, Vətən müharibəsinin şəhidi Qismət Qasımov 5 mart 1993 - cü ildə Göyçay rayonunun Şıxbəy kəndində anadan olmuşdur.

Qismət Qasımov 1999-cu ildə Telman İsmayılov adına Şıxbəy kəndi tam orta məktəbinə qəbul olunmuş, 2010-cu ildə həmin məktəbi bitirmişdir. 2011-ci il aprel ayında həqiqi hərbi xidmətə gedən Qismət 2012-ci il oktyabr ayında hərbi xidməti başa vurur və İkinci Qarabağ müharibəsinə qədər müxtəlif sahələrdə çalışaraq dolanışığını təmin edir.

Uşaq yaşlarından atasını itirən Qismətgilin ailəsi 3 nəfərdən ibarət olmuşdur: Anası Zümrüd xanım, bacısı Ülviyyə xanım və Qismət. Təhsil aldığı zaman müəllimlərin və şagirdlərin sevimlisi olan Qismətin riyaziyyat fənninə çox böyük marağı olmuşdur. Ali məktəbə qəbul imtahanı verib müsabiqədən keçmədiyi üçün arzusu yarımçıq qalan Qismət hərbi xidmətdə də çox böyük hörmət qazanır.

2020-ci il avqust ayında adını könüllü hərbiyə yazdıran Qismət sentyabrın 21-i təlimə çağrılır. Sentyabrın 27-də başlanan müharibənin ilk günündə Tərtər–Ağdərə istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan Qismətin cənazəsi oktyabr ayının 25-i ailəsinə verilir. Şəhid Qİsmət Qasımov oktyabrın 25-də doğulduğu kənd qəbiristanlığında torpağa tapşırılır. Onun necə oğul, necə insan

olduğu dəfin mərasimində bir daha təsdiq olunur. Doğulduğu Şıxbəy kəndi, qonşu kəndlər, şəhər əhalisi, böyük bir izdihamla şəhidini son mənzilə yola salır.

Qasımov Qismətin həyatı kimi arzuları da, başladığı təzə tikili evi də yarımçıq qalır. Müharibə bitdikdən sonra, ailə quracaqdı. Oğul toyu görmək istəyən anasının, bacısının həsrətinə son qoyacaqdı. Həyatın acı üzü, taleyin sərt yazısı Qisməti anasının əlindən aldı, onun arzularını ürəyində qoydu.

Bacısı Ülviyyə xanım deyir ki, qardaşım tək şəhidliyi ilə deyil, əxlaqıyla da, insanlığıyla da ən yüksək pillədəydi. O xarakterdə oğula, qardaşa şəhidlik yaraşardı. O mənə həm qardaş, həm də ata olub.

Ailənin ağır yükünü hələ kiçik yaşlarından çiynində daşıyan qardaşım, sən alilərin alisisən. Cənnətin ən gözəl yeri sənindir. Anaya qayğıkeş oğul, bacıya əvəzsiz qardaş, vətənə namuslu, son damla qanına qədər xidmət göstərən cəsur və qorxmaz əsgər oldun, qardaşım. Şəhidlik kimi uca zirvə sənə, sən də şəhid kimi uca ada layiqsən, canım qardaşım. Yaşadığın ömür cəmi 27-il olsa belə, sən əbədi bir ömür qazandın.

Bütün şəhid qardaşlarımızın şəhadətləri mübarək olsun. Şəhidlər ölməz, şəhidlər unudulmaz. Məkanları cənnət olsun! Amin!

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Qismət Qasımov ölümündən sonra “Vətən uğrunda"” medalı ilə təltif edilmişdir.

## ŞƏHİD QARDAŞIMA...

Qismət adlı bir igidim var mənim,
Uca boylu, yaraşıqlı qardaşım.
Layiqincə xidmət etdin vətənə
Zirvələrə ucalmısan, qardaşım!

Adın Qismət, bizə qismət olmadın,
Torpağında yağı düşmən qoymadın
Öz qanınla tarix yazdın bizlərə,
Şəhid olub zirvələrə ucaldın.

Canım qardaşım, yanımda deyilsən, heç bir şeydən ürəyim açılmır, sakitlik tapa bilmirəm.

**Şəhidin bacısı Ülviyyə Nəbiyeva**

***



## 10.ÜLVİ AĞAYEV
## (09.03.1993 – 21.10.2020)

Ülvi Valeh oğlu Ağayev 1993-cü il martın 9-da Göyçay rayonunun Şahsoltanlı kəndində anadan olub. 2000-2011-cu illərdə rayonun Yekəxana kənd orta məktəbində oxuyub. 2011-ci ildə hərbi xidmətə çağırılaraq Cəncədəki N saylı hərbi hissədə xidmət edib. Hərbi xidməti bitirdikdən sonra müxtəlif işlərdə çalışmış, 2016-cı ildə qəfil infarkt keçirən anasını itirmişdir. 2019-cu ildə tale onlara növbəti zərbəsini vurur: Ülvinin yataq xəsrəsi olan qardaşı vəfat edir. Lakin Ülvi həyatda ayaq üstə durmağı bacarır, atasına və bacısına həyatın qüssələrini unutdurmağa çalışır. 2020-ci ilin iyun hadisələri zamanı general Polad Həşimovun şəhid olması ona bərk təsir edir. 2020-ci ilin sentyabrında səfərbərlik elan olunan kimi Ülvi səfərbərlik məntəqəsinə gedib adını könüllülər siyahısına yazdırır. Orduya çağırılana qədər əsgərlərə yardım aparır, onlara dəstək olur. Ülvi sentyabr ayının 30-da Göyçay Hərbi Komissarlığından cəbhəyə yola salınır. Yola düşərkən ailəni xəbərdar etmir, yalnız hərbi hissəyə yerləşdikdən sonra bacısı Fidana bildirir ki, mən artıq cəbhədəyəm, məndən yana darıxmayın. Atamdan və özündən muğayat ol. Səni və Azərbaycanımızın qız-gəlinlərinin namusunu qormaq üçün buradayam.

Torpaq namusdur, qeyrətdir. Biz bu ləkəni üstümüzdən götürməliyik. Bir xalq olaraq yumruq kimi birləşəcək və o alçaqları iti qovan kimi torpaqlarımızdan qovacağıq. Qələbə birlikdədir. Bacı,

bütün əsgərlərimizə dua edin. Bacısına telefon danışıqlarında deyirmiş ki, darıxmayın, biz mütləq qalib gəlcəyik və mən qələbə ilə geri qayıdacağam. Əfsus ki, bu müqəddəs arzusuna çatmaq Ülviyə nəsib olmadı.

Ülvinin döyüş yolu cəmi 20 gün çəkir. O, bir çox döyüşlərdə iştirak edərək qəhrəmanlıq nümunəsi göstərir.

21 oktyabr 2020-ci il tarixində Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər istiqamətində mövqelərimizi ələ keçirmək məqsədilə artilleriya atəşindən istifadə edərək hücuma keçməyə cəhd göstərməsi nəticəsində əks hücuma keçən Azərbaycan ordusu işğal altında olan torpaqlarımızın azad olması uğrunda əməliyyat keçirmiş, döyüşlər zamanı Ağayev Ülvi Valeh oğlu da şəhid olmuşdur. Cənazəsi rayona gətirilən şəhid böyük izdihamla Şahsoltanlı kənd qəbirsanlığında torpağa tapşırılmışdır.

**Fidan xanımın qardaşı haqqında dediklərindən:** Ülvi mənə dünya boyda dərd verdi getdi. Anamın və 32 yaşlı qardaşım Rahibin ətrini Ülvidən alırdım. O mənim döyünən ürəyim idi. Qardaş dərdi dözülməz dərddir. Əgər buna yaşamaq demək olarsa, Allah səbr verməsə yaşamaq olmaz. Mən yaşayan ölüyəm. Xatirələrimi xatırladıqca bitirəm. Artıq xəstəyəm, xəstəxanada yatıram.

Sənsiz çox çətindir həyatda mənə,
Yoxluğun qəlbimi incidir, qardaş!
Yaş axır gözümdən yanaqlarıma,
Göz yaşım qəlbimi incidir, qardaş!

Bilmirəm nə edim dərdim azalsın,
Gəlib danışıram qəbrinin üstə.
Nə olar, qayıt gəl evinə, qardaş,
Gözlərim yol çəkir, qulağım səsdə.

Hey sığal çəkirəm şəkillərinə,
Mənimlə danışıb dinəsən, bəlkə.
Gözlərim qapının kəndarındadır,
Ümidlə baxıram gələsən, bəlkə.

***

Allahdan anasına və qardaşlarına rəhmət, Fidana səbr və cansağlığı diləyirəm.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Ülvi Ağayev ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edilmişdir.

***




## 11.İMRAN ƏLİYEV (07.04.1993 – 27.09.2020)

Azərbaycan Ordusu Quru qoşunlarının leytenantı olan İmran Əli oğlu Əliyev 1993-cü il aprelin 7-də Göyçay şəhərindəki Nizami küçəsində yerləşən 196 nömrəli evdə dünyaya gəlmişdir. 1996-cı ildə ailələri Bakı şəhərinə köçmüş, o, 2000-cı ildə Nəsimi rayonundakı 54 saylı orta məktəbin 1-ci sinfində təhsilə başlamışdır. 2011-ci ildə orta təhsilini tamamlayan İmran Azərbaycan Texniki Universitetinə qəbul olunmuş, 2015-ci ilin yayında ali məktəbi bitirən kimi həqiqi hərbi xidmətə çağırılmışdır. 2016-cı ildə hərbi xidmətini başa vurub Bakıya qayıdan İmran bir müddət müxtəlif sahələrdə işləmiş, 2018-ci ildə ailə həyatı qurmuşdur. Bu evlilikdən Dəniz adli bir qızı dünyaya gəlmişdir. Dəniz hal-hazırda 1 yaş 3 aylıqdır. İmran Əliyev Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi şosesi, Kəpəz küçəsi döngə 3-də yaşamışdır. Bizə verilən məlumatlara görə həyat yoldaşı Əliyeva Narxanım Məsud qızı Zərdab rayonunun Osmanabad kəndindəndir.

İmran Əliyev 2019-cu ildə Müdafiə Nazirliyinin nəzdində olan TTM-də rabitə sahəsi üzrə 3 aylıq təlim kursu keçib arzusu olan rabitəçi ixtisasına yiyələnmişdir. Sonra həmin sahə üzrə leytenat rütbəsi alaraq Bərdə rayonundakı N saylı hərbi hissəyə göndərilmiş, həmin hərbi hissədə taborun rabitə rəisi vəzifəsinə təyin edilmişdir.

İmran Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad

edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərə ilk girənlərdən biri olmuş, "Mübariz" postunda erməni işğalçılarına qarşı döyüşlərə qatılmışdır. İmran Əliyev sentyabrın 27-də Suqovuşan döyüşləri zamanı şəhidlik zirvəsinə ucalmışdır.

Onun nəşini döyüş meydanından 3 oktyabr 2020-ci il tarixində götürmək mümkün olmuş və Bakı şəhərində yaşadığı ünvana gətirilmişdir. Şəhid zabitimiz ertəsi gün (04.10.2020-ci il) ailəsinin xahişi nəzərə alınaraq 2-ci Fəxri Xiyabanda dəfn edilmişdir. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Amin!.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən İmran Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə o, Prezidentin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" və 29.12.2020-ci il tarixli Sərəncamına əsasən ölümündən sonra "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

## BU BİZİM HAQQ İŞİMİZ..
### ("Qarabağa dönüş" poemasından)

Bu bizim haqq işimiz, ədalət savaşımız,
İntiqam ala-ala dikələcək başımız.
Vur, əsgərim, vur! - deyə əmr eləyir Komandan,
Qoy bir də yurdumuza tökülməsin nahaq qan!

Qayıtsın Qarabağa yenə xoşbəxt çağımız,
Başımızın üstündə üçrəngli bayrağımız!..
Qovur öz yuvasına quduzlaşan itləri,
Ali Baş Komandanın qələbə tvitləri!

Adına qurban olum, ey adsız qəhrəmanım!
Ruhundakı tilsimə heyran olub durmuşam.
Siz Vətən fədaisi! Qəlbimdə hərənizə
Neçə ləqəb düşünüb, neçə ad uydurmuşam.

Yürü, yürü, Mete xan, burda da sərkərdəsən,
Arxanca qanadlanıb Qazanla, Beyrək gəlir.
Cürşad saraylar yığır qırx igidi başına,
Özgürlük deyə-deyə Xürrəmi Babək gəlir!

...Yaxud da Dədəm Qorqud dilləndirib qopuzu,
Türkün ölməz ruhundan verər sözə yeni can.
Deyər ki, ayırmıram sizi bir-birinizdən,
Şuşa fatehlərinin bir adı var: Qəhrəman!

***Sabir Rüstəmxanlı***

***



**12.MÜTALİB XUDİYEV**
**(03.03.1993 – 07.11.2020)**

Mütalib Ələsgər oğlu Xudiyev 3 mart 1993-cü ildə Göyçay rayonunun Bəydövül kəndində anadan olmuşdur. İkinci Qarabağ müharibəsi başlanan ərəfədə könüllü olaraq orduya yazılmış, 7 noyabr 2020-ci il tarixdə Şuşa şəhəri uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Doğulduğu kənddəki Şəhidlər xiyabanında dəfn olunmuşdur. Subay idi.
Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Şuşa şəhərinin düşmən işğalından azad edilməsi uğrunda göstərdiyi qəhrəmanlığa görə ölkə prezidentinin 29 dekabr 2020-ci il tarixli sərəncamı ilə ölümündən sonra “Şuşanın işğaldan azad edilməsi” medalı ilə təltif edilmişdir.

***

2000-ci ildə Göyçay şəhər internat məktəbinin 1-ci sinfinə qəbul olunan Mütalib 2008-ci ildə 9-cu sinifi bitirmiş, iki il müxtəlif sahələrdə çalışmışdır. O, 2010-cu ildə həqiqi hərbi xidmətə çağırılmış, əsgəri vəzifəsini Azərbaycan ordusunun Ağdam rayonu ərazisində yerləşən hissələrində yerinə yetirməyə başlamış, 2012-ci ildə hərbi xidmətini başa vuraraq doğulduğu kəndə qayıtmışdır. 2-ci Qarabağ müharibəsi başlayanda könüllü olaraq cəbhəyə yollanan Mütalib müharibənin 42-cü günü, noyabr ayının 7-də, qələbənin qaza-

nılmasına iki gün qalmış Şuşa şəhəri uğrunda döyüşlərdə cəbhə yoldaşlarını xilas edərkən minamiyot qəlpəsindən ağır yaralanaraq şəhid olmuşdur.

**Analığı Həbibə xanımın söylədikləri:** "Mütalibi 3 yaşından saxlamışam. Heç vaxt o uşaqları ögey hesab etməmişəm. O, çox yaxşı, zəhmətkeş, insaflı, dürüst uşaq idi. Hər kəsin yerini bilir, hörmətini saxlayırdı. Uşaq canıyla əlləşib-vuruşurdu ki, ailəyə, atasına köməyi dəysin. Cəbhəyə getməyə də bilərdi, çünki çağrılmamışdı. Gedib könüllü yazıldı. Dedim getmə, nə zaman çağırarlar, onda gedərsən. Dedi getməliyəm, savaşa qıraqdan baxa bilmərəm. Gedən oğullardan, şəhid olanlardan artığammı? Telfonunu mənə verib: "Salamat qalın, inşallah, qismət olar görüşərik",- dedi və getdi. Heç kimə də müharibəyə gedəcəyini bidirmədi. Onu ağlaya-ağlaya yola saldın, ağlaya-ağlaya qarşıladım. Mütalibin yoxluğu ürəyimizə çalın-çarpaz dağ çəkdi".




**Qardaşı İzahimin Mütalib haqqında dediklərindən**: "Biz anadan 2 qardaş, bir bacı olmuşuq. Mütalib anamın sonbeşiyi idi. Sonbeşiklər çox zaman ərköyün olsalar da, Mütalib ərköyün deyildi. Anamız Afət xanım çox cavan, 30 yaşında ikən dünyasını dəyişdi. Elə o zamandan da ailəmizin nizamı pozuldu. Atamız ikinci dəfə evləndi, o qadından da bir qadaşımız və bacımız dünyaya gəldi.

Mən ailənin böyük övladı olsam da, əslində Mütalib mənə həm mənəvi, həm də maddi dəstək olurdu. Mütalib şəhid olan gün mən yenidən yetim qaldım, sanki anamı yenidən itirdim və əsl yetimliyim onun ölümündən sonra başladı. O, çox cəsarətli, mərd, səxavətli bir adam, nümunəvi övlad və qardaş

idi. Ailəmizin maddi problemlərini, demək olar ki, o, üzərinə götürmüşdü. Bacımız Şəbnəm Bakıda kirayədə yaşayırdı. Maddi durumu zəif olduğundan onun da ağırlığı Mütalibin üstündə düşürdü.
İnsan insanı, xüsusilə doğma doğmanı madiyyata görə istəməz. Kaş Mütalib sağ olub bizə kömək etməyəydi, ancaq sağ-salamt olaydı.

İdmanı çox sevən,  namaz qılan Mütalibdə insanları analiz edib qiymətləndirmək qabiliyyəti çox güclü idi. Çox danışmaz, susmağa və dinləməyə daha çox üstünlük verərdi. Söz yox, əməl, iş adamı olan qardaşım ölümü ilə belimi qırdı. Nə mən, nə də bacım Şəbnəm onun yoxluğuna inanmırıq. Bizdən kiçik olsa da, bizə böyüklük etməyi bacarır, bütün çətinliklərimizi həll edirdi.

Kiçik yaşlarımda anamı, yaşımın bu vaxtında da məndən balaca olsa da, mənə böyüklük edən qardaşımı itirdim. Onun ölümü ilə dünyamın çırağı söndü.

Sağlığında ona güvənib onunla fəxr etdiyim kimi, şəhidlik zirvəsinə qalxıb ölümsüzlük qazanması ilə də fəxr edirəm.

Məkanın cənnət olsun, qardaşım! Haqqını bizə halal elə!”.

**Qardaşı İbrahim onun haqqında belə deyir:** “Qardaşımın 3 yaşı olanda anası çox cavankən rəhmətə gedib. Həmin qadından onlar 2 qardaş, 1 bacı idilər. Atam 2-ci dəfə ailə həyatı qurub və bu yoldaşından da 1 oğlu, bir qızı dünyaya gəlib. Mən onun ata bir, ana ayrı qardaşıyam. Bizim aramızda heç zaman ögeylik bilinməyib. Anam onu 3 yaşından saxlayıb. 2 qardaşım internat məktəbini bitirəndən sonra biz ailəliklə bir yerdə  fermada işləyib halal ruzimizi qazanaraq  dolanmışıq. Qardaşım 2010-cu ildə hərbi xidmətə gedib və orduda  manqa komandiri olub. O, 2012-ci ildə hərbi xidmətini başa vurub gəldi və biz onun məclisini elə fermada keçirtdik.  Qardaşımın həyat yolu çox ağır və məşəqqətli olub. Kiçikkən anasını itirib, əsgər gedib gələndən sonra da ailəmizə, atamıza kömək etmək üçün çox əziyyətlərə qatlaşıb. O, hərbi xidmətini başa vurub gələndən sonra Bakıya işləməyə getdi. İşləyib qazandığı pulla həm şəhərdə öz başını saxlayırdı, həm də ailəyə kömək edirdi. O, şəhərdən evimizə gələndə evdə toy-bayram olurdu. Ürəyimizdən keçənləri də,

keçməyənləri də alıb göndərirdi ki, korluq çəkməyək. Soruşurduq necəsən, nə işlə məşğulsan, işin çətin deyilmi? Deyirdi ki, işim yaxşıdır, çətinliyim yoxdur və hər şey əladır. Sonra məni öz yanına işləməyə aparanda gördüm ki, o, bazarda araba sürür, göyərti alıb-satır.

Qardaşım çox mərd, qorxmaz, mübariz, əyilməz oğul idi. Varını, yoxunu heç kim bilməz, heç zaman gileylənməzdi. Başımızı aşağı salıb kasıbçılığımızı edirdik. Müharibə başladı. Onu müharibəyə çağırmamışdılar. Aldığımız malları mənə tapşırıb rayona getdi. Dedi ki, 2-3 günə qayıdacağam. Sən demə, orduya könüllü yazılmağa gedibmiş. Öz gücünə, öz tələbinə görə yazıldı və getdi. Bir də eşitdik ki, artıq Ağcabədidədir. Xəbəri eşidib çox sarsıldım. Ailəni ayaqda saxlayan o idi.

Qardaşımın döyüş yolu Füzulidən başlayaraq Şuşaya qədər gedib çıxıb. O, döyüşdüyü hərbi hissədə manqa komandiri olub. Şuşa dəhlizində əsgər yoldaşını xilas edərkən yanına minamiyot mərmisi düşüb. Qəlpə böyründən girib, həkimə çatdırmağa maşın tapmayıblar. Səhərə kimi saxlayıblar. Çoxlu qan itirib və dünyasını dəyişib.

Qardaşımın şəhid olması mənim dünyamı alt-üst elədi. Kaş yaralı qayıdaydı, kaş bir qolu, bir ayağı olmayaydı, amma qayıdaydı".

**Cəbhə yoldaşının söylədiyi:** "Mütalib Xudiyev çox gözəl oğlan, tayı-bərabəri olmayan bir insan idi. Mən Xudiyevlə fəxr edirəm. Onu doğan anaya qurban olum. O cür igid, qəhrəman oğul böyüdən atanın, ananın əllərindən öpürəm, ayaqlarını qucaqlayıram. Kaş mən öləydim, o qalaydı. 10 əsgəri var idi. Manqamıza yardım olaraq yemək-içmək, pal-paltar gəlirdi. Əvvəl bir-bir bizi geyindirib, yedizdirib, içirdirdi, sonra özünə götürürdü. Onun ruhu qarşısında baş əyirik. O, könüllü gəlmişdi, könüllü də ölümün içinə girdi. O, cəbhə yoldaşımızı xilas edərkən qəlpə yarası aldı, çoxlu qan itirdi. Qollarımın üstündə şəhid oldu. Gözlərimdən yaş sel kimi axırdı.

Gülümsəyərək üzümə baxdı. Dedi: “Ağlama, Allah mənə şəhidlik qismət eləsin”.

Mərd, yoldaşlığa, dostluğa layiq bir oğlan idi. Onun şəhid olmağına şox pis olduq. Ona vəsiyyət etmişdim ki, şəhid olsam, bizimkilərə sən xəbər edərsən, özün apararsan məni. Deyirdi hara ölürsən, torpaqlarımızı bir qarışına qədər alacağıq, sonra səninlə gedib Yexlaxda oturub bu günlərdən danışacağıq. O dediyi kimi də etdi. Son günə kimi vuruşdu, atəşkəsə saatlar qalmış qəhrəmancasına şəhid oldu. Allah rəhmət eləsin.

***

Mənim yoxluğuma ağlama, ana!
Mən ölü deyiləm, Şəhid olmuşam!
Quranda ayə var: Şəhidlər ölmür!
Mən onu yaşayıb Şəhid olmuşam!
Mən ölü deyiləm, Şəhid olmuşam!

Dik tut sən başını, olma nigaran,
Şəhadət olubdur bizi ayıran,
Hüseyni yadından çıxarma bir an.
Mən vətən yolunda Şəhid olmuşam!
Mən ölü deyiləm, Şəhid olmuşam!

Şəhidlik zirvəsi uca məqamdır,
Şəhidin ünvanı cənnət məkandır,
Vallah Mütalib də öndə dayandı,
Nəsildən seçilib vahid olmuşam!
Qardaş ölməmişəm, şəhid olmuşam.

Xalqımızın, torpağımızın, Göyçayımızın qəhrəman, qeyrətli oğlu Mütalib Xudiyev! Sizin kimi cəngavərlər unudula bilməz. Biz sizin kimi şəhidlərin qarşısında baş əyirik. Məkanın cənnət olsun!Amin!

**Qeyd:** Şəkildə qardaşı İzahimin oğlu Fərahim əmisinin portreti ilə

***




**13.ŞƏMİSTAN ƏZİZOV**
**(06.12.1993 – 13.10.2020)**

Azərbaycan Silahlı Qüvvələri Quru qoşunlarının əsgəri, Vətən müharibəsinin şəhidi Şəmistan İlyas oğlu Əziziov 1993-cü ilin payızının son ayında, dekabrın 6-da Göyçay rayonunun axar-baxarlı Qaraxıdır kəndində ziyalı ailəsində anadan olmuşdur.

Şəmistan 2000-ci ildə Birinci Qarabağ savaşının qəhrəmamlarından olan Zülfüqar Zülfüqarov adına Qaraxıdır kənd orta məktəbinin birinci sinfinə qəbul olunmuş, 2011-ci ildə orta təhsilini tamamlamışdır.

Şəmistanın məqsədi hərbçi olmaq idi. Orta məktəbi qurtardığı il Ali Hərbi Məktəbə girmək üçün mandatı – icazə kağızı olmadığından bu arzusunu həmin il gerçəkləşdirə bilmədi. Arzusunu reallaşdırmaq ümidi ilə 2012-ci ilin yanvar ayında həqiqi hərbi xidmətə yollanan Şəmistan il yarım Füzuli rayonunun Horadiz qəsəbəsində hərbi xidmətdə olur. Xidmət müddətində atəşkəs olmasına baxmayaraq, düşmənlərimizin xaincəsinə sərhədlərimizi pozması nəticəsində baş verən döyüşlərdə iki dəfə yaralanan Şəmistan ordudan tərxis olunandan sonra yenidən müddətli hərbi xidmətdə olmaq, yaxud Ali Hərbi Məktəbdə təhsil almaq istəsə də, müxtəlif səbəblər ucbatından bu, ona qismət olmur. 2016-cı ilin Aprel döyüşlərində

Göyçay Rayon Hərbi Komissarlığına gedib yenidən orduda olmaq istədiyini bildirsə də, yenə də istəyi baş tutmur.

Şəmistan təbiətən çox pozitiv, həyatsevər, şən, enerjili bir gənc idi. Onun böyük arzuları vardı və ən ali arzusu da, heç şübhəsiz ki, Qarabağı azad görmək, baş verməsi labüd və qaçılmaz olan Vətən müharibəsində iştirak edib düşmənlərimizə qan uddurmaq idi.

Vətən müharibəsi başlanan ərəfədə Hərbi Komissarlığa gedib könüllü kimi orduya yazılan Şəmistana çağırış gəlməyəndə o, yenidən Komissarlığa yollanıb tələb edir ki, məni də təlim-toplanış məntəqələrinə göndərin. Əgər müharibə başlanarsa, ilk gündən döyüşlərdə iştirak etmək istəyirəm. Nəhayət, müharibə başlanan gün ona çağırış gəlir və o, valideynləri, doğmları ilə görüşərək sentyabrın 28-də sevinə-sevinə, gülə-gülə könüllü kimi cəbhəyə yola düşür. Ayrılıq məqamında üzünü onu yola salanlara, onunla görüşməyə gələnlərə tutaraq deyir: “Ağlayıb pis olmayın, ardımca göz yaşı axıtmayın. Bu günü neçə illərdir ki, gözləmişəm. Qarabağı almağa gedirəm. Bu döyüşlərdə zərrə qədər payım olarsa, hesab edərəm ki, dünyanın ən xoşbəxt adamıyam. Gedirəm, qayıtsam ellərdə bayraq, qayıtmasam, dillərdə şəhid kimi dastan olaram”.

Tərtər rayonunun İsmayılbəyli kəndinddə yerləşən 703 N-li hərbi hissədə, leytenant Mahir Məmmədovun komandir olduğu bölükdə bir neçə günlük hazırlıqdan sonra Şəmistangili Füzuli istiqamətində döyüşən hərbi hissəyə göndərirlər. Qaradağlı kəndində mövqe tutan dəstə oktybrın 4-dəki döyüşdən sonra Evoğlu kənd məktəbində yerləşdirilir. Şəmistanın döyüş yoldaşlarından taqım komandiri Mingəçevirdən olan zabit Səbuhi Babazadə deyir ki, oktybrın 4-də olan döyüşdə Şəmistan əsl qəhrəmanlara xas olan təcrübəli döyüşçü kimi döyüşür, özünü odun-alovun içinə ataraq var gücü ilə, ölümün gözünün içinə dik baxa-baxa yoldaşlarını qoruyurdu. Həmin döyüşdə düşməni ağır məğlubiyyətə uğratsaq da mən də, Şəmistan da yaralandıq, amma salamat qaldıq. Əfsuslar olsun ki, həmin döyüşdə yoldaşlarımızdan 17 nəfər şəhid oldu.

Əksəriyyəti könüllülərdən ibarət olan bu hərbi birləşmə tərkibində Şəmistan dörd döyüşdə iştirak edərək mənfur düşmənə qarşı şücaətlə döyüşür, qəhrəmanlıq nümunəsi göstərir.

Şəmistanın 5-ci – son döyüşü oktyabrın 13-də olur. Burada atasının sorğumuza cavab olaraq ünvanladığı məktubu olduğu kimi veririk: “Şəmistan son telefon danışığında deyirdi: Mən ölməyəcəyəm, çünki o xainlərdə qisasım var. Mən qisasımı alıb vətənimi azad edib yanınıza qayıdacağam. Dörd dəfə döyüş əməliyyatına girmiş, cağ-salamat mövqeyinə qayıtmışdır. Lakin beşinci dəfə oktyabrın 13-də Ağdərədə, Qlobus deyilən bölgədə əks hücuma keçən zaman ağır döyüşdə düşmənin səngərə atdığı qranat onun həyatına son qoydu”.

Şəhidlərin dediyinə görə, Şəmistanın son döyüşü oktyabrın 13-də Ağdərə rayonunun İlan dağı istiqamətində olmuşdur. O, bir neçə döyüşçü yoldaşı ilə 10 km məsafə qət edərək mövqelərimizi artilleriya atəşinə tutan erməni postuna getmiş, istehkama girərək düşmənin top atəşini susdurandan sonra səngərdən çıxmış, qaçan düşmənləri yaylım atəşinə tutmuş, bu zaman uzaqdan atılan mərminin yanında partlaması nəticəsində qarnından ağır yaralanmışdır. Əsgər yoldaşları onun yardımına qoşub onu döyüş mövqeyindən çəxarmağa can atsalar da, özünü Vətəni, tabeliyində olan əsgəri, qardaş hesab etdiyi Şəmistanın yolunda fəda etməyə hazır olan cəsur komandiri əsgərləri dolu kimi tökülən güllə yağışının altına girməyə qoymamış, böyük çətinliklə olsa da Şəmistanı döyüş meydanından çıxarmışdır.

Həmin hadisəni sorğumuza göndərdiyi cavabda leytenanat Mahir Məmmədov aşağıdakı kimi izah edir: “Oktyabrın 12-də sabahkı döyüşlə bağlı əsgərlərə təlimat keçib tapşırıqlar verəndən sonra üzümü onlara tutaraq dedim: - Sahahkı döyüş çətin döyüş olacaq. Düşmənin illərdən bəri qurduğu istehkamları dağıtmaq, onların mövqeyini yarmaq komandanlıq tərəfindən qarşımıza tapşırıq kimi qoyulub. İçimizdə kim ürəklidirsə və özünü hazır bilirsə, ön cərgədə onlar

döyüşəcək. Sözümü qurtaran kimi Şəmistan ayağa qalxıb dedi: - Yoldaş komandir, mən hazır. Düzü, əvvəl razılaşmaq istəmədim. Çünki əvvəlki döyüşlərdə kifayət qədər zəhmət sərf etmişdi. Odur ki, dedim: - Sən arxada qal, sonra yoldaşlarını əvəz edərsən. Şəmistan isə gülümsəyərək: - Arxada qalsaydım elə kəndimizdə qalardım da, daha döyüşə niyə gəlirdim? cavabını verdi. Məcbur olub ön sıralarda döyüşməsinə icazə verdim.

Səhər şiddətli döyüş başlandı. Düşmənin piyadalarını geri oturtmağa müvəffəq olsaq da, xeyli irəlidəki istehkamda qurulan topdan açılan aramsız atəşlər əsgərləimizin irəliləməsinə, açıq, üzbəüz döyüşə girməsinə imkan vermirdi. Gözləmədiyimiz halda Şəmistanın sürünə-sürünə düşmənin istehkamına yaxınlaşdığını gördük. Heç bir dəqiqə keçmədi ki, üstümüzə od yağıran topun yerləşdyi istehkamdan güclü bir partlayış səsi eşidildi. Düşmənin topu susdurulandan sonra erməni əsgələri mövqelərini tərk edib qaçmağa başlıadılar. Şəmistan onlardan əl çəkmədi. Arxalarınca düşüb atəş açmağa başladı. Bir neçə əsgərlə mən də səngərdən çıxıb düşmən tərəfə atəş aça-aça sürətlə Şəmistan olan istiqamətə yüyürməyə başladıq. Birdən mərmi partlayışı səsi eşidildi. Toz-duman, tüstü hər tərəfi bürüdü, Şəmistan bir anlıq gözümüzdən itdi. Tüstü çəkiləndən sonra onun dizi üstə çöküb qarnını qucaqladığını gördüm. Əsgərlərə özlərini qorumaq tapşırğını verib onun yanına tələsdim. Yaxınlaşanda gördüm ki, ayaq üstə qalxmaq istəsə də bacarmır, əli ilə yarasını qapayaraq qarın nahiyəsindən axan qanı dayandırmaq istəyir. Ona çatanda qeyri-ixtiyari olaraq gözlərimdən yaş süzüldü. Şəmistan isə qamətini azacıq dikəldib gülümsəyərək: “Komandir, niyə ağlayırsan. Mən arzuma çatdım. Vətən sağ olsun!” - dedi. Qoluna girib ayağa qaldırmağa çalışdım. Hiss etdim ki, yarası çox ağırdır. Qucağıma götürüb sürətlə mövqelərimzə tərəf addımlamağa başladım. Yolda məni saxlayıb: “Komandir, əlcəklərimi çıxart, mənə istidir, ürəyim sıxılır. Ciyərim yanır, mənə su ver”, -dedi. Bir də xahiş etdi ki, cibimdəki telefonu anama çatdır. Bilirdim ki, ona su vermək olmaz. Təkidlə: “Komandir, mənə su ver, yoxsa haqqımı sənə halal elmərəm”,- desə də, imtina etdim. Bir neçə kilometr qət etdikdən

sonra gətirib onu səngərlərimizə çatdırdım. Hiss edirdim ki, rəngi yavaş-yavaş ağarmağa, əlləri soyumağa başlayır. Qəhər məni boğdu. Kənara çəkilib hönkür-hönkür ağlamağa başladım. Bilidim ki, Şəmistan anasının yeganə övladı, aldığı nəfəsi, bütöv varlığıdır. Çarəm kəsilmiş, əlimdən heç nə gəlmirdi. Anlayırdım ki, bütün səy və yardımıma baxmayaraq o, gözümün qarşısında, ovcumun içərisində dünyaya əlvida deyəcək, işıqlı gözlərindəki atəş əbədi sönəcək. Şəmistan artıq son dəqiqələrini yaşayırdı. Məni dərd götürmüşdü ki, bu müdhiş, acı xəbəri balasına qovuşmaq üçün gecə-gündüz əl açıb Allaha dua edən valideynlərə, ata-anaya necə çatdıracağam. Bu zaman Şəmistan yenə məni səslədi və zəif, lakin inam dolu bir səslə dedi: "Ağlama komandir, mən arzuma çatdım. Xocalı soyqrımında min əzabla öldürülən körpələrin, ana-bacılarımızın, Birinci Qarabağ döyüşlərində şəhid olan kəndimizin igid övladlarının – Zülfüqarın, Səbuhinin, Arazın, Raqubun, Elnurun qanını aldım". Bu, onun son sözləri oldu.

***

Şəmistanın dəfn mərasimində iştirak edən taqım komandiri Səbuhi Babazadə onin dekabrın 6-da keçirilən "Ad günü"nə də gəlibmiş. Həmin məclisdə iştirak edənlərdən biri onun danışığını telefonun yaddaşına yazaraq bizə göndərmişdir. Həmin söhbətdən bəzi məqamları burada veririk: "O, fiziki çəhətdən çəlimsiz olsa da, qorxu nədir bilməzdi. Xaraktercə, iradəcə çox möhkəm, əqidəsindən, məsləkindən dönməyən, sözü bir dəfə deməyi xoşlayan odlu-alovlu gənc idi. Döyüşlərdə oda-alova dönər, pələng kimi vuruşardı. Hərdən ona baxıb heyrətlənirdim. Onun bu cılız bədəninə arzuları sığamadığı kimi, özü də bu dünyaya sığmırdı".

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Şəmistan Əzizov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

***

Şəmistan Əzizov həm də şair idi. Burada bir neçə şeirini verməyi münasib bildik.

## LAÇIN YOLU BAĞLI QALIB

Laçın yolu bağlı qalıb,
Kəlbəcər duman içində.
Dərdimzə çarə yoxmu?
Millətim guman içində.

Qoşqar Murova söykənib,
Dəli dağ qəddini əyib,
Güneylərdə dərd göyərib,
Lalələri qan içində.

Düşmən hər gün əhdi pozur,
Qərb hələ də tərsə yozur,
Görən Şuşam necə dözür,
Oturub düşman isində?

***Füzuli, may, 2013-cü il***

## ƏYLƏN

Ömür ümman, axan çayıq,
Nə körpü var, nə də qayıq,
Ölüm heç nədi, ayrılıq,

Yamandı, ay gedən, əylən.

Açıb qızılgül kolları,
Lalələr basıb çölləri,
Tanı getdiyin yolları,
Dumandı, ay gedən, əylən.

***Aprel, 2013-cü il***

## SEVDİYİM QIZA YAZDIM

Söz ilə şahmat oynadım,
Sözə uduza-uduza yazdım.
Ən kövrək şeirlərimi,
Arzu dolu sətirlərimi,
Sevdiyim qıza yazdım.
Heç başım açılmır mənim,
Əlindən tilsimli dünyanın.
Görən sevdam nə rəngdədir
Gözündə döğmanın, yadın?

Axı niyə çarəsi yox,
İçində bişdiyim odun.
Nədən belə inadkardır
Sehrinə düşdüyüm qadın?

## SİNƏMƏ ÇƏKDİYİN DAĞA ÇIXIRAM

Yazmaq qələm kimi yonulmadadı,
Yonulub kağızdan yoxa çıxıram.
Qara günlər axır kir kimi məndən,
Yuyunub beş arşın ağa çıxıram.

Nə yanğı söndürmək,  nə içmək üçün...
Bir qurtum su verin tüpürmək üçün.
Sənin ad gününə gül dərmək üçün,
Sinəmə çəkdiyin dağa çıxıram.

Çiyninə qəm yükü qalanmış şaham,
Yellərə  qoşulan  yanıqlı  aham,
Səni axtarmağa gücüm yox daha,
Ta mən də bu gündən yoxa çıxıram.

## BAĞIŞLA

Qılıncla kötüyün arasındayam,
Baş üstü Allahdı, baş altı dərddi.
Bir külfət yaşayır bu dar otaqda,
Mənəm, odur, bir də beş altı dərddi.
Qəfəsim köhnəldi əynimdə, Allah,
Yanına çuxası yırtıq gəlirəm.
Hansı tərəzidə çəksən də məni,
Yenə özüm boyda artıq gəlirəm.

Sonuncu tikəmi böldüm səninlə,
Sonuncu tikə tək özümü kəsdim.
Bağışla, başladım şeir yazmağa,
Bağışla, İlahi, sözünü kəsdim.

## ZƏNCİR VUR, AŞURA GÜNÜMDÜR

Başımı çırpıram dəmir qapıya,
Ağrıyır min illik zədə başımda.
Alnımı döydüyüm divarlar ki lal,
Nə evdən çıxırsan, nə də başımdan.

Mən əkin taleli qara torpağam,
Sən biçin qismətli əlacsız çiçək.
Nə olar, bir az da mənə yaxın dur,
Səninlə bir qoşa şəkil çəkdirək.

Uc-uca bağladım dəsmallarını,
Qurulan yas çadırı mənimdi bu gün.
Qara hörüyünü döy kürəyinə,
Zəncir vur, Aşura günümdü bu gün.

***



## 14. PƏRVİN MƏMMƏDOV (30.03.1994 – 01.10.2020)

Azərbaycan Silahlı Qüvvələrinin giziri, Vətən müharibəsinin şəhidi Pərvin Rza oğlu Məmmədov 1994-cü il martın 30-da Yeniarx kəndində anadan olmuşdur. 2000-ci ildə Yeniarx kənd tam orta məktəbin 1-ci sinifinə qəbul olunaraq 2011-ci ildə həmin məktəbin məzunu olur. Sonra Göyçay şəhərində peşə liseyinə daxil olur və mexaniklik sənətinə yiyələnir. 2012-ci ildə aprel ayında hərbi xidmətə çağrılır. 2013-cü ildə hərbi xidməti başa vurub böyüyüb boya-başa çatdığı doğma kəndinə, ailəsinin yanına geri dönən Pərvin mekannik işləməyə başlayır. İllərdən bəri sevib-seçdiyi xanımla ailə həyatı qurmaq qərarına gəlir. 14 fevral 2014-cü ildə nişanlanan gənclərin 30 dekabr 2014-cü ildə toyları olur.

Şən, mehriban, xoşbəxt yaşayırlar. 2016-cı ildə aprel döyüşləri başlayır. Qismən səfərbərlik elan edilir. Pərvin vətənin müdafiəsinə qalxmaq üçün adını könüllü yazdırır. Çox keçmədən Aprel döyüşləri dayandırılır. Pərvinə orada iştirak etmək qismət olmur.

11 avqust 2016-cı ildə bu cütlüyün bir qız övladı dünyaya gəlir, sevinclərinə sevinc qatılır. Qızlarının adını Ləman qoyurlar. Ləman adının mənası Günəşin şəfəqləri deməkdir. Ləman gəlişiylə Günəş kimi bu ailənin üzərinə parlaq şəfəqlərini salır və bu gənc ailə özlərini dünyanın xoşbəxti hesab edirlər.

2016-cı ilin Aprel döyüşlərindən sonra Pərvin Silahlı qüvvələrdə xidmət etmək qəraına gəlir. 12 yanvar 2017-ci ildən 3 ay kurs keçdikdən sonra kiçik gizir rütbəsi ilə Yevlax rayonundakı Aran qəsəbəsində xidmətə başlayır.



Pərvin qar, yağış, tufan bilmədən sevə-sevə vətənə xidmət göstərir, layiqli bir hərbiçi olmağa çalışır. İşində məsuliyyətli, çalışqan və dürüst olduğu üçün baş texnik vəzifəsinə təyin olunur.

Uğurları artdıqca Pərvin daha məsuliyyətlə, vicdanla xidmət göstərir və 5-dən çox fəxri fərmanlarla, 2018-ci ildə isə

Cümhuriyyətin 100 illiyi münasibəti ilə "Yubiley" medalı ilə təltif olunur.

Məlumatlardan belə aydın olur ki, Pərvin çox intizamlı, bacarıqlı, universal iş qabiliyyəti olan bir gənc imiş. Heç vaxt işinə yubanmaz, iş saatları bitdikdən sonra birbaşa ailəsinin, uşağının yanına gələr, qalan saatlarını onlara həsr edərmiş.

30 mart 2019-cu ildə gənc ailədə daha bir xoşbəxtlik yaşandı. Pərvinin doğum günündə ikinci qızı dünyaya göz açdı və ataya ən böyük Tanrı hədiyyəsi oldu. Pərvin qızının adını Zəhra qoydu. Zəhra adının mənası cənnətdən bir çiçək, ali, yüksəklik deməkdir. Pərvinin qızları evinin parlaq günəşi, ətirli cənnət çiçəyləri idi. Pərvin həmişə Allaha şükür edib deyərmiş ki, ən xoşbəxt insan evindən işinə, işindən evinə tələsən insandır. Düşünərdü ki, Allah mənə qayğıkeş, zəhmətkeş valideynlər, sevdiyim xanım və sevdiyim peşə, iş qismət edib.

Qızlarının ayağı atalarına düşərli olmuşdu. Uğurları artır, çox keçmədən o, işgüzarlığına və çevikliyinə görə irəli çəkilir, həm rütbəsi, həm də vəzifəsi böyüdülür.

Pərvin böyüklə böyük, kiçiklə kiçik olmuş, ətrafındakıların hamısı ilə, xüsusilə valideynləriylə çox mehriban davranmağı bacarmışdır. Deyirlər ki, Pərvinlə atası arasındakı münasibət ata-oğul münasibətindən daha çox qardaş, sirdaş, dost münasibəti olub. Pərvini tanıyan hər kəs onun ancaq gözəl, dəyərli bir insan olduğunu qeyd edir. O, xanımıyla tək həyat yoldaşı kimi yox, həm də möhkəm dostluq münasibəti qurub. Pərvin ağıllı, uzaqgörən oğul, insan olub. O başa düşüb ki, insana ailədən, valideynlərdən daha yaxın və sadiq dost ola bilməz. Ona görə də ətrafı ilə xoş, səmimi münasibət saxladığı halda, ən yaxın ürək qızdırdığı dostları ailəsinin içi olub.

Pərvin qızlarına çox qayğıyla, sevgiylə yanaşar, istirahət günləri onları istirahət mərkəzlərinə, parka, gəzintiyə çıxarardı. Deyərdi ki, qızlarım bir təbəssümüylə mənə dünyanı bəxş edirlər.

Ləman və Zəhra balamız əvvəl mehriban, qayğıkeş atanın, indi isə qəhrəman atanın qızlarıdır. Həyat yoldaşı Urfanə xanım

deyir ki, şəhid yoldaşım Pərvinin yeri və adı mənimçün həmişə ali və yenilməz olub. Dünəndə belə olub, bu gündə belədir, sabah da belə olacaq.

...27 sentyabr 2020-ci ildə 2-ci Vətən müharibəsi başlandı. Pərvin də bir amal uğrunda minlərlə silahdaşları kimi dəmir yumruq olub vətənin müdafiəsinə qalxdı. Vətən torpağı, bayraq deyib Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması üçün döyüşlərə atıldı. Müharibənin ilk günlərindən böyük şücaət göstərərək Gülüstan, Goranboy, Tərtər, Talış, Suqovuşan ərazilərinin işğaldan azad edilməsi üçün vuruşdu və müharibənin 6-cı günü Ağdərə istiqamətində gedən qızğın döyüşlərdə oldu. Oktyabr ayının 1-dən 2-nə keçən gecə düşmənin kor gülləsinə tuş gəldi. Yaralıykən döyüş yoldaşlarına 2 qız övladı olduğunu söyləyir. Qanaxmadan halının pisləşdiyini hiss edərək, son sözü " Vətən sağ olsun"- deyir və qəhrəmancasına şəhid olur.

Şəhid Pərvin Məmmədov Göyçay rayonunun Yeniarx kəndində dəfn olunub. Allah rəhmət eləsin! Amin!

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Pərvin Məmmədov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

**Qeyd:** Şəkildə Pərvin həyat yoldaşı Urfanə xanım, qızları Ləman və Zəhra ilə.

***



## 15.VASİF MƏMMƏDOV (12.11.1994 – 4.11.2020)

Azərbaycan Silahlı Qüvvələri Quru Qoşunlarının əsgəri, Vətən müharibəsinin şəhidi Vasif Əlibala oğlu Məmmədov 1994-cü il noyabrın 12-də Göyçay şəhərində anadan olmuşdur.
2001-ci ildə Göyçay şəhər Məhəmməd Füzuli adına 6 saylı orta məktəbin 1-ci sinifinə qəbul olunmuş, 2009-cu ildə 9-cu sinifi bitirmişdir. Bundan sonra təhsilini 106 saylı Göyçay peşə liseyində davam etdirmişdir. 2014-cü ildə həqiqi hərbi xidmətə çağırılmış, Naxçıvandakı N saylı hərbi hissənin kəşfiyyat bölüyündə xidmət etmişdir. 2016-cı ildə hərbi xidməti başa vuraraq Göyçaya qayıtmış, müxtəlif işlərdə çalışaraq ailəsinə maddi cəhətdən dəstək olmuşdur.

Ailənin tək övladı olan Vasif 2020-ci ilin sentyabrında səfərbərliyə alınaraq 2-ci Qarabağ müharibəsinə yola salınmışdır. Döyüş yolu Füzulidən başlayıb Şuşaya qədər davam edən Vasif 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən - Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Müharibənin ilk günündən döyüşlərə atılan Vasif Məmmədov Xocəvənd və Füzulinin azad edilməsində şücaət göstərmiş, sazişin əldə olunmasına 5 gün qalmış, noyabrın 4-də şəhid olmuşdur. Şəhid döyüşçü Göyçay şəhərinin Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Gözəl başa düşürəm ki, vətən darda olanda nəinki oğullar, gənclər, hətta yaşlı kişilər də, qadınlar da ön cəbhəyə getmək istəyər

və gedər. Amma ölkənin kifayət qədər güclü ordusu varsa, niyə ailənin tək övladı ön cəbhəyə, döyüşə yollanmalıdır?!

Əgər tək övladı olan anaya oğul yardımı lazımdırsa, niyə o oğul, hətta özü istəsə belə, döyüşə getməlidir? Vətənə ana vətən deyirlər. Bəs anaları qorumaq lazım deyilmi? Düşünürəm ki, müharibə zamanı hərbi xidmətə çağırılan tək uşaqlı ailənin övladı özü istəsə belə, arxa cəbhədə xidmət etməli, hər anı ölümlə nəticələnə bilən odun-alovun içərisinə atılmamalıdır. Hesab edirəm ki, bunun izaha heç bir ehtiyacı yoxdur. Vasifin ölümü ilə ailənin çırağı söndü, nəsilin kökü kəsildi. Atanın, ananın sinəsinə çalın-çarpaz dağ çəkildi.

Ana nə yerdədir, nə göydə, Nə yaşaya bilir, nə ölə. Ədalətlidirmi? Doğrudurmu? Belə hallar qəbul edilməzdir. Gərək adam Allahını unutmasın. Bir ailənin 4 övladından biri, ikisi, hətta ehtiyac olarsa 3-cüsü də cəbhəyə çağırıla bilər. Müharibədə ölüm labüddür. Ailənin tək övladını, son ümidini ön cəbhəyə, odun-alovun içərisinə atmaq olarmı? Ailənin tək övladı geriyə dönüşü olmayan bir yola çağrılmalıdırmı? Təəssüf!

Vasifin atası deyir ki, o zəhmətkeş bir oğul idi. Anasının işləməyinə razı deyildi. Ailənin bütün əziyyətlərini çəkməyə hazır idi. Döyüşdə olarkən hər gün zəngləşirdik. Deyirdim ki, oğul, ehtiyatlı ol, özünü qoru. O isə cavabında: "Ata, narahat olma, hər şey yaxşı olar. Güllə irəlidə gedənə deyil, arxada qalana dəyir. Ata, əminəm ki, qələbə bizimdir", - deyirdi.

Çox istərdim ki, səlahiyyət sahibləri ailənin tək övladı olan Vasifin adının əbədiləşdirilməsi haqqında düşünsünlər. Heç olmasa adına bir küçə versinlər ki, ailəyə bir təsəlli olsun. Bu gün də Vasifin anası gecə-gündüz fəryad edir, özü-öz oduna alışıb yanır:

Gözünün ağı-qarası,
Ürəyinin parası,
Şəhid olub balası,
Deyirlər ağlama, şəhid anası.

Ağlamazmı bala itirən ana,
Tabutu çiyninə götürən ana,
Sonucu mənzilə ötürən ana,
Necə ağlamasın şəhid anası,
Axı şəhid olub onun balası!

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Vasif Məmmədov ölümündən sonra "Vətən uğrunda", Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə "Xocavəndin azad olunmasına görə" (25.12.2020) və Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə "Füzulinin azad olunmasına görə" (25.12.2020) medalları ilə təltif edilmişdir.

Allah rəhmət eləsin, məkanın cənnət olsun, şəhidim!

***



## 16.PAŞA SALMANOV
## (13.08.1995 – 05.12.2020)

İkinci Qarabağ müharibəsinin şəhidlərindən olan Paşa Həkim oğlu Salmanov 13 avqust 1995-ci ildə Göyçay rayonunun Çərəkə kəndində ziyalı ailəsində anadan olmuşdur.

Paşa evin 4-cü oğlu, sonbeşik övladı idi. O 2002-ci ildə Göyçay rayonundakı Q.Baxışov adına Çərəkə kənd tam orta məktəbin 1-ci sinifinə getmiş, şagirdlik illərində saf, təmiz, sakit təbiətli utancaq bir şagird kimi tanınmışdır. Böyüdükcə xasiyyətcə sakit, təmkinli, böyüklə böyük, kiçiklə kiçik kimi davranan Paşa orta məktəbi bitirdikdən sonra, 2013-cü ildə N saylı hərbi hissəyə həqiqi hərbi xidmətə yollanmışdır. Xidməti dövründə komandirlərinin, əsgər yoldaşlarının hörmətini qazanmış, vətənə canla-başla xidmət etmişdir. 2015-ci ildə hərbi xidməti başa vurub rayona qayıtdıqdan sonra müxtəlif şirkətlərdə satış nümayəndəsi vəzifəsində çalışmışdır. İşinə məsuliyyətlə yanaşan, iş yoldaşları ilə mehriban münasibətlər qurmağı bacaran Paşa ailədə də xoş rəftarı, ata-anası və qardaşlarına, onların balalarına qarşı qayğısı ilə seçilərdi.

Anası deyir ki, hər gün işdən qayıdandan sonra hazırladığım yeməyi nuşcanlıqla yeyər, “Ana, əllərinə sağlıq”, - deyib Allaha şükür edər, istirahət etmək üçün sakitcə öz otağına çəkilərdi. Subay olduğundan arzumuz tezliklə toyunu görmək idi.

Paşa qardaşlarının övladlarını bir əmi kimi canından artıq istəyər, həmişə deyərdi, siz əminin güllərisiz. Uşaqlar da əmilərini

çox sevər, işdən gələndə qabağına qaçar, sevincinə sevinc qatardılar. Lakin bu sevimli yaşantılar çox uzun çəkmədi. 2020-ci il sentyabr ayının 21-də səfərbərlik başladı. Paşa özü könüllü olaraq vətənin harayına səs verərək, torpaqlarımızı yağı düşməndən azad etmək üçün cəbhəyə yollandı. Sentyabr ayının 23-də əmisinin daha bir gülü, qardaşı övladı dünyaya gəldi. Adını Fəxri qoydular. Bilməzdik ki, təsadüfi seçilən ad əmisinin adı ilə bağlı olacaq. Qardaşı övladının dünyaya gəldiyini eşitsə də, üzünü görmək əmisinə qismət olmadı.



Sentyabr ayının 27-də 2-ci Qarabağ müharibəsi başlandı. Paşadan yana çox narahat idik. O isə vaxt tapdıqca evə zəng edər, hər şeyin yaxşı olacağını deyərdi. Döyüşlərdə daha da irəliyə getdiyi vaxtlarda qardaşı Mətləbə zəng etmiş, “məndən narahat olmayın, biz torpaqlarımızı alıb daha da irəliyə gedirik”,- deyə söyləmişdi. Əlavə etmişdi ki, anama deyin ki, mənə görə narahat olmasın. Alnıma nə yazılabsa, o olacaq. Taledən qaçmaq olmaz. Şəhid olacağını elə bil əvvəlcədən hiss etmişdi.

Müharibənin ilk günlələrindən döyüşlərə qatılan Paşa oktyabr ayının 14-də Ağdam istiqamətində gedən şiddətli döyüşlərdə başından qəlpə yarası alaraq ağır yaralanır. Onu əvvəlcə Ağcabədi xəstəxanasına, daha sonra isə Bakıya gətirirlər.

Hospitala yerləşdirilən Paşa Salmanaov 3 dəfə əməlliyyat olunsa da, həkimlərin səyinə baxmayaraq 52 gün sonra, yəni dekabrın 5-də əbədiyyətə qovuşaraq şəhidlik zirvəsinə ucalır....

Paşa Salmanov dekabr ayının 6-da doğulub boya-başa çatdığı Çərəkə kəndində böyük izdihamla torpağa tapşırıldı. Paşa haqqında döyüş yoldaşı Fuad İbrahimov xatirələrini bölüşərkən onun necə

ürəkli, mərd, cəsur, döyüşlərdə qorxmadan irəli atıldığından danışır və belə deyir: "Paşa cəngavər idi. Döyüşçü yoldaşlarının köməyə ehtiyacı olduğunu eşitdi, özünü onlara çatdıran zaman başından qəlpə yarası aldı. Paşa kimi bir dostu, qeyrətli oğulu itirmək bizim üçün çox ağır oldu". Paşa yoldaşları ilə söhbət edərkən: "Mən şəhid olsam heç nədən yox, anamdan ötrü çox narahat olaram. Mənim anamdan muğayət olarsınız", - deyə onlardan xahiş edibmiş. Əsgər yoldaşları deyir ki, döyüşçülər üçün gələn sovqatlardan yoldaşları daha çox istifadə etsin deyə Paşa çox vaxt öz payından imtina edərmiş. Yaralanan gün yoldaşları onun köməyinə gələndə o özünü yox, yoldaşlarını düşünmüş, "yoldaşlarıma kömək edin, mənə heç nə olmaz", - deyə onlardan rica etmişdir.

Biz igid, qəhrəman Paşamızla fəxr edir, qürur duyuruq. Paşa kimi mərd, igid, ürəkli, qorxmaz oğul hər anaya ataya nəsib olmur. Bu gün bizim azad, firavan yaşamağımız Paşa kimi oğulların sayəsindədir. Biz ömür boyu onlara borcluyuq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il və 18 dekabr 2020-ci il tarixli sərəncamları ilə Paşa Salmanov ölümündən sonra "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

Şəhid adı müqəddəs addır. İgid Paşa da bu müqəddəs adın sahibi kimi cənnətinə qovuşdu. Zirvən mübarək igid! Öz qanıyla tarix yazan qəhrəman şəhid Paşa! Haqqını bizə halal et, şəhidim. Məkanın cənnət, ruhun şad olsun! Amin!

**Qeyd:** Şəkildə Paşanın üzünü görmədiyi qardaşı oğlu Fəxri

**PAŞA**

*Şeir 2-ci Qarabağ müharibəsi şəhidi Paşa Salmanova həsr olunub*

Vətən harayını duyub, bilincə,
Öz cavan canını qoymadı dincə,
Döyüş meydanına hamıdan öncə,
Özünü tələsik yetirdi Paşa.

Qan izi gördükdə vətən daşında,
Qisas alovları coşdu başında,
Şiddətli döyüşdə, haqq savaşında,
Düşmənin ömrünü bitirdi Paşa.

Dostları yanında şəhid olanda,
Bu acı kədəri yada salanda,
Bəzən də özüylə tənha qalanda,
Dərin xəyallarda itirdi Paşa.

Torpaq azadlığı asan qazanmır,
Ömürlər bitəndə savaş uzanmır,
Bir əsgər döyüşür, durub usanmır
Deyərək bayrağı götürdü Paşa.

Bir gün el-obanın şərəf adına,
Qohuma, doğmaya, yada, yaxına,
Qələbə xəbərin can bahasına,
Kəndinə, elinə gətirdi Paşa...

***Elvin Firudunoğlu***

***




## 17. ELVİN MƏMMƏDOV (26.02.1996 – 01.10.2020)

Elvin Mübariz oğlu Məmmədov 1996-cı il fevralın 26-da Göyçay rayonunun Ləkçıplaq kəndində anadan olmuşdur.

2004-cü ilin sentyabrında kənddəki 1 № -li orta məktəbin 1-ci sinfinə qəbul olunmuş və 2015-ci ildə orta təhsilini tamamlamışdır. Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə çağırılmış, Bakı şəhərindəki hərbi hissələrin birində bir il yarım qulluq etmişdir.

Elvin Məmmədov zəhmətkeş bir ailənin övladı idi. Üç oğul böyüdən ailənin. Elvin və Elçin adlı övladları əkiz idilər. Əkizlər həm bir-birinə bənzəyir, həm də bir-birilərini çox sevərdilər. Uşaq vaxtlarından bir-birindən ayrılmaz, nə geyinirsə bir geyinir, hara gedirlərsə cüt gedirdilər. Bir-birinin vurğunu olan qardaşlar hərbi xidmətə çağrıldılar. Elvin Bakıya, Elçin isə Tovuz rayonuna düşdü. Qardaşlar üçün bu ayrılıq çətin olsa da, dözməyə, uyğunlaşmağa məcbur idilər. Zənn edirdilər ki, bu ayrılıq müvəqqətidir. Günlərini saya-saya yaşayırdılar. Sən saydığını say, gör fələk nə sayır...

Valideynləri və qonum-qonşuları deyir ki, Elvin çox zəhmətkeş oğul idi. Az yaşında nə əldə etmişdisə, nəyə nail olmuşdusa, zəhmətinin, əməyinin, əllərinin qabarının bəhrəsi idi. Elvin bir qədər qapalı gənc imiş. Heç zaman qarşılaşdığı çətinliklər barədə kiməsə danışmaz, gileylənməzmiş. Onun əhvalından ailədə yalnız bir nəfər – Elçin xəbərdar ola bilərdi. Elvin demək istəməsə belə, Elçin onu

sözsüz anlayar, sevincləri də, əzabları da, hətta ağrı-acıları da bir olarmış.

Elvin 2020-ci il sentyabrın 21-də könüllü olaraq səfərbərliyə alınır və Vətənə xidmət üçün cəbhəyə yollanır. Qardaşı Elçin deyir ki, o, səfərbərliyə alınmasını bizdən gizlətmişdi. Biz onda xəbər tutduq ki, o artıq təlim-toplanış məntəqəsində idi. Bunu da telefonla zəng edib özü bizə şatdırdı. Müharibə başlanandan sonra bir neçə dəfə danışsaq da bizə döyüşlər barədə heç nə deməzdi. Axırıncı danışıqda dedi ki, biz Ağdərə tərəfdəyik.

Elvin şəhid olduqdan sonra dəfn mərasimində iştirak edən əsgər yoldaşlarından biri deyirmiş ki, o, öndə getməkdən, odun-alovun içinə girməkdən çəkinmirdi. Deyirdi, ya hər şey, ya da heç nə. Adam yaşayanda da kişi kimi yaşayar, öləndə də kişi kimi ölər. O, heç vaxt daldalanmağı, arxada qalmağı sevmirdi. Bir dəfə su qızdırıb dedim ki, növbəylə yaxalanaq, artıq neçə gündür tozun içindəyik. Elvin dedi ki, müharibə şəraitində əsgər günlərlə, həftələrlə tozun-torpağın içində qala bilər. Təki torpaqlarımız o gədə-güdələrdən təmizlənsin.

Müharibə elə bir şeydir ki, adam 1-2 saat yatmağı belə özünə sığışdırmır, haram bilir. 7 nəfər bir yerdəydik, fikirləşdik ki, bir stəkan çay içib, işimizə davam edək. Elə bu an düşmən tərəfdən atılan mərmi yanımıza düşüb partladı. Çay əlimizdə qaldı. Elvin qarnından yaralandı. Onu xilas etmək mümkün olmadı. Gözümüzün qarşısında gözlərini yumaraq şəhid oldu. Bu, bizim hər birimizi sarsıtdı və bizdə dığalara qarşı qisas hissini daha da gücləndirdi. Elvin canlara dəyən yoldaş idi. Kaş ki, heç olmasa evinə, ocağına qazi kimi qayıdaydı.

Qardaşı Elçin bu gün də onun ayrılığına dözə bilmir. Qanadsız quş kimi, susuz balıq kimi çabalayır. Hər gün onunla bağlı statuslar qoyur və altından bu sözləri yazır: “Qaqa, nolar gəl də... Vallah, yaşaya bilmirəm sənsiz”.

**Elçinin qardaşı haqqında dediklərindən:** "Mənim qardaşım, arxam, dirəyim çox məğrur oğlan idi. Heç bir zaman ağız açmağı, borc istəməyi, yük olmağı sevməzdi, bəyənməzdi. Deyirdi ki, Allah mənə 2 əl, 2 ayaq, bir cüt göz verib. Daha nə verməlidi ki? Kasıb mənəviyyatca kasıb olur. Mənəvi fəqirlik hər iki dünyada üzqaralığıdır. Mən özümü hər kəsdən zəngin hesab edirəm. O, zəhmətilə işləyib özünə sürücülük vəsiqəsi, maşın almışdı. Növbəti arzusu təzə ev tikdirmək idi. Qarşısına məqsəd qoyub o məqsədə doğru adımlayırdı. Allahından halal çörək, ruzu istəyirdi.

Elvin halal çörək, halal ruzi qazandı, amma asan qazanmadı. Yaşının az olmağına baxmayaraq həyat öz sərt üzünü Elvinə də göstərdi. Bizim ailəmiz mehriban və zəhmətkeş ailə olub. Qazandığımız bir tikə çörəyi bölüşmüş, gülə-gülə, nuşi-canlıqla yemişik.

Biz üç qardaş olmuşuq. Bir gün sözü bir yerə qoyub dedik ki, pul yığıb anamıza təzə pal-paltar alaq. Pulu yığdıqdan sonra, anamız üçün pal-paltar seçdik və anamızı özümüzlə rayon mərkəzində yerləşən dükana apardıq. Anamız pal-paltarların baha olduğunu gördükdə, qətiyyən razılaşmadı. Dedi ki, istəmirəm. Gah da dedi ki, xoşuma gəlmir. O, evin büdcəsini bilən və bu büdcə ilə evi idarə etməyi bacaran xanımdır. Düşünürdü ki, insana ağlına, tərbiyəsinə görə qiymət verilər, rəngli pal-paltarlarına görə yox. Bizi də elə tərbiyə etmişdi. Deyirdi ki, həmişə aza qane olun. Olanınızla razılaşın. Biz ananı da götürüb heç bir şey almadan qayıtdıq geri, kənddə. Qardaşım və mən razılaşıb oturduq evdə. Aradan bir neçə gün keçdikdən sonra Elvin özünü oda-közə vurub bir qədər də pul qazanaraq bizdən xəbərsiz bəyəndiyimiz pal-paltarları alıb



evə gətirdi. O, başa düşmüşdü ki, anam paltarların qiyməti baha olduğu üçün almağımıza razılaşmadı. İstəmədi ki, əziyyətlə qazandığımız pulun hamısını pal- paltara verək.

Elvin axırıncı dəfə bizimlə danışan da dedik ki, yanına gəlmək istəyirik, ürəyin nə istəyir alaq gətirək. Dedi ki, siz mənim istədiyimi gətirə bilməzsiz. Dedik ki, o nədir? Dedi: Haci! Hacı bizim qardaşımız Dünyaminin oğludur. 2 yaşı var. Elvin onunla nəfəs alırdı. Deyirdi ki, Hacı üçün burnumun ucu göynəyir. Kaş gəlib onu bağrıma basıb doyunca öpə biləydim.

Sentyabrın 31-də Elvin axırıncı dəfə evlərilə danışıb. Qardaşı deyir ki, o heç vaxt bu qədər çox və bu qədər sevincli danışmazdı. Axrıncı dəfə danışanda dedik ki, yanına gəlmək istəyirik. Bir an duruxub fikrə getdi və sonra dedi ki, gəlin. Mən də sizi görmək istəyirəm. Atam sevinə-sevinə maşına ərzaq, mer-meyvə yığdı ki, səhər, yəni oktyabrın 1-də yola çıxacağıq...

Əfsus ki, onların bu səfəri baş tutmur. Yola çıxdıqları ərəfədə xəbər verirlər ki, Elvin şəhid olub, rayona gətirirlər....

Qardaşı deyir ki, son dəfə danışanda ata və anamızçün çox darıxdığını dilə gətirdi. Onların hər ikisini bizə tapşırırdı ki, darıxmağa qoymayın. İnşallah görüşərik.

Təəssüf ki, ata-anası, əzizləri ilə görüşmək bir daha Elvinə qismət olmadı.

Elvinin böyük qardaşı Dünyaminin iki övladı var. Oğlunun adı Hacı, qızının adı Hurüdur. Elvin onların hər ikisini canından çox istəyirdi. Elvinin qardaşının oğlu Hacı evdə Quran oxunan gün üzünü tutur nənəsinə deyir ki, Elvin əmi gəlib. Mən Elvin əmini görürəm. O, mənə baxır, mənimlə oynayır.

Elvinin atası Mübariz kişi deyir ki, oğul dünyaya gələndə valıdeyn bilir ki, Vətənçün əsgər böyüdür. Biz də Vətənçün 3 əsgər böyütmüşük. Oğlumuz Elvin sevdiyi Vətən yolunda könüllü olaraq müharibəyə getdi və öz sözünü dedi.

**Anasının dilindən**:

Quşumu tərlan aldı,
Dağını düman aldı.
Fələk yayını çəkib,
Sinəmi nişan aldı.

Övlad itkisi görmüş bir ana kimi, düşünürəm ki, hər kəs bu həyat yolunda acılar çəkər, sonra sağalar. Övlad acısı o qədər böyük ki, heç zaman sağalmaz.

**Sözardı, yaxud əlavə bir neçə soz:** Mən bir neçə ailə tanıyıram ki, ancaq öz halal zəhmətinin ruzisi ilə dolanır, halalına haram qatmır, aza qane olub böyük Nizami Gəncəvi demişkən: "Öz süfrəsinin halal arpa çörəyini yeyib həmin süfrənin şiri olmağını başqasının süfrəsinin buğda çörəyini yeyib o süfrənin pişiyi olmaqdan" qat-qat üstün tuturlar. Belə ailərdən biri də Elvingilin ailəsidir. Bu ailəyə, bu ocağa kənardan zəhmətsiz 1 manat pul gələ bilməz. Bu xıslət ailədə hər kəsin canında, qanında var. Hətta ailəyə başqa ünvandan gələn evin gəlinin də. Atalarda məsəl var: "Gəlin ocağa düşər".

Ailəni yaxından tanıdığım üçün bilirəm ki, onların dünya malında zərrə qədər gözləri yoxdur. Bəzən haqları, hüquqları çatan şeydən də imtina edirlər. Prezdentimiz sərəncam verib ki, köçkünlərə tikilən evlər şəhid ailələrinə verilsin. Mən bu xəbəri onlara çatdırdım ki, birdən xəbərsiz olarlar. Qardaşı Elçin dedi ki, Elvinin ən böyük arzusu özünə ev tikdirmək idi. Əgər o, arzusuna çatmadısa, bizə ona verilən evi lazım deyil. Dedim ki, bu Elvinin halal haqqıdır. O ev də onun sizə verə biləcəyi bir yadigardır. Elçinin fikri ailənin fikri idi. Dedilər ki, Elvinli günlərimizin xatirəsi bizə ömrümüz boyu yetər.

Mən təbiətən bir qədər inadkar olduğumdan, insanın haqqının da, hüququnun da, borcunun da nə olduğunu bildiyimdən çalışacağam ki, o ailənin haqqı olduğu bir şeyə sahiblənməsinə yardımçı olum.

1 oktyabr 2020 ci tarixdə Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Kəlbəcər istiqamətində mövqelərimizi ələ keçirmək məqsədilə artilleriya atəşindən istifadə edərək hücuma keçməyə cəhd göstərməsi nəticəsində əks hücuma keçən Azərbaycan ordusu işğal altında olan torpaqlarımızın azad olması uğrunda əməliyyat keçirib. Ağdərə istiqamətində gedən döyüşlər zamanı Göyçay rayon Ləkçıplaq kəndindən Məmmədov Elvin Mübariz oğlu şəhid olub. Şəhid böyük izdihamla doğulduğu Ləkçıplaq kəndində torpağa tapşırılıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün ölkə Prezidentinin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Elvin Məmmədov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

**Qeyd:** Şəkildə şəhid Elvin, əkiz qardaşı Elçin və böyk qardaşları Dünyaminin oğlu Hacı

***



## 18.TƏBRİZ XANCANOV
## (09.06.1996 – 19.10.2020)

Azərbaycan Ordusu Quru Qoşunlarının əsgəri olan Təbriz Məhəmmədəli oğlu Xancanov 9 iyun 1996-cı ildə Göyçay rayonunun Qəbələ Müsgürlü kəndində dünyaya gəlmişdir. Ailənin ilk övladı idi. 2002-ci ildə Qəbələ Müskürlü kəndində orta məktəbin 1-ci sinfinə qədəm qoyan Təbriz sinfin və məktəbin sevilib-seçilən şagirdlərdən olub. Təbriz 4-cü sinifdə oxuyarkən Orta Müskürlü kəndində yaşayan nənəsinin himayəsinə verilir və nənəsi ilə yaşamağa başlayır.

2011-ci ildə orta məktəbin 9-cu sinifini bitirən, daha çox peşə-sənət qazanmaq arzusunda olan Təbriz bəxtini bir neçə sahədə sınayır, nəhayət kompyuter kurslarında bu sənətin sirlərinə yiyələnir, bacarıqlı bir mütəxəssis kimi tanınmağa başlayır. 2014-cü il iyulun 6-da həqiqi hərbi xidmətə yollanan, Naxçıvanda yerlşən 215 saylı hərbi hissədə xidmət edən, nümunəvi və nizam-intizamlı əsgər kimi fərqlənən Təbriz 2016-cı il yanvar ayının 1-də xidməti başa vuraraq evinə, ailəsinə qayıdır.

Atası Məhəmmədəli deyir ki, ordudan tərxis olunanTəbriz evə daha çox qazanc gətirsin deyə, kompyuter təmiri ilə yanaşı, qaynaqçılıqla da məşğul olurdu. Zarafatcıl, şən, bir az ərköyün olsa da, hamının sevimlisi idi. Onu heç vaxt istəyinə qarşı çıxmayan nənəmiz bir qədər ərköyün böyütmüşdü. Ərköyünlüyü olsa da, heç vaxt əndazəni aşmazdı. Böyüyün yolunu saxlayar, kiçiklərə məhəbbətlə yanaşardı.

Təbriz nişanlı idi. Sevinə-sevinə toyuna hazırlaşırdıq. Ana, nənə, doğmalar həsrətlə bu toyu gözləyirdilər. Bizim şən, mehriban, sevgi ilə dolu ürəyi olan Təbrizimiz bəy olacaqdı. Qəfil başlanan müharibə xəbəri Təbrizin də arzularına qənim kəsildi, Təbrizi sevənləri nisgilli qoydu. Biz valideynlərə oğul toyu, nənə-babalara isə nəvə toyu görməyə imkan vermədi.

Müharibə neçə-neçə gənclərimiz kimi Təbriz balamızın da toyunu yasa döndərdi. Onu sevənlərin ürəyini param-parça etdi. Müharibə evlər yıxdı, ailələr dağıtdı, gəlinlərimizi dul, körpələrimizi atasız, analarımızı oğulsuz, bacılarımızı qardaşsız qoydu. Kimdir günahkar?

Təbriz zəhmətkeş ailədə dünyaya gəlmişdi. O, nənəsi Məftula xanımla yaşasa da, atasının necə əziyyət çəkdiyini görür və düşünürdü ki, inşallah böyüyər, əli çörəyə çatar, ata-anaya dəstək olar. O, nə nənəyə, nə də ata-anaya kömək edə bilmədi. Onlar 3 qardaş idilər: Təbriz, Cavid və Asiman. Böyük oğul Təbriz idi. Halal çörəklə böyüyən bu qardaşlar tərbiyələri ilə bir nümunə idilər. Mehriban ailə olaraq atanın zəhmətlə qazandığı halal ruzi ilə kifayətlənib Allaha şükür edirdilər. Düşünürdülər ki, dar günün ömrü az olar. Onlar böyüyəcək, əl-ələ verərək ailənin maddi durumunu yaxşılaşdıracaqlar.

Xancanovlar ailəsi çox halal, yaşayışlarından narazı qalmayan, həyata, sabaha ümidlə baxan bir aliləndir. Bu ailədə hər zaman hər şeyin yaxşı olacağını düşünüblər. Halallıq, şükranlıq bu ailənin başçısının həyat kredosudur. Təbriz məhz belə atanın halal çörəyi, Məlahət xanımın düzgün, halal tərbiyəsi ilə boya-başa çatmışdı. Bizimlə söhbətində Məftula nənə və Məlahət ana dedilər ki, hər çətinliyiə dözmək olardı, kaş ki, ayrılıq olmayaydı.

Bu ayrılıq, övlad itkisi ata-anaya nə qədər ağırdısa, nənəyə, bəlkə də ondan da ağır, dözülməz dərd olub. Nənəyə uzun illər bir yerdə yaşadığı, mehrini bütünlüklə saldığı Təbrizsiz yaşamaq çəkliməz bir sitəm olub. Axı yaşlı nənə Təbrizə söykənərək, onun qoxusunu alaraq yaşayır, son nəfəsində onun qucağında can vermək, onun çiyinlərində axirət evinə getmək istəyirdi.

Mənim rəhmətlik anam deyərdi ki, həyatda hər kəsin ömür yolunda enişi-yoxuşu, ağrısı-acısı, itkisi-ayrılığı olur. Allah adamı bu yaşantılarla yaşlı çağında sınağa çəkməsin. Adam cavan olanda güclü olur və həyatın gözlənilməz sınağına sinə gərməyə özündə güc tapır. Yaşlı olanda isə artıq heç nəyə dözümün, gücün qalmır. Valideynlərin nələr çəkdiyi məlumdu, amma nənənin də keçirdiyi iztirabları duyur, hiss edirəm.

Təbriz müharibə başlanan ərəfədə, 21 sentyabr 2020-ci ildə könüllü olaraq səfərbərliyə alınaraq cəbhəyə yollanmış və Tərtərdəki 703 saylı hərbi hissəsində xidmət etmişdir. Onun ailəsiylə son danışığı oktyabr ayının 15-də olub. Deyib ki, narahat olmayın, hər şey yaxşı olacaq. Oktyabrın 19-da səhər saat 8-də başlanan Ağdərə - Suqovuşan istiqamətində gedən döyüşlərdə ayağından qəlpə yarası alıb. Buna baxmayaraq, ayağını sarıdaraq, yaralı halda yenidən döyüşə qatılıb. Elə həmin döyüşdə başından qəlpə yarası alaraq şəhid olub.

Can şəhidim, can. Görəsən ürəyindən həmin an nələr keçib? Qeyrətinə qurban olum, bala. Sənin kimi mərd oğulları unutmaq olarmı? Bu mümkünmü?

Təbrizdən xəbər çıxmadığından oktyabrın 20-dən başlayaraq ailəsi onu axtarmağa başlayır. Nəinki ailə, hətta bütün kənd camaatı ayağa qalxır, müdafiə nazirliyindən, əlaqədar təşkilatlardan doğru-dürüst cavab tələb edirlər. Nəhayət, noyabrın 9-da Təbrizdən xəbər çıxır, bildirilir ki, o, şəhid olub. Nəşi noyabrın 12-də tapılaraq Bərdəyə gətirilən şəhid tibbi ekspertizdan sonra, noyabrın 19-da ailəsinə təhvil verilir.Təbriz Məhəmmədəli oğlu Xancanov 19 noyabr 2020-ci ildə doğulub böyüdüyü Müskürlü kənd qəbirstanlığında torpağa tapşırılır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün ölkə Prezidentinin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Təbriz Xancanov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

Rahat uyu, igidim! Sənin kimi qəhrəmanlar heç vaxt unudulmayacaq. Məkanın cənnət olsun! Amin!

***




**19.ELŞƏN NURUZADƏ (13.06.1996 – 4.10.2020)**

Azərbaycan Silahlı Qüvvələri Quru Qoşunlarının əsgəri, Vətən müharibəsinin şəhidi Elşən Əlisa oğlu Nuruzadə 1996-cı il iyun ayının 13-də Göyçayda dünyaya göz açmışdır. 2002-ci ildə Göyçay şəhəri Məhəmməd Füzuli adına 6 saylı tam orta məktəbin 1-ci sinifinə qəbul olunmuş, oxuduğu müddətdə müəllimlərinin və yoldaşlarının hörmətini qazanmışdır. Elşənin ən böyük arzusu oxumaq, ali təhsil almaq idi. Amma neynəmək olar? Həyat belədir, Allah nə yazıbsa, onu yaşayırıq. 2011-ci ildə orta məktəbin 9-cu sinfini bitirən Elşən peşə təhsili almaq üçün Göyçay şəhərindəki 106 saylı peşə litseyinə daxil olmuş, 2015-ci ildə litseyi bitirərək rabitəçi ixtisasına yiyələnmişdir.

Elşən 2015-ci ildə hərbi vəzifəsini yerinə yetirmək üçün həqiqi hərbi xidmətə yollanmış, xidmətini Naxçıvan Muxtar Respublikasında yerinə yetirmişdir. Hərbi xidməti zamanı heyətin rəğbətini qazanmış, komandirlərinin əmrlərini nizam-intizamla yerinə yetirmiş və dəfələrlə tərifnamələr almışdır. Hərbi xidmətini başa vurduqdan sonra Göyçaya qayıdan Elşən müharibə başlayana qədər yaşadığı Göyçay şəhərində kiçik tücarətlə məşğul olmuşdur.

Deyirlər ki, Elşən hələ 1-ci sinifdə oxuyarkən müəllimlərinin köməyi ilə kiçik bir səhnəcik hazırlanır. Elşənin öz istəyilə aldığı rolda hərbi forma geyinir və çiynində avtomat anasından xeyir-dua alaraq müharibəyə yollanır. Eynilə 2-ci Qarabağ müharibəsində olduğu kimi.

Elşəni 2020-ci il sentyabr ayının 21-i hərbi komisarlığa çağrılırar. Elşənin çoxdan gözlədiyi gün gəlib çatır. Sentyabr ayının 27-si müharibə başlayır. Elşən ən böyük arzularından biri olan Qarabağı düşmən tapdağından xilas etmək üçün minlərlə Azərbaycan gənclərindən biri kimi cəbhəyə yollanır.

Atası söyləyir ki, 2016-cı il Aprel döyüşləri Elşəni ən çox təsirləndirən hadisələrdən olmuşdur. O zamanlar Elşən Naxçıvanda hərbi xidmətdə idi. Elə hey o döyüşlərdə şəhid olan əsgərlərdən danışardı. 2-ci Qarabağ müharibəsi Elşən üçün bir şans idi. Müharibəyə getdi və istəyinə nail oldu. Döyüşlər zamanı hərdən evə zəng edərdi. Elə danışırdı ki, hiss etmirdin ki, müharibə meydanında, ölümlə göz-gözədir.

Müharibə zamanı Elşən döyüşlərdə cəsurcasına iştirak etmiş və bir sıra rayonların alınmasında böyük qəhrəmanlıq göstərmişdir. Sonuncu dəfə oktyabrın 2-də evlərinə zəng vurmuşdur.

Atası söyləyir ki, hamı ilə danışdı. Dedi ki, iş yoldaşlarımla da danışmış, halallıq almışam. Ola bilər ki, mənə qayıtmaq nəsib olmasın. Bundan qətiyyən pis olmayın, çünki bu gün istədiyim yerdəyəm. Anamdan muğayət ol. Məndən nigaran qalmayın.

4 oktyabr 2020-ci il tarixdə Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Suqovuşan istiqamətində mövqelərimizi ələ keçirmək məqsədilə artilleriya atəşindən istifadə edərək hücuma keçməyə cəhd göstərir. Azərbaycan ordusu əks hücuma keçərək işğal altında olan torpaqlarımızın azad olması uğrunda daha bir əməliyyatı həyata keçirir. Döyüşlər zamanı səhər Elşən Nuruzadə şəhid olur. Bir gün sonra Göyçayın 9 – cu şəhid övladı son mənzilə yola salınaraq böyük izdihamla Göyçay şəhərindəki Şəhidlər xiyabanında torpağa tapşırılır. Dəfn mərasimində Rayon İcra Hakimiyyətinin başçısı, hüquq-mühafizə orqanlarının rəhbərləri, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Göyçay Rayon Şöbəsi və rayon ictimaiyyəti, gənclər iştirak edirlər. Göyçay rayon icra hakimiyyəti başçısı şəhidin ailələsinə başsağlığı verir və səbr diləyir.

Allah rəhmət eləsin, şəhidim! Amin!

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Elşən Nuruzadə ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edilmişdir.

***



## 20.XƏYYAM HÜSEYNOV (11.07.1996 – 28.09.2020)

İyirmi dörd yaşında fani dünyaya gözlərini yumaraq əbədiyyətə qovuşan Xəyyam Hüseyn oğlu Hüseynov 11 iyul 1996-cı ildə Göyçay rayonunun Məlikkənd kəndində anadan olmuşdur. 2002-ci ildə həmin kəndin Sakit Salahov adına tam orta məktəbin 1-ci sinifinə daxil olmuşdur. Məktəbdə oxuduğu illərdə tədbirlərdə fəal iştirak edən, fərqlənən şagirdlərdən olan Xəyyam 2013-cü ildə orta məktəbi bitirmiş, 2014-2015-ci illərdə Beyləqandakı 181 saylı hərbi hissəsində xidmət etmişdir. 2018-2020-ci illərdə Bakı şəhərində "Azərsu" şirkətində işləmiş, 21 sentyabr 2020-ci ildə səfərbərliyə alınaraq hərbi xidmətə cəlb olunmuş, Azərbaycan Silahlı Qüvvələrinin quru qoşunlarında xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Xəyyam Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində ilk günündə döyüşə atılımışdır..

Sentyabrın 28 də Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Ağdam istiqamətində mövqelərimizi ələ keçirmək məqsədilə artilleriya atəşindən istifadə edərək hücuma keçməyə cəhd göstərməsi nəticəsində əks hücuma keçən Azərbaycan ordusu işğal altında olan torpaqlarımızın azad olması uğrunda əməliyyat keçirmiş, döyüşlər zamanı Hüseynov Xəyyam Hüseyn oğlu şəhid olmuşdur. Şəhid əsgər bir gün sonra böyük izdihamla doğulduğu Məlikkənd kəndində torpağa tapşırılmışdır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirən Xəyyam Hüseynov Azərbaycan Prezidenti İlham Əliyevin - 15.12.2020-ci il tarixli Sərəncamına əsasən ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

Vətən müharibəsində canından keçərək şəhidlik zirvəsinə ucalan Xəyyam Hüseynovun həyatı maraqlı məqamlarla zəngindir. Orta məktəbi əla və yaxşı qiymətlərlə oxuyan Xəyyamın uşaqlıq illəri ailəsi və dostları tərəfindən xoş anlarla xatırlanır. Dostları onun haqqında mərd insan kimi söhbət açırlar.

Xəyyam Hüseynov orta təhsilini bitirdikdən sonra ali məktəbə, müəllimlik ixtisasına qəbul olunub, lakin özünü bu sahədə görmədiyindən qərarını dəyişib. Hərbi xidmətə yollanan Xəyyam "N" saylı hərbi hissədə düşmənlə üzbəüz dayanır, çətin anlarla üzləşir. Lakin buna baxmayaraq çətinliklərə sinə gərir, nümunəvi hərbi xidmətə görə təltif və təşəkkürnamə alır, beləcə, əsgərliyini uğurla başa vurur.

O, hərbi xidmətdən sonra yenidən doğma yurduna, ailəsinin yanına dönür. Xəyyam incəsənətə böyük maraq göstərir, rejissor olmaq istəyir. Lakin ermənilərin cəbhədəki təxribatları, Vətən müharibəsi onun arzularını arxa plana atmasına səbəb olur. Ailə üzvləri bildirir ki, Xəyyam hələ müharibədən əvvəl Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Göyçay rayon şöbəsinə gedərək, adını könüllülər siyahısına yazdırır, cəbhəyə getmək istədiyini deyir. Nəhayət arzusuna çatır - sentyabrın 20-də yenidən hərbi xidmətə çağırılır.

Ön cəbhədə Vətənin müdafiəsinə qalxan Xəyyam ailə üzvlərini unutmur, daim doğmaları ilə telefonla əlaqə saxlayır. O, sanki şəhidlik zirvəsinə ucalacağını duymuşdu. Sentyabrın 26-da atası ilə son dəfə telefonla danışan Xəyyam ondan halallıq istəyib və iki arzusunun yerinə yetirilməsini diləyib. Bunlardan birincisi bacısının

övladına öz adının verilməsi, ikincisi isə şeirlərinin kitab şəklində çap edilməsi idi.

Az sonra Ağdərə istiqamətində gərgin döyüşlərə qatılan Xəyyam ilk döyüş tapşırığını uğurla yerinə yetirir. Lakin ikinci tapşırığa gedəndə ağır yaralanaraq şəhid olur.

Qırx dörd günlük Vətən müharibəsi Azərbaycan ordusunun, Xəyyam və onun kimi mərd oğullarımızın sayəsində qələbə ilə nəticələndi.

***

Xəyyam çox istedadlı bir gənc idi. O, oxuculara təqdim olunmayan 100-lərlə şeirin müəllifidir. Sizi həm şəhid, həm də şair Xəyyam Hüseynin şeir yaradıcılığıyla da tanış etməyi özümüzə borc bildik. Allah rəhmət eləsin. Amin!

## ANAM MƏNSİZ QALSIN, BACIM QARDAŞSIZ..

İstərəm mən ölüm bu torpaq üçün,
Siz hələ bir az da səbr edin, dözün.
Anam mənsiz qalsın, bacım qardaşsız,
Sonra da deyin ki, vətən sağ olsun.

Əgər yuyuruqsa qanı qan ilə
Arxamca rəhmət də diləməyin heç.
Mən ki, öz borcumu, özüm verirəm,
Ağlayıb göz yaşı tökməyində heç.

Adıma şeirlər, nəğmə yazmayın,
Ruhumu ovutmaz beş-altı kəlmə.
Qırın zəncirləri, keçin sərhəddi,
Ən böyük rəhmət də bu olar, məncə!

## ŞUŞA

Sən bir göz dağısan qeyrətini satanlara,

Şirin bir röyasan, oyanmayıb yatanlara,
Ən böyük cavabsan günahlara batanlara,
Bağışla ay Şuşa, bağışla bizi.
Bəs hanı bu elin ər oğulları,
Babəki, Nəbisi, nər oğulları,
Mübariz ruhuna tən oğulları
Bağışla ay Şuşa, bağışla bizi.

Nə səsim yetişir, nə ünüm sənə,
Yasını saxlamaq yaraşmır bizə.
Birləşə bilmirik səbr eylə hələ,
Bağışla ay Şuşa, bağışla bizi.

Düz verə bilmədik biz qiymətini,
Qaytara bilmirik əldən gedəni
Nə desən haqlısan, gəl öldür bizi
Bağışla ay Şuşa, bağışla bizi.

## ANA

Yenə ad günümdü, yenə də sənsiz
Oturub sakitcə qeyd edirik biz
Ürəyim bom-boşdur, süfrəmiz dolu,
Yaman darıxıram, ay ana sənsiz
İndi oğlun qocalır sənin yerinə,
Dən düşür saçına, qara telinə.
Nə qədər getsəm də qəbrin üstünə
Yaman darıxıram, ay ana, sənsiz.
Sənsiz neçə bahar, neçə qış ötdü.
Yaman darıxıram səninçün, ana!
Yoxluğun qəddimi, belimi bükdü,
Yaman darıxıram səninçün, ana!

Çoxdur saçıma tumar çəkənlər,
Mənimlə ağlayıb, mənlə gülənlər.
Tapılmır anamı əvəz edənlər
Yaman darıxıram səninçün, ana.
20 ildir ki, yoxsan, dözürəm,
Heç ürəkdən danışmıram, gülmürəm.
Görən niyə mən özüm də ölmürəm?
Yaman darıxıram səninçün, ana!

## TORPAQ DA QOYNUNA GÖTÜRMƏZ SƏNİ

Uyma bu dünyanın cah-cəlalına
Var-dövlət, şan-şöhrət böyütməz səni.
Batma özündən də böyük günaha,
Torpaqda qoynuna götürməz səni.
Düz demə əyriyə yansa da dilin,
Mərdin dayağı ol, namərdə düyün.
Ucalmaq vaxt alıb çəksə də illər,
Bir anda baş verir yerlərə enmək.
Nəzər et yaxşıya, nəzər et pisə,
Hər zirvə gözünə dağ görünməsin.
Şir olub əzəldən meşənin şahı,
Tülkü hiyləsiylə heç öyünməsin.
Doğul kişi kimi, öl kişi kimi,
Qoy səni yıxmasın gərdişi-dövran.
Sözün də dəyəri qalmayıb  daha,
Şairlik eyləyir yerindən duran.

## DƏRBƏND, TƏBRİZ

Kəsib doğradılar yüz illər boyu,
Bu torpaq qan ilə yuyulub, Allah!
Sorğusuz, sualsız  nə qədər qılınc,
Günahsız başlara vurulub, Allah!
Bu gün inildəyir hər dağı, daşı,
Hələ də torpaqdan qan iyi gəlir.

Sağalmaz min illər keçsə də belə,
Bu dərd ürəyimi, bağrımı dəlir.
Kor oldu haqq görən gözlər də onda,
Dillər danışmadı, yazmadı əllər.
Tarix ləkələndi, tarix pozuldu,
O gündən bu günə qalmadı izlər.
Dünyaya yayıldı hay-haray səsi,
Eşidən olmadı, duyan olmadı.
Dərbənd yetim qaldı, Təbriz ağladı,
Bir dəfə könlünü alan olmadı.
İlahi! Hardadır bəs qisas günü?
Qoy yerdə qalmasın tökülən qanlar.
Bu vətən yolunda, torpaq yolunda,
Ölməyə hazırdı hələ oğullar,
Ölməyə hazırdı hələ oğullar!

## ƏZİLƏN DÜNYA

Çox mərdin kürəyin qoymusan yerə,
Namərdə, nadana güvənən dünya.
Yoxsulun, fağırın haqqını yeyib,
Zəngin qabağında əyilən dünya.

Şər-böhtan olubdur işin, peşən də,
Düşmənlə dost oldun işin düşəndə,
Yaltağın yanında hörmət güdəndə,
Özünü bir pulluq eləyən dünya.

Sənin sığalın da ağrıdar başı,
Qəfildən gözümdən axıdar yaşı,
Üzbəüz qoyaraq dostu, qardaşı,
Özü bir kənara çəkilən dünya.

Xəyyamın dilini kəssələr belə,
Yazıb yaradacaq qələmin hələ,
Özünə bu qədər güvənmə belə,

Ayaqlar altında əzilən dünya,
Ayaqlar altında əzilən dünya!

***



## 21.KƏNAN QAFAROV (06.08.1996 – 07.10.2020)

Azərbaycan Silahlı Qüvvələri Quru Qoşunlarının əsgəri (müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu), Vətən müharibəsinin şəhidi Kənan Siyaqif oğlu Qafarov 1996-cı il - avqustun 6-da Göyçay rayonunun Yalman kəndində anadan olmuşdur.

Kənan 2004-cü ildə Yalman kənd tam orta məktəbinə qəbul olunaraq 2015-cü ildə həmin məktəbi bitirmişdir. Kənan sinifin əlaçısı idi. Gözəl rəsmlər çəkirdi. Təəssüf ki, onun əl işlərini, çəkdiyi şəkilləri bu səhifədə yerləşdirmək imkanımız olmadı.

Kənan 6 iyul 2015-ci ildə Göyçay SHXCDX tərəfindən həqiqi hərbi xidmətə çağrılmış, 11 iyul 2016-cı il tarixədək 181 nömrəli hərbi hissədə xidmət etmişdir. 2016-cı ilin iyul ayında xidmətinin davam etmək üçün 052 nömrəli hərbi hissəyə 3 aylıq kursa göndərilmişdir. 2017-ci ilin yanvar ayından 073 nömrəli hərbi hissədə xidmət etmişdir. Azərbaycan Respublikası Prezidentinin adından Azərbaycan Respublikası Müdafiyə nazirinin 0143 t N- li 26 iyun 2018-ci il tarixli əmri ilə Azərbaycan ordusunun 100 illiyi (1918-2018) YUBİLEY medalı ilə təltif olunmuşdur.

Hərbi xidmətdə olan zaman Sumqayıt şəhərinə 6 aylıq hərbi məktəbə kursa göndərilən Kənan rus təhsilli idi, ana dilindən başqa bir neçə dil, hətta erməni dili də bilirdi. Bu dili o kəşfiyyatçı olduğu üçün öyrənmişdi.

Bizə verilən məlumatlardan belə bir nəticə çıxarmaq olur ki, arzuları sonsuz olan Kənan böyük ürək sahibi, insana və sevgiyə

qiymət verən, qohumcanlı, qonaqpərvər, mərd, ailəcanlı, valideyin istəyən oğul, bir vətəndaş olmuşdur.

Ən böyük arzularından biri də sağlam və xoşbəxt ailə, oğul-uşaq sahibi olmaq olan Kənan 2019-cu ilin yayında əmisi qızı ilə nişanlanmış, bir-birlərini dərin məhəbbətlə sevsələr də, əfsus ki, toy edib alilə qurmaq onlara nəsib olmamışdır.

Anası deyir ki, Kənan anaya, bacıya, ümumiyyətlə qadınlara çox dəyər verərdi. Düşünürdü ki, anasını sevməyən, hörmət qoymayan həyat yoldaşına da hörmət qoymaz. Qadına əziyyət verməyi, aşağılamağı bəyənməz, yaşıdlarıyla söhbət gedəndə deyərmiş ki, həyat yoldaşı da bir ananın əziyyətlə boya-başa çatdırdığı övladıdır. Əgər mənə əmanət olunursa, mən də onu əziz tutmalıyam. O həm də sabahın anasıdır. Sevgimizi əsirgəməmələyik ki, sabah o da övladlarına o sevgini verə bilsin.

2020-ci ilin noyabr ayında həyat, ailə, cəmiyyət haqqında fərqli və dərin düşüncəyə sahib olan Kənanın toyu olacaqdı. Hazırlıq işləri gedir, toya dəvət olunacaq adamların siyahısı yazılırdı.

2020-ci il sentyabrın 27-də başlanan müharibə Kənanın toy arzusunun gerçəklənməsini sual altında qoydu. Valideynlər təşviş içərisində idilər. İlahi, görəsən müharibə haçan bitəcək? Övladımız haçan evinə, ocağına dönəcək? Arzularımız reallaşıb balamız bəy kürsüsünə əyləşəcəkmi? İki gənc, iki sevən ürək bir-birinə qovuşub həsrət bitəcəkmi?.

...Müharibənin başlanması xəbəri Kənanı çox sevindirdi. Vətən uğrunda gedən döyüşlərdə onun da xidməti, izi olacaqdı. Döyüşlər başlanandan sonra ata-anasıyla, nişanlısıyla tez-tez telefonla əlaqə saxlayan Kənan axrıncı zəngdə anasına deyib ki, ana, ola bilsin 3 gün zəng edə bilmədim, narahat olmayın.

Anası deyir ki, o heç vaxt öz işi barədə evdə danışmazdı. Kənan şəhid olandan sonra bildik ki, o kəşfiyyatçı olub.

Kənanın dayısı İsmayılov İslam Aslan oğlu 1993-cü ildə yanvar ayının 13-də 1-ci Qarabağ müharibəsində, Ağdam döyüşlə-

rində qəhrəmancasına şəhid olub. 2-ci Qarabağ müharibəsi başlayandan 2 gün sonra Kənan anasına zəng edib deyib ki, dayım yuxuma girib. Məni kabab yeməyə aparırdı. Anası təşvişə düşür. Deyir, İlahi, özün kömək ol balama. Oğluna da tapşırır ki, dayın bir də yuxuna girsə, acıla onu. Kənan da gülə-gülə anasına deyir ki, ana, sən nə danışırsan? Sənin 3 oğlun var. Birimiz dayımın yoluyla gedib onun intiqamını o alçaqlardan, dığalardan almamalıyıq? Bu şərəfli missiyanı mən yerinə yetirəcəyəm. Qoymaram ana-bacılarımızın, dayım kimi igidlərimizin qanı yerdə qalsın. Bu Kənanın anasıyla danışdığı son söhbəti olur.

Ana deyir ki, o söhbətdən 3 gün sonra Kənanın şəhid olması xəbərini eşitdik. Öyrəndik ki, Kənan döyüşdə yaralanıb, lakin geri çəkilməyib. Yaralı halda düşmənin üzərinə gedib və əllərilə onu boğaraq məhv edib. Komandiri və döyüşçü yoldaşları Kənan haqqında çox gözəl fikirlər söyləyirdilər. Komandiri atasına deyib ki, biz Kənanla fəxr edirik.

Çox vətənpərvər gənc olan, bir çox döyüşlərdə fəal iştirak edən Kənan Füzuli uğrunda gedən döyüşlərin birində, oktyabr ayının 5-dən 6-na keçən gecə qəhrəmancasına şəhid olur.

Kənan Siyaqif oğlu Qafarov tək bir ailənin, bir evin itkisi olmadı. O cür igid oğullar evdən getmir, eldən gedir.

Valideyinin neçə övladı olur olsun, hər birinin öz xüsusi yeri və sevgisi olur. Kənan da ailədə xüsusi yeri olan, yeri görünən övlad idi. Çox həssas, ürəyi yumşaq bir övlad olub. Heç vaxt düşünməyib ki, mənim 2 qardaşım da var. Qoy valideynlərimin qayğısına onlar qalsın. Valideynləri qarşısında olan oğulluq borcunu canla-başla yerinə yetirən, hər addımında ata-anasını düşünən, onları başıaşağı edən heç bir iş görməyən Kənan mömin insan idi. İmanlı bir şəxs olaraq oruc tutur, namaz qılırdı.

Kənanın anası Şəfaqət xanım deyir ki, 1-ci Qarabağ müharibəsindən sonra qardaşım İsmayılov İslamın şəkilləriylə danışır, dərdləşir, ağlayırdım. Qismət elə gətirdi ki, 2-ci Qarabağ müharibəsi

başladı və mən artıq neçə aylardır ki, oğlum Kənanın şəkillərilə danışıb, dərdləşirəm. 1-ci Qarabağ müharibəsində şəhid bacısı, 2-ci Qarabağ müharibəsində isə şəhid anası oldum.

Valideynlərinə, xüsusilə anasına çox bağlı olan Kənanın döyüşçü dostunun qolları üstündə can verərkən dediyi son sözləri bunlar olub: "Qardaş, səndən bir xahişim var. Mənim şəhid olma xəbərimi valideynlərimə qəfil xəbər etməyin. Anam xəstədir, atam infarkt keçirib. Əvvəl əmim oğluna deyin evə təcili yardım maşını çağırsın, özü də valideynlərimin yanında olsun. Sonra onlara xəbər etsin".

Bu, hər övlada, hər oğula xas xarakter deyil. Özü can üstündə ola-ola, bir neçə dəqiqədən sonra gözlərini əbədi olaraq yumacağını bilə-bilə valideynlərini düşünmək, onlara qayğı göstərmək əsl qeyrət, kişilik nümunəsi deyilmi?

Kənanın hərbçi dostları da onun vaxtsız itkisinə sarsılır, göz yaşları tökürlər. Kənanın valideynlərinə deyirlər ki, biz döyüş yoldaşımızı yox, canımızdan bir parçanı itirmişik.

Hərbçi dostlarından birinin ağlaya-ağlaya dediklərini Şəfaqət xanım bizə ürək ağrısı ilə söylədi: "Dostu deyir ki, bir gün təlimdə idik. Yüksək bir dağa çıxırdıq. Çox güclü qar yağırdı. Mən eynəyimi itirdim. Mənə eynəksiz o yüksəkliyə çıxmaq çox çətin olardı. Kənan eynəyini çıxarıb mənə verdi. Mən sonra bildim ki, Kənan da eynəksiz ayağının altını görmürmüş. Hər dəqiqə, hər an zirvədən uçuruma yuvarlanmaq təhlükəsi var imiş. Buna baxmayaraq dedi ki, mən qarşı tərəfi görürəm, sən tax eynəyi".

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsinin fəal iştirakçısı Kənan Qafarov oktyabrın 8-də Göyçay rayonu Yalman kənd qəbirstanlığında dəfn olunmuşdur. Məkanın cənnət olsun, Kənan! Amin!

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi

üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Kənan Qafarov ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edilmişdir.

***



## 22.ABDULCƏMİL BİLALOV (09.01.1997 – 20.11.2020)

Azərbaycan Ordusunun əsgəri olan Abdulcəmil Bilalov Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə vuruşub. Abdulcəmil Bilalov noyabrın 1-də Tərtər rayonunda, Ağdərə istiqamətində gedən dyüşlərdə şəhid olub. Göyçay rayonunun Ləkiçıplaq kəndində dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən o, ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edilmişdir.

Abdulcəmil Xaqani oğlu Bilalov 9 yanvar 1997-ci ildə Göyçay rayonunun iri yaşayış məntəqələrindən olan Ləkiçıplaq kəndində dünyaya gəlmişdir. 2003-cü ildə kənddəki 1 N-li orta məktəbin I sinfinə qəbul olunmuş, 1914-cü ildə orta təhsilini tamamlamışdır.

Həqiqi hərbi xidmətini N saylı hissənin sülhməramlı hissəsində şərəflə yerinə yetirmiş, ordudan tərxis edildikdən sonra 1918-ci ildə ailə qurmuşdur.

II Qarabağ savaşı başlanan ərəfədə, sentyabrın 21-də səfərbərlik idarəsinə çağırılmış, bir neçə ay qabaq keçirtdiyi avtomobil qəzasında aldığı zədələr tam sağalmadığından onu hərbi xitmətə aparmaq istəməsələr də, etiraz etmiş, könüllü olaraq orduya, təlim-toplanış məntəqələrinin birinə göndərilməsini israr etmişdir. Onu inandından döndərə bilməyəcəklərini yəqinləşdirən rəsmilər arzusuna əməl etmiş və beləliklə, Abdulcəmilin əsgəri həyatının ikinci dövrü başlanmışdır.

Onun valideynlərinə, həyat yoldaşına, dostlarına göndərdiyi səs yazılarını həyacənsız dinləmək olmur. Təəccüblənirik ki, doğması, yaxın əqrəbası olsaq da, bu böyük ürək sahibi olan, dərin zəkalı, mərd və məğrur gənci yaxşı tanımamaışıq. Vətən müharibəsinin ilk günündən döyüşə atılan, məşhur Soqovuşan savaşına qədər şərəfli döyüş yolu keçən Abdulcəmilin ailə üzvləri ilə son telefon danışığı oktyabrın 15-də günorta radələrində olmuş, bundan sonra onunla əlaqə kəsilmişdir. Yoldaşlarının dediyinə görə, ayın 15-də axşamtərəfi baş vermiş döyüşdə qolundan yaralansa da döyüşü davam etdirmiş, yaralı ola-ola ayın 17-də Suqovuşan uğrunda gedən döyüşlərdə iştirak etmiş, sözün əsl mənasında əsgəri rəşadət göstərmişdir. Əsgər yoldaşları deyir ki, Abdulcəmil düşmənləri öldürdükcə sayırmış. Şəhadət şərbətini içənə qədər 11 ermənini məhv etməyi bacarmışdı.

17 oktyabrda döyüşdən qayıdarkən əsgər yoldaşı bir az sürətli getməklərini təklif edərkən, Abdulcəmil: “Sən get , mən yorulmuşam, asta-asta gəlirəm” deyir. Yoldaşı bir az uzaqlaşanda Abdulcəmilin yaxınlığına mərmi düşur və o ağır yaralanır. Döyüş meydanını tərk edə bilməyən Abdulcəmil şəhid olur və nəşi neytral zonada qalır. Səhər nəşi neytral zonadan götürülən əsgərin kimliyini müəyyən etmək mümkün olmadığından onun nəşi naməlum əsgər nəşi kimi morqa göndərilir. Bu döyüşdə Azərbaycan ordusundan

heç kəs əsir düşmədiyindən və komandanlıq onun şəhid olmasını dəqiq bilmədiyindən adını itkin düşənlərin sihahısına salır.

Abdulcəmildən xəbər tuta bilməyən ailə ümid edir ki, o, ön gərgədə xüsusi təyinatlılarla birgə vuruşduğundan əlaqə saxlamaq imkanı yoxdur. Əsgər dostları da ailəni arxayın salırlar ki, onu ön cəbhədə görüblər, sağ-salamtdır, sadəcə rabitə olmadığlndan əlaqə saxlaya bilmir. Bu xəbərə sevinən ailə qurban kəsib əsəgərlərə göndərir. Bir neçə gündən sonra səbri tükənən ailə üzvləri sövq-təbii hiss edirlər ki, onun başında nə isə bir iş var, yoxsa arada bu qədər fasilə yaranmazdı. Valideynlər xəstəxanaları, morqları axtarsalar da nəticəsi olmur. Abdulcəmilin nə qaldısı, nə də öldüsündən bir xəbər çıxmır. Nəhayət, noyabrın 19-da DNT testi ilə Abdülcəmilin nəşini tapmaq mümkün olur. Şəhid olümündən 35 gün sonra uğrunda canını verdiyi vətən torpağna tapşırılır.

***

Abdulcəmil ailənin 3-cü övladı olub. Doğularkən anası: "Onu vətən üçün dünyaya gətirmişəm" deyib. Abdulcəmil səfərbərliyə gedəndən sonra anası həmişə bu sözləri deyərmiş: "Vətən üçün böyüdəcəm dediyim oğlumu Vətənə də qurban verdim."

Abdulcəmil xislətilə yaşıdlarından seçilən fəal, qamətli və xoşsima bir gənc idi. Üzündən nur tökülürdü. Oxuduğu məktəbdə müəllimlərinin və sinif yoldaşlarının sevimlisi olmuşdu. Futbolu çox sevirdi. Boş vaxtlarında məhəllədə uşaqlarla iki komanda olub, futbol oynayardılar.

Abdulcəmil təqvalı, imanlı, Quran oxuyan, oruc tutub namaz qılan bir insan idi. Mən onun yas mərasimində iştirak etmişdim. Şəklini böyüdüb otağın yuxarı başına qoymuşdular. Şəkil o qədər canlı idi ki, elə bil bu dəqiqə adamla danışacaqdı. Şəkildə də hamıya xoş bir təbəssümlə baxırdı. Sanki demək istəyirdi ki, istədiyim şəhidlik zirvəsini fəth etdim. Məndən nigaran qalmayın.

Məclisə gələnlər deyirdilər ki, Abdulcəmil, biz sənin oxuduğun “Yasin”in səsindən rahatlaşırdıq. İndi kim bizimçün o avazla “Yasın” oxuyacaq.

Abdulcəmilin çöhrəsində bir nur, inam işığı var idi. Zövqlə geyinməyi sevirdi. Bir tədbirə gedən zaman mütləq özünə təzə bir şey alarmış. Deyirmiş ki, səliqəli geyimdən zövq alıram.

Abdulcəmilgilin çox imanlı bir ailəsi var. Onlar ailəliklə namaz qılır, ibadət edirlər. Qohum, qonşu arasında öz nəzakətli münasibətləriylə hamının hörmətini qazanmışlar.

Atalarda məsəl var: “Qonşun pisdi, köç qutar”. Bunların qonşuları isə onlarla qonşu olduqları üçün özlərini qonşuluq sarıdan xoşbəxt sayırlar.

Məclisdə iştirak edərkən Abdulcəmilin həyat yoldaşı Fətanə xanıma dedim ki, can bala, çox ağır yükün altına girdin, bir az səbirli ol, qaynanana təsəlli ver. Çünki ən dözülməz dərd övlad dərdidir. Onun ağırlığını ancaq yaşayanlar, bu yükü daşıyanlar bilir.



Abdulcəmilin anası Mülayim xanım mənə dedi ki, o səbirlidir. Mənə də elə o səbir verir. Deyir, ana, narahat olma. Gəl biz də onun arzuladığı kimi olaq, yaşayaq, haqq yolundan, imanımızdan dönməyək ki, inşallah axırətdə onunla şad-xürrəm görüşə bilək. Onsuz da bu dünya müvəqqəti, yalan dünyadı. Əsas axirətimiz, əbədi dünyamızdır. Ağlamayaq, ağlamaq nə Allaha, nə də onun ruhuna xoş getməz. Ancaq dua edək. Dua edək ki, biz də o ali zirvəyə qalxa bilək. Əbədi dünyamızda onunla bir olaq.

Düşünürəm ki, nə qədər insani, ali keyfiyyətlər varsa, Allah hamısını o ailəyə bəxş edib. Onlar axirətlərini elə bu dünyada qazanıblar.

Mənə o ailə, Abdulcəmil haqqında məlumatı ailənin böyük gəlini Ramidə xanım vermişdir. Abdulcəmilgil iki qardaş və bir bacıdırlar. Ramidə xanım Abdulcəmilin qardaşı Cavanşirin həyat yoldaşıdır. Abdulcəmilin anası deyir ki, balamın iyini iki balasından: Ahmedimdən, Mustafamdan alıram. Ahmedin saçı qıvrım olduğundan Abdulcəmil ona “qıvırcığım” deyirdi. Ahmedim atasına çox oxşayır. Abdulcəmil nəslin ən kiçiyidir.

Rəhmətlik qaynatam nəvələrinin içində ən çox Abdulcəmili istəyirdi. Balam hamının sevimlisi idi. Onu təzə qohumlar da, yoldaşının valideynləri çox istəyirdilər. Hərdən Abdulcəmil mənə deyirdi ki, ana, onlar məni bu qədər istəyir, hörmət edir, əzizləyir. Sən bundan qısqanmırsan? Deyirdim ki, yox, əksinə qürur duyuram ki, sən bu az zamanda onların sevgisini qazana bilmisən. Bir ana kimi bu mənə başucalığıdı. Həmişə mehriban, istəkli olasız. Hörməti qazanmaq da çətindir,qoruyub saxlamaq da.

Ailənin böyük gəlini Ramidə xanım mənə düşdüyü ailədən, ocaqdan ağızdolusu xoş sözlər dedi. Dedi ki, mənim qaynanam və qaynatam heç bir zaman iki oğulun, iki gəlinin və nəvələrin arasında fərq qoymayıb. Oğlanları böyüyüb ailə başçısı olmağına baxmayaraq, onların hər zaman əli, nəzarəti üstümüzdə olub. Çox fədakar valideynlərdir. Abdulcəmil ali təhsil ala bilməmişdi. O, atası ilə birlikdə öz şəxsi dükanlarını işlədirdi. Atası Abdulcəmildən də, onun

işindən də çox razı idi. O, heç vaxt böyük üzünə qayıtmazdı. Hətta hardasa bir səhv söz işlətsən də dözümlülük göstərərdi. Abdulcəmil düşünürdü ki, ləyaqəti və əxlaqi olmayanın aqıbəti, aqıbəti və imanı olmayanın axirəti olmaz və bunların hər biri şəxsi mənafe ilə deyil, ictimai münasibətlərlə bağlıdır.

Abdulcəmil ailəsinə, böyüklərinə bağlı övlad idi, valideynlərini könlünün sultanı hesab edirdi. Fikirləşirdi ki, valideynlərinə qarşı çıxsa, Allaha qarşı çıxmış olar, Allahın qəzəbinə gələr. İndiki zamanda, yaşadığımız bu 21-ci əsrdə o cür düşünən övladlar (fərqi yoxdur qız, ya oğul) barmaqla sayılacaq qədərdir. Böyüklər demiş: ona görə də dünya dağılır.

Abdulcəmil öz əxlaqı, işıqlı fikirləri, davranışıyla gənclərə bir örnək, nümunə idi.

Abdulcəmil dini bilgilərini artırmaq üçün Türkiyədə, Ukraynada, Gürcüstanda oxumuş, sistemli dini təhsil almışdı.

**Atasının dilindən:** Oğlum keçirdiyi qəzadan beyin travması almışdı. Onu müharibəyə aparmırdılar. O, özü məcbur edib ki, mən getməliyəm. O, vətənini, bayrağını, millətini sevən oğul idi, vətəndaş idi. Bu da onun barız nümunəsi. Getməməsi üçün əlində əsas ola-ola, o getdi. Allah hər kəsə oğul payı verə bilər. Amma bu düşüncə də, bu qəlbdə oğulu hər ataya nəsib etməz. Müharibəyə getmək üçün oğullara düşünən beyin, odlu ürək lazımdır. O da mənim Abdulcəmilimdə var idi. Oğlum öz şəhadəti ilə mənim də adımı ucaltdı. Mən artıq şəhid atasıyam. Oğlumla fəxr edirəm. O bu günə kimi tək mənim oğlum idi. Bu gündən sonra, artıq o həm də elin oğludur.

Abdulcəmilgil böyük nəsildirlər. Hörmətli dayıları, əmiləri, imanlı xalaları, bibiləri var. Onların hər biri deyir ki, Abdulcəmil dəyərli və əvəzsiz oğul idi. O, bizimçün uşaq idi. Amma hər məclisdə onun yeri görünürdü. Ağzın açıb danışanda adam onun dini biliyinə, mütaliəsinə heyran qalırdı. Həyatdı, hərdən bir hadisə olurdu, çevrədəki insanlar onu bilərəkdən, bilməyərəkdən kiməsə ün-

vanlayırdılar. O isə ancaq bir şey deyərdi: "Allah izn verməsə, ağacdan bir yarpaq belə düşə bilməz. Mərd Allahdan görər, namərd bəndədən" .

Abdulcəmilin Bakı şəhərində sayılıb-seçilən bir dayısı var: Tofiq Mikayılov. Onlar dayı-bala bir-birilərini çox istəyirdilər. Tofiq müəllim bacılarını və onun balalarını həmişə öz balaları kimi istəyib, əzizləyib, hər işlərində bir yaxşı dayı kimi həyat yoldaşı Rasimə müəllimə ilə bir yerdə yanlarında olub. Cəsarətlə deyə bilərəm ki, o bu nəsilə, bacı-qardaşlara çox ləyaqətlə ağsaqqalıq etməyi bacarıb.

Tofiq müəllimin həyat yoldaşı Rasimə müəllimə mənim xalam qızı olduğuna görə, mən onların hər kəsin, xüsusilə ehtiyacı olanların yanında olmalarının canlı şahidiyəm. Xalam qızına, çəkinmədən "sən el anasısan" deyirəm.

Abdulcəmil hərbi xidmətini Bakıda keçirib. Dayısı Tofiq müəllim Abdulcəmilin etiraz etməyinə baxmayaraq, 20 gündən bir, ayda 1 dəfə gedib ona baş çəkərmiş, yoxlayarmış, gedə bilməyəndə belə zəng edib maraqlanarmış ki, görək necədir, nəyə ehtiyacı var? Bir dəfə Abdulcəmildən soruşur ki, əsgərliyin necə keçir, əziyyət çəkmirsən ki? Abdulcəmil cavabında deyir ki, ay dayı, belə əsgərlik olar? Bura uşaq bağçasıdır, sanatoriyadır. Əsgər səngərdə olar, döyüşdə olar. Əgər bir erməni dığası öldürmədinsə, anasını ağlar qoymadınsa, atasına od vurmadınsa, ayağını boğazına qoyaraq son nəfəsinədək "torpaqlar sizindir, biz oğruyuq, quldurduq, adam yox, həşəratıq" sözlərini dillərindən eşitmədinsə, nə əsgərlikdən, nə xidmətdən söz gedə bilər. Dayı, inan Allaha, mən Bakıya düşdüyümçün çox təəssüflənirəm. Heyif burda keçirtdiyim günlərə, aylara. Belə bir əsgərlik öz-özünü aldatmaqdır, plan yerinə yetirməkdir. İnanıram ki, tezliklə müharibə olacaq, bu qaçılmazdı. Mən də o müharibədə önə kecəcəyəm və şəhid olacağam. Mənim fikrimcə, şəhidlik yaşamaqdır. Mən şəhid olduqdan sonra, əbədi yaşayacağam.

O çox səbirli, mətanətli oğul idi. Deyirdi ki, səbirli insan Allahın əziz bəndəsidir. O, müharibəyə getmək istəyərkən ona deyənlər olub ki, sənin problemin var, sən getməməlisən. Odun-alovun içərisidir. İki körpə balan var. Biri 1 yaş 3 aylıq, o biri 3 aylıq. Bəlkə, getməyəsən. Müharibədi, hər şey ola bilər. O da deyib ki, Vətənini sevən anasından da keçər, balasından da. Mən hər şeyə hazıram. Allah nə məsləhət görsə, o da olacaq. Əgər məni şəhidliyə layiq bilsə, nə xoş. Şükür onun böyüklüyünə. Fikrimcə, bu əqidədə, bu məsləkdə ancaq anadan gəlmə döyüşçülər ola bilər,.

Baş əyirəm ruhun qarşısında, şəhidim!

***

Ən mükəmməl insan qadın, uşaqlarına nümunə ola biləcək anadır. Abdulcəmilin anası Mülayim xanım da nümunəvi, fədakar, imanlı bir anadır. Deyərdim ki, nümunəvi ana özü bir böyük məktəbdir. Ata çox zaman çöldə-bayırda olur, bəzən gunlərlə, aylarla evdə olmur. Ataları daha çox ailənin dolanışığı maraqlandırır, narahat edir. Analar isə, hətta işləsə belə yenə özünə müqəddəs borc bilir ki, hər gün uşağının tərbiyəsi üçün ona zaman ayırsın. Həyatda da taleyin ən ağır yükünü hər zaman qadınlar, analar daşıyıb. Mülayim xanım 3 övlad anası olub. Uşaqlar ayaq tutub, dil açandan ananı namaz qılan, ibadət edən görüb. Uşaqlar belə mühitdə, belə bir sağlam ailədə tərbiyə alıb, böyüyüb. Ailənin sağlam olmasında, təbii ki, kökün, əsil-nəcabətin də rolu danılmazdır.

**Anasının dilindən:** Mən dərk edirəm ki, hər şeyi edən Allahdır. Övladı verən də, alan da Allahdır. Alın yazısı, qismət deyiləm bir şey var. Deməli, oğlumun ömür payı bu qədər imiş. Oğlum keçirtdiyi qəzada da ölə bilərdi. Tok da vurub öldürə bilərdi. Allah mənim oğlumu istəyib ki, onu şəhidlik zirvəsinə qaldırıb, arzusuna çatdırıb. İtki ağırdı, ayrılıq çətindi, bir təssəllim var: Oğlum şəhid olub. Şəhidlər isə ölməzdir.

Məkanın cənnət olsun, şəhidim!

**Qeyd:** Şəkildə Abdulcəmilin övladları Ahmed və Mustafa

***



## 23.AZAD KƏRİMLİ
## (06.02.1997 – 14.10.2020)

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsiin şəhidi Azad Elşad oğlu Kərimli 1997-ci il fevralın 6-da Göyçay rayonunun Yenikənd kəndində anadan olmuşdur. Kasıb, sadə, amma sevgi dolu bir ailədə böyümüşdür. 9-cu sinfi bitirdikdən sonra sənəd-lərini texnikuma vermiş, istədiyi ixtisas üzrə qəbul olunmuşdu. Zəmanənin üzü qara olsun. Anası deyir ki, pullu, ödənişli şöbəyə düşdüyü üçün onu oxutdurmağa maddi imkanımız olmadı. O, orta təhsilə davam edərək orta məktəbi bitirdi və 2015-ci il həqiqi hərbi xidmətə çağırıldı. Hərbi xidmətini Qusarda keçirdi. 2016-cı il aprel döyüşlərinin iştirakçısı oldu. Tovuz döyüşləri başlayarkən gedib könüllü yazılmaq istədi. İcazə vermədim. Atası ürək əməlyyatından təzə çıxmışdı. Evin bütün maddi və fiziki yükü onun üstündə idi. 2020-ci il sentyabrın 27-də müharibə başladı. Mənim Azadım çətin durumda olmağımıza baxmayaraq, könüllü cəbhəyə yollandı. O vətənini, torpağını özündən, valideynlərindən üstün tutdu. Dedi ki, vətən dardadır, köməyə getməliyəm. Vaxt, imkan tapan kimi zəng edib 1-ci atasıyla maraqlanırdı. Deyirdi ki, dərmanlarını almısınız-mı, içirtmisinizmi? Özünüzü darıxdırmayın, inşallah tezliklə müha-ribə bizim qələbəmizlə sona çatar. Mən də evimizə gəlib, sizə kömək edərəm.

Azadın gözəl xasiyyəti var idi. Böyükdən kiçiyə hamıya hör-mət qoyardı, qəlb sındırmazdı. O, istiqanlı idi. Hamıya qaynayıb-qarışırdı. Qarşılıq gözləmədən yardım etməyi xoşlayırdı, Futbolu

çox sevirdi. Namaz qılmağa hazırlaşırdı. Deyirdi ki, Allahın bizə verdiklərinin qarşısında istədiyi namaz və orucdur. Onu hər kəs etməli, bu borcu qaytarmağa çalışmalıdır. Onun pis vərdişləri yox idi. Son dəfə oktyabrın 12-də qardaşına zəng edib atasını qardaşına tapşırdı. Bir daha səsi gəlmədi. Azadım ayın 14-də şəhid oldu.

Biz 1 ay Azadı axtardıq. Şəhid olduqdan sonra onun instaqram səhifəsinə baxdıq. Paylaşdığı vidoların birində yazmışdı ki, mən şəhid olacağam. Bu mənimçün böyük fəxrdir.

İnsan bu qədər vətəninə bağlı olarmı? O, tamam başqa uşaq idi. Həyətə düşə bilmirik. Həyətin hər yerində onun əl izi var. Hara baxırıq onu görürük. Kənd camaatı onu çox əziz tutur. Hər gün onun qəbri üstə gedib ziyarət edirlər. Azadın məzarı stadionla üzbəüzdür. Orada futbol oynayan uşaqlar bir dəqiqəlik sükutla onu yad edirlər.

Kəndimizin iki şəhidi var. İkisi də 2-ci Qarabağ müharibəsinin şəhididir. Biri Azər Elnur oğlu Əliyev, biri də mənim Azadım. Hər ikisini öz oğlum hesab edirəm. Bütün şəhidlər mənim övladlarımdır. Onlar da mənim balam kimi bir amal, bir məqsəd uğrunda şəhid oldular. Hər biri ana-bacılarının qanını, qisasını şərəfsiz ermənilərdən aldı. Valideyn üçün övlad itkisi çox ağırdı. Yeganə təsəllimiz odur ki, balalarımız namus, qeyrət üstündə şəhid oldu. Balam, Azadım, oktyabrın 14-ü Tərtər, Ağdərə istiqamətlərində gedən döyüşlərin birində qəhrəmancasına şəhadətə qovuşdu...

Uzun sürən axtarışdan, çətinlikdən sonra Azad Kərimlinin nəşi doğulduğu Yenikənd kəndinə gətirilərək ailəsinə təhvil verildi və noyabrın 17-də doğulduğu kəndə böyük izdihamla torpağa tapşırıldı. Allah rəhmət eləsin! Amin!

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Azad Kərimli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

Allah rəhmət eləsin!

***



**24.RƏHİM HƏMİDOV**
**(09.02.1997 – 29.09.2020)**

Qəhrmanlıq tariximizin şanlı və qürurverici səhifələrindən olan II Qarabağ savaşında igidlik göstərib şəhidlik zirvəsinə ucalan, nigaran ruhu Vətən göylərində dolaşan qəhrəmanlarımızdan biri də Rəhim Həmidovdur. Rəhim Ehtiram oğlu Həmidov 1997-ci il fevral ayının 9-da Göyçay rayonun iri yaşayış məntəqələrindən biri olan Qaraxıdır kəndində anadan olmuşdur. Rəhim 2003-cü ildə Qaraxıdır kənd orta məktəbinin 1-ci sinfinə qəbul olunmuş, 2013-cü ildə orta təhsilini başa vurmuşdur. Bir il istehsalatda çalışıb özünün və xəstə anasının maddi problemlərini qismən yoluna qoyduqdan sonra 2014-cü ildə İsmayıllı Texnoloji Kollecinin turizm fakültəsinə qəbul olunmuş, 2015-ci ilin yazında həqiqi hərbi xidmətə çağırılmışdır. 2016-cı ilin oktyabr ayında il yarımlıq hərbi xidmətini başa vurduqdan sonra oxuduğu kollecə qayıdaraq təhsilinə davam etmiş, 2018-ci ildə nümunəvi tələbə kimi təhsilini başa vurmuşdur. Uşaqlıq illərindən başlayaraq həyatın sərt üzünü görən, çətinlikləri öz fərasəti və məqsədyönlü fəaliyyəti ilə aradan qaldırmağı bacaran Rəhim orta ixtisas təhsilinin qarşısına qoyduğu tələblər üçün yetərli olmadığını düşünərək ali təhsil almaq üçün cəhd etmiş və cəmi bir il sonra “Odlar Yurdu” Universitetinin turizm fakültəsinə qəbul olunmuş, təhsilini orada davam etdirməyə başlamışdır.

2020-ci ildə səfərbərliklə əlaqədar olaraq hərbi xidmətə çağırılan Rəhim Lənkəran şəhərində hərbi andiçmə mərasimindən sonra Ağcabədi rayonunun Hindarxı kəndində yerləşən 702 N-li hərbi hissəyə ezam olunmuşdur. Bir neçə gündən sonra isə onun yerini 877 N-li hərbi hissəyə dəyişiblər. Sentyabrın 29-da ilk döyüşə girib. Həmin gün ailə üzvləri ilə əlaqə saxlasa da, sonrakı günlərdə əlaqə kəsilib. Müdafiə Nazirliyinə edilən müraciətə cavab olaraq bildiriblər ki, Rəhimgilin hərbi hissəsi irəlidə döyüşdüyündən onunla telefon əlaqəsi saxlamaq hələ ki, mümkün deyil. Bir neçə gündən sonra isə bildiriblər ki, Rəhim itkin düşüb. Atası Ehtiram özü vaxtilə sərhəd qoşunlarında xidmət edib Tərtərin Qaziyan, Qaradağlı kəndlərində döyüşdüyündən və orduda tanış zabitləri olduğundan onların vasitəsi ilə oğlunu axtarmaq qərarına gəlir. Övladından heç bir ümidverici xəbər ala bilməyən ata, dostlarının tövsiyəsi ilə Füzulidə DNT testi verir. Üstündən 18 gün keçsə də bir xəbər çıxmır. Ata məcbur olub ikinci dəfə analiz verir və analizin nəticələrini aidiyyəti orqanlara təqdim edir. Müdafiə nazirliyinə, hərbi komissarlığa, polis idarəsinə edilən saysız-hesabsız müraciətlərdən sonra, nəhayət, xəbər gəlir ki, Rəhim şəhid olub və testlərin nəticəsində cəsədi müəyyənləşdirilib. Müharibənin bitməsindən 20 gün sonra, yəni noyabrın 30-da Füzulu uğrunda döyüşlərdə şəhid olan Rəhim Göyçay rayonuna gətirilərək Mırtı kəndində torpağa tapşırılr. Beləcə, 24 yaşlı bir gəncin cismani ömür yoluna nöqtə qoyulur....

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Rəhim Həmidov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

Allah rəhmət eləsin!

***

**Rəhimin uşaqlıq və gənclik illəri haqqında öyrənə bildiklərimizdən:**

İki qardaş olublar – Rəhim və Umud. Anaları Məlahət xanım ağır xəstə olduğundan ataları Gülnaz adlı bir qadınla da ailə qurmuşdur. Gülnazın övladı olmadığından o, mehrini bu uşaqlara salmış, onları öz övladları kimi böyütməyə çalşmışdır.

Rəhimin atası deyir ki, o, uşaqlığından zəhmətə meyilli və inadkar idi. Soyuq payız günlərinin birində həyətdə işləyir, bağ-bağçanı səliqəyə salmaqla məşğul idim. Bir də gördüm Rəhim yanımdadır. Onda 4-5 yaşı olardı. Dedim ki, bala, evə get, sənə soyuq olar, mən də işimi qurtarıb gəlirəm. O isə cavabında: “Yox, ata, sənə kömək etmək istəyirəm. Sən tək işləməyəcəksən ki?”- deyə inad edib getmədi. Mənim: “Sən hələ uşaqsan, böyüyəndə kömək edərsən”,- sözlərmə belə cavab verdi: “Mən böyümüşəm, yekə kişiyəm. Sən nə istəsən gedib gətirəcəyəm”. Beləcə, inad edib evə getmədi və gücü çatan işləri görüb məni də can-başla işləməyə həvəsləndirdi. Rəhim inad, zəhmətkeş uşaq olmaqla yanaşı, həm də qağıkeş idi. Xəstə anası və böyük qardaşından qayğsını, köməkliyini əsirgəməzdi. Bir az qapalı uşaq idi. Küçədə, bayırda boş-bekar gəzməkdən, müxtəlif oyunlardan, demək olar ki, gen dolanardı. Dərslərini yaxşı oxuyardı. Qarşısına məqsəd qoymuşdu ki, oxuyub ali təhsil alsın, elinə, obasına gərəkli bir vətəndaş olsun. Heç kəsdən kömək ummaz, çalışardı ki, özü öz ayaqları üzərində durmağı bacarsın. Anası çarəsiz xəstəliyə tutulmuş, sağalmasına ümid yox idi. Ona görə də istəyirdi ki, Rəhimi tez nişanlayıb toyunu görsün. Rəhim isə ipə-sapa yatmır və deyirdi: “Ana, səni nə qədər istəsəm də, sözünü yerə salmalı olacağam. Əvvəla, sən xəstə, mən də işsiz bir adam. Hələ evlənmək vaxtım deyil. Məqsədim var. Bütün səy və gücümü toplayıb oxuyub bir peşə sahibi olmalı, həyatımı təmin etməyi bacarmalıyam. Allahdan ümid kəsilməz. Səni müalicə etdirməliyəm. İnşallah sağalarsan. Həyatımız nizama düşər və o zaman elçi gedib məni nişanlayar, toyumu da edərsən”. Təəssüf ki, bu arzuya çatmaq nə Rəhimin dünyadan cavan köçmüş anasına, nə də özünə qismət olmadı.

**Rəhimin atasının söylədikləri:** Nə edim? Həyatım kino lenti kimi gözlərimin önündən keçir. Əlim heç nəyə çatmır. Rəhimin

şəhid olma xəbərinin dəqiqliyini biləndən sonra, sanki belim qırılib. Onsuz da xəstə olan ürəyimə çalın-çarpaz, sağalmaz dağ çəkilib:

Əzizim gülənmirəm,
Bülbültək gülənmirəm.
Gəl gör nə günə düşdüm,
Mən sənsiz gülənmirəm.

***

**Analığı Gülnaz xanımın dediklərindən:** Mən onlara gəlin gələndə Rəhim də, Umud da azyaşlı idilər. Onları yoldaşımın övladları kimi yox, Allahın mənə verdiyi şirin pay kimi qəbul etdim. Öz övladım olmasa da, meylimi onlara saldım, övladsızlıq dərdimi onlalra ovutdum. Anaları çarəsiz xəstə olduğuna görə, çalışdım ki, evdə mümkün qədər ögey-doğmalıq hiss olunmasın, evin söz-söhdəti kənara çıxmasın. Qayınatama minnətdaram ki, ağsaqqal məsləhəti, maddi və mənəvi dəstəyi ilə hər zaman yanımızda oldu...

Rəhim yaşıdlarından ağlına və fərasətinə görə fərqlənən sağlam düşüncəli uşaq idi. Hər kəsin yerini bilər, oturuşuna-duruşuna fikir verər, ürəyində sınıqlıq olsa da, mümkün qədər büruzə verməz, ailəmizin əmin-amanlıq şəraitində yaşaması üçün bacardığını edərdi. Onun gələcəyi haqqında böyük arzularımız və planlarımız var idi. Hər bir uğuruna doğma anası qədər sevinər, təbii ki, o da sevgisini və hörmətini məndən əsirgəməzdi. İnanın ki, anası qədər mən də onun toyunu arzulayırdım.

Təəssüf ! Sən saydığını say, gör fələk nə sayır! Demə, bizim yaraşıqlı balamızın ömrü yarıda qırılacaq, ona toy-düyün qismət olmayacaqmış.

Əzizim gecə, gündüz,
Gün gələ gecə-gündüz.
Günlərim gəlməz oldu,
Gözlədim gecə-gündüz.

Rəhimdən xəbər çıxana kimi dəli-divanə olmuşduq. Müharibənin getdiyi günlərə birtəhər səbr edib dözmək olurdu. Müharibə qurtarıb, balamızın nə qaldısından, nə öldüsündən bir xəbər yoxdur. Müraciətlərimiz heç bir nəticə vermir və dünyamız alt-üst olub. Allaha yalvarırıq ki, əsir düşməsin. Yaralı olsun, amma sağ-salamat qayıdıb gəlsin. Anasının ruhunu və bizi sevindirsin. Nəhayət, noyabrın 29-da xəbər gəldi: Rəhim Vətən uğrunda döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur...

Ümidlə gözlədiyimiz sorağ ümidsizliklə nəticələndi. Noyabrın 30-da balamızı əllərimizlə torpağa verdik. Cismi ana torpağa, ruhu anasınıa qovuşan şəhid balamızdan bizə bircə o təsəlli qaldı ki, Vətən uğrunda şəhid olmaqla əbədiyyətə qovuşdu. Çünki şəhidlər ölməz, onlar həmişə diridirlər....

***

**Qardaşı Umudun dediklərindən:** Yaşda Rəhimdən böyük olsam da, başda o məndən böyük idi. Çalışqan, zirək, bir az da inadkarlığı var idi. Qarşısına qoyduğu məqsədə çatmaq üçün rahatlığın nə olduğunu bilməz, gecəsini-gündüzünə qatardı ki, istəyinə nail olsun. Anamız onun üçün əvəzolunmaz bir varlıq idi. Fikri-zikri o idi ki, anamız hansı yolla olursa-olsun yenidən sağlamlığını bərpa etsin. Çox vətənpərvər və qeyrətli gənc idi. Gələcək ümidlərim, demək olar ki, ona bağlı idi. Romantik xarakterə malik qardaşım şeir də yazar, amma hamıdan gizli saxlayardı. Bilirdim ki, gözaltısı var. Kimliyini təxmin etsəm də, adını bilmirdim. İstədiyinin adını Rəhim özü ilə əbədiyyətə apardı. Texnikum qurtarmış, ali təhsil alırdı. Anamızı itirəndən sonra meylimi ona salmış, dünyadan vaxtsız gedən nakam, əzabkeş anamızın ətrini ondan alırdım. Ali məktəbdə oxuduğu üçün səfərbərlikdən imtina edə bilərdi, lakin “Vətən çağırır”, - deyə könüllü olaraq cəbhəyə yollandı. Hərbi xidmətdə olmuş, nümunəvi əsgər olaraq ordudan tərxis olunmuş, hərb elminin sirlərinə bələd idi. Görünür, yazısı belə yazılıbmış. Yoxluğu ilə belimi qırdı, onunla bağlı arzularımı puç, taleyimi alt-üst elədi. Özü Haqq dərgahında

şəhidlik zirvəsinə ucaldı, məni isə "Qardaş dağı" deyilən bir atəşin içində saxladı.

Rəhimə çox güvənirdim. Düşnürdüm ki, bir-birimizə dəstək, həyan olar, analı günlərimizi xatırlayar, xoşbəxtliyin nə qədər şirin bir nemət olduğunu biz də taleyimizdə hiss edəcəyik. Düşünürdüm ki, anamızın məzarını birlikdə ziyarət edər, bizi bir yerdə, qoşa görən anamızın da göylərdə pərvaz edən ruhu dincələcək.

Rəhimsiz qalmaq mənə çox çətindir. O, anamın yadigarı, mənə tapşırdığı əmanət idi. Qismət, alın yazısı qarşısında çox acizik. Mən həm anasız, həm də qardaşsız qaldım. Deyirlər ki, çarəsiz xəstəliklə dünyasını dəyişənlər də şəhid sayılır. Anam da şəhiddir, balalarını ev-eşik sahibi etməyə ömrü vəfa etməyən şəhid. Təsəllim odur ki, anamla qardaşım haqq dünyasında bir yerdədirlər, bir-birlərinə həyan olurlar.

Allah məkanlarını cənnət eləsin.

***

Biz də Umudun sözlərinə qoşuluruq. Rahat uyu, şəhid balamız! Vətən torpaqlarını azad görmək sənə qismət olmasa da, ruhuna qismət oldu. Vətən göylərini azad şəkildə dolanan ruhun qarşısında baş əyir, sənə uca Allahdan rəhmətlər diləyirik.

***



## 25.QÜDRƏT ƏZİZOV
## (19.07.1997 – 09.11.2020)

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, şəhid Qüdrət Bəhruz oğlu Əzizov 19 iyun 1997-cildə Göyçay rayonunun Bığır kəndində anadan olmuşdur. Ailədə üç övlad olublar. Qüdrət, qardaşı Şəmral, bacısı Ayna. Qüdrət 2003-cü ildə Bığır kənd 3 N-li tam orta məktəbin 1-ci sinfinə qəbul olunmuş, həmin məktəbi 2014-cü ildə bitirmişdir.
Uşaqlıqdan zəhmətlə böyüyən Qüdrət çalışqan, zəhmətsevər, ailəsinə, valideynlərinə bağlı bir övlad olub. Bizə verilən məlumatlara görə Qüdrət ailədə, qohum əqrəba içərisində hər kəsin sevimlisi olan ürəyi kövrək, xeyirxah bir gənc idi. Kimsədən əlindən gələn yaxşılığı, yardımı əsirgəməz, xarakterilə, sözübütövlüyüylə, ünsiyyətcil olmağıyla seçilirdi.

Öz zəhmətilə, çalışqanlığı ilə yüksəlməyi arzulayan Qüdrətdən müəllim kollektivi ağız dolusu danışaraq onun necə ağıllı, tərbiyəli, uzaqgörən bir şagird, gənc olduğunu qeyd edirlər. Deyirlər ki, onun idmana, hərb sənətinə böyük marağı var idi. Gələcəkdə Azərbaycan bayrağını xarici ölkələrdə də yüksəldən bir idmançı olmaq arzusuyla yaşayırdı. Döyüşkən xarakterli və ədalətli idi. Sözü üzə deməyi, haqqını tələb etməyi bacarırdı. Heç kimdən asılı olmağı xoşlamırdı. Valideynlərinə dəstək olmağı özünün ən başlıca vəzifəsi hesab edirdi. Düşünürdü ki, hər zaman Allaha, bir də valideynlərinə borcludur.

Uşaq yaşlarından döyüşkən xisləti ilə seçilən Qüdrət taxtadan avtomat düzəldərək döyüş səhnələri olan oyunlar qurar, deyərmiş ki, erməni dığalarını, düşmənlərimizi öz silahımla öldürəcəyəm.

***

Uşaqlıqdan eşitdiyi və gördüyü erməni haqsızlılarına, həyasızlıqlarına qarşı onun içində kin-küdurət, nifrət vardı. Qüdrət 2014-cü ildə həqiqi hərbi xidmətə çağrılaraq əsgər getmiş, Bakı yaxınlığındkı Piriküşkül qəsəbəsindəki N saylı hərbi hissədə xidmət etmişdir. Qüdrət hərbi hissədə manqa komandiri olmuşdur. Qüdrət hər yerdə özünə hörmət qazanmağı bacarırdı. Orada da özünə dostlar qazanmışdı. Əsgərliyi tərifnamə ilə bitirərək fəxri fərman və təşəkkürnamə almışdı. O, 2016-cı ilin yanvar ayında hərbi xidmətini başa vuraraq alnıaçıq, üzüağ evlərinə qayıtdı. Qüdrət evə qayıdan zaman kiçik qardaşı Şəmral hərbi xidmətə, vətəni qorumağa getdi. Valideynlər oğullarının birini qarşıladı, o birini yola saldı. Qüdrət nişanlı idi. Gözəl bir məclisi, nişanı olmuşdu. Yaxın aylarda toyu olacaqdı. Arzulara qənim kəsilən karantın rejiminə görə toy təxirə salınmışdı. Sentyabrın 28-də evə çağırış gəlir. Ailənin hər iki oğlunu şəfərbərliyə çağırırlar. Böyük qardaş Qüdrət qabağa duraraq cəbhəyə mən gedəcəm dedi, -sən valideynlərimizin yanında qal, onlara dəstək ol.

Kiçik qardaş Şəmral isə “qardaş, sən nişanlısan, getmə”, -deyərək yalvarırdı. Qüdrət burada böyüklük edərək qardaşını getməyə qoymadı. Oktyabrın 29-da hərbi biletini götürərək evdən çıxdı. Yola düşərkən valideynlərinə və bacı-qardaşına üzünü tutaraq dedi: “Şəhid olsam, ağlamayın”. Sanki Qüdrətin ürəyinə dammışdı. Qüdrət cəbhəyə gedən gündən ailədə heç kəsin üzü gülmürdü. Onunçun hər kəs narahat idi. O cəbhədə də özünü qabağa atdı, öndə getdi. Amma ailəsi, valideynləri narahat olmasın deyə onlara deyirmiş ki, ön cəbhədə deyil, arxa cəbhədə xidmət göstərir. O, hər dəfə evə zəng edəndə deyərmiş ki, özünüzə yaxşı baxın, məndən narahat olmayın. Anası deyirmiş ki, bala, sən sarıdan çox narahatam, yuxum ərşə çəkilib. Dəli-divanəyəm. O isə: “Narahat olma, ana, şəhidlik hər kəsə

qismət olmur. O gözəl məqama çatmaq üçün Allahın sevimli bəndəsi olmalısan. Bir də ki, ana, bir gerçəyi qəbul edin. Müharibə itkisiz olmaz. Müharibə qurban tələb edir. Hər ana üçün övlad şirindi, əvəzsizdi. Hər valideyn oğlunu evində gizlətsə, getməsin, qoymaram, - desə, bəs bu torpaqları o alçaqlardan, şərəfsizlərdən kim alacaq? Vicdanı rahat olmaqdan böyük xoşbəxtlik varmı? Mən şəhid olsam da, "üf" demərəm. Bilərəm ki, anamı, bacımı, vətənimi, torpağımı qorudum, şəhid oldum. İnsan torpaqları almaq üçün, şəhid olmaq üçün, hər şeydən keçməlidir".

Qüdrət Füzuli, Qubadlı, Cəbrayıl, Zəngilan və Şuşanın işğaldan azad olunmasında fəal iştirak etdi. Onun son döyüşü Şuşa ərazisində oldu. Noyabrın 8-də döyüşçü yoldaşları ilə Şuşanı işğaldan azad edən qəhrəmanımız noyabrın 9-da düşmən gülləsinə tuş gələrək şəhidlik məqamına ucaldı.

Qüdrət Əzizov sonuncu dəfə noyabrın 2-də valideynləri ilə telefonla danışıb, onlara narahat olmamağı, hər şeyin yaxşı olacağını, tezliklə qələbə qazanaraq evə qayıdacağını deyib.

Şəhidin atası Bəhruz Əzizov oğlunun Vətən uğrunda şəhid olmasından qürur duyduğunu bildirir. Ata oğlunun döyüş dostlarının Qüdrət haqqında, onun yaxşı xasiyyəti, döyüş bacarığı, qəhrəmanlığı barədə danışdığı xoş sözləri eşidəndə böyük fərəh hissi keçirdiyini deyir: "Oğlum noyabrın 2-də mənimlə danışdı, dedi ki, Şuşanın işğaldan azad olunması üçün döyüşürük. Sonrakı 8 gün ondan xəbər olmadı, hərbçi yoldaşları bizə zəng edib məlumat verən zaman Qüdrətin Şuşa ərazisindəki döyüşlərdə şəhid olduğunu öyrəndik. O, çox gözəl övlad olub. Hər kəsə onun kimi vətənpərvər oğul arzu edərdim. Qüdrət bizim hamımızın qüruru, şərəf və ləyaqət yeridir. Qüdrət minomyot atan idi. Komandiri deyir ki, oğlum Şuşa uğrunda gedən döyüşlərdə avtomatla açıq döyüşə çıxmaq üçün komandirindən xahiş edib və şəhidlərimizin qisasını alaraq özü də şəhid olub".

***



Qüdrət dünyasını dəyişəndən sonra ailənin qız övladı, çarəsiz xəstəlikdən əziyyət çəkən Ayna qardaşının ölüm xəbərini eşidir və bu acı xəbər onun həyatını alt-üst edir. Çox keçmir ki, o vəfat edir. Beləliklə, ailənin iki gənc övladının ölümü onların dünyalarını dağıdır və ailənin əzablı günləri başlanır.

Bizimlə telefon söhbətində səsində qəhər və nisgil duyulan Qüdrətin atasının simasında xəyalımda gah Qüdrətin, gah Aynanın başdaşını qucaqlayan kədərli bir ata obrazı canlanır. Ata məğrur dayanmağa çalışsa da, ağır zərbələr – iki cavan övlad itkisi, hesab edirəm ki, onun qəddini əyib.

Allah səbir versin.

**Qeyd:** Şəkildə Qüdrət Əzizov bacısı Ayna ilə

***

Qüdrət Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda 27 sentyabr 2020-ci il tarixindən başlayan Vətən müharibəsinə 29 sentyabrda könüllü olaraq qoşulmuş, Cəbrayıl, Füzuli, Qubadlı, Xocavənd istiqamətində gedən döyüşlərdə şücaət göstərmişdir. Noyabrın 9-da, 23 yaşınada Şuşada şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Qüdrət Əzizov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

Allah rəhmət eləsin!

***



**26.İNTİQAM ŞİRƏLİYEV (03.11.1997 – 29.09.2020)**

İntiqam Bəxtiyar oğlu Şirəliyev 1997-ci il noyabrın 3-də Göyçay rayonunun Potu kəndində dünyaya gəlmişdir. Azərbaycan Silahlı Qüvvələri Quru qoşunlarının baş əsgəri (müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu) olmuşdur. İntiqam Şirəliyev Milli ordmuz tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir.

Sentyabrın 29 da Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Kəlbəcər istiqamətində mövqelərimizi ələ keçirmək məqsədilə artilleriya atəşindən istifadə edərək hücuma keçməyə cəhd göstərməsi nəticəsində əks hücuma keçən Azərbaycan ordusu işğal altında olan torpaqlarımızın azad olması uğrunda əməliyyat keçirmiş, həmin döyüşdə İntiqam Şirəliyev şəhid olmuşdur. Şəhid bir gün sonra böyük izdihamla doğulduğu Potu kəndində torpağa tapşırılmışdır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün o, Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edilmişdir.

***

**İntiqam Şirəliyevin anasının dediklərindən:** Oğlum hərbçi idi. Deyirdi ki, ana, hamınızın başını uca edəcəyəm. İşindən və Ali baş komandan İlham Əliyevdən razılıq edirdi. Ailənin maddi təminatı onun üzərində idi. Mən xəstəyəm və o məni öz pulu ilə müalicə etdirirdi. Vətənə çox bağlı oğul idi. Narahatlığı bircə mən tərəfdən idi. Kəlbəcərin Murov dağında şəhid oldu. Arzum budur ki, gedib balamın şəhid olduğu yeri görəm, həmin yerdən bir ovuc torpaq götürüb oğlumun ətrini o torpaqdan alam. Balam şəhadət şərbətini içməklə həm başımı uca elədi, həm də belimi bükərək məni ağlar qoydu. Şəhidlik qürurverici ayrılıq olsa da, bala dərdi ağır, üzücü, çəkilməz dərdir. Analar balalarından doya bilərlərmi? Əsla! Bu mümkün olan bir iş deyil.

**Qeyd:** Efirdə sakit və təmkinlə danışan bu dərdli ananı ürəyim ağrıya-ağrıya dinlədim. Kadrlardan görünürdü ki, ana balasının ziyarətinə sürünə-sürünə, iməkəyə-iməkləyə gedirdi. Ağlamaqdan səsi də batmışdı. Məzar başında durub balasına yalvarırdı ki, oğul, nə olar, ayağa dur, axı sənsiz yaşaya bilmirəm. Bir tərəfdə ana, bir tərəfdə nənə fəryadı göyə bülənd olurdu. Bu səhnədən ürəyim param-parça oldu.

Bax, budur şəhid valideynlərinin keçitdiyi gerçək həyat. Yüz dəfə, min dəfə "balalarımızın şəhid olmasına sevinirik", - desələr də, gerçək həyatda yaşadıqları başqa şeydir. Şəhidlik uca zirvədir, böyük təsəllidir, amma övlad ölümü qəbuledilməzdir...

**Qardaşı Ehtiramın söylədikləri:** Bizim atamız yoxdur, onu vaxtsız itirmişik. Biz 2 qardaş bir-birimizə dayaq və arxa idik. Qardaşımın böyük ürəyi, böyük arzuları vardı. Mənə daima maddi yardım edər, ürək-dirək verərdi ki, darıxma, hər şey yaxşı olacaq. Çox dərrakəli və uzaqgörən, gözütox, hərəkətlərində ölçü-biçi gözləyən adam idi. Ayın 29-da qardaşımın şəhid olması xəbəri gələndə dünyam dağıldı, sinəmə çalın-çarpaz dağ çəkildi, gözümə qaranlıq çökdü.

Özümdən artıq istədiyim, atam hesab etdiyim qardaşımı itirmişəm. Amma nə etmək olar? Qismət, yazı belə imiş. Atam çarəsiz xəstəlikdən dünyasını dəyişdi, qardaşım şəhid oldu. Allah hər ikisinə qəni-qəni rəhmət eləsin.

**Nənəsi Gülşən xanım isə ancaq bu sözləri deyə bildi:** "Ox, balam, ox! Ondan danışa bilmirəm. Kaş öləydim, bu günü görməyəydim".

**Müəllimәsi Sevda xanımin dedikləri:** İntiqam bizim qürur yerimizdir. Biz müəllimlər cəmiyyət üçün vətəndaş və şəxsiyyət yetişdiririk. Mən şagirdlərimi heç vaxt gündəlik dərslərdə aldığı qiymətlərlə dəyərləndirməyə üstünlük verməmişəm. Onları Vətənə qarşı olan sevgilərinə görə qiymətləndirmişəm. İntiqam sakit, səmimi, ictimai işlərdə fəallıq göstərən, dinləməyi bacaran şagirdlərimizdən olub. Müharibə başlanana qədər də biz bilirdik ki, İntiqam müddətdən artıq hərbi xidmətdədir. Ona görə də daima onunla maraqlanır, göndərdiyi videolara baxırdıq. Göndərdiyi videolarda beyirdi ki, müharibədir, hər şey ola bilər, təki vətən sağ olsun.

Onun şəhid olması bizi həm kədərləndirdi, həm də qəhrəman döyüşçü olaraq Vətən torpaqlarının azadlığı uğrunda şəhidlik zirvəsinə qalxması bizi qürurlandırdı.

Nə gizlədim, bəzi insanlar düşünürdülər ki, 30 il işğal altında qalan torpaqlarımız bir daha geri alınmacayaq. Çox şükür ki, İntiqam Şirəliyev kimi igid, cəsur oğullarımızın sayəsində torpaqlarımız mənfur düşmənlərdən təmizləndi və şəhidlərimizin qanı yerdə qalmadı. Yəqin ki, gələcəkdə Kəlbəcər yenidən qurulanda İntiqamın da adı orada əbədiləşdiriləcək.

İntiqam Şirəliyev canını torpaqlarımızın azadlığı uğrunda fəda etdi. Zəfər qələbəmizi görməsə də onun ruhu şaddır.

**Qeyd:** İntiqam Şirəliyev haqqında məlumatı "Asel TV"-dən əldə edə bildim. Dəfələrlə zəng etməyimə baxmayaraq, anası və qardaşı ilə əlaqə yarada bilmədim.

Allahdan şəhidə rəhmət, valideynlərinə səbir diləyirəm.

***



**27. RÜSTƏM MƏMMƏDOV**
**(1998 – 29.09.2020)**

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi Rüstəm İbrahim oğlu Məmmədov 1998-ci ilə Yexlax rayonunun Yenicə kəndində anadan olmuşdur. Əsilləri Göyçay rayonunun Yeniarx kəndindəndir. 2005-ci ildə Yexlax rayonunun Aşağı Bucağın tam orta məktəbində 1-ci sinifə daxil olunmuş, 2014-cü ildə doqquzuncu sinfi bitirmişdir. 2014-cü ilin sentyabr ayında Xaldan məktəbinə daxil olan və 2016-cı ildə 11-ci sinfi qutaran Rüstəm hərbi xidmətə çağırılmışdır. Hərbidə olan müddətdə atası xəstə vəziyyətdə Moskvadan gətirilir və Rüstəm bu xəbəri eşidib məzuniyyət götürüb xəstə atasını görməyə gəlir. 10 gündən sonra yenə hərbi xidmətə qayıdır. 2017-ci il avqustun 15-i atası rəhmətə gedir və bütün yük Rüstəmin üzərinə düşür. Həqiqi xidmətini bitirib gəldikdən sonra, min əzab-əziyyətlə, fəhləlik edə-edə ailəni, ana və bacısını saxlayır. Çətinliklə də olsa pul-para qazanaraq bacısı Könülü gəlin köçürür. Ona atasızlığını hiss etdirməməkçün dəridən qabıqdan çıxaraq cer-cehiz verir, onu ev-eşik sahibi edir.

İkinci Vətən müharibəsi başlamazdan 20 gün öncə həyatını yenidən ordu ilə, hərblə bağlayıb, MAXE kimi qulluğa başlayıb,

sentyabrın 27-dən də döyüşlərə atılır…Və qanlı döyüşlərin 3-cü günündə, sentyabrın 29-da Suqovuşan-Ağdərə istiqamətində döyüşlərdə Şəhid olur..Amma uzun müddət onun nəşini götürmək mümkün olmayıb…

Noyabrın 22-də isə Şəhidimizin nəşi Mingəçevirə gətirilərək, Şəhidlər Xiyabanında torpağa tapşırılıb…

Şəhidin bacısı Könül bizə yazır ki, 1-ci Qarabağ müharibəsi başlanmazdan bir neçə ay əvvəl general Polad Həşimov şəhid oldu. Bu hadisədən sonra qardaşım Rüstəm könüllü olaraq hərbi xidmətə yazıldı. Bununla kifayətlənməyərək 8 sentyabr 2020-ci ildə müddətdən artıq hərbi xidmətə girdi. 25 sentyabr 2020-ci ildə gecə saatlarında sinif yoldaşı Natiqə zəng edir və deyir ki, qardaş, mən şəhid olacağam. Anama oğul, bacıma qardaş olarsan. 27 sentyabr 2020-ci ildə müharibə başlayır. O yenə dostuyla danışaraq bu kəlmələri deyir: "Bacımı, anamı ağlamağa qoyma".



28 sentyabr 2020-ci ildə yeznəsinə yəni, bacısının yoldaşına zəng edir və deyir ki, narahat olmayın, yaxşıyam. İmkan olan kimi özüm zəng edəcəyəm. Müharibə başlayarkən döyüş yoldaşına deyib ki, evə getməyə çox tələsirdim. Mən dayı olacağam. Təki o xoşbəxt gün gəlsin, sağlıq olsun, mən dayı olmaq xəbərini eşidim. Elə bilərəm ki, dünyaya yenidən gəlmişəm. Özümü dünyanın xoşbəxti sayaram. Bacımı nə qədər istəyirəm onu bir Allah bilir. O da bacımın bir parçasıdı. Deməli, onu da bacım qədər, bir az da çox istəyəcəm. İlahi! Kaş o xəbəri eşitmək mənə qismət olaydı. Anam nənə, mən isə dayı olardım. Ona sözün əsl mənasında dayılıq edəcəyəm. Ürəyimi istəsə "uf" demədən ona verəcəyəm.

Qardaşımın sonuncu zəngi 28 sentyabr 2020-ci ildə oldu. Qardaşım Suqovuşan uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucaldı. Sağlığında qardaşıma ən böyük arzu hesab etdiyi dayı olmaq qismət olmadı. Anamı oğulsuz, məni qardaşsız, balamı dayısız qoydu. Çox sevdiyi vətəninin, torpağının yolunda şəhid oldu. Ölümüylə ölümsüzlüyə qovuşdu. Min əzab-əziyyətlə böyüyən, uşaqlıq illərini əziyyətlə yaşayan nur üzlü, mələk xislətli, böyük ürəkli qardaşım Allahın məsləhət bildiyi şəhidlik zirvəsinə ucaldı. Qardaşım 22 noyabr 2020-ci ildə Mingəçevir şəhərində Şəhidlər xiyabanında dəfn olunub. Ürəyimin özəyi qardaş! Məkanın cənnət olsun! Amin!

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Rüstəm Məmmədov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

**Qeyd:** Şəkildə Rüstəmin şəhid olmasından sonra dünyaya gələn bacısı qızı İradə.

***



**28.KƏNAN ÖMƏRLİ**
**(08.03.1999 – 06.10.2020)**

Azərbaycan Silahlı Qüvvələri Quru Qoşunlarının əsgəri, Vətən müharibəsinin şəhidi Kənan Elxan oğlu Ömərli 1999-cu il martın 8-də Göyçay rayonu Cəyirli kəndində dünyaya göz açmışdır.

2005-ci ildə Cəyirli kənd ümumi orta məktəbin 1-ci sinifinə qəbul olunmuş, 9-cu sinfi bitirdikdən sonra Göyçay Dövlət İdarəetmə və Texnologiya Kollecinə daxil olmuş, nəqliyyat vasitələrinin texniki istismarı üzrə orta ixtisas təhsili almışdır.

Kənan 2018-ildə həqiqi hərbi xidmətə çağırılmış, cəbhə bölgəsində, N saylı hərbi hissədə xidmətə başlamışdı. Hərbi xidmətdə olarkən nümunəvi xidmətinə görə ata, anasına komandirləri tərəfindən təşəkkürnamələr gələn Kənan orduda qalıb hərbiçi olmaq, gələcəyini hərb sənəti ilə bağlamaq istəsə də, valideynləri razılaşmamış və o, 2020-ci ilin yanvarında tərxis olunaraq doğma kəndinə, valideynlərinin yanına qayıtmışdı

Kənan uşaqlıqdan, orta məktəb illərindən Vətəninə, bayrağına bağlı birisi kimi yaddaşlarda qalıb. Qardaşı deyir ki, 2020-ci il Tovuz hadisələrindən öncə televizorda Mübariz İbrahimov haqqında gedən bir verilişə baxarkən anasını çağırıb: “Ana, bax, mən də belə şəhid olacam”-, demişdi.

Kənanın hərbi xidməti bitirib rayaona qayıtmasınadan 10 ay sonra torpaqlarımızın ancaq müharibə yolu ilə azad edilə biləcəyi dövlət başçısı tərəfindən açıq şəkildə bəyan olundu.

Vətənsevər bir gənc olaraq İkinci Qarabağ müharibsi ərəfəsi zamanı adını könüllü olaraq orduya yazdıran Göyçaylı gənclərdən biri də Kənan oldu. Qardaşı deyir ki, hələ Hərbi Səfərbərlikdən çağırış gəlməmişdən əvvəl o, "Şəhid olacağam", - deyə hamı ilə halallaşır, kimi görürdüsə, halallıq istəyirdi. Kənan səbirsizliklə şağırış vərəqəsini gözləyirdi. Müharibə başlayanda ona çağırış gəlmədiyindən çox əsəbləşirdi. Nəhayət, 29 sentyabr, saat 19.02-də gözlədiyi mesaj gəlib çıxdı. Həmin anı Kənan telefonunda bu cür qeyd etmişdi: "Gözlədiyim an gəldi".

Kənan çağırış mesajını aldığı gün, yəni sentyabr ayının 29-da cəbhəyə yola salınır. Ailə üzvləri ilə xudahafizləşəndə son sözü bu olur: "Şəhid olacağam".

Kənanın əsgərlik həyatının ikinci dövrü cəmi 7 gün çəkdi. O, 21 yaşında, oktyabr ayının 6-da gecə saat 23.00 radələrində Ağdam uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid oldu.

Şəhid Kənan doğulduğu Cəyirli kənd məzarlığında əbədi yuxuya getmişdir. Yuxun şirin, yerin cənnət olsun, şəhid balam!

Ailənin sonbeşiyi olan Kənan 2020-ci ildə Gəncə Texnologiya Universtetinə qəbul olsa da, könüllü olaraq cəbhəyə yollanıb şəhidlik zirvəsinə ucaldığınadan, bir çox arzuları kimi, ali təhsil almaq arzusu da ürəyində qaldı...

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Kənan Ömərli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

Şəhidimzə Allah rəhmət eləsin, Amin!

## TƏLƏS, İGİD ƏSGƏRİM...
## (“Qarabağa dönüş” poemasından)

Dünya özü də bilmir istəyi nədir bizdən,
Otuz il qara duman donubdur üstümüzdə.
Sanki görmür kor gözü Vətənimdir burası,
O millətlər birliyi, bu dövlətlər şurası!

Tələs, igid əsgərim, havalar soyuqlaşır,
Təpələr çallaşmada, bir azdan qış gələcək.
Süleyman Rəhimlidən hər il bir yeni roman,
Adına neçə eldən neçə alqış gələcək.

Qaraoğlu Əlinin qələmində "Qəhrəman",
Zəngəzurdan nə yazsa, millətə xoş gələcək.
Endirib Balayana tərsşapalaq şeirini,
Dilində lətifəsi Eldar Baxış gələcək.

Azıx tarixə giriş - ağız açıb çağırır,
Hər kurqan sirrə pərdə, demə, adi təpədi.
Bu gücüm, bu ilhamım Füzuli yadigarı,
Diri dağlar ucalsın, diriliyi əbədi.

...Bəhmənlə Məmməd Aslan ilhamları tükənməz,
Bir ağız da mən deyim, dedikləri az olsa,
Gözümdə bu dağların hər qayası altundur,
Qızıl nəyimə gərək, insanları qızılsa.

***Sabir Rüstəmxanlı***

***



## 29.MAARİF HƏSƏNOV (19.11.1999 – 12.10.2020)

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi Maarif Rahim oğlu Həsənov 19 noyabr 1999-cu ildə Göyçay rayonunun İkinci Ərəbcəbirli kəndində anadan olmuşdur.

Mənsur İbrahimovun "525-ci qəzet"in 10 dekabr 2020-ci il tarixli sayınada dərc etdirdiyi "Qəhrəman doğulmurlar, qəhrəman olurlar.." yazısını buarada veririk.

"Maarifin ata nənəsi Əzbər xala əslən bizim Bığır kəndindəndir, həm də mənim qohumdur. Ata babası, adını daşıdığı mərhum Maarif əmi isə əslən Şamaxı rayonunun Göylər kəndindən idi. Taleyin qisməti ilə sonradan köçüb Göyçay rayonuna gəlmiş, Əzbər xala ilə ailə həyatı qurmuşdu.

Mən Maarif Həsənovun atası Rahim Həsənovla 1989-1991-ci illərdə keçmiş Sovet ordusunda birgə həqiqi hərbi xidmətdə olmuşuq. Həmin vaxtlar Kostroma şəhərindəki 1928 nömrəli fərdi inşaat-texniki batalyonunda hərbi xidmət edən 12 azərbaycanlının 4-ü Göyçay rayonundan idi - mən, Rahim Həsənov, İlham Həsənov, Həsən Allahyarov. Həmin dövrdə Sovet İttifaqının dağılma prosesi başlamış, millətçilik geniş yayılmışdı. Belə ağır, çətin, mürəkkəb və ziddiyyətli bir dövrdə biz 4 göyçaylı bir-birimizə bacardığımız köməkliyi göstərir, bir-birimizi mümkün qədər qorumağa çalışır, bir tikə çörəyimizi yarı bölürdük. Rahimin anası bığırlı olduğu üçün onunla xüsusi münasibətimiz vardı, çox mehriban idik. Allaha çox şükürlər olsun ki, hamımız sağ-salamat Azərbaycana qayıtdıq və bu gün də yoldaşlıq, dostluq edir, səmimi, mehriban münasibətimizi davam etdiririk.

Rahimin oğlu Maarif bu il sentyabr ayının 29-da qismən səfərbərlik haqqında sərəncama əsasən, Vətən müharibəsinə yollandı. Onu da bildirim ki, Maarif təxminən 7 ay əvvəl həqiqi hərbi xidmətdən qayıtmışdı. Babası, atası, əmiləri kimi ürəkli, cəsarətli bir oğul idi. Oktyabr ayının 12-dən Maarifdən bir xəbər yox idi. Demək olar ki, hər gün atası Rahimlə telefonla əlaqə saxlayır, bütün mümkün vasitələrlə Maarifilə bağlı dəqiq bir məlumat almağa çalışırdıq. Hamımız həyəcan, narahatçılıq, üzüntü içində idik. Nəhayət, düz 35 gündən sonra Maarifin Ağdərə uğrunda gedən döyüşlərdə igidliklə şəhid olması xəbərini aldıq. Öz komandiri ilə şiddətli döyüşdən geri dönərkən gözlənilmədən 7 nəfər erməni əsgəri ilə qarşılaşan Maarif özünü itirmir və əlindəki qumbara ilə 4 ermənini məhv edir. Sağ qalan 3 ermənidən biri Maarifə atəş açır və o, həlak olur. Maarifin komandiri isə qalan 3 ermənini öldürür, özü isə ağır yaralanır. Sonradan hərbi xəstəxanada müalicə olunarkən Maarifin valideynlərinə zəng edərək Maarifin onun həyatını xilas etdiyini bildirir və belə igid, qeyrətli, vətənpərvər oğul böyütdüklərinə görə onlara ürəkdən təşəkkür edir.



Maarif Həsənov Göyçay rayonunda Şəhidlər Xiyabanında dəfn edilib.

Belə bir müdrik deyim var, qəhrəman doğulmurlar, qəhrəman olurlar! Həqiqətən, çox real və ibrətamiz deyimdir. Göyçayın qəhrəman şəhid oğlu Maarif Həsənovun mərd, cəsur və cəsarətli hərəkəti bu müdrik deyimi bir daha təsdiqlədi.Allah sənə və bütün şəhidlərimizə rəhmət eləsin! Uca Yaradandan valideynlərinə, bütün əzizlərinə, yaxınlarına səbir, dözüm diləyirəm!”

**Anası Nəzakət xanımın söylədiklərindən**: Maarif Ərəbcəbirli kəndində anadan olsa da, Göyçay şəhərinin Şəhriyar küçəsində boya-başa çatmışdır. O, Rəsul Rza adına 1 N-li orta məktəbi birirmiş, Göyşay Peşə Liseyində sürücülük peşəsinə yiyələnmiş, sənədini almamış hərbi xidmətə çağırılımış, 1 il yarım orduda xidmət etmişdir. Maarif hərbi xidmətdən tərxis olunub qayıtdıqdan 8 ay sonra İkinci Qarabağ müharibəsi başlanmış və o, könüllü olaraq cəbhəyə yollanıb sentyabr ayının 29-da döyüşlərə qatılmışdır. O, oktyabr ayının 12-də gecə Ağdərə istiqamətində kəşfiyyat qrupu ilə döyüşə girmiş, qəhrəmancasına döyüşərək oktyabrın 13-də şəhidlik zirvəsinə ucalmışdır.

Maarif 4-5 yaşında olanda ondan soruşurdular ki, böyüyəndə nə olacaqsan? O cavab verirdi ki, dayım kimi şəhid olacağam. Maarifin dayısı Zakir Nəcəfov da 1992-ci ildə Birinci Qarabağ döyüşlərində şəhid olmuşdur. Maarif igidliklə döyüşərək dayısının qisasını da ermənilərdən almışdır. Oğlum erməni postunda şəhid olduğu üçün nəşi 1 ay 5 gün neytral zonada qalmış, noyabr ayının 17-də onun nəşi Vətən bayrağına bükülərək Göyçaya gətirilmiş və izdihamla torpağa tapşırılmışdır.

Bizim üçün nə qədər ağır və acı olsa da, biz Maariflə fəxr edir, qürur duyuruq ki, belə qeyrətli və vətənpərvər oğul böyütmüşük.

Maarif şən, həyatsevər, zarafatcıl bir oğul idi. Şirin dili, xoş rəftarı ilə məktəb yoldaşları arasında dərin hörmət qazanan Maarifin sevgi dolu ürəyi və sevdiyi qız vardı.

Maarif üçün bağımızda təzə ev başlatmışdıq. O da balamın ömrü və arzuları kimi yarımçıq qaldı.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!"

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün- Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Maarif Həsənov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

**Qeyd:** Şəkildə şəhid Maarifin körpə qardaşı oğlu əmisinin məzarı başında

***



## 30.FƏRİD NADİROV (21.09.2000 – 09.10.2020)

İkinci Qarabağ müharibəsi şəhidi Fərid İlyas oğlu Nadirov 21 sentyabr 2000-ci ildə Göyçay rayonunun Üngütlü kəndində dünyaya göz açmışdır. Orta təhsilini Göyçay şəhər 1 N-li orta məktəbində almışdır. 9-cu sinfi bitirdikdən sonra Göyçay Dövlət İdarəetmə və Texnologiya kollecinə qəbul olunmuşdur. 2019-cu ilin iyul ayının 3-də həqiqi hərbi xidmətə çağırılmış, Vətən müharibəsi başlanana qədər N saylı hərbi hissədə pulemyotçu olaraq xidmət etmişdir.

27 sentyabr 2020-ci il tarixdə başlayan İkinci Qarabağ müharibəsində torpaqlarımızın tam olaraq dümən tapdağından azad olunması uğrunda gedən döyüşlərin iştirakçısı olmuşdur. Hadrut, Füzuli, Göranboy istiqamətlərindəki döyüşlərdə iştirak etmiş, oktyabrın 13-də Suqovuşan istiqamətində gedən şiddətli döyüşlər zamanı qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalmışdır.

Nəşini müəyyən etmək uzun müddət mümkün olmamış, təxminən 46 gün sonra, yəni noyabrın 28-i şəhidimizin nəşi ailəsinə təhvil verilmişdir. Fərid Nadirov Göyçay Şəhidlər xiyabanında dəfn edilmişdir.

Fərid Nadirov nişanlı idi. Hərbi xidməti tam olaraq bitirdikdən sonra geri qayıdınca toy etmək istəyirdi. Amma onun bu arzusu reallaşmayaraq yarımçıq qaldı.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Fərid Nadirov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

***

Fəridin atası İlyas Şirməmməd oğlu Nadirov oğlunun Vətən torpaqlarının azadlığı uğrunda şəhid olmasından nə qədər qürur duysa da, övlad itkisinin ağırlığına dözməyərək infarkt keçirmiş və bu gün də "Fərid balamın toyu olacaqdı", - deyərək sızıldayır.

**Anası Gülbəniz xanım isə deyir:** "Fərid bizim arxa-dirəyimiz, evimizin, ailəmizin tək oğlu idi. O, hərbi xidməti başa vurandan sonra işləyib ailəmizə dəstək olacaq, öz varlığı ilə bizi yaşadacaqdı. Qismətə, taleyə bir bax ki, biz onu böyüdüb boya-başa çatdırdıq, o isə bizə oğul toyu görmək sevincini yaşada bilmədi. Vətənini, torpağını sevdi, onun yolunda şəhid olaraq vətəninin oğlu oldu. Bizi oğulsuz, bircə bacısını isə qardaşsız qoydu.

Övlad itirmiş anaları gözəl başa düşürəm. Biz yaşamırıq, sadəcə sürünür, balalarımıza qovuşacağımız günü gözləyirik. Kim nə deyir desin, nə danışır danışsın, övlad itkisi ilə barışmaq olmur. Kimsənin, heç bir təsəllinin övlad acısını ovundurmağa, yarasını qaysaqlandırmağa gücü çatmaz. Sadəcə, çarəsizik, bu ömrü yaşamağa məcburuq".

**Bacısı qardaşı haqqında belə deyir:** "Biz əliqabarlı, zəhmətkeş və sadə bir ailədə boya-başa çatmışıq. Bizim Fəridlə bağlı çox böyük arzularımız, sonsuz ümidlərimiz var idi. Kollecdə oxuyur, kolleci bitirdikdən sonra ali təhsil almaq niyyətində idi. Təhsilini bitirməyə az qalmış hərbi xidmətə çağırıldı. Qismətə bax ki, tərxis olunmağına bir neçə ay qalmış 2-ci Qarabağ müharibəsi başlandı. Qardaşım da minlərlə Azərbaycan gənci kimi azğın düşmənlə ölüm-dirim savaşına girərək Vətənin azadlığı uğrunda şirin canından keçdi.

Oktyabrın 13-dən onunla əlaqəmiz kəsildi. Həmin gündən sonra onun ya yaralı, ya da itkin düşməsi barədə fikirləşib sağ olmasını düşünsək də, şəhid olması xəbərini eşidəndən sonra ümidlərimiz puç oldu. Ölümündən 46, müharibənin bitməsindən 18 gün keçəndən sonra toyuna hazırlaşdığımız qardaşımın nəşini Azərbaycan bayrağına bükülmüş halda bizə təhvil verdilər. Atamın, anamın və mənim nələr çəkdiyimi özünüz təsəvvür edin...

Bacı-qardaş çox mehriban idik. Onun ölümünə nə valideynlərim, nə də mən hələ də inana bilmirik. Gözlərimiz yolda, qulaqlarımız səsdə qalıb. Allah belə intizarı, belə həsrəti heç kimə qismət eləməsin!”.

**Dostu Tərlan Pərviz oğlunun Fərid haqqında söylədikləri:** “Nadirov Fərid İlyas oğlu ilə ilk görüşümüz yanvar ayında olmuşdu. Mən restorana işləməyə getmişdim. İlk dəfə olduğundan iş haqqında anlayışım yox idi, çətinlik çəkirdim. Fərid bunu görüb mənə yaxınlaşdı. Adımı soruşdu, tanış olduq. Tanışlıqdan sonra bildik ki, biz ikimiz də eyni kollecdə, Dövlət İdarəetmə və Texnologiya kollecində, ayrı-ayrı qruplarda oxumuşuq. Bu tanışlıq yaxın dostluğa çevrildi. Biz hər gün görüşür, dərdləşir, fikirlərimizi bölüşürdük. Maddi durumla, işsizliklə bağlı haqlı giley-güzarımız olurdu. Gileylənib-gileylənib, sonda da deyirdik ki, pis günün ömrü az olar. Təki sağlıq olsun. Fəridin gözəl xasiyyəti var idi. O bacardığı qədər hər kəsə yardım etmək istəyirdi, dəstək olurdu. O, səmimi dost idi. Bir yerdə bizim çox şirin, yaddaqalan xatirələrimiz, özəl günlərimiz oldu. O qədər bir-birimizə bağlanmışdıq ki, 1-2 gün görüşməyəndə darıxırdıq. Elə bil nəyimizsə çatmır. Fərid həm oxuyur, həm işləyirdi. Ən böyük arzusu atasına köməy etmək idi. Bir gün ona çağırış gəldi. Əsgər gedəcəkdi. Fəridçün qonaqlıq etdilər. Qohum-əqrəba, dost-tanış Fəridlə görüşməyə onlara yığılmışdılar. Fərid əsgər getdiyi üçün sevinirdi. O çox vətənpərvər oğul idi. Qonaqlıqdan 2 gün sonra Fəridi komissarlıqdan yola salmağa getdim. Fərid 2019-cu il iyulun 3-ü hərbi xidmətə yola düşdü. Komissarlığın həyətində Fəridlə qucaqlaşıb ayrılarkən Fərid gülə-gülə üzümə baxaraq dedi:

"Qardaş, inşallah gedim qayıdım, səni hərbi xidmətə. özüm yola salacam".

1 iyul 2021-ci ildə Allahın izni ilə hərbi xidmətə yola düşürəm. Fərid, dostum, qardaşım, gəl məni yola sal. Sən ki, dediyin sözü tutan idin.

Fərid mənə verdiyi sözü yerinə yetirmədi. Amma vətəninin, xalqının igid oğlu kimi vətən borcunu yerinə yetirdi və ən uca zirvəyə, şəhidlik zirvəsinə ucaldı. Rahat uyu, əziz qardaşım. Qanınız yerdə qalmadı".

## MƏNİM ADIM ŞƏHİDDİR

Mənim adım şəhiddir,
Yurdum Vətən torpağı.
Həyatımla qorudum,
Dalğalanan bayrağı.

İçmişəm baldan şirin,
Şəhadətin şərbətin.
Rəbbim mənə bəxş edib,
Şəhidliyin zirvəsin.

Ucaldığım bu məqam,
Cənnət adlı yerimdir.
Anamın ayağının,
Altı mənim evimdir.

Mənim adım şəhiddir,
Torpağımı sevirəm.
Şəhid doğan, ay ana,
Əllərindən öpürəm!

***Könül Həyat***
***Göyçay rayonu***

***



**31. İLHAM HÜSEYNOV**
**(08.09.2000 – 19.10.2020)**

Azərbaycan Silahlı Qüvvələrinin - əsgəri, Vətən müharibəsinin şəhidi, İlham Ümid oğlu Hüseynov 2000-ci il sentyabr 8-də Göyçay rayonunun Qarayazı kəndində anadan olmuşdur. İlham Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində döyüşmüşdür.. İlham Hüseynov oktyabrın 19-da şəhid olmuş, Göyçay rayonunda dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən İlham Hüseynov ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edilmişdir.

Allah rəhmət eləsin!

## ƏDALƏTDİR YOLUMUZ...
**(“Qarabağa dönüş” poemasından)**

...Əsgər asılıb tordan qalxır hörümçək kimi
Sarmaşıb qayalara yazağzı çiçək kimi.
Hər daşda bir kəpənək,
Buz daşları isidən, qəzəbdən yanan ürək...

...Nə qədər sərt olsa da, bu qayalar, bu daşlar
Övladını tanımış, yol verib qaldıracaq.
Duman görünməz edib, bu gecə əsgərlərim
Bir qoyun sürüsünə Qurd kimi saldıracaq.

Boynunu qucaqlayan dostu deyil, qanaddır,
Soyuq payız gecəsi əsgərim yanıb gedir.
Nə sınmaz bir dəyanət, nə sarsılmaz inaddır,
Yaralı dost yük deyil, yenə dırmanıb gedir!..

Üzeyirin "Cəngi"si birdən gəlmişdi dilə,
Xanın, Seyidin ruhu "Heyratı" çaldırırdı.
Şəhid qəhrəmanlarım öz ruh əlləri ilə
Adsız qəhrəmanları Qalaya qaldırırdı!

Dabanına tüpürüb generalı, zabiti,
Tankın, topun üstündən tullanaraq qaçırlar.
Arvad-uşaq qatili dözmür ər döyüşünə,
Tülkü texnikasını qullanaraq qaçırlar.

Ey qoca Azərbaycan! Haqq nazilir, qırılmır,
Sənin Zəfər gününə yazıram yeni dastan.
İki bitməz nəğməsi olmalı bu dastanın
Birincisi Türkiyə, ikincisi Pakistan.

Ədalətdir yolumuz, bunu Allah görürdü,
Ədalətə söykənən verməz namərdlərə can!
Bu namus savaşında, səsimə səs verirdi
Ankaradan Türkiyə, Kəraçidən Pakistan!

Vur, qəhrəman əsgərim, "Xocalı" bağırıb vur,
Yad əllərdə inləyən torpağın xətrinə, vur.
Min-min evim dağılmış, kəndlər qalmış viranə,
Daşları buz bağlamış ocağın yerinə vur.
Köstəbək yuvasında gizlənməkdir əlacı,
Dağıt bu son deşiyi, mərmini dərinə vur!
Ziyarətgah zirvələr gözləyir gözü yolda,
Bu işğalı bitirib, zülmün məhvərinə vur!

***Sabir Rüstəmxanlı***

***



## 32.RÜFƏT MAYILOV (31.01.2001 – 29.09.2020)

Rüfət Bəxtiyar oğlu Mayılov 2001-ci il yanvarın 31-də Göyçay rayonunun Kürdəmiş kəndində dünyaya göz açımışdır. Ailələri 5 nəfərdən ibarət olmuşdur: atası Bəhram, anası Lamiyə, qardaşı Rəvan, bacısı Nəzrin və Rüfət. O, təhsilə 2007-ci ildə Göyçay rayon Kürdəmiş kənd tam orta məktəbində başlamışdır. Məktəb illərində dərsdən qalmaz, tərbiyəsi və ədəb-ərkanı ilə müəllimlərinin hörmətini qazanıbmış. Əl qabiliyyəti ilə seçilər, elektrik işlərinə həvəsi varmış. Evdə xarab olan elektrik avadanlılarını özü təmir edərmiş. Uşaqlıqdan vətənpərvərlik mövzularında kinolara çox həvəslə baxar, taxtadan avtomat hazırlayıb qardaşı Rəvanla oynayarmış.

Rüfət 2018-ci ildə oxuduğu Kürdəmiş kənd orta məktəbini bitirir. 2019-cu ildə Rüfətə çağırış vəsiqəsi gəlir. Ailəsi Rüfəti hərbi xidmətdən saxlamaq istəsələr də, o, razılaşmır. Anasının söylədiyinə görə, atasına deyir ki, əgər məni saxlasan, hərbi komissarlığa gedib orduya könüllü yazılacağam. Rüfət 2019-cu il aprelin 3-də hərbiyə xidmətə yollanır, Pirikügkül qəsəbəsindəki 877-ci hərbi hissədə xidmət edir. Xidmət etdiyi vaxtlarda ailəsi ilə tez-tez əlaqə saxlayır, ailə üzvləri də imkan düşəndə onu yoluxmağa gedirmiş.

Əsgərlikdə nümunəvi əsgər adı qazanan, güləüz, xoşxasiyyət və mehribanlığı ilə seçilən Rüfət idman yarışlarında birinci yerə

çıxarmış. Dəfələrlə “təşəkkürnamə” və “fəxri fərmanla” təltif edilmiş, şərəf lövhəsində şəkli var imiş.

2020-ci il 26 sentyabrda, gecə saatlarında Rüfət ailəsinə zəng edir və atasına deyir ki, ata, sabah bizi döyüş bölgəsinə aparırlar, amma anam bilməsin. Anasıyla da danışır, döyüş bölgəsinə getdiyini ona bildirmir.

27 sentyabr 2020-ci ildə ikici Qarabağ müharibəsi başlayır və Rüfətgilin hərbi hissəsi Füzuli istiqamətində döyüşələrə girir. Sentyabrın 28-də düşmənin artelleriyası ilə bunların hərbi texnikası vurulur. Hərbi maşını tərk edib piyada irəliləyən Rüfət Füzulinin Alxanlı kəndində şəhidlik zirvəsinə ucalır. Sentyabrın 29-da Rüfətin şəhid olduğu xəbəri gəlir.

Sentyabrın 30-da Rüfətin nəşi rayona gətirilərək böyük izdihamla doğulduğu kənd qəbiristanlığında torpağa tapşırılr.

Göyçay informasiya agentliyinin verdiyi xəbərə görə, dəfn mərasimində Rayon İcra Hakimiyyətinin başçısı, hüquq-mühafizə orqanlarının rəhbərləri, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Göyçay Rayon Şöbəsi və rayon ictimaiyyəti iştirak edirlər.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Rüfət Mayılov ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edilmişdir.

Allah rəhmət eləsin!

## SAVAŞ BİTİB?

Qarabağın bağlarında
Xeyli qara tikan bitib.
Hamısını doğramasaq,
Demək olmaz - “Savaş bitib”.

Zirvələr üzə gülməsə,
Bayrağımız yüksəlməsə,
İlan başı əzilməsə,
Demək olmaz - “Savaş bitib”.

Ağırdır qurduğu kələk,
Düşmən tərəfində fələk.
İzlərini kürüməsək,
Demək olmaz “Savaş bitib".

Evlər yıxdı ötən illər,
Erkən soldu açan güllər.
Qisas almasa yetimlər,
Demək olmaz "Savaş bitib".

Düşmən başını əyəndə,
Gic təpəsinə döyəndə,
Bizdən imdad diləyərək,
İlan kimi mələyəndə;
Deyəcəyik - "Savaş bitib!".

***Vahid Əziz***

***



**33.ELNUR ƏLİYEV (10.02.2000- 19.10.2020)**

Azərbaycan ordusunun kiçik çavuşu, Vətən müharibəsinin şəhidi Əliyev Elnur Ərəstun oğlu İkinci Qarabağ müharibəsinin ən gənc Xüsusi Təyinatlı şəhididir. O, 10 fevral 2000-ci ildə Göyçay rayonunun Potu kəndində anadan olmuşdur. Elnur 2005-ci ildə Göyçay rayon Nizami adına 7 nömrəli məktəbin 1 -ci sinifinə daxil olub və 2017-ci ildə tam orta məktəbi bitirmişdir. 2018-ci ildə "FHN" N saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətini yerinə yetirmək üçün hərbi xidmətə başlamışdır. Əsgərliyi fərqlənmə və çavuş rütbəsi ilə bitirdikdən sonra 2020-ci ilin yanvarında Xüsusi təyinatlı qüvvələrin kursunu birinciliklə bitirmişdir. Kursu bitirdikdən sonra həmin ilin may ayında Tərtərdə "MAXE" kimi xidmətə başlamış, Cəlilabad rayonunda çavuş kimi fəaliyyətini davam etdirmişdir. Sentyabrın 27-də İkinci Qarabağ müharibəsində iştirak edərək, Murovdağ, Füzuli və Cəbrayıl istiqamətlərində baş verən döyüşlərdə əsl rəşadət nümunəsi göstərmişdir. Oktyabr ayının 6-da Cəbrayıl döyüşlərində qəhrəmancasına şəhid olmuş, oktyabrın 19-da Göyçay rayonunun Şəhidlər xiyabanında dəfn olunmuşdur. Ali Baş Komandanın sərəncamı ilə Əliyev Elnur ölümündən sonra "Vətən uğrunda" (15.12.2020), "Cəbrayılın alınmasına görə" (24.12.2020) və "Füzulinin alınmasına görə" (25.12.2020) medalları ilə təltif edilmişdir.

***

**Elnurun valideynlərinə məktubu:** Salam, əziz yaxınlarım! Sizə bir az hərbi formaya və silahlara olan marağımdan danışmaq istərdim. Hələ uşaq vaxtlarından hərbi formaya və silaha marağım var idi. Harada hərbi formalı insan görsəm, qürur hissi keçirərdim. Ürəyimdə bir arzum var idi ki, böyüyüb hərbiçi olacağam. İllər keçdi, böyüyüb həddi-büluğa çatdım. On birinci sinifdə oxuyanda hərbi formaya və hərb sənətinə olan marağıma görə sənədlərimi AAHM-ə verdim. Amma bu məktəbə daxil ola bilmədim. Bir az pis oldum. Sonradan fikirləşdim ki, Allah özü belə məsləhət görüb və mən də dolayısı yolla hərbçi olmağı seçdim. Başqa iş sahibi də ola bilərdim, amma ən çox arzusunda olduğum peşəni seçməyi qərara aldım. Əsgərlik vaxtı gəlib çatdı. Evə çağırış vəsiqəsi gələndə sox sevinirdim ki, əynimə ən çox sevdiyim hərbi formanı geyinəcəyəm. Hansı qoşun növü olacaqsa, mənim üçün fərqi yox idi. Əsas o idi ki, arzuma nail olmaq üçün hərbi xidmətə yollanmaq gözəl bir başlanğıc idi. Sevinirdim ki, əynimdə hərbi forma, əlimdə silahla Vətənimin xidmətində olacağam. Uşaqlıqdan silahlara çox marağım var idi. Ən çox tapanca və snayperlə maraqlanırdım. Snayperçi olmaq istəyirdim. Hansı qoşun növündə xidmət edəcəyim məlum olanda pis oldum. FHN-də mülki müdafiə qoşunlarında xidmət edəcəkdim. Məndən başqa hamı sevinirdi ki, silahsız yerdə xidmət edəcəksən, bundan artıq nə istəyirsən?

Biləcəriyə karantinə gəldim. Karantini birtəhər başa vurandan sonra rayonlara bölündük. May ayının on beşiində mənə dedilər ki, on nəfərlə birgə Səngəçalda xidmət edəcəksiniz. Hərbi hissəmizin yerləşdiyi məkandan ayrılmaq istəmirdik. Həm uşaqlara yeni öyrəmiş, həm də xidmət etdiyimiz hərbi hissə yaşıllıq və tərtəmiz şəhərcik idi.

Səngəçala gəldiyimiz beş-on gündə ürəyimiz sıxılırdı. Burda hər tərəf ağacı, yaşıllığı olmayan düzəngah, səhralıq idi. Adamların çoxu yeni olduğu üçün az qalırdım ki, havalanım. Ancaq xidmət etdikcə buraya öyrəşdim. Dərk etdim ki, hərbiçi olmaq elə buradan, belə çətinliklərdən başlayır. Karantində olanda bütün vəzifə

borclarımı öyrəndiyimdən xidmət mənə çox da çətin olmurdu. Tabor, bölük komandirlərimin sevimli əsgəri idim. Mənim haramsa ağrıyanda məni tabor komandirimdən başqa heç kim tibb məntəqəsinə apara bilmirdi, ancaq onun sözünə qulaq asırdım. Aylar keçdi. Mənimlə birgə gələn və fərqlənən əsgərlərdən ikisi ilə məzuniyyətə getdik və on gündən sonra qayıtdıq. Üstündən on beş gün keçməmişdi ki, məni manqa komandiri təyin etdilər. Çox məsuliyyətli iş idi. Çünki hər şeyi biz idarə edirdik. Nə olsa gəlib məndən soruşurdular. İstədiklərimə pillə-pillə nail olur, qürur hissi keçirirdim. Bu yolda mənə özümdə inam və səbir hisslərini aşılamaq lazım idi ki, irəli gedə bilim. Yavaş-yavaş bu hissləri özümdə cəmləşdirdim. Hər şeyi sakit şəkildə yoluna qoymağı öyrəndim.

Biz burda Azərbaycan xalqının təhlükəsiz və qorxusuz yaşamasını təmin edirik. Cəbhədəki əsgər yoldaşlarımız isə hər an əldə silah səngərdə ermənilərin biz tərəfə keçməsinin qarşısını alırlar. Onlarla bizim aramızda elə də fərq yoxdur. Bircə fərqimiz odur ki, onlar silahla xidmət edi, biz isə silahsız. Cəbhədəki əsgər yoldaşlarımız silahla gözəl rəftar edir. Biz isə su çəkmə avadanlıqları, çadırların qurulması, yaralıların qəza yerindən təhlükəsiz əraziyə aparılması, yaralılara ilk tibbi yardımın göstərilməsi və s. işləri görürük.

Mənə bir gün hərbi hissə komandiri sual verdi ki, bu hərbi hissədə qalıb işləmək istəyərsən? Cavab verdim ki, burda deyil, ayrı hərbi hissədə işləyərəm. Soruşdu ki, niyə? Bildirdim ki, uşaqlıqdan dağda silahla xidmət etmək istəmişəm və bu arzuma, inşallah, xidmətimi başa vuran kimi nail olacağam. Ən çox işləmək istədiyim bir yer var: Gədəbəyin Şınıx bölgəsi. Erməni ilə üz-üzə, burun-buruna olmaq, onların aldıqları nəfəsi kəsmək üçün məhz o hərbi hissəni istəyirəm. Hər dəfə televizorda 20 Yanvar, 31 Mart, 26 Fevral kimi soyqırımları görəndə damarlarımda qanım donur. Orada həlak olan şəhidlərimizin və işğal altında qalan rayonlarımızda şəhid olan qardaşlarımın qisasını onlardan almaq istəyirəm və buna gec də olsa nail olacağam. İşğal olunmuş torpaqlarımızda gəzən erməni dığaları

qoy bilsinlər ki, biz türk oğlu olaraq onları öz torpaqlarımızdan çıxararacaq və orada üç rəngli bayrağımızı dalğalandıracağıq. Bundan ötrü qanımı və canımı əsirgəməyəcəm.

Əziz valideynlərim, sizdən çox xahiş edirəm ki, hərəkətlərimə görə məni bağışlayasınız. Əgər şəhid olsam, əziz anam, oğul deyib ağlama ki, düşmənlərimiz sevinməsin. Sən daha da fəxr et ki, sənin oğlunun məzarının üstündə üçrəngli bayraq dalğalanır. Nəvələrinə dayılarının necə igidcəsinə torpaqlarımızın alınmasından ötrü canından keçdiyini danış. Mən şəhid oldum deyə pis olma. Sevin ki, torpaqlarımızı ermənilərdən almağa nail ola bilmişik. Şəhid olmaq ən böyük zirvənin başında olmaq deməkdir. Mənim bu hərəkətlərimə görə sizdən məni bağışlamağınızı və mənim bu yolda getməyimə mane olmamağınızı xahiş edirəm.

***Sizin oğlunuz: Elnur Ərəstun oğlu Əliyev***

21.01.2019-cu il

***

**Anasının dediklərindən:** Elnur dünyaya gələndə 40 yaşım var idi. Bacıları hamıdan çox sevinirdilər. Bir müddət sonra səhətində böyük problemlər olduğu bilindi. 6 il rayonun və Bakının müxtəlif xəstəxanalarında müalicələrdə olduq. Sonuncu dəfə əməliyyatdan gec oyandığı üçün həyəcadan onurğamda yırtıq əmələ gəldi. Sonralar özüm də əməliyyat olundum. Canım qurban olsun balama. Kaş mənim canım gedəydi, o isə sağ qalaydı... İnadkar uşaq idi. Onu çox çətinliklərlə böyütdük. Uşaq yaşlarından hərbi işə marağı var idi. Atasına turnik düzəltdirmişdi. Məşqlər eləyirdi ki, boyu uzansın. Hərbi xidmətini FHN-nın Səngəçalda yerləşən hissəsində keçirmişdi. Orduda qalb isləmək istədiyini bildirəndə razı olmurduq. İnadından dönmədi. Məcbur olub razılaşdıq. Necə də sevinirdi, sanki ucmağa qanadı çatmırdı.

Balam hər dəfə təlimdən gələndə məktəbə gedir, hərbi rəhbər Elşən müəllimlə görüşürdü. Çox romantik təbiəti vardı. Murovda

olanda deyirdi ki, ana, buludlar ayağımın altındadır. Ən böyük arzusu xüsusi təyinatlıların formasın geyinmək idi. Sentyabrın 26-da axsam zəng eləmişdi. Dedi ki, qayıdıb gəlsəm, torpaqlarımızdan öpəcəyəm. Nə demək istədiyindən baş açmadım. Səhər müharibənin başlanması xəbərini eşitdim. Axrıncı dəfə oktyabrın 1-də danışdıq. Atasını mənə, məni də atasına tapşırdı. Dedik ki, qurbanlıq almışıq, təlimdən gələndə kəsəcəyik. Dedi ki, kəsib paylayın, şünki ölümdən qutarmışam. Biz də kəsib payladıq. Oktyabrın 6-da gecə oğlumu yuxumda gördüm. Səhərə kimi yata bilmədim. Axşam üstü bu bəd xəbəri aldıq və beləliklə, hər şey alt-üst oldu.

Oğlumun arzuları ürəyində qaldı. Özünə ev tikmək istəyirdi. Qonşuluqda bir ev var idi. Həmişə deyirdi ki, özümə belə bir ev tikəcəyəm. Çox mehriban, oturuşun-duruşun, sözünün yerini bilən idi. Onu tanıyanlar ondan ötrü yana-yana ağlıyır. Həmişə deyirdi ki, adi ölüm istəmirəm. Özünə şərəfli ölüm arzulayırdı. Bacılarına əsl qardaş, bizə gözəl oğul idi. Dost-tanışlarına qarşı çox səmimi və sədaqətli idi. Sevdiyi vardı. Bir yerdə oxumuşdular. Arada ona şeirlər də yazardı. Saxlamışam. Ən böyük arzusu Heydər Əliyev adına Hərbi Akademiyaya daxil olub oranı bitirmək idi. Balam Vətəninin, torpağının, bayrağının dəlisiydi. Cibində həmişə Azərbaycanın üçrəngli, müqəddəs bayrağını gəzdirirdi.

**Bacısı Xalidə:** Elnurla bağlı xatirələrim çoxdur. Ən çox mənə təsir edən hadisə evə axırıncı gəlişiylə bağlıdı. Böyük sevinclə kursu bitirib evə gəlmişdi.Təlimləri başlayacaqdı. Çox sevinirdi. Onun ugurlarını görmək bizi də sevindirdi. İlk dəfə idi ki, Elnur hər şeyi cox səbrlə edirdi. Uşaqlarla davranışı, bizimlə söhbəti, hərkətləri çox dəyişmişdi. Mənim balaca sandığım qardaşım artıq böyümüşdü. Bir az evdə qalıb bizimlə söhbət etdikdən sonra özünə təzə geyimlər almağa getdi. O gedəndən sonra anamla yemək hazırlamağa başladıq. Elnur tez və tələsik qayıtdı, hazırladığımız yeməkləri nəinki yemək, heç dadına baxmağa belə zamanı olmadı. Həyətdən yola salanda hamımızla halallaşdı, bizi bir-birimizə tapşırdı. Qəribə bir baxışı vardı və o baxışdan çox qorxmuşdum. Elə bil bir daha

görüşməyəcəkmiş kimi bizə baxırdı. Elnuru beləcə yola saldıq. Təlimlərinin biri bitməmiş digəri  başlanırdı. Gəlməyə imkan tapmasa da, tez-tez zəngləşirdik. Bir-birimizə o qədər bağlı idik ki, orada ona bir şey olsa, burada mən dərhal hiss edirdim.

Bir gün balaca oğlum çox pis xəstələnmişdi. Qızdırması düşmürdü. Təlimlərin ən qızğın çağında zəng edib balacamı soruşurdu. Elnurum bizə həm gözəl qardaş həm  gözəl sirdaş həm  gözəl dayı, həm  gözəl oğul,  Vətənimiz üçün gözəl əsgər  və sadiq hərbçi oldu. Çox  istərəm ki, övladlarım dayısının yolunu davam etdirsin.

Canımın parçası olan qardaşım kəpənək qədər qısa ömrünü nağıl kimi başa vurdu...

**Bacısı Lalə:** Biz ailədə 3 uşaq idik: bacım Xalidə, mən və qardaşım Elnur. Elnurun hər şeyi:  oynamağı, gülməyi, hətta ağlamağı da maraqlı idi. Bizim onunla xoşbəxt çağlarımız çox az, cəmi 20 il çəkdi. Elnur mənim həm qardaşım, həm sirdaşım   idi. Bütün problemlərimizi valideynlərimizdən qabaq özümüz həll eləməyə çalışırdıq. Balaca olanda biz onu qoruyurduq, sonra isə yerlərimiz dəyişdi,  o bizim güvənc yerimiz oldu.  Heç anamızın belə bizimlə sərt danşmağına razı olmazdı. Onun haqqında keçmiş zamanda danışmaq mənə çox çətindir.

Ailə quranda yoldaşım hərbiçi olduğu üçün valideynlərim əvvəlcə etiraz eləyirdilər, amma Elnur onları razı saldı. Həmişə deyirdi ki, siz sevdiklərinizlə ailə qurun,  mən də öz sevdiyimlə ailə quracağam.  Heyif  ki,  sevdiyi ilə xoş gün görmək qisməti olmadı. Xasiyyətcə ozünə qapanan idi və cox dostu yox idi. Yaxından tanımadığı adama güvənməzdi.

**Dostu Murad:** Elnurla  dostluğumuzun tarixi 2017-ci ildən başlanır. Keçən 3 il ərzində Elnur dostlarım arasında yeganə insandır ki,   heç vaxt mübahisəmiz  olmayıb. Elnurla bağlı maraqlı xatirələrim  çoxdur. Elnurla bir neçə ilin dostu olsam da, hesab edirəm ki, onu  yaxşı tanıya bilməmişəm. Elnurun yazdığı məktublar ortaya çıxdıqdan sonra onu daha dərindən tanıdım və həqiqətən də  özlü-

yümdə bir şok yaşadım. Yatsam, yuxuma da girməzdi ki, Elnur özünə bu cür şəhidlik arzulayar. Məktubunu oxuduqda, elə bil damarlarımda qanım dondu. Məktubun hər sətri sanki dilə gəlib deyirdi ki, Elnur adi insan deyil. Heç zaman ağlıma gəlməzdi ki, Elnur tarixi deyişdirəcək bir qələbədə iz qoyacaq. Bəzən özlüyümdə təsəlli tapıram ki, torpaqlarımızın azad olunmasında Elnurun da əməyi var. Həqiqətən, şəhidlər adi insanlar olmurlar.Tanıdığım bir çox şəhidlər var ki, onların həyat yolunu, xasiyyətlərini analiz etdikdə görmək olur ki, onlar insanların qəlbində hələ bu dünyada olarkən yer tapa biliblər.

Elnur kimi dostu itirmək çox ağırdır.Yaşadığı qısa ömür ərzində məktəb həyatında, işlədiyi yerlərdə, keçdiyi xidmət boyu özündən sonra xatirələrlə dolu izlər buraxmağı bacarıb. Bəzən özümü bağışlaya bilmirəm ki, Elnurla daha çox vaxt keçirə, daha çox söhbətləşə bilmədim. Elnurla bağlı bir xatirəmi bidirmək istəyirəm. Elnurun ən ali xüsusiyyəti, heç şübhəsiz ki, insansevərlik və insanlara sevgi ilə yanaşıb, hətta ona pislik edənlri belə bağışlaya bilmək hərəkəti idi ki, bu xarakteri ilə o mənə həyat dərsi verdi. Onun bu cür ağayana hərəkətindən sonra insanlara qarşı fikirlərim tamamən dəyişdi. Elnurun adı harada çəkilirsə, qürurla, fəxrlə deyirəm: "Elnur mənim dostum olub. O qanıyla, canıyla silinməz bir tarix yazmağı bacardı. Hər birimiz bu dünyadan köçəciyik, amma bizlər öldükdən bir müddət sonra unudulacağıq. Amma Elnur və onun timsalında bütün şəhidlərimiz yüz illər ötsə belə, unudulmayacaq. "Dostum, mən daima yanındayam",- deyən Elnurun bu gün də surəti gözlərimin önündə canlanır və sanki yenə də məni əsl insan olmağa, cəmiyyətə, millətə saf niyyətlə xidmət etməyə səsləyir.

**Döyüş yoldaşlarının dediklərindən**: Elnur cox qoçaq oğlan idi. Hər zaman irəli atılırdı. Sonuncu dəfə müharibədən qabaq bir yerə yığışanda da sanki ürəyinə nəsə dammışdı. Dedi ki, deyəsən, bu, son dəfə bir yerdə oturmağımızdır.

Müharibə zamanı cəsarətlə döyüşür, manqasını qorumağa

çalışırdı. Təhlükələrdən çəkinmir, özünü odun-alovun içərisinə atırdı. Qəhrəmancasına vuruşdu, qəhrəman kimi də səhadətə yetişdi. Məkanı cənnət olsun.

***



## 34.BAYRAM ORUCOV (17.02.2001 – 24.10.2020)

Bayram Çərkəz oğlu Orucov 17 fevral 2001-ci ildə Göyçay rayonunun Alpout kəndində anadan olmuşdur. Ailənin ilk övladı olan Bayram 2007-2018-ci illərdə Göyçay rayon Alpout kənd Xosrov Cəfərov adına tam orta məktəbdə təhsil almışdır. Subay idi.

Ən böyük arzusu ali məktəb tələbəsi olmaq idi. O, 2019-ci il aprelində həqiqi hərbi xidmətə çağrılmış, xidmətini Ağcabədidə keçirmişdir.

Bayram 2020-ci il oktyabrında hərbi xidmətini başa vurub evə qayıtmalı idi. Sentyabrın 27-də müharibə başladı.

Azərbaycan Ordusunun əsgəri olan Bayram Orucov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən - Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə polkovnik Şükür Həmidovun komandanlığı altında savaşıb. Bayram Orucov oktyabrın 24-də Qubadlı istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuş, Göyçay rayonun Alpoud kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Bayram Orucov ölümündən sonra "Vətən uğrunda" medalı və 24.12.2020-ci il tarixli Sərəncamına əsasən "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

***

**Anası Yaqut xanım**: Bayram oktyabrın 5-də evə zəng eləyib bizimlə danışdı. Bildirdi ki, bizi Cəbrayıla aparırlar. 2 gün keçəndən sonra bir də zəng etdi. Dedi, vəziyyət pisdir. Mənə halallıq verin. Ola bilər ki, bayrağa bükülü gələrəm. İnanın ki, az qaldı dəli olam. Nitqim tutuldu. "Nə danışırsan, balam, Allah eləməsin",- dedim. 2 gün keçdi yenə zəng etdi. Əhval-ruhiyyəsi yüksək idi. Dedim ki, oğlum sənin evə buraxılan vaxtındır. Bu barədə bir söz demirlər ki? Dedi ki, ana, nə ev, nə gəlmək, qan edirik, torpaqlarımızı ala-ala gedirik. Elə sevinirdi ki...

Bayram ərköyün və şıltaq uşaq idi, amma əndazəni heç vaxt keçməzdi. Böyük-kiçik yeri bilən, ağıllı oğlan idi. Qorxu-hürkü bilməzdi. Axrıncı dəfə oktyabrın 17-də danışdı. Ondan sonra xəbər-ətər olmadı. Dəli-divanə olmuş, nə edəcəyimizi bilmirdik. Sonra eşitdik ki, Qubadlı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Oktyabrın 24-ü balamı bayrağa büküb gətirdilər. Bu da mənim balamın cəmi 19 illik kiçik həyat hekayəsi.

Atası neft daşlarında çilingər işləyirdi. Sadə, zəhmətkeş, mehriban ailəmiz var idi. Halal çörəyimizi qazanıb sevinə-sevinə, gülə-gülə yeyirdik. Heç vaxt heç kimdə, varda, dövlətdə gözümüz olmayıb. Bizim var-dövlətimiz iki oğlumuz idi. Allahdan ancaq onların sağlamlığını istəyirdik. Sevincli, sakit həyatımız çox sürmədi. Oğlumuz Bayram şəhid olandan sonra atası dözmədi, gecə-gündüz çırpındı. Dedi ki, Bayramsız havam çatmır, boğuluram. Yoldaşım aradan 3 ay keçməmiş yanvar ayının 18-də ürək çatışmazlığından vəfat etdi. Bu da ailəmizin alın yazısı, acı taleyi. Çox ağır günlər yaşayıram. Bu yaşantıları dil ilə ifadə etmək mümkün deyil.

Bayramın uşaqlığı çox qayğısız, xoşbəxt keçib. Hər uşağa nəsib olmayan ailə sevgisi görüb. Bayram aydan-ulduzdan gələn övlad olub. 10 illik övlad həsrətimizə öz gəlişiylə son qoyub. Elə xoşbəxt idik ki... Təəssüf! Xoşbəxtliyimiz niyə bu qədər qısa oldu, niyə ?

Bayramın anası Yaqut xanım deyir ki, o biri oğlum Orxan Orucov da əsgərdir. Yanvarın 7-də hərbi xidmətə çağırılıb və 7 aydır

ki, Bakıda Ədliyyə Nazirliyinin hərbi hisəsində xidmət edir.

**Bayramın əmisi oğlu Adilin dediklərindən:** Bayramın itkisi həm çox ağır, həm də qürurvericidir. O mənim əmim oğlu yox, elə qardaşım idi. Biz çox mehriban uşaqlıq illəri keçirmişik. Onunla yaşadığım illərin, ayların dadı damağımda qaldı. O, çox mərd gənc idi. Ali məktəbə girmək, təhsil almaq istəyirdi. Heç yuxuma da girməzdi ki, bir gün Bayram haqqında yoxluğundan danışacağam. Əslində, o bizim üçün həmişə var və olacaq da.

**Bayramın sinif rəhbəri, biologiya müəllimi Dilbər Eyyubovanın Bayram haqqında söylədikləri:** Sevimli şagirdim, unudulmaz şəhidimiz Orucov Bayram Çərkəz oğlu haqqında danışmaq mənim üçün çox çətindir. Bu çətinliyə baxmayaraq Bayram haqqında nə qədər danışsam da azdır. Mən 5-ci sinifdən Bayramın sinif rəhbəri olmuş, ona biologiya fənnini tədris etmişəm. Bayram sakit və olduqca mehriban uşaq idi. Onun sakit baxışları, gülər üzü hər an gözümün önündədir. Bayram sinifdə 3-cü partada otururdu. Həmişə partaya dirsəklənirdi. Sinifdə başqa uşaqlara acıqlansam da, Bayrama "yerində düz otur" deyə bilmirdim. Ona xüsusi sevgim var idi. Şəhidimizin anası Yaqut xanım da mənim ən sevimli şagirdim olub. 30 ildir Alpoud kənd orta məktəbində işləyirəm.

Uşaqlarla çox səmimiyəm. Ona görə də uşaqlar əsgərlikdən gələndə birinci məni görməyə gəlirlər. Bayramla axırıncı görüşüm o, məzuniyyətə gələndə olmuşdu. Vaxtilə Bayrama dərs dediyim sinifdə dərsdəydim. Birdən qapı döyüldü. Bayram içəri girdi, görüşdük. Hal-əhval tutduqdan sonra soruşdu ki, müəllimə, bu uşaqları da bizim qədər istəyirsinizmi? Dedim ki, bütün uşaqlar mənim balalarımdır. Xeyli söhbət etdik. Onu yola salanda özümdən asılı olmayaraq dalınca xeyli baxdım. Bayramın ölüm xəbəri məni çox sarsıtdı. Bayramgilə dərs keçdiyim otaqda yenə də rəhbəri olduğum sinfin uşaqları oxuyur. İndi onun partasında şəkillərindən hazırlanmış "Sən həmişə bizimləsən, Bayram!" tablosu yer alır.

O, mənim üçün həmişə yaşayır. Bayramın yadigar olaraq məndə 9-cu sinifdə oxuyanda əlindən aldığım təsbeh durur. Qara, balaca təsbehdi. Mən indi o təsbehi toxunulmaz guşəmdə saxlayıram.

Bayram və onun timsalında bütün şəhidlər ölməyib. Onlar həmişə yaşayır və yaşayacaqlar. Allah onlara rəhmət eləsin. Məkanları cənnət olsun. Mən bir Azərbaycan anası kimi bütün şəhid analarının, Yaqut ananın da qarşısında baş əyir, onlara səbir və dözüm arzulayıram.

**Bayramın dostu Soltanın söylədikləri:** Bayram mənim sinif yoldaşım, qohumum - bir sözlə, hər anımda yanımda ola biləcək güvəndiyim dostum və sirdaşım idi.... Təəssüf ki, müharibənin acı üzü bizi bir-birimizdən cismən ayrı saldı. Biz bir böyümüş, bağçaya, məktəbə bir getmişdik...Evlərimiz çox yaxın olduğu üçün günümüzün çox hissəsini bir yerdə olurduq.. Bir-birimizdən gizli sirrimiz yox idi. Hardan biləydik ki, həyatımızın ən qayğısız günləriymiş... İllər tez keçdi...

2019-cu ilin aprel ayında onu hərbi xidmətə yola saldıq və 3 ay sonra mən də hərbi xidmətə yola düşdüm. Həyatın daha bir təsadüfü . Ağcabədi rayonunda qonşu hərbi hissələrdə xidmət eləməyə başladıq. Mən iyul ayında Tərtər döyüşləri zamanı Ağdam rayonunda cəmləşmə ərazisində xidmət etməyə başladım. Hərdənbir hərbi hissənin rabitəsi vasitəsiylə əlaqə saxlayırdıq. Hər şeyin qaydasında olduğunu deyirdi. Müharibə zamanıda dəfələrlə əlaqə saxlamışdıq. Oktyabr ayında təxminən 20 gün onunla əlaqə qura bilmədim. Narahat oldum. Çətinliklə də olsa komandirlə əlaqə saxladım. Bayramı soruşdum. Heç vaxt qulaqlarımdan getməyəcək bir cavab verdi: “Bayram iki gün öncə şəhid olub”. İnanmaq istəmədim. Evlə əlaqə saxladım. “Hər şey qaydasındadır”, - dedilər. Xəbəri məndən gizlin saxladılar. Ümid elədim ki, sağdır. Fikirləşdim ki, yəqin mənə yalnış məlumat veriblər. Sanki zəncirlə səngərə bağlanmış, nə gələ bilir, nə də orda qərar tuta bilirdim. Sonra xəbərin doğru olduğunu öyrəndim. Məzuniyyətə gəldiyimdə anası məndən: “Bayramı niyə gətirmədin?” - deyə soruşdu. O an sözlə ifadə olunmayacaq hislər yaşadım...

**Qeyd**: Bayramın adına sinif yoldaşları doğulduğu Alpoud kəndində bulaq tikiblər.

Məkanın cənnət olsun, şəhidim!

***



## 35. XƏYAL HƏSƏNOV (16.04.2001 – 13.10.2020)

Azərbaycan Silahlı Qüvvələri Quru Qoşunlarının əsgəri, Vətən müharibəsinin şəhidi Xəyal Zeynəddin oğlu Həsənov 2001-ci il - aprelin 16-da Göyçay rayonunun Qaraman kəndində anadan olmuşdur. Subay idi.

2008-ci ildə Hacı Rəhim əfəndi adına Qaraman kənd tam orta məktəbinin birinci sinfinə qəbul olunan, vətənpərvər və ötkəm, döyüşkən ruhu ilə yaşıdlarından seçilən, 5-ci sinifə kimi əla qiymətlərlə oxuyan Xəyal 2017-ci ildə 9-cu sinfi bitirmiş və peşə, sənət qazanmaq arzusu ilə təhsilini Göyçay Peşə Liseyində davam etdirməyə başlamışdır. 2020-ci il may ayının 27-də həqiqi hərbi xidmətə çağırılan Xəyal Goranboy rayonunun Ballıqaya, daha sonra Tərtər rayonundakı N saylı hərbi hissəsində tuşlayıcı kimi xidmət etmişdir. O, 2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsində Suqovuşan və Talış kəndlərinin işğaldan azad edilməsində iştirak etmiş, qəhrəmanlıq nümunələri göstərmişdir.

Atası söyləyir ki, Xəyal həqiqi hərbi xidməti başa vurduqdan sonra hərbi təhsil alıb bir zabit kimi Azərbaycan Silahlı Qüvvələrində çalışmaq niyyətində idi. Ara-sıra telefonla əlaqə saxlayar, ağrı-acısını, problemini, qayğısını heç vaxt bizə hiss etdirməzdi. Bir neçə dəfə hərbi hissəyə - onu yoluxmağa getmək istəsək də, əziyyət çəkməyimizə razı olmurdu. Hər dəfə danışanda: “Mən yaxşıyam, siz özünüzü qoruyun. Vətənimə oğulluq borcumu verirəm, mənim əzizlərim”,- deyirdi.

Müharibə başlanandan sonra bütün valideynlər kimi, bizim də əzablı və intizarlı günlərimiz başlandı. İndi daha sıx-sıx əlaqə saxlmağa çalışırdıq. Bizə ürək-dirək verir, inamla deyirdi: "Bir sizin, bir də Vətənimin qarşısında həmişə özümü borclu hesab edirəm. Tezliklə sizə şad xəbərlər verəcəyəm, ürəyiniz istəyən kimi sevinəcəksiniz. Yerim də çox rahatdır. Elə bil öz evimizdə yum-yumuşaq yorğan-döşəkə yatıram, ocağımızda bişən dadlı yeməkləri yeyirəm".

Təbii ki, onun sözlərinin gerçəkliyinə inanmağımız çətin məsələ idi. Müharibə hara, isti yorğan-döşək hara? Normal yemək, içmək tapırdılar ya yox, onu da bilən Allah idi. Onu da qeyd edim ki, ön cəbhəyə arxa cəbhədə olan yerlilərimizdən çox yardımlar gedirdi. Bu, biz valideynlərin ürəyini bir qədər isidirdi.

Atası söyləyir ki, müharibə başlanan ərəfədə Xəyalla telefon danışığımız oldu. Mənə dedi ki, ata, kaş mən xidmətdə olarkən müharibə başlayaydı, mən də ermənilərin payını verəydim. Onların qanına susamışam. Heç olmasa, 5-10 ermənini qanına qəltan edib, sonra özüm də şəhid olsam, bilin ki, arzuma çatdım. Həyatda hərənin öz əqidəsi, məsləki var. Mənim də ağlım kəsəndən bu amalla yaşamışam. Ürəyimə damıb ki, müharibə başlayacaq, düşmənlərimizlə üzbəsurət duracağam və onların qanlarını tökərək necə əzabla gəbərdiyini görəcəyəm. Bu yaşıma qədər ondan böyük arzum olmayıb. O hələ kiçik yaşlarında olarkən düzəltdiyi taxta avtomatları mənə göstərib deyərdi ki, qoy böyüyüm gedib avtomatımla onları qanına qəltan edəcəyəm. Dedikləri, ürəyinə damdıqları oldu. O bu xəyalla böyüdü və arzusuna çatdı.

Deməli, Xəyal anadan döyüşçü doğulubmuş. O, oktyabrın 13-də, şəhid olmamışdan bir neçə dəqiqə əvvəl bacısıyla telefonla danışıb. Deyib ki, bacı, anama denən məni bağışlasın, onunla danışmağa imkan yoxdur, tələsirəm. Atamdan, anamdan muğayət ol. Onları sənə, səni Allaha əmanət edirəm.

Əsgər yoldaşları və komandirinin deməyinə görə Xəyal qorxmaz, mərd, ürəkli əsgər olub. Dəfn mərasimində hərbi hissədən

gələn nümayəndə deyib ki, o, qorxmazlığıyla hamıdan seçilirdi, odun- alovun içərisinə özünü “uf” demədən atırdı.

Suqovuşanda, Talış istiqamətindəki döyüşlərdə şəhid olan Xəyal 14 oktyabrda Qaraman kəndində torpağa tapşırıldı. 4 ayın əsgəri olmağına baxmayaraq, göstərdiyi qəhrəmanlıqlarına görə adını tarixin pozulmayan səhifələrinə yazan Xəyal Həsənovun cismi torpağa, ruhu isə şəhidlik zirvəsinə ucalan igidlərimizin ruhuna qovuşdu.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Xəyal Həsənov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

Qeyd:16 aprel 2021-ci ildə Qaraman kəndində şəhid Xəyalın adına tikilən bulağın açılışı oldu.

Allah rəhmət eləsin, şəhidim. Amin!

***



**36.ƏLİ EYVAZOV**
**(30.07.2001 – 14.10.2020)**

Azərbaycan Silahlı Qüvvələri Quru Qoşunlarnın əsgəri, Vətən müharibəsinin şəhidi Əli Seyran oğlu Eyvazov 2001-ci il iyunun 30-da Göyçay rayonunun Şəkər kəndində anadan olmuşdur.
2007-ci ildə Şəkər kənd məktəbində 1-ci sinifə qəbul edilmiş, 2008-ci ildən təhsilini Göyçay şəhərindəki 8 N-li məktəbdə davam erdirmiş, 5-ci sinifdən isə R.Rza adına 1 nömrəli məktəbdə oxuyraq tam orta təhsil almışdır.

Əli Eyvazov 2019-cu il iyulun 3-də hərbi xidmətə yola salınmış, 1 il 2 ay xidmətdən sonra 2020-ci il sentyabrın 27-də - Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir.

14 oktyabr 2020-ci il tarixində Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Fizuli istiqamətində mövqelərimizi ələ keçirmək məqsədilə artilleriya atəşindən istifadə edərək hücuma keçməyə cəhd göstərməsi nəticəsində əks hücuma keçən Azərbaycan ordusu işğal altında olan torpaqlarımızın azad olması uğrunda əməliyyat keçirmiş, döyüşlər zamanı 19 yaşlı Əli Eyvazov qəhrəmancasına şəhid olmuşdur.

Əli Eyvazov böyük izdihamla Göyçay şəhər Şəhidlər xiyabanında torpağa tapşırılmışdır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş

tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Əli Eyvazov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

***

Aldığımız bilgilərə görə, Əli çox ağıllı, tərbiyəli, düşüncəli, pis vərdişləri olmayan, ürəyi saf, gül kimi təmiz, mehriban, valideynlərinin səsinə səs verib onlara dəstək olan, onları başı uca etməyə çalışan bir övlad olmuşdur. Belə əxlaqda olan bir oğulu itirən valideynlərin yanğısı azalmaqdansa, günü-gündən artır, heç cür toparlana, Əlinin itkisini qəbul edə bilmirlər.

Valideynləri Əlinin görüşünə sonuncu dəfə 2020-ci il yanvarın 2-də gediblər. Əli mart ayında məzuniyyətə gələcəkmiş. Ölkədə baş verən pandemiyaya, karantın rejiminə görə onun evə gələ bilmək icazəsi təxirə salınır. Valideyinlər həvəslə, sevinclə əsgər balalarını, hərbi geyimdə məzuniyyətə gələcək övladlarını gözləsələr də, məlum səbəblər icbatından bu, onlara nəsib olmur. Bir neçə aydan sonra valideynlər övladlarının məzuniyyətə gələ bilməyəcəyini bildiklərdən qərara alırlar ki, özləri gedib Əli ilə görüşsünlər. Sentyabrın 13-də Əliylə görüşmək üçün Əlinin xidmət etdiyi Beyləqan rayonuna yola düşürlər. Valideynlərin balalarını görmək cəhdinə baxmayaraq, karantin rejimini bəhanə gətirib onlara görüş vermək istəmirlər. İnsanlığa sığmayan bir tələb irəli sürür, "görüş olmaz",- deyir, Əli ilə aralarında çox az məsafədə olmaqlarına baxmayaraq, onların görüşməsinə qəti etiraz edirlər. Valideynlər Əli ilə telfon əlaqəsi yaradır, Əlinin səsində titrəyiş, qəhər hiss edirlər. Ana balasının titrək səsini eşitcək halı dəyişir, göz yaşı tökür, deyir ki, günlərlə postun qarşısında ac-susuz qalacaq, balamı görməsəm getməyəcəm. Balamı görməsəm ürəyim partlayar. Atası ananın halının yaxşı olmadığını postda dayanan hərbiçilərə başa salır. Nəhayət,

ürəyində Allah xofu olan birisi onların görüşməyinə icazə verir. Belə çıxır ki, qanunu yazan da özləridir, pozan da. Əslində isə əsgərlə görüş verməmək kimi bir qanun yoxdur. Nəhayət, ana-bala görüşürlər.

Görüşə vaxt çox az verildiyindən Əli valideynlərinin yanına qaça-qaça gəlmiş, bədəni, paltarları suyun, tərin içində imiş. Düz 8 aydır ki, görüşmürdülər. Qısa olsa da həsrətə son qoyuldu. Ana balasını bağrına basdı, öpdü, təkrar-təkrar öpdü. Ana evdən apardığı sovqatı, öz əlləriylə hazırladığı tortu balasına verdi. Balasını oxşaya-oxşaya, əzizləyə-əzizləyə: "mənim igid balam, qoy bu yeməklərdən öz əlimlə sənə yedirdim", - dedi.

Əli kövrələ-kövrələ: "Narahat olma ana, aparıb uşaqlarla bir yerdə yeyəcəm. Sənin bişirdiyin xörəylərin dadı, ətri üçün də çox darıxmışam. Nə qədər imkan var, bir az söhbət edək", - söylədi.

Ana-ata ikisi də bir ağızdan: "Bala, bizim sözümüz-söhbətimiz tək sənsən. Tezliklə hərbi xidmətini başa vur, evimizə qayıt. Gözümüzün qabağında ol. Tapdığımız tikəni birlikdə, bir yerdə yiyək. Sənsiz çox darıxırıq" , -dedilər.

Ana balasına baxmaqdan doymurdu. Elə bil ananın ürəyinə nəsə dammışdı. Fikirləşirdi ki, bəlkə də bu, son görüşdü. Bəlkə, bir daha oğlunun isti nəfəsini duymayacaq, ona sarılmayacaq. Düşündüklərini özündən uzaqlaşdırmağa çalışdı və ürəyi əsə-əsə qeyri-ixtiyari, özündən asılı olmayaraq: "Balam, səni öpməkdən doymuram axı... 5 dəqiqədən sonra ayrılacağımızı düşünəndə, az qalır nəfəsim kəsilsin. Nə çətin bir şeydir ana olmaq! Boyuna qurban, igidim. Əsgəri xidmətini başa vurub sağ-salamat evimizə gəl, ocağımızı isit. Bir şükür qurbanı kəsəcəyəm. Vallah, bir tikəsini də dilimə vurmayacağam. Qurbanı ayaqyalın, başıaçıq özüm paylayacam", -dedi.

Ana övladını sonuncu dəfə qucaqlayıb bağrına basdı. Ayrılıq məqamı çatdı. Ayrıldılar. Elə bil ayaqlarının onu aparmağa gücü çatmırdı. Ayağını sürüyə-sürüyə maşına tərəf getdi. Maşına əyləşərkən çönüb arxaya baxdı. Artıq Əli yox idi. Bu görüş ana- balanın son görüşü oldu.

2020-ci il sentyabrın 27-də müharibə başladı. Ana söyləyir ki, Əli Beyləqanda olduğu üçün biz elə zənn edirdik ki, o döyüş bölgəsində olmayacaq. Yanılmışdıq. Əli müharibə başlayan ilk gündən döyüşlərin qızğın getdiyi yerdə - Füzulinin Alxanlı kəndində döyüşürmüş.

Əli bizi nigaran qoymazdı. O, sentyabrın 27-də saat 4 radələrində bizə zəng etdi. Söylədi ki, ana, müharibə başlandı. Üstünlük bizdədir. Torpaqlarımızı ala-ala irəliləyirik. Təəccübləndim, soruşdum: "Ay bala, sən də cəbhədəsən?" Cavab verdi: "Əlbəttə, ana. Məl668dirik erməni gədələrini. Onların anasını ağladacağıq. İnşallah, qələbə bizim olacaq. Çox sevinirəm, ana. Mənim də bu qələbədə payım olacaq".

Düzü, balamın belə sevinə-sevinə, ağız dolusu "onları mələdirik" deməyi məni də sevindirdi. Dedim ki, yaxşı edirsiz, igid balam, mələdin onları. Çox qudurublar. Onları doğulduqlarına peşman edin. Mən də bir ana kimi hər birinizə duaçıyam. Amma Əli sarıdan içimdə bir narahatlıq var idi. Qulağım səsdə, ürəyim ovcumun içində idi. Əli məni arxayın salmaq üçün atasıyla danışıb deyib ki, anama de ki, mən geri, Beyləqana qayıtdım. Artıq müharibə bölgəsindən uzaqdayam. İnanmaq istəmədim bu sözə. Düşündüm ki, niyə mənim igid balam döyüşlərə yaramadı? Nə oldu ki, onu geri, arxa cəbhəyə göndərdilər? Sən demə, bizi aldadır, arxayın salırmış.

Əli döyüşün qızğın yerində, bacarıqlı minamyotçu kimi döyüşürmüş. Bir dəfə də danışarkən mənə dedi ki, ana, sən ancaq dua et, heç nədən narahat olma. Burda mənim kimi 100-lərlə, 1000-lərlə oğullar var. Onların da anası, ailəsi, balası var. Torpaqlarımız yağı düşməndən alınmalıdır. Bir qarış torpağımız da o dığalarda qalmamalıdır. Onunçun mərd oğullarımız düşmənin qarşısına çıxmalı, onları susdurmalıdırlar. Ancaq o zaman bizim vicdanımız rahat olar. Azad və xoşbəxt yaşaya bilərik. Bu məsələ birdəfəlik bitməlidir. Torpaqdan pay olmaz. Mənə görə narahat olmayın. İnşallah görüşərik. Deyərdi ki, elnən gələn dərd-bəla toy-bayramdır, ana. Palaza bürün elnən sürün. Darıxdırmayın özünüzü, az qalıb, çox az qalıb.

Hər şey yaxşı olacaq. Xoşbəxt günlərimiz qabaqdadır. Çəkdiyimiz acıları sizə unutduracağam. Sizi Şuşaya istirahət etməyə aparacağam. Həmişə başınızı uca edəcəyəm.

Sonuncu dəfə oktyabrın 14-də bizə xəbər gəldi ki, oğlunuz Əli Eyvazov ayın 13-də Füzulinin Alxanlı kəndində döyüş zamanı qəhrəmancasına şəhid olub. Qol-qanadımız qırıldı. Ümudlə, həsrətlə gözlədiyimiz balamızın şəhid olması xəbərini aldıq. Bizə qalan isə onun təsəlliverici sözləri oldu.

Şəhid balamız, Əli! Sən doğurdan da cəsurluğunla, şücaətinlə oddan-alovdan keçərək sinəni güllə qabağına verərək öz ərənliyini sübut etdin. Biz səninlə fəxr edirik, şəhidim.

Məkanın cənnət olsun! Amin!

***



**37.ELDAR ŞİRİNOV**
**(12.07.2001 – 06.10.2020)**

Azərbaycan Silahlı Qüvvələri Quru Qoşunlarının əsgəri, Vətən müharibəsinin şəhidi, Eldar Bağır oğlu Şirinov 2001-ci il iyulun 12-də Göyçay rayonunun Çərəkə kəndində anadan olmuşdur.

5 nəfərlik bir ailədə böyüyüb boya-başa çatan Eldar evin tək oğlu, iki bacının bir qardaşı idi.

**Sorğumuza verdiyi cavabında bacısı yazır:** "Eldar 2005-cü ildə Göyçayın Çərəkə kəndində bağçaya getmişdir. Çox şirin və dəcəl, həm də çoxbilmiş uşağıydı. Marif müdürümüz Asif müəllim və icra başçımız Nazim müəllim bir gün bağçaya gəlib və uşaqlardan şeir soruşurlar. Çox cəld və çılğın uşaq olan Eldar tez əlini qaldıraraq şeir söyləməsini istəyib. Eldarı ayağa qaldırıb ona şeir söylədirlər. Eldar şeiri deyib bitirəndən sonra onu sorğu-sual edir və soruşurlar: "Bağçada nə yeyirsiz?". Eldar cavab veri ki: "Paxla".

Nazim müəllim soruşur ki, bəs ət yemirsiz?

Eldar cavab verir ki, yox. Paxlanın içində ət olur ki?

O gün kəndimizdə iclas olub və həmin iclasda icra başçımız Nazim müəllim Eldarın dediklərin kənd caamatına zarafat olaraq danışıb. O gündən Eldar hamının sevimlisinə çevrilərək diqqət mərkəzində olub".

Eldar 2007-ci ildə Çərəkə kənd Elman Əzizov adına 2 N-li tam orta məktəbin 1-ci sinifinə qəbul edilmiş, tərbiyəsinə və savadına görə məktəbin sayılıb-seçilən şagirdlərindən olmuşdur. Eldar təhsil aldığı orta məktəbdə yaxşı oxumuş, müəllimlər və şagirdlər arasında özünə hörmət qazanmışdı. 2018-ci ildə oxuduğu məktəbin 11-ci sinifini bitirən Eldarın təhsil almağa da həvəsi vardı. O, 2018-ci ildə Göyçay Dövlət İdarəetmə və Texnologiya Kollecinin fermer təsərrüfatının təşkili ixtisasına qəbul olunmuş, kollecdə oxuduğu gündən kollektivin hörmətini qazanmışdı. Kollecdə dərslərində müvəffəqiyyət qazandığı üçün sinif nümayəndəsi təyin olunan Eldar 2019-cu ilin iyul ayının 13-də əsgər çağrıldığı üçün təhsilini yarımçığ qoyaraq hərbi xidmətə yollanır. O, xidmətin ilk 3-ayını Ağcabədidə, sonra isə Beyləqan rayonunun Qəhrəmanlı qəsəbəsində kəşfiyyatçı kimi davam etmişdir. Hərbi xidmətinin ilk günlərindən etibarən komandir və əsgərlərin hörmətini qazanan Eldarı o qədər çox istəyirmişlər ki, onu adıvə familiyası ilə yox, "Şirin" ləqəbi ilə çağırırmışlar. Əsgər yoldaşlarının dediyinə görə, Eldar çox mərd və igid oğlan olub. Hər dəfə evləri ilə danışanda "məndən ötrü narahat olmayun, yaxşıyam sanki öz evimdəyəm",- deyirmiş.

27 sentyabr 2020-ci ildə 44 günlük Vətən müharibə başlayır. Müharibə başlandığı ilk gündən Eldar əsgər yoldaşları və komandirləri ilə çiyin-çiyinə Füzuli rayonunun işğaldan azad olunması uğurunda gedən əməliyyatlarda qəhrəmancasına vuruşur. Ailəsi ondan nigaran qalmasın deyə, o, döyüş meydanında yox, arxa mövqelərdə olduğunu onlara söyləyir. Ailəsi ilə son telefon danışığı zamanı da "hər şeyin yaxşı olduğunu", döyüşdə olmadığını və ondan nigaran qalmamalarını söyləmişdir.

Eldarın içində olan vətən sevgisi onun mərdcəsinə, igidcəsinə döyüşlərə atılmağına səbəb olmuşdur. Eldar kəşfiyyata gedən zaman yaralanır. Zabit və gizirlərinin təkidlərinə baxmayaraq hospitala getmir, yenidən döyüşlərə qatılır. Əsgər yoldaşlarının dediyinə görə, 218-ci kəşfiyyat taborunun komandiri baş leytenant Orxan Əkbərov, şəhid Sübhan Abdulrəhmanov, şəhid mayor Elnur Quliyev,

şəhid MAHHXQ Şakir Orucov, şəhid gizir Hüseyn Qasımov və əsgər, Göyçayımızın fəxri Eldar Şirinov döyüşə yollanırlar. Döyüş yoldaşlarının dediyinə görə, 90 əsgərimizin mühasirədən çıxarılmasında, 200-dən çox erməni əsgər və zabitinin məhv edilməsində xüsusi xidməti olan Eldar Şirinov və dostları Füzulinin Nüzgar kəndi uğrunda döyüşlərdə qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalmışlar.

Millətimiz Eldar Bağır oğlu Şirinov və onun Vətən uğrunda şəhadətə qovuşmuş döyüş yoldaşları ilə fəxr edir. Azərbaycanın bu cür mərd və qəhrəman oğulları əbədi olaraq xalqımızın yaddaşında yaçayağaq, and yerimiz olacaqlar.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Eldar Şirinov ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edilmişdir.

***



**38.ASLAN ƏLİYEV**
**(23.09.2001 – 07.11.2020)**

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi Aslan Elman oğlu Əliyev 2001-ci il sentyabrın 23-də Göyçay rayonunun Hacalıkənd kəndində anadan olmuşdur. 2007-ci ildə Qarabaqqal kənd tam orta məktəbində 1-ci sinifə qəbul olmuş, 2018-ci ildə orta təhsilini başa vurmuşdur. 2019-cu il oktyabrın 4-də hərbi xidmətə çağırılmış, Ağcabədidə hərbi xidmətdə olmuşdur.

Saf, ürəyi yumşaq bir gənc olan Aslan çox mehriban və təvazökar bir bir ailənin övladı idi. Ailədə 3 qardaş, bir bacı olublar. Qonşların deməyinə görə, hər zaman can deyib, can eşidiblər.

Aslanın sevdiyi qız olub. Anasına deyib ki, hərbi xidmətimi başa vurum gəlim, o qıza elçi gedərsiniz. Qıza bir üzük də alıbmış. Hərbi xidmətə gedən gün üzüyü bacısına verib ki, saxlayın. İnşallah əsgərlikdən gələndən sonra verərsiniz.

Atası deyir ki, əsgərlikdə olanda demək olar ki, hər gün evə zəng edirdi. Bilirdi ki, danışmayanda onun üçün darıxırıq, narahat oluruq. O, hər dəfə danışanda anasına deyirdi ki, mənimçün narahat olmayın, hər şey yaxşı olacaq.

Aslan zəhmətkeş, böyük amallarla yaşayan bir insan olub. Hələ uşaq yaşlarından maddi durumu o qədər də yaxşı olmayan ailəyə kömək etmək onu düşündürən əsas məsələlərdən biri imiş. Deyərmiş ki, tez böyüyüm, oxuyum, işləyim, qardaşımla əl-ələ verək atamıza kömək edək. Təzə ev tikdirək, anamıza ürəyi istəyən hər şeyi alaq. Valideynlərinə də hər zaman deyirmiş ki, səbirli olun, vallah, hər şey yaxşı olacaq. Sizi ovcumun içində saxlayacağam.

Aslan namaz qılan, mömün olduğu üçün aza qane olan, bir tikə ruziyə görə Allahına 100 dəfə şükür edən oğul olmuşdur. Sadəcə, işləyib, çalışıb halal zəhməti ilə ailəyə kömək etmək başlıca arzularından idi. O, valideynlərini yaşatmaq istəyirdi, amma özünün ömrü yarımçıq qaldı. Qəlbində yuva salan ülvi arzuları gerçəkləşmədi, ömrü kimi arzuları da yarı yolda qaldı.

Aslan Əliyev Ağdamda gedən döyüşlərdə noyabrın 7-də qəhrəmancasına şəhid oldu. Şəhidimiz noyabrın 8-də Qarabaqqal kənd qəbirsanlığında dəfn olundu. Allah rəhmət eləsin! Məkanın cənnət olsun, şəhidim. Amin!

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Aslan Əliyev ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edilmişdir.

## ƏSGƏRİN

Şəninə bəzədim bəyaz kağızı,
Düşməni qovaraq qaçan əsgərin.
Alnından öpəcəm Bayrağımızı,
İsa bulağına sancan əsgərin.

Yuxumda görmüşəm - aydınlıqdı su,
Çin olur gözlərin qaçaq yuxusu.
Bircə gün rahatca yatmaq arzusu,
Səhəri səngərdə açan əsgərin.

Mərmidən səksəndi bir vaxt beləkdə,
İndi düşmən üstə od ələməkdə!
Qarabağ sevgisi üstələməkdə -
Yadında yar ilə hicran əsgərin.

Od-alov tutacaq sönmüş ocaqlar,
Tarixdə qalacaq bu qanlı çağlar,
Arabir xəfifcə dodağı qaçar,
Mürgüdə evinə uçan əsgərin.

***Vahid Əziz***

***



## 39.ORXAN KƏRİMLİ
## (06.10.2001 – 09.10.2020)

2-ci Qarabağ müharibəsi şəhidi Orxan Akif oğlu Kərimli 6 oktyabr 2001-ci ildə Göyçay şəhərində ziyalı ailəsində anadan olmuş, 2007-ci ildə Nizami adına Göyçay şəhər 7 saylı tam orta məktəbin 1-ci sinfinə qəbul edilmiş, 2018-ci ildə həmin məktəbi bitirmişdir. Orta məktəbi bitirdiyi il Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və Hüquq fakultəsinin hüquqşünaslıq ixtisasının qiyabi şöbəsinə qəbul olunmuş, 2019-cu il oktyabr ayının 9-da həqiqi hərbi xidmətə yollanmış, Daşkəsəndə "N" saylı hərbi hissənin divizionunda artilleriya tuşlayıcısı vəzifəsini icra etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Orxan Kərimli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Orxan Kərimli oktyabrın 9-da Murovdağ döyüşləri zamanı şəhid olmuş, oktyabrın 10-da Göyçay şəhərinin Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Orxan Kərimli ölümündən sonra "Vətən uğrunda", 18.12.2020-ci il tarixli Sərəncamına əsasən "Cəsur döyüşçü" və 29.12.2020-ci il tarixli Sərəncamına əsasən "Qubadlının

azad olunmasına görə" medalı ilə təltif edilmişdir. Azərbaycanın Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda.

***

Orxangil ailədə üç qardaş olmişlar: Simran, Turan, və Orxan. Simran ali təhsilli mütəxəssis, Turan polis kapitanı, hüquqşünasdır.

Qardaşı Turan Kərimli "Cəbhə info"nun əməkdaşı ilə söhbətində Orxanın həyat və hərb yolu, şəhidlik zirvəsinə ucalmasından söz açmışdir ki, həmin söhbətin bəzi məqamlarından biz də yazımızda istifadə edirik. Turanın söylədiklərindən:

"Sonuncu dəfə Orxanı avqust ayında görmüşdük. Orxan zəng elədi ki, bizi Şəmkirə təlimə aparırlar. Atam, mən və Orxanın məktəbli dostu Raminin atası (Ramin həm də şəhidimizin əsgərlik yoldaşı olub) ilə birgə oraya yollandıq. Axşam hava qaralana yaxın geri qayıtdıq. Son görüşdə elə bil onun da, bizim də ürəyimizə dammışdı ki, bu, axırıncı görüşümüzdür. Görüş zamanı o bizə təlimlərdən, necə top atdığından, döyüşlərə necə hazırlaşdıqlarından danışdı. Amma ən çox yadda qalan bizim oradan qayıdarkən baş verənlər oldu. Axşamtərəfi, artıq hava qaralırdı. Beş saata yaxın idi ki, bir yerdə idik. 2 saata yaxın da yolumuz vardı. Orxana getmək istədiyimizi deyəndə, dedi ki, hara gedirsiz? Gedərsiniz də.

Kaş ki, bir az daha orada qalaydıq, amma nə bilərdik ki, belə olacaq. Sonra yenə gələcəyimizi və gec olduğuna görə artıq yola düşməli olduğumuzu dedik. Sağollaşıb maşına mindik. Nə qədər əlləşsək də maşın işə düşmədi. Mən yola çıxıb maşın, sonra da usta tapana qədər 1 saatdan çox vaxt keçdi. Allah da bizim getməyimizi istəmirmiş. Sanki "son dəfə doya-doya görün",- deyirmiş. Maşın düzələndən sonra yola çıxdıq. Heç 5-6 metr getməmişdik atam güzgüdən arxaya baxa-baxa dedi ki, maşını saxla. Maşını saxladım, atam maşından düşüb Orxan və Raminə dedi ki, bir əsgər salamı verin, şəklinizi çəkim. Atamın ürəyi getmək istəmirdi. Sanki ürəyinə

dammışdı. Orada son dəfə şəkillərini çəkdikdən sonra yola düzəldik. Güzgüdən mən ona, o da bizə baxırdı. Sonra bir neçə dəfə telefon danışığımız oldu ki, onda da qısa hal-əhval tutmuşduq.

Turan deyir ki, müharibə başlayan zaman nədənsə Orxanın şəhid ola biləcəyi fikri ağlıma hakim kəsilmişdi. Turanın dediklərindən: "Müharibə başlayanda məzuniyyətdə idim. 1 həftə idi ki, Bakıya getmişdim. Məni təcili olaraq işə çağırdılar. Yol boyu hərbi kolonları, yolda dayanıb əsgərlərimizi bayraqlarla yola salan insanlarımızı gördükcə gözlərim doldu. Ağlımda bir şey var idi. Müharibə başlayır və Orxan ön xətdədir. Hər onları gördükcə: "Orxanın şəhid olma xəbərini eşidə bilərəm",- fikri ağlıma gəlirdi. Özüm-özümü danlayırdım ki, bu nə fikirlərdir, düşünürsən? Amma düz olacaqmış. Müharibə başlayandan sonra, bəlkə, dəfələrlə bu fikirlər məni rahat buraxmadı. O gün o bəd xəbər gələndə inanmadım. Gecə onun nəşini morqa gətirəndə getdim ki, onu gözlərimlə son olaraq görüm. Getdim və gördüm. Necə də böyümüşdü. Adəti idi, bir az saqqal saxlayardı, mən isə danlayardım ki, səliqəli ol , çox saqqal saxlama. Morqda onun üzünün yenə tüklü olduğunu görəndə özümə nifrət elədim ki, mən deməklə deyilmiş. Kaş elə sağ olaydı, bir də ona üzünü qırx deməz, danlamazdım".

Turan şəhid qardaşı Orxanla bağlı bəzi məqamları belə xatırlayır: "Orxan son görüşdə dedi ki, bizi Daşkəsənə aparacaqlar. Ora gedəndən sonra mənə yazdı ki, danışmağa imkan yoxdur, set tutmur, narahat olmayın. 3-4 gündən bir əlaqə yaradırdıq. Oktyabrın 6-sı Orxanın ad günü idi. Həmin gün onlarla əlaqə yarada bilmədik. Mən çox pis oldum ki, niyə yığa bilmədi, biz onu bir kəlmə təbrik edərdik, sevinərdi. 7-si özü bizə zəng etdi. Anamla, mənimlə danışdı. Onu təbrik elədik. Vəziyyətini soruşdum. Onda artıq müharibə davam edirdi. Dedi normaldır. Düzdür, biz də atırıq , amma cəbhənin digər istiqamətlərində gedən döyüşlər qədər qızğın deyil. Mən soruşdum ki, ad gününü qeyd elədinmi? Dedi ki, hə. Dedim ki, necə ? Dedi ki, 2 rumka süzmüşdüm. Anama baxdım ki, bəs bu içən adam

deyildi. Burada içməyib, gedib orada içəcək? Dedim ki, 2 rumka nədir? Dedi, 2 rumka süzmüşəm, sən özün bilərsən. Başa düşdüm ki, 2 dəfə topdan erməni postuna atəş atıb, bu onun üçün ad günü hədiyyəsi idi, ad gününü bu çür qeyd edib. Sonra da söylədi ki, indiyədək 13-14-nü vurmuşam. Əlavə etdi ki, 2 günüm qalıb, 2 gündən sonra xidmətimin 1 ili tamam olacaq. Nə biləydi ki, ömrünə elə 2 gün qalıb, 2 gün sonra şəhid oldu".

Şəhid qardaşı bildirir ki, Orxanın şəhidlik xəbərini öncə ondan gizlətsələr də, o xəbərin üstünə çıxıb: "Oktyabrın 9-da əmimoğlunu yola salırdım. Həyat yoldaşı ona zəng etdi ki, atan tez-tələsik çölə çıxdı, deyəsən, xəbər var, gör nədir. Guya, digər əmioğlunu əsgər aparırlar. Özüm də səfərbərlik və hərbi xidmətə çağırış üzrə Dövlət Xidmətinin rayon idarəsinə yollandım. Dedim, görüm, əmim oğlu universitetdə oxuyur, onu necə aparırlar?! Gedəndə gördüm ki, heç kim çağrılmır. Maşından düşən də gördüm ki, böyük əmim oradadır. Mənə dedi ki, səbirli ol, mən də deyirəm, əmi, sən səbirli ol. Heç ağlıma gəlməz ki, belə bir şey olar. İçəri keçdik, gördüm, bütün şöbə nümayəndələri, məhkəmə, kənd nümayəndəliyi – bütün şöbələrdən nümayəndələr var. Gördüm, əmim kövrəldi. Dedim, nə olub, əmi? Vaenkom dedi ki, Orxan şəhid olub, gətirirlər. Sonra əmimoğlu, əmim gəldi. Onlar istəyirlərmiş ki, bizə deməsinlər, istəyirdilər, səhər desinlər, amma mən gəlib söhbətin üstünə çıxdım. Gecə səhərə qədər evə gedə bilmədim. Səhər evə yollandım. Bəd xəbəri çatdırmaq mənə qismət oldu. 9 oktyabrda Orxan şəhid oldu, 10 oktyabrda isə dəfn edildi"..

Turan qeyd edir ki, dayısı Əliyar Hacı oğlu Əliyev 1-ci Qarabağ müharibəsində şəhid olub Şəhidlər xiyabanında dəfn olunub. Orxan da onun davamçısıdır: "İgid oğul dayısına oxşayar" deyiblər.

Övlad itirmək valideynçün, qardaş itirmək bacı, qardaşçün çox dözülməz dərddir. Bu ağır itkini övlad itirən valideynlər də, qardaş itirən qardaşlar da yaxşı bilir. Qardaşı belə gənc yaşlarında itirənəsə, bu daha ağırdır. Bu xəbəri eşidən də özümü itirdim. Bir neçə

saat özümə gələ bilmədim və saat 5-ə kimi evə gedə bilmədim. Əmilərim dedi ki, özünü ələ al, xəbəri evdəkilərə de. Evə getdik. Qapını atam açdı, əmim dedi ki, həyətə gəl. Anama bu xəbəri gecə vermək olmazdı, çünki yanında adam yox idi. Atam sakitcə qapını bağlayıb içəri keçdi. Çünki, artıq bizi görən kimi vəziyyəti anlamışdı. Onun həyətə düşmədiyini görüb özüm otağa, onun yanına getdim. Gördüm ki, atam yerə yıxılıb, səssizcə ağlayır. Çəkdiyi fəryad indi də qulaqlarımdadı.. Sadəcə, bir kəlmə deyə bildim, ata, oğlun Orxanla fəxr elə. Heç bir təsəlli verə bilmədim. Orxanın xəbəri atamın qəddini əydi. Mən onu heç vaxt ağlayan görməmişdim. Bu gün də atam Orxanını axtarır, otaqları gəzir, əli dəyən əşyalara toxunur, çarpayısına yaxınlaşıb oğlunun iyini, qoxusunu sinəsinə çəkir".

Turan Orxanın necə şəhid olmağından danışır: "Orxan topdan atıb, topdan aralanmamış, ermənilər tərəfdən də bunlara atıblar. Cəbhə yoldaşı Ramin deyir ki, biz atəş səsini eşitdik, amma Orxan eşitmədi. Ramin danışır ki, Orxanın başında iki papaq (hələ Orxan oktyabr 7-si zəng vuranda Daşkəsəndə qar yağdığını deyib) və "şilamafon" (topdan atanda səs onun qulaq pərdəsini zədələməsin deyə, istifadə edilir) olub. Orxana qışqırdıq ki, Orxan əyil, amma Orxan eşitmədi, üzübəri də qaça bilmədi, yer palçıq idi. Bir də baxdım ki, ona nə isə dəydi, Orxan fırlandı, yerə yıxıldı. Ona tərəf süründüm. Yanına çatanda baxdım ki, Orxan xırıldayır. Raket mərmisinə tuş gəlmişdi. Mərmi qayaya çırpılmış, arxasında olan pər isə Orxanın başının arxa nahiyəsindən dəymişdi. Həkim iynə vurdu ki, yaşada bilsin. Həmin an Orxana təcili cərrah lazım imiş, çünki beyin zədələnmişdi . Onu oradan aşağı düşürtməyə isə 3-4 saat vaxt lazım idi. Çatdıra bilmədik. Yaralanandan 2 saat sonra Orxan qucağımda şəhid oldu.

**Döyüş yoldaşı və uşaqlıq dostu Ramin Orxan haqqında xatirələrini bu cür bölüşür:** "Orxan hərbidə olduğuna görə qürur duyurdu. Adicə ərazi təmizləmək üçün çıxanda deyirdi: "Bu nədir? Belə xidmət olmur. Müharibə olsaydı, döyüşərdik". Müharibənin

başlamağına az qalmış posta çıxanda deyirdi: "Bax, indi xidmət edirəm". Narazılıq eləmirdi, əksinə, çox sevinirdi. Müharibə başlayanda məndən halallıq aldı ki, bəlkə hansımızsa şəhid olarıq. Ayrı-ayrı maşınlardayıq, amma rabitə ilə mənimlə halallaşıb deyirdi ki, əgər mənə nəsə olsa, ağlama. Ağlasan, pis olacağam. Daha da sevin ki, sənin qardaşın şəhid olub. Atışma zamanı Orxanın olduğu maşının arxasına mərmi düşdü. Gecə top komandirinə qulaq asmadan onları maşından çıxartdıq. Cilizin tozu atışda maşına dolur, adamın üzünə yapışırdı. Orxan üzünü yumurdu, deyirdi ki, bu toz mənə ləzzət edir. Ad günündə mülkü vətəndaşlar aşağıdan çörəkarası kotlet göndərmişdilər.Tağım komandiri Orxanı çox istəyirdi. Oturduq, 3-müz bir yerdə çörəkarası katleti yeməyə başladıq. Orxan dedi ki, bu ad günüm çox xoşuma gəldi və heç vaxt yadımdan çıxmayacaq. Nə bilərdik ki, bu Orxanın keçirəcəyi son ad günü imiş...".

Orxanın qardaşı Turan deyir ki, Orxan xidmətindən ətraflı danışmazdı. Bilirdi ki, hərbi sirdir. Çox güman ki, qayıtsaydı, xatirələrini danışardı, amma hərbi sirləri telefonla heç vaxt deməzdi. Onun hərbi xidməti haqqında daha çox bilən Ramindir. Çox istəyirdi ki, mənim toyumu görsün. Biz ailədə 3 qardaşıq. Orxan evin sonbeşiyi idi. Qismət olmadı, nə toy gördü, nə də ömür sürdü...

İnsanların xasiyyəti çox fərqlidir. Orxan məktəb illərində gəzməyi, qonaq getməyi çox xoşlamazdı. Qohumlarımızın 90%-zinin Bakıda yaşamağına baxmayaraq, Orxan, onlara demək olar ki, ancaq toy dəvətlərində gedərdi.

Universitetə qəbul olub Naxçıvana gedəndəndən sonra çox dəyişdi. Daha çox həyatı əsgərlikdə olarkən öyrəndi. Bir il müddətində çox böyümüşdü. Valideynlərinin də, müəllimlərinin də öyrətdiklərindən daha çox həyat onu öyrətdi. Orxan həyatsevər oğlan idi. Heç kim onun həyata olan eşqini söndürə bilməzdi. Deyirdi ki, hüquqşünas olacağam. Atam Ədliyyə Nazirliyinin Göyçay Regional Ədliyyə idarəsində mayor vəzifəsini icra edir. Mən isə Göyçay Polis şöbəsində tədqiqatçı işləyirəm, baş leytenantam. Orxan da gəlib hüquqşünaslıq üzrə fəaliyyət göstərəcəkdi. Ona hüquqşünas olmaq

qismət olmadı. Qardaşımın qisməti şəhidlik imiş. Orxan təbiətən çox istiqanlı, səmimi bir insan idi. Düşünmürəm ki, Orxan kimisə özündən incik salsın, qəlbini qırsın. Mübahisəni sevməzdi. Amma bir konfilikt yaranardısa, dala durmazdı, tam aydınlaşdırmayana kimi sakitləşmədi. Tərsliyi də var idi. Sözü bir dəfə deyərdi. Hər deyilən sözə inanmazdı, axtarardı, arayardı. Mən deyərdim ki, qardaşımda hüquqşünasa xas olan xarakter, xüsusiyyətlər var idi. Borcunu da bilirdi, hüququnu da. Həm də onda gendən gəlmə bir kişilik var idi. Gəncliyinə baxmayaraq insanları sözündən, gözündən tanıyardı. Deyərdi ki, sözü düz, bütov, dürüst insanların gözü, baxışı təmiz olar. Kişi danışanda yerə, göyə baxmaz, əzilə-əzilə danışmaz, düz insanın, qarşısındakının gözünün içinə şah baxaraq danışar.

Orxanın az ömür sürməsi onun həyatının nizamını, planını, proqramını alt-üst etdi. O həm də incə ruhlu bir insan idi. Sevməyi də, sevilməyi də bacarmışdı. Şəhid olduqdan sonra onun qəlbində ülvi bir sevginin də cücərdiyini, pöhrələndiyini, yaşadığını öyrəndik. Sevdiyi xanım Orxan şəhid olduqdan sonra, sinif yoldaşları ilə birlikdə evimizə gəlir. Ailə onu tanımayıb. Orxan sevdiyi xanıma görə tez evlənəcəyinə qərar verib və bu istəyini tək anamıza deyib. Orxanın sevdiyi xanım Orxanın 40 mərasimində məzarını ziyarətə gedib və ora bir məktub qoyub. Məktubda yazılmışdı: “Gəldim məzarına, şəhidim. Ruhun şad olsun. Hər zaman ürəyimdəsən. 16.12.2020”.

Turan bəy deyir ki, Orxan ölmək istəməsə də, şəhid olmaq istəyirdi. Orxanı sözlə ifadə etmək mümkün deyil. O, çox fərqli xarakterə malik idi. Onda güclü həyat eşqi, yaşamaq həvəsi var idi. Orxan ölmək istəməzdi, amma əminəm ki, şəhid olmaq istəyərdi. Onun dostu bizə dedi ki, biz Orxana dəfələrlə dedik ki, getmə, topdan atma, yerimizi bilirlər, razılaşmadı. Dedi, yox, gedəcəyəm, atacağam, erməni şərəfsizlərini qıracağam, axırlarına çıxacağam. Orxan düşməndən qorxmurdu. Ona görə də bizi eşitmədi, getdi. O , cəsur idi, igid idi, şir ürəkli idi.

Torpağa qan qarışanda vətən olur, deyillər. O vətən ki, 30 il sonra qəhrəman igidlərimizin qanları-canları hesabına bütövləşdi. O qəhrəmanlar illərdir həsrətlə gözlədiyimiz yolu bizim üçün yaxın etdi. Vətən yolunda ən uca zirvəyə-şəhidliyə ucaldılar.

Adını 2-ci Qarabağ müharibəsi tarixinin şanlı səhifəsinə yazdıran şəhidimiz Kərimli Orxan Akif oğlu 10 oktyabr tarixində Göyçay şəhərinin şəhidlər xiyabanında böyük izdihamla canından artıq sevdiyi torpağa tapşırıldı. Məkanın cənnət olsun, şəhidim. Amin!

Bizə verilən məlumatlardan məlum olur ki, Orxan Kərimli Vətən sevdalısı, Leylası Azərbaycan adlı məmləkət olan həqiqi aşıq, təpədən-dırnacan millət fədaisi imiş.

## ORXANIM

Ömrünün baharı xəzanə döndü,
Ömrünün gülləri soldu, Orxanım.
Hamımız qərq olduq göz yaşalarına,
Anan saçlarını yoldu, Orxanım.

Doyunca üzünü görmədik sənin,
İtdin qucağında dumanın, çənin,
Uyudun qoynunda ana Vətənin,
Məzarın nur ilə dolsun, Orxanım!

***



**40. İNTİZAM QAÇAYEV**
**(14.12.2001 – 22.10.2020)**

İntizam Əkbər oğlu Qaçayev 2001-ci il dekabrın 14-də Göyçay rayonunun 2-ci Ərəbcəbirli kəndində anadan olub. Subay idi.

Azərbaycan Ordusunun əsgəri olan İntizam Qaçayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmiş, 22 oktyabr 2020-ci il Qubadlı istiqamətində gedən döyüşlərdə düşmənlə üz-üzə döyüş zamanı şəhid olmuşdur. 23 oktyabrda Göyçayın Ərəbcəbirli kəndində böyük izdihamla dəfn edilmişdir. Allah rəhmət eləsin.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən İntizam Qaçayev ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edilmişdir.

***

İntizam Əkbər oğlu Qaçayev 2008 ildə Ceyhun İbrahimov adına Ərəbcəbirli kənd ümumi orta məktəbinə qəbul olunmuş, 2017-ci ildə oranı bitirmişdir. 2020-ci il yanvar ayında hərbi xidmətə çağırılmış, Ağcabədi şəhərindəki 704 N-li hərbi hissəsində qulluq etmişdir. Hərbi xidmətdə olduğu doqquz ay müddətində manqa komandiri olmuş, 2020-ci il sentyabrın 27-də başlayan 2-ci Qarabağ müharibəsində Füzuli, Cəbrayıl və Qubadlı istiqamətlərində gedən döyüşlərdə fəal iştirak etmişdir.

**Bacısı Aysel xanımın söylədiklərindən:** Biz ailədə 3 uşaq olmuşuq. İntizam evin sonbeşiyi olub. Hamıdan kiçik olsa belə ağlı, kamalı ilə fərqlənirdi. O, çox savadlı idi. Məktəbdə və sinifdə çalışqanlığıyla, savadıyla sinif uşaqlarından seçilirdi. Oxuduğu məktəbdə müəllim kollektivinin və şagird yoldaşlarının hörmətini qazanmışdı. İntizamda vətənə, torpağa qarşı böyük bir sevgi, bağlılıq var idi. Hələ çox kiçik olarkən, "mən böyüyüb əsgər gedəcəyəm, düşmənlərimizi öldürəcəyəm",- deyirdi.

Təbii ki, qardaşımla bağlı xatirələrim bitib-tükənməzdir. Amma elə hiss, elə yaşantılarımız olub ki, fikrimi ifadə etməkdə çətinlik çəkirəm. Qardaşım istər ailə içi, istərsə də kənarda heç kəsin qəlbinə toxunmazdı. Onun bir gülüşü var idi ki, o gülüşüylə ən ciddi adamı güldürərdi. Sifətindən təbəssüm əskik olmazdı. İntizamın gözəl arzuları var idi. Elə bil ömrünün qısa olacağı ürəyinə dammışdı. O əsgər gedərkən dedi ki, ata, mənə qonaqlıq edin, bəlkə, getdim qayıtmadım. Öz qonaqlığında "Laçınım" mahnısını çaldırdı. Əsgər getdikdən sonra can atırdı ki, məzuniyyət götürüb evə gəlsin, ata, anasını, doğmalarını görsün. Amma istəyinə çata bilmədi. Nə məzuniyyətə gələ bildi, nə də valideynlərini görə bildi. O, həyat sevər bir insan idi. Yaşayıb-yaratmaq, xəyallarını gerçəkləşdirmək istəyirdi. Mənim mərd, igid qardaşımın ömrü də, arzuları da yarıda qaldı. Tale ona şəhidlik zirvəsi nəsib etdi. O yüksəldi, ən uca məqama çatdı. Bəlkə də xəyal etdiyi ən əlçatmaz və uca zirvə şəhidlik imiş. Şəhidlik qəlbi, niyyəti, əməli pak olan insanlara nəsib olur axı... Mənim ürəyim! Mənim şəhid qardaşım, məkanın cənnət olsun !Amin!

**İntizamın bibisi qızı Şəhanə xanımın söylədiklərindən:** İntizam bizim canımızdan bir parça, ürəyi təmiz, saf, həyatsevər bir gənc idi. Nəslimizin sonbeşiyi, ailənin sevimlisi idi. Uşaqlıqdan bir yerdə böyümüşdük. O məndən bir neçə yaş kiçik olsa da, ürəyi çox böyük idi. Ən çox özündən yaşca böyüklərlə dostluq edərdi. Çünki ağlı, təfəkkürü ona imkan verirdi. Gəzməyi, əylənməyi çox sevirdi. Günün hansı vaxtında çağırsaydın, tez bir zamanda özünü çatdırardı. Bizə gələn kimi anama deyirdi ki, bibi, samavarı gətir, özüm qaynadacam. Çox mərd, mətin oğlan idi. Onunla bağlı xatirələrim çoxdur, amma fikrimiləri-mi yazmağa çətinlik şəkirəm. Bir dəfə zarafatla ona dedim ki, İnti, gözlərini ver bacıya. Dedi ki, baş üstə. Bir gözlə ürəyin xoş olacaqsa, "üf" demədən verərəm. Əsgər getməyinə saylı günlər qalmışdı. 4 yanvar 2020-ci ildə, bayramdan sonra bizə gəldi. Evdə şar var idi. Şarın birini əlinə götürüb üstünə əsgər gedəcəyi günü bir də qaydacağı günü yazdı. Dedi, bu şarı mən gələnə kimi saxla, çalış partlamasın. Amma yazdığı gündən tez gəldi, özü də necə... Bir gün də söhbət etdiyimiz zaman hərbi xidmətdən söz düşdü. Dedi nə gözəl olardı ki, bayrağa bükülüb gələydim. Sanki ürəyinə nəsə dammışdı. Bir gün də böyük dayımın ad günü idi. Zəng vurub təbrik elədi. Dedi ki, əmi, qismət olarsa gələn il ad gününü bir yerdə qeyd edərik.

Səsi üçün, gülüşü üçün, şirin-şirin zarafatları üçün çox darıxmışam. Bircə an səsini eşitmək üçün o mənimçün gözlərini "uf" demədən vermək istədiyi kimi, mən də ürəyimi qurban verərdim. Kimlərsə bibi qızı, dayı oğlu olduğu halda aralarında soyuqluq ola bilər, münasibətləri olmaya bilər. Amma biz 5 uşaq ( onlar 3 uşaq olub, biz iki) hər zaman birlikdə olmuşuq. Bir tikəmizi də bir-birimizlə bölüb yemişik. Bir-birimizə doğma bacı-qardaş olmuşuq. Aysel onun ayrılığına necə yanırsa, mən də elə yanıram. Onsuz keçən günlər hər gün bizi bir az öldürür. Deyirlər insan zaman –zaman hər şeyə alışır. Yox, sadəcə onun gələcəyinə ümid edərək dözürük, yaşayırıq. Bir möcüzə olacağına inanırıq. Çünki canım-ciyərim "iyul ayında gələcəyəm" geyib getmişdi. O, heç vaxt yalan danışan olmayıb. O, mütləq gələcək. Hər gün statuslar paylaşardı. Hamısı da yarımçıq sevgi, yarımçıq arzular. Bir gün ona dedim ki, ay İnti, bu nə vidyeolardı paylaşırsan? Yaşına bax, paylaşdığın videolara bax. Üzümə baxdı, gülə-gülə: "Sən kişi işinə qarışma",- dedi. Can

qardaşım, can, deməli, sən arzularının, ömrünün yarıda qalacağını bilirsənmiş.

Məzarın nurla dolsun!

***



## 41. HƏSƏN BAYRAMOV (2001 – 01.10. 2020)

Həsən Ağaisa oğlu Bayramov 2001-ci ildə Göyçay rayonunun 1-ci Ərəbcəbirli kəndində anadan olmuş, dörd nəfərlik bir ailədə (ata, ana və iki qardaş) böyüyüb boya-başa çatmışdır.
Həsən 2007-ci ildə Qantəmir adına 9 nömrəli tam orta məktəbin birinci sinfinə qəbul olunmuş, 2016-cı ildə doqquzuncu sinifi bitirmiş və Göyçayın 106 nömrəli peşə liseyində təhsilini davam etdirmişdir. Sürücülük ixtisasına yiyələndikdən sonra 2019-cu ildə 18 yaşında həqiqi hərbi xidmətə çağırılmış, hərbi xidmətini Goranboy rayonunada, Ağcakənd kəndindəki 701 N-li hərbi hissədə keçirmişdir.

Verilən məlumatlardan aydın olur ki, Həsən çox ağıllı tərbiyəli və zəhmətkeş bir gənc imiş. Anasına çox bağlı, qonaqpərvər, dostluqda sədaqətli, böyüklə böyük, kiçiklə kiçik olmağaı bacaran Həsəngilin hissəsini müharibə ərəfəsində Goranboyun Meşəli kəndinə, ordan da müharibə başlanan kimi birbaşa döyüş bölgəsinə aparıblar. Həsənin anası ilə son danışığı sentyabrın 28-də səhər saat

6:45-də olub. Anasına söyləyib ki, ana, heç nədən qorxma, ağalama, hər şey yaxşı olacaq. Allah qoysa yenə danışacağam və o gündən Həsənlə telfon əlaqəsi kəsilib. Anası deyir ki, çox gözləsək də, Həzəndən səs-səmir çıxmadı və biz narahat olmağa başladıq. Həsəni axdarmağa başlasaq da, onunla əlaqə yarada bilmədik. Bir neçə gündən sonra bizə məlumat verdilər ki, Həsən oktyabrın 1-də Ağdərə və Suqovşan istiqamətində gedən şiddətli döyüşlərdə qəhrəmancasına şəhid olub, amma nəşini döyüş zonasınadan götürmək mümkün olmayıb.

Beləliklə, Həsənin şəhid olması, yaxud itkin düşməsi məsələsi dəqiq bilinməyib. Nəhayət uzun axtarışdan, yəni iki ay on üç gün sonra Həsənin nəşi tapılıaraq ailəsinə təhvil verilmiş və Şəhidin nəşi 13 dekabr 2020-ci il tarixində doğulduğu Göyçay rayonun Birinci Ərəbcərirli kəndinə gətirilmiş, böyük izdihamla Göyçay şəhərinin Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Həsən Bayramov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

## BAŞINI UCA SAXLA

Hər damla şəhid qanı, yüz kafirə əvəzdir.
Evə girmiş ilanın balan başını əzdi.
Qiyamətə qalmadı bu vətənin qisası.
Başını uca saxla daha, şəhid anası!

Qoy kafirlər görməsin yanağında yaşını,
Torpaq azad olunur, bir də əymə başını.
Yağı düşmən olubdu öz haqqına çatası,
Başını uca saxla daha, şəhid anası!

Bu müqəddəs torpaqdan mənfur izlər pozulur,
Torpaqda Vətən sözü indi qanla yazılır.
Silinməsin əllərdən gəlinlərin xınası,
Başını uca saxla daha, şəhid anası!

Hər damla şəhid qanı bitirəcək bir lalə,
Gülüstana dönəcək torpağımız gör hələ.
Günəşdən nur alacaq Azərbaycan səması,
Başını uca saxla daha, şəhid anası!
Bilirəm bala dağı bir dözülməz dağ olur,
Hər yadına düşəndə, ürəyin dağ-dağ olur.
Ondan ağır dərd də var, vətən dərdi, bəlası,
Başını uca saxla daha, şəhid anası!

Ağ buludun gözündən torpağa nur sığılır,
İndi səma aydındır, qara bulud dağılır.
Yayılacaq dünyaya Azərbaycan sədası,
Başını uca saxla daha, şəhid anası!

Bu xalqın sinəsində yatmış pələng oyandı,
Düşmən özü tökdüyü, nahaq qana bulandı.
Çatdı tanrı dərgahına milyonların duası,
Başını uca saxla daha, şəhid anası!

Kəsiləcək bu yurddan yağıların ayağı!
Kəlbəcərdə, Laçında, Xankəndində, Şuşada
Ucalacaq Azərbayan bayrağı!
O gün deyil uzaqda,
Başdan-başa vətən cənnət olacaq!
Ulu öndər demişkən:
“Azərbaycan dünyaya Günəş kimi doğacaq!!”

***Mirsəyyaf Zamanlı***

***



## 42.AZƏR ƏLİYEV

**(21.03.2002 – 30.10.2020)**

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi Azər Elnur oğlu Əliyev 21 mart 2002-ci ildə Göyçay rayonunun Gürdşaban kəndində anadan olmuşdur.

Yaşıdları kimi o da 2008-ci ildə kəndlərindəki orta məktəbin 1-ci sinfinə qəbul edilmişdur. Sinif yoldaşları və müəllimlərinin dediklərinə görə, o çalışqan, nümunəvi, ictimai işlərdə fəal iştiarak edən şagird olmuş, vətənpərvərlik tədbirlərində xüsusilə seçilmişdir.

2019-cu ildə orta məktəbi bitirən Azər BİTK-yə qəbul olunmuş, əsgərlik yaşı çatdığına görə təhsilin yarımçıq qoyaraq hərbi xidmətə yollanmışdır.

Azər xidmət zamanı tankçı peçəsinə yiyələnmiş, Vətən müharibəsi başlanan kimi döyüşlərdə iştirak etmişdir. Döyüş dostlarının sözlərinə görə, Füzuli istiqamətindəki döyüşlərin birində düşmən tərəfindən vurulan tankımızdan ekipaj üzvlərini çıxartdıqdan sonra avtomatı götürərək tankların birinin üzərinə çıxan Azər üstümüzə gələn erməni əsəgərlərini atəşə tutur, düşmənin xeyli sayda canlı qüvvəsini məhv edir.

Yaşı hələ 19-a çatmamış igid əsəgərimiz 30 oktyabr 2020-ci ildə Füzuli istiqamətində gedən döyüşlərdə şəhid olmuş, doğulduğu kəndin qəbiristanlığında torpağa tapşırılmışdır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün-

Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Azər Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

**GƏLİRİK**

Daşdı səbri ürəklərin,
Hirs vurdu başa, gəlirik,
Yalanları təlxəklərin
Çırpıldı daşa, gəlirik -
Gəlirik, Şuşa, gəlirik.

Tərtər şad etdi arxları,
Dönür dəyirman çarxları,
Sel kimi üzü yuxarı
Biz daşa-daşa gəlirik,
Gəlirik, Şuşa, gəlirik.

Vaxtın dəyişib vaxtını,
Zülmün aşırıb taxtını,
Ömrünün qalan vaxtını
Bizimlə yaşa, gəlirik,
Gəlirik, Şuşa, gəlirik.

Süngülər ucunda ilik,
Yerin canı deşik-dəlik,
Deyə bilmərəm hələlik,
Kimdir günahkar, bilirik,
Gəlirik, Şuşa, gəlirik.

Cəsarətlə əl-qolun aç,
Ordumuzdan oldu əlac,
Əldə bayraq gülə-gülə,
Köksündə ona yer elə,
Qayıdaraq əbədilik,
Gəlirik, Şuşa, gəlirik...

***



**43.AYAZ ƏHMƏDOV**
**(04.03.2002 – 08.10.2020)**

Azərbaycan Silahlı Qüvvələrinin- əsgəri, Vətən müharibəsinin şəhidi Ayaz Elson oğlu Əhmədov 4 mart 2002-ci ildə Göyçay rayonunun İkinci Ərəbcəbirli kəndində anadan olmuşdur.

İlk təhsilinə 2007-ci ildə Ceyhun Ibrahimov adina Ərəbcəbirli kənd orta məktəbində başlayn Ayaz 2016-cı ildə 9-cu sinfi bitirdikdən sonra Goycay Peşe liseyinə daxil olaraq 2018-ci ildə təhsilini tamamlamışdır.

2018-ci ildə həqiqi hərbi xidmətə çağırılan Ayaz 2020-ci ilin yanvarında ordudan tərxis olunaraq kəndə qayıtmış, maddi ehtiyacını ödəmək və gələcək həyat problemlərini həll etmək üçün əmək fəaliyyətinə başlamışdır. Tərxis olunmasına baxmayaraq hər zaman ürəyi Vətən sevgisiy ilə döyünüb və həmişə ailəsinə şəhidlik zirvəsindən bəhs edirmiş.

21sentyabr 2020-ci ildə səfərbərliyə alınaraq cəbhəyə yollanan Ayaz Tərtər bölgsində N sayli hərbi hissədə topçu, baş atıcı, manqa komandiri vəzifələrini icra etmişdir.

Ağdam və Agdərə istiqamətində gedən döyuşlərdə qəhrəmanlıqlar göstərib 6 oktyabr 2020-ci ilə kimi igidliyi, qorxmazlığı,vətənpərvərliyi ilə sayılıb-secilən Ayaz son dəfə ailəsi ilə əlaqə saxlayanda ancaq və ancaq irəli getdiklərini, erməni canilərini qovub torpaqlarımızı işgaldan azad edəcəklərini bildirmişdir. 7 oktyabr 2020-ci il tarixində Ermənistan silahlı qüvvələrinin bölmələri

Azərbaycan-Ermənistan dövlət sərhədinin Ağdam istiqamətində mövqelərimizi ələ keçirmək məqsədilə artilleriya atəşindən istifadə edərək hücuma keçməyə cəhd göstərməsi nəticəsində əks hücuma keçən Azərbaycan ordusu işğal altında olan torpaqlarımızın azad olması uğrunda əməliyyat keçirmiş, həmin döyüşdə gənc əsgər Ayaz Əhmədov şəhid olmuşdur.

Şücaəti və mərdliyi ilə örnək olan Ayazın arzusu işğal altında olan torpaqlarımızı azad görmək və Qarabağda şanlı bayragımızı ucaltmaq idi.

Şəhid Ayaz Elson oglu Əhmədovun nəşi doguldugu Goycay rayonuna gətirilərək İkinci Ərəbcəbirli kənd qəbirstanlığinda dəfn olunmuşdur.

Tarix yazan və şəhidlik zirvəsinə yuksələn qəhrəmanımızıa fəxr edir, ona Allahdan rəhmət diləyirik..

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Ayaz Əhmədov ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edilmişdir.

**Atasının söylədiklərindən:** Ayaz mənim yeganə oğlum idi.



O vətənə çox bağlı bir gənc idi. Mən həmişə oğlumla fəxr edirdim. Ayazın uşaqlıqdan maşına çox böyük həvəsi var idi. Boş vaxtlarında maşın şəkilləri çəkirdi. Bu istək onu sürücülük peşəsinə yönəltdi.

İdmana da böyük marağı var idi. 5-ci sinifdə oxuyarkən namaz qılmağa başladı. Çox imanlı oğul idi. Dini kinolara çox baxırdı. Oğlum torpaq uğrunda şəhid olmağı böyük fəxarət, yüksəklik hesab edirdi. O, öz arzusuna çatdı. Allah onu eşitdi və ən uca zirvəyə qaldırdı. Mən qeyrətli, mərd oğlumla fəxr edirəm. Ayaz kimi oğullar hər zaman ürəklərdə, əməllərdə yaşayacaq. Şəhidləri hörmətlə yad edən, qayğı göstərən xalqıma, millətimə təşəkkür edirəm.

**Şəhid Ayaz Əhmədovun anasının dilindən:** Ayaz körpəliyindən mehriban, zarafatcıl, gülərüz uşaq idi. Məktəbə valideynlər iclasına gedəndə müəllimləri Ayazın çox gülməyindən şikayət edirdilər. Amma Ayazın çox bacarıqlı, tərbiyəli olduğunu da qeyd edirdilər. Ayaz uşaqlığından vətənpərvər bir oğul idi. Özünə taxtadan avtomat düzəldərdi. Soruşanda onu neynirsən, deyirdi ki, böyüyəndə əsgər olacağam. 1 il 6 ay əsgərlik dövründə bizə ancaq ondan təriflər gəlirdi. Komandirlər Ayazın çox tərbiyəli əsgər olduğunu deyirdilər. Əsgərlikdən gəldiyi 9 ay idi. Səfərbərliklə müharibəyə getdi. Səhər namazını qılıb yola düşdü. 14 günün tamamında şəhidlik zirvəsinə ucaldı. Oğlumun yoxluğu nə qədər acı olsa da, bir o qədər də qürur duyuram ki, Ayaz kimi oğulun anasıyam. Ayaz bir oğul kimi heç bir vaxt bizi incitməyib, narazı salmayıb. Onun qəlbində arzuları çox idi. Yeganə oğlum, şəhid Ayazım. Bir vaxtlar zarafatcıl, yumor hissi olan Ayazım, indi şəhidlik zirvəsinə yüksəlmisən.

Həmişə səninlə fəxr edəcəyəm. Sən bizim qürur yerimiz, and yerimizsən. Qəhrəman balam, şəhid Ayazım.

**Bacı Gültəkinin söylədiklərindən:** Ayaz mənim tək qardaşım idi. Uşaqlığımızdan bir –birimizə çox bağlı idik. Heç vaxt bir-birimizdən ayrılmazdıq. Məktəbə bir gedib bir gələrdik. O, heç vaxt məni incitməzdi. O, uşaqla uşaq, böyüklə böyük idi. O, uşaqlığından vətənə bağlı idi. Müharibəyə gedəndən sonra hər gün mənə zəng edərdi. “Dayısının ürəyi necədir”,- deyərdi. Onun son arzusu uşağı görmək idi. Balam böyüdükdən sonra biləcək ki, dayısı necə qəhrəman olub. Mən hər zaman qardaşımla fəxr etmişəm, son nəfəsimədək də onun qəhrəmanlığıyla qürur duyacağam.

Mənim ürəyim, sən həmişə yaşayacaqsan. Sən heç zaman unudulmayacaqsan!

Qardaşım şəkil çəkdirməyi çox sevirdi. Elə bil bilirdi ki, bir gün gələcək o şəkillər bizim təsəllimiz olacaq. Biz o şəkillərlə danışıb dərdləşəcəyik. Hər evdə onun xatirə şəkilləri yaşayır. Qəhrəman qardaşım Ayaz Əhmədov, ruhun qarşısında baş əyirəm!

Bacısı bizə yazır ki, onun yaşı az olsa da ürəyi böyük idi. Özünü həmişə yaşından böyük hiss edirdi. Elə bil zamanı qabaqlamışdı. Ayazın ulu babası Anadolu türkü olub. 1918-ci ildə erməni-müsəlman davasında Azərbaycanda yaralanıb və qalıb burada. Burda yaşayıb, evlənib. Ayaz 20 Yanvar şəhidləri ziyarət edəndə, babasını da ziyarət edirdi. Ayazın ən çox sevdiyi kino “Diriliş Ərtoğrul” olub. O hələ 5-ci sinifdən məscidə gedərdi. Məscid də öyrəndiyi, eşitdiyi dini söhbətləri gəlib evdə bizə də danışardı. Ayaz həmişə cənnətdən danışırdı. “Cənnətə getmək istəyirəm”, - deyirdi.

Ayazın telfonunda ancaq dini şəkillər, mahnılar olurdu. Sonuncu statusunda yazmışdı ki, “hökm tək Allahındır” və uzun işıqlı bir yol şəkli qoymuşdu. Sanki Ayazın ürəyinə dammışdı. Ona deyəndə ki, hərbi xidmətini başa vurub gəldikdən sonra, səni evləndirəcəyik. Deyirdi, mən evlənməyəcəm. O hərbi xidmətini başa vurduqdan sonra (1 yanvar 2020-ci il) bizdən xəbərsiz aprel ayında baş verən Tovuz döyüşlərinə adını yazdırmışdı. Ayaz sentyabrın 21-də

səhər namazını qılıb, bizimlə görüşüb, anasının üzündən təkrar-təkrar öpüb yola düşdü. Bir həftə Tərtərdə qalıb sonra Ağdam, Ağdərə istiqamətində baş verən döyüşlərə qatıldı. Evə zəng edib sevinə-sevinə dedi ki, 7 kəndi almışıq. Ermənilərin başını əzə-əzə gedirik. Əsgər yoldaşları deyir ki, Ayaz yanındakı 10 nəfər əsgər yoldaşları əsirliyə düşməsinlər deyə xilas edib, 20 dən çox erməni əsgərini öldürüb. Ayaza əsgər yoldaşları "özünü qoru" desələr də, o heç nədən qorxmayıb irəli gedib. O heç vaxt düşmən qarşısında baş əymədi. Mərdi-mərdanə gözlərinin içinə baxdı. Hər zaman üzü gülər Ayazın döyüşə girərkən gözlərindən od-alov yağırdı. Dişlərini bir-birinə sıxaraq, nifrətlə düşmənin üstlərinə gedirdi.

Ayaz oktyabrın 7-də, səhər 4-5 radələrində baş verən döyüşdə qəhrəmancasına şəhid oldu. Ayazın ayrılığı ürəyinizə sağalmaz yara vursa da, biz onunla ömür boyu qürur duyacağıq. Ayaz yaşasaydı martın 4-də 21 yaşı olacaqdı.

**Bacısının qardaşı Ayaza yazdığı şeir:**

Qara gözlüm idin şıltaq Ayazım,
Yeganə qardaşım, şəhid Ayazım
Sönən işıq oldun, batan səs oldun,
Qayıt gəl, nə olar, qayıt, Ayazım.

Vurdun ürəyimə sağalmaz yara,
Axtardım dərdimə tapmadım çarə,
Ürəyimi yandırıb sən etdin qara,
Qəhrəman qardaşım, şəhid Ayazım.

Gözümüz yolda, qulağımız səsdə,
Hər yerdə gəzirik, Ayazım səni.
Sən and yerimizsən, qürur yerimiz,

Qəhrəman qardaşım, şəhid qardaşım.

*Məkanın cənnət olsun! Amin*

**Qeyd:** Şəkildə Ayaz bacısı Gültəkinin oğlu Raulla

***



## 44.SƏMƏD ABDULLAYEV (17.06.2002 – 02.10.2020)

Səməd Sədiyar oğlu Abdullayev 2002-ci il iyunun 17də Göyçay rayonunun Qaraxıdır kəndində anadan olmuşdur.

Azərbaycan Ordusu Quru Qoşunlarının əsgəri olan Səməd Abdullayev 2020-ci il sentyabrın 27-də - Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı- Ağdərə şəhəri istiqamətində gedən döyüşlərdə savaşıb. Səməd Abdullayev oktyabrın 2-də Ağdərə döyüşləri zamanı şəhid olub. Göyçay rayonunun Qaraxıdır kəndində dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Səməd Abdullayev ölümündən sonra "Vətən uğrunda", 25.12.2020-ci il tarixli Sərəncamına əsasən "Füzulinin azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif olunmuşdur.

***

Səməd Abdullayev 2008-ci ildə Zülfüqar Zülfüqarov adına Qaraxıdır kənd tam orta məktəbin 1-ci sinfinə qəbul edilmiş, 2019-cu ildə həmin məktəbin məzunu olmuşdur.

Məktəbin fəal şagirdlərindən olan Səməd ailənin ilkidir. Kiçik qardaşı Qismətin 4 yaşı var. Ata-anasının dediyinə görə, Səməd nəvazişlə onu həmişə "balam" deyə çağırarmış. Səməd 2020-ci ildə

iyulun 7-də 18 yaşı tamam olan kimi həqiqi hərbi xidmətə çağırılmış, Ağcabədi rayonuundkı 704 saylı hərbi hissədə, sonra da Beyləqan rayonundakı 702 saylı hərbi hissədə atıcı kimi xidmət etmişdir.

İkinci Qarabağ döyüşləri başlanandan bir gün sonra, sentyabrın 28-də döyüşə girmiş, oktyabrın 1-də Füzuli istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalmış, Qaraxıdır kənd qəbiristanlığında dəfn olunmuşdur.

Səmədin atası Sədiyar Abdullayev də Azərbaycan torpaqlarının suverenliyi və ərazi bötövlüyü uğrunda döyüşmüş, Birinci Qarabağ döyüşlərinin iştirakçısı olmuşdur.

***

Səməd valideynlərini sevən, onları əziz tutan, başlarını uca edən bir övlad idi. Təbii ki, ailədə valideynlərinə hörmət qoyan övlad cəmiyyətdə də özünü idarə etməyi bacaracaq, qarşısındakılara və özünə dəyər verəcək. Yaxşı deyiblər ki, hər kəs öz ailəsinin təmsil edir. Ailə bir güzgüdür və övlad valideynlərini, demək olar ki, təkrar edir. Universitetdə dərs dediyim zaman tələbələri müşahidə edir, onların 90 faizinin hansı alilələrdən çıxdığını müəyyənləşdirir və zənninmdə də yanılmırdım. Səməd də, əslində ailəsinin bir parçası, timsalı idi.

**Atası Sədiyar Abdullayevin Səməd haqqında dediklərindən:** Səməd nə yaşadı ki, nə görə. Hələ təzə-təzə cücərməyə başlayan arzularının çöxunu özü ilə qara torpaq altına apardı. Arzularından biri də hərbiçi olub Vətənə şərəflə, qeyrətlə xidmət etmək idi.. Əsgər oldu, amma şox heyif ki, kor tale zabit olmağa, ürək dolusu Vətən keşiyində durmağa ona imkan vermədi. Əsgərlik həyatı cəmi 85 gün çəkdi.

Səməd çox bacarıqlı, qabiliyyətli, güclü misiqi duyumu olan uşaq idi. Heç bir müəllim yanına getmədən bir neçə musiqi alətində ifa etməyi sərbəst şəkildə öyrənmişdi. Böyük, kiçik yeri bilən, gücü, imkanı daxilində hamıya kömək etməyə can atdığından ətrafındakıların hörmətini qazanmışdı. Yaşından tez böyümüşdü. Elə bil zamanı qabaqlamışdı. Adama elə gəlirdi ki, onun 18 yox, 30 yaşı var idi.

**Anası Gülnar xanımın söylədiklərindən:** Belə bir oğul anası olmağımla fəxr edirdim. Ailədə və qonum-qonşuda, ümumiyyətlə, hər kəsə qarşı çox mehriban idi. Sabit xarakteri vardı. Gündə bir fikrə düşən, bu gün bir söz, sabah başqa söz danışanın biri deyildi. Bəzən elə olurdu ki, nəinki yaşıdları, hətta özündən böyüklər də ondan məsləhət alırdı. Yəni onun məsləhət verməyə ağlı və gücü çatırdı. Adamlar və hadisələr haqqında dəqiq proqnoz verməyi bacarırdı. Çox həssas və uzaqgörən idi. Heç bir söhbətə, işə sadəlövhcəsinə yanaşmazdı. Məsələni analiz edib dəqiqləşdirmədən hökm verməzdi. İnsanlar arasında sülh və əmin-amanlıq tərəfdarı idi. Artıq söz-söhbətdən, dedi-qodudan xoşlanmaz, bu qəbildən olan sözlərə heç qulaq da asmaz, əhəmiyyət də verməzdi. Boş vaxtlarında musiqiyə qulaq asmağı və müsiqi alətlərində çalmağı xoşlayardı. Anadangəlmə istedad idi. Musiqi təhsili almasa da, artıq müsiqiçi kimi tanınmağa başlamışdı.

Səməd vətənsevər və millətpərvər bir oğul idi. Deyirdi ki, hər birimizin Vətən qarşısında borcumuz var. Kaş ki, mən də borcumu verə biləydim. Hərbi xidmətə çağrılanda sevindi. Hərbi xidmətdə olarkən onu aşpaz qoymaq istəyiblər. O razılaşmayıb. Deyib ki, əldə silah ön cərgələrdə olmaq istəyirəm. Komandirləri bir qayda olaraq onu əsgərlərə nümunə göstəriblər.

Səmədin yuxuları çin çıxırdı. O öz aqibətini yuxuda görmüşdü. İnsan çox zaman yuxulara inanmaq istəmir. Fikirləşir ki, yuxudur da. Amma bir gün yuxusu çin çıxanda, az qalır dəli olsun. Axırıncı dəfə sentyabrın 28-də bizimlə telefonla danışdı. Atasına son sözləri bunlar oldu: “Zəng etdim ki, səsimi eşidin. Məndən narahat olmayın. Özünüzdən muğayət olun. İnşallah, hər şey yaxşı olar. Ata, evdəkilərə salam de. Sag olun. Hamınızı öpürəm”.

Oktyabrın 2-də balamın şəhidlik xəbəri gəldi. O gündən nə gecəm var, nə gündüzüm. Balam çox sevdiyi Vətən uğrunda şəhid oldu, ürəyində olan böyük arzuları da özüylə bir yerdə dəfn olundu....

Bir məclisdə Gülafət xanım  mənə dedi ki, Səmədin 3 mərasimi idi. Anası Gülnar xanımın halı pisləşdi. Ona yardım üçün dəvə-dərman gətirildi. Dərmanı Gülnar xanıma atdırmaq istəyən də gördülər ki, ananın ağzında dili şişib. Nə dərman vermək oldu, nə də bir qurtum su içirtmək.....

***

Bala itkisi anaların çəkə biləcəyi dərd deyil. Allah-təala heç bir ananın çiyninə belə bir yükü yükləməsin. Anaların yaşadığı acıdan, yanğıdan duman çıxsa, dünya əbədiyyən qaranlığa dönər. Hər kəs, xüsusilə ürəyi övlad yarası ilə dağlanmış analarımız yaxşı bilir övlad itkisi nə deməkdir. Allah şəhid övladları olan analarımızın yanan urəyinin alovuna su səpsin, ovundursun:

Üzün qara olsun Əzrayıl sənin,
Daha kim qaldı ki, alıb apardın.
Neçə oğulları, neçə qızları,
Kəhər atlarından salıb apardın.

Zülmətə döndərdin bağçanı, bağı,
Söndürdün, ay namərd, isti ocağı.
Ananın qəlbinə sən çəkib dağı,
Əlindən balasın alıb apardın.

***

Səməd çox alicənab bir ailənin övladıdır. İnsana xas olan ən ali keyfiyyətlər, inanın ki, o ailədə cəmlənib. 18 yaşlı gənc oğul itkisinin acısıyla yaşayan Səmədin atası Sədiyar Abdullayev və anası Gülnar xanım Ramazan bayramında onlara gedib təsəlli verən hər qonağı təmkinlə, yüksək səviyyədə qəbul edir və əziyyət çəkib onlara getdikləri üçün dəfələrlə təşəkkür edirlər. Mən də kənardan müşahidə edir və düşünürdüm: "İlahi, sən bu şəhid valideynlərinə nə qədər böyük insanlıq nəsib etmisən. Şəhidini ziyarət etmək hər kəsin müqəddəs borcudur. Demək olar ki, hər şəhid ailəsini, şəhid ziyarətinə gedənlərin valideynlərini, ailə üzvülərini belə gördüm. Xüsusilə




məni daha çox təəccübləndirən Səmədin valideynləri və Zamiq Əhmədovun ailəsi, həyat yoldaşı Çinarə xanım oldu. Ürək parçalayan səhnə, hər evin guşəsində şəhidlərin 10-larla şəkilləri, boynu bükük balalar, solğun bənizli gəlinlər, ağ saçlı analar, beli bükülmüş atalar, daha nələr, nələr... Bu böyük dərdin içərisində hər kəsi yüksək mədəniyyətlə qarşılamaq asan məsələ deyil. Düşünürəm ki, bu valideynlərin həm öz insanlığı, qapıdan içəri girən hər kəsə hörməti, həm də şəhid balalarına olan sevginin sübutudur. Allah səbrinizi versin. Qarşınızda baş əyirəm.

Səmədin atası Sədiyar Abdullayev deyir ki, mən Səmədə verilən Quranın tərcüməsini başdan-ayağa oxudum. O mənə dəstək oldu, həyata baxışım dəyişdi. Ayaq üstə durmağa, yaşamağa kömək oldu. Anladım ki, yaxşı gündə Allaha şükür etməyə nə var ki? Gərək dar günümüzdə də şükür dilimizdən düşməsin. Allahın bu gününə də 1000 dəfə şükür. Aldığına da şükür, verdiyinə də. Allah mərhəmətlidir, dərd verəndə, səbir də verir. Allah ağlımızı əlimizdən almasın.

Allah rəhmət eləsin, şəhidim!

**Qeyd:** Şəkildə şəhid Səmədin qardaşı Qismət qardaşının portreti ilə

***



## 45. SƏNAN MƏMMƏDOV
## (27.07.2002 -21.10.2020)

Sənan Tehran oğlu Məmmədov 2002-ci il iyulun 27-də Göyçay rayonunun Çaxırlı kəndində anadan olmuşdur. İlk təhsilinə kəndlərində başlayan Sənan Məmmədov 9-cu sinifdən başlayaraq Sabunçu qəsəbəsindəki liseyə getmiş və 3 il orada oxumuşdu. Liseydə oxuya-oxuya boks, cudo, sambo və karate ilə də məşğul olmuş, medallar qazanmış, bir sıra uğurlara imza atmışdı.

Sənan 2020-ci il yanvarın 14-də hərbi xidmətə çağırılmış, fevralın 14-də andiçmə mərasimindən sonra Beyləqan rayonundakı 161-ci hərbi hisəyə göndərilmiş, 5-6 ay orda xidmət etdikdən sonra Xocavəndə aparılmışdır.

Avqustun əvvəlindən başlayaraq 3 ay Xocavənddə xidmət edən Sənan müharibə başlayan kimi döyüşlərə qatılmış, oktyabrın 20-dən 21-ə keçən gecə şəhid olmuş, Göyçay rayonunda dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Sənan Məmmədov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

**Sorğumuza cavab olaraq bacısı Nərminə xanım deyir:** "Sənan evin tək oğlu, sonbeşiyimiz idi. Qardaşım çox sakit təbiətli, utancaq, böyük-kiçik yeri bilən idi. Hətta valideynlərindən də, bizdən də utanıb çəkinirdi. Heç vaxt özünə söz dedirtməzdi. Çalışırdı

ki, hərəkətlərində, sözündə səhvə yol verməsin. Heç bir pis vərdişi, valideyn utandıracaq hərəkətləri yox idi. Mən ailə quranda Sənanın 3 yaşı var idi. Mən onu qardaş yox, elə balam kimi sevib əzizləyirdim.

Çox şirin uşaq idi. Atam neft buruqlarında işləyirdi. Bizi çox əziyyətlə böyüdüb. Min əzab-əziyyətlə böyütdüyü tək oğlunun xeyrini, toyunu görə bilmədi. Ailəli olsaydı, heç olmasa nişanəsi qalar, təsəlli yerimiz olardı.

Valideyn üçün övladların hamısı əziz və sevimlidir. Amma bir gerçəklik var ki, övlad övladı əvəz edə bilmir... Biz ailədə 3 uşaq olmuşuq: 2 bacı, 1 qardaş. Mən ailəliyəm, Krasnodarda yaşayıram. 3 övladım var. Bacım Nuranə isə subaydır. Nə bacım, nə də mən valideynlərimizi ovuda bilmirik. Onlar gecə-gündüz “Sənan” deyib ağlayırlar. Atamın beli bükülüb. Anamın əsəbləri pozulub. O, şəhidi olan xəstədir, psixoloq nəzarətindədir.

Həyatda valideyn üçün övlad itkisindən ağır nə ola bilər ki? Belə valideynlərə təsəlli vermək mümkün deyil. Odsuz-ocaqsız yanırlar. Atam-anam günü-gündən şam kimi əriyirlər. Ağlamaqdan başqa əlimizdən heç nə gəlmir. Kaş nə müharibə olaydı, nə də ayrılıq. Qardaşımdan sonra özümün də səhhətimdə problemlər yaranıb. Toparlana bilmirik. Sizinlə danışdıqca, elə bilirəm ki, bu dəqiqə ürəyim dayanacaq. Əlim-ayağım əsir. Dərman içib danışmağa başlamışam ki, fikrimi axıra kimi çatdıra bilim. Amma bacarmıram, xanım, üzürlü hesab edin. Vallah, ondan nə qədər danışsam, sözüm qurtarmaz.

Can Sənanım!!! Axı niyə belə oldu? Dözə bilmirik. Qardaşım 10 ayın əsgəri oldu. Körpə, nur üzlü qardaşımla əsgər getməmişdən əvvəl oturub dərdləşdik. Hardan biləydik ki, bu son görüşümüz, son dərdləşməyimiz olacaq. Mənə dedi ki, bacı, görəcəksiz, səsim yüksəliklərdən gələcək, başınızı uca edəcəyəm. Nə biləydim ki, şəhidlik zirvəsini deyirmiş. Atamgil son dəfə andiçmədə yanına gedib onu görən oldular. Elə hey deyirdi gələcəyəm, yolumu gözləyin. Gəldi, özü də necə gəldi. Atamın ad gününə bayrağa bükülmüş

qutuda gəldi. Oktyabrın 22-si atamın ad günü idi. Təbrik edəcəkdik. Sənan bizi qabaqladı. Ayın 21-də hamımızın əvəzinə atamızı təbrik elədi.

Ay Sənanım, niyə belə etdin, atamın belini bükdün. Sən ki atanı çox istəyirdin. Sən şəhid olan gün biz də öldük. Sənanım, körpə quzum. Səndən doymadıq. Allah rəhmət eləsin. Amin!”

***



**46. ƏDALƏT DƏMİROV**
**(09.11.2002 – 02.11.2020)**

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi Ədalət Nüsrət oğlu Dəmirov 9 noyabr 2001-ci ildə Göyçay rayonunun Aşağı Qaraməryəm kəndində anadan olmuş, 18 yaşında Füzuli ugrunda gedən döyüşlərdə qəhrəmancasına Şəhid olmuşdur

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Ədalət Dəmirov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

***

Dörd nəfərlik ailədə (atası Nüsrət, anası Ruhiyyə, bacısı Bilurə) böyüyən Ədalət ailənin tək oğlu idi. 2009-cu ildə Göyçay rayonu Aşağı Qaraməryəm kənd tam orta məktəbinin 1-ci sinfinə getmiş, məktəb illərində çox sakit, tərbiyəli şagird kimi məktəb kollektivinin rəğbətini qazanmışdır. Məktəbdə hərbi hazırlıq dərsinə xüsusi marağı var idi. Bu maraq onun vətənpərvər bir gənc kimi yetişməsində də böyük rol oynamışdır.

Bizə verilən məlumatları ümumiləşdirərkən belə qərara gəlirik ki, sakit təbiəti, sülhsevərliyi ilə seçilən Ədalətin adı heç vaxt

qalmaqallı işlərdə hallanmazdı. Uşaqlar arasında münaqişə, söz söhbət olan zaman özünü çatdırar və məsələni müsbət həll edib küsülüləri barışdırardı. Gülə-gülə deyərmiş ki, ay uşaqlar, insan ömrü nə qədər uzundur ki, onu da umu-küsüylə, qəlb qırmaqla keşirdək. Mehriban olmaq, can deyib, can eşitmək lazımdır. Futbolu çox sevərdi, məhəllə uşaqları heç vaxt onsuz futbol oynamazdırlar. Ədalət bir qayda olaraq təmsil olunduğu komandanın kapitanı olardı. Çox dürüst bir gənc idi, əyriliyi sevməz və heç vaxt yalan danışmazdı. Düşünürdü ki, yalan ayaq açar, amma yeriməz.

Ədalət çox ünsiyyətcil və söhbətcil idi. Hər gün dərsdən gələn zaman məktəb təəssüratlarını canından çox istədiyi anasına danışardı. Müəllimlərinin hər birinə böyük hörməti var idi. Hər birindən ürək dolusu, sevə-sevə danışardı. O həm müəllim kollektivinə, həm də qonşulara çox hörmətlə yanaşardı. Böyük-kiçik yeri bilən idi. Bu onun ailə tərbiyəsindən irəli gəlirdi.

Onun saf və böyük ürəyi var idi. Xıslətilə çevrəsindəkilər arasında xüsusi yer qazanmışdı. Onun şəhidlik xəbəri gələndə bütün Ədalətsevərlər, kənd ayağa qalxdı. Onun tabutu qarşısında baş əydi. “Qohumluqda, qonşuluqda, dostluqda haqqını bizə halal elə”,- dedilər.

Ədalət heç vaxt valideynlərinə əziyyət verən övlad olmayıb. Ədalətin anası evdar qadın, atası isə yaşadıqları aşağı Qaraməryəm kəndində ayaqqabı ustası işləyir. Ədalət atasının çəkdiyi zəhməti görür və dəyərləndirirdi. Heç vaxt atasını artıq xərcə salmazdı.

Bir gün sinif yoldaşlarıyla rayon mərkəzinə gəzməyə gediblər. Atası ona 10 manat pul verir ki, xərcləsin. Ədalət rayon mərkəzinə gedir və uşaqlar əylənən karusellərdən, əyləncələrdən yan qaçır. O, evə qayıdarkən atasının verdiyi pulu ona qaytarır. Deyir, ata, xərcləyə bilmədim, ürəyim gəlmədi. Sən o pulu zülmlə qazanırsan. Sən 10 manatı qazanmaq üçün 4-5 cüt ayaqqabı söküb-tikməlisən. Mən onu 10 dəqiqədə xərcləyə bilərdim, amma vicdanım götürmədi. Bu pula biz un alıb 15-20 gün ailəliklə yeyə bilərik. İnşallah, orta

məktəbi bitirim, oxuyum, işləyim, pul qazanım, ailəmizə, sənə dəstək olum, sonra gəzmək, istirahət etmək olar.

Ədalət Ağcabədidə 10 ay əsgər olan müddətdə də valideynlərinin onun yanına getməsinə, xərclik göndərməsinə qətiyyən razı olmurdu. Deyirdi hər şey yaxşıdı, hər şeyimiz var. Heç nəyə ehtiyac yoxdur. O, valideynlərini buna inandırmışdı. Atasıyla əlaqəsi olan hər kəsdən də xahiş edib ki, bizim burda çətinliklər çəkdiyimizdən valideynlərin xəbəri olmasın. Bura əsgərlikdi, sanatoriya deyil. Gəlmişik və hər əziyyətə də dözməliyik.

Ədalət şəhid olduqdan sonra komandiri əyilib Ədalətin atasının ayaqlarını qucaqlayaraq göz yaşları içərisində demişdir: "Mən sizin kimi valideynlərin qarşısında baş əyirəm ki, belə övlad tərbiyə etmisiniz".

Ədalət haqqında mənə məlumatı bibisi Nura xanım göndərdi. Bibi ağlaya-ağlaya danışırdı. Deyirdi ki, bilirik, şəhidlik ali zirvədi, ucalıqdı, amma Ədalətsiz bizə yaşamaq çətindir. Ədalət özü boyda bir dünya idi. Ədalət bizim ağzımızın dadı idi. Neçə aylardı hər yerdə gözlərimiz Ədaləti axtarır. Elə bilirik qayıdacaq, mütləq qayıdacaq.



Əziz valideynlər, Ədalətin sevimli Nura bibisi! Mən sizi çox gözəl duyuram. İtkilərin də, ayrılıqların da ən ağırı övlad ayrılığıdı, övlad itkisidi. Amma sizin də, bizim də bir təsəllimiz var: Şəhidlər ölmür. Onlar əbədi olaraq yaşayacaqlar.

Ədalətin Billurə xanım adlı bir bacısı var. Ailəlidir. İsmayıllı rayonunun Aşıq Bayramlı kəndində yaşayır və Aytac adlı qızı var. O, Ədalət kimi oğulları, arxaları olduğu üçün valideynləri sarıdan rahat idi. Bacı qardaşıyla fəxr edir, Allaha dua edərdi ki, kaş ki, onların ailəsinin nizamı pozulmasın. Həmişə belə əmin-amanlıq, sakitlik, mehribanlıq olsun. Arzulayırdı ki, qardaşının qarşısına özü kimi saf, mehriban, valideynlərə dəyər verən bir həyat yoldaşı, gəlin çıxsın. Sən saydığını say, gör fələk nə sayır.

Ədalətin şəhid olması xəbəri ailənin sakitliyini də, rahatlığını da alt-üst etdi.

Ədalətin şəhid olması xəbərini eşidən yeganə bacı çox sarsıntı keçirdi, acılar yaşadı, günü-gündən narahatlaşmağa başladı. Çox keçmədən aydın oldu ki, bacısı bu xəbərdən şəkər xəstəliyi tapıb. O, artıq valideynlərin yeganə övladı, ümid yeri olan tək qızıdır. Allah ona şəfa versin.

Ədalət Cəbrayıl rayonu uğrunda gedən döyüşlərdə şəhid olub. Şəhid olması ilə bağlı xəbəri alanda atası Füzuli rayonuna yollanıb, oğlunun cəsədini axtarıb.

Ata deyir ki, həlak olanların cəsədini gətirib Füzulidəki xəstəxananın həyətinə yerləşdirirdilər. Ədalət minomyotla vurulmuşdu. Övladımı müəyyənləşdirmək üçün qan analizi verdim. 10 gün ana-

lizin cavablarını gözlədim. "Sən get, cavab olunca sənə zəng edəcəyik", - deyə bildirdilər. Zəng gəlmədikcə "yəqin oğlum sağdır", - deyə ürəyimdə düşünürdüm. Amma vaxt uzandıqca gözləyə bilmədim, yenidən Füzuliyə yollandım. Ədalətin nəşini həlak olan hərbiçilərin arasından tapdım. Oğlum şəhid olmuşdu.

Anası Ruhiyyə xanım oğlunun vətən yolunda şəhid olmasından qürur duyur. Deyir ki, yeganə təsəllim budur ki, Ədalət torpaqlarımızın azadlığı uğrunda döyüşüb və şəhid olub. Bir ana kimi oğlumun yoxluğu mənim üçün ağırdır. O, evin yeganə oğlu idi. Evin hər yerində onun xatirələri var.

Bibisi Nura xanımın sözlərinin çoxunu başa düşmək mümkün olmurdu. Xahiş elədim ki, özünüzü toparlayıb fikirlərinizi yazılı şəkildə göndərin ki, işin mahiyyəti aydın olsun. Hönkürərək danışırdı, başa düşmürdüm. Nura xanımın tək oğul övladı var. O, oğlunu qardaşının yanına, kəndə göndərib ki, qardaşıgil tək qalmasın, çünki qardaşıgil Ədalətin ayrılığıyla barışa bilmir, dəli-divanələr kimi gəzib-dolanırlar. Nura xanım deyir ki, Ədalət tez-tez yuxuma girir. Deyir ki, bibi, bilirəm dözə bilmirsən, gecə-gündüz ağlayırsan. Çay qırağında çəkdirdiyim və axırıncı dəfə göndərdiyim şəklimi böyütdür qoy evə, bir az sakitlik tap. Ayaqlarım xəstə olduğu üçün 1 neçə gün şəkli böyütdürə bilmədim. Təkrar yuxuma girib dedi ki, bibi, pulun yoxdursa, atama de, sənə pul versin, şəklimi böyütdür ki, sakitləşəsən, təsəlli tapasan. Yoldaşım da, özüm də xəstə olduğum üçün ziyarətinə gedə bilmirəm. Evdə ruh kimi gəzirəm. Nəinki biz, heç qonşular da onun yoxluğuyla barışa bilmir. Kaş ki, nə müharibə olaydı, nə də ölüm-itim. Yazıq analar, yazıq balalar. Niyə bu dünyadan nakam gedib, valideynləri param-parça etdiniz. Övlad övladı əvəz edə bilməz axı... Bir bacın var, o da sənin xəbərini eşidən kimi oldu şəkər. İndi bu yaralı valideynlər necə yaşasın? Nə qardaşımın, nə də gəlnimizin üzünə baxa bilmirəm. Allah bütün şəhid analarına səbir versin. Belə dərdi çəkməyə kömək olsun.

Ədalətin bibisi Nura xanımın da yeganə təsəllisi onun vətənimiz, torpağımız uğrunda şəhid olmasıdır. O deyir ki, biz hər gün

bir-birimizlə telefonla danışırdıq, hal-əhval tuturduq. O, çox saf uşaq idi. Elə təmizliyinə görə də Tanrı onu şəhidlik zirvəsinə qaldırdı. Dəfnində bütün kənd camaatı göz yaşı tökdü.

Ədalət noyabrın 9-da Bayraq günündə doğulmuşdu. "Əgər icazə versələr, ad günümü gəlib evdə qeyd edəcəyəm deyirmiş". Amma noyabrın 2-də şəhid olması xəbəri gəlib. Ədalət 19 yaşını məzarda qeyd elədi . O, vətən qarşısında borcunu canı, qanı ilə ödədi.

Aşağı Qaraməryəm kəndinin camaatı şəhidini yüksək dəyərləndirir. Onlar pul toplayıb əl-ələ verərək Ədalətin şəklini kəndin girəcəyində əbədiləşdirməyi özlərinə müqəddəs borc biliblər. Adına bulaq açıblar, ətrafı işıqlandırıblar. Kənd camaatı kəndin yeganə şəhidinə son borclarını verirlər.

Ədalət Dəmirov döyüşə yollananda sonuncu dəfə dostu Davud Babayevlə telefonla danışıb. Davud deyir: "Ədalət mənim həm dostum, həm də sinif yoldaşım idi. Demək olar ki, qardaşım idi. Hər sıxıntımı, sözümü, dərdimi onunla bölüşərdim. Ədalət tərbiyəsi, əxlaqı ilə seçilirdi. O bütün kollektivin sevgisini qazanmağı bacarmışdı. Biz onsuz heç bir oyuna başlamazdıq. "Məni də gözləyin, başlamayın ha"... dediyi daim qulağında səslənir. İdmandan başqa 2-ci hobbisi balıq tutmaq idi. İstədiyi hər şeyə can atardı, cəhd edərdi və nail olardı. O, çox zarafatcıl idi. Şirin gülüşü var idi. Heç vaxt onun nurlu siması yadımdan çıxmaz. Ədalət döyüşə gedən gün mənə zəng vurdu. Həmişəkindən fərqli danışırdı, sanki şəhadətə yüksələcəyini bilirdi. Son sözü "Görüşmək ümidi ilə, qardaş" deyib telefonu söndürdü. Təəssüf ki, görüşə bilmədik. Ondan sonra dostumun, sirdaşımın səsinə həsrət qaldım.

Ədalətin şəhid olması tək ailəsini deyil, bizi də sarsıtdı. Hərdən elə bilirəm ki, nə vaxtsa gələcək, "mən sağam" deyəcək".

Davud Babayev dostunun itkisinə nə qədər üzülsə də, onun vətən uğrunda şəhid olmasından qürur duyur. Deyir ki, nə qədər ağır olsa da, fəxr edirəm ki, dostum, qardaşım Allah yanında ən uca zirvədədir.

"Ən vəfasız əşya saatdır. Çünki fırlanıb eyni yerə gəlir, amma fırlandığı anda apardığını geri gətirmir". "İnstaqram" da Ədalətin sonuncu paylaşımı saat şəkli olub. Sanki zamanın onu geri qaytarmayacağını duyurmuş....

İndi Aşağı Qaraməryəm kəndinə gələnləri kəndin girişində şəhid Ədalət Dəmirovun simasında qəhrəmanlıq ifadə edən şəkil qarşılayır. İnsanlar bu şəklin qarşısında dayanır, sükut edir. Tanrıdan rəhmət diləyirlər. Dəmirovlar ailəsinin də yeganə təsəllisi budur: oğulları vətən torpaqlarının azadlığı uğrunda şəhid olub.

Allah rəhmət eləsin! Amin!

**Şəkildə:** Ədalətin bacısı Billurənin qızı Aytac

***

# İKİNCİ QARABAĞ MÜHARİBƏSİNİN QAZİLƏRİ



## 1. FUAD BEYDULLAYEV (04.02.1976)

Fuad İsmayıl oğlu Beydullayev 1976-cı il fevralın 4-də Göyçay rayonunun Ləkçıplaq kəndində anadan olub. 1982-ci ildə atası İsmayıl Beydullayevin işi ilə əlaqədar ailə Bakı şəhərinə köçmüş, həmin ildə Fuad Bakıdakı 54 saylı orta məktəbin 1-ci sinfinə qəbul olunmuş, 1992-ci ildə orta məktəbi bitirmişdir. Orta məktəbi bitirdikdən sonra sürücülük sənətinə yiyələnmiş, 1994-cü ildə həqiqi hərbi xidmətə şağırılmış, Nasosnı, Qusar və Gəncədə xidmət etmişdir. Hərbi xidməti başa vurduqdan sonra 2002-ci ilə qədər Fövqəladə Hallar Nazirliyində, 2002-2012-ci illərdə Coca-cola şirkətində sürücü işləmişdir. 2020-ci il sentyabrın 29-dan sürücü kimi hərbi xidmətə cəlb olunmuş, müxtəlif döyüş bölgələrində öhdəsinə düşən vəzifəni ləyaqətlə yerinə yetirmiş, dekabrın 29-da hərbi xidmətdən təxris olunmuşdur.

Fuad Beydullayev 44 günlük Vətən müharibəsinin iştirakçısı olduğu üçün qürur hissi keçirir və vətən yolunda canından keçməyə hər an hazır olduğunu bildirir.

Ailəlidir. İki övladı var.

***



## 2.DİLQƏM ABDULLAYEV (1988)

2-ci Qarabağ müharibəsi döyüşçüsü Dilqəm Niman oğlu Abdullayev 1988-ci ildə Göyçay rayonunun Ləkçıplaq kəndində anadan olmuşdur. 2 övlad atasıdır. Vətən müharibəsi başlayanda könüllü ordu sıralarına qoşulmuş, Talış kəndi, Suqovuşan istiqamətlərində döyüş əməliyyatlarında iştirak etmişdir. Daha sonra Laçın rayonu istiqamətində döyüşlərdə iştirak etmiş, 1 dekabr 2020-ci ildə Laçına girən ilk əsəgərlərin sıralarımda olmuş, ölkə Prezidentinin sərəncamı ilə "Laçının azad olunmasına görə" medalı ilə təltif olunmuşdir

***



## 3.CEYHUN QASIMOV
## (17.12.1988)

2-ci Qarabağ müharibəsi döyüşçüsü Ceyhun Qasımov sorğumuza cavab olaraq yazır**:** “Mən Qasımov Ceyhun Asif oğlu 1988-ci il dekabrın 17-də Göyçay şəhərində ziyalı ailəsində anadan olmuşam. 2005-ci ildə Nizami adına 7 N-li tam orta məktəbi bitirib, həmin il Milli Aviasiya Akademiyasının hüquq fakultəsinə qəbul olunmuş, 2011-ci ildə ali məktəbi bitirmişəm. Hal-hazırda Göyçay kənd MMC-də işləyirəm.

Babam Qafur Qasımov 1941-1945-ci illər müharibəsinin iştirakçısı olmuşdur. Hələ uşaqkən onun müharibədə aldığı orden və medalları, əzab-əziyyətli müharibə xatirələri məndə vətənə məhəbbət və düşmənlərimizə qarşı nifrət hissi oyatmışdır.

**Haşiyə:** Ceyhun gözünü açıb özünü belə bir mühitdə görmüş, yaşının üstünə yaş gələ-gələ, həyatı dərk edə-edə böyüklərindən gələn ali xüsusiyyətlər ona da keçmiş, genindən, qanından gələn xeyirxahlıq, düzlük və ən başlıcası Vətənə məhəbbət onun həyat amalına çevrilmişdir.

Ceyhun qeyd edir ki, 2020-ci il sentyabrın 29-da könüllü olaraq 2-ci Qarabağ müharibəsinə yollandım. 44 günlük müharibənin dəhşətli yaşantılarının və az bir zaman içində Azərbaycan ordusunun əzmkarlığı, birliyi böyük şücaətiylə əldə etdiyimiz qələbənin sevincimi yaşamaq mənə də nəsib oldu. Dekabrın 27-də başlanan müharibədə anamız vətən qarşısında az da olsa borcumu verib evə qayıtdım. Çox qürur hissi keçirirəm ki, Azərbaycan oğullarının böyük qəhrəmanlıqları sayəsində şəhidlərimizin qanı yerdə qalmadı.

Şəhid olan qardaşlarımızın qanı və canı bahasına erməni şovisnistlərinin zəbt etdiyi torpaqlarımız geri alındı. Xoşbəxtəm ki, bu qələbədə öz vicdanı borcumu ləyaqətlə, şərəflə yerinə yetirdim. Uzun illərdir alnımıza yazılan bu qara ləkəni silə bildik. Vətənin azadlığı uğrunda, dar günündə hər zaman canımdan keçməyə hazıram. Peyğəmbərimiz Rəsuli-əkrəm buyurur: "Vətəni sevmək imandandır". Böyük şairimiz Abbas Səhhətin belə bir ibrətamiz və həmişəyaşar fikri var:

Vətəni sevməyən insan olmaz
Olsa da o şəxsdə vicdan olmaz.

44 günlük cəbhə xatirələrimin hər anı bir ömürdür. Təbii ki, ürək ağrıdan, ürək parçalayan bu gerçəkləri, bu tarixi, yaşantıları ifadə etməyə söz acızdır. Müharibədə ölüm labüddür. Hər an ölümlə üz-üzə gəlmək, hər döyüşdə qardaş dediyin, 1 tikəni 10 yerə bölüb yediyin o qanlı-qadalı günlərin dostlarını, min arzuyla yaşayan, hələ körpəsinin üzünü görməyən, anasını yataqda xəstə qoyub gələn nisgilli oğulların özünü odun-alovun içinə ataraq igidlik, əsl qəhrəmanlıq simvolu olan cəngavərlərimizin 1 göz qırpımında şəhid olması, minaya düşən oğullarımızın param-parça olması, o dəhşətli səhnələri xatırladıqca hələ də inana bilmirəm ki, ürək gözümlə gördüyüm hadisələrə necə dözüb. Çox şey demək olar, çox şey danışmaq olar. Amma nə deyə bilirəm, nə danışa bilirəm. Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə şəfa, valideynlərə səbr diləyirəm.

Atası Asif Qafur oğlu Qasımov 1952-ci ildə Göyçay rayonunda anadan olmuş, ali təhsilli iqtisadçıdır və təqaüddədur .

Anası Qasımova Kəmalə Şirinalı qızı 1964-cü ildə Göyçay şəhərində anadan olmuş, ali təhsilli müəllimdir.

***



**4.ORXAN MƏMMƏDOV (07.07.1990)**

2-ci Qarabağ müharibəsi döyüşçüsü Məmmədov Orxan Davud oğlu 1990-cı il iyunun 7-də Göyçay rayonunun Qaraxıdır kəndində anadan olub. 1996-cı ildə Qaraxıdır kənd tam orta məktəbinə getmiş və 2007-ci ildə həmin məktəbdə orta təhsilini başa vurmuşdur. 2008-ci il iyulun 4-də hərbi xidmətə çağrılmış və Qazax rayonunda hərbi xidmətdə olmuş, 2010-cu il yanvarın 1-i hərbi xidmətdən tərxis edilmişdir.

2020-ci il sentyabr ayının 21-də səfərbərlik çağrışına yollanmış, Ağdam, Ağdərə, Cəbrayıl döyüşlərində hərbi sürücü kimi xidmət etmişdir.

***



## 5. ŞÜKRAN BƏDİROV (08.10.1990)

2020-ci ilin sentyabr ayından noyabr ayının 10-qədər davam edən, Azərbaycan ordusunun zəfəri, erməni silahlı qüvvələrinin rüsvayçı məğlubiyyəti ilə nəticələnən İkinci Qarabağ müharibəsinin qəhrəmanlarından bir də Şükran Yaşar oğlu Bədirovdur. Şükran Bədirov 8 noyabr 1990-cı ildə Göyçay rayonunun Qaraxıdır kəndində anadan olmuşdur. Yaşıdları kimi o da 7 yaşında - 1997-ci ilin sentyabr ayında Birinci Qarabağ müharibəsində Vətən torpaqları uğrunda döyüşlərdə qəhrəmancasına şəhid olan Zülfüqar Zülfüqarovun adını daşıyan Qaraxıdır kənd tam orta məktəbinin 1-ci sinfinə daxil olunmuş, 2008-ci ildə həmin məktəbin 11-ci sinfini bitirmişdir. Cəmi altı aydan sonra – 2009-cu ilin yanvar ayında Göyçay Rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılmış, 1 il 6 ay Azərbaycan ordusunda xidmət etmişdir. 2010-cu ilin iyul ayında hərbi xidməti başa vuran Şükran rayona qayıdandan sonra təsərrüfat işləri ilə məşğul olaraq həyatının maddi problemlərini həll etmiş, ailə quraraq 2 övlad atası olmuşdur.

**İkinci Qarabağ müharibəsinə gedişi və müharibədə iştirakı ilə bağlı Şükran Bədirovun bizə yazdıqlarından:** “2010-cu ilin iyul ayında ordu sıralarından tərxis olunsam da, Qarabağ problemi, torpaqlarımızın 20 faizdən artığının işğal altında olması bir vətəndaş kimi məni həmişə narahat edirdi. Düşünürdüm ki, danışıqlar

nəticəsində ermənilərin zəbt etdikləri torpaqlarımızdan çıxarılması mümkün olmayacaq. Hesab edirdim ki, torpaqlarımızın azad edilməsi üçün bir yol var: Xalqla ordunun birliyinə əsaslanan müharibə. Nəhayət, gec də olsa bu baş verdi və Azərbaycan xalqı böyükdən kiçiyə qədər Ali Baş Komandanın ətrafında birləşərək müqəddəs Vətən savaşına başladı.

Mən müharibə başlanmazdan 1 həftə əvvəl könüllü şəkildə ərizə verərək döyüşən ordu sıralarına getmək istədiyimi bildirdim. 2020-ci ilin sentyabrın 21-də səfərbərliyə alınıb təlim məntəqəsinə göndərildim. Müharibənin ilk günündən Ermənistan ordusunun məğlubiyyətini qəbul etdiyi 10 noyabr 2020-ci ilə qədər cəbhənin müxtəlif yerlərində döyüşdüm. Tapqaraqoyunlu - Talış kəndləri istiqamətində gedən döyüşlərdə fəal iştirak etdim. Dekabrın 27-də xidmətimi başa vurub yenidən ordu sıralarından ehtiyata buraxıldım.

Müharibə dönəmində insanın yaddaşında çox xatirələr qalır. Onları yada salanda insan həm sevinir, həm də kədərlənir. Ən yadda qalan xatirə isə düşmənin bizim əsgərləri görüb qaçmaqları idi.

Azərbaycan Respublikasının vətəndaşı kimi İkinci Qarabağ döyüşlərində və Qarabağımızın düşmən tapdağından geri alınmasında iştirakım olduğu üçün fəxr edir, Allahdan qazilərimizə can sağlığı, şəhidlərimizə rəhmət diləyirəm”.

***



## 6. BƏHRUZ BABAYEV (1991)

2-ci Qarabağ müharibəsi döyüşçüsü Babayev Bəhruz Qorxmaz oğlu 1991-ci ildə Ucar rayonunun Bağırbəyli kəndində anadan olub. Ailəsi ilə birlikdə 1995-ci ildə yaşayış yerini dəyişərək Göyçay rayonunun Qaraxıdır kəndinə köçüblər. Ailədə üç uşaqdırlar. İki qardaş, bir bacı. Bəhruz ailənin sonbeşiyidir. Bəhruzun 4 yaşı olanda atası dünyasını dəyişib. 1997-ci ildə Qaraxıdır kəndində 1-ci sinifə gedib. 2008-ci ildə məktəbi bitirib. 2009-cu ilin oktyabr ayında hərbi xidmətə yollanıb. Qusar rayonunda xidmətdə olub. 2011-ci ilin aprel ayında xidmətini başa çatdırıb. Evlidir. Bir oğlu var.

Vətənpərvər olan Bəhruz ikinci Qarabağ müharibəsi başlayan ilk gündən Daxili İşlər Nazirliyinə müraciət edib, müharibədə könüllü iştirak etmək istədiyini bildirib. Müraciəti qəbul edilib. Oktyabrın 11-də cəbhəyə yollanıb. Suqovuşan, Talış kəndi, Qubadlı rayonunun işğaldan azad olunmasında iştirak edib. Dekabrın 27-dən ordudan tərxis edilib.

***



**7.ŞƏMİSTAN ABDULLAYEV (11.10.1992)**

2-ci Qarabağ müharibəsi döyüşçüsü Abdullayev Şəmistan Bəxtiyar oğlu 1992-ci ildə sentyabrın 11-də Göyçay rayonunun Qaraxıdır kəndində anadan olub. 1999-cu ildə Zülfüqar Zülfüqarov adına Qaraxıdır kənd orta məktəbin 1-ci sinfinə gedib. Orta məktəbi əla qiymətlərlə oxuyub. 3 dəfə fərqlənmə alıb. Ən çox sevdiyi fənn biologiya olub. 2010-cu ildə həmin məktəbin məzunu olub. Həmin il oktyabrın 3-də Göyçay Hərbi Komissarlığından hərbi xidmətə yola düşüb. Bakı şəhərinin Qaradağ rayonunun Güzdək qəsəbəsində xidmətini başa vurub. 2013-cü ildə Gəncə Texniki Kollecinin baytarlıq fakultəsinə daxil olub. 2016-cı ildə həmin kolleci bitirib  Göyçay rayonu Baytarlıq idarəsində işə düzəlib. Hal-hazırda da orada işləyir.

2020-ci il sentyabrın 2-də ilk səfərbərlik elan olunan gündən ordu sıralarına qoşulub. Talış, Suqovuşan ərazisində döyüşlərdə olub.

Özü bu haqda belə deyir: “Bu kəndlərin alınması uğrunda çox şiddətli, ağır döyüşlər getdi.  Ac, susuz qaldıq, amma sınmadıq, əyilmədik. Dözümümüzü, mətanətimizi itirmədik. Dedik təki vətən sağ olsun”.

Şəmistan Abdullayev ölkə Prezidentinin sərəncamı ilə Suqovuşanın və Laçının azad olunmasına görə medalları ilə təltif olunmuşdur.

***



## 8. CAVİDAN YAQUBOV (10.01.1993)

Cavidan Şahin oğlu Yaqubov Birinci Qarabağ döyüşlərinin davam etdiyi çağlarda, 10 yanvar 1993-cü ildə Göyçay rayonunun Qaraxıdır kəndində ziyalı ailəsində anadan olmuşdur. 1999-cu ildə Birinci Qarabağ müharibəsinin şəhidi Zülfüqar Zülfüqarovun adını daşıyan Qaraxıdır kənd orta məktəbinin 1-ci sinifinə qəbul olunmuş, orta təhsilini tamamladıqdan sonra 2011-ci ildə Bakı Biznes Universitetinə daxil olmuş, dörd illik tələbəliyi dövründə maliyyə ixtisasına yiyələnmişdir. Ali məktəbi qurtardıqdan bir müddət sonra, yəni 2015-ci il iyul ayında hərbi xidmətə çağrılmış, N saylı hərbi hissədə xidmət etmişdir. Orduda xidmət etdiyi zaman kəşfiyyat və əks-kəşfiyyat kursalarında oxuyaraq bu çətin və məsuliyyətli hərb sənətinin sirlərinə yiyələnmişdir.

2016-ci ilin Aprel döyüşlərində xidmət etdiyi artilleriya bölməsinin kəşfiyyatçısı kimi döyüşə girmiş, dörd gün davam edən döyüşlərdə əsl qəhrəmanlıq nümunəsi göstərə bilmişdir. 2016-cı ilin iyul ayında tərxis olnaraq rayona qayıtmış, ixusasına uyğun olaraq əmək fəaliyyəti ilə məşğul olmuşdur.

Cavidan Yaqubov 21 sentyabr 2020-ci ildə, İkinci Qarabağ müharibəsinə bir həftə qalmış səfərbərliyə cəlb edilmiş, beş gün sonra, yəni sentyabrın 26-da döyüş bölgəsində yerləşən hərbi hissəyə göndərilmişdir. Müharibə başlanan kimi döyüşə atılan hərbi hissələrdən biri Cavidan Yaqubovun xidmət etdiyi hərbi hissə olmuşdur. Onların hərbi hissəsi sentyabrın 27-də səhər saat 6-dan Talış kəndi istiqamətində döyüşə girmiş, həqiqi hərbi xidmət zamanı artillerya bölməsində olduğundan Cavidan burada minamiyotçu kimi döyüşə qatılmışdır. 157 №-li hərbi hissənin 1-ci taborunun döyüşçüsü olan Cavidan Talış kəndinin azad edilməisində və məşhur Suqovuşan döyüşündə misilsiz qəhrəmanlıqlar göstərmişdir.

Qarşıya qoyulan tapşırıqları şərəf və ləayaqətlə yerinə yetirən 157 N-li hərbi hissə Laçın istiqamətində gedən döyüşlərdə də çox fəal şəkildə iştiarak etmiş, Cavidan və onun döyüş dostları məşhur Baramat meşəsi və Ağuçuq dağ silsilələrinin düşməndən azad edilməsində qəhrəmanlıqla döyüşmüşlər.

Atəşkəsdən sonra Azərbaycan ordu birləşmələri Laçın şəhərinə girənə qədər Cavidan Yaqubov orduda xidmət etmiş, 2020-ci il dekabr ayının 1-də Laçın şəhərində ordudan tərxis olunaraq müzəffər ordunun qalib əsgəri kimi doğmalarının yanına qayıtmışdır.

Cavidan Yaqubov Azərbaycan Respublikasının Prezidenti İlaham Əliyevin 29 dekar 2020-ci il tarixli sərəncamı ilə “Laçının azad olunmasına görə” medalı ilə təltif olunmuşdur.

Cavidan Yaqubov hazırda Göyçay Rayon İcra hakimiyyəti nəzdində Vətən müharibəsi iştirakçıları və şəhid ailiələri ilə işin təşkili şöbəsinin böyük məsləhətçisi vəzifəsində çalışır. Nişanlıdır.

***



## 9. ƏLİ ABBASOV (23.10.1993)

Əli Vüqar oğlu Abbasov 23 oktyabr 1993-cü ildə Göyçayda anadan olmuşdur.
2000-2012-ci illərdə Göyçay şəhərindəki 3 saylı orta məktəbdə təhsil almış, 2017-ci ildə Gürcüstan Avropa Universitetinin əczacılıq fakültəsini bitirmişdir.
Əli 2017-2018-ci illərdə Salyan rayonunun Xıdırlı kəndində yerləşən N saylı hərbi hissədə xidmət etmişdir.

O, İkinci Qarabağ müharibəsi başlanan ərəfədə, 2020-ci il sentyabrın 21-də Goranboy rayonundakı N saylı hərbi hissədə hərbi təlimlərə qatılmışdır. 26 sentyabr tarixində Tapqaraqoyunlu kəndinə yola salınmışdır. Sentyabrın 27 də gecə 2-ci Qarabağ müharibəsi başlayan zaman könüllü olaraq ön cəbhəyə yollanmışdır. 10 oktyabr tarixinədək Ağdərə istiqamətində gedən hərbi əməliyyatlarda - Suqovuşan (Madagiz), Talış kəndlərinin azad olunması uğrunda gedən döyüşlərdə aktiv iştirak etmişdir. Oktyabrın 10-da Ağdərə istiqamətində 951 adlanan yüksəkliyin alınması zamanı mərmi atılması nəticəsində yaralanmış komandirini

döyüş meydanından çıxardan zaman ağır yaralanmışdır.

Əli Abbasov AR Prezidentinin sərəncamına əsasən Suqovuşan və Laçın rayonunun alınması uğrunda göstərdiyi sücaətə görə medallarla təltif olunmuşdur.

Oktyabrın 10-da Naftalana, hərbi hospitala gətirirlən Əlini həkim Yusibli Anar əməliyyat etmiş, təcili yardımla Göyçaya gətirilən Əli 3 gün sonra Bakıya hərbi hospitala aparılmışdır. 4 ay Bakıdakı hospitalda, sonra isə ATU–nun tədris cərrahiyyə korpusunda müalicə alan, Əli yenidən Göyçay xəstəxanasına aparılır. 3-cü dəfə əməliyyatdan sonra Əlinin bədənində qalmış mərmi qəlpəsini çıxarmaq mümkün olur.

Əli Abbasov hazırda Göyçayda yaşayır. İşləmir. 2-ci qrup Qarabağ müharibəsi əlili, qazidir. Subaydır.

***




## 10. FƏRİD SALMANOV ( 1993)

İkinci Qarabağ müharibəsinin iştirakçısı, əslən Göycay rayonundan olan Fərid Bəxtiyar oglu Salmanov 1993-cü ildə Baki şəhərində ziyalı ailəsində anadan olmus, ailənin tək övladıdır. 2000-2011-ci illərdə orta məktəbdə oxumuş, orta təhsilini tamamlayan il Azərbaycan Texniki Universitetinin informasiya texnologiyaları və sistemləri muhəndisliyi fakültəsinə qəbul olunmuşdur. 2015-ci ildə Universiteti bitirib hərbi xidmətə yollanan Fərid həqiqi

hərbi xidmətini Lənkəran səhərində kecirmişdir. 2016-ci ildə hərbi xidməti basa vuran Fərid Bakıya qayıtmış, elə həmin ildən Azərbaycan Dəmir Yollarında əmək fəaliyyətinə başlamış, hazırda həmin müəssisədə böyük bilet kassiri vəzifəsində çalısır.

2020-ci ilin sentyabr ayında Böyuk Vətən muharibəsi başlanarkən Fərid də səfərbərliyə alınaraq orduya cagrılmış, sentyabrın 28-dən doyüşlərə qatılmışdır. O, Füzuli, Cəbrayıl, Xocavənd, Şuşa uğrunda gedən döyüslərdə iştirak etmiş, qəhrəmanlıq nümunələri göstərmişdir.

Fərid "Döyüş günləri yadınızda necə qalıb?"- sualımıza belə bir cavab göndərib: "Döyüşlərdən və döyüşçü yoldaşlarımdan yaddaşımda silinməz izlər buraxan bir cox xatirələr qalıb. Quru torpagın ustundə yanaşı yatmagımız, Vətən torpaqlarını düşmən tapdağından azad etmək üçün çiyin-ciyinə vurusmagımız kino lenti kimi gözlərimin önündə canlanır. Ən dəhşətli anlarımız isə döyüs yoldaslarımızın gözlərimizin önündə səhid olmaları idi. 44 günlük Vətən müharibəsində oldugum ücün və sonunda 30 ildən artıq düsmən tapdagı altında qalan torpaqlarımızı azad etdiyimiz ucun və bu işdə azacıq da olsa əməyim olduğuna görə qürur hissi keçirirəm.

Allahdan cəmi şəhidlərimizə rəhmət, qazilərimizə salamatlıq diləyirəm".

Fəridin atası Salmanov Bəxtiyar İxtiyar oğlu 7 yanvar 1959-cu ildə Göyçay rayonunun Çərəkə kəndində anadan olmuş, hazırda Azərbaycan Dəmir Yolları İdarəsində çalışır.

Anası Bəşirova Aybəniz Atakişi qızı 10 fevral 1960-cı ildə Göyçay rayonunun Qızılağac kəndində anadan olmuş, Bakı şəhərində müəllimə işləyir.

Fərid ailəlidir və Raul adlı bir oğlu var.

***



**11.NURLAN HƏBULLAHOV**
**(17.01.1994)**

Əsli Göyçay rayonundan olan Nurlan Ceyhun oğlu Həbullahov 17 yanvar 1994-cü ildə Rusiyanın ikinci böyük şəhəri olan Sankt-Peterburuqda anadan olmuşdur. 2000-cı ildə Həbullahovlar ailəsi Rusiydan Azərbaycana qayıdaraq Göyçay şəhərində məskunlaşmışdır. Nurlan 2000-ci ildə Göyçay şəhər Nizami adına 7 saylı orta məktəbə qəbul edilmiş, 2011-ci ildə orta məktəbi yüksək qiymətlərlə bitirmişdir. Orta məktəb illərində çəkdiyi zəhmət, keçirdiyi yuxusuz gecələr bəhrəsini vermiş və o, elə həmin ildə Memarlıq və İnşaat Universitetinin nəqliyyat və yol mühəndisliyi fakultəsinə qəbul olunmuşdur. Ali məktəbi tamamlayan Nurlan 2016-cı il iyulun 21-də həqiqi hərbi xidmətə çağırılmış, N saylı hərbi hissədə xidmət etmişdir. Hərbi xidməti tamamlayandan sonra müxtəlif təşkilatlarda işləyən Nurlan Həbullahov hazırda Enerji Group MMC-in aparıcı mütəxəssilərindəndir.

N.Həbullahov İkinci Qarabağ müharibəsi başlanandan iki gün sonra, 29 sentyabr 2020-ci ildə hərbi səfərbərliyə cəlb olunmuş, Tərtər, Ağdərə, Ağdam istiqamətlərində gedən döyüşlərdə iştirak etmişdir. O, Ermənistan ordusunun rəşadətli Azərbaycan ordusu tərəfindən darmadağın edilməsindən sonra da hərbi xidmətini davam

etdirmiş və 2020-ci il dekabrın 16-da qalib ordunun qalib əsgəri kimi ordudan tərxis olunaraq doğmalarının yanına qayıtmışdir.

**Nurlan Həbillahovun cəbhə xatirəsi:** Biz sentyabrın 29-dan Goranboyda təlimdə idik. Təlimdə olduğumuz ilk 8 gündə heç bir həyəcan keçirmədik. Müharibə bizə çox adi və sadə gəlirdi. Bir həftə sonra düşmənlərimiz təlim keçdiyimiz kazarmanın yerini tapdılar. Gecə saat 4-5 radələrində kazarmamızı top və artilleriya atəşinə tutdular. Xoşbəxtlikdən atılan mərmilər kazarmamıza çatmır, bizdən 25-30 metr aralı düşərək partlayırdı. Atılan mərmilərdən aramızda ölüm hadisəsi olmasa da, zədə alanlar oldu. Məndə də nitq tutulması yarandı. Komandirlərimiz dərhal axtarışa başladı. Kəşfiyyat bizi vuran topların kordinatlarını az bir zamanda müəyyən etdi. İndi qalırdı əsas məsələ: topları necə susdurmalı?

Topları susdurmaq üçün könüllülər tələb olundu. Mən və Göyçaylı Azadov könüllü olaraq bu vəzifəni yerinə yetirmək istədiyimizi bildirdik. Bizi lazımı sürsatlarla təmin edib yola saldılar. Yavaş-yaşaş, yerimiz bilinməsin deyə işıqdan istifadə etmədən düşmən toplarının atəş açdığı nöqtələrə doğrü sürünə-sürünə irəliləməyə başladıq. Yol yoxuş, ətraf sıldırım dərə. Ani bir ehtiyatsızlıq həyatımızın sonu demək olardı. Təxminən bir saatdan sonra düşmənin bizi top atəşinə tutan səngərinə çatdıq. Gördük ki, kazarmamızı təxminən beş metr araları olan iki topdan atəşə tuturlar. Toplar susmus, beş-altı nəfər sağ tərəfdəki topun yanına toplaşaraq məşvərət edirdi. Fürsəti fötə vermək olmazdı. Cəld və ani hərəkətlə əlimizdə hazır vəziyyətə gətirdiyimiz qumbaraları topların üstünə atdıq. Əsgərləri yaylım atəşinə tutaraq üzüşağı, kazrmamıza tərəf qaçdıq. Sağ-salamat gəlib kazarmaya çatdıq. Komandirlər və əsgərlər bizi göyə atıb-tutur, bizim sevincdən dilimiz söz tutmurdu.

Bu hadisədən sonra içimdə bir qürur yaşandı. Bu elə bir hissdir ki, sözlə ifadə etmək çox çətindir. Fəxr etdim ki, mənim də Vətənə, orduya bir xidmətim oldu.

Müharibə bitənə qədər bir neçə dəfə ölümlə üzləşdim. Allah qorudu, görünür mənim qismətimə şəhidlik yox, qazilik yazılıbmış.

Allah şəhidlərimizə rəhmət eləsin, məzarları nurla dolsun. Amin!

***

Nurlanaın atası, 1969-cu il təvəllüdlü Ceyhun Həmid oğlu Həbullahov Göyçayda anadan olmuş, hazırda işsizdir. Anası, 1969-cu ildə Göyçayda doğulan Safura Qərib qızı Osmanova evdar qadındır.

Bacısı 1992-ci ildə Göyçayda anadan olan Nuranə Ceyhun qızı Həbullahova Bakı Dövlət Universitetinin kitabxanaçılıq fakültəsini bitirmiş, hazırda Göyçay Rayon Mərkəzi Kitabxansında çalışır.

***



**12. RÜFƏT VƏLİYEV**
**(31.03.1994)**

2-ci Qarabağ müharibəsi döyüşçüsü Rüfət Rafail oğlu Vəliyev 31 mart 1994-cü ildə Göyçay rayonunun Ləkçıplaq kəndində anadan olmuşdur. O, 2000-2011- ci illərdə Ləkçıplaq kənd 1 saylı tam orta məktəbdə təhsil almışdır. Həqiqi hərbi xidmətini Füzuli rayonindakı N saylı hərbi hissədə başa vurmuşdur. 2016-cı il aprel ayından Goranboy rayonundakı N saylı hərbi hissədə kiçik çavuş vəzifəsində xidmətini davam etdirmiş, 2020-ci il 27 sentyabrdan 44 günlük 2-ci Qarabağ müharibəsində ön cəbhədə savaşmış, Azərbaycan Prezidentinin sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.

Ailəlidir. Bir övladı var.

***



**13.RAHİM HACIYEV**
**(06.05.1994)**

İtirilmiş torpaqlarımızın qaytarılması ilə nəticələn şanlı İkinci Qarabağ müharibəsinin iştirakçılarından biri də Rahim Qurban oğlu Hacıyevdir. O, 1994-cü ilin may ayının 6-da Qaraxıdır kəndində anadan olmuş, bu kənddə böyüyüb boya-başa çatmışdır. Orta təhsilini doğulduğu kənddə almış, 2000-ci ildə 1-ci sinfinə qəbul olunduğu Zülfüqar Zülfüqarov adına Qaraxıdır kənd orta məktəbinin 11-ci sinfini 2011-ci ildə bitirmişdir.

Rahim Hacıyevin əsgərlik həyatının birinci mərhələsi atəşkəs dövrünə düşüb. O, 2012-2014-cü illərdə Azərbaycan Milli ordusunun Səngəçal və Füzulidə yerləşən hərbi hissələrində həqiqi hərbi xidmətdə olmuş, burada minaaxtaran peşəsinə yiyələnmişdir.

Ordudan tərxis olunandan sonra müxtəlif sahələrdə çalışmış, 2019-cu ildə həmkəndlisi Hacıyeva Aygün Habil qızı ilə ailə həyatı qurmuşdur. Bir övladı var.

2020-ci ilin sentyabr ayının 21-də könüllü kimi səfərbərliyi alınmış, Tərtər, Ağdərə, Suqovuşan istiqamətlərində döyüşlərdə iştirak etmişdir. Ordudan tərxis olunana qədər qazandığı peşəsinə uyğun olaraq minaaxtarn vəzifəsini yerinə yetirmişdir..

***



**14.SEYRAN BEYDULLAYEV (29.06.1995)**

Azərbaycan əsgərinin rəşadətini bütün dünyaya bəyan edən İkinci Qarabağ müharibəsinin qəhrəmanlarından biri də Seyran Beydullayevdir**.** Seyran Teymur oğlu Beydullayev 29 iyun 1995-ci ildə Göyçay rayonunun Qaraxıdır kəndində ziyalı ailəsində anadan olmuşdur. 2001-ci ildə Zülfüqar Zülfüqarov adına Qaraxıdır kənd tam orta məktəbin 1-ci sinfinə qəbul olunmuş, 2012-ci il həmin məktəbin 11-ci sinfini bitirmişdir. 2013-ci ilin iyul ayında hərbi xidmətə çağrılmış, Bakıda N saylı hərbi hissədə 3 aylıq topçuluq kursunu müvəffəqiyyətlə bitirmiş, topçu ixtisasına yiyələnmişdir. Nümunəvi əsgər olduğu üçün çavuş rütbəsinə layiq görülən Seyran Beydullayev oktyabr ayında Gəncədəki N-1 saylı hərbi hissəyə göndərilmiş, həmin hərbi hissədə tağım komandirinin müavini vəzifəsində çalışmışdır. Hərbi xidmətini şərəflə yerinə yetirdiyinə, döyüş tapşırıqlarını qüsursuz və vaxtında icrası zamanı fərqləndiyinə görə hərbi hissə komandiri tərəfindən təşəkkür və yazılı tərifnamə ilə mükafatlandırılan Seyran 2014-cü ilin yanvarında ordudan tərxis olunaraq ehtiyta buraxılmışdır.

Seyran Beydullayev İkinci Qarabağ müharibəsinə könüllü qoşulanlardan olmuşdur. Sorğumuza cavab olaraq o yazır: “Səfərbərlik ərəfəsində könüllü hərbi komissarlığa gedib orduya getmək istədiym barədə ərizə verdim. 21 sentyabr 2020-ci il tarixdə səfərbərliyə alınaraq cəbhə bölgəsinə göndərildim. Bir həftəlik təlimlərdən sonra Vətən müharibəsi başlandı və mən ilk gündən başlayaraq döyüşlərə qatıldım. Həqiqi hərbi xidmət keçmiş bir əsgər və vətən

oğlu kimi düşmən tapdağı altında qalmış torpaqlarımızın azadlığı məsələsi məni hər zaman düşündürən, narahat edən məsələlərdən biri, bəlkə də birincisi idi. Qəti şəkildə inanırdım ki, itirilmiş torpaqlarımızı biz ancaq silah gücünə geri qaytara biləcəyik. Ölkə prezidenti, cənab Ali Baş Komandan İlham Əliyevin çağırışını səbirsizliklə gözləyənlərdən biri də mən idim. Nəhayət, o gün gəlib çatdı. Sentyabr ayının 27-də bütün vətən oğulları Ali Baş Komandanın ətrafında yumruq kimi birləşərək düşmənə qarşı ölüm-dirim savaşına qalxdı. Xidmət etdiyim hərbi hissə Ağdam istiqamətində gedən döyüşlərin ön cərgəsində olan ilk iştirakçılarından idi. 44 günlük Vətən müharibəsi bizi bir amal uğrunda birləşdirdi və 30 illik sıxıntılara birdəfəlik son qoyuldu. Mənfur düşmənləri torpaqlarımızdan qovmaq üçün döyüşlərdə düşmənlə üz-üzə gəldik, onları yerindəcə susdurduq.

Döyüşlərdə şəhidlərimiz də olurdu, amma biz qorxmurduq. Çünki biz vətənimiz uğrunda şəhid olurduq. Şəhidlər isə heç zaman ölmür. Bu müharibədə mənim yaxın qohumum, uşaqlıq dostum Şəmistan da şəhid oldu. Telefonla anamla danışanda dedim ki, ana, Şəmistan ölməyib. O, ən uca zirvəyə, şəhidlik məqamına ucalıb. O və onun kimi igidlər öz qanlarıyla tarix yazıblar.

Noyabrın 10-da bağlanan 3 tərəfli müqavilə müharibəyə son qoydu. Düşmən təsilm olmağa məcbur edildi. Müharibə bitəndən sonra da 50 günə yaxın orduda xidmətimi davam etdirdim. Dekabr ayının 31-də şərəflə yerinə yetirdiyim hərbi xidmətdən tərxis olunaraq kəndimizə qayıtdım. Evə gəldikdən sonra şəhid qardaşlarımın: Şəmistanın, Səmədin, Abdulcəmilin məzarlarını ziyarət etdim.

Əziz qardaşlarımız, siz yeri cənnət olmuş məzarlarınızda rahat yata bilərsiniz ki, qanınız yerdə qalmadı. Azərbaycan əsgəri qələbə çaldı, sizin arzularınız həyata keçdi. Sizin və bütün şəhid qardaşlarımızın ruhu qarşısında baş əyirəm.

44 gün davam edən bu qanlı və şanlı tarixin hər günü, hər əsgəri haqqında kitab yazmaq olar. Bir döyüşçü olaraq müharibə ilə bağlı mənim də xatirələrim çoxdur. Birini söyləmək istəyirəm. Bir

dəfə gözləmədiyimiz halda düşmən bizim mövqeyimizi ağır artilleriya atəşinə tutdu. İntensiv atəş təxminən 20 dəqiqə davam etdi. Cavab atəşi ilə onları susmağa və mövqeylərini qoyub qaçmağa məcbur etdik. Bu döyüşdə düşmənin atdığı mərmi 10 metrliyimdə yerə dəyib partladı. Cəld yerə yataraq özümü müdafiə mövqeyinə keçdim. Mərminin yerdən qopardığı torpaq zərbə ilə sol gözümə dəydi. Əvvəl elə hiss etdim ki, gözüm çıxdı. Başım bərk ağrımağa başladı. Arxamızca gələn həkim heyəti mənə tibbi yardım göstərdi. Döyüş bitəndən sonra həkim məntəqəsində gözümə eynək yazdılar...

Müharibə ilə bağlı elə xatirələr var ki, onlar hərbi sirrdir, demək olmaz. Elə xatirələr də var ki, onları dilə gətirə bilmirəm, ürəyimi göynədir. Səngərlərdə dost, qardaş bildiyim insanların şəhid olmasını görmək çox ağırdı, dözülməzdi. Ən şirin və unudulmaz xatirə düşmən üzərində qazandığımız zəfərdir, qələbədir. Bizə canımız kimi əziz olan Vətənimizi azad edib şəhidlərimizin qanını almaq nəsib oldu.

Mən də hər bir vətən oğlu, vətən övladı kimi şəhidlərimizin, qazilərimizin qarşısında baş əyirəm. Yaşadığımız o ağır, o acı yaşantıları, ayrılıqları, itkiləri bir daha yaşamamağımızı arzu edirəm.

Fəxr edirəm ki, Azərbaycan torpaqlarının azad olunmasaında az da olsa mənim də payım var.

Var olsun, yüz yaşasın qeyrətli Vətən oğulları! Şəhidlərimizə rəhmət, qazilərimizə salamatlıq və əmin-amanlıq diləyirəm!”

***



**15.YOLÇU SƏLİMOV**
**(24.08.1995)**

İkinci Qarabağ müharibəsi qazisi Yolçu Mehman oğlu Səlimov 1995-ci il avqustın 24-də Göyçay rayonunun Qaraxıdır kəndində ziyalı ailəsində anadan olmuşdur. 2001-ci ildə Zülfüqar Zülfüqarov adına Qaraxıdır kənd tam orta məktəbin 1-ci sinfinə qəbul edilmiş, 2012-ci ildə həmin məktəbi bitirmişdir. 2012-2013-cü illərdə Göyçay Peşə Litseyində "Kompyuter operatoru" ixtisası üzrə təhsil almışdır. 2013-cü ilin oktyabr ayının 10-da hərbi xidmətə çağırılmış, Qazax rayonunda yerləşən N saylı hərbi hissənin Abasbəyli, Məzəm, Fərəhli, Quşçu Ayrım və Qızılhacılı kəndlərində yerləşən postlarında xidmət etmidir. 2015-ci il aprel ayının 1-də hərbi xidmətini başa vuraraq ordudan tərxis olunmuşdur. 2018-ci ildə Azərsu ASC-də modul tipli sutəmizləyici qurğu operatoru vəzifəsində işə qəbul olunmuş, hazırda orda çalışır.

**İkinci Qarabağ müharibəsində iştirakı barədə bizə yazdıqlarından: "**2020-ci il sentyabr ayının 21-də Göyçay Rayon Səfərbərlik və Hərbi Xidmətə Çağırış idarəsindən səfərbərliyə yollanmışam. Ağdam rayonunda yerləşən N saylı hərbi hissənin nəzdində təlimlərdə iştirak etmişəm. 6 günlük təlimdən sonra, 26 sentyabr 2020-ci ildə biz təyin olunduğumuz yerlərə göndərildik. Gün ərzində verilən tapşırıqları canla-başla yerinə yetirirdik. Biz artıq bilirdik ki, hər şeyin vaxtı çatıb. Həyəcanla bütün şəhidlərimizin qisasını almağı fikirləşirdik.

27 sentyabr 2020-ci il. Saat 05:30 radələrində artıq biz düşmənə sarsıdıcı zərbələr vurmağa başladıq. Günlər keçdikcə biz ordumuzun müvəffəqiyyətlərini görüb daha da ruhlanırdıq. Qazandığımız qələbənin sevincinin həddi-hüdudu yox idi. Amma yaxın dostların və döyüş yoldaşlarımızın şəhid olması bizi çox üzürdü. Şükürlər olsun ki, biz həm bu müharibədəki, həm də 1-ci Qarabağ döyüşlərindəki şəhid və qazilərimizin qisasını aldıq. Artıq güclü Azərbaycan ordusu var. Ali Baş Komandanın apardığı siyasət və orduya göstərdiyi qayğı nəticəsində ordumuz çox güclənmişdir. Eşq olsun Azərbaycan ordusuna.

“Qarabağ Azərbaycandır”. Bəli. Yaşasın Azərbaycanın mərd, qeyrətli oğulları!

Atam Səlimov Mehman Emin oğlu 1956-cı ildə Qaraxıdır kəndində anadan olmuşdur. Göyçay Rayon Mexanikləşdirmə və Elektrikləşdirmə Texnikumunu mexanik ixtisası üzrə bitirmiş, uzun müddət meliorasiya və su təsərrüfatı idarəsində mexanik vəzifəsində çalışmış, 2018-ci ildə vəfat etmişdir.

Anam Səmədova Nəzirə Mirzə qızı Qaraxıdır kəndində anadan olmuşdur. Azərbaycan Pedaqoji Universitetinin Coğrafiya fakultəsini bitirmişdir. Hal-hazırda Z.Zülfüqarov adına Qaraxıdır kənd tam orta məktəbində coğrafiya fənnini tədris edir.

Bacım İbrahimova Fatimə 1993-cü ildə anadan olmuşdur. Orta təhsillidir. Ailəlidir. 3 övladı var. Hal-hazırda Qaraxıdır kəndində yaşayır.

Mən də ailəliyəm. Bir qızım var.

Əmim Zülfüqar Zülfüqarov Şamaxı Pedoqoji Texnikumunu əmək və rəsmxət müəllimi ixtisası üzrə bitirmiş, Şəkər kəndində müəllim işləmişdir. 1-ci Qarabağ müharibəsində iştirak etmiş, 1992-ci ilin avqust ayının 17-də Füzuli rayonunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur.

Hal-hazırda Qaraxıdır kənd tam orta məktəb onun adını daşıyır.

Bibim Sultanova Bəsti ali təhsillidir. Uzun müddət Göyçay rayonunda H.Əliyev adına tarix-diyarşünaslıq muzeyinin direktoru işləmişdir. Hal-hazırda təqaüdçüdür. Göyçayda yaşayır.

***



## 16. SABİR VƏLİYEV (08.11.1995)

2-ci Qarabağ müharibəsi döyüşçüsü Sabir Rafael oğlu Vəliyev 8 noyabr 1995-ci ildə Göyçay rayonunun Ləkçıplaq kəndində anadan olmuşdur. 2002-2013-cü illərdə Ləkçıplaq kənd 1 nömrəli tam orta məktəbində orta təhsil almışdır. Hərbi xidmətini Beyləqan rayon N saylı hərbi xidmətdə keçirmişdir. 2020-ci il 27 sentyabrda başlanan 2-ci Qarabağ müharibəsinin fəal iştirakçısı olmuşdur. Ölkə Prezidentinin sərəncamı ilə “Ağdamın azad olunması” medalı ilə təltif olunmuşdur.. Ali təhsillidir. Bədən Tərbiyəsi Akademiyasını bitirmişdir. Ailəlidir. İki övladı var

***



## 17. FUAD İBRAHİMOV (02.12.1995)

Azərbaycan hərb tarixinin qızıl səhifələrini təşkil edən İkinci Qarabağ müharibəsinin qəhrəmanlarından olan Fuad Vüqar oğlu İbrahimov 2 dekabr 1995-ci ildə Göyçay rayonunda ziyalı ailəsində anadan olmuşdur. Atası Vüqar Ağasadıq oğlu İbrahimov ticarətçi, anası Gülarə Ağasəməd qızı İbrahimova müəllimə, böyük qardaşı Sadıq İbrahimov ali təhsilli mütəxəssis, kiçik qardaşı Ömər isə ADNSU-nun I kurs tələbəsidir.

Fuad ibrahimov 2001-ci ildə Göyçay şəhərindəki 2 saylı tam orta məktəbin 1-ci sinfinə qəbul olunmuş, 2012-ci ildə orta təhsilini tamamlamışdır. Orta məktəbi bitirdiyi il Azərbaycan Kooperasiya Universitetinin menecmentilik fakultəsinin qiyabi şöbəsinə daxil olmuş, həmin ilin payızında Göyçay Rayonu Hərbi Komissarlığı tərəfindən vətənə olan borcunu yerinə yetirmək üçün həqiqi hərbi xidmətə göndərilmişdir. Hərbi xidmətini başa vurduqdan sonra rayona dönən Fuad ali təhsilə davam etmiş, eyni zamanda Bakıdakı “Bolluq LTD MMC” şirkətində mühasib kimi əmək fəaliyyətinə başlamışdır. Hal-hazırda həmin şirkətdə mühasib vəzifəsində çalışır.

Fuad İbrahimov 44 gün davam edən Vətən müharibəsinə bir neçə gün qalmış - 21 sentyabr 2020-ci ildə Azərbaycan Respublikası Müdafiə Nazirliyin əmri ilə hərbi təlimlərə cəlb edilərək Ağdam rayonundakı N saylı hərbi hissəyə xidmətə göndərilmişdir.

**Fuad İbrahimovun cəbhə xatirələrindən:** "27 sentyabr günü qüdrətli və şərəfli Azərbaycan ordusu erməni faşizminin üzərinə hücuma keçdi. Bu günlərdə mən ölüm ilə həyat arasındakı incə cizgini gördüm. Nə qədər yaxın dost və qardaşlarımız gözümüzün qarşısında şəhid və qazi oldu. Sevindik, ağladıq. Həm sevinc hisslərini, həm də acıları yaşadıq. Neç bir çətinlikdən qorxub-çəkinmədik, çünki illərdir həsrəti ilə yaşadığımız Qarabağ uğrunda döyüşürdük.

Bu hadisələri, bu itkiləri bir daha yaşamamağı gənclərimizə, analarımıza, Azərbaycan xalqına arzu edir, Uca Yaradandan millətimizə xoşbəxtlik və əmin-amanlıq diləyirəm".

***

Fuad İbrahimov müharibə ilə bağlı yaşantılarını, acı xatirələrini danışdıqca, onu sakit dinləmək mümkün deyildi. O danışdıqca mən həmin səhnələri yaşayır, özümü ələ ala bilmirdim. İçimdə erməni gədələrinə qarşı olan nifrət son həddə çatmışdı. İçimdən bir təəssüf hissi də keçdi. Kaş ki, mən də onların bir neçəsini əllərimlə boğa biləydim. Bizim balalarımız, gənclərimiz cəbhə bölgələrində çox məşəqqətli günlər yaşayıb. Mən buna 44 günün iztirabları yox, bir ömrün heç vaxt unudulmayacaq dəhşətli illəri kimi baxıram. El arasında belə bir deyim var: "Döyüş kənardan baxana asan gəlir". Etiraf edək ki, hamı müharibənin yaşatdığı əzabları eyni cür dərk edib, eyni cür yaşaya bilmir. Onu bilən müharibə iştirakçıları və bir də onların yolunu gözləyən analardır.

Bizim igid balamız olan Fuad Vüqar oğlu İbrahimov sentyabrın 21-də hərbi komissarın çağrışıyla cəbhəyə yola düşdü. Fuadın cəbhə həyatının 44 günü, anasının yaşadıqları, gündə 100 dəfə ölüb-dirilməyi cəmi əsgər analarına, o cümlədən Cavidanın anası Gülşən xanıma, Seyranın anası Sona xanıma, Nurlanın anası Safura xanıma və başqalarına çox bəlli olan dəhşətli bir hissdir. Onu ancaq o 44 günü əsgər yolu gözləyən analar, həyat yoldaşları olan gəlinlər bilir. Getsin o günlər bir daha gəlməsin. Bir gerçək də var ki, müharibə dəhşətlərini cəbhədə, döyüşdə olan əsgər qədər heç kim bilə, yaşaya bilməz.

**Fuadın söylədiklərindən:** “Sentyabrın 21-də bizi Ağdam rayonudakı N saylı hərbi hissəyə apardılar. Elə həmən gün də formalarımızı dəyişdilər. 6 gün hərbi hissədə qaldıq. Sentyabrın 26-da bölgü oldu. Mən ermənilərlə üzbəüz posta düşdüm. Ayın 27-də səhər saat 7-də döyüş başladı. Biz ani olaraq şoka düşdük. Elə o anda başımıza saysız-hesabsız, bəlkə də 60-70-80 minamiyot mərmisi yağmağa başladı. Hər gün minimum 100-ə yaxın bu tipli zərbələrə cavab verməli olurduq. Biz atışırdıq. Müdafiə taboru olduğumizdan hücuma keşməyimizə icazə verilmirdi. Verilən tapşırığa görə biz Ağdamın bizdə olan ərazilərini ermənilərin hücumundan müdafiə etməli, onların irəliləməsinə imkan verməməli idik. Hər gün gecələr ermənilər bizə hücum edərək irəliləmək istəyir, biz buna imkan vermir, qətiyyətlə onları geri otuzdururduq. Oktyabr ayın 23-də erməni kəşfiyyatçıları gecə saatlarında posta girərək bizim bir neçə döyüş yoldaşlarımızı öldürdülər. Həmin postdan cəmi bir nəfər sağ çıxdı, o da kor oldu. Mən həmən vaxtı 26-cı postda idim. Oktyabrın 25-də yenidən posta hücum etdilər, səngərlərimizi top və minamyotlarla atəşə tutdular. Həmin döyüşdə komandirimizdən biri şəhid oldu. Allah ona rəhmət eləsin.

Bizim Qubadan bir yoldaşımız var idi. Minamiyot mərmisinin qəlpəsi onun ayağını sındırmışdı. Yaralı əsgərimiz bir az hündürdəydi. Döyüşçü yoldaşımız Göyçay rayonunun Çərəkə kəndindən olan Paşa ona yardıma getdi.

Minamiyot atəşinə tuş gələndə gərək aşağı yatasan. Minamyot mərmiləri yerə düşəndə şahmatvari - sağa, sola, dala, qabağa düşür. Kordinatı ermənilər götürmüş, aramsız olaraq atırdılar. Həmən gün bir neçə şəhidimiz, bir neçə yaralımız oldu. Paşa yaralı deyildi. O, qubalı yoldaşımızın yaralandığını gördü və qaça-qaça ona yardıma getdi. Yaralı hündürdəydi deyə minamiyotun qəlpəsi Paşaya dəydi və onu yerə sərdi. Dəhşətli bir gün idi. Olanları sözlə ifadə etmək mümkün deyil.

Masallıdan olan başqa bir cəbhə yoldaşımız Külşad Xəlilov orda deyildi. O, rabitədən bu xəbəri eşidərək uşaqlara yardıma gəldi.

Minamiyot mərmisi Külşad Xəlilovun düz qarşısına düşdü. O da həmən gün şəhid oldu. Biz uşaqlarla qışqıraraq hönkür-hönkür ağlayırdıq. Az qalırdı adam dəli olsun. Artıq bir aydan artıq bir yerdə qaldığımız, bir tikəmizi neçə yerə bölüb yediyimiz, hər gün bir-birimizin üzünə ürkə-ürkə baxdığımız, görəsən, 10 dəqiqədən sonra da bir yerdə ola biləcəyikmi hissini ürəyimizdən keçirdiyimiz yoldaşlarımızı, çiyindaşlarımızı itirirdik.

Biz hündürlükdə olduğumuz üçün bizə yemək gətirmək də çətin idi. Çox zaman da mümkün deyildi. Fərqli-fərqli günlərdə yoldaşlarımızdan 3-ü gedib aşağıdan yemək gətirərkən şəhid olmuşdu. Günlərlə ac-susuz qalırdıq. Amma, dözürdük. Deyirdik ki, təki torpaqlarımızı yagılardan təmizləyək.

***

Oktyabrın ortaları idi. Manqamız güclü minamiyot atəşinə məruz qalmışdı. Düşmən ara vermədən atırdı. Döyüş yoldaşlarımız ərazidə qalmışdı. Biz yoldaşlarımızı ərazidən çıxaranda Paşa Salmanov ağır yaralandı. Başının arxa tərəfini qəlpə aparmışdı. Çoxlu qan itirirdi. Biz 5 nəfər yaralı və şəhid Külşad Xəlilovu ərazidən çıxara bildik. Külşad çox yaxşı və qorxmaz döyüşçü idi. Təəssüf ki, onu da itirdik. Yaralı yoldaşlarımızla görüşmək ümidi ilə ayrıldıq. Paşa Salmanov 52 gün qospitalda oldu. Məlumat alırdıq ki, komadadır. Biz evə gəlməzdən 10 gün əvvəl eşitdik ki, şəhid oldu. Təəssüf edirəm ki, görüşə bilmədik. Cəbhədən gələn günün səhəri döyüş yoldaşlarımızla birgə şəhidlərimizin məzarını ziyarət etdik. Şəhidimizin anasının bizi qucaqlayaraq, Paşamın, balamın iyini sizdən alıram deməsi, sızlayaraq məni bağrına basması heç vaxt unutmayacağım anlardır. Paşa Salmanov Göyçay rayonunun Çərəkə kəndindəndir. Evin, ailənin kiçik övladı idi. Allah rəhmət eləsin".

***

Fuad gördüklərinin, şahidi olduqlarının, bəlkə də 1000- dən birini danışa bildi. Mən də o günləri ona təkrar yaşatmamaqçün: "Kifayətdir", - dedim. Fuad sonda onu da dedi ki, yenə müharibə olarsa, vətənimçün, torpağımçün can-başla, artıq təcrübəli bir əsgər

kimi getməyə hazıram. Hətta “uf” demədən torpağımızçün canımdan keçməyə hazıram.

Allah şəhidlərimizə rəhmət, qazilərimizə şəfa və salamatlıq versin.

***



## 18.MİKAYIL MİKAYILOV (10.10.1996)

2-ci Qarabağ müharibəsinin iştirakçısı Mikayıl Elçin oğlu Mikayılov 10 sentyabr 1996-cı ildə Göyçay rayonunun Ləkçıplaq kəndində anadan olub. 2002-ci ildə Ləkçıplaq kənd orta məktəbində 1-ci sinifə getmiş, 2013-cü ildə məzun olmuşdur. 2015-ci il yanvar ayının 10-da Göyçay Rayon Hərbi komissarlığından əsgərliyə göndərilib. Əvvəl Gəncədə 130 nömrəli hərbi hissədə təlim keşmiş, sonra Ağdam rayonunun düşmənlə sərhəd olan Xındırıstan, Mahrızlu, Tapqaraqoyunlu kəndlərində 190 nömrəli hərbi hissədə xidmət etmişdir. Xidmət zamanı plemyotçu-tuşlayıcı olmuş, PK texnikalarından istifadə etmişdir. 9 iyun 2016-cı ildə Hərbi hissə tərəfindən “Təşəkkürnamə” alaraq əsgərlik xidmətini bitirmişdir.

29 sentyabr 2020-ci ildə Göyçay Hərbi Komissarlığı tərəfindən 2-ci Qarabağ savaşmasına səfərbərliyə çağrılmışdır. Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonları uğrunda gedən qızğın döyüşlərdə fəal iştirak etmişdir. Döyüş zamanı aldığı xəsarətə görə əvvəlcə Füzuli rayon xəstəxanasında müalicə almış, sonra Bakı Hərbi Hospitalında müalicəsi davam etmişdir. 2 yanvar 2021-ci ildə ordudan tərxis olunmuşdur.

***



## 19.GÜLOĞLAN ƏHMƏDOV (1996)

2-ci Qarabağ müharibəsi qazisi Güloğlan Əhmədağa oğlu Əhmədov 1996-cı ildə Göyçay rayonun Qaraxıdır kəndində anadan olmuşdur. 2002-2013-cü illərdə Zülfüqar Zülfüqarov adına Qaraxıdır kənd orta məktəbində oxumuşdur. O, əsgəri xidməti ilə bağlı gönərdiyimiz sorğuya maraqlı bir məktubla cavab vermişdir. Həmin məktubu kiçik redaktə ilə burda veririk: “2014-cü il aprel ayının 27-də ad günümdə əsgər getmişəm. Ağdam rayonunun Xındırsdan, Mahrızlı, Üçoğlan kəndlərində ön cəbhədə snayper kimi xidmət etmişəm. Snayper kimi fəaliyyətim komandirlərim tərəfindən dəyərləndirilmiş və mən 3-cü dərəcə medalla təltif olunmuşam. Ordudan tərxis olunduqdan sonra müxtəlif yerlərdə çalışmış, İkinci Vətən müharibəsi başlanan ərəfədə könüllü olaraq orduya yazılmışam. Sentyabrın 28-də hərbi xidmətdən çağırış gəldi mən və mənim kimi bir neçə könüllü sentyabrın 29-da cəbhəyə yola salındıq. Yolumuz çox şərəfli yol olduğu üçün sevincimizin həddi-hüdudu yox idi. Tərtər ərazisində ön cəbhədə torpaqlarımızın azad olması üçün vuruşurduq. Gün ərzində o əraziyə 2000-2300 mərmi düşürdü. Onlar bizə, biz də onlara gözlərini açmağa imkan vermək istəmirdik.

Çox ağır və məsuliyyətli döyüşlər gedirdi. İrəlilədikcə sevinirdik, ruhlanırdıq. Şükür Allaha ki, sonda biz qələbə çaldıq. Mənfur düşmənlərimizi geri çəkilməyə, diz çökdürməyə müvəffəq olduq. Özümü çox xoşbəxt sayıram ki, bir vətən oğlu kimi torpaqlarımızın yağı düşmənlərdən azad olunmasında mənim də xidmətim oldu. Ömrüm boyu nifrət etdiyim düşmənlərimizi məhv etmək, onların necə yalvarışla bizdən kömək istəməsini, qarşımızda diz çökməyini gözlərimlə görmək, "Qarabağ Azərbaycandır" sözünü öz dilləriylə deməsini eşitmək mənə də nəsib oldu.

Təbii ki, itkilərimiz də olurdu. Şəhidsiz vətən olmaz. Yoldaşlarımızın itkiləri bizi ağrıtsa da bir təsəllimiz var idi. Öz doğma torpaqlarımız yolunda şəhid olurduq. O bədbəxtlər isə yad torpaqlarda gəbərirdi. Biz də sevinə-sevinə təpikliyərək onların meyidlərinin üstündən o tərəf, bu tərəfə keçirdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin".

Güloğlangil 3 qardaşdılar. O, ailənin sonbeşiyidir və nişanlıdır.

***



**20.SƏXAVƏT MƏMMƏDOV**
**(31.08.1997)**

İkinci Qarabağ müharibəsinin fəal iştirakçlarından olan Səxavət Möhübbət oğlu Məmmədov 31 avqust 1997-ci ildə Qaraxıdır kəndində anadan olmuşdur. 2003-cü ildə orta məktənin 1-ci sinfinə qəbul edilmiş, 2014-cü ildə məktəbi bitirmişdir. 2015-ci il oktyabrın 7-si hərbi xidmətə çağırılan Səxavət 1 il 6 ay Ağcabədidə qulluq etmişdir. 2016-cı il Aprel döyüşlərində artilleriyaçı kimi Füzuli istiqamətində döyüşmüş, hərbi xidmətdə fərqləndiyinə görə fəxri fərmanla tərtif olunmuşdur.

2020-ci il sentyabr ayının 21-də səfərbərlik üzrə hərbi xidmətə çağrılan Səxavət Məmmədov artilleriyaçı olaraq Suqovuşan, Madagiz, Ağdərə, Murov, Şuşa istiqamətində döyüşlərdə iştirak etmiş, müharibə qurtarandan sonra tərxis olunaraq Göyçaya qayıtmışdır. Hazırda Göyçay rayon mərkəzində yerləşən "Enbavud" şirkətinin mebel ustası işləyir. Subaydır.

Ailə üzvləri aşağıdakılardan ibarətdit: atası Möhöbbət Almənməd oğlu Məmmədov (03.08.1969-cu il); anası Mirvari Vəkil qızı Məmmədova (09.21.1974-cu il), qardaşı Alməmməd Möhöbbət oğlu Məmmədov ( 15.12.1992 –ci il).

***









**21.NURLAN YAQUBOV**
**(15.01.1998)**

2-ci Qarabağ müharibəsi döyüşçüsü Nurlan Rüstəm oğlu Yaqubov 15 yanvar 1998-ci ildə Göyçay rayonunun Ləkçıplaq kəndində anadan olmuşdur. 2004-cü ildə Göyçay rayon Ləkçıplaq kənd orta məktəbin 1-ci sinifinə qəbul edilmiş, 2015-ci ildə məktəb bitirmişdir. 2016-cı ilin yanvarın 15-də hərbi xidmətə çağırılmış, hərbi xidmətini Murov dağında artilleriya polkunda keçirmişdir. 2016-cı il aprel döyüşlərində iştirak etmişdir. 2016-cı ildə dekabr ayında nümunəvi hərbi xidmətə görə tərifnamə ilə təltif olunaraq məzuniyyətə göndərilmiş, hərbi xidməti başa vurduqdan sonra doğma kəndlərinə qayıtmışdır. 2020-ci ilin 27 sentyabrında başlanan 44 günlük Böyük vətən müharibəsinin iştirakçısı olmuşdur. Döyüş yolu Füzulidən başlamış, Cəbrayıl, Zəngilan və Qubadlıda döyüşmüşdür. Oktyabr ayının 30-da Qubadlıda gedən döyüşlərin birində ağır yaralanmış, oktyabrın 31-də döyüş bölgəsindən çıxarılmışdır. Hal-hazırda orta ağır vəziyyətdə müalicəsini davam edir.

Allah şəfa versin. Amin!

***



## 22. SƏRXAN HƏSƏNOV (13.06.1999)

Qırx dörd gün davam edən İkinci Qarabağ müharibsinin iştirakçılraından biri də Sərxan Bürhan oğlu Həsənovdur. O, 13 iyun 1999-cu ildə Göyçay rayonunun Qaraxıdır kəndində anadan olmuşdir. 2005-ci ildə şəhid Zülfüqar Zülfüqarov adına Qaraxıdır kənd tam orta məktəbinin 1-ci sinfinə qəbul olunan Sərxan məktəbin ən savadlı şagirdlərindən olmuş, 2016-cı ildə həmin məktəbi yaxşı və əla qiymətlərlə bitirmişdir. Orta məktəbi bitirdiyi il yüksək nəticə göstərərək 631 balla Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər və iqtisadiyyat fakultəsinə ( ingiliscə tədris ) daxil olmuşdur. 2020-ci ildə ali məktəbi bakalavr dərəcəsi ilə bitirmiş və magistr dərəcəsi almaq üçün BDU-nun beynəlxalq münasibətlər və diplomatiya fakultəsinə qəbul olunmuşdur.

Sərxan Həsənov təhsilini donduraraq həmin ilin iyul ayında könüllü həqiqi hərbi xidmətə yollanmış, 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsinin iştirakçısı olmuşdur. Murov zirvəsi, Cəbrayıl, Füzuli, Şuşa və digər işğal altında olan ərazilərimizin azad olunması əməliyyatlarında fəal iştirak etmişdir.

Sarxan Həsənov hazırda Xüsusi təyinatlı əsgər kimi Kəlbəcərdə N saylı hərbi hissədə hərbi xitmətinin davam etdirir. Subaydır.

Atası Bürhan Xanlar oğlu Həsənov (17.01.1967-ci il) Göyçay rayonunun Qaraxıdır kəndində, anası Xəyalə Mirsalik qızı Həsənova (09.01.1980-ci il) Göyçay rayonunun Şahsoltanlı kəndində anadan olmuş, hazırda Qaraxıdır kəndində yaşayırlar.

Bacısı Şəfəq Bürhan qızı Hacıyeva (15.02.1998-ci il) Göyçay rayonu Qaraxıdır kəndində anadan olmuş, ali təhsillidir. Ailəlidir və bir oğlu var.

***



## 23.MİRSAAB BABAYEV (26.06.1999)

2-ci Qarabağ müharibəsinin iştirakçısı Mirsaab Vahid oğlu Babayev 26 iyun 1999-cu ildə Göyçay rayonunun Ləkçıplaq kəndində anadan olmuşdur. 2006-cı ildə Ləkçıplaq kənd 1 N-li orta məktəbin 1-ci sinfinə getmiş, 2016-cı ildə həmin məktəbin məzunu olmuşdur. 27 iyul 2017-ci ildə Naxçıvan Muxtar Respublikasına həqiqi xidmətə yollanmış, 2018-ci ilin may ayında Naxçıvanın Qunut kəndində gedən döyüşlərdə iştirak etmiş, 2019-cu ilin yanvarında hərbi xidmətdən tərxis olunmuşdur.

Mirsaab 2-ci Qarabağ müharibəsində iştirakı ilə bağlı sorğumuza cavabında belə yazır: “5 oktyabr 2020-ci ildə səfərbərliyə çağırılaraq Ağcabədidəki N saylı hərbi hissəyə göndərildim. Okt-

yabrın 9-da 18 saylı hərbi hissənin tərkibində döyüşə qatıldım. Oktyabrın 13-də Füzuli rayonunun Qaraxanbəyli kəndində mühasirəyə düşdük. 3 gün mühasirədə qaldıqdan sonra Yaşmadan gələn döyşçülərin köməyi ilə mühasirədən çıxdıq. Oktyabrın 17-də yenidən Karyer deyilən yerdə döyüşdük. Oktyabrın 24-nə kimi Füzulidə gedən döyüşlərdə iştirak etdim. Noyabrın 2-də Şuşanın Daşaltı deyilən kəndində döyüşə girdik. 2 günlük güclü döyüşdən sonra, noyabrın 4-də döyüş bizim qələbəmizlə bitdi. Noyabrın 5-də Laçın dəhlizinin müdafiəsinə qalxdıq və ayın 7-sinə kimi müdafiədə olduq. Noyabrın 7-də Şuşaya doğru hərəkət edərkən Xankəndi yolunun üstündə mühasirəyə düşdük. O gün şəhid və yaralılarımız oldu. Mən də qolumdan və ayağımdan yaralandım. Çoxlu qan itirirdim və özümdən getdim. Gözlərimi açanda özümü Biləsuvar Mərkəzi Xəstəxanada gördüm. Heç nə xatırlamırdım. Mənə müharibənin dayanması xəbərini verdilər. Sevincdən gözlərim yaşardı. Müharibənin nə qədər dəhşətli olduğunu ancaq müharibədə iştirak edənlər bilə bilər. Hər birimiz, xüsusilə savaşda olanlar yaxşı bilir ki, torpaqlar itkisiz, şəhidsiz alına bilməz. Bu mümkünsüzdür. Amma bir yerdə çörək kəsib, odun-alovun içinə çiyin-çiyinə bir yerdə atıldığın cəbhə qardaşlarının hər döyüşdə bir neçəsini itirmək, onların qan içində olan üz-gözünə baxmaq nə qədər ağırdır, onu bir Allah bilir. Adama elə gəlir ki, artıq ürəyi dözməyəcək, dayanacaq, amma yenə yaşayırsan. İntiqam hissiylə yaşayırsan. Onların, cəbhə qardaşlarının qisasını almaq üçün yaşayırsan. Elə dəhşətli yaşantılar var ki, onu heç cür sözlə ifadə etmək mümkün deyil.

Bizim Ləkçıplaq kəndi 2-ci Qarabağ müharibəsində 3 şəhid verdi: Zamiq Əhmədov, Elvin Məmmədov və Abdulcəmil Bilalov. Ləkçıplaq kəndi 1-ci və 2-ci Qarabağ müharibəsində 17 şəhid verib. Sevinirəm ki, onların qanı yerdə qalmadı. Onların qisasını erməni dığalarından almaqda mənim də xidmətim olduğu üçün qürur hissi keçirirəm. Yaşasın Azərbaycan əsgəri! Allah şəhidlərimizə rəhmət eləsin! Amin!”.

***

## 24.ELSUN HACIYEV (18.05.2001)



İkinci Qarabağ müharibəsi qazisi Elsun Qurban oğlu Hacıyev 18 may 2001-ci ildə Qaraxıdır kəndində anadan olmuşdur. 2008-2019 illərdə Zülfüqar Zülfüqarov adına Qaraxıdır kənd orta məktəbində orta təhsil almış, məktəbi bitirən il hərbi xidmətə göndərilmişdir. Goranboy–Ballı qaya istiqamətində hərbi xidmətdə olan zaman 44 günlük Vətən müharibəsi başlandığından o, Tərtər, Suqovuşan, Laçın və Murov istiqamətlərində şiddətli döyüşlərdə iştirak edərək əsgəri şücaət göstərmişdir. Qolundan və ayaq nahiyəsindən qəlpə yarası almış, hospitala yerləşdirdikdən sonra sağalaraq yenidən döyüçü dostlarının yanına qayıtmışdır.

Elsun Hacıyev hazırda Zəngilan rayonunda hərbi xidmətini davam etdirməkdədir.

Elsun Hacıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 dekabr 2020-ci il tarixli fərmanı ilə “Laçının azad edilməsinə görə” medalı ilə təltif edilmişdir.

***

## HƏRBİ KOMİSSARLIĞIN ƏMƏKDAŞI



**ARZU MƏMMƏDOVA**
**(03 .05. 1971)**

Arzu Ədalət qızı Məmmədova 03 may 1971-ci ildə Göyçay şəhərində anadan olmuşdur. 1978-ci ildə Göyçay şəhər 6 saylı orta məktəbin 1-ci sinfinə daxil olmuş, 1988-ci ildə həmin məktəbin 10-cu sinfini bitirmişdir. Bakı Maliyyə Kredit Texnikumunda orta ixtisas təhsili almışdır. Ailəlidir. 2 övladı var.

Oğlu Vüsal Vaqif oğlu Məmmədov 31 dekabr 1998 – ci ildə Göyçay şəhərində anadan olmuş, Gəncə Dövlət Universitetini bitirmiş, hazırda Texniki Universitetin magistraturasında oxuyur.

Oğlu Xəyal Vaqif oğlu Məmmədov 21 yanvar 2002-ci ildə Göyçay şəhərində anadan olmuş, Bakı Avrasiya Universitetinin 2-ci kurs tələbəsidir.

Həyat yoldaşı Məmmədov Vaqif Bilal oğlu Birinci Qarabağ savaşının qazisi, 2 qrup müharibə əlilidir.

***

Arzu xanım Göyçay Rayon Hərbi Komissarlığında işləyir. Ona şəhidlərin və qazilərin anası, bacısı deyirlər.

## GÖYÇAYIN QARABAĞ SEVDALILARI

Bir gün yolum 1941-1945-ci illəri müharibəsinin iştirakçısı olmuş atamla bağlı bir sənəd almaq üçün Göyçay Hərbi Komissarlığına düşmüşdü. Bu işlərlə məşğul olan və mənə istədiyim sənədi verməkdə yardım edəcək xanımın adını bilmədiyimdən, ilk qarşıma çıxan gənc oğlandan soruşdum ki, burda bir xanım işləyir. Ona şəhidlərin və qazilərin anası, bacısı deyirlər. Onu mənə nişan verərsinizmi? Oğlan təbəssümlə üzümə baxaraq: "Xanım, deyəsən siz rayonda yaşamırsız, qonaqsız", - dedi.

Cavab verdim ki, Bakıdan gəlmişəm, o xanımla işim var. Oğlan yenə gülümsəyərək: "Bildim ki, qonaqsız. Çünki rayonda Arzu xanımı tanımayan yoxdur. O, nəinki, şəhidlərin, qazilərin, bizim də hər birimizin anasıdır".

Oğlan getdi və mən Arzu xanımı kənardan müşahidə etməyə başladım. Növbədə adam çox idi. Biri gəlir, beşi gedirdi. Müxtəlif suallarla Arzu xanıma müraciət edir, nəsə soruşur, nəsə istəyirdilər. Arzu xanım səbr və təmkinlə, yüksək mədəniyyətlə, yorulmadan, usanmadan onlara cavab verir, köməklik göstərməyə çalışırdı. Kənardan hiss olunurdu ki, gələn insanlara canı yanır, nə edirsə ürəkdən edir, səsinin tonunu qaldırmadan, mehriban, sakit halda başını aşağı salaraq işlərini görür. Saat bir oldu. Fasiləyə sanılı dəqiqlər qalırdı ki, növbə mənə çatdı. Düşündüm ki, məni nahar fasiləsindən sonra qəbul edər. Otağın qapısından uzaqlaşmaq istəyirdin ki, "Xanım, sizə nə lazımdır", - deyə içəridən səsləndi.

Dedim ki, mənim işim bir az uzundur. Siz naharınızı edin, sonra danışarıq. Razılaşmadı. Məni içəri dəvət edib dedi ki, eybi yox, sizi yola salım, sonra nahar edərəm. Nahar qaçmır. Hiss edirəm ki, qonaqsınız. Atamın 1941-1945-ci illər müharibəsinin iştirakçısı olması barədə lazımi sənədi yazıb mənə təqdim etdi. Onun bu insani münasibəti məndə ona qarşı bir rəğbət oyatdı və mən: "Əgər mümkünsə telefon nömrənizi mənə verərsiniz", -dedim. O, məmnuniyyətlə: "Buyurun, xanım", - deyərək telefon nömrəsini mənə verdi və mən xoş ovqatla onadan ayrılıb Bakıya qayıtdım.

Bir müddətdən sonra 2-ci Qarabağ müharibəsi başlandı və 44 günlük müharibə parlaq zəfərimizlə başa çatdı. Müharibənin bitməsindən bir neçə müddət sonra Göyçay şəhidləri, qaziləri haqqında kitab yazmağı qərara aldım. Mətbuatdan, göyçaylı olduğum üçün tanıdığım, ərk elədiyim adamlardan bir neçəsinin ailəsinin ünvanını və telefon nömrəsini əldə etdim. Lakin bir çoxu haqqında internet resursları istisna olmaqla düz-əməlli məlumat almaqda çətinlik çəkməyə başladım. Kömək üçün Arzu xanıma müraciət etdim. Arzu xanım kövrələrək dedi: “Təranə xanım, ən böyük arzum bu olub ki, bizim şəhidlərimiz, qazilərimiz, döyüşçülərimiz haqqında kitab yazılsın. 27 ildən artıqdır ki, bu sahədə çalışıram. Hərbi xidmətə gedən əsgərləri yola salarkən hər dəfə onlarçun dualar etmiş, sağ-salamat qayıtmalarını Allahdan diləmişəm. İşimiz çox çətindir. Hər dəfə şəhid analarını, bacılarını, həyat yoldaşlarını görəndə mənim nə qədər ağrılar yaşadığımı bir Allah bilir. O analarla bahəm ölüb dirilirəm. İşimi sevirəm. Onlara xidmət göstərməkdən yorulmuram. Amma qəlbən çox ağrıyıram, əzab çəkirəm. Onların üzlərinə belə baxmağa utanıram. Bir qazi ailəsi kimi, bir qazi bacısı kimi onları duyuram, anlayıram, göynəyirəm. Bizim Göyçayımız qəhrəmanlar diyarıdır. Qarabağ uğrunda döyüşlərdə 200-dən artıq igidlərimiz şəhid olub, 1000-lərlə oğullarımız qəhrəmancasına döyüşüb. Həmişə düşünmüşəm ki, niyə bu qədər igidi olan rayonun şəhidlərindən, qazilərindən yazılmasın? Göyçay rayonu ön cəbhədə də, arxa cəbhədə də çox fəal olub. Bu gün siz onlardan yazmaq istəyirsizsə, sizə çox-çox təşəkkür edirəm. Çox sevinərəm, şad oluram. Bizim də qəhrəmanlarımıza, xeyriyəçilərimizə dəyər verilməlidir. Haqlarında kitablar yazılmalıdır. Biz kollektiv olaraq əlimizdən gələn köməkliyi sizdən əsirgəməyəcəyik. Allah işinizi avand, şəhidlərimizi rəhmət eləsin. Qazilərimizə şəfa versin. Amin”.

Bütün insani keyfiyyətləri özündə cəmləşdirən yüksək mədəniyyət, sakit danışıq tərzi, sadə davranış qaydaları Arzu xanımın mənəvi aləmini, psixologiyasını əks etdirir. Bir müəllif olaraq bir

çox materialların tapılmasınada, faktların dəqiqləşdirilməsində, valideynlərə əlaqələr qurulmasınada bizdən yardımını əsirgəməyən bu qeyrətli və vətənpərvər xanıma təşəkkür edir, dərin minnətdatlığımızı bidiririk. Var olasınız!

Damarlarında əsl azərbaycanlı qanı axan bu böyük insan haqqında qeydlərimi ona həsr etdiyim şeirlə tamamlayıram:

Mən sənin simanda Türk millətinin,
Dostu, həmdəmini, yarını gördüm.
Sənin məramında yaz nəfəsini,
Dağların əriməz qarını gördüm.

Sənin əməllərin millətin üzü,
Hər sözün şəhidə sanki can verir.
Amalın millətin baş ucalığı,
Qanından millətə ana qan verir.

Kamına çatmayan şəhidə ana,
Qaziyə, ərənə sən bir bacısan.
Elin ağrılsıyla yaşayan xanım,
Bu məğrur eilmə sən baş tacısan.

Xislətin nədirsə, sözün də odur,
Xiffətlər, əzablar yormasın səni.
Tanrıya sığınan Tanrı bəndəsi –
Arzum – Tanrı özü qorusun səni!

***

## XALQLA ORDUNUN VƏHDƏTİ: XEYRİYYƏÇİLƏR

Ürəkdən olunan bir yaxşılığın qarşılığını bir gün qarşınıza çıxacaq yaxşılıqlarla yaşayarsınız. Yaxşılıq bir başqa yaxşılıqla Allah tərəfindən sizə qaytarılır. Xeyirxahlıq, xeyriyyəçilik insanlara sevgidən doğur, imandan irəli gəlir. Babalarımız "Əl tutmaq Əlidən qalıb",- deyiblər. İnsanları digər varlıqlardan ayıran ağıl və şüurdur. Hər kəs cənnəti arzulayar, cənnətin sahibi olmaq istər. Amma bacarmaz, cənnət hamıya nəsib olmaz. Onu bu dünyada, sağlığında qazanmaq lazımdır. Əgər ömrün boyu bir yetimi sevindirib başına sığal çəkməmisənsə, çörəyini əlacsız, ruziyə möhtacla, çarəsizlə bölməmisənsə, ağlayan körpənin göz yaşını silməmisənsə, sınıq qəlbli oğul, qız övladı itirmiş valideynlərə dəstək olmamısansa, maddi yardım etməsən belə şirin dil ilə onların könlünü almamısansa, odu ancaq öz qarşına çəkmisənsə, "Allah məsləhət bilsəydi ona da verərdi. Allah özü bilir kimə nə edir" kimi çürük düşüncənin sahibisənsə, necə axirət dünyasının gözəlliklərindən danışa, cənnəti arzulaya bilərsən?

Düşünürəm ki, xeyirxahlıq, xeyriyyəçilik, qandan, gendən, kökdən gələn ali bir xislətdir. Kitaba əlavə etdiyim bu bölümü işləyərkən apardığım müşahidələr əsasında bir daha şahid oldum ki, "Ot kökü üstündə bitər" məsəlində böyük həqiqət var imiş. Hesab edirəm ki, xeyriyyəçilik minlər, milyonlar xəcləmək deyil, imkanın da-

xilində Allah yolunda, minnətsiz, əvəzini gözləmədən edilən yaxşılıqdır. Ya birini sevindirmək, ya da ümumi iş üçün imkanı çatmasa belə əlində, evində olan son 20 manatını könüllü, ürək açıqlığı ilə verən şəxsi ən böyük xeyirxah, xeyriyyəçi hesab edirəm. Ümumi işə sərf etmək üçün kimi 500 yüz mininin qarşısında 50 minindən, kimi 50 manatının müqabilində elə 50 manatından keçir. Hesab edirəm ki, hər ikisi eyni ürəyin, təfəkkürün, xislətin sahibidir. Allah hər birisindən razı olsun.

Düşünürəm ki, rütbəsindən, ictimai və sosial mənşəyindən, cəmiyyətdəki mövqeyindən asılı olmayaraq insanı başqalarının gözündə ucaldan, eyni zamanda onu Allah-təala yanında yüksək, şərəfli edən xüsusiyyətlərdən, bəlkə də ən başlıcası şəxsin əməlindəki xeyirxahlıq və ətrafdakı insanlara qayğısıdır. Yıxılanın qolundan tutmaq, çətinliyə düşənə dayaq durmaq, yardım etmək kimi xüsusiyyətlər vəzifə, titul, ad-san, var-dövlətlə ölçülmür. Bu xüsusiyyətlər insanın daxilindən gəlməlidir. Hər kəs yumruğu boyda ürəyə sahib olsa da, xeyirxahlıq hissindən məhrum olmayanlar özləri boyda ürək sahibidirlər.

***



## 1. ARİF İSMAYILOV (01.07.1941)

Arif Məhəmməd oğlu İsmayılov Göyçay şəhərinin Ləkçıplaq kəndində zəhmətkeş, sadə bir ailədə dünyaya gəlmişdir. Qayğıkeş mühitdə böyüyüb boya-başa çatan Arif baba özünü başa düşəndən, qazanc gətirən gündən ata-babaları kimi əlinin zəhmətilə qazandığını ehtiyacı olan insanlarla bölüşməyi özünə borc bilmişdir. Mən uşaq olarkən Ləkçıplaq kəndində belə bir xeyirxah insanın olmasını böyüklərimizdən, ata-anamdan eşitmişdim.

Zaman keçdi, illər, aylar ötüşdü. Arif babanın övladı İsmayıl İsmayılov 1-ci Qarabağ savaşında iştirak etdi. O, bir neçə dəfə yaralansa da, yaralanmağına baxmayaraq, yenidən ön cəbhədə son damla qanına kimi vuruşdu. 25 yaşlı İsmayıl İsmayılov vətən uğrunda, torpaq uğrunda şəhid oldu. Oğlu şəhid olan Arif baba o gündən etibarən el-obaya yardımını, xeyirxahlığını, xeyriyyəçiliyini birə beş artırdı.

Arif baba İkinci Qarabağ müharibəsində də göz yummadan bir an belə dincəlmədi. Yaralı əsgərlər üçün hər gün evində bişirtdirdiyi yeməklər oğlu və gəlinləri vasitəsi ilə lazımı ünvanlara çatdırıldı. Özü isə ön cəbhəyə müxtəlif zəruri avadanlıqlar, geyimlər daşıdı. O, 44 günlük müharibənin qələbə sevincini uşaq kimi atılıb-düşərək qarşıladı.

Arif baba nəinki kənd sakinləri arasında, hətta rayonda da xeyirxah, xeyriyyəçi kimi tanınan üzdə olan insandır. Dini-imanı kamil, kəndin hörmətli, vətənsevər ağsaqqalı olan Arif baba kəndin müşkül məsələlərini də öz müdrikliyilə, kamilliyilə yoluna qoyur. Ailə quran cütlüklərə xeyir-dua verir, yol göstərir, bir olmağı, birgə olmağı, ailədə hörmətlə yaşamağı tövsiyə edir. Kənd sakinləri

arasında bir-birindən incik olan ailələri, insanları barışdırır, sülhə, mehribanlığa çağırır. Bu dünyanın fani olmasını, haqq dünyalarını qazanmağı məsləhət görür.

Arif baba deyir ki, bu dünyanın varı-dövləti bizim deyil. Onlar bu dünyada qalacaq. Apara biləcəyimiz bir təmiz, yaxşı addır, rəhmətdir. Rəhmətinizi qazanın. Allaha namaz borcunuzu verin. Çalışın Quran oxuyun, dinə-imana gəlin. Harda olursunuzsa olun, kim olursunuzsa olun, heç zaman Allahınızı unutmayın, lənət qazanmayın.

Gözəl və dəyərli insan olan Arif babaya bu xislət 1941-1945-ci illərdə Vətən müharibəsinin şəhidi olan atası Məhəmməddən keçib. Arif baba atasının ölümündən sonra dünyaya gəlib.

Arif babanın qayınatası İsmayıl baba da 1941-1945-ci il Vətən müharibəsinin şəhidi olub. Deməli, bizim 1-ci Qarabağ savaşının qəhrəmanı, şəhidimiz İsmayıl Arif oğlu İsmayılov kökdən gələn bir kişiliyin, cömərdliyin əyani nümunəsidir.

Allah bütün şəhidlərimizə rəhmət eləsin və kəndimizin, elimizin, obamızın millətsevər, vətənpərvər, xeyirxah oğlu, ağsaqqalı olan Arif babaya xeyirli və sağlam ömür versin.

Sizin kimi valideynlərin qarşısında baş əyirik. Arif baba, 100 yaşayın. Amin!

Arif babanın yeri düşəndə söylədiyi bir şeir parçası da var.

İman əhli olmaq istərsən əgər,
Bədəninə əziyyət verəsən gərək.
Səxavət əhli olmaq istərsən əgər,
Varına-dövlətinə qıyasan gərək.
Şəhid adını almaq istərsən əgər,
Şirin canına qıyasan gərək.

Arif baba oğlu İsmayıl şəhid olduqdan sonra kənd qəbiristanlığını abadlaşdırıb, demək olar ki, gecə-gündüz orada olur. Bütün dünyasını dəyişənlərə, eləcə də şəhidlərimizə Yasın oxuyur.

Arif baba deyir ki, mənim qapımda olan mer-meyvələr neçə illərdir satılmır. Son kilosuna, dənəsinə kimi hər biri döyüş bölgəsinə, əsgərlərə gedir. Oktyabrın 4-də Arif baba şəxsən özü əsgərlərlə görüşə gedib. Amalı da son nəfəsinə kimi əsgərlərə dayaq olmaqdır. O, öz şəhid balası, 25 yaşlı gənc və nişanlı oğlu İsmayılın qoxusunu əsgərlərdən alır. Onları doğma balası hesab edir, atalıq, babalıq qayğısı, sevgisi göstərir. Arif baba 26 ildir ki, millətin namusu hesab olunan bayrağımızı oğlunun dəfn olunduğu Ləkçıplaq kəndinin qəbirstanlığında ucaldıb. Ən böyük arzusu da o bayrağı oğlunun şəhid olduğu Kəlbəcər rayonunda, ürəyindən vurulduğu yerdən asmaqdır.

Allah sizə o günü nəsib eləsin, Arif baba. Amin!

**Qeyd:** Eşitdiyimizə və bizə verilən məlumata görə şəhidimiz İsmayıl Arif oğlu İsmayılovun ana tərəfdən olan ulu babası Hacı Kərim Əfəndi də xeyriyyəçi olub.

***




## 3.EHTİRAM HƏMİDOV (28.07.1961)

Xeyriyyəçi, Birinci Qarabağ müharibəsi iştirakçısı, halal zəhməti, alın təri ilə qazandıqlarını Azərbaycan ordusundan, şəhid ailələri və qazilərimizdən əsirgəməyən Ehtiram İslam oğlu Həmidov 28 iyul 1961-ci ildə Göyçay rayonunun Qaraxıdır kəndində anadan olmuşdur. Orta məktəbi Qaraxıdır kənd orta məktəbində bitirmişdir. Oğlu Həmidov Rəhim Ehtiram oğlu 2-ci Qarabağ müharibəsinin şəhididir. Oğlunu Vətənin dar günündə ön cəbhəyə göndərən ata bununla kifayətlənməmiş, orduya, əsgərlərimizə göndərilən yardımların toplanması və döyüş bölgəsinə çatdırılmasında xüsusi fəallıq göstərmişdir. Ailəlidir. Bir övladı, üç nəvəsi var.

***



**4.İLYAS ƏZİZOV**
**(18.03.1962)**

İlyas Xəlil oğlu Əzizov 1962-ci il martın 18-də Göyçay rayonunun Qaraxıdır kəndində anadan olmuşdur. Qaraxıdır orta məktəbini və Bakı Rabitə Texnikumunu bitirmişdir. Hərbi xidmətini Moskva ətrafında Kastroma şəhərində keçirmiş, hərbi xidməti başa vurub vətənə qayıtdıqdan sonra ixtisası üzrə müxtəlif vəzifələrdə çalışmışdır. Oğlu Şəmistan Əzizov 2-ci Qarabağ müharibəsinin şəhididir.

Xeyirxah əməlləri və xeyriyyəçilik fəaliyyəti ilə kənd sakinləri arasında hörmət və nüfuz sahibidir.

Ailəlidir.

Ilyas əli qələmlidir. Şəhidlərimiz haqqında bir neçə şeirin müəllifidir. Oğlu Şəmistana həsr etdiyi və nümunə kimi verdiyimiz şeirini təkcə onun yox, sinəsinə övlad dağı çəkilmiş valideynlərin də ağası adlandırmaq olar.

Arabir yuxuma gəlirsən, balam,
Gendən əl eləyib qaçırsan məndən.
Elə istəyirəm bağrıma basam,
Məndən arxayın ol, deyirsən gendən.

Bir dəfə əlinlə əlimə toxun,
Bir dəfə yaxın gəl, deyim dərdimi.
Bizə böyük dərddir sənin yoxluğun,
İtirdim ömrümü, şux qamətimi.

Gəl oğlum, gəl baxım, bircə dəfə gəl,
Gəl basım bağrıma, oxşayım səni.
Mənim gəlməyimi istərsən əgər,
Onda ölüm gəlim, mən görüm səni.

***




## 4.BAĞIR ŞİRİNOV (08.05.1964)

Bağır Eldar oğlu Şirinov 1964-cü il may ayının 8-də Göyçay rayonunun Çərəkə kəndində anadan olmuşdur. Maşın ustası - dəmirçi-rəngsaz olmuş, halal zəhməti ilə ailəsini dolandırmışdır. Oğlu Eldar şəhid olana qədər peşəsi ilə məşğul olan Bağır, özünün deməyinə görə, artıq bu işlə məşğul ola bilmir.

El arasında yaxşı sənətkar, dürüst və xeyirxah insan kimi tanınan Bağır Şirinovun gördüyü işi əsl fədakarlıq adlandırmaq tamamilə qanununauyğundur. Onun Çərəkə kəndinin məzarlığında Şəhidlərlə bağlı göstərdiyi xidmət hər cürə təqdirə layiqdir.

Bizə verilən məlumatlara görə Çərəkə kəndinin şəhidləri dəfn olunan məzrlıqda Şəhidlərlə bağlı görülən işlərin birbaşa təşkilatçısı Bağır Şirinovdur. Xiyabandakı xatirə-abidələr onun maddi yardımı ilə yaradılmış, o bu abidələrin meydana gəlməsinin həm ideya müəllifi, həm mühəndisi, həm fəhləsi olmuş, deyilənlərə görə, bu işləri, demək olar ki, təkbaşına görmüşdür. Öyrənə bildiyimə görə, o, “Kapital” bankdan 5 il müddətinə 8 min də kredit götürmüş, həmin məbləği bütünlüklə Şəhidlər xiyabanının salınmasına və məzarlığın abadlaşdırmasına xərcləmiş, bu işi bu gün də davam etdirməkdədir.

Bağır Şirinovun Xiyabanda yaratdığı, şəklini verdiyimiz və əsl vətənpərvərlik nümunəsi olan bir lövhəsi haqqında xüsusi danışmağa ehtiyac var. Bu lövhədəkilər İkinci Qarabağ müharibəsi şəhidləridir. Çərəkə kəndindən olan Paşanın şəkli sağda yuxarıda, Eldarın şəkli isə solda yuxarıda yerləşdirilmişdir. Lövhənin ortasında isə 218-ci kəşfiyyat bölüyünün Eldarla bir yerdə şəhid olan yoldaşları, Vətən müharibəsi qəhrəmanı Orxan Əkbərovun döyüşçüləridir. Onlar 5 zabit, bir əsgər olublar. Əsgər Bağır Şirinovun oğlu Eldar Şirinovdur.




O lövhəni yaratmaq üçün lazım olan bütün xərcləri Bağır Şirinov çəkmiş, orada dikəldilmiş bayrağa, məzarlığın işiqladırılmasına, tikintidə istifadə olunmuş daşından tutmuş şalbana, betona qədər hər şeyi özü alıb gətirmişdir. Bu işləri görmək üçün heç kəsdən bir manat da olsun pul götürməmiş, özünun şəxsi "Mersedes" markalı maşınını sataraq bu işə sərf etmişdir.

Bağır Şirinov bizimlə telefonda söhbət zamanı nisgilli bir səslə bildirdi ki, uşağın (Eldarın – T.M.) toyuna hazırlaşırdım. Allah mənə nəsib eləmədi. Görünür, yazı belə imiş ki, bunu qismət elədi. Mən fəxr edirəm ki, şəhidin atasıyam. Elə-belə şəhidin yox, Milli qəhrəmanla bir yerdə döyüşmüş şəhidin atasıyam".

Eşq olsun belə ataya, belə vətənpərvər millət fədaisinə! Bu cür insanları Allah qorusun və himayəsini onlardan əsirgəməsin!




## 5.SƏDİYAR ABDULLAYEV (08.01.1973)

Sədiyar Ağalar oğlu Abdullayev 1973-cü il yanvarın 8-də Qaraxıdır kəndində anadan olmuş, 1980-1990-cı ci illərdə həmin kəndin orta məktəbində təhsil almış, sonra da Göyçay şəhərindəki 58 N –li peşə məktəbini bitirmişdir. 1991-ci ildə sovet ordu sıralarına hərbi xidmətə başlamış, 6 aydan sonra hərbi xidməti yarımçıq qoyaraq vətənə qayıtmışdır. Azərbaycanda yaranmaqda olan Milli Ordu sıralarına qatılaraq ordunun ilk əsgərlərindən olmuş, Birinci Qarabağ müharibəsinin qazisidir. Oğlu Səməd Abdullayev 2-ci Qarabağ müharibəsinində şəhidlik zirvəsinə ucalmışdır. Sədiyarın oğlu şəhid olandan sonra da cəbhədəki əsgərlərimizə yardımını dayandırmamış, kənd sakinlərinin israrla onu bu işdən çəkindirməyə cəhd etməsinə bamayaraq, "Ön cəbhədə olan əsgərlərimizin hər biri mənim Səmədim deyilmi?" –deyə fəaliyyətini davam etdirmişdir.

Sədyar Abdullayev kimi böyük ürəyə malik olan insanların qarşısında baş əyirik.

Həzrət Əlinin belə bir kəlamı var: "Öz yaxşılığınızı etməklə pisləri utandırın". Sədyar Abdullayev məhz belə insanlardandır.

Kənd təsərrüfatı ilə məşğuldur. Ailəlidir, 4 övladı var.

***



## 6.FƏRHAD ƏHMƏDOV (15.09.1955)

Fərhad Teymur oğlu Əhmədov 15 sentyabr 1955-ci ildə Bakı şəhərində anadan olmuşdur. Uşaqlığı atasının işlədiyi Göyçay şəhərində keçmiş, orta məktəbi də orada bitirmişdir(1971-ci il).

F.Əhmədov 1971-ci ildə Azərbaycanı tərk edərək Moskvaya köçmüş, orada 85 nömrəli texniki-peşə məktəbində çilingər-montajçı sənətinə yiyələnmiş, 1975–1977-ci illərdə həqiqi hərbi xidmətdə olmuşdur. F.Əhmədov 1978-1983-cü illərdə K.İ.Skryabin adına Moskva Baytarlıq Akademiyasında “Xəz məmulatlarının texnologiyası və əmtəəşünaslığı” ixtisası üzrə ali təhsil almışdır.

1986–1994-cü illərdə Londonda yaşamış, 1980–1990-cı illərdə Xəzər dənizi hövzəsində dərin sularda neft-qaz yataqlarının işlənməsi üzrə beynəlxalq layihələrdə bilavasitə iştirak etmişdir.

1995-ci ildən başlayaraq F.Əhmədov diqqətini Rusiyada biznesə yönəltmiş, 1995–1998-ci illərdə *FARCO Securities* investisiya şirkətinin Direktorlar şurasına rəhbərlik etmiş, 1994–2001-ci illərdə "Nortqaz" Qapalı Səhmdar Cəmiyyətinin Direktorlar şurasının üzvü olmuşdur.

2002-ci ildə "Nortqaz" QSC-nin Direktorlar şurasına rəhbərlik edir.

Sahibkarlıq fəaliyyətilə paralel olaraq İ.M.Qubkin adına Rusiya Dövlət Neft və Qaz Universitetinin aspiranturasını bitirmiş, iqtisad elmləri namizədi, Beynəlxalq Texnoloji Elmlər Akademiyasının müxbir üzvüdür.

F.Əhmədov on ildən artıq müddətdir ki, *Forbes* jurnalının Rusiya versiyasına görə dəyişməz olaraq Rusiyanın 200 ən zəngin adamı reytinqinə daxildir.

F.Əhmədov var-dövlətinin qanuniliyini asanlıqla sübuta yetirə bilən Rusiyalı milyarderlərin kiçik çevrəsinə daxildir. O, heç vaxt "girov hərraclarında" iştirak etməyib və dövlətin büdcə subsidiyalarından istifadə etməyən bir neçə iri Rusiya biznesmenindən biridir. *Forbes* dosyesində Əhmədov *self-made man* ("uğuruna görə özünə borclu olan şəxs") kimi qeyd olunub.

***

2004-cü ildə F.Əhmədov RF Federasiya Şurasında Krasnodar diyarının Administrasiyasının (2007-ci ilə qədər), 2007-ci ildə isə Federasiya Şurasında Nenets Muxtar Dairəsinin Deputatlar yığıncağının nümayəndəsi təyin olunmuşdur (2009-cu ilədək).

2007–2010-cu illər ərzində Avropa Şurasının Parlament Assambleyasında (AŞPA) Rusiya nümayəndə heyətinin işində fəal iştirak etmiş, Azərbaycanda daxil olmaqla, dəfələrlə seçkilərdə beynəlxalq müşahidəçi olmuşdur.

F.Əhmədov həmin dövrdə geniş beynəlxalq əlaqələr və münasibətlər qurmuş və onların sayəsində 2015-ci ildə kəskinləşmiş Türkiyə-Rusiya münasibətlərinin normallaşdırılmasına həlledici töhfəsini vermiş – Türkiyə Prezidenti ilə şəxsi görüşündə fikir ayrılıqlarının hər iki tərəfi qane edən yeganə mümkün tənzimləmə variantını təklif etmişdir.

2018-ci ilin yanvar ayında F.Əhmədov digərləri ilə yanaşı "Kreml məruzəsinə" — ABŞ Maliyyə Nazirliyi tərəfindən *"ABŞ əleyhdarları ilə sanksiyalar vasitəsilə mübarizə haqqında"* (CAATSA) qanununa uyğun olaraq, Amerika Konqresinə təqdim olunmuş sənədə daxil edilmişdir. ABŞ qanunvericiliyi baxımından sənədə

daxil edilmə onda sadalanan şəxslər üçün hüquqi nəticələri nəzərdə tutmur.

2006-cı ildə F.Əhmədov ilk direktoru atası olan Göyçay Konserv zavodunu almış və əhəmiyyətli investisiyalardan sonra onun fəaliyyətini bərpa etmişdir.

2009-cu ildən etibarən Teymur Əhmədov "AZNAR" Qapalı Səhmdar Cəmiyyətinin Direktorlar şurasının sədri və səhmdarıdır. Təkcə ilkin mərhələdə layihəyə 55 mln. dollar investisiya qoymuşdur, bu da həm bazara çıxarılan, həm də ixrac olunan (o cümlədən, ABŞ, Avropa, Yaponiya, Çin, Yeni Zelandiyaya) yüksək keyfiyyətli məhsulların (ilk öncə nar şirəsinin) buraxılışına başlamağa və Azərbaycanın Göyçay və İsmayıllı rayonlarında yüzlərlə iş yeri yaratmağa imkan vermişdir.

Son illər ərzində qida sənayesinin maliyyələşdirilməsindən əlavə, F.Əhmədov kənd təsərrüfatının, o cümlədən balıqçılıq, heyvandarlıq, arıçılıq, üzümçülüyün inkişafına xeyli sərmayə qoymuş, özünə məxsus üzüm bağlarının üzümündən yüksək keyfiyyətli çaxırın istehsalını təşkil etmişdir. Digər iri miqyaslı layihələrə, xüsusilə otel və tibb sektoruna sərmayə qoymuşdur.

2020-ci ilə olan vəziyyətə görə iş adamının Azərbaycandakı layihələrə qoyduğu maliyyə vəsaitlərinin ümumi həcmi 200 mln. dollardan artıqdır.

***

**Xeyriyyəçilik fəaliyyəti:** Xeyriyyəçilik F.Əhmədovun həyat fəlsəfəsinin prinsipial təməllərindən biridir. O, "AZNAR" və digər təşkilatlar vasitəsilə mütəmadi olaraq məktəblərə, uşaq təşkilatlarına, tibb müəssisələrinə, tələbələrə, əlillərə və veteranlara maddi yardım göstərir.

İş adamı dəfələrlə Azərbaycan rəssamlarının əsərlərinin xaricdə – London, Venesiya və Parisdə sərgilərini təşkil edib. Uzun illərdir ki, Əhmədovun xeyriyyəçiliyinin adresatı onun kiçik Vətəni — Azərbaycanın Göyçay rayonudur. O, burada müxtəlif idman tədbirlərinə və festivallara sponsorluq edir.

F.Əhmədov "Nar festivalının" – artıq 15 ildir ki, noyabr ayının ilk ongünlüyündə Göyçay rayonunda keçirilən və ildən-ilə artan ümummilli və beynəlxalq marağa səbəb olan mədəni-kütləvi tədbirin təşəbbüskarı və əsas sponsorudur.

2020-ci ilin mart ayında, koronavirus pandemiyasının qızğın çağında Azərbaycanın Prezidenti İlham Əliyevin çağırışına cavab verərək, rəhbərlik etdiyi "AZNAR" QSC-nin adından Koronavirusla mübarizə fonduna 1 mln. manat vəsait köçürmüşdür. O, həmçinin Göyçay rayonunda 1600 ailəyə maliyyə və ərzaq dəstəyi göstərmişdir.

İkinci Qarabağ Müharibəsi dövründə (2020-ci ilin sentyabr-noyabr ayları) F.Əhmədovun rəhbərlik etdiyi "AZNAR" QSC Azərbaycan Silahlı Qüvvələrinə əvəzsiz yardım şəklində 1 mln. manat dəyərində dərman, geyim, ərzaq məhsulları və digər ilkin tələbat əşyaları göndərmişdir. Müharibə başa çatdıqdan sonra F.Əhmədov həlak olan hərbçilərin və müharibə veteranlarının ailələrinə dəstək fonduna daha 1 mln. manat köçürmüşdür

Fərhad Əhmədovun atası Teymur Əhmədov Sovet dönəmində nar zavodunun direktoru olmuşdur. Teymur Əhmədovun yaşıdları və onu tanıyanlar onun o zamanda da, bu gün də Göyçayın fəxri və böyük insanı olduğunu deyirlər. Dünən, bu gün və əbədi olaraq Fərhad Teymuroğlu öz əməli ilə atasının adına layiq mükəmməl insan, xeyriyyəçi olduğunu sübut edib.

Xoşbəxtlik – zəhmət və iradə, əmək və səy nəticəsində əldə edilir. Zəhmət və möhkəm iradəsinin nəticəsidir ki, bu gün Fərhad Teymuroğlu vətənin dar günündə xalqının, millətinin, Azərbaycan ordusunun arxasında KİŞİ kimi dayanır.

Allah Fərhad Əhmədovun timsalında ürəyi xalqla, kasıb təbəqə ilə, kimsəsizlərlə döyünən incilərimizi, şəxsiyyətlərimizi və ziyalılarımızı öz pənahında saxlasın. Amin!

Fərhad Əhmədov patriotdur. Patriot o insana deyilir ki, vətənpərvərlik və xalqpərvərlik uğrunda malından, canından keçməyi

əsirgəməsin, öz vətəninin və xalqının mənafeyi və azadlığı uğrunda çalışsın və hər cür əzab-əziyyətə qatlaşsın.

Bu cür xüsusiyyətlər həmişə qeyrətli insanlarda olur. Ağıldan, yaxşı əməldən və xeyirxahlıqdan üstün bir dövlət yoxdur. Çünki onlar həmişə səninlədir və onları heç kəs səndən ala bilməz. Var olasınız, vətən oğlu!

***



**7.NİYAZ İBRAHİMOV (26.02.1958)**

Niyaz İbrahimov 1958-ci il fevralın 26-da Göyçay rayonunun Qaraxıdır kəndində anadan olmuşdur. Qaraxıdır kənd orta məktəbini və Göyçay Kənd Təsərrüfatı texnikumunun baytarlıq fakültəsini bitirmişdir. Almaniya Demokratik Respublikasında hərbi xidmətdə olmuş, hərbi xidmətini başa vurduqdan sonra Rusiyada məskunlaşmışdır. 30 ildən artıqdır ki, Serpuxov şəhərində yaşayır. Rusiya vətəndaşı olub Rusiyada yaşamağına, çalışmağına baxmayaraq, ürəyi hər zaman Azərbaycan xalqı ilə döyünüb və hər zaman da öz köməkliyini, dəstəyini xalqından, həmvətənlərindən əsirgəməyib. 44 günlük vətən müharibəsində də yardımını Azərbaycan əsgərindən əsirgəmədi.

Niyaz İbrahimov xislətən millətpərəstdir. Azərbaycandan kənarda yaşasa da, hər zaman vətənini, xalqını düşünür, millətinin dar günündə ona yardım etməyi özünün ali borcu hesab edir. O düşünür ki, insanın harada yaşmasından asılı olmayaraq ona ən doğma

olan vətəndir. Vətənin xoş günündə də, dar gününündə hər kəs öz vətəndaşlıq borcunu yerinə yerinə yetirməlidir.

Bizneslə məşğuldur.

Ailəlidir. 2 övladı, 4 nəvəsi var. Oğlu Arif İbrahimov Moskva şəhərində yaşayır, dövlət xəstəxanasında şöbə müdiri, ankoloq həkim kimi çalışır.

Qızı Leyla Mirzəmmədova ailəlidir, Bakı şəhərində yaşayır və Bioloji Təbabət Klinikasında tibb bacısıdır.




## 8.KƏMALƏ MƏMMƏDOVA (27.07.1965)

2-ci Qarabağ müharibəsinin arxa cəbhəsinin yardımçılarından olan xeyriyyəçi Kəmalə Mirpaşa qızı Məmmədova 1965-ci il iyul ayının 27-də Göyçay şəhərində anadan olmuşdur. 1971-1981-ci illərdə Göyçay şəhərindəki 9 saylı məktəbdə orta təhsil almışdır. Əmək fəaliyyətinə 1993-cü ildə Əyirici kombinatında fəhlə olaraq başlamış, bir müddətdən sonra iş uğurlarına görə briqadir vəzifəsinə təyin olunmuşdur. Kəmalə yaxşı və fəal işinə görə 2 otaqlı mənzillə təmin olunub. Aprel döyüşlərində Tərtər bölgəsinə əsgərlərə yardım edən Kəmalə xanım 44-günlük 2-ci Qarabağ müharibəsi zamanı da orduya yardım etməyi özünə müqəddəs borc hesab edərək dəfələrlə Füzuli rayonunun Kürdmahmudlu kəndinə əsgərlərə ərzaq və geyim

yardimi aparmışdır. Müharibə bitdikdən sonra da Kəmalə xanım Cəbrayıl rayonundakı hərbi hissələrə yardımını davam etdirməkdədir. Qəbələ rayonunda yaşayan qazimiz Elçin Səmədovun yanına ziyarətə gedən Kəmalə xanım həm də Bərdə rayonundan olan şəhidimiz Xudayar Yusifzadənin anasına dəstək olmuş, onun məzarını ziyarət etmişdir. O, tez-tez Göyçay şəhərindəki Şəhidlər xiyabanına gedərək şəhidlərimizi ziyarət edir, ailələrinə baş çəkir, onlara dəstək olur. Bir ana olaraq Kəmalə xanım bu günə kimi şəhid analarını, bacılarını, xanımlarını, balalarını unutmur, onlara həm mənəvi, həm maddi yardım edir. Ehtiyac olduğu halda onların müalicələri üçün də əlindən gələni əsirgəmir. Kəmalə xanım deyir ki, şəhidlərin hər biri mənim balamdır. Mən son nəfəsimədək nə onları, nə də onların valideynlərini, övladlarını unutmaram. Onlar bizim üçün şəhid oldular. Hər dəfə şəhidlərimizi ziyarət edərkən, onlardan bir xahişim olur: "Haqqınızı bizə halal edin, balalarım".

Kəmalə xanım hal-hazırda kiçik bizneslə, ticarətlə məşğuldur. Bu məqam da bir el məsəlini xatırlatmaq yerinə düşər. "Aslanın erkəyi, dişisi olmaz".

Kəmalə xanımın bir oğul övladı var. Oğlu Roman Rövşən oğlu hazırda DİN-də polis şöbəsində çavuş vəzifəsində çalışır. Ağır atletika üzrə Avropa çempionudur.

***



## 9.ŞAHİN YAQUBOV (27.03.1966)

Şahin Ənvər oğlu Yaqubov 27 mart 1966-cı ildə Göyçay şəhərinin Qaraxıdır kəndində anadan olmuş, həmin kənddə orta məktəbi bitirmiş, 1987-1992-ci illərdə Azərbaycan İnşaat Memarlıq İnistitutunda ali təhsil almışdır. 1998-2001-ci illərdə Qaraxaıdır kənd İcra nümayəndəsi vəzifəsində çalışmış, hazırda Kənd dini və kənd İnvestisiya Lahiyəsi üzrə icmalarının sədridir. Qaraxıdır kəndində doğulub boya-başa çatan 1-ci və 2-ci Qarabağ müharibəsi şəhidlərinə ucaldılacaq abidənin ideya rəhbəri və təşkilatçısıdır. Kənd daxili, rayon daxili və Respublika daxili keçirilən bir çox tədbirlərin təşkilatçısı və iştirakçısı, Göyçayın sayılıb-seçilən nüfuzlu ziyalılarından biridir. Nofəl Əhmədov, Alxan Abdullayev, Arif Nəsirov və adlarını sadalaya bilmədiklərim bir neçə yoldaşlarla birgə 44 günlük müharibədə əsgərlərimizə edilən və göndərilən yardımların birbaşa təşkilatçısı və göndərilməsinə rəhbərlik edəni Şahin Yaqubovdur.

Zəngin mənəviyyata malik olan, insanlarla münasibətdə xoş rəftarı ilə seçilən şəxslər cəmiyyət arasında kamil insan statusu qazanır. Allah-taala o bəndəsini himayəsinə alıb cənnətə daxil edər ki, onda bu üç keyfiyyət olsun: imkansızlara minnətsiz yardım etmək; valideynlərə qarşı şəfqət göstərmək; tabeliyində olanlarla yaxşı davranmaq. Düşünürəm ki, bu keyfiyyətlərin hər biri Şahin Yaqubovun anadangələmə xislətidir və bunlar cəmiyyət arasında öz təsdiqini tapmışdır.

Şahin Yaqubov 44 günlük Vətən müharibəsi günlərində əsl fədakarlıq nümunəsi göstərmiş, kənd camaatının orduya yarıdmının

təşkil olunmasında və çatdırılmasında mühüm rol oynamışdır. Onun təşəbbüsü ilə Qaraxıdır kəndinin 300-dən yuxarı sakini cəbhə bölgələrinə, döyüşən orduya konüllü yardım kompaniyasına qoşulmuş, 40 min manat pul dəyərində maşınlarla yataq əşyaları, geyim və ərzaq məhsulları toplanaraq cəbhəyə göndərilmişdir.

Kəndin və Göyçay şəhərinin bir çox sakinlərinə minnətsiz yaxşılıq, qardaşlıq, atalıq, böyüklük, ağsaqqallıq edən, özü haqqında danışmağı və başqasının da onun barəsində məlumat verməsini sevməyən Şahin Yaqubovun Göyçay şəhidləri ilə bağlı gördüyü bir fədakarlığı burda qeyd etməsəm, insafsızlıq olar. Bir müddət bundan əvvəl Qaraxıdır kəndinin şəhid övladı Şəmistan Əzizov haqqında çap etdirdiyim “Qırılıb tale güzgüsü” kitabımın materiallarının topanmasında mühüm xidmətləri olan Şahin müəllim Göyçay şəhidləri ilə bağlı yazdığım bu kitabın da ərsəyə gəlməsində mənə mənəvi dəstək olmuş, materialların toplanmasında və faktların dəqiqləşdirilməsində əsl ziyalı, ürəyi el-oba, millət sevgisi ilə dolu olan bir insan kimi köməyini məndən əsirgəməişdir. Şahin müəllimdən mənə göstərdiyi qayğı və şəhidlər haqqında yazdığım kitablar üçün çəkdiyi zəhmət üçün halallıq diləyir, ona minnətdarlığımı bildirməyi özümə mənəvi borc hesab hesab edirəm.

Ailəlidir. 3 övladı var.

Oğlu Fəxrəddin Yaqubov qardaş Türkiyyədə yaşayır, həkimdir. Türkiyyənin Bursa şəhərində Bursa Uludağ Universitet xəstəxanasında beyin cərrahı kimi çalışır. Eyni zamanda uzmanlıq təhsili alır.

Oğlu Cavidan Yaqubov 2-ci Qarabağ müharibəsinin fəal iştirakçısıdır. Hazırda Göyçay Rayon İcra Hakimiyyəti nəzdində şəhid ailələri, qazilər və veteranlar üzrə iş şöbəsində böyük məsləhətçidir.

Qızı Cəvahirat Şahin qızı Türkiyyədə təhsil almış, hazırda Bona Dea İnternational Hospitalda fiziyoterapist vəzifəsində çalışır.

Azərbaycan xalqının qeyrətli oğlu, Allah sizdən razı olsun, Var olasız!



## 10.CAVANŞİR ŞƏRİFOV
## (01.05.1967)

Cavanşir Firudin oğlu Şərifov 01 may 1967-ci ildə Göyçay rayonun Alpout kəndində anadan olmuşdur. Orta texniki təhsillidir. 1997-ci ildən Risiyanın Rastov şəhərində yaşayır və Rusiya vətəndaşıdır. Sahibkarlıqla məşğul olur. Həyat yoldaşı Afət Niyaz qızı ali təhsilli müəllimdir. Cavanşir nümunəvi ailə sahibi, iki oğul atasıdır.

Cavanşir vətəndən uzaqlarda yaşasa da, vətənini, doğulduğu Alpout kəndini qətiyyən unutmur, demək olar ki, hər il ailəsi ilə birlikdə Göyçaya, doğma kəndinə, qohum-əqrabalarını yad etməyə gəlir.

Mərd, alicənab insan olan Cavanşir Rusiyada yaşadığı halda kəndin xeyir-şərində iştirak etməyi də özünə borc bilir. Kəndə gələn kimi hüzr yerlərini gəzir, burada olduğu müddətə kəndin toylarında, tədbirlərində iştirak edir.

Həm birinci, həm də ikinci Qarabağ savaşında şəhid olmuş gənclərin, yaralanmış qazilərin qayğısını çəkməyi Cavanşir müəllim millətinə, xalqına olan borcu hesab edir. 44 günlük Vətən müharibəsi günlərində orduya əlindən gələn maddi yardımı edən Cavanşır, əslində öz vicdani borcunu yerinə yetirmiş, şəhid və qazilərə yardımını bu gün də davam etdirməkədir.

İmkansız ailələrə yardım əli uzadan, kəndlərinin yolunu, qəbiristanlığını abadlaşdıran, sinəsində vətən eşqi ilə çırpınan odli ürəyi olan Cavanşir vətəndən uzaq yaşasa da, imkanları daxilində Vətəninə və vətəndaşlarına kömək etməyi özünün vətəndaşlıq vəzifəsi adlandırır.

Böyük oğlu Kənan Şərifov Şimali Qafqaz Akademiyasının idarə etmə fakültəsini, kiçik oğlu Orxan Şərifov ilsə Biznesin İdarəolunması Universitetinin hüquq fakültəsini bitirmiş ali təhsilli mütəxəssislərdir. Atalarının yolunu davam etdirir, halal biznesləri ilə qazandıqlarını millət yoluda cərf etməkdən zövq alırlar.

***



## 11. ELXAN YAQUBOV (16.06.1968)

Elxan Yaqubov vətəni, dövləti, xalqı uğrunda zəhmətə qatlaşan, millətinin səadəti naminə əlindən gələn hər şeyi etməyə hazır olan, xoşbəxtliyini, varlığını vətənə, xalqa ləyaqətlə xidmətdə görən əqidə adamıdır.

Bioloji Təbabət Klinikasının direktoru olan Elxan Ənvər oğlu Yaqubov 1968-ci il iyunun 16-da Göyçay rayonunun Qaraxıdır kəndində anadan olmuşdur. 1985-ci ildə Qaraxıdır kənd orta məktəbini, 1993-cü ildə Azərbaycan Dövlət Neft Akademiyasının iqtisadiyyat fakültəsini bitirmiş, Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitunun dissertantıdır.

O, 2001-ci ildə dünya üzrə mərkəzi Almaniyada yerləşən bioloji təbabətlə müalicə metodunu (Bioloji Tənzimləyici Təbabət) Azərbaycana gətirmiş, Bioloji Tənzimləyici Təbabət metodları ilə müalicə edən bütün ixtisaslar üzrə həkimləri tam hazırladıqdan sonra 2009-cu ilin fevralından Bioloji Təbabət Klinikasını təsis etmişdir.

Elxan Yaqubov həmçinin yaradıcılıqla və tarixi araşdırmalarla da məşğuldur. O, 2007-ci ildə Prezident İlham Əliyevin həyatından bəhs edən “Hər bir azərbaycanlının prezidenti”, 2012-ci ildə tariximizlə bağlı “Qara xaç yürüşü”, 2014-cü ildə isə Xocalı faciəsi haqda “Torpaq qan ağlayır” kitablarını çap etdirmişdir.

Bioloji Təbabət Klinikasının direktoru Elxan Yaqubov peşəkarlığı və qayğıkeşliyi ilə seçilən, bu işin müqəddəsliyini qoruyub saxlayan, kömək etdiyi hər kəsin rəğbətini qazanan insanlardandır.


Vətən Müharibəsi Əlillərinə Kömək
İctimai Birliyi

FƏXRİ FƏRMAN

Yaqubov Elxan Ənvər oğlu

"Vətən Müharibəsi Əlillərinə Kömək" İctimai Birliyinin İdarə Heyətinin qərarı ilə 44 günlük Vətən Müharibəsindəki xidmətlərinə görə

TƏLTİF OLUNUR

"Vətən Müharibəsi Əlillərinə Kömək"
İctimai Birliyinin sədri: Q.Məmmədov

25 may 2021-ci il, Bakı

Elxan Yaqubovu 44 günlük Vətən müharibəsi arxa cəbhəsinin qəhrəmanı adlandırsaq, qətiyyən mübaliğəyə yol verməz, həqiqəti söyləmiş olarıq. Öyrənə bildiyimiz səhih məlumatlara görə müharibə günlərində Elxan Yaqubov sahibi olduğu klinikanın təcili yardım maşınlarını kifayət qədər dava-dərman və əmək haqqları saxlanılmaqla həkim personalı ilə birgə cəbhə bölgələrinə göndərmiş, özü də bir neçə dəfə döyüş bölgələrində olaraq əsgərlərlə görüşmüş, onlara mənəvi dəstək olmuşdur.



# FƏXRİ FƏRMAN

*Masallı Bioloji Təbabət Klinikasının rəhbərliyi və kollektivi*

**Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda aparılan döyüş əməliyyatları zamanı Müdafiə Nazirliyinin tibbi hərbi hissə və müəssisələrinin işinin fasiləsiz rejimdə təmin olunmasında, yaralılara tibbi yardımın təşkilində verdikləri layiqli töhfələrinə görə**

**TƏLTİF OLUNUR**

**Müdafiə Nazirliyinin**
**Tibb Baş İdarəsi rəisinin vəzifəsini icra edən**

**tibb xidməti polkovniki Firuddin Nəbiyev**

**"19" mart 2021-ci il**

Elxan Yaqubovun klininkasının müharibə dövrü fəaliyyəti ilə bağlı bizə verilən məlumatlardan aydın olur ki, müharibədə yaralanan 52 şəxs Masallı Bioloji Təbabət Klinikasında tam müalicə alıb, əvvəldən-axıra qədər xərclərini klinika özü ödəyib. Lənkəran Mərkəzi Xəstəxanada müalicə alan yaralıların travmatik cərrahiyə əməliyyatları heç bir ödəniş olmadan Masallıdakı klinikada aparılıb.



Ümumən, müharibə dövrü və müharibədən sonrakı aylarda E.Yaqubovun rəhbərlik etdiyi klinikalarda 418 yaralıya, şəhid ailəsinin üzvülərinə pulsuz tibbi yardım göstərilib, yüzdən artıq xəstə sistemli şəklidə müalicə olunub. Hətta ev şəraitində də qazilərə yardım edilmiş, müalicə olunmuşlar. Klinikanın əməkdaşları Göyçay və Ucar xəstəxanasında yatan yaralıları, qaziləri pulsuz müayinə etmiş, onları lazımı dava-dərmanlarala təmin etmişlər. 1 iyun uşaqlar günü münasibəti ilə Bioloji Təbabət Klinikasının həkimləri daun xəstəsi olan xəstələrə himayədarlıq etmiş, müayinə və müalicələrini öz boyunlarına çəkmiş, diqqət və yardımları ilə uşaqların qəlbini sevindirimişlər.

Uzun illərdən bəridir ki, Elxan Yaqubov Bakıda, Sumqayıtda, Göyçayda və doğulub boya-başa çatdığı Qaraxıdır kəndində, qonşu kəndlər olan Ləkçıplaq, Mırtı, Alikənd, Veysəlli sakinlərindən öz yardımını əsirgəmir, demək olar ki, hər bir ailəyə dəstək olaraq əl tutur.

44 günlük müharibədə də, ondan əvvəl və sonra da Elxan Yaqubovun xalqına, millətinə, kasıb təbəqəyə yardımı, xidməti misilsizdir.

Bildiyimə görə General Polad Həmimovun və döyüşçü İlqar Məmmədovun anası, şəhid polkovnik Babək Səmidlinin atası və həyat yoldaşı da Biloloji Klinikada ödənişsiz olaraq müaniə və müalicə olunublar.

Elxan Yaqubov olduqca böyük ürəyə malik olan xeyriyyəçidir. Onun 2018-ci ildə Qaraxıdır kəndində inşa etdirdiyi Həzrəti Xədicə məscidi dini ayinləri icra etmək üçün müqəddəs bir məkan olmaqla yanaşı, həm də bir sənət əsəri, memarlıq abidəsidir. Ona cəsarətlə el atası demək olar.

Elimizin, obamızın, rayonumuzun fəxri olan Elxan Yaqubova iş fəaliyyətində və şəxsi həyatında uğurlar arzulayırıq. Var olasınız!.

**Qeyd:** *Şəkildə Elxan Yaqubovun Qaraxıdır kəndində tikdirdiyi Həzrəti Xədicə məscidi*

***



## 12.RƏŞİD XƏLİLOV (1970)

Rəşid Tahir oğlu Xəlilov 1970-ci ildə Göyçay şəhərində anadan olmuşdur. 1977-1987-ci ildə Göyçay şəhərindəki 9 saylı tam orta məktəbdə təhsil almışdır. 1989-1991-ci illlərdə Ukraynanın Voronej şəhərində hərbi xidmətdə olmuş, hərbi xidməti başa vurduqdan sonra Kiyev İdarəetmə Universitetini bitirmişdir. Rəşid müəllim haqqında onu yaxından tanıyan və əməlllərinin şahidi olan bir yoldaşdan məlumat aldıq. Öyrəndik ki, xeyriyyəçidir və etdiyi xeyirxah əməlləri Allah rızası üçün edən bir vətənpərvər, miilətsevər insandır.

Rəşid Xəlilov vətənin dar günündə, 44 günlük savaş dönəmində öz maddi və mənəvi dəstəyi ilə Azərbaycan ordusunun yanında oldu, stimul verdi və onlara “hər zaman sizinləyəm” söylədi.

Rus yazıçısı L.N.Tolstoy deyir: “Sadəlik, xeyirxahlıq və dürüstlük olmayan yerdə böyüklük yoxdur”.

Düşünürəm ki, Azərbaycanın arxa cəbhədə olan mərd oğullarını, arxa cəbhənin qəhrəmanları görmək, dəyərləndirmək, işıqlandırmaq da biz qələm sahiblərinin borcudur. Bu baxımdan mən də bacardığım qədər 2-ci Qarabağ müharibəsinə maddi və mənəvi dəstək olan insanları sizə qismən də olsa tanıtdırmaq istəyirəm.

Rəşid Xəlilov 1991-ci ildən “ Shohret-4” kiçik müəssisənin direktoru, 1998-ci ildən “ERTO” MMC-nin təsisçisi, 2007-ci ildən

" R-QROUP" MMC-nin təsisçisi və direktorudur. Ailəlidir. İki övladı var.

Var olasınız, Vətənin qeyrətli oğlu!



## 13.NOFƏL ƏHMƏDOV (1971)

1971-ci ildə Göyçay rayonunun Qaraxıdır kəndində anadan olmuş, 1978-1988-ci illərdə Qaraxıdır kənd məktəbində tam orta təhsil almışdır. 1988-ci ildə Şəki Kənd Təsərrüfatı Texnikumuna daxil olmuşdur. 1989-cu 1991-ci illərdə hərbi xidmətdə olmuş, hərbi xidməti başa vurandan sonra təhsilini davam etdirmiş, 1992-ci ildə texnikumu bitirərək doğulduğu Qaraxıdır kəndinə qayıtmış, hazırda orda yaşayır. Xeyirxah, yaxşı əməllər sahibi kimi tanınıb.

Nofəl Əhmədov 44 günlük müharibənin ilk günündən əlindən gələn yardımı Azərbaycan ordusundan əsirgəməmiş, vətənini, millətini sevən bir oğul kimi döyüş gedən bölgələrə mənəvi dəstək olmaqla yanaşı, maddi kömək də göstərmişdir. Arxa cəbənin fəallarından biri olan Nofəl Əhmədov "Əl tutamaq Əlidən qalıb" deyərək imkanları qədər insanlara yardım etmişdir. Ətrafındakılar onu mərd, cəsur və xeyirxah bir insan kimi xarakterizə edirlər.

Allah verən əinizdən kəsməsin. Var olasınız!

Ailəlidir. 2 övladı var.

***



**14.GÜNDÜZ GÜLİYEV**
**(20.06.1972)**

Qaraxıdır kəndinin təqvalı, mömin, xeyirxah, sərvətini Allah rizası üçün millətinə sərf etməkdən zövq alan ziyalılarından biri olan Gündüz Soltanmahmud oğlu Güliyev 1972-ci il iyun ayının 20-də anadan olmuşdur. 1979-1989-cu illərdə Qaraxıdır kənd orta məktəbində orta təhsil almış, 1990-1992-ci illər hərbi xidmətdə olmuşdur. 2003-cü ildən etibarən yerli ruhanilərin yanında dini təhsil almış, müqəddəs Qurani-Kərimi öyrənərək ibadətə başlamışdır. 2018-ci ildən Qaraxıdır kəndində Həzrəti Xədicə məscidində imamlıq edir. Ailəlidir. 4 övladı, 2 nəvəsi var.

Qızı Güliyeva Bəsti imtahanları müvəffəqiyyətlə verib Bakı şəhərində "Şəbnəm" Quran kursunda təhsil almağa hazırlaşır.

"**Xeyirxah işdə öndə gedənlər cənnətdə də öndədirlər" ("Vaqiə" surəsi, 1-ayə)**

***



**15.SƏDİYAR XUDAVERDİYEV (1972)**

Burada yeri gəldiyindən Birinci Qarabağ müharibəsinin qazisi Sədiyar Xudaverdiyevin 2-ci Qarabağ müharibəsi ərəfəsində və 44 günlük müharibə zamanı gördüyü xeyirxah işlər barədə bir neçə kəlmə demək istəyirəm.

Sədiyar Xudaverdiyev 2010-cu ildən mütamadi olaraq ( 28 may, 26 iyun, 9 noyabr) ön xətdə xidmət edən hərbi qulluqçuların döyüş ruhunu yüksəltmək məqsədilə Qaraxıdır kənd İlham Kərimov adına inistrumental ansamblı ilə birgə konsertlər verib. İkinci Qarabağ döyüşləri zamanı 44 gün ərzində 12 dəfə döyüş bölgələrinə Qaraxıdır kənd sakinlərilə birlikdə isti adyallar, yorğanlar, isti geyimlər, papaqlar və.s. bu kimi yardımlar aparıb. Ümumilikdə müharibə günlərində Qaraxıdırdan Naftalan, Goranboy, Tərtər, Füzuli rayonlarında yerləşən hərbi hissələrinə döyüşçülərin ehtiyaclarını ödəmək məqsədilə 14 maşın yardım göndərilib və Sədyar Xudaverdiyev bu işlərin əsas təşkilatçlarından biri olub.

İmam Sadiq (ə) deyir: “Hər kəs müsəlman kasıblarından birinə ehtiyacı olan paltarı verərsə və yaxud yaşayışını təmin edən bir bir şey əta edəsə, Allah yetmiş min mələyə əmr verər ki, qiyamət gününə qədər onun hər günahının bağışlanması üçün dua etsin”.

***



**16.ƏDALƏT YAQUBOV
(1973)**

Ədalət Ənvər oğlu Yaqubov 1973-cü ildə Göyçay rayonunun Qaraxıdır kəndində anadan olub. 1980-1990-cı illərdə kənd orta məktəbində təhsil alıb. 16 sentyabr 1992-ci ildən 8 noyabr 1996-cı ildək 4 il 2 ay 1-cı Vətən müharibəsində hərbi xidmətdə olub. 1991-ci ildə Azərbaycan Texniki Universitetə qəbul olunaraq 1998-ci ildə məzun olub. Hal-hazırda fərdi sahibkardır. Ailəlidir. 3 övladı var. Ailənin ilk övladı olan Ənvər Ədalət oğlu Yaqubov Azərbaycan Diplomatik Akademiyasının hüquq fakultəsində təhsil alır. 3-cü kurs tələbəsidir. Digər övladları Məryəm Yaqubova və Nicat Yaqubov məktəblidir.

Ədalət Ənvər oğlu Yaqubov xeyriyyəçidir. O, 2-ci Qarabağ müharibəsi zamanı da Azərbaycan ordusundan əsgərlərimizdən köməyini əsirgəməyib. Müharibə bölgəsi olan müxtəlif region və kəndlərimizə yardım göndərməkdə yaxından iştirak edib. Ədalət Yaqubova çəkinmədən və tam cəsarətlə dar ayağın adamı demək olar. O, nəinki 44 günlük müharibə dönəmində, hətta günü bu günə kimi şəhid və qazi ailələrinə köməklik edir. Xocalı soyqırımından sağ qalan, lakin çox əziyyətlə yaşayan bir ailəni himayəyə götürüb və onlara maddi və mənəvi dəstəkdir. Xislətən haqqın, ədalətin tərəfində duran, dürüst, vətənpərvər, millət sevər, qayğıkeş olan Ə.Yaqubov xalqının dar günündə onunla birlikdə olmuşdur. Müharibə gedən ərəfədən ta bu günə kimi Ədalət Yaqubov şəhidlərimizi, qazilərimizi unutmur, onların doğum gününü, ölüm gününü yad edir. Şəhidlərimizə rəhmət, qazilərimizə Allahdan şəfa diləyir.

Kitabın xeyriyyəçilik bölümünü işləyərkən Ədalət Yaqubovdan da xahiş etdim ki, mənə tərcümeyi-halını göndərsin. O razılaşmadı. Dedi ki, əsgərlərimizə canımız da qurbandır. Mən onların borcunu heç nəylə qaytara bilmərəm. Və ömrüm boyu da özümü şəhid ailələrinə və qazilərimizə borclu hesab edəcəyəm. Mən də onun istəyinə hörmət olaraq yazmamağı qərara aldım. Kitab çapa gedən ərəfədə düşündüm ki, yox, mən onunla razılaşmamalıyam. Necə ön cəbhədə canından keçən qəhrəmanlarımız haqqında yazmağı özümə müqəddəs borc bilirəmsə, eləcə də arxa cəbhədə şəhidlərə, qazilərə, əsgərlərimizə və ailələrinə mənəvi və maddi dəstək olan böyük ürəkli insanlar haqqında da yazmalıyam. Məqsədim kimin kim olduğunu, dəyərli həmvətənlərimiz, xalqıma, oxucularıma, respublika daxilində və xaricində olan gənclərimizə, insanlara çatdırmaqdır. Ona görə də bacısı Asudə xanımın verdiyi məlumatlara əsaslanaraq bu yazını yazdım.

Biri sənə öz bağından bir salxım üzüm verərsə: səni ömrü boyu özünə borclu bilər. Günəşsə bütün dünyanın bağlarının meyvələrini öz şüasıyla, enerjisiylə isidir, meyvələri yetişdirir, amma heç kimdən bir təşəkkür gözləmir, Ədalət Ənvər oğlu Yaqubov kimi. Var olasınız!

***



**17.ALXAN ABDULLAYEV (08.03.1974)**

1974-cü il martın 8-də Göyçay şəhərinin Qaraxıdır kəndində anadan olmuşdur. 1981-1992-ci illərdə Qaraxıdır tam orta məktəbində orta təhsil almış, məktəbi bitirən il hərbi xidmətə çağırılaraq 3 il 6 ay Ağdam rayonunda Vətənə olan oğulluq borcunu yerinə yetirmişdir. Sənəti sürücülük olan, şəxsi təsərrüfatı ilə özünə münasib güzəran qurmağı bacaran Alxan Abdullayev zəhmətkeş, alicənab və xeyirxah bir insandır. Onu tanıyanların sözlərinə görə, sözübütöv, böyük ürək sahibi, hər zaman yaxşılıq etmək amalı ilə yaşayan Alxan halal zəhməti ilə qazandıqlarını imkansızlarla, xüsusilə şəhid ailələri ilə bölüşməkdən zövq alır.

Ailəlidir. İki övladı var.

**İmam Əli (ə) buyurur: "Yaxşı ki, həyatda yaxşı insanlar var. Allah etdiyiniz yaxşılıqların mükafatını versin".**

***



**18.AZƏR XUDAVERDİYEV (25.09.1974)**

İstər İkinci Qarabağ müharibəsindən əvvəl, istər 44 günlük müharibə günlərində, istərsə də müharibədən sonrakı aylarda şəhid ailələri, qazilərə mənəvi dəstəyi və maddi yardımını əsirgəməyən insanlardan biri də Azər Zülfü oğlu Xudaverdiyevdir. O, 25 sentyabr 1974-cü ildə Göyçay rayonunun Qaraxıdır kəndində anadan olmuş, Qaraxıdır kənd orta məktəbinin məzunudur. 1991-1993-cü illərdə Bakı Plan İqtisad Texnikumunda təhsil almış, hazırda Göyçayın Qaraxıdır kəndində yaşayır və kiçik bizneslə məşğuldur (bitki apteki işlədir.) Ailəlidir. 3 oğul atasıdır.

Azər Xudaverdiyev hər zaman imkansız, ehtiyac içində yaşayan təbəqənin köməyinə çatır, əlindən gələn köməyi əsirgəmir. Xislətən səxavətli və qayğıkeş olan Azər 44 günlük savaşda da ön cəbhədə olan əsgərlərimizin yanında oldu.

Var olasınız!

***



## 19.ÇİNGİZ MAYILOV (15.07.1975)

Çingiz Sabir oğlu Mayılov 1975-ci il iyulun 15-də Göyçay rayonunun Bığır kəndində anadan olmuşdur. O, Bığır kənd tam orta məktəbini, daha sonra Kiyev Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. İlk əmək fəaliyyətinə Bığır kəndində başlayan Çingiz hazırda sahibkarlqla məşğuldur.

Humanist və cəfakeş insan olan Çingiz Mayılov ehtiyacı olanlara imkanı daxilində yardım etməyi həyat qayəsinə çevirmişdir.

1993-1996-cı illərdə Respublikada çörək istehsalının məhdudiyyəti zamanı Çingiz Göyçay şəhərinə 500 tona yaxın unun gətiriməsinə, həm əhalinin, həm də çörək zavodlarının unla təmin olunmasına nail olmuşdur.

Çingiz Mayılov 2000-ci ildən sahibkarlıq fəaliyyəti ilə məşğuldur. O, zəhməti, bacarığıyla həyatın çətinliklərinə sinə gərərək iş qurmuş və halal bir sahibkar kimi ad qazanmışdır.

50 nəfərə yaxın işçinin fəaliyyət göstərdiyi quşçuluq təsərrüfatına rəhbərlik Çingiz Mayılov 2008-ci ildə Göyçayda “Sadiq Çingizoğlu moteli”ni inşa etdirmiş, 2013-2015-ci illərdə isə dövlət yardımı, yəni güzəştli kredit olmadan böyük bir çörək zavodu tikdirərək istifadəyə vermiş, 2017-ildən dövlət səviyyəsində lisenziya və şəhadətnamə ilə Gürcüstan və Rusiyadan aldığı orqanik gübrələrin ətraf rayon və şəhərlərdə satışını təşkil etmişdir.

Çingiz Mayılov 27 sentyabr 2020-ci ildə başlanan 44 günlük Vətən müharibəsinin ilk gündən son günə kimi cəbhədə döyüşən əsgərlərimizdən yardımını və köməyini əsirgəməmiş, dəfələrlə isti geyimlər, siqaret, ərzaq dolu bağlamalarla odun-alovun içərisindən keçərək birbaşa əsgərlərlə özü görüşmüşdür.

Ailəlidir. 5 övladı var. 1993-cü ildə ailə quran Çingizin Sadiq (1994), Gülzadə (1995), Könül (2004), Fərid (2004) və Zərxanım(2009) adlı övladları var. Sadiq və Gülzadə 2013-cü ildə Ukraynanın Kiyev şəhərindəki Taras Şevçenko adına Unversitetin hüquq fakültəsinə qəbul olunmuş, 2018-ci ildə Universiteti bitirmiş və hazırda öz şirkətlərində hüquqşünas kimi fəaliyyət göstərirlər. Könül Mayılzadə hazırda Kiyev Dövlət Texnologiya və Dizayn Universitetinin birinci kurs tələbəsidir.

Var olsun böyük ürəkli, millət təəssübü çəkən oğullarımız!

***



**20. ƏFQAN OSMANOV**
**(19.12.1975)**

Əfqan Ağalar oğlu Osmanov 19 dekabr 1975-ci ildə Göyçay rayonunun Ləkçıplaq kəndində anadan olmuşdur. 1981-ci ildə Ləkçıplaq kənd orta məktəbinin 1-ci sinfinə qəbul olunmuş, 1992-ci ildə həmin məktəbi bitirmişdir. 1994-cü ilin yanvar ayında hərbi xidmətə çağrılmış, Sərhəd qoşunlarında xidmət etmiş, 1997-ci ilin noyabr ayında hərbi xidmətini başa vurmuşdur. İkinci Qarabağ müharibəsi zamanı orduya maddi dəstəyini əsirgəməyən Əfqan Osmanov nəinki 44

günlük müharibə dönəmində, hətta ondan sonra da şəhid ailələrinə, qazilərə, imkansızlara daima yardım etmiş, heç zaman, heç yerdə adının çəkilməyini belə istəməmişdir. Bu yardımlar indi də mütəmadi olaraq davam edir. Onun haqqında məlumatı və şəklini onu yaxından tanıyan və xeyriyyəçi əməllərinin əyani şahidi olan Orxan Abdullayevdən aldıq.

Çevrəmizdə elə insanlar var ki, əziyyətsiz, filansız pul qazanırlar, amma ildə 1 dəfə lazım olan fitrəni belə verməyə nə ürəyi var, nə əli gəlir. Amma Əfqan Osmanov kimi insanlar min əziyyətlə, alın tərilə qazandığını "uf" demədən cəmiyyətin imkansız təbəqələri ilə bölüşməyi bacarır.

Orxan Abdullayev onu da qeyd etdi ki, harada xəstə, imkansız, çarəsiz insan var, Əfqan müəllim oradadır. Bu adam sanki ata ocağı, ümid qapısıdır. Əfqan Osmanov sözü ilə əməli üst-üstə düşən sədaqətli, fədakar və qayğıkeş insan kimi də, dost kimi də özünü təsdiq edib.

Xeyirxaq, xeyriyyəçi insanları xalqımıza, xüsusilə Göyçay əhalisinə tanıtdırmağı özümə borc bilirəm. Əfqan Osmanov bizneslə məşğuldur. Ailəlidir. 3 övladı var.

Var olasınız, Vətənin qeyrətli oğlu!

**Qeyd:** 44 günlük Vətən müharibəsində orduya könüllü yardım edən kəndlərdən biri də Ləkçıplaq kəndi olmuşdur. Savaş günlərində kənd camaatı döyüşən orduya 50 min manatdan artıq pul, xeyli geyim və ərzaq məhsulları göndərmişlər.

***



**21.COŞQUN HƏBULLAHOV (01.07.1977)**

Gözü, könlü tox, millətini, məmləkətini, dövlətini dərin məhəbbətlə sevən Coşqun Həmid oğlu Həbullahov 1 iyul 1977-ci ildə Göyçay şəhərində dünyaya göz açmışdır. 1984-cü ilin sentyabrında Göyçay şəhəri 7 saylı məktəbin 1-ci sinifinə qəbul olunmiş və 1994-cü ildə həmin məktəbin məzunu olmuşdur. 1995-ci ildən 3 il 2 ay Azərbaycan Silahlı Qüvvələrinin əsgəri kimi Göytəpə, Beyləqan və Ağcabədidə Vətənə oğulluq borcunu şərəf və ləyaqətlə yerinə yetirmişdir.

Coşqun Həbullahov 44 günlük İkinci Qarabağ müharibəsində ön cəbhədə olmasa da, arxa cəbhədə səmərəli fəaliyyət göstərmiş, orduya edilən yardım və ianələrin toplanmasında, hərbi hissələrə çatdırılmasında əlindən gələni əsirgəməmişdir. O, təkcə müharibə iştirakşılarına deyil, maddi imkanı zəif olan ailələrə də heç bir qarşılıq gözləmədən, minnət qoymadan Allah rizası üçün yardım etməyi özünün vətəndaşlıq vəzifəsi hesab edir. Xeyriyyəçilik fəaliyyəti ilə məşğul olmasının kimsənin bilməsini istəmir, özünü rekalam etməyi isə məsələk və məramına, əqidəsinə zidd hesab edir. Düşünür ki, hər şey ulu Yaradana bəlli olduğundan, bəndənin belə şeyləri bilməsinə ehtiyac yoxdur. Coşqun hazırda Bakıda yaşayır və İTALİANO PARATİ şirkətinin rəhbəridir. Ailəlidir, 3 övlad atasıdır.

Qızı Zərnişan Həbullahova Xəzər Universitenin filologiya (Azərbaycan dili və ədəbiyyatı müəllimliyi) fakültəsində təhsil almış, oğlu Həmid Bakı Slavyan Universitetində regionşünaslıq (Rusiya üzrə) ixtisası üzrə təhsil alır. Kiçik oğlu Emil məktəblidir.

Allah işlərini avand eləsin!

***



## 22. ARIF NƏSİROV (11.09.1977)

Arif Aydın oğlu Nəsirov 1977-ci il sentyabrın 11-də Göyçay rayonunun Qaraxıdır kəndində anadan olmuşdur. Səhhətiylə əlaqədar olaraq hərbi xidmətdə çağırılmamışdır. 2020-ci ilin 27 sentyabrında başlanan 2-ci Qarabağ müharibəsi zamanı Arif Nəsirov da əlindən gələn köməyi əsgərlərimizdən əsirgəməmişdir. Füzuli, Goranboy, Ağdərə, Tapqaraqoyunlu istiqamətində gedən döyüşlər zamanı igid əsgərlərimizə gedən ərzaqlar, isti geyimlər, siqaret və s. bu kimi yardımların toplanmasında və çatdırılmasında fəal iştirak etmişdir.

Arif Nəsirov müharibə bitən gündən sonra da mənəvi yardımını şəhid valideynlərindən əsirgəmir. Demək olar ki, hər gün, xüsusilə özəl günlərdə kəndin şəhidlərini yad edir, şəkillərini, videolarını paylaşır, səhifəsində “Şəhidlərim, siz heç vaxt unudulmayacaqsınız” yazır.

Fərdi ticarətlə məşğuldur. Ailəlidir. Bir övladı var.

Əl tutmaq Əlidən qalıb. Allah heç zaman verən əlinizdən kəsməsin.

***



**23.DƏYANƏT SƏLİMOV
(03.11.1979)**

1979-cu il noyabr ayının 3-də Göyçay rayonunun Qaraxıdır kəndində anadan olmuş, 1987-1997-ci illərdə Qaraxıdır məktəbində tam orta təhsil almışdır. 1998-ci il yanvar ayının 3-də Naxçıvan şəhərinin " N" saylı hərbi hissəsində hərbi xidmətə başlamış, hərbi xidməti başa vurduqdan sonra rayona qayıtmış, hazırda Qaraxıdır kəndində fərdi təsərrüfatla məşğul olur. İmkanları daxilində şəhid ailələrinə, qazilərə və maddi köməyə ehtiyacı olanlara yardımını əsirgəmir.

Dəyanət Səilmov 44 günlük savaşda da əlindən gələn maddi yardımını ordumuzdan əsirgəməmişdir.

Ailəlidir. Üç övladı var.

***



## 24.TEYMUR ZÜLFÜQAROV (05.02.1981)

1981-ci il fevralın 5-də Qaraxıdır kəndində anadan olmuş, 1987-1998-ci illərdə Qaraxıdır kənd tam orta məktəbində təhsil almışdır. Teymurun qardaşı Zülfüqarov Habil Hacı oğlu Birinci Qarabağ savaşının qazisidir. 44 günlük İkinci Qarabağ müharibəsində Teymurun qohumlarından 6 nəfər hərbi əməliyyatlarda iştirak etmiş, onlardan biri, yəni Abdullayev Səməd Sədiyar oğlu şəhidlik məqamına yüksəlmişdir. Teymur Hacı oğlu 44 günlük müharibə dönəmində bir neçə dəfə öz şəxsi maşını ilə ön cəbhədə olan əsgərlərə yardım aparmış, Tərtər, Ballıqaya və Füzuli bölgəsində vuruşan əsgərlərimizin yanında olmuş, onlardan maddi və mənəvi köməyini əsirgəməmişdir. Onun iki az yaşlı oğlu müharibənin gedişi zamanı əsgərlərə məktub ünvanlayaraq onları qələbəyə ruhlandırmışlar.

Ailədir. İki məktəbli oğlu və bir körpə qızı var.

İmam Rza (ə) buyurur: "Yaxşılıq edən adama təşəkkür etməyən böyük Allaha da şükür etməz".

***

Aşağıda Teymur Zülfüqarovun məktəbli oğlanları Manaf və Tuncayın Azərbaycan əsgərinə yazdıqları məktubun surətini veririk:





Qarabağ Azərbaycandır!

Əsgərə məktub:

Salam əziz əsgər qardaşlarım. Necəsiz? Sizlər haqqında hər gün televizor vasitəsi ilə məlumatlar alırıq. Sizlərin necə igidliklə, qəhrəmanlıqla düşmənlərə qalib gəldiyinizi görür və eşidirik. Biz balaca əsgərlərdə bundan çox qürurlanır sizlər kimi vətənin keşiyində durmağa istəyirik. Sizlərə Allahdan can sağlığı və qollarınıza qüvvət diləyirik. İnşallah torpaqlarımızı mənfur düşmənlərdən tam alaraq azad edib, ailənizin yanına sağ salamat qayıdasız. Bütün dualarımız sizlərlədir. Allah sizi qorusun. Amin.

Bu məktubu sizlərə yazan Göyçay rayon Qaraxıdır kənd tam orta məktəbin 4-cü 5-ci sinif şagirdləri Zülfüqarov Manaf və Tuncay qardaşlarıdır. 28.10.2020.



**25.ELDƏNİZ MUSTAFAYEV
(1981)**

Eldəniz Abdulla oğlu Mustafayev 1981-ci ildə Göyçay şəhərinin Ləkçıplaq kəndində ziyalı ailəsində anadan olmuşdur. Atası Abdulla Mustafayev uzun illər ticarətlə məşğul olan bir insan, anası Kamilə xanım isə Atatürk adına 2 N-li məktəbdə sinif müəllimədir. Eldəniz 1987-1998-ci il illərdə Ləkçıplaq kənd M.K.Atatürk adına 2 saylı tam orta məktəbində orta təhsil almış, məktəbin nümunəvi, çalışqan şagirdlərindən biri olmuşdur.

Orta məktəbi bitirib hərbi xidmətə yollanan Eldəniz Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsində xidmət etməyə başlayır. Eldəniz hərbi xidmətdə olarkən atası xəstə oğlu Fuada məşğuliyyət kimi evlərinin yanında bir dükan açır ki, Fuad qismən də olsa xəstəliyini unutsun . Eldəniz hərbi xidmət də olan zaman qardaşı Fuad 20 yaşında dünyasını dəyişir. Bundan çox kədərlənən Eldəniz qərara gəlir ki, qardaşının əl izləri, ayaq izləri, nəfəsi duyulan bu dükanı işlətsin və qardaşının ruhunu şad eləsin. Elə o zamandan bu kiçik dükanda ticarətə başlayan Eldəniz Mustafayev qarşısına məqsəd qoyur ki, ticarətini genişləndirsin və əldə olunan gəlirlə imkansızlara, xəstələrə yardım etsin. Atalar deyirlər ki, niyyətin hara, mənzilin də ora. Allahına sığınan, halallığı özünə həyat amalı seçən Eldənizin işləri günü-gündən tərəqqi edir və o, qarşısına qoyduğu məqsədinə uyğun olaraq xeyriyyəçilik fəaliyyəti ilə məşğul olmağa başlayır. Çox keçmir ki, Eldəniz təkcə yaşadığı Ləkçıplaq kəndində, Göyçay

rayonunda deyil, Respublika miqyasında bacarıqlı, qayğıkeş, çalışqan, dürüst iş adamı, sahibkar və xeyriyyəçi kimi hörmət, nüfuz qazanır.

Etdiyi bütün yaxşlıq və xeyirxahlığı Allah rizası üçün edən Eldəniz haqqında məlumatları onu yaxından tanıyan və gördüyü işlərin şahidi olan kənd sakini Süleyman Əhmədovdan və 2-ci Qarabağ müharibəsinin şəhidi Zamiq Əhmədovun həyat yoldaşı Çinarə müəllimədən almışıq. Onların verdikləri məlumatlara görə, 27 sentyabr 2020-ci ildə başlanan 44 günlük Vətən müharibəsinin ilk günündən son gününə kimi Eldəniz maddi və mənəvi yardımı ilə ordunun yanında olub və müharibə qurtarandan sonra da öz dəstəyini şəhid ailələri, qazilər və imkansızlardan əsirgəməyib.

Eldəniz Mustafayevin xeyriyyəçilik fəaliyyətinin ən bariz nümunəlrindən biri onun öz xərci ilə Ləkçıplaq kəndinin mərkəzində, Göyçay-Cəyirli-Bəydövül yolunun kənarında "İgidlər Parkı" salmasıdır. Azərbaycan və Türkiyə bayraqları ilə bəzədilmiş yüz metr uzunluğu olan parkda Ləkiçıplaqdan olan 1-ci və 2-ci Qarabağ müharibələrinin 17 şəhidinin şəkillərindən ibarət guşələr yaradılmış, oturacaqlar və gecə işıqlandırma sistemi quraşdırılmış, ağac və gül kolları əkilmişdir.

Azadlıq və milli şərəf uğrunda can və mal qurban vermək böyük şücaətdir. Şücaət isə zəfərin açarıdır. Eldəniz Mustafayev iş adamıdır. Ailəlidir, iki övladı var.

Elin qeyrətli oğlu, hər zaman səsiniz yüksəklərdən gəlsin!

***



**26.GÜNEL KƏRİMOVA (1982)**

Kərimova Günel Böyükağa qızı 1982-ci ildə Göyçay şəhərində anadan olmuşdur. 1987-ci ildə Akademik Ziya Bünyadov adına tam orta məktəbə daxil olmuş, 1999-cu ildə həmin məktəbi bitirmişdir. 1999-cu ildə Bakı Slavyan Universitetinin Beynəlxaq əlaqələr və Regionşünaslıq fakultəsinə daxil olmuş, 2003-ci ildə universiteti bitirmiş, Göyçay şəhərinə geri dönərək Ziya Bünyadov adına məktəbdə müəllim kimi fəaliyyətə başlamışdır.

2016-cı ildə aprel döyüşlərindən sonra Kapitan Mirdaməd Bağıyev adına "Fidanlar" Uşaq İnkişaf Mərkəzini yaratmışdır. Mərkəzdə şəhid övladlarına təmənnasız təhsil bu günə kimi davam edir. 2-ci Qarabağ müharibəsi başlanan gündən dövlətimizə, xalqımıza xidmət etmiş Günel xanım ehtiyatda olan tibb bacısıdır. O, müharibə günlərində Ağdam, Tərtər, Füzuli istiqamətlərinə dava-dərman ləvazımatları, geyim və qida məhsullarının çatdırılmasında xüsusi fəallıq göstərmişdir.

Göyçay Rayon Mərkəzi xəstəxanasında yaralı əsgərlərə və Sarıcalı hospitalındakı əsgərlərimizə lazımı yardımları göstərmiş Günel xanım deyir ki, bu mənim vicdan borcumdur. Əsgərim mənim

qururumdur, mənim fəxrimdir. Hazırda şəhid ailələrinin yanındayam. Onlara hər zaman diqqət və qayğı hər bir vətandaşın borcudur...

Var olun., vətən qızı!

***



**27.MƏHƏMMƏD QULİYEV (29.01.1983)**

Məhəmməd Əli oğlu Quliyev 1983-cü ildə yanvarın 29-da Göyçay şəhərində anadan olub. Orta təhsillidir. 2001-ci ildə hərbi xidmətini Lənkəran şəhərində keçirib. 2003-cü ildə hərbi xidmətini bitirib doğulduğu Göyçay şəhərinə qayıdan Məhəmməd zəhmətkeş, fədakar, xeyirxah bir oğul, bir qardaşdır. 2020-ci il sentyabrın 27-si başlanan və 44 gün davam edən 2-ci Qarabağ savaşı zamanı Məhəmməd özünə aid olan şəxsi maşınıyla mütamadi olaraq ön cəbhəyə, döyüş bölgələrinə, Bərdə, Ağdam, Tərtər, Füzuli, Goranboy rayonlarında yerləşən hərbi hissələrə yardımlar aparıb. Məhəmməd özü də dəfələrlə təhlükələrlə üzləşib, güllə yağışına tutulub, həyatını, taleyini saniyələr, anlar həll edib. Məhəmməd hər dəfə maşın dolu ərzaq apararkən özünün də

bu yolda şəhid olacağını düşünüb və bu yola böyük ürəklə, istəklə, könüllü olaraq çıxıb. Amalı da bu olub ki, ölərəmsə, qardaşlarımla bir yerdə şəhid olaram, qalaramsa, deməli, şəhid olmaq alınıma yazılmayıb. Məhəmmədi yaxından tanıyanlardan Bayram Hüseyn oğlu Məlikov onun fədakar, qorxmaz, mərd, səxavətli, böyük ürəyə, sağlam düşüncəyə malik olduğunu vurğulayır. Biz də vətən övladı olaraq ön cəbhənin qəhrəmanlarıyla qürur duyduğumuz kimi, arxa cəbhənin igid oğullarıyla da qürur duyuruq.

Var olasınız!

***



**28.ORXAN MAHMUDOV (18.11.1983)**

Qrxan Mahmud oğlu Mahmudov 18 noyabr 1983-cü ildə Göyçay şəhərində ziyalı ailəsində anadan olmuşdur. 2001-ci ilin aprel ayında hərbi xidmətə çağırılmış, 18 aylıq hərbi xidmətini Bakı şəhərində keçirmişdir.

2006-cı ildə Bakı Kooperasiya Universitetinin maliyyə-kredit fakültəsini bitirmişdir.

2003-cü ilin oktyabrından 2004-cü ilin iyul ayına kimi Göyçay Rayon İctimai İaşə Birliyində iqtisadçı mühəndis, 2004-cü ilin iyulundan 2007-ci ilin oktyabr ayına qədər Azərbycan Beynəlxalq Bankının Göyçay filialında xəzinədar, 2007-ci ilin oktyabrından 2009-cu ilin sentyabrına kimi Azərbaycan

Beynəlxalq Bankının Ucar filialında şöbə müdiri olmuşdur. 2011-2017-ci illərdə Göyçay İİMB-də istehsalt müdiri, baş mühasibin müavini və direktor vəzifələrində çalışmışdır. 2017-ci ilin mart ayından 2019-cu ilin noyabr ayına qədər Göyçay rayon Çinar Otel ASC-də direktor vəzifəsində çalışmışdır.

Orxan Mahmudov 27 sentyabr 2020-ci ildə başlanan 44 günlük Vətən müharibəsində arxa cəbhədə fəallığı ilə çeçilən xeyriyyəçilərdən olmuşdur. Müharibə günlərində Ağdam, Lələtəpə, Ağcabədi, Tovuz, Tərtər, Daşkəsən, Beyləqan, Bərdə bolgələrinə həftədə üç dəfə olmaqla edilən yardımın təçkiatçılarından olan Orxanın təşəbbüsü ilə səngərlərə düzmək üçün 4 min ədəd işlənmiş təkər, 100 ədəd telefon adaptrı, həmin rayonlarda məktəblərdə məsnunlaşmağa məcbur olan vətəndaşlara isti paltar, yataq ləvazimatları və dava-dərman göndərilmişdir.

"Ot kökü üstə bitər!"- deyib ulularımız. Orxan Mahmudov həm ata, həm ana tərəfdən elə bir köklü-köməcli nəslin davamçısı, elə bir bir ocağın nümayəndəsidir ki, bu nəsil, yəni Mahmudovlar və Musayevlər təkcə Göyçayda yox, bütün Şirvan bölgəsində vətənpərvər, mərd, qonaqsevər, arxasıza arxa olmaq və s. bu kimi yüksək insani keyfiyyətləri ilə seçilmiş, bir çox nümayəndələri el ağsaqqalı kimi mahalda söz sahibidirlər.

Ailədir. İki övladı var.
Allah sizi var eləsin!

***



## 29. MAYIL KƏRİMZDƏ (1983)

Mayıl Malik oğlu Kərimzadə 1983-cü ildə Bakı şəhərində anadan olub. Hal-hazırda Göyçay rayonun Qaraxıdır kəndində yaşayır. Orta təhsillidir. 2001-ci ildə həqiqi hərbi xidmətə yollanıb və hərbi xidmətini Bakı şəhərində keçirib. 2-ci Qarabağ müharibəsi başlanan gündən Mayıl Kərimzadədə öz köməyini ön cəbhədə savaşan əsgərlərimizdən əsirgəməyib. Tərtər, Füzuli, Ballıqaya və digər yerlərdə döyüşən əsgərlərimizə yardımlar çatdırıb. Hazırda yaşadığı Qaraxıdır kəndində kənd təsərrüfatıyla məşğuldur. Ailəlidir. İki oğul övladı var.

***“Yaxşılıq yeganə libasdır ki, heç zaman köhnəlmir”.***

***Atalar sözü***

***



## 30. ƏVƏZ ABDULLAYEV (10.09.1983)

Əvəz Azad oğlu Abdullayev 10 sentyabr 1983-cü ildə Göyçay rayonunun Ləkçıplaq kəndində anadan olmuşdur.1989-cu ildə Ləkçıplaq kənd orta məktəbinə qəbul edilmiş, 2000-ci ildə həmin məktəbi bitirmişdir. 2001-ci ildə həqiqi hərbi xidmətə çağırılan Əvəz xidmətini Lənkəran şəhərində keçirmişdir. 2003-cü ildə hərbi xidmətini başa vurub yaşadığı kəndə qayıdan Əvəz bizneslə məşğuldur. O, 44 günlük müharibə günlərində Ağdam, Tərtər bölgələrində olmuş, ön xətdə olan əsgərlərimizdən dəstəyini əsirgəməmişdir.

Allah yardım edən hər kəsdən razı olsun. Bu dünyada ən yaxşı şey yaxşılıqdır. Yaxşılıq edən yaxşılıq görər. Belə bir atalar sözü var: "Açıq əllərin duası tez qəbul olar. Allah dualarımızı qəbul etsin".

Əvəz ailəlidir. Bir oğlu var.

***



## 31. ORXAN ABDULLAYEV (06.02.1989)

Orxan Şirzad oğlu Abdullayev 6 fevral 1989-cu ildə Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. Əslən Göyçaylıdır. 1996-cı ildə Bakı şəhəri, Binəqədi rayonundakı 9-cu mikrorayonda yerləşən Famil İsgəndərov adına tam orta məktəbin 1-ci sinifinə (rus bölməsi) qəbul edilmiş, 2007-ci ildə məktəbi bitirmişdir. 2008-2009-cu illərdə Naxçıvan şəhərində həqiqi hərbi xidmətdə olmuşdur. Ali təhsilini Rusiyada almış, menecer, iş adamı ixtisasına yiyələnmişdir. Xislətən xeyriyyəçidir, xeyirxahlıq onun qanındadır. Heç vaxt ehtiyac içərisində olanlara yardımını əsirgəmir. Bildiyimə görə, özünün imkanı olmasa belə, ərk etdiyi doğmalarından, yaxınlarından borc alaraq insanlara əl tutur, onların müşküllərini aradan qaldırmağa çalışır. 44 günlük müharibə zamanı və müharibə bitdikdən sonra da bir neçə şəhid və qazi ailələrinə maddi və mənəvi dəstək olaraq onların yanındadır. Ən müsbət xüsusiyyəti etdiyi yardımı hər kəsdən gizlin saxlamaq bacarığıdır.

Bizneslə məşğuldur. Ailəlidir. Bir övladı var.

Allah qorusun!

***



## 32.ELÇİN ƏHMƏDOV (05.05.1989)

Elçin Aydın oğlu Əhmədov 5 may 1989-cu ildə Göyçay rayonunun Ləkiçıplaq kəndində anadan olmuşdur.1996-2006-cı illərdə Ləkiçıplaq kənd 1 N-li orta məktəbində orta təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Göyçay Dövlər İdarəetmə və Texnologiya Kollecinin yol polisində inzibati hüquq fakültsinin qiyabi çöbəsinə daxil olmuşdur. 2007-ci ilin iyul ayının 7-də həqiqi hərbi xudmətə çağırılmış, Gəncə şəhərindəki N saylı hərbi hissədə xidmət etmişdir. 2009-cu ilin yanvarında hərbi xidmətini başa vuraraq rayona qayıtmış, təhsilin davam etdirərək 2011-ci ildə məzun olmuşdur. Həmin ildə Göyçay Polis Şöbəsinin Post Patrul Xidmətində işə qəbul olunmuşdur. Hazırda ticarətə məşğul olur.

Elçin Əhmədov 44 günlük Vətən müharibəsi günlərində ön cəbhədə döyüşən əsgərlərimizə maddi və mənəvi dəstək olmağı özünə vətəndaşlıq vəzifəsi hesab etmiş, müxtəlif bölgələrdə olaraq orduya əlindən gələn köməyi əsirgəməmişdir.

Elçin ailəlidir, iki övladı var.

Var olasınız!

***



**33.MƏHƏMMƏD İBRAHİMOV (27.12.1990)**

Məhəmməd Xalid oğlu İbrahimov 1990-cı il dekabrın 27-də Göyçay şəhərində ziyalı ailəsində anadan olub. 1997-ci ildə Göyçay şəhəri M.Füzuli adına 6 N-li orta məktəbin 1-ci sinfinə qəbul olunaraq 2008-ci ildə həmin məktəbin məzunu olub. 2009-cu il yanvarın 4-də həqiqi xidmətə yollanmış, Bakı şəhərindəki daxili qoşunların N saylı hərbi hissəsində xidmət etmişdir. 2010-nun iyulunda hərbi xidmətdən tərxis olunan Məhəmməd İbrahimov 2020-ci il 44 günlük müharibə dönəmində öz vətəndaşlıq borcunu vətəninin azad olunması uğrunda savaşan Azərbaycan əsgərlərinə dəstək olmaqla yerinə yetirmiş, qismən də olsa sakitlik tapmışdır.

Məhəmməd İbrahimov könüllü olaraq bu savaşa qoşulmaq istəsə də, ön cəbhəyə getmək onu nəsib olmayıb. Əqidəsində isə hər zaman düşmənlə üz-üzə durmaq və onlardan ana-bacılarımızın qisasını almaq olub.

Məhəmməd İbrahimov fanatikdir. Fanatik isə o şəxsdir ki, din-məzhəb və millətinə o dərəcədə bağlı olur və ya öz məmlə-

kətinin təəssübnü o dərəcədə çəkir ki, din və məzhəbinə zidd olanlara və ya öz millətinə xor baxanlara qarşı ədavət bəsləyir, millətini və dinini sevməyənlərə nifrət edir, dininin və millətinin düşmənlərinin canına qəsd etməkdən çəkinmir, onlara rəhm etməyi əsla rəva görmür.

Məhəmməd Xalid oğlu İbrahimov Tərtər, Ağdam, Goranboy istiqamətlərində gedən döyüşlərdə əlində silah olaraq iştirak etməsə də, əslində onu həmin döyüşlərin iştirakçısı hesab etmək olar. Həmin dövrdə o, daima maddi və mənəvi dətəyi ilə əsgərlərimizin yanında olub.

Bir neçə xəstəlik kimi xeyirxahlıq və qayğıkeşlik də gendən gələn bir elementdir. Məhəmməd İbrahimovda da bu xislət ata-babadan, böyüdüyü ailədən, mühitdən qaynaqlanıb. Düşünürəm ki, ən böyük yaxşılıq təmənnasız və minnətsiz olaraq dara düşənin yanında olmaqdır.

Məhəmməd İbrahimov özəl sektorların birində operator işləyir. Subaydır.

Allah işini avan etsin!

***



**34.TƏRLAN İBRAHİMLİ (13.01.1994)**

Tərlan Tofiq oğlu İbrahimli 1994-cü il yanvarın 13-də Göyçay şəhərində ziyalı ailəsində anadan olmuşdur. 2000-ci ildə 6 N-li orta məktəbin 1-ci sinfinə qəbul edilmiş, 2011-ci ildə həmin məktəbi bitirmişdir. 2012-ci il ilin yanvarında həqiqi hərbi xidmətdə çağırılmış, xidmətini Ağstafa keçirmiş, 2013-cü ilin iyulunda ordudan tərxis olunaraq rayona qayıtmışdır.

Tərlan İbrahimli gənc olsa da, xeyriyyəçilik fəaliyyəti və xeyirxah, alicənab insan olması ilə el-obada nüfuz sahibidir. Darda olanlara minnətsiz yardım etmək, arxasıza arxa durmaq xisləti ona rəhmətlik atası Tofiq İbrahimovdan və babası Məhəmməd İbrahimovdan keçib. “Ot kökü üstündə bitər”,- deyib atalar. Gözünü dünyaya açan Tərlan böyüdükcə, ağlı kəsdikdə atasının necə xeyirxah, kasıblara əl tutan, evi-ocağının qonaqlı-qaralı olduğunu görüb və gördükləri özəlliklə onun canına-qanına keçib.

Tərlan İbrahimli vətənimizin dar günündə, 44 günlük müharibə zamanı həm mənəvi həm maddi yardımnı əsgərlərimizdən əsirgəməyib. Müharibənin getdiyi günlərdə 3 dəfə Tərtər bölgəsindəki

döyüşçülərə yardım aparan Tərlan müharibə bitdikdən sonra da xeyirxah fəaliyyətini göstərməkdə davam etdir, şəhid ailələrinə, qazilərə əlindən gələn köməkliyi edir. Köməyin azı, çoxu olmur. Əsas məsələ insanda olan mənəviyyat zənginliyi, cəmiyyətə yararlı olmaq bacarığıdır. Ürəyi xalqıyla, xalqının, millətinin kasıb təbəqəsiylə döyünən, hər zaman əl tutmağa çalışan, səxavətli, sağlam əqidəli insanları, oğulları, gəncləri Allah qorusun.

Yaxşı ki, dünya yaxşılardan xali deyil. Tərlan da belələrindəndir.

Tərlan subaydır. Zərgər işləyir.

***

## MÜNDƏRİCAT

Müəllif haqqında məlumat 3
**İslam Qəribli .** "Göyçayın Qarabağ sevdalıları"
kitabına müqəddimə əvəzi bir neçə söz 4
**Müəllifdən** 11
Göyçay rayonu (qısa məlumat) 14
Birinci Qarabağ müharibəsi 22
**Birinci Qarabağ müharibəsində şəhid olmuş**
**Göyçay igidlərinin siyahısı** **25**
**Birinci Qarabağ müharibəsi şəhidləri:**
1.Zülfüqar Zülfüqarov 36
2.İsmayıl İsmayılov 39
3.Səbuhi Abdullayev 42
4. Raqub İsgəndərov 46
5.Araz Hacıyev 48
6.Mais Qədirov 50
7. Səxavət Dadaşov 52
8.Elnur Məmmədov 55
**Birinci Qarabağ müharibəsi qaziləri:**
1.Eldəniz Kərimov 58
2.Məhəbbət Rüstəmov 51
3.Aydın Yaqubov 64
4.Məharət İsmayılov 67
5.Lətif Haçıyev 79
6.Mahir Məmmədov 80

7.Vidadi Hüseynov 81
8.Bəhərçin Mustafayev 85
9.İldırım Hacıyev 87
10.Süleyman Əhmədov 89
11.İnqilab Həbullahov 92
12.İbrahim Abdullayev 93
13.Etibar Abdullayev 95
14.Əfqan Abdullayev 96
15.Şahin Abbasov 98
16.Ziyafəddin Mehdiyev 101
17.Zaman Mehdiyev 102
18.Namiq Əzizov 103
19.Novruz Hacıyev 105
20.Şirvan İbrahimov 106
21.Xalid Həsənov 108
22.Vaqif Məmmədov 109
23.Mətləb Səlimov 111
24.Sədiyar Xudaverdiyev 113
25.Sədiyar Abdullayev 114
26. Qurban Hacıyev 115
27.Pənah Mehdiyev 116
28.Zaur Abdullayev 117
29.Ətraf Həbullahaov 119
30.Eldəniz Cavadov 120
31.Cümşüd Quliyev 121
32.Qalib Mehdiyev 122
**İkinci Qarabağ müharibəsi 123**
**Qarabağ müharibəsində şəhid olmuş Göyçay igidlərinin siyahısı 124**
**İkinci Qarabağ müharibəsi şəhidləri**
1.Babək Səmidli 129
2.Vidadi Xəlilov 135
3. Elvin Mikayılov 141

4. Fərid Mövsumov 144
5.Zamiq Əhmədov 146
6. Əhməd Kərimov 158
7. Xəyal Məmmədov 161
8. Toğrul Hacıyev 164
9. Qismət Qasımov 168
10. Ülvi Ağayev 171
11.İmran Əliyev 174
12. Mütalib Xudiyev 177
13.Şəmistan Əzizov 182
14. Pərvin Məmmədov 190
15. Vasif Məmmədov 194
16.Paşa Salmanov 197
17.Elvin Məmmədov 201
18.Təbriz Xancanov 207
19. Elşən Nurizadə 210
20. Xəyyam Hüseynov 212
21. Kənan Qafarov 218
22.Abdulcəmil Bilalov 222
23. Azad Kərimli 230
24.Rəhim Həmidov 232
25. Qüdrət Əzizov 238
26. İntiqam Şirəliyev 242
27.Rüstəm Məmmədov 245
28. Kənan Ömərli 248
29. Maarif Həsənov 251
30. Fərid Nadirov 254
31. İlham Hüseynov 258
32. Rüfət Mayılov 361
33. Elnur Əliyev 264
34. Bayram Orucov 271
35. Xəyal Həsənov 275
36. Əli Eyvazov 278

37. Eldar Şirinov 283
38. Aslan Əliyev 286
39. Orxan Kərimli 289
40. İntizam Qaçayev 297
41. Həsən Bayramov 300
42. Azər Əliyev 303
43. Ayaz Əhmədov 305
44. Səməd Abdullayev 310
45. Sənan Məmmədov 315
46. Ədalət Dəmirov 315
**İkinci Qarabağ müharibəsi qaziləri**
1.Fuad Beydullayev 324
2.Dilqəm Abdullayev 325
3.Ceyhun Qasımov 326
4.Orxan Məmmədov 328
5.Şükran Bədirov 329
6.Bəhruz Babayev 331
7.Şəmistan Abdullayev 332
8. Cavidan Yaqubov 333
9.Əli Abbasov 335
10.Fərid Salmanov 336
11.Nurlan Həbullahov 338
12.Rüfət Vəliyev 341
13.Rahim Hacıyev 342
14.Seyran Beydullayev 343
15.Yolçu Səlimov 346
16.Sabir Vəliyev 348
17.Fuad İbrahimov 349
18.Mikayıl Mikayılov 353
19.Güloğlan Əhmədov 354
20.Səxavət Məmmədov 356
21.Nurlan Yaqubov 357
22.Sərxan Həsənov 358

23. Mirsaab Babayev 359
24.Elsun Hacıyev 361
**Hərbi komissarlığın əməkdaşı Arzu Məmmədova 362**
**Xalqla ordunun vəhdəti: Xeyriyyəçilər 366**
1.Arif İsmayılov 368
2.Ehtiram Həmidov 371
3.İlyas Əzizov 372
4.Bağır Şirinov 374
5.Səidyar Abdullayev 376
6.Fərhad Əhmədov 377
7.Niyaz İbrahimov 381
8.Kəmalə Məmmədova 382
9.Şahin Yaqubov 384
10.Cavanşir Şərifov 386
11.Elxan Yaqubov 388
12.Rəşid Xəlilov 393
13.Nöfəl Əhmədov 394
14.Gündüz Güliyev 395
15.Sədiyar Xudaverdiyev 396
16.Ədalət Yaqubov 397
17.Alxan Abdullayev 399
18.Azər Xudaverdiyev 400
19. Çingiz Mayılov 401
20.Əfqan Osmanov 402
21.Coşqun Həbullahov 404
22.Arif Nəsirov 405
23.Dəyanət Səlimov 406
24.Teymur Zülfüqarov 407
25.Eldəniz Mustafayev 410
26.Günel Kərimova 412
27.Məhəmməd Quliyev 413
28.Orxan Mahmudov 414
29.Mayıl Kəiimzadə 416

30.Əvəz Abdullayev 417
31.Orxan Abdullayev 418
32. Elçin Əhmədov 419
33.Məhəmməd İbrahimov 420
34.Tərlan İbrahimli 422

Texniki redaktor
*Mail Xəlilov*

**TƏRANƏ MƏHƏMMƏDQIZI**

# GÖYÇAYIN QARABAĞ SEVDALILARI

**(Birinci və İkinci Qarabağ müharibəsinin
şəhid və qaziləri haqqında)**

Format: 60x84 16/1
26,25 ş.ç.v
Tiraj: 500

*«AVROPA» nəşriyyatı*
***Kitab hazır diapozitivlərdən çap olunub***